**RAMİZ MEHDİYEV**

# Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə

***yanvar 2002 – dekabr 2006***

# 2

**Bakı – 2006**

**Ramiz Ənvər oğlu Mehdiyev**

1938-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Xəzərneftdonanma" İdarəsinin gəmilərində maşinist işləmişdir. 1961-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1965-ci ildə, V kurs tələbəsi olarkən Azərbaycan LKGİ MK-nın tələbə şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkilmiş, 1967-68-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir. 1968-ci ildə M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. 1972-ci ilin mayında Moskva Dövlət Universiteti Elmi Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1972-ci ildən Azərbaycan Dövlət Universitetinin elmi kommunizm kafedrasında müəllim, sonra baş müəllim işləmişdir. 1974-cü ilin mayında Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin mühazirəçisi vəzifəsinə irəli çəkilmişdir. 1976-cı ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. 1978-ci ilin oktyabrında Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir. 1980-ci ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Təşkilat-partiya işi şöbəsinin müdiri vəzifəsinə təsdiq olunmuşdur. 1983-cü ildə Azərbaycan KP MK-nın katibi seçilmişdir. 1988-ci ilin mayında MK plenumunda Ə.Vəzirovun təkidi ilə Azərbaycan KP MK-nın katibi vəzifəsindən azad edilmişdir. 1988-ci ilin iyununda Azərbaycan Elmlər Akademiyasının İctimai-siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri təyin olunmuşdur. 1993-cü ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Prezident Aparatının şöbə müdiri, 1995-ci ilin fevralında isə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri təyin olunmuşdur.

1980-1990-cı illərdə iki çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 1995-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. 2001-ci ilin aprelində Nyu-York Elmlər Akademiyasının üzvü seçilmişdir.

Evlidir, iki övladı – oğlu və qızı, habelə dörd nəvəsi var. Həyat yoldaşı Bakı Dövlət Universitetinin dosenti, kafedra müdiridir.

*Redaktorlar*
Aslan Aslanov
Vaqif Musayev

*Texniki redaktorlar*
Dağbəyi İsmayılov
Elman Cəfərli

*Kompyuter səhifələyiciləri*
Cəvani Ağayev
Samir Qurbanov

*Korrektor*
Bətul Eyvazlı

Yığılmağa verilmişdir: 24.10.2006.
Çapa imzalanmışdır: 01.12.2006.
Formatı 60x90 $^{1}/_{16.}$
Fiziki çap vərəqi 39.
Ofset çapı.
Tirajı 500.
Sifariş 234.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç.,17.

**Ramiz Mehdiyev, fəlsəfə elmləri doktoru, professor**
Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II cild
(*məqalələr, çıxışlar, müsahibələr*)
Bakı, “XXI – Yeni Nəşrlər Evi”, 2006.

İSBN
İSBN

Tariximizin müstəqillik dövrünə dair bir cox tədqiqatların müəllifi, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin ikicildlik “Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə” kitabında 1971-2006-cı illərdə dövri mətbuatda, bəzi elmi-nəzəri jurnallarda dərc olunmuş məqalələri, habelə müxtəlif tədbirlərdəki çıxışları, mətbuat nümayəndələrinə müsahibələri və digər materiallar toplanmışdır.

Cildlərdəki materialların tam əksəriyyəti ölkəmizin müstəqillik dövrünə aiddir. Həmin materiallarda xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 34 illik tarixinin elmi-nəzəri ümumiləşdirmələrlə təhlili xüsusi yer tutur. Müəllif birmənalı olaraq vurğulayır ki, Azərbaycanın XX əsrdəki intibahı, SSRİ-nin süqutundan sonra isə həqiqətən müstəqil dövlət kimi dünya birliyində öz layiqli yerini tutması, sosial-iqtisadi inkişaf yoluna çıxması, ölkənin uzunmüddətli tərəqqisinin əsasını qoyan neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi, hüquqi, dünyəvi dövlət, demokratik və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunmuş uğurlar bilavasitə Heydər Əliyev dühasının, müdrikliyinin, onun cəsarətinin və yenilməz iradəsinin nəticəsidir. Məhz bu baxımdan professor Ramiz Mehdiyev Heydər Əliyevi oxuculara xarizmatik lider, XX əsrdə Azərbaycan dövlətçiliyinin xilaskarı, dünya siyasətinə təsir göstərən qüdrətli şəxsiyyət, bütün həyatını xalqına və doğma vətəninə xidmətə həsr etmiş Böyük azərbaycanlı kimi təqdim edir.

Cildlərdəki materiallarda ulu öndərin siyasi varisi və ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin respublikaya rəhbərlik etdiyi son üç ildəki uğurlu fəaliyyətinə, müstəqil Azərbaycanın daha da möhkəmlənməsinə, Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsinə, ölkəmizin dinamik sosial-iqtisadi inkişafına geniş yer verilir.

Professor R.Mehdiyevin kitabı ictimai elmlər sahəsində çalışan mütəxəssislər, ali məktəblərin müəllim və tələbələri, habelə ölkəmizin müasir tarixi ilə maraqlananlar üçün dəyərli mənbədir.

© Ramiz Mehdiyev, 2006.

# MÜNDƏRİCAT

XX əsrin sonu-XXI əsrin əvvəlində yeni dünya nizamı və milli ideya
Azərbaycanda siyasət: dünən, bu gün və sabah .................................... 9
20 Yanvar Azərbaycanın tarixində faciəli səhifədir............................... 78
AzərTAc-ın və “TURAN” informasiya agentliyinin müxbirlərinə müsahibə........................................................................ 81
Bölgələrə göstərilən qayğı insanların firavanlığına qayğı deməkdir....... 83
Azərbaycanın siyasi gələcəyi Heydər Əliyevin fəal tərəfdarları və ardıcılları ilə bağlıdır........................................................................ 91
Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikrinin aktual problemləri ......... 120
XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət ................ 126
Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr ...................................................................................... 225
Dönüş onilliyi ........................................................................................ 292
Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası......................... 305
Azərbaycanda demokratik seçkilər keçirmək üçün hər cür şərait yaradılmışdır......................................................................................... 340
Müasir Azərbaycan fəlsəfi fikrinin aktual problemləri .......................... 343
Heydər Əliyevin qurduğu Azərbaycan əbədi yaşayacaqdır.................... 352
Heydər Əliyev irsi dünya siyasi elminin qiymətli nailiyyətinə çevriləcək ............................................................................................ 387
Prezident İlham Əliyev bütün sahələrdə müsbət nəticələr əldə olunması üçün siyasi iradə nümayiş etdirir ......................................................... 407
Heydər Əliyev xətti: ideya-siyasi və milli-mənəvi amillər..................... 413
Kant fəlsəfəsi və müasirlik...................................................................... 419
İcra hakimiyyəti başçılarının dəyişdirilməsi ölkədə gedən yeniləşmə prosesi ilə bağlıdır................................................................................ 424
“Azərbaycan Milli Ensiklopediyası” Redaksiya heyətinin birinci iclasında çıxış ........................................................................................ 428
Heydər Əliyevin siyasi portretinin cizgiləri........................................... 432
Klassik irs və müasir fəlsəfi problemlər................................................. 449
“Gülüstan” sarayında “Azərbaycanın qurtuluş tarixi” və “Böyük xilaskar” kitablarının təqdimat mərasimində çıxış ............................................. 452

İlham Əliyevin birillik prezidentliyi Azərbaycan xalqının siyasi şüurunun yüksək olduğunu bir daha sübut etdi .....................................461
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsinin birilliyinə həsr olunmuş mətbuat konfransında çıxış ..........497
Xalqımızın öz dövlətinin gələcəyinə inamı daha da möhkəmlənmişdir...501
Tarixi ədalətin bərpası naminə atılmış mühüm addım "Azərbaycanlıların soyqırımı haqqında" yeddi il əvvəl imzalanmış Prezident Fərmanı Azərbaycan xalqının haqq səsi, ədalət harayıdır....................................512
Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası Yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın internet saytının təqdimatında çıxış...........................................................................524
Nazirlik və komitələrin mətbuat xidmətlərinin işinin təşkilinə dair müşavirədə çıxış.........................................................................534
2005-ci il parlament seçkiləri ilə əlaqədar AzərTAc-ın müxbirinə müsahibə..........................................................................................545
"Azərbaycan-2003: İnkişaf strategiyasında yeni mərhələ" kitabının təqdimat mərasimində çıxış...............................................................548
Təkrar seçkilərdə qanun pozuntularına münasibət daha sərt olacaqdır....559
Heydər Əliyevin dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhfəsi..564
Dövlət qulluqçularının peşə bayramı münasibətilə elmi-praktik konfransda məruzə........................................................................572
Təhsil işçilərinin respublika konfransında çıxış .....................................585
Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında son üç il ərzində daha da möhkəmləndi və inkişaf etdi .................................................................601
İlham Əliyevin uğurlu Prezidentlik fəaliyyəti Heydər Əliyev siyasi kursunun uzunömürlülüyünü təmin edir ..............................................652

# XX ƏSRİN SONU - XXI ƏSRİN ƏVVƏLİNDƏ YENİ DÜNYA NİZAMI VƏ MİLLİ İDEYA

## AZƏRBAYCANDA SİYASƏT: DÜNƏN, BU GÜN VƏ SABAH

***Hər bir konkret tarixi dövrdə ictimai və siyasi proseslər onlara ayrıca istiqamət və siqlət verən xüsusi dünyagörüşü nümunələri çərçivəsində cərəyan edir və reallaşır. Keçmişin dəf edildiyi və ömrünü başa vurduğu təbii prosesdən fərqli olaraq, tarixi prosesdə keçmişin bu və ya digər cəhətləri hazırkı dövrdə yaşamaqda davam edir. İkili təbiətə malik olan ictimai-tarixi proses bir tərəfdən təkamül, inkişaf və köhnənin inkarı, keçmişlə əlaqənin qırılmasına və yeninin yaranmasına cəhddirsə, digər tərəfdən, varislik prinsipinə əsaslanaraq, hələ də yaşamaq iqtidarında olan cəhətlərin qorunub saxlanması və gələcəyə ötürülməsidir.***

***Cəmiyyətin və dövlətin həyatının bütün fəlsəfəsi də məhz bundan ibarətdir. İdeal ictimai-tarixi sistem yoxdur. Onların hər biri digər, bəzən bir-birinə zidd sistemlərin sosial–siyasi, iqtisadi, mənəvi-əxlaqi, ideoloji cərəyan və istiqamətlərini özündə əks etdirir. Eyni zamanda, bir etnik-siyasi qurumu, onun həyat tərzini başqalarından fərqləndirən və nəsildən nəslə ötürülən cəhətlərdə varisliyi qoruyub saxlayır.***

***Tarixdən və ictimai-tarixi prosesdən yalnız o zaman danışmaq mümkündür ki, iki başlanğıc - bir tərəfdən, inkişaf***

*və yeninin yaradılması, digər tərəfdən isə, keçmişlə varisliyin qorunub saxlanmasının qarşılıqlı əlaqəsi və çulğaşması olsun.*

*Bu mənada mövcud ictimai-siyasi reallıqları obyektiv şəkildə əks etdirmək iddiasında olan hər hansı sosial-fəlsəfi, ideya-siyasi konstruksiya və ya dövlət qurumu hər iki başlanğıcı nəzərə almalıdır. Əks halda, o, ya yaşarı deyil, yaxud da onun reallaşdırılması cəhdləri əsas mənəvi, etik, normativ və digər prinsip və dəyərlərin mahiyyətinə təhlükə törədən gözlənilməz nəticələrə səbəb ola bilər. Başqa sözlə desək, cəmiyyətin transformasiyası, siyasi idarəçiliyin üstün cəhətlərinin dəyişməsi Nitsşenin "bütün dəyərlərin yenidən dəyərləndirilməsi" formulu ilə bağlıdır. Həmin ideyanın gerçəkləşdirilməsi nəticəsində bəşəriyyətin bütün tarixi boyu formasiyaların dəyişməsi - antik dövrdən orta əsrlərə, orta əsrlərdən rasionalist sivilizasiyaya, yaxud kapitalizm cəmiyyətinə keçid prosesi baş vermişdir. Hər bir transformasiya yeni ideya və yeni keçidin mahiyyətinə çevrilən yeni ideologiya ilə şərtlənir.*

*Yeni keçid prosesində Azərbaycan öz qüvvələrini xalqımızın daxili potensialının inkişafı üçün cəmləşdirmək kimi misilsiz imkan qazanmışdır.*

*Keçmişin buxovlarından xilas olmağa çalışaraq, başqa bir gələcək qurmağa başlamışıq. Təəssüflər olsun ki, heç də bütün siyasi liderlər və qruplar yaxın keçmişimizin və bugünümüzün mahiyyətini aydın dərk etməmiş və başa düşməmişlər. Məsələ heç də milli siyasətçilərin fərdi keyfiyyətlərində deyil, onların formalaşdıqları şəraitdədir. Azərbaycanın düşdüyü vəziyyət bir çox Qərb ölkələrinin XIX əsrin ikinci yarısında məruz qaldıqları və islahatdan sonrakı Rusiyanın qarşılaşdığı vəziyyətə çox*

***oxşardır. Fransız sosioloqu Emil Dürkheym bunu "seqment tipli cəmiyyətləri səciyyələndirən mexaniki həmrəylik sxemi kimi" təsvir etmişdir. Bu sxemə görə, "fərd qrupun daxilində, hissə tamın tərkibində, əmək bölgüsünə əsaslanan və fərdlərin müstəqil olduğu və öz fəaliyyətinin xüsusiyyətinə müvafiq surətdə qruplaşdığı cəmiyyətlərin üzvi həmrəyliyi içərisində əriyir".***

***Müasir Azərbaycanda ictimai çevriliş çox tez bir zamanda baş vermişdir. Onun gedişində vətəndaşın, yəni siyasi proses subyektinin dövlətə və başqa təsisatlara münasibətdə yeni vəziyyəti bərqərar olmuşdur. Ona görə də bu çevriliş nəticəsində dövlətin və cəmiyyətin bir-birindən ayrılmış müxtəlif funksiyalarının yeni vəziyyətə və reallıqlara uyğunlaşmağa kifayət qədər vaxtı olmamışdır.***

## SSRİ-NİN DAĞILMASI: YENİ İMKANLAR

Biz müəyyən ideoloji struktura malik müstəqil Azrbaycanın siyasi spektrinin müasir vəziyyətini araşdırarkən 1980-ci illərin ikinci yarısının – 1990-cı illərin hadisələrinə müraciət edirik. İqtisadiyyatın, ictimai quruluşun və dövlət quruluşunun, ictimai-siyasi və milli münasibətlərin böhranının kəskinləşməsi, SSRİ-də milli hərəkatları zorakılıqla yatırtmaq cəhdləri, Sovet İttifaqının dağılması, yeni qlobal dünya nizamının bərqərar olması, dünya siyasətinin nüfuz sahələrinin növbəti dəfə bölüşdürülməsi, ikiqütblü dünyanın bir fövqəldövlətin siyasətinin üstünlük təşkil etdiyi birqütblü vektora çevrilməsi və panavropa siyasi məkanında sol mərkəzçi qüvvələrin güclənməsi və bir çox digər hallar Azərbaycanın müasir siyasi məkanının real vəziyyətini müəyyənləşdirən amillərə çevrilmişdir.

1990-cı illərin əvvəllərində baş vermiş və Azərbaycan cəmiyyətinin həyatına sürətlə daxil olmuş siyasi prosesləri və hadisələri xatırlayanda aydın olur ki, onlar situativ, daha çox qeyri-müəyyən xarakter daşıyırdı. Onların əsas məzmunu "real sosializmin tarixi legitimliyi"nin inkar edilməsindən, bu ictimai-siyasi və iqtisadi sistemin insanlığa zidd mahiyyət daşıdığının sübuta yetirilməsindən, sovet hakimiyyətinin 70 illik tarixinin iflas dövrü, bir neçə nəslin qurban getdiyi baş tutmamış sosial eksperiment dövrü kimi dəyərləndirilməsindən ibarətdir. 1990-cı illərin əvvəllərindəki ictimai etirazların əsasını hansısa konkret baxışlar təşkil edirdisə, bunlar ilk növbədə antikommunizm baxışları idi. O dövrdə çoxları həm Sov.İKP-nin rəsmi ideologiyasını və nəzəri qaynaqlarını, həm də, ümumiyyətlə solçu, antikapitalist ideyaları vaxtilə sovet təbliğatının ifşa etdiyi "kapitalizmin mürtəce ideologiyası" kimi yozurdular.

Ə.Vəzirov rejimi və ondan sonra baş vermiş hakimiyyət dəyişikliyi köhnə sosial nizamın və bu nizamı "legitimləşdirmiş" təsəvvürlərin iflasa uğramasına gətirib çıxardı. Ona görə də cəmiyyət gələcək inkişaf yolunu dərk etməyə, Azərbaycanın siyasi, iqtisadi və ictimai həyatının yeni istiqamətlərini və qaydalarını işləyib hazırlamağa imkan verən alternativ bilik sisteminə getdikcə daha kəskin ehtiyac duyurdu. Sov.İKP MK rəhbərliyinin öz təcəssümünü 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı hadisələrdə tapan ədalətsiz antiazərbaycan siyasəti nəticəsində əhalidə formalaşmış antikommunist əhval-ruhiyyə xalqı seçkilərdə kommunist nomenklaturasının hakimiyyəti əleyhinə çıxanlara səs verməyə sövq edirdi. Lakin bu antikommunizm gündəlik siyasi, iqtisadi və sosial həyatın təşkili üçün yararlı olan rasional–funksional şüur və davranış modellərini özündə əks etdirmirdi.

Nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağ probleminin doğurduğu, Bakıda 1990-cı il yanvar hadisələrindən sonra isə milli-demokratik ideologiya və praktikadan qidalanan antikommunist çıxışlara çevrilmiş ümumxalq etirazı, sovet rejimi ilə ideoloji əlaqənin kəsilməsi kütləvi psixologiyaya və insanların sosial ovqatına konstruktiv təsir göstərmədi. Əksinə, bu təsir yeni ictimai-siyasi və iqtisadi sistem, yeni şəraitdə optimal davranış üsulları barədə praktik biliklərdən daha çox, emosionallıqla qavranılan dəyərlər sahəsini əhatə edirdi. Başlıca psixoloji dəyişiklik cəmiyyətdə möhkəmlənmiş azadlıq hissi, milli müstəqilliyə və dövlət müstəqilliyinə tələbat hissi idi. Totalitar keçmişin əksinə olaraq, bu dəyişiklik insanlar üçün tez bir zamanda əsas istiqamətə çevrildi.

Belə ki, 1990-cı illərin əvvəllərinin siyasi şüurunda bazar və demokratiya daha çox dəyər, ideologiya mücərrədlikləri kimi qalırdı. Ölkəyə hansı inkişaf yolları və perspektivlərini seçmək təklif edilirdi və onu hansı problemlər gözləyirdi? İqtidar və onu dəstəkləyən “demokratik elita” bu mühüm məsələləri dərk etmirdi və ölkədə yeni ictimai-siyasi sistemin formalaşdırılması problemləri, əslində, müxtəlif hakimiyyətdaxili qrupların siyasi iddiaları əsasında həll edilirdi. İslahatlar “ümumi rifah”ı və sosial ahəngdarlığı cəmiyyətə “birnəfəsə” gətirməyə imkan verən hansısa bir əfsanəvi vasitə kimi təqdim olunurdu və təəssüf ki, bu gün də müxalif siyasi qüvvələr onları bu cür qələmə verirlər.

Deməyə hər cür əsas var ki, 1990-cı illərin əvvəllərində Azərbaycan suverenlik qazanaraq, ondan öz xalqının xeyrinə istifadə edə bilməyən, dünya birliyində özünə dəstək və müttəfiqlər tapa bilməyən dövlətlər sırasına aid edilirdi. Tarixi təcrübə sübut edir ki, belə dövlətlər böyük geosiyasi oyunun obyektinə çevrilirlər. Azərbaycanın da aqibəti belə olmuşdu.

Beləliklə, 1988-ci ildən başlayaraq 1993-cü ilin ortalarınadək iqtidarın siyasətindəki qarmaqarışıqlıq, ölçülüb-biçilmiş siyasi xətt yeridilməsi əvəzinə, ötəri vəzifələrin həllinə aludəlik ölkəni ağır sosial-siyasi sarsıntılara gətirib çıxardı. Azərbaycan cəmiyyətinin həyatının bütün əsas sahələrini böhran bürüdü:

*-siyasi sahədə dövlətin fəaliyyətinin bütün səviyyələrində və bütün vəsilələrində idarəçilik itirildi. Korporativ maraqlara əsaslanan kəskin siyasi münaqişələr və silahlı toqquşmalar cəmiyyətin həyatında adi hala çevrildi;*

*-iqtisadi sahədə gərginliyin mahiyyəti kompleks maliyyə və struktur böhranından, ənənəvi kooperasiya əlaqələrinin qırılmasından, kütləvi işsizlikdən və bütün bunların nəticəsi olaraq, əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsindən ibarət idi;*

*-sosial sahədə böhran nəticəsində sosial qrup və təsisatlar sürətlə dezinteqrasiyaya uğradı, şəxsiyyətin əvvəlki strukturlarla və həyat normaları ilə identifikasiyası itirildi, mənəvi və ideoloji boşluq yarandı, şəxsiyyətin dəyər meyarlarından uzaqlaşması baş verdi.*

**Nəticədə bir cəmiyyətdə iki böhran – sosial-iqtisadi və mənəvi-əxlaqi, mədəni böhranlar üst-üstə düşdü və bunlar spesifik qarşılıqlı əlaqədə olub vəziyyəti mürəkkəbləşdirir, ona dönməz xarakter verirdi. Total böhran isə, öz növbəsində, real milli siyasətin formalaşmasına, cəmiyyətin və dövlətin modernləşməsinə əngəl törədirdi.**

Dərk etmək lazım idi ki, köhnə təsəvvürlərin yeniləri ilə əvəzlənməsi həm yeni biliklərin dəyişmiş gerçəkliyə müvafiqliyindən, həm də köhnə təsəvvürlərin xüsusiyyətlərindən – onların bütövlüyündən, dəyişkənliyindən, modifikasiyaya nə dərəcədə

uyğunlaşa bilməsindən asılıdır. Bu, milli mentalitetin mədəni və sosial arxetiplərində posttotalitar cəmiyyətdəki sosial idrak proseslərinin ən mühüm amillərindən birini görməyə bir növ sövq edirdi. Mərkəzi və Şərqi Avropanın bir sıra tranzitar, keçid dövrünü yaşayan cəmiyyətləri ilə müqayisədə, posttotalitar cəmiyyət liberal ideyaların qavranılması üçün daha az əlverişli idi ki, bunun da öz obyektiv tarixi və sosial-siyasi zəmini vardı.

Ona görə də Azərbaycanın demokratik transformasiya yolunda qarşılaşdığı ən mürəkkəb problemlərdən biri Ə.Vəzirov və A.Mütəllibov rejimlərinin siyasətinin ölkədəki vəziyyətin tələblərinə müvafiq olmaması və cəmiyyətin baş verən dəyişikliklərə ziddiyyətli reaksiyası idi.

Zənnimcə, milli mentalitetin məhz bu cür reaksiyası demokratik dəyişikliklərin ardıcıl surətdə həyata keçirilməsini bir çox cəhətdən çətinləşdirən ümdə amil olmuşdur.

Nəticədə, cəmiyyətin XX əsrin 70-ci illərindən həyata keçirilən modernləşdirilməsinin qarşısı 80-ci illərin axırlarında və 90-cı illərin əvvəllərində nəinki kobudcasına alınmış, həm də yeni davranış modelinə keçidin, fərdi seçimə və fərdi məsuliyyətə, şəxsiyyət dəyərlərinə və üstünlükərinə əsaslanan sosial tənzimləmə mexanizmlərinin işlədiyi modernləşdirilmiş cəmiyyətə keçidin yeni dövrəsinin mümkünlüyünün özü sual altına alınmışdı.

## AZƏRBAYCANIN MODERNLƏŞDİRİLMƏSİ: YENİ İNKİŞAF İDEOLOGİYASI

XX əsrin son 30 ilində Azərbaycanda ənənəvi cəmiyyətdə gedən modernləşdirməni səciyyələndirərkən dörd cəhəti fərqləndirmək olar: **birincisi,** ənənəvi cəmiyyətin əsas ideologemləri və

ənənəvi normalarının tənqidi təhlilinin baş verməsi və mərhələ-mərhələ latent (gizli) surətdə dağılması; **ikincisi,** ənənəvi kommunist ideologiyası dayaqlarının dağılması və prinsipcə başqa ictimai normalara uyğun gələn davranış modelinin formalaşması; **üçüncüsü,** əvvəlki fəaliyyət modellərinin böhranı; və nəhayət, **dördüncüsü;** yeni ictimai fəaliyyət modellərinin təşəkkülü prosesi, əhalinin getdikcə daha geniş təbəqələrinin bu prosesə tədricən cəlb edilməsi və cəmiyyətin yeni sosial strukturunun formalaşması.

1970-ci illərin sonu 80-ci illərin əvvəllərini əhatə edən birinci mərhələ milli dəyərlərin dirçəlişi, əhalinin rifahının yüksəlişi və təhsil səviyyəsinin artması ilə bağlı idi. Bütövlükdə götürdükdə, bütün bunlar insanların davranış modellərindəki dəyişikliklərə təsir göstərirdi. Lakin dəyişikliklər bərabər yayılmırdı, modernləşdirmə “təbəqə-təbəqə” gedirdi: ənənəvi cəmiyyətin latent surətdə dağılması, ilk növbədə, ölkənin sənaye mərkəzlərinin sakinlərini əhatə edir, sonra isə formasını dəyişərək, mərkəzdən əyalətlərə yayılırdı.

Transformasiyanın ikinci mərhələsi 1980-ci illərin ikinci yarısına, sovet cəmiyyətinin ideoloji dayaqlarının pozulduğu və kəskin tənqid edildiyi, “qadağan olunmayan nə varsa, hamısının” tədricən dağılmağa başladığı “yenidənqurma və aşkarlıq dövrünə” aiddir. Kooperasiya və kiçik sahibkarlıq haqqında qanunların qəbul edilməsi iqtisadi fəaliyyətin yeni modellərinin formalaşmasının bünövrəsini qoydu. Lakin bu modellər Azərbaycanda kütləvi şəkildə yayılmadı.

Transformasiyanın üçüncü mərhələsi 1991-ci ildə müstəqilliyin əldə edilməsi, Azərbaycan cəmiyyətinin həyata keçirilməsi baş tutmayan inkişaf “layihəsi” ilə bağlı idi. Dəyişikliklərin

başlanmasına belə bir inam təkan verirdi ki, bazar iqtisadiyyatın səmərəliliyini və bunun nəticəsi kimi, əhalinin rifahının yüksəlməsini təmin edən universal mexanizm olacaqdır.

Transformasiyanın bu mərhələsində siyasət və iqtisadiyyat sahəsində müsbət dəyişikliklərin insanların siyasi və sosial-iqtisadi fəaliyyət usullarındakı dəyişikliklərlə sıx bağlılığı, əslində, dərk olunmurdu. Şəxsiyyət, fərdi səylər deyil, əvvəlkitək məhz dövlət cəmiyyət həyatının başlıca amili hesab edilirdi. Üstəlik, "hakimiyyət sahiblərinin" səriştəsizliyi ölkədə anarxiya meyillərinin güclənməsi və bir sıra bölgələrdə separatçılıq hərəkatının fəallaşması, Ermənistanın başladığı müharibə və Dağlıq Qarabağın işğalı vəziyyəti o dərəcədə kəskinləşdirdi ki, 1992-1993-cü illərdə dövlətçiliyin səmərəli inkişafı və cəmiyyətin morernləşdirilməsi imkanını, əslində, tamamilə aradan qaldırdı.

1993-cü ilin ortalarından, Heydər Əliyevin ölkə rəhbərliyinə qaydışından sonra transformasiyanın dördüncü mərhələsi -Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsi və ölkənin dünya siyasətinin subyekti kimi beynəlxalq aləmdə tanınmasına gətirib çıxaran əsl demokratik dəyişikliklər mərhələsi başlandı. Yeni demokratik dövlətin əsas prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, tarazlı xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təsisatların qurulması, yeni siyasi birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin tədricən formalaşması prosesinin ağılasığmaz dərəcədə mürəkkəb şəraitdə getməsinə baxmayaraq, Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır.

Siyasi determinantlar fərdi və ictimai şüura, insanların davranışına, hərəkətlərinə mühüm təsir göstərir, bu isə öz növbəsində, dövlətin inkişaf modelinin təkmilləşməsini situmullaşdırırdı. Nəticədə, **Azərbaycanda sintetik, yeniliklərə açıq olan, konstruktiv rol oynayan inkişaf ideologiyası formalaşmağa başladı.** Onu ideoloji konstruksiya baxımından araşdırsaq, zənnimizcə, bu ideologiyanı neokonservatizmə aid etmək olar. Müasir ideoloji cərəyan olaraq, neokonservatizm cəmiyyətə ailənin və dinin mənəvi prioritetlərini, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə və qarşılıqlı köməyinə, hüquqlara hörmət bəslənilməsinə, möhkəm dövlət intizamına əsaslanan sosial sabitlik təklif edir.

Həmin doktrinaya uyğun olaraq, dövlət cəmiyyətin bütövlüyünün qorunub saxlanmasına, qanunçuluq və hüquq qaydası əsasında fərdlər üçün lazımi həyat şəraitinin təmin edilməsinə, vətəndaşlara siyasi assosiasiyalar yaratmaq imkanı verilməsinə, vətəndaş cəmiyyəti təsisatlarının inkişaf etməsinə çalışmalıdır. Neokonservatizm əsla o demək deyildir ki, şəxsi azadlıqlar, insan hüquqları, sərbəst iqtisadiyyat və siyasi demokratiya, xalqların öz mədəniyyətini qoruyub saxlamaq hüququ və cəmiyyətin əmək qabiliyyəti olmayan üzvlərinin sosial hüquqları kimi anlayışlar kənar edilir. Məlumdur ki, neokonservatizm həmin anlayışların universallığını qəbul edir və bu baxımdan liberalizm və sosializm ilə qovuşaraq, ideoloji ahəngdarlıq yaradır.

Neokonservatorun liberaldan fərqi ondadır ki, birinci ənənəvi dəyərlərin ictimai inkişaf üçün əhəmiyyətini qəbul etdiyi halda, digəri onlara məhəl qoymur və ya, ən yaxşı halda, onlara ikinci dərəcəli əhəmiyyət verir. İslahatlar yetişmişsə və cəmiyyətin

dayaqlarının möhkəmlənməsinə kömək edə bilərsə, neokonservatizm onlara tərəfdar olmaqla yanaşı, keçmişin həsrətini çəkməkdən tamamilə imtina edir və keçmişin ən yaxşı ənənələrinə söykənərək, radikal islahatlar ideologiyasına çevrilir. Bu ideologiya ictimai inkişafın varisliyini qoruyub saxlayır.

Bu baxımdan liberalizmin və neokonservatizmin sintezi real sosialist və demokratik elementlərlə tamamlanan qüvvətləndirici ideologiyalar kimi, Azərbaycan üçün uğurlu ideoloji konstruksiya oldu.

**Azərbaycanda mühafizəkar-liberal sistem tamamilə tarazlaşdırılmışdır: o, bir tərəfdən, güclü dövlət hakimiyyətini və hüquq qaydasını, digər tərəfdən isə, iqtisadi fəaliyyət sərbəstliyini dəstəkləyir.** Bu sistemdə dövlətpərəst meyillərin və dövlət təməllərinin, milli və unversal elementlərin müştərək mövcudluğuna nail olunmuşdur.

**Liberalizm müəyyən dinamik ruh gətirmiş, mühafizəkarlıq bu ruhu radikal sapmalardan qorumuşdur. Sosial–demokratizm isə çalışmışdır ki, eqalitar prinsiplər, yəni hüquq bərabərliyi prinsipləri unudulmasın. Heydər Əliyevin nadir dövlət idarəçiliyi qabiliyyəti ondadır ki, o, həmin ideoloji müştərəklikdən (uyğunlaşmadan və qismən də qarşılıqlı əvəzetmədən) müstəqil, demokratik Azərbaycan quruculuğunda məharətlə istifadə etmişdir.**

Səciyyəvi haldır ki, müasir mühafizəkar və liberal ideologiyalar bir çox baxımdan, sadəcə olaraq, bir-birilə qovuşmuş, bununla da təriflərdə, adlarda əməlli–başlı dolaşıqlıq əmələ gətirmişlər. Təsadüfi deyil ki, bir sıra Qərb ölkələrində, eləcə də Azərbaycanda mühafizəkarlar liberal, liberallar isə mühafizəkar adlandırılır və kimin kim olduğunu anlamaqda çətinlik yaranır.

Liberalizmin neokonservatizmlə oxşarlığı bir çox Avropa ölkələrində əvvəlki “sol mərkəzçi struktur”un əvəzinə, “koalisiyalı struktur”un bərqərar olmasına gətirib çıxarmışdır. Neokonservativ iqtisadi modelin əsas ideyası dövlət tənzimləməsinin sosialist və keynsiançı metodlarının səmərəsizliyindən ibarətdir. Həmin modelə görə, milli gəlirin bölüşdürülməsinin ümumi həcmində dövlət xərclərinin payının 5 faiz artırılması ümumi daxili məhsulun artım sürətini 1 faiz azaldır və müvafiq olaraq, ictimai rifahın ümumi səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır.

Məhz neokonservativ iqtisadi model sayəsində Qərb dünyası elmi-texniki inqilabın ən yeni nailiyyətlərinə uyğun olaraq, struktur yenidənqurmasına istiqamət götürmüş və bu zaman solların proqram müddəalarından kəskin şəkildə fərqlənən vasitə və üsullardan istifadə etmişdir.

“Mühafizəkarlıq” məfhumu çoxlarında qorxu və vahimə hissi doğurur, çünki bu anlayış keçmiş kimi qavranılır. Halbuki, məlum olduğu kimi, mühafizəkarlıq mövcud münasibətlərin kökündən dağılmasına deyil, məhz ənənələrin qorunub saxlanmasına və dirçəldilməsinə yönəldilmişdir. Bu, ola bilsin, onunla bağlıdır ki, inkişaf ideologiyasının ayrılmaz tərkib hissəsi olan “ənənələr” anlayışının mahiyyətini heç də hamı aydın təsəvvür etmir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev partiyanın 2001-ci il noyabrın 21-də keçirilmiş II qurultayında ölkənin XXI əsrdə inkişaf ideologiyasının forma və məzmununu dəqiq səciyyələndirmişdir: **“...biz elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xatalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər”.**

Məhz milli hisslər, milli ənənələrə dərin sədaqət – milli eyniyyəti, özgünlüyü bərqərar etmək və qoruyub saxlamaq niyyəti, Qərb və Şərqin tarixi nailiyyətləri ilə zənginləşmə əsasında cəmiyyətin modernləşdirilməsi, güclü və müstəqil Azərbaycan qurmağa qadir milli çoxluğun formalaşdırılması son səkkiz il ərzində ölkədə həyata keçirilən möhkəm və uğurlu dövlət quruculuğunun rəhnidir. Bütün bunlar isə neokonservatizm deməkdir.

Bizim etiraf edib-etməməyimizdən asılı olmayaraq, Azərbaycanda istər siyasətə, istərsə də iqtisadiyyata nüfuz etmiş neokonservatizm ideyası elə bir quruluşun sisteminə çevrilmişdir ki, bu quruluşda vətəndaşın və ya bir qrup şəxsin yerli konkret korporasiyaya, yəni iyerarxiya tipli qapalı təşkilata – müasir istehsal-kommersiya təşkilatına, yaxud siyasi partiyaya mənsubiyyəti ilə müəyyənləşmişdir. Bütün korporasiyaları birləşdirən ali qüvvə, hətta demək olar, "müqəddəs" qüvvə dövlətdir. Mühafizəkarlıq bərabərliyə deyil, cəmiyyətin elə bir vəhdətinə çalışır ki, orada hər bir şəxsiyyət müəyyən yüksək nizamın iştirakçısı olsun. Burada şəxsiyyət müstəqil deyil və müyyən mənada "azad deyildir", çünki şəxsiyyətin azadlığı onun dövlət qarşısında üzərinə düşən məsuliyyəti ilə bağlıdır. Bu ideologiya transformasiya dövrünü yaşayan cəmiyyətlərə çox yaxşı uyğundur, belə ki, güclü dövlət olmasa, cəmiyyət anarxiyanın hökmü altında qala bilər. Yaxın keçmişin – 1988-1993-cü illərin tarixi nümunəsi buna aşkar sübutdur.

Bununla yanaşı, məlumdur ki, indi dünya nizamı və cəmiyyətin tələbatı, başlıca olaraq, liberalizmin əsaslarına söykənir.

Ona görə də çoxları neokonservativ ideologiyanı fərdi azadlığı boğmaq vasitəsi hesab edə və ya onu fromsayağı "azadlıqdan qaçmaq" kimi qavraya bilər. Bu cür təfəkkür

forması problemə bəsit münasibətin nəticəsidir. Praktikada, həyatda isə hər şey daha mürəkkəbdir.

Liberalizm dövlətə tənqidi münasibəti, vətəndaşların yüksək siyasi məsuliyyəti prinsiplərini, dini dözümlülüyü, plüralizmi, konstitusionalizm ideyasını üstün tutur. İqtisadiyyatda dövlət idarəçiliyinin möhkəmləndirilməsi və sosial məqsədlərin rolunun artması başqa bir tarixi formanı – liberalizmin ənənəvi dəyərlərini müasir dövrün iqtisadi və siyasi reallıqlarına uyğunlaşdırmış neoliberalizmi meydana gətirmişdir. Neoliberalizmdə ədalətlilik siyasi sistemin ən mühüm məziyyəti elan olunur, hökumətlər isə mənəvi prinsiplərə və dəyərlərə istiqamətlənir.

Neoliberalizm dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin plüralist formalarına üstünlük verir. Tanınmış nəzəriyyəçi C.Rouls "Ədalət nəzəriyyəsi" kitabında bərabərlik problemini, özü də siyasi bərabərlikdən çox sosial bərabərlik problemini liberal doktrinada ön sıraya çəkmiş, bununla da həmin ideologiyanı sosial-demokratiyanın əsas fəlsəfi müddəalarına yaxınlaşdırmışdır.

"Xalis" liberalizm olmadığı kimi, "xalis" mühafizəkarlıq da mövcud deyildir. Hər şey onları təşkil edən elementlərin üstünlüyündən asılıdır. Ona görə də **Prezident Heydər Əliyevin dövlət idarəçiliyi dövründə yeritdiyi siyasətin başqa bir üstün tərkib hissəsinin liberal ideologiya olması əsla təsadüfi deyildir. Bu ideologiya, sadəcə, mücərrəd azadlığın bərqərar edilməsi olmayıb, həm də bir sıra xüsusi şərtlər – vətəndaşa məxsus olan "təbii" siyasi hüquqların nəticəsi kimi onun azadlıqlarını irəli sürdü.** Çünki liberalizm rasional surətdə başa düşülən və digər fərdlərin ancaq bu cür analoji mənafeləri ilə məhdudlaşdırılan mənafelərini güdən müstəqil vətəndaşın

mövcudluğuna əsaslanır. Başqa sözlə, fransız politoloqu Rutyenin təbirincə desək, “liberal dövlət elə bir dövlətdir ki, burada avtomobilçilər istədikləri yerə getməkdə azaddırlar, bu şərtlə ki, yol hərəkəti qaydalarına hörmət etsinlər”.

Bizim anlamımızda, mühafizəkarlıq kimi, liberalizm də qərbləşmə ideologiyası və fəlsəfəsidir, yəni burada siyasət ictimai həyatın tərkib hissəsinə çevrilir. Siyasi fəlsəfə tarixində onlar bir-biri ilə qırılmaz surətdə bağlıdır.

Müasir Azərbaycanın ideoloji konstruksiyasının mahiyyətini müəyyənləşdirmək olduqca aktual problemdir. Lakin onun başqa bir cəhəti, daha doğrusu, milli həyatda mühafizəkarlıqla liberalizmi, demokratizmlə sosializmi qarşılıqlı surətdə bağlayan və tamamlayan elementlərin aydınlaşdırılması heç də az əhəmiyyətli deyil, bəlkə daha əhəmiyyətlidir.

Bütün bu dörd ideoloji cərəyanın müstəqil Azərbaycanın təşəkkülündə, əslində, eyni dərəcədə mühüm rol oynaması aşkardır və xüsusi sübutlar tələb etmir. Əgər bütün dörd ideologiyanın əsas tutduğu üstünlükləri maksimum qısa şəkildə müəyyənləşdirməyə çalışsaq, onda aydın olar ki, **liberalizm mülkiyyət hüququna, sosializm istehsalın nəticələrinin bölgüsünə, demokratizm özünüidarəyə, mühafizəkarlıq isə normativ qaydaya üstünlük verir.**

Liberalizm və sosializm özlərini, ilk növbədə, iqtisadiyyat sahəsində büruzə verir. Demokratizm daha çox siyasətə və hüquqa, mühafizəkarlıq ən əvvəl mənəviyyata və hüquqa müraciət edir. Özü də yuxarıda şərh edilmiş ideoloji cərəyanların ümumən cəmiyyət üçün və xüsusən fərdlər üçün şüarı belədir: sosializm - Ümumi bərabərlik, demokratizm - Tam hüquqlu üzvlük, liberalizm - Fərdi azadlıq, mühafizəkarlıq -Ənənəvi birlik. Doğ-

rudur, bu şüarlar ümumi mənzərəni xeyli bəsitləşdirir, buna görə də onlardan çox ehtiyatla istifadə etmək lazımdır.

Zənnimizcə, yeni minillikdə dövlətçiliyin inkişafının milli siyasi fəlsəfəsini güclü, hüquqi və demokratik dövlət quruculuğunun tərkib hissələrini təşkil edən üç determinant – milli ideya, şəxsiyyət və millətin məqsədyönlülüyü mövqeyindən nəzərdən keçirmək lazımdır. Azərbaycanın XXI əsrdə necə olacağı amilini məhz həmin cəhətlər irəlicədən müəyyənləşdirir.

Son bir neçə il ərzində Heydər Əliyevin siyasəti sayəsində yenidən dirçəldilmiş Azərbaycan cəmiyyətinin ideoloji strukturunun belə qısa annotasiyasını əsas götürərək, milli siyasi reallıqlara qayıdaq və milli siyasi mənzərəni yenidən qurmağa çalışaq. Məsələ bundadır ki, **zəmanəmiz suallar zəmanəsidir və bu sualların cavablarını əsasən yeni siyasətçilər nəsli-siyasi xətti və iqtisadiyyatın sərbəstləşdirilməsini davam etdirməyə, ənənələrin və təməllərin varisliyini qoruyub saxlamağa, cəmiyyətin qərbləşməsini məqbul səviyyəyə çatdırmağa qadir modernist siyasətçilər nəsli verəcəkdir.**

Alman sosioloqu Maks Veber peşə seçimi olaraq siyasətçilər və siyasət barədə düşüncələrində təkcə iradəni, ağlı, ehtirası, borc hissini, xarakteri deyil, həm də fəhmi, "reallıqların təsirinə daxili mütəşəkkilliklə və sakitliklə uyğunlaşma bacarığı"nı "siyasətçinin həlledici psixoloji keyfiyyəti" hesab edirdi. Axı, məhz real vəziyyətə xüsusi hisslə nüfuz etmək bacarığı dövlət idarəçiliyi strategiyasının işlənib hazırlanmasına və lazımi anda düzgün qərar qəbul olunmasına kömək edir.

Bu cür siyasətçilər həmişə öz diqqətini siyasətçinin əsas və real silahdaşı olan cəmiyyətə yönəldərək, onu yeni siyasi məkana cəlb edir və formalaşmış siyasi xəttin varisliyinə müsbət

təsir göstərirlər. Nəticədə yeni siyasi paradiqma (yeni siyasi məkan, yeni siyasi təşəkkür, yeni siyasi mədəniyyət) yarana bilər ki, onun da əsasını, çox güman, ölkəmizdə qarşıdan gələn prezident seçkiləri təşkil edəcəkdir.

Ehtimal etməyə əsas var ki, 2003-cü ilin seçkiləri milli siyasətin hüdudlarını genişləndirəcəkdir. Ola bilsin ki, qarşıdakı seçkilər əvvəlki seçkilərdən təkcə siyasi vəziyyətlə deyil, ölkənin siyasi inkişaf mərhələsi ilə də fərqlənəcəkdir. Başqa sözlə desək, prezident seçkiləri gənc Azərbaycan demokratiyası üçün növbəti kamillik imtahanı olacaq və yeni minillikdə Azərbaycanın necə olacağını müəyyənləşdirəcəkdir.

Yeni dövr başlanır. Amma necə bir dövr? Bu suala Prezident Heydər Əliyevin son illər ərzində ölkədə yaratdığı, cəmiyyətin və milli siyasi məkanın maraqlarına və tələblərinə uyğun olmayan paradiqmaları aradan qaldıracaq siyasi və iqtisadi vəziyyət cavab verəcəkdir. Ölkənin siyasi inkişafının indiki mərhələsi göstərir ki, siyasi məkanda yer tutmaq uğrunda mübarizə həmişəkindən daha kəskin olacaqdır. Seçkiqabağı mübarizədə iştirak bir çox müxalifətçilər üçün özlərinin cəmiyyətdəki mövqelərini qoruyub saxlamaq və ya yaxşılaşdırmaq məqsədi deyil, partiyada tam hakimiyyət uğrunda və öz siyasi gələcəyi uğrunda amansız çarpışmada duruş gətirmək məqsədi daşıyacaqdır.

**Qüvvələrin sınaq dövrü sona yetmişdir, ölkənin siyasi quruluşunu təkmilləşdirmək, yeni şəraitdə milli ideologiyanı formalaşdırmaq prosesindən, iqtisadiyyatı modernləşdirməyin səmərəli yollarının axtarışından, habelə şəxsiyyətin və dövlətin mənafelərinə cavab verən siyasətin işlənib hazırlanmasından və həyata keçirilməsindən söhbət gedir.**

## NEOKONSERVATİZM VƏ AZƏRBAYCANÇILIĞIN NİSBƏTİ

"Azərbaycançılıq" termini ölkənin siyasi həyatında yaxın illərdən başlayaraq istifadə olunur. Lap əvvəldən o, ölkədə yaşayan bütün etnik qrupları və xalqları ümumdövlət mənafeləri əsasında real surətdə birləşdirmək ideyası, xüsusilə 1992-1993-cü illərdə geniş yayılmağa başlayan şovinist-millətçilik və separatçılıq əhval-ruhiyyələri ilə mübarizəyə yönəldilmiş ideya kimi irəli sürülmüşdü. Sonralar bu ideya ölkədə geniş dəstəkləndi, yeni elementlər və strukturlarla dolğunlaşaraq, ideologiya xüsusiyyətləri kəsb etdi. (Biz 1993-cü ilin sentyabr-oktyabr aylarında "Xalq qəzeti"nin, "Bakinski raboçi"nin bir neçə nömrəsində dərc olunmuş məqalədə "azərbaycançılıq" problemini "milli ideya" ilə birlikdə nəzərdən keçirmişik).

Ensiklopedik lüğətlərdə ideologiyaya belə tərif verilir: ideologiya baxışların və ideyaların elə bir sistemidir ki, onlarda insanların gerçəkliyə və bir-birinə münasibəti, sosial problemlər və münaqişələr dərk edilir və qiymətləndirilir, habelə mövcud ictimai münasibətlərin möhkəmləndirilməsinə və ya dəyişdirilməsinə (inkişafına) yönəldilmiş sosial gerçəkliyin məqsədləri, yaxud proqramları əhatə olunur.

Müasir sosiologiyada ideologiyanın tərifi belədir: 1.Sosial və siyasi fəaliyyətin əsasında dayanan və onu dolğunlaşdıran ideyalar sistemi. 2.Daha dar mənada – bir qrupun digərinə tabeliyinə haqq qazandıran və ya bunu qanuniləşdirən ideyalar sistemi. 3.Xurafatı dağıtmağa və sosial islahatda tətbiq edilməyə qadir olan hərtərəfli ensiklopedik bilik.

İdeologiya müəyyən sosial funksiyalar yerinə yetirərək, sosial qrupların və ictimai-siyasi cərəyanların maraqlarına uy-

ğun gələn təfəkkür və davranış tərzi tipləri, yaxud hətta sosial fəaliyyət proqramı hazırlayır.

"İdeologiya" anlayışının yuxarıda göstərilən təriflərini əsas götürsək görərik ki, bütün tərkib hissələri ilə birlikdə "azərbaycançılıq" terminine tam mənada ideologiyanın konkret, özünəməxsus forması kimi yanaşmaq olar.

"Azərbaycançılıq" ideyasının bir neçə nisbətən müstəqil cəhəti var: əsasən antropologiya (etnologiya), etnoqrafiya, sosial psixologiya, linqvistika çərçivəsində nəzərdən keçirilən etnomədəni cəhət; sosiologiya, politologiya, cəmiyyətin sosial quruluşu haqqında digər elmlərin köməyi ilə açılan sosial-siyasi cəhət; beynəlxalq hüquq sahəsində kompleks elmi fənlər vasitəsilə işlənib hazırlanan coğrafi-siyasi cəhət və s. Başlıcası odur ki, nəzərdən keçirilən problemin təkcə bir cəhəti çərçivəsində qapanıb qalmaq olmaz, çünki bu zaman biz "azərbaycançılıq" ideyasını, tarixən sabit və özünəməxsus hadisə kimi, ölkədə yaşayan bütün əhali qruplarının həmrəyliyini, onların qarşılıqlı əlaqəsini, sadəcə, əhatə edə bilmərik.

Məruz qaldığı bütün sınaqlara baxmayaraq, milli dövlət ideologiyası kimi "azərbaycançılıq" bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Bu ideyanın tarixlə və onlarca xalqın qədimdən bəri bir ərazidə yaşaması, onların ümumi mentalitetə və tələbat strukturuna söykənən ümumi psixologiya ilə şərtlənən öz bölgüsü var.

Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Bunların mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmləndirilməsinə və inkişafına yönəldilmişdir. "Azər-

baycançılıq" müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaracaq bir yoldur.

"Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir.

O, Azərbaycan xalqının dövlətyaradıcı mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədidir. İdeologiya kimi "azərbaycançılıq" müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir. İdeya-nəzəri və siyasi baxımdan "azərbaycançılıq" və neokonservatizm bir-biri ilə sıx bağlıdır. "Azərbaycançılıq" coğrafi məkan baxımından, sanki, neokonservatizmin bir hissəsi, milli şəraitdə bu ideologiyanın əlavəsidir. Çünki biz başlıca, mühüm prinsiplərin və elementlərin təhlilini əsas kimi götürdükdə, bunların daxilən vəhdətdə olduğunu görürük.

Metodoloji baxımdan bu, ümuminin və xüsusinin nisbətidir. Onlar bir-birinə zidd deyildir. Əksinə, bir-birini tamamlayaraq, vahid tam kimi çıxış edir. Ona görə də bu iki ideologiyanın sintezi Azərbaycanı sivilizasiyalı dövlətlər cərgəsinə çıxarmaq üçün möhkəm zəmin yaradır. Neokonservatizm və "azərbaycançılıq" öz ləyaqətini itirməmiş xalqın sağlam düşüncəsinə söykənir. Bu baxımdan vətənpərvərlik sevginin vəhdətidir və ona

görə də şovinizm ilə, milli müstəsnalıq ideologiyası ilə heç bir əlaqəsi yoxdur. Məlumdur ki, neokonservatorlar dövlətçidirlər, ona görə də “azərbaycançılığın” milli ideyalarımızın üstünlüyünə çalışması mövcud gerçəkliyi neokonservativ tərzdə qavramağın əsasını təşkil edir. Bir halda ki, qədim mədəniyyət qaynaqlarından və tarixdən gələn ənənələrə mənsubluq bütün həmvətənlərimizin rifahı naminə dövlətin mövcud olmasının əsasını təşkil edir, deməli, bu dövlət mənafelərin mexaniki məcmusu deyil, əksinə, ümumi mənafelərin təcəssümüdür. O mənafelərin ki, vətəndaşlar bunların naminə nəinki öz mülkiyyətini, həm də həyatlarını qurban verməyi bacarmalıdırlar. “Vətən, onun tarixi, dili və adət-ənənələri olmadan mən bir heç olardım” fikrini dərk edən fərd vətəndaşa çevrilir, çünki başa düşür ki, “vətənə olan təhlükə onun özünə, bütünlükdə onun varlığına olan təhlükədir”. Dövlətin öz tərəqqisini, təhlükəsizliyini, ərazi bütövlüyünü və milli ruhun varisliyini təmin etmək səylərində vətəndaş başlıca amilə çevrilir. Azərbaycan xalqının tarixi potensialını, intellektual fenomenini və mədəni irsini özündə cəmləşdirən, onları gələcəyə ötürən və bu zaman millətin birliyinə, sosiumun ruhunun əzəmətinə və fəaliyyətinin məqsədyönlülüyünə çalışan “azərbaycançılıq” da bu mənada təsəvvür edilir.

Prezident Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlət siyasətini səciyyələndirərkən onun ən üstün hissəsini vurğulamışdır: **“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.** Bu baxımdan, dövlət siyasətinin strategiyası

olan "azərbaycançılıq" Azərbaycan cəmiyyətinin bu günü və gələcəyinin müasir ideoloji qavrayışı ilə sıx çulğaşır.

Demək lazımdır ki, neokonservatorlar dövlətin şəxsi həyata müdaxilə etməməsi fikrinə tərəfdardırlar, lakin onu da etiraf edirlər ki, xüsusi olmadan ümumi mövcud deyildir. Xalqın həyatının, onun formalaşmasının ali forması dövlətdir. Məhz buna görə də dövlətçilikdən məhrum olmuş xalqlar çox vaxt ya tarix səhnəsindən silinib getmiş, yaxud da sərgərdan həyat sürmüşlər. Bu gün Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini və sosial rifahını təmin etməyə qadir olan unitar, demokratik və hüquqi dövlətdir.

İnsan dünyaya baxışında dərk etməlidir ki, təkcə milli ənənəyə deyil, həm də sivilizasiyaya mənsub olmaq vacibdir. Ailə, nəsil, kənd, etnos və dil birliyi - bütün bunlar bilavasitə verilmiş ümumiliklərdir. Bəzi başqa ümumiliklər isə millətin fövqündə durur, daha çox mücərrədliyi xatırladır, millətin dünyabaxışı simasını formalaşdırır. Bu, milli ideyadır, milli ideologiyadır, millətlər və dövlətlər onun təsiri altında yaranır, formalaşır və dünya səhnəsində yaşayırlar. Sivilizasiya fonu isə digər millətlər və dövlətlər arasında millətin və dövlətin mahiyyətini formalaşdırır.

Azərbaycan Respublikası Avropa və Asiyanın qovuşuğunda yerləşən ölkədir, deməli, millətin sivilizasiya siması iki amilin təsiri altında formalaşır: Şərq təməli və Qərb təsiri. Ona görə də sərhədlərlə, coğrafi vəziyyət, əhali və s. ilə şərtlənən "coğrafi determinizm" qanunu millətin və dövlətin təfəkkürünü və dünya meydanında davranış tərzini formalaşdırır. Bütün bunlar birlikdə millətin vahid simasını, yəni məhz elə bir sosial-mədəni məkanı və siyasi quruluşu yaradır ki, bu, millətin və dövlətin yaşaya bilməsini və sabit gələcəyini təmin edir.

Ona görə də əgər milli inkişaf ideologiyasının əsası kimi "azərbaycançılığın" mahiyyətini təhlil etsək, deyə bilərik ki, bu mənada o, tranzitar cəmiyyətə keçid dövrünün iqtisadi sisteminə, formalaşmaqda olan vətəndaş cəmiyyətinə malik və Ermənistanla müharibə vəziyyətində olan ölkə kimi Azərbaycan üçün daha münasibdir. Belə vəziyyətdə "azərbaycançılıq" milli ideyanın əsas forması kimi təsəvvür edilir və ona interaktiv ideya kimi yanaşmaq lazımdır. Bu ideyanın əsasında sivilizasiyalı Avrasiya birliyinin bir hissəsi – özünəxas milli özgünlüyə, ənənəyə, milli eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür dayanır.

Vaxt ötdükcə inteqrasiya olunan və formasını dəyişən "milli ideya" dövlət quruculuğu prosesində həmişə mühüm, yaradıcı rol oynamışdır. Romalılarda bu ideya Roma dövlətinin təşəkkülü prosesində işlənib hazırlanmışdı: "Qoy başqaları metalı yumşaq və mərməri canlı etsinlər və mahir əllərindəki tiyələrlə heykəllər yonsunlar: ey romalı, onlar bunu səndən yaxşı bacarırlar! Sən isə bir şeyi – dövlətinlə xalqları idarə etməyi, təkəbbürlüləri bağışlamağı və devirməyi yadında saxla". Hər bir müəyyən tarixi məqamda "milli ideya" millətin və dövlətin inkişaf istiqamətini müəyyən edən əsas kontura çevrilmişdir.

Ona görə də "azərbaycançılığın" mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. O, ənənəvi mifləri və rəmzləri özündə birləşdirir, lakin bunlardan milli dövlətin simasında yeni fenomenlərin qorunması və əsaslandırılması üçün istifadə edir. "Azərbaycançılığın" gücü ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir.

Şübhəsiz ki, öz birliyinə mənsubiyyət hissi həyatın özünə də məna və əhəmiyyət verir, qarşılıqlı məsuliyyət və qarşılıqlı əlaqə hissini möhkəmləndirir və beləliklə, tənhalıq və qəriblik hissini azaldır. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. Görünür, bu baxımdan bir sıra Qərb tədqiqatçılarının dəlilləri əsassız deyildir. Onlar hesab edirlər ki, insan "möhkəm köksalma və ya demək olar ki, tayfa mənsubiyyəti duyğuları doğuran tarixi ənənələrin mövcudluğu şəraitində özünü müdafiə olunmuş kimi hiss edə bilər" (Mosse G.Masses and Man.Nationalist and Fascist Perceptions N.Y.1980). Üstəlik, cəmiyyətin mürəkkəbləşməsi, modernləşməsi, kosmopolitləşməsi, simasızlaşması və buna müvafiq surətdə köklərin itirilməsi ilə bu ehtiyac nəinki azalmır, əksinə, qat-qat güclənir. Belə vəziyyətdə məhz dövlət - insan cəmiyyətinin bu özünütəşkil forması öz növbəsində, tam olmasa da, bir çox, bəlkə də, bütün sosial fenomenlərin formalaşması və institusionallaşmasının amilinə çevrilir.

"Mən-sivilizasiya"nın inikası kimi "azərbaycançılıq" hər kəsin hüquq və azadlıqlarının təmin olunduğu siyasi və dövlət quruluşunun milli mahiyyətinə, inkişaf strategiyasına, formasına etnosiyasi baxış kimi çıxış edir. "Azərbaycançılıq" cəmiyyətin normativ dəyərlərinin vəhdətinə - dövlət hüquq düşüncəsinə, əmək və işgüzar etika tərbiyəsinə, mənəvi həyatın dəyərlərinə qovuşmağa səmtlənir və beləliklə də, mühafizəkarlığa yaxınlaşır. "Azərbaycançılıq" milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinin və yüksək milli intizamın, formalaşmış milli özünüdərkin olmasını tələb edir, ən müxtəlif sosial təbəqələrdə həmrəylik axtarır, daimi, lakin mötədil, millətin və dövlətin öz potensialından irəli gələn reformizmi təbliğ edir.

"Azərbaycançılıq" ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir.

Bu gün biz Azərbaycanda milli ideologiyanın formalaşmasının şahidiyik. Millətin potensialının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, neokonservatizmin milli forması kimi "azərbaycançılıq" milli ideologiyanın əsasıdır və Azərbaycan dövlətinin bütün tarixi boyu da əsası olaraq qalacaqdır.

## AZƏRBAYCANIN MİLLİ İDEOLOGİYASI QLOBALLAŞMA KONTEKSTİNDƏ

Elmi-texniki tərəqqinin və fövqəlmilli korporasiyaların fəaliyyəti vasitəsilə dünya iqtisadiyyatı sərhədlərinin genişlənməsi və kapitalın yerdəyişməsinin asanlaşması, ümumbəşəri dəyərlərin bərqərar olması, dünyanın yeni informasiya açıqlığı və informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı yeni dünya nizamının başlanmasını şərtləndirmişdir. Sivilizasiyalararası münasibətlərin yeni mərhələsi dünya birliyinin bütün üzvlərinin tərəfdar olduğu öhdəliklərin mövcudluğu ilə eyniləşdirilməyə başlanmışdır. Dünya birliyi subyektlərinin qarşılıqlı iqtisadi asılılığının üstünlüyünü yaradan qloballaşma həm inteqrasiya proseslərini genişləndirmiş, həm də, qəribə də olsa, millətçilik baxışları və əhval-ruhiyyəsi meyillərini gücləndirmişdir. Qloballaşma dövlət amilləri ilə deyil, qarşılıqlı iqtisadi amillərlə müəyyənləşən bir prosesə çevrilmişdir. Bu isə, öz növbəsində, çox vaxt

dünya inteqrasiyasının mənfi amillərinin törətdiyi nəticələrin başa düşülməməsinə və dərk olunmamasına, bunların qarşısının alınması üçün müvafiq tədbirlərin görülməməsinə gətirib çıxarır. Təbii ki, qloballaşma prosesində dünya iqtisadiyyatı daha tutumlu olur, çünki özünü vahid tam kimi göstərməyə başlayır. Bu, insanların sosial-iqtisadi tələbatına da güclü təsir edir: qiymətlər, ərzaq məhsulları, səhiyyənin və sosial təminatın, gəlirlərin, bank sisteminin səviyyəsi milli suverenliyin üstünlüyünə təzyiq göstərir. Qloballaşma suveren dövlətlər arasındakı sədləri götürərək, daxili sosial münasibətlərin formasını dəyişir, milli özgünlüyü sərt şəkildə nizamlayır, onu xüsusi dünyabaxışı çərçivəsinə salır. Qloballaşma milli mədəniyyətin və ənənələrin üstünlüyünü dağıdır, milli özgünlükdən uzaqlaşmanı gücləndirir və coğrafi, iqtisadi vəziyyətindən, siyasi quruluşundan, milli mentalitetindən asılı olmayaraq, cəmiyyəti qərbləşdirir, qeyri-səmərəliliyi amansızcasına cəzalandırır və istər millətin, istərsə də dövlətin səmərəli inkişafının mahiyyətinə varmadan, səmərəliliyin beynəlxalq çempionlarını şirnikdirir.

Milli ideologiyanın üstünlüyünün sosiumun mədəni irsindən və sosial-mədəni məkanından ayrılması baş verir. Belə vəziyyətdə formalaşan hər hansı ideologiya özündə həm cəmiyyətin modernləşməsini, həm də “vahid” ümumbəşəri dəyərlərin və əxlaq prinsiplərinin yayılmasından doğan qərbləşməni təcəssüm etdirir.

Ona görə də indi yeni minilliyin milli ideologiyası Avropanın “yeni sağları” və “yeni solları”nın modernləşdirilmiş doktrinalarını süzgəcdən keçirmədən formalaşdırıla bilməz. Keçid, transformasiya dövründə bu proses ictimai şüurda gizli şəkildə gedir. Mövcud olmuş bütün sivilizasiyaların, dövlətlərin və siyasi rejimlərin tarixi sübut edir ki, aydın şəkildə ifadə edilmiş

məqsədli yollar göstərilmədən, eykumendə (coğrafi-siyasi ərazi vahidi) öz yerini müəyyənləşdirmədən, özünün “Mən-sivilizasiya”sını saxlamağın təminatı sayılan dəyərlər və əxlaqi sistemi olmadan sabit, inkişaf edən birliklər olmur. Bunlar dini baxışlarda, dövlət aktlarında, ictimai şüurda, təlim-tərbiyəyə dair məqsədli göstərişlərdə əks olunmuşdur. Məhz bunların sayəsində insan öz dünyasını, öz sivilizasiyasının özünəməxsus əsaslarını tamamilə adekvat qavrayır, fiziki və sosial məkanda şüurlu şəkildə hərəkət edir.

**Azərbaycan Prezidenti Heydər Əliyevin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə verdiyi fərmanlar, milli mənəvi dəyərlərin qorunub saxlanması məsələləri barədə Azərbaycan xalqına müraciəti təkcə keçmişə hörmət və ya dünya məkanının qloballaşması dövründə siyasətdə mühafizəkar əhval-ruhiyyə deyildir. Bu, zamana, transformasiya dövrünü yaşayan ölkələrdə milli sosial-mədəni üstünlük mərkəzlərini dəyişməyə qadir olan qloballaşmaya cavabdır. Belə siyasətin əsasında milli mentallığın, milli özünüdərkin və milli “Mən”in mahiyyətini qoruyub saxlamaq səyi durur.** Çünki SSRİ-nin dağılmasından sonra Azərbaycanın keçirdiyi sosial-mədəni transformasiya böhranının əsas səbəbi ənənəvi dəyərlərin və normaların tənzimləyici rolunun azalması və ənənəvi dəyərləri əvəzləyən, lakin hələ tamamilə kök salmağa macal tapmayan universal dəyərlərin sürətlə devalvasiyaya uğraması idi. Böhranı aradan qaldırmaq, yeni dəyər (millətin birliyi) və mənəvi-etnik zəminində cəmiyyətin makrososial reinteqrasiya üsullarını tapmaq kimi ciddi problem meydana çıxmışdı. Nəticədə sosial inteqrasiyanın və makrososial

tənzimlənmənin əldə olunmuş səviyyəsi saxlanılmaqla, universal istiqamətlərin rolunun güclənməsinin reallaşması başlandı.

Bəşər tarixində belə vəziyyətlər, əslində, dünyanın bütün ölkələrində baş vermişdir. Ancaq milli mənafeləri həmişə yalnız milli universal dəyərlərin üstün roluna əsaslanan yeni, modernist ideologiya müdafiə etmişdir: məsələn, XVI əsrdə İngiltərədə puritanlığın yayılmasına, XVIII əsrdə Avropada Fransa inqilabının doğurduğu dəyişikliklərə cavab olaraq, XX əsrdə Sovet İttifaqından olan təhlükə ABŞ-da öz milli üstünlüklərini qorumaq üçün mühafizəkarları liberal dəyərlərin və təsisatların müdafiəçilərinə, liberalları isə klassik liberalizmin ifadəçilərinə çevirəndə belə olmuşdur. Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş I qurultayını da bu baxımdan şərh etmək olar. Millətin gücünü təkcə onun birliyi və monolitliyi deyil, həm də milli özünüdərki və mentallığı yenidən yaratmaq və qorumaq səyləri müəyyən edir. Azərbaycan Prezidenti Heydər Əliyev bizə məhz bu həqiqəti çatdırır. Ona görə də Azərbaycanın modernistləri nəslindən olan yeni siyasətçilərinin legitimliyinin ideoloji səviyyəsi rasional siyasət, mədəniyyət və təfəkkür xəttinə varislikdən ibarət olacaqdır.

Belə bir sual yerinə düşərdi: – dünyada gedən qərbləşmə prosesində Azərbaycanın modernləşməsi necə olmalıdır? Qərbləşməni rədd edərək və milli "Mən"i qoruyub saxlayaraq modernləşə bilərikmi? Cavab həm sadə, həm də mürəkkəbdir. Çünki buna bənzər tarixi yolu Cənub-Şərqi Asiyanın, əslində, bütün ölkələri keçmişdir. XIX əsrdə Yaponiya intellektuallarının modernləşdirmə ideyası "qərb texnologiyası və yapon ruhu" idi. Azərbaycanda isə ən yeni dövrün (1993-cü ildən başlayaraq) modernləşdirmə ideyası özünün çoxcəhətliliyi sayəsində səmərəli

olmuşdur. İlk səviyyədə, bu, o qədər də sırf ideologiya deyildi. Qlobal kontekstdə Azərbaycanın inkişafının strateji konsepsiyası rolunu yerinə yetirirdi. Modernləşdirmə ideologiyasının ikinci səviyyəsi (1996-cı ildən başlayaraq) hakim yer tutdu, çünki o, əhalinin ən fəal hissəsinə aid idi. Bu səviyyədə liberalizm, sosializm və vətənpərvərlik prinsipləri birləşmişdi. Digər ölkələrlə müqayisədə, dünya kontekstində onlara çatmaq və regional kontekstdə onları ötüb keçmək ideyası Azərbaycanda modernləşdirmənin milli ideologiyasının özəyi oldu. Məhz bu konsepsiya 200 il ərzində ölkəmizdə tətbiq edilən "müstəmləkə şüuru" komplekslərinin aradan qaldırılmasını nəzərdə tutur. Modernləşdirmə ideologiyasının üçüncü səviyyəsi kənar amortizator rolunu oynamalıdır. Yəni cəmiyyətdə antimodernist potensialı aradan qaldırılmalı, ənənəçilik qalıqlarının təzahürünü neytrallaşdırılmalı və deməli, ölkənin modernləşdirmə məcrasında mərhələlərlə inkişafına obyektiv şəkildə mane olan təbəqələrə doğru yönəldilməlidir. Bu zaman başlıca vəzifə milli mədəniyyətin özgünlüyünü saxlamaqla (neokonservatizm), iqtisadi səmərəliliyi sosial ədalətlə birləşdirərək, cəmiyyətin etibarlı sosial müdafiəsini və şəxsiyyət azadlığını təmin etməklə (neoliberalizm) Azərbaycanda ictimai və texnoloji dəyişiklikləri həyata keçirməkdir.

## MÜSTƏQİL AZƏRBAYCANIN SİYASİ VƏ İQTİSADİ STRATEGİYASI

Qədim Yunanıstan dövründən başlayaraq və yeni dövrə qədər siyasətin təfsirində universal yanaşmadan istifadə edən baxışlar üstün yer tuturdu. Bu baxışlar insan və sosiumun qarşılıqlı münasibətlərinin bütün formalarını əhatə edir və beləliklə, cəmiyyətin bütövlüyünü təmin edirdi. Yalnız siyasətin və vətəndaş cə-

miyyətinin ayrılması cəmiyyət həyatının digər sahələri ilə siyasətin əlaqəsini dəqiq başa düşməyə imkan yaratdı, siyasət insan fəaliyyətinin formalarından birinə çevrildi. Öz maraqlarını dərk edən sosial qruplar, təbəqələr, birliklər və onların formal, qeyri-formal təşkilatları siyasi fəaliyyətin subyektləri kimi çıxış edirdilər. Zaman ötdükcə şəxsiyyətin, insanların sosial birliyinin siyasi hakimiyyətin həyata keçirilməsində, özlərinin siyasi maraqlarının müdafiəsində iştirak formaları təkmilləşir və cəmiyyətin siyasi elitasının mahiyyəti və konsepsiyası formalaşırdı.

Elitanın hər bir cəmiyyət üçün xarakterik olması aksiomdur. Onun əsasında insanların fiziki, psixoloji, intellektual, mədəni, mənəvi və digər fərqləri dayanır. Bununla yanaşı, elita xüsusi siyasi və təşkilati keyfiyyətləri ilə səciyyələnir. Elita cəmiyyətin yüksək qabiliyyəti idarəetmə və siyasi, demokratik proseslərə təsir göstərmək bacarığı olan təbəqəsidir. Özü də elitanın formalaşması demokratiya prinsiplərinə zidd deyildir, çünki insanların sosial bərabərliyi bərabər imkanlar kimi başa düşülməlidir.

"Elita" anlayışına tarixi-məntiqi baxımdan yanaşılmalıdır. Biz Azərbaycan tarixində XIX əsrin sonu və XX əsrin əvvəlindəki milli elitanın rolunu inkar edə bilmərik. Azərbaycan uğrunda mübarizədə səngərin hansı tərəfində durmalarından asılı olmayaraq, vətən qarşısında onların xidmətləri şəksizdir və vətəndaşlarımızın indiki nəsli onları lazımınca qiymətləndirməlidir. Bunu Azərbaycanın sovet dövründəki elitası haqqında da demək olar. Elita xalqın milli sərvətidir.

Hər bir cəmiyyətdə elita müxtəlif olur. O, fərqlidir və elmi, siyasi, iqtisadi, ədəbi-bədii, hakim, inzibati, müxalif (yəni əks-elita) və sair elitaya bölünür. Elitanın konkret tipləri əvəzinə, mətbuatda çox vaxt "milli elita" anlayışı işlədilir ki, bunlar da

başqa-başqa şeylərdir. Elitanın bu və ya digər tipinin ictimai proseslərə təsiri ilə ümummilli əhəmiyyət kəsb edən səviyyəyə qalxması isə başqa məsələdir. Deməli, milli elita cəmiyyətin ictimai şüura güclü təsir göstərərək, ictimai-siyasi prosesləri dəyişməyə qadir olan qüdrətli mənəvi qüvvəsidir.

Siyasi elitanın olması müasir Azərbaycan cəmiyyəti üçün labüd siyasi atributdur, çünki siyasətin funksiyası avtomatik şəkildə həyata keçirilə bilməz. Azərbaycanda bugünkü gündə siyasi elitanın necəliyini araşdırmaq xüsusilə aktual problemdir. Çünki siyasi maraqların toqquşması üfüqi baxımdan, ilk növbədə, həmişə şəxsiyyət çaları alır və konkret siyasi liderlərin qarşıdurmasında öz əksini tapır. Tərifi ehtiyatla seçərək, ilk növbədə, dəqiq müəyyən etmək lazımdır ki, yuxarıda göstərildiyi kimi, siyasi elita məmurlar qrupu və ya bürokratik aparat deyildir. O, cəmiyyətin elə bir xüsusi qrupu, yaxud insanların nisbətən azsaylı birliyidir ki, digər insanların və ümumən cəmiyyətin taleyi onların qəbul etdikləri qərarlardan asılı olur. Cəmiyyətdə siyasi elita problemi siyasi azadlıqların və şəraitin mövcudluğundan asılı olmayaraq yaranır. Təbii ki, hər bir cəmiyyətdə elitanın səciyyəvi xüsusiyyətləri var və bunlar cəmiyyətin vəziyyətinə və inkişaf dinamikasına müstəsna təsir göstərir.

Müasir Azərbaycan cəmiyyətində ağlı, biliyi, geniş qabaqcıl təfəkkürü və həyat təcrübəsini hərəkətlərinə və qəbul etdiyi qərarlara görə məsuliyyətlə özündə birləşdirməyə qadir siyasətçinin olması sivilizasiyalı dövlət quruculuğunun vacib amilidir. Heydər Əliyevin siyasətçinin bu keyfiyyətlərini özündə birləşdirmək bacarığı Azərbaycanda ənənəvi “dövlət-cəmiyyət” dualizminin dəqiq və güclü sxemini – cəmiyyətin fərdlərin müstəqilliyinə əsaslanan qeyri-dövlət hissəsinin ictimai maraqların

və dövlət başlanğıclarının ifadəçisi olduğu sxemi formalaşdırmaq üçün əlverişli şərait yaratmışdır. Vətəndaş cəmiyyəti qurmaq yolu ilə cəmiyyətin və dövlətin siyasi quruluşunun təkmilləşdirilməsinə bu cür səy göstərilməsi həm "yeni" əxlaqın və demokratik dəyərlərin tələblərinə, həm də müasir cəmiyyətin ehtiyaclarına əsaslanır.

"Kopernik çevrilişinə" qədər geniş yayılmış prinsiplər üzrə, yəni qanun və hüququn dövlət tərəfindən müəyyən olunduğu, yaxud bunlara icazə verildiyi dövrdə formalaşmış totalitar təfəkkürün, ləng də olsa, liberal və demokratik inkişaf forması ilə əvəzlənməsi baş verir. Başqa cür düşündüyünə və ya "vahid" ideyalardan üz döndərdiyinə görə keçmişdə təqiblərə məruz qalan fərd, sözün ən geniş mənasında, azadlıq və öz təhlükəsizliyinə təminat almışdır. Çox da uzaq olmayan 1991-1993-cü illərdə ictimai şüurda üstün yer tutan anarxist meyillərin yerini qanunçuluq və hüquq qaydası tutmuşdur. Dövlətin yeni konsepsiyası insanın "təbii hüquqları" haqqında
Lokkun üç başlıca prinsipinin – azadlıq, yaşamaq və mülkiyyət hüquqi prinsiplərinin dərk edilməsi əsasında qurulmuşdur. 1993-cü ilin iyunundan sonra bu prinsiplər Azərbaycanın siyasi strategiyasının başlıca tərkib hissələri olmuş və Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında özünün dəqiq əksini tapmışdır.

Azərbaycan xalqına öz iradəsini sərbəst şəkildə ifadə edərək, hakimiyyət səlahiyyətlərini həyata keçirən ali dövlət orqanları yaratmaq imkanı verən təsisatlar siyasi sistemin əsasını təşkil edir. Bu sistem bütün dövlət təsisatlarını, habelə onların dinamikada qarşılıqlı münasibətlərini, ölkənin ictimai-siyasi həyatında iştirak edən ictimai təşkilatları və siyasi partiyaları əhatə edir.

1993-cü ilin iyunundan sonrakı bütün dövr ərzində Azərbaycanın dövlət siyasəti iki fundamental yanaşma - realizm və praqmatizm üzərində qurulmuşdur. Hər iki yanaşma müstəqil və güclü dövlətçiliyin təmin edilməsinə, geniş sosial zəminə söykənən, fəal və aydın sosial siyasət yeridən unitar, demokratik dövlət qurulmasına yönəldilmişdir. Həmin sosial siyasətin məqsədi əhalinin yaşayış səviyyəsini yüksəltmək və sabit şəkildə təmin etmək, vətəndaşların hüquq və azadlıqlarını qorumaq və həyata keçirmək, müasir səhiyyə, təhsil, sosial təminat sistemi yaratmaq, yoxsul və aztəminatlı təbəqələrə kömək etmək, sosial münaqişələrin qarşısını almaq və bunları həll etməkdir. Son illərin nailiyyətləri – söz azadlığının, vətəndaş hüquq və azadlıqlarının, siyasi plüralizmin təmin edilməsi, 1300-dən çox qeyri-hökumət təşkilatının, o cümlədən 30-dan artıq qadın, 80-dən çox gənclər təşkilatının, idman birliklərinin, elmi tədqiqat mərkəzlərinin, müxtəlif həmkarlar ittifaqlarının, 38 siyasi partiyanın və birliyin azad fəaliyyət göstərməsi, 600-dək kütləvi informasiya vasitəsinin, o cümlədən qəzet və jurnalların, şəbəkə informasiya vasitələrinin fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin formalaşması, milli iqtisadiyyatın sərbəstləşməsinin güclənməsi və iqtisadiyyatın tənəzzülünün qarşısının alınması, cəmiyyətin demokratikləşməsinin təmin olunması iqtidarın hüquqi və demokratik dövlət quruculuğuna yönəldilmiş real və praqmatik siyasətinin birbaşa nəticəsidir.

Lakin bu siyasi və iqtisadi nailiyyətlərdən əvvəl cəmiyyətdə uzun müddət davam edən iqtisadi, sosial, humanitar tənəzzül, fərdin təcrid edilməsi prosesi olmuşdur. Belə şəraitdə Azərbaycanın yeni elitası - öz xalqının və dövlətinin taleyinə və gələcəyinə laqeyd olmayan elitası formalaşmış və legitimləşmişdir.

Müstəqil Azərbaycanın siyasi elitası 1990-cı ilin yanvarından sonra, Sov.İKP MK Siyasi Bürosunun sabiq üzvü və Azərbaycan xalqının siyasi lideri, o vaxt təqiblərə məruz qalan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələndə formalaşmağa başlamışdır. Yanvar ayı SSRİ-dəki siyasi hakimiyyətin mahiyyəti və xarakterinin daha dərindən dərk edilməsi və Azərbaycan xalqının taleyi üçün ağrı və kədər hissi keçirən siyasətçilərin yeni nəslinin meydana gəlməsi ayı oldu. Elə bu mürəkkəb keçid dövrü də demokratik dəyərlər, sərbəst iqtisadiyyat, azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə aparmağa qadir olan müasir milli siyasi elitanın mənəvi və siyasi amalının formalaşmasının başlanğıcı oldu. Həmin vaxt İlham Əliyev Heydər Əliyevin yanında idi və Dağlıq Qarabağla, habelə erməni separatçılarının ərazi iddiaları ilə bağlı hadisələr zamanı Azərbaycan xalqını satmış SSRİ rəhbərləri ilə onun apardığı mübarizənin bilavasitə şahidi idi. O, özünün siyasi yolunu məhz həmin taleyüklü məqamda seçmişdir.

1990-cı ilin yanvar hadisələrindən, Heydər Əliyevin Bakıya qayıtmasından və buradan Naxçıvana getməsindən, vətənpərvər qüvvələrin və xalq kütlələrinin Heydər Əliyevin ətrafında birləşməsindən sonra Yeni Azərbaycan Partiyası siyasi kadrlar mənbəyi oldu. Heydər Əliyevin çox böyük xidməti olan bu təşkilatın – Yeni Azərbaycan Partiyasının hazırda kifayət qədər mürəkkəb daxili strukturu var. Azərbaycanın varlığı uğrunda mübarizənin getdiyi ekstremal şəraitdə yaradılmış bu partiya bir sıra köhnəlmiş təşkilat formalarından imtina edə və 1999-cu ilin noyabrında keçirilmiş birinci qurultayından sonra kifayət qədər səmərəli və çevik strukturu, təcrübə və novatorluğun rasional şəkildə uzlaşdırılmasını, ənənələrin varisliyini və yaşlı nəsillə

gənc kadrların bir-birini zənginləşdirən əməkdaşlığını təmin edə bildi. Heydər Əliyev milli siyasi elitanın indiki və gələcəkdəki əsas məqsədini 2001-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının II qurultayında ifadə etmişdir: **"Bizim əsas vəzifəmiz Azərbaycanın dövlət quruculuğudur. Azərbaycanda keçirilən islahatlardır – siyasi, iqtisadi, sosial və başqa islahatlardır. Yəni Azərbaycanı tutduğu yol ilə, demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə inkişaf etdirməkdən ibarətdir".**

Heydər Əliyev siyasi elitanın bundan sonra da həyata keçirməli olduğu məqsədi və strateji vəzifələri müəyyənləşdirərək, eyni zamanda iqtisadiyyat, sosial-mədəni həyat və xarici siyasət sahələrində əldə edilmiş nailiyyətlərin geniş panoramını açıb göstərmişdir.

Əmək ehtiyatlarından və təbii ehtiyatlardan tam və səmərəli istifadə edilməsi, iqtisadiyyatın struktur baxımından yenidən qurulması və sosial-iqtisadi proseslərin idarə olunmasının təkmilləşdirilməsi, dünya iqtisadiyyatına ahəngdar inteqrasiya əsasında xalqın həyat səviyyəsinin maksimum təmin edilməsi Azərbaycanın iqtisadi inkişafının başlıca istiqaməti olmuşdur. Bu konseptual vəzifələrin həllinin əsas vasitəsi iqtisadiyyatın daha da sərbəstləşdirilməsi və özəlləşdirilməsi, iqtisadi tarazlığın bazar mexanizmlərinin inkişaf etdirilməsi, kiçik və orta biznesin üstün artımı, sahibkarlığın bütün formaları üçün əlverişli mühit yaradılmasıdır.

Azərbaycanda uğurlu iqtisadi siyasət iqtisadi inkişafın üç başlıca prinsipi əsasında formalaşmışdır: 1) bazar rəqabəti; 2) iqtisadiyyatın idarə olunmasının bütün sahələrinin (valyuta bazarı, ticarət əlaqələri-münasibətləri, bank-maliyyə bazarı və s.) sərbəstləş-

dirilməsi; 3) mülkiyyətin bütün formalarının plüralizmi. İqtisadi siyasətin uğurla aparılmasında sənayenin müxtəlif sahələrinə sərmayə qoyuluşunun təmin edilməsi, ölkə əhalisinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və xarici borcların yenidən strukturlaşdırılması mühüm rol oynayır. İqtisadiyyatın bütün bu yeni xüsusiyyətləri güclü dövlət qurmağın səmərəli vasitələrinə çevrilmişdir.

İqtisadi strategiyanın əsasında milli iqtisadiyyatın gələcək xarakteri, qlobal təsərrüfatda onun yeri barədə ictimai üstünlüklərə cavab verən təsəvvürlər dayanırdı. Bu üstünlüklər bazar mexanizminin sərbəst fəaliyyətini təmin edə bilən nəticələrlə uyğun gəlirdi. Azərbaycanın milli iqtisadiyyatı insan kapitalının və elmi-texniki tərəqqinin gərəkliyinin üstün yer tutduğu sahələr üçün təmələ, başlanğıc nöqtəsinə çevrilir. İstehsal və insan ehtiyatlarının yenidən qruplaşdırılması bazar iqtisadiyyatı şəraitində böyük səmərə verir və belə strategiya gələcəkdə sənayenin müxtəlif sahələrinin dinamik inkişaf etdirilməsini nəzərdə tutur. Son illərin nailiyyətləri – neft-qaz sənayesinin sabitləşməsi və inkişaf sürətinin artması, sənayenin və aqrar bölmənin inkişafında Neft Fondunun rolunun güclənməsi ölkənin iqtisadi strategiyası barədə yuxarıda göstərilən dəlillərin aşkar sübutudur. Faktlar göstərir ki, 1997-ci ildə neft hasilatının azalma sürəti 0,3 faiz idisə, artıq 1998-ci ildə hasilat tam sabitləşdi, sonrakı illərdə isə aşkar yüksəliş müşahidə olunur. Bunun nəticəsində ölkənin büdcəsi hər il artır, kəsir ehtimalı azalır.

Azərbaycanın iqtisadi uğurlarının qısa təhlili əyani surətdə göstərir ki, əgər 1991-1995-ci illərdə ümumi daxili məhsul 58 faiz, sənaye məhsulu 67 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 48 faiz aşağı düşmüşdüsə, 1996-2001-ci illərdə ümumi daxili məhsulun artımı 55 faiz olmuşdur. Son beş il ərzində sənaye

məhsulu təxminən 20 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 40 faiz, mal dövriyyəsi iki dəfə artmışdır. Ölkə SSRİ-nin dağılması və Azərbaycanda 1991-1993-cü illərdəki anarxist meyillərlə şərtlənən tənəzzüldən tədricən çıxır.

1991-1995-ci illərdə sərmayə qoyuluşunun həcmi 43 faiz aşağı düşmüşdüsə, 1996-2001-ci illərdə 4 dəfə artmışdır. 1991-1995-ci illərdə inflyasiyanın səviyyəsi hər il 14-18 dəfə, yəni 1400-1800 faiz artırdısa, 1996-2001-ci illərdə, beş il ərzində inflyasiyanın artım səviyyəsi cəmi 16 faiz olmuşdur. İndi Azərbaycan MDB məkanında yeganə ölkədir ki, artıq 5-6 ildir inflyasiyanın qarşısı alınmışdır.

Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri sərmayə qoyuluşudur. 1995-2001-ci illərdə iqtisadiyyata 37 trilyon manatdan artıq sərmayə qoyulmuşdur ki, bu da 9 milyard dollardan çoxdur. Özü də bunun 27 trilyon manatı və ya 6 milyard dollardan çoxu, yəni 70 faizi xarici sərmayələrdir. Qalanı isə daxili sərmayələrdir və bu, milli iqtisadiyyatın inkişafı üçün müsbət amildir.

Son illərdə ölkə əhalisinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. 1996-2001-ci illərdə işləyən vətəndaşların orta aylıq əmək haqqı 4,3 dəfə, pensiyaların orta aylıq məbləği 4 dəfə artmışdır. Hazırda bir işçinin orta aylıq nominal əmək haqqı 260 min manatdır ki, bu da təxminən 55 ABŞ dollarına bərabərdir. Yaxın keçmişdə, 5-6 il bundan öncə isə bu rəqəm heç 10 dollara da çatmırdı. Bundan əlavə, 2001-ci ilin on ayı ərzində əhalinin pul gəlirləri 10,7 faiz artmışdır. 1990-cı illərin birinci yarısında əhalinin pul gəlirləri inflyasiya nəzərə alınmadan 3 dəfə azalmışdısa, 1996-cı ildən etibarən bu, 3 dəfə çoxalmışdır. Dövlət tərəfindən məcburi köçkünlərə verilən yemək pulu təkcə 2000-ci il ərzində 3 dəfə artmışdır.

Azərbaycan dünyanın 120 ölkəsi ilə ticarət edir. 1995-2000-ci illər ərzində ölkənin xarici ticarət dövriyyəsi 2,2 dəfə artmışdır. Hazırda bu göstərici 2,9 milyard ABŞ dolları təşkil edir. O cümlədən ixrac 2,8 dəfə, idxal isə 1,7 dəfə artmışdır. 1995-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 1215 milyon ABŞ dolları idisə, artıq 1998-ci ildə bu rəqəm 1683,4 milyon dollara catmışdı. Bu sahədə hər il əldə olunan tərəqqi Azərbaycanın iqtisadi və sosial inkişaf strategiyasının səmərəli sistemini yaratmağa imkan verir.

Ölkənin iqtisadi inkişafının ən mürəkkəb və vacib problemi büdcədir. Büdcənin ilbəil artması, səhiyyə, təhsil, əhalinin aztəminatlı təbəqələrinə yardım sahələrinə ayrılan büdcə vəsaitinin mərhələlərlə artırılması milli iqtisadi inkişafın üstün siyasətidir. Eyni zamanda, büdcə kəsirinin hər il azalması aşkar iqtisadi tərəqqinin olduğunu, dövlət və şəxsiyyət arasında qarşılıqlı iqtisadi münasibətlərin yeni mərhələsinə keçildiyini göstərir. 1993-1994-cü illərdə dövlət büdcəsinin kəsiri 7-10 faiz idisə, indi bu göstərici 1-1,2 faizdir. 1994-2000-ci illərdə dövlət büdcəsinin gəlirləri 13 dəfə artmışdır. Dövlət büdcəsinin ümumi məbləği 277 milyard manatdan 3,6 trilyon manata çatmışdır. Hazırda Azərbaycanın dövlət büdcəsi 900 milyon ABŞ dollarıdır.

Orta sinfin formalaşmasının vacib amili kimi, son illər milli iqtisadiyyatın sahələri arasında kiçik və orta biznesin inkişafına xüsusi diqqət yetirilir. Orta sinfin olması isə hazırda hakimiyyətin və qeyri-hökumət sektorunun qarşılıqlı fəaliyyəti sayəsində yaradılmaqda olan vətəndaş cəmiyyətinin tərkib hissəsidir. Təbii ki, bu sahədə yaşadığımız dövrün tranzitarlığı ilə şərtlənən və orta sinfin yüksələn xətlə formalaşmasını mürəkkəbləşdirən bir sıra amillər mövcuddur. Lakin iqtisadi yüksəlişin təhlili və iqti-

sadi mühitin təkmilləşdirilməsi, bürokratik əngəllərin azalması və bürokratiyanı aradan qaldırmaq sahəsində görülən tədbirlər göstərir ki, kiçik və orta biznes üçün, orta sinfin formalaşmasına doğru yüksələn xətlə irəliləyiş üçün əlverişli iqtisadi mühit inkişaf edir.

İndi Azərbaycanda 60 mindən çox kiçik və orta biznes subyekti fəaliyyət göstərir. Orta hesabla, əhalinin hər 10 min nəfərinə qeydiyyatdan keçmiş 70 kiçik və orta biznes subyekti düşür. Bunun da nəticəsində kiçik və orta biznes milli iqtisadiyyatın formalaşmasında üstün rol oynamağa başlayır. Məsələn, hazırda ticarətin 39 faizi, kənd təsərrüfatı və balıqçılığın 19 faizi, daşınmaz əmlakla bağlı əməliyyatların 11 faizi, sənayenin 9 faizi, tikintinin 7 faizi və s. kiçik və orta biznesin payına düşür. Son statistika məlumatına görə, ölkədə kiçik və orta biznes sahəsinə cəlb olunmuş fiziki şəxslərin sayı 101 min nəfərdir.

Bundan əlavə, kiçik və orta biznesin inkişafı üçün son illərdə Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Otra Sahibkarlığın İnkişafı Agentliyi və yaradılmaqda olan kiçik və orta biznes subyektlərinin fəaliyyətini təmin edə bilən bir sıra başqa strukturlar təşkil edilmişdir. Bu baxımdan vurğulamaq lazımdır ki, özəl bölmənin inkişafı sahibkarlığın inkişaf etdirilməsinə dair dövlət proqramları arasında xüsusi yer tutur. Məsələn, ÜDM-in tərkibində özəl bölmənin payı 68 faiz, o cümlədən sənayedə 44 faiz, kənd təsərrüfatında 99 faiz, ticarətdə 98 faiz, tikintidə 64 faizdir və sair.

Lakin görülmüş işin əhəmiyyətini tam şəkildə dərk etmək üçün ötən illərdə - bu gün müxalifət "liderlərinə" çevrilmiş şəxslərin öz hikkələrini yeritmək cəhdlərinin dövlətin müstəqilliyinin taleyini, xalqın iqtisadi firavanlığını və rifahını təhlükə qarşısında qoyduğu illərdə baş vermiş prosesləri və

hadisələri təkrar-təkrar yada salmaq lazımdır. İlham Əliyev 1999-cu ildə, "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci ildönümündəki çıxışında milli iqtisadiyyatın, onun müxtəlif tərkib hissələrinin formalaşmasında, həm yanacaq istehsalı kompleksinin, həm də digər istehsal sahələrinin, o cümlədən aqrar bölmənin rolunun güclənməsində mühüm rol oynamış bu sənədin rəsmi şəkildə imzalanmasından əvvəl baş vermiş bir sıra hadisələri şərh etmişdir. Məlum olduğu kimi, Heydər Əliyev müqavilənin imzalanmaq üçün hazırlanan variantından imtina etməyə məcbur olmuşdu, çünki aydın olmuşdu ki, onun şərtləri Azərbaycanın milli maraqlarına ziddir. İlham Əliyev hadisələrin gedişini belə təsvir edir:

"Özünü "böyük neft mütəxəssisi" kimi qələmə verən Rəsul Quliyev yaranmış vəziyyətdən sui-istifadə edərək, təşəbbüsü öz əlinə aldı. Azərbaycan hökuməti adından Rəsul Quliyev xarici şirkətlərlə danışıqlar aparmaq səlahiyyətini Slovakiya vətəndaşı Marat Manafova həvalə etdi və bunun üçün 1993-cü il iyul ayının 26-da xüsusi mandat imzaladı. Rəsul Quliyev öz şəxsi maraqları naminə ölkənin bütün iqtisadi inkişafının taleyini neft sahəsi ilə heç bir əlaqəsi olmayan, neft müqavilələri haqqında elementar təsəvvürü olmayan digər dövlətin vətəndaşına həvalə etdi...

Təsəvvür edin, əgər Manafovun hazırladığı və Rəsul Quliyevlə razılaşdırılmış müqavilənin variantı qəbul edilsəydi, Azərbaycan xalqını nələr gözləyirdi...

Həmin variantda kəşfiyyat dövrü üçün 6 il müəyyən olunmuşdu və bu dövrdə xarici sərmayələrin həcmi cəmi 21 milyon dollar təşkil etməli idi. Müqayisə üçün deyim ki, artıq indi, yəni "Əsrin müqaviləsi"nin imzalanmasından 5 il keçəndən sonra sərmayələrin həcmi 2 milyard dollar təşkil edir.

Müqavilənin əvvəlki variantına əsasən, "Çıraq" yatağından neft yalnız 2007-ci ildə, yəni müqavilə imzalandıqdan 13 il sonra hasil olunmalı idi. Biz isə neft hasilatının başlanmasına 1997-ci ildə, daha doğrusu, müqavilə imzalandıqdan 3 il sonra nail ola bildik və bu da "Əsrin müqaviləsi"nin mütləq bir şərti idi. Həmin gündən indiyə qədər "Çıraq" yatağından 5,5 milyon ton neft hasil edilmişdir.

Daha sonra. Müqavilənin əvvəlki variantına əsasən, səmt qazı Azərbaycana bazar qiymətinə satılmalı idi. Biz isə bütün səmt qazının Azərbaycana pulsuz verilməsinə nail olduq. Bu günədək konsorsium tərəfindən 1,2 milyard kubmetr səmt qazı çıxarılmış və Azərbaycana pulsuz verilmişdir.

Belə bir sual ortaya çıxır: məgər Rəsul Quliyev Azərbaycanı hansı uçuruma itələdiyini anlamırdımı? Xeyr, o, bunu çox gözəl başa düşürdü. Lakin onun üçün bunun heç bir əhəmiyyəti yox idi. Onun üçün özünün şəxsi maraqları xalqın maraqlarından üstün idi və bu maraqlar naminə o, ölkənin bütün neft sərvətlərini girov qoymağa hazır idi. Quliyevin göstərişi ilə Manafov xarici neft şirkətlərindən 300 milyon dollar rüşvət ala bilmək üçün onlara belə sərfəli şərtlər təklif etmişdi. Həmin 300 milyon dollar isə, əslində, bonuslar şəklində Azərbaycan Respublikasının xəzinəsinə daxil olmalı idi.

Qeyd etməliyəm ki, xarici neft şirkətləri yüksək ləyaqət göstərərək, bu sövdələşməyə getmədilər və öz dövlətlərinin ölkəmizdəki səfirləri vasitəsilə Azərbaycan Prezidentinə bu barədə məlumat çatdırdılar. Prezident məlumat alan kimi, Manafov tərəfindən aparılan danışıqların davam etdirilməsini qadağan etdi və müqavilə üzrə danışıqların aparılmasını bilavasitə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırdı...

Bu beş il ərzində “Əsrin müqaviləsi”nin həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər göz qabağındadır. Gələcək haqqında isə təkcə onu qeyd etmək lazımdır ki, 30 il ərzində Azərbaycan “Əsrin müqaviləsi”ndən bütün gəlirin 80 faizini, xarici neft şirkətlərinin hamısı birlikdə isə cəmi 20 faizini götürəcəkdir...

Biz dərk edirdik ki, Azərbaycanın real müstəqilliyi yalnız iqtisadi inkişaf, xarici sərmayələrin cəlb edilməsi, ölkənin iqtisadi böhrandan çıxması şəraitində təmin oluna bilər... Biz artıq 19 neft müqaviləsi imzalamışıq və strateji yolumuzun bu istiqamətdə davam etdirilməsində bizə heç kim mane ola bilməz”.

1994-cü ilin sentyabrında Prezident Heydər Əliyev tərəfindən “Əsrin müqaviləsi”nin imzalanması ilə həyata keçirilməyə başlayan uğurlu neft strategiyası Azərbaycana beynəlxalq neft şirkətləri ilə bağlanmış 21 müqaviləni, 6 milyard dollar miqdarında sərmayələri, ölkənin 1994-cü ildə 10 milyon dollar olan valyuta ehtiyatının 2001-ci ildə bir milyard dollara çatdırılmasını, 360 milyon dollar vəsaiti olan Neft Fondunun yaradılmasını təmin etdi. Milli neft strategiyası Azərbaycanın bir çox iqtisadi və maliyyə strukturlarına daxil olmasına, o cümlədən Dünya Ticarət Təşkilatına üzv qəbul edilməsinin mümkünlüyünə, kənd təsərrüfatı da daxil olmaqla, milli iqtisadiyyatın təkmilləşdirilməsinə dair kompleks strateji tədbirlərin həyata keçirilməsinə, orta sinfin formalaşmasının başlıca vəsiləsi kimi kiçik və orta biznesin rolunun güclənməsinə, tənəzzülün azalmasına, inflyasiyanın aşağı düşməsinə və dövlətlərarası iqtisadi münasibətlərdə bərabər tərəfdaş kimi ölkəmizin imicinin yüksəlməsinə təminat yaratdı.

**İstər regional miqyasda, istərsə də ümumdünya kontekstində Azərbaycanın siyasi və iqtisadi vəziyyətinin təhlili**

**və şərhi formalaşmış sabit siyasi xəttin və mərhələli iqtisadi yüksəlişin olduğunu göstərir. Lakin təəssüf ki, Azərbaycanda heç də bütün siyasi qüvvələr görülmüş işi, bunun nəticəsində möhkəm siyasi sabitliyin bərqərar olmasını, büdcənin artmasını, milli iqtisadiyyatın sərbəstləşməsini, əhalinin sosial müdafiəsinin sabit şəkildə güclənməsinin təmin olunmasını, yeni sosiumun formalaşmasını obyektiv şəkildə qiymətləndirmirlər. Dövlətin istər siyasət, istərsə də iqtisadiyyat sahəsindəki işinin mahiyyəti ayrı-ayrı qrupların maraqlarının təmin olunmasına yönəldilmiş ötəri proqramların qəbul edilməsi və həyata keçirilməsindən ibarət ola bilməz. Mərhələli və çoxcəhətli yanaşma olmalıdır. Həyata keçirilən siyasətin təkcə indi deyil, gələcəkdə də uğuru məhz bundadır.**

## MÜXALİFƏT

Artıq Azərbaycan prinsipcə dünyada yeni vəziyyətdədir. Ölkəmizin daxili və xarici konteksti, əslində, tarazlaşdırılmışdır. Buna görə də elə görünürdü ki, bu cür vəziyyət dünyayönümlü siyasi qüvvələr sisteminin – Avropa, Qərb anlamında normal partiya sisteminədək inkişaf edə biləcək sistemin formalaşmasına gətirib çıxarmalı idi. Amma təəssüf ki, belə olmadı. Lap əvvəldən Azərbaycanda bolşevizm ünsürləri olan daxiliyönümlü partiyalar strukturu yarandı. Odur ki, Azərbaycanda iqtidarla müxalifətin qarşılıqlı əlaqəsi məsələsi öz aktuallığını saxlayır.

Azərbaycanda açıq müxalifət 1987-ci ildə formalaşmağa başlamışdır. O, özünü əvvəlcə müxtəlif dərnəklərdə göstərdi, sonra isə Dağlıq Qarabağ ətrafındakı hadisələrlə əlaqədar meydanlara çıxaraq, xalq hərəkatına qatıldı. Başlanğıc mərhələdə müxalifə-

tin hərəkətləri antisistem xarakteri daşımırdı. Müxalifətin çağırışları və hərəkətləri artıq sonralar, 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıya yeridilməsindən sonra antikommunist, antisovet xarakteri almağa başladı.

Müstəqilliyin əldə edilməsi və Azərbaycanda dünyəvi, demokratik dövlət quruculuğuna başlanması cəmiyyətlə dövlət arasında qarşılıqlı münasibətlərin təkmilləşməsinə kömək edən iqtidar-müxalifət horizontalının yaranmasına gətirib çıxardı. Ona görə də əgər ölkənin ötən dövrdəki uğurlarını qeyd etmək lazım gələrsə, bunu vurğulamaq ədalətli olar ki, cəmiyyətimiz gənc müstəqil dövlətin inkişafının heç bir istiqamətində siyasi sahədəki qədər nəzərəçarpacaq nəticələr qazanmamışdır.

Lakin bütün bunlarla yanaşı, qəribə də olsa, demokratik dəyərlərin geniş inkişafı, siyasi plüralizm cəmiyyətin sıx birləşməsi, Qərb tipli siyasi partiyaların formalaşması amillərinə, vətəndaş konsensusunun təminatına çevrilmədi. Siyasi mədəniyyətin, realizmin, respublika üçün taleyüklü problemlərin həllində konstruktiv mövqelərin, hakimiyyət orqanları ilə yaradıcı dialoqa getmək bacarığının olmaması "milli müxalifət"in həlledilməz probleminə çevrildi. Hakimiyyət uğrunda mübarizə və partiya liderlərinin şəxsi iddiaları, regional eqoizm və tayfa eqoizmi sivilizasiyalı siyasi rəqabətin məzmunu və xarakterini kölgədə qoydu. Şəxsi hakimiyyət və təsir uğrunda qızğın mübarizədə ümummilli mənafelər, verilmiş şəxsi bəyanatlar və təəccüblü də olsa, hətta tarixin dərsləri unuduldu. "Milli müxalifət" fraksiyalararası mübarizəyə çox uymuşdur, onun baxışlarının, liderlərinin ideyalarının təkamülü real, dinamik şəkildə dəyişən həyatdan, iqtidarın daxili və xarici siyasətdə nail olduğu müsbət dəyişikliklərdən kəskin şəkildə geri qalır. Konstruktivliyin olma-

ması, radikalizm, cəmiyyətdə süni surətdə gərginlik yaratmaq cəhdləri AXCP, Müsavat, AMİP və ADP rəhbərliyindəki böhranın, onların liderlərinin imicinin kəskin şəkildə aşağı düşməsinin, partiya üzvlərinin siyasi fəallığının süstlüyünün bəlkə də əsas amilləridir. Bir sözlə, siyasi müxalifətin vəziyyəti "hərcmərclik və tərəddüdlük" kimi səciyyələnir. Bütün bu vəziyyət təşkilati yenidənqurmanın və ideoloji platformanın təzələnməsinin, həyatın reallıqları ilə hesablaşacaq yeni lider axtarışının zəruriliyini şərtləndirir.

Cəmiyyət daim tərəqqi edən, durğunluğa dözməyən və rasional dəyişikliklərə can atan dinamik amildir. O dəyişir və onunla yanaşı, siyasi mübarizə forması, təfəkkür və reallıqların qavranılması da dəyişir. Yeni cəmiyyət məsuliyyətsiz, ifrat radikalizmi, yalançı inqilabi ritorikanı qəbul etmir, aydın məqsəd daşımayan mitinq ideyaları yeni nəslə yaddır. Bu amillər özünün dünyaduyumunu, dünyagörüşünü və baxışlarını dəyişdirə və təkmilləşdirə bilməyən köhnə "milli müxalifətin" fəaliyyətinin perspektivsizliyini səciyyələndirir. Bu müxalifətin fəaliyyəti hələ də cəmiyyətdəki əhval-ruhiyyə ilə hesablaşmağı qətiyyən istəməməklə məhdudlaşır. İndiki əsas müxalifət liderlərinin hakimiyyətdən uzaqlaşdırıldıqları illər çox güman ki, xülyalardan, özlərinin siyasi səhvlərindən, siyasi naşılığından əl çəkmək dövrü, ibrət götürmək və kamil dövlət təfəkkürünün formalaşması dövrü olmamışdır.

Müxalifətin böhranı elə bir dərin prosesə çevrilmişdir ki, hazırda nəinki möhkəm müxalifət alyansı və ya blokunun yaradılması, həm də daxili münaqişələrin aradan qaldırılması mexanizmini təsəvvürə gətirmək çətindir. Belə vəziyyət bu və ya digər liderin müxalifətin vahid lideri ola bilməsinin

mümkünlüyünü, bir növ, şübhə altına alır. Müxalifət mühitinin qeyri-adekvat dəyişkənliyi, dostların rəqiblərlə əvəzlənməsi və rəqiblərin barışması prosesi “milli müxalifət”in mahiyyətini, onun yetişmədiyini, habelə perspektivin olmaması üzündən çaşqınlıq keçirdiyini göstərir. AMİP-in, AXCP-nin, Müsavatın və digər partiyaların daxilindəki parçalanma, ardı-arası kəsilməyən siyasi çəkişmələr, hay-küylü qarşılıqlı ifşalar belə bir tezisi bir daha təsdiqləyir ki, Azərbaycandakı müxalifət müxtəlifdir, amorfdur, strukturlaşmamışdır və kəskin böhran keçirir. Müxalif partiya elitalarının hədsiz hikkə və iddiaları yeniliklərə, siyasi rəqabətə və partiyadaxili fəaliyyətin təşkilinə rasional yanaşmağa mane olur.

Qeyd etmək lazım gəlir ki, müxalifətin daxilindəki bu qeyri-sabitlik vəziyyəti hər an müxalifətin özü və ümumən, cəmiyyət üçün idarəolunmaz reaksiyaya çevrilə bilər. Təbii ki, əgər bu vəziyyət özünütəmizləməyə, müxalifət meydanının seleksiyasına, onun təzələnməsinə və Avropa demokratiyası standartlarına yaxınlaşmasına xidmət edərsə, bu, yeni milli siyasi məkanın formalaşmasının müsbət amili olar. Lakin hadisələrin inkişafı başqa meyil alarsa, müxalifətin daxilindəki siyasi çəkişmələr dağıdıcı mexanizmi hərəkətə gətirən qüvvəyə çevriləcək və bu, demokratik cəmiyyət quruculuğu üçün son dərəcə arzuedilməz hal olacaqdır.

Azərbaycanda müxalifət hərəkatının tarixinə qısa bir baxış, son illərin müşahidələri göstərir ki, “milli müxalifət” siyasətin, əsasən, münaqişəli tərzdə təfsirinə tərəfdardır. O, “nə qədər pisdirsə, mənim üçün bir o qədər yaxşıdır” və ya “bulanıq suda balıq tutmaq daha asandır” prinsipi ilə hərəkət edir. Gördüyümüz kimi, qrup mənafeləri ümummilli mənafelərdən daim üstün tutu-

lur. Halbuki, dünya təcrübəsi göstərir ki, hakimiyyətin və siyasətin münaqişəli tərzdə təfsiri olduqca təhlükəlidir. Məhz bu, istər ölkənin daxilində, istərsə də onun hüdudlarından kənarda daimi mübarizənin ideya əsasını yaradır, xalqın qüvvələrini tükəndirir, insan ehtiyatlarının və maddi ehtiyatların itkisinə səbəb olur.

Partiya quruculuğu tarixinin şərhi məsələsində Fransanın təcrübəsi önəmlidir. Əgər Şarl de Qollun dövründə Fransada - müharibədən təzəcə çıxmış, yeni və güclü dövlət quruculuğuna başlamış ölkədə müxalifətdən savayı heç nə yox idisə, dövlət isə ancaq dövlət başçısının nüfuzu sayəsində yaşayırdısa, 20 ildən sonra ölkədə möhkəm siyasi konsensus təşəkkül tapdı və "sağlar– sollar" bipolyar siyasi məkanı yarandı. Avropanın əksər inkişaf etmiş ölkələri də bu cür inkişaf yolu keçmişlər. İctimai şüurun bu cür inkişafına əyani nümunəni Türkiyədə də müşahidə etmək olar. Son 20 ildə burada tamam müxtəlif məsləkli siyasi qüvvələrin iştirakı ilə siyasi məkan formalaşmışdır. Özü də **siyasi sistemin sabit olduğu ölkələrdə hakimiyyətin varisliyi dövlətin və cəmiyyətin yaşarılığının zəruri atributu kimi şərh olunur. Mustafa Kamal Atatürk güclü, demokratik və dünyəvi dövlət quraraq, hakimiyyətin varisliyini təmin etmişdir.**

**Heydər Əliyev bu gün Azərbaycanda nəinki vətəndaş cəmiyyətinə və sərbəst iqtisadiyyata malik olan müstəqil, sivilizasiyalı və demokratik dövlət qurulması üçün bünövrə, həm də gələcəkdə konstruktiv müxalifətin varlığı təqdirində, daha səmərəli olacaq partiya ənənəsinin əsasını qoymuşdur. Siyasi plüralizm, sərbəst iqtisadiyyat və cəmiyyətin öz siyasi liderini azad şəkildə seçməsi üçün daha əlverişli şərait yaratmış Heydər Əliyev hakimiyyətinin varisliyinin mahiyyəti, bax, bundadır.** Bu, tarixi sərvət və

misilsiz irsdir, Azərbaycan xalqı bunları qorumalı və inkişaf etdirməli, nəsildən-nəslə ötürməlidir.

Müstəqil Azərbaycanın onillik təcrübəsi göstərir ki, ölkənin dövlətdaxili həyatının təşkili məsələsinə müxtəlif cür yanaşma keçmişdə qalmamışdır. Bu, siyasi həyatın bir-birinə qarşı duran başlanğıclarında - indiki hakim strukturlarla təmsil olunmuş inteqrativ başlanğıcda və müxtəlif müxalif siyasi qrup və partiyaların mənafelərinin qorunmasından ibarət olan fərqləndirici başlanğıcda öz ifadəsini yenə də tapır. Hərçənd, bir çox müxalifət partiyalarının proqram müddəalarını və seçki platformalarını təfərrüatı ilə araşdırsaq, həm dövlətin xarici siyasət strategiyasının müəyyənləşdirilməsinə, həm də cəmiyyətimizin siyasi və sosial-iqtisadi sahələrinin yenidən qurulmasına aid prinsipial məsələlərdə ciddi fikir ayrılıqları görmərik. Ola bilsin, heyrətamiz fenomendir, lakin bu, ilk baxışdan belədir.

Bir çox dövlətlərdə iqtidar və müxalifət prinsipial ideoloji rəqiblərdir. Bu mənada Azərbaycan, sanki, istisna olmamalıdır. Amma, məsələn, iqtidarla müxalifətin mövqelərinin istər nəzəriyyədə, istərsə də təcrübədə müxtəlif olduğu Rusiyadan fərqli olaraq, Azərbaycanda ölkənin ictimai-siyasi və iqtisadi quruluşunun köklü, qnoseoloji məsələlərində cəmiyyətin inkişafı probleminə iqtidarın və müxalifətin baxışları bir çox cəhətdən uyğun gəlir. Müxalifət partiyalarının əksəriyyəti proqram və nizamnamələrində siyasət sahəsində müstəqil, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu xəttinə tərəfdar olduqlarını bəyan edir. Bəzi müxalifət liderlərinin bu və ya digər regional dövlətin xeyrinə populist bəyanatlarını çıxmaq şərtilə, xarici siyasətdə beynəlxalq hüquq normaları və prinsiplərinə, qarşılıqlı surətdə əməkdaşlığa, mehriban qonşuluğa və tarazlı xarici siyasətə əməl

etmək istəyi, əsasən, üstünlük təşkil edir. Daxili çəkişmələr nəticəsində pərakəndə düşmüş "milli müxalifət" **(hərçənd, ümumi, vahid məqsədi, ideya və baxışları olmadığına, habelə liderlərin iddialı mövqeləri üzündən daxili qarşıdurma daim gücləndiyinə görə, Azərbaycanda müxalifəti vahid "milli" termini ilə adlandırmaq çətindir)**, parlamentdə təmsil olunmuş bəzi partiyalar nadir istisna təşkil etməklə, iqtisadiyyat sahəsində hələ heç vaxt milli iqtisadiyyatı sərbəstləşdirməyin metodları və formalarını necə təsəvvür etməsi barədə konkret təkliflərlə çıxış etməmişdir. Lakin hər halda, torpaq üzərində xüsusi mülkiyyətin tətbiqi, iqtisadiyyatın özəlləşdirilməsi və dövlətsizləşdirilməsi yolu ilə əsaslı bazar islahatları xətti yeridilməsinə səy göstərmək barədə bəyanatlar müxalifətin proqramlarında öz ifadəsini tapır. Mədəniyyət sahəsində - milli özünüdərkin və özünü identikləşdirmənin hər vasitə ilə inkişaf etdirilməsi, Azərbaycan dilinin dövlət dili kimi hər yerdə tətbiqi və sair. Hərbi sahədə - ölkənin ərazi bütövlüyünün bərpası, milli silahlı qüvvələrin möhkəmləndirilməsi və sair. Belə misalların sayı çoxdur. Azərbaycanın son illərdəki nailiyyətləri göstərir ki, iqtidarın həll etmədiyi və ya həll etmək niyyətində olmadığı taleyüklü problemlər yoxdur. Müxalifət çox yaxşı görür ki, yuxarıda sadalanan bütün proqram məqsədləri və müddəaları dövlətin daxili və xarici siyasətində öz təcəssümünü taparaq, uğurla həyata keçirilir. Görünür, məsələnin mahiyyəti bunda deyil, məhz ondadır ki, "milli müxalifət" obyektiv və subyektiv amillər üzündən öz "çoxluğunu" yaratmağa və bununla da müxalif siyasi xəttin varisliyini təmin etməyə müvəffəq olmamışdır.

Bütün əsas müxalif siyasi birliklər və onların satellitləri – minipartiyalar yalnız öz rəhbərlərinin konkret eqosentrik maraq-

larının gerçəkləşməsinə yönəldilmiş şəxsi iddialı niyyətlərini ifadə edirlər. Bu təşkilatların strukturu insan qrupunun vahid məqsəd, ideya və dünyagörüşü ətrafında sabitləşmiş siyasi birliyinin strukturuna çox az oxşayır. Üstəlik, təəssüflə vurğulamaq lazım gəlir ki, Azərbaycanda müxaliflik prinsipi bir dövlət quruculuğu prinsiplərinin, siyasi baxışların, ideyaların, digər prinsiplərə, baxışlara və ideyalara qarşı qoyulması üsulu kimi, yaxud da hakim elitaya, dövlət-iqtidar strukturlarına onların nöqsanlarını göstərmək, öz rəqiblərinin "nəfəsini" duymağa məcbur etmək cəhdi kimi başa düşülmür. Siyasi gerçəkliyə uyğunlaşmayan və adaptasiya olunmayan, hakim elitanın siyasi fəaliyyətinin ümumi faktlarını və nəticələrini dərk edə bilməyən müxalifət liderləri siyasi-iqtisadi xəttin əleyhinə deyil, konkret olaraq və yalnız Prezident Heydər Əliyevin və onun komandası üzvlərinin əleyhinə çıxış edirlər.

Radikal müxalifət zamanla ayaqlaşmaq istəmir və ya bacarmır, yenə də mitinqləri, küçə yürüşlərini hakimiyyətlə mübarizənin əsas metodu hesab edir. Ciddi analitiklərin fikrincə isə, küçələrin meydana gətirdiyi siyasətçilərin zəmanəsi keçmişdə qalmışdır. Bu gün siyasətə ölkənin sürətlə inkişafına, siyasi, sosial-iqtisadi və digər problemlərin həllinə dair alternativ proqramlar təklif etməyə qadir olan realist intellektuallar, praqmatiklər gərəkdir.

**Siyasi hadisələrin qiymətləndirilməsində səriştəsizlik, naşılıq, müəyyən partiya və onun üzvləri tərəfindən siyasi ideyaların, baxışların, konsepsiyaların, proqramların mənimsənilməsinin səviyyəsini səciyyələndirən siyasi mədəniyyətin olmaması və cəmiyyətin bu cür müxalifəti qəbuletmə səviyyəsinin aşağı olması göstərir ki, tezliklə müxalifətin elə**

**öz daxilində yeni, konstruktiv müxalifət mühitinin formalaşması prosesi başlanacaqdır.**

"Milli müxalifət"in liderləri nə kimi parlaq dona girsələr də, artıq onların dövranı ötüb keçmişdir. Bu, danılmaz faktdır. Onlar əllərindən gələni etmişlər. Müxalifətdaxili proseslər göstərir ki, onlar yeni, müsbət, rasional düşüncə qabiliyyətinə qadir deyillər. Onların siyasi səhnədən getməsi özünü həm də ona görə doğruldur ki, elektorat hakimiyyətin eyni opponentlərini görməkdən və dinləməkdən yorulmuşdur. Reallıqlar göstərir ki, müxalifət liderlərinin "köhnə qvardiyası"nı oyun qaydalarını sivilizasiyalı müxalifət kontekstində mənimsəyə bilmiş yeni gənclərlə əvəz etməyin vaxtı gəlib çatmışdır. Sonuncular dərk edirlər ki, müxalifət öz prinsiplərinin, ideologiya və proqramlarının bərqərar olunması ilə, əqidə və görüşlərinin, cəmiyyətin yenidən qurulması planının iflası ilə, amansız siyasi uğursuzluqla bağlı olan öz "tarix"i mərhələsini başa vurmuşdur. İndi sağlam düşüncələr və hərəkətlər, keçmişdən ibrət götürmək, müsbət təcrübəni zərrə-zərrə toplamaq, tərəqqi və sabitliyin təminatı vətəndaş konsensusu olan demokratik cəmiyyətin tərkib hissəsi kimi, ruhu və məzmunu etibarilə əsl demokratik müxalifət məkanı yaratmaq mərhələsi gəlib çatmışdır.

Ədalət naminə demək lazımdır ki, 1987-1988-ci illərdən başlayaraq, müxalifətin gördüyü işlərin heç də hamısı tənqid və ya mühakimə edilməməlidir. Müxalifətin başlıca xidməti bundadır ki, ölkənin taleyi üçün böhranlı dövrlərdə o, xalqın arzu və istəklərini ifadə edirdi. Heç də həmişə uğurla və bacarıqla olmasa da, müxalifət Sov.İKP MK rəhbərliyinin satqın, ədalətsiz siyasətinin doğurduğu xalq hiddətini və qəzəbini lazımi məcraya yönəldir, xalq hərəkatına mühüm impulslar verirdi.

Müxalifətin təqsiri deyil ki, o, zamanın reallığını və tələblərini dərk edə bilmədi, intəhasız romantizm gerçəkliyin özündən daha çox cazibədar oldu. Cəmiyyətin özü kimi, müxalifət də bizim hamımızın çıxdığı siyasi sistemin yetirməsi idi. Sadəcə olaraq, bəziləri realist və praqmatik idi, digərləri emosional hisslərin, gənclik enerjisinin, onları bu günədək tərk etməyən romantik idealizmin əsiri oldular.

Beləliklə, müxalifətin "köhnə qvardiya"sının səhnədən çıxıb getməsi cəmiyyətin və zamanın tələbi kimi, ölkənin siyasi strukturu üçün öz siyasi məkanını təkmilləşdirmək zərurəti kimi təsəvvür edilir; elə bir məkan kimi ki, burada müxalif fikir vertikalı cəmiyyətin ümumi, vahid məqsədi - müstəqil Azərbaycanın möhkəmlənməsi və tərəqqisi naminə sıx birləşməsi şüarı üzərində cəmləşdiriləcəkdir.

**1993-cü ilin iyunundan bəri ötən dövr ərzində milli siyasət özünün əsas komponentini – sabit hakimiyyət strukturunu və opponent strukturlar üçün əlverişli şəraiti formalaşdırmışdır. Konstruktivliyin olmaması təshihə ehtiyac duyan "milli müxalifət"in bəlasıdır. Onun təshihi isə heç də təkcə iqtidarın, hakim siyasi elitanın işi deyildir. Bu, bütün cəmiyyətin, bugünkü "milli müxalifət"in mahiyyətini münaqişə tərzində anlamaqdan əl çəkməyə qadir olan ictimai tərəqqinin əsas katalizatorunun problemidir.**

Məlumdur ki, siyasətin inteqrasiyaya funksiyası cəmiyyətdəki münaqişələri görən, amma onları dərinləşdirməyən, əksinə, əməkdaşlıq naminə kompromisləri mümkün edən hansısa bir zəmin axtaran dövlət xadiminin fəaliyyətində daha parlaq şəkildə təzahür edir. Əks taktika seçən siyasətçilər ən çox ona iddia edirlər ki, başlıcası onların partiya maraqlarıdır. Buna

görə də partiya maraqlarını həm ümummilli maraqlara, həm də başqa partiyaların maraqlarına qarşı qoyurlar. **Heydər Əliyevin isə bütün fəaliyyəti belə bir sadə həqiqəti təsdiq edir ki, hakimiyyətin mövcud ziddiyyətləri aradan qaldıran, cəmiyyətdə vəziyyəti sabitləşdirən və millətin ehtiyatlarını səfərbərliyə alan, elitaların və ümumən, cəmiyyətin siyasi tarazlığını bərpa edən optimal forması tapıldıqda, siyasi uğur qazanmaq mümkündür.**

## YENI DÖVRÜN SİYASƏTÇİSİ

Sosial psixologiyada yaxşı məlum olan bir effekt var, peşəkarlar bunu məqsədin dəyişdirilməsi adlandırırlar. Məqsəd tamamilə aydın formalaşdırılmış və qoyulmuşdur. Bu, prezident seçkiləridir. Lakin bir sıra müxalif partiyalara bu məqsədi başqası ilə dəyişdirmək və meydana yeni “fenomen” çıxarmaq çox əlverişlidir. Qeyd etmək lazımdır ki, “məqsədin dəyişdirilməsi”nə dair hərəkətlərin bir qismi axır vaxtlar “Heydər Əliyevdən sonrakı” dövrdə İlham Əliyevin roluna dair çoxsaylı yazıların dərc olunmasında öz əksini tapır. Özü də hakim dairələrin nümayəndələri və müxalifətin təmsilçiləri bu məsələni eyni dərəcədə fəal müzakirə edirlər. Hərçənd, hətta siyasətdə təcrübəsi olmayan adama da aydındır ki, müxtəlif adamlar məhz bu problemi gündəliyə çıxarmaqda müxtəlif məqsədlər güdürlər.

İlham Əliyevin ünvanına bu cür siyasi ritorika cəhdlərinin səbəbləri az deyildir. Yeni Azərbaycan Partiyası 2000-ci ilin noyabrındakı parlament seçkilərində öz partiya siyahısı ilə bəyan etdi ki, bu gün onun sədri ilə yanaşı, olduqca böyük potensiala, siyasi iradəyə və xarizmaya malik gənc, seçki siyahısına başçılıq etməyə qadir lideri də var. Həqiqətən də,

seçkilər göstərdi ki, YAP-ın bütün seçkiqabağı kampaniyası İlham Əliyevin fəal iştirakı ilə keçmişdir. Məhz bu amil nümayiş etdirdi ki, siyasi həyatda müxtəlif maraqlarla birləşmiş çoxsaylı qruplar İlham Əliyevin ətrafında sıx birləşə bilər və birləşmək istəyirlər.

Seçkiqabağı partiya təbliğatının gedişi İlham Əliyevin siyasi davranış tipinə tabe edilmişdi. Onun fəaliyyətinin güclü cəhəti məhz insanları sıx birləşdirməyə və onların enerjisini cəmləşdirməyə, bu enerjini müəyyən hərəkət formalarına yönəltməyə bacarmasında idi. İlham Əliyev bu və ya digər siyasi hərəkətin səmərəliliyini həmin hərəkətin məqsəd və prinsiplərinin mənimsənilməsi dərəcəsi ilə qiymətləndirirdi. Bununla bərabər o, nümayiş etdirirdi ki, verdiyi vədlərin əməli işlərdə təcəssümünü tapmaq dərəcəsi olduqca yüksəkdir.

Bir tərəfdən, siyasi liderlik xüsusiyyətləri nümayiş etdirilirdi, digər tərəfdən isə, siyasi davranış üslubu milli siyasi əks-elitanın bir çox nümayəndələrinin stereotiplərindən o qədər uzaq idi ki, istər-istəməz **ənənə ilə yenilikçiliyin, Azərbaycan mentallığının bütün incəliklərini bilməyin həm sosial-iqtisadi inkişaf, həm də qlobal strateji planlaşdırma problemlərini eyni dərəcədə qavramağa və həll etməyə qadir olan istedadlı şəxsiyyətin geniş dünyagörüşü ilə son dərəcə uğurlu sintezi, uzlaşması haqqında fikir doğurdu.**

Qeyd etmək düzgün olardı ki, İlham Əliyevin siyasi, iqtisadi və mənəvi görüşlərinin formalaşmasına heç də təkcə ailə tərbiyəsi təsir göstərməmişdir. Görünür, burada onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa, hamısını faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol

oynamışdır. Təsadüfi deyil ki, Prezident Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi sosial bazası yoxdur. Onun sosial bazasının coğrafi və yaş həddi yoxdur, o, bütün yaşlardan və ölkənin bütün bölgələrindən olan nümayəndələri öz ətrafında birləşdirən nadir bir siyasətçidir.

SSRİ-nin nüfuzlu, ən yaxşı ali məktəblərindən birində - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda aldığı təhsil, namizədlik dissertasiyası müdafiə etməsi, həmin institutda müəllimlik fəaliyyəti, neft sektorunda iş, partiya fəaliyyəti, Milli Olimpiya Komitəsində və Avropa Şurasında iş və sair İlham Əliyevin sanballı siyasi aktivinin əsasını təşkil edir. Milli Olimpiya Komitəsində işlədiyi dövrdə özünün təşkilatçılıq bacarığı, beynəlxalq strukturlarla iş təcrübəsi sayəsində İlham Əliyev Azərbaycan idmanında olimpiya çempionları kimi həsədaparılası simaların meydana gəlməsinə nail olmuşdur. Dağlıq Qarabağ ərazisindən narkotiklərin yayılması və istehsalı, terrorçuluq bazalarının yerləşdirilməsi və nüvə tullantılarının basdırılması üçün istifadə olunduğunu Avropa Şurasının Parlament Assambleyasında ilk dəfə məhz İlham Əliyev qaldırmış və bununla da, bəzən “ikili standartlar” prinsipini rəhbər tutan dünya ictimaiyyətinin və beynəlxalq qurumların diqqətini Dağlıq Qarabağın və ona bitişik yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı məsələsinə bir daha cəlb etmişdir.

Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin, - ona həm Yeni Azərbaycan Partiyasını və bitərəfləri təmsil edən deputatlar, həm də müxalifət partiyalarından olan deputatlar daxildir, -

fəaliyyəti göstərdi ki, İlham Əliyev ümummilli mənafelərin təmin edilməsi naminə qısa müddət ərzində bütün heyəti sıx birləşdirə və mühüm uğurlar qazana bilmişdir. Burada məsələ heç də təkcə Azərbaycanın parlament qrupunun fəallığında deyil, məhz ondadır ki, milli xarici siyasət faydalı ideoloji çalarlar almağa başlamışdır. Əgər bu gün milli xarici siyasət Prezident Heydər Əliyevin fəaliyyətinə və təşəbbüslərinə əsaslanırsa, indi aydın olur ki, ona dəstək kimi, İlham Əliyevin simasında milli mənafeləri beynəlxalq aləmdə fəal irəlilətmək üçün səfərbər olmağa hazır yeni qüvvə formalaşır. Ötən illər göstərmişdir ki, realizm və praqmatizm bünövrəsi 1993-cü ilin ortalarında qoyulmuş milli xarici siyasətin əsas prinsipləridir.

Lakin Azərbaycan müxalifəti İlham Əliyevin fəaliyyətini bir qədər başqa cür qiymətləndirir. Terminləri və məfhumları sofistcəsinə, ustalıqla dolaşdıraraq, müxalifət məhz özünün qəsdən ortaya atdığı diskussiyanı siyasi və hüquqi məkandan emosional məkana keçirir. Qondarma varislik konsepsiyasını və ya planını, "Əliyevdən sonrakı Azərbaycan problemi"ni məhz onların mətbuatı şişirdib yaymağa başlamışdır. Bu mövzuya toxunmaq əxlaq qaydalarına o qədər uyğun olmasa da, fakt faktlığında qalır: hansısa "iks saatı" barədə, Heydər Əliyevin Azərbaycanda "hakimiyyətin genetik şəkildə təhvil verilməsi" ssenarisini həyata keçirmək "niyyəti" barədə, Heydər Əliyevdən sonra dövlətin başında kimin duracağı və gələcəkdə ölkənin siyasi Olimpinin necə olacağı barədə məsələ müxalifət sıralarında canfəşanlıqla müzakirə edilir.

Özü də müxalif partiya liderlərinin bütün yazılarında, çıxışlarında hakimiyyətin verilməsinin Azərbaycan Konstitusiyasında öz əksini tapmış demokratik prinsipləri tamamilə inkar

olunur, cəmiyyətə belə bir fikir təlqin etməyə cəhd göstərilir ki, guya Azərbaycanda hakimiyyətin verilməsinin qeyri-qanuni mexanizmini gerçəkləşdirmək nəzərdə tutulur.

Təəccüblənməyə dəyməz, çünki hazırda aparılan siyasətin təshihinə və ya siyasi xəttin təzələnməsinə dair hansısa proqramların gerçəkləşdirilməsi onların məqsədlərinə daxil deyildir, əksinə, milli inkişaf strategiyasının mövcud üstünlüklərinə məhəl qoymayaraq, yeni siyasi sistem yaradılmasından, dövlət quruculuğu prosesinə təzədən başlamaq niyyətindən söhbət gedir. "İks saatı" ətrafında gedən bədnam söhbətlər müxalifətin yenidən, ən güclü olan kəs meydanı tərk edəcəyi halda "hakimiyyət oyunu"na başlamaq arzusunda olduğunu göstərir. Bu və ya digər dövlət quruluşunun əhalinin əksəriyyəti tərəfindən qəbul olunmasını nəzərdə tutan demokratik dövlətçilik prinsipi hamıya məlumdur. Bu prinsiplərə, norma və qaydalara məhəl qoymayan, konstruktivizm çərçivəsindən kənara çıxan, yaradıcı inkişafa, milli mənafelərə və tərəqqiyə qarşı çıxan partiyalar müxalifət partiyaları adlana bilməzlər. Onları, "antixalq" partiyaları olmasa da, "antisistem" partiyaları adlandırmaq olar. Ancaq təəssüf ki, Azərbaycanın siyasi məkanında bir çox müxalifət liderləri özlərini və partiyalarını yeganə və tam həqiqətin daşıyıcıları hesab edirlər.

Belə siyasi nihilizmin öz tarixi kökləri var. Xatırlayaq ki, bütün 1992-ci il ərzində Azərbaycanda faktik olaraq üç dəfə hakimiyyətin qeyri-qanuni şəkildə verilməsi hadisəsi olmuşdur: Mütəllibovun getməsi və qayıtması, Yaqub Məmmədovun dövründəki hakimiyyətsizlik şəraiti, "cəbhəçilər"in hakimiyyəti silahlı yolla ələ keçirmələri. Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi tankların və zirehli transportyorların köməyi ilə həyata keçirilmiş nə

isə bir “inqilab” idi. Hakimiyyətə zorakılıqla gəlmək praktikasına yalnız Heydər Əliyevin siyasi iradəsi son qoydu və istər parlamentin, istərsə də digər hakimiyyət strukturlarının fəaliyyətini sırf qanuni məcraya yönəltdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında baş vermiş çevriliş cəhdləri Azərbaycanda “fasiləsiz rejimlər” ənənəsinin yaranmasını istəyənlərin hamısının artıq can üstündə olduğunu nümayiş etdirdi.

**Heydər Əliyevin tarixi xidməti isə bundan ibarətdir ki, o, Azərbaycanın siyasi mədəniyyətinə oyunun tamamilə yeni meyillərini, qaydalarını, siyasi konsensusun mümkünlüyünü gətirdi və dövlətin birləşdirici funksiyasını gücləndirdi.**

Məlumdur ki, nə vaxtsa tətbiq edilmiş hakimiyyətin legitimliyi anlayışı müasir politologiyada üç səviyyəyə - ideoloji, struktur və fərdiyyət səviyyələrinə bölünür. Bir qayda olaraq, ideoloji səviyyə hakimiyyətin konkret adamın təkamülünün təşəkkülü prosesinə uyğun gəlməsinə əsaslanır. Bu halda həmin cəmiyyətin üzvü kimi konkret adamın təşəkkülü, eləcə də bu sistemə inteqrasiyası nəzərdə tutulur. Legitimliyin məhz ideoloji səviyyəsi mövqeyindən nəzər salsaq görərik ki, ölkə əhalisinin əksəriyyəti İlham Əliyevi millətin gələcək lideri kimi qəbul edir. Onun nitqləri və çıxışları, bəyan etdiyi şüarlar Azərbaycan cəmiyyətinin mentalitetinə və ehtiyaclarına uyğundur. Ədalət haqqında hər hansı postsovet məkanında şüurlara hakim kəsilən təsəvvür onun fəaliyyətində nəzərəçarpan yer tutur və bu təsəvvür vətəndaşların ayrı-ayrı qrupları barəsində onun konkret humanitar tədbirlərində öz təcəssümünü tapır.

Legitimliyin ideoloji səviyyəsi çox vaxt bir sıra xarici amillərdən də birbaşa asılıdır. Öz dövlətinin milli nüfuzunun artması məsələlərinə yüksək maraq göstərən azərbaycanlılar

ölkəmizin neft strategiyasının gerçəkləşməsində İlham Əliyevin rolunu, iri neft şirkətlərinin rəhbərləri və bu şirkətlərin təmsil etdiyi dövlətlərin rəsmi nümayəndələri ilə onun apardığı uğurlu danışıqları, nümayəndə heyətimizin Avropa Şurasındakı və olimpiya yığma komandamızın beynəlxalq aləmdəki uğurlarını son dərəcə həssaslıqla qarşılamışlar. Şübhəsiz, kompleks şəkildə götürdükdə, bütün bunlar İlham Əliyevin ideoloji legitimliyinin dərəcəsinə güclü təsir göstərir.

Əgər struktur legitimliyindən danışsaq görərik ki, Azərbaycanda hakimiyyət strukturlarının formalaşmasının artıq Konstitusiya ilə müəyyən edilmiş qaydası var. Bu qayda kifayət qədər adi hal almışdır və siyasi sistem qanuni seçilmə mexanizmini prezidentliyə hər hansı namizədə, eləcə də İlham Əliyevə şamil etmək üçün dəqiq mexanizmlərə malikdir.

Gələcək lider kimi İlham Əliyevin fərdiləşdirilmiş şəxsi legitimliyindən danışsaq, əlbəttə ki, ona etibar edirlər, rəğbət bəsləyirlər, onun xarizması çoxlarında ona qarşı xeyirxah münasibət doğurur.

Beləliklə, İlham Əliyevin fərdiləşdirilmiş legitimliyi, şübhəsiz, ideoloji və struktur legitimliyi ilə möhkəmlənəcəkdir.

Hakimiyyətin legitimliyi onun, yəni legitimliyin səmərəliliyindən və sabitliyindən həmişə birbaşa asılı olmuşdur ki, bu cəhətlər də elitanın intellektual potensialı və fəallığı ilə, konstruktiv müxalifətin və “əks-elita”nın mövcudluğu ilə öncədən müəyyənləşdirilir. Qazanacağımız məhz ondan asılı olacaq ki, bütün müsbət amillərdən cəmiyyətin rifahı naminə nə dərəcədə istifadə etməyi bacaracağıq. Amma biz nəzərə almalıyıq ki, müstəqil ölkəmizdə aparılan siyasətin müsbət cəhətlərini dərk və təsdiq etməyin böyük əhəmiyyəti var.

Bir vaxtlar Bencamin Konstant hakimiyyətin əbədi prinsipləri sırasına daxil olmuş bir prinsip irəli sürmüşdü. O yazırdı ki, Yer üzündə heç bir qeyri-məhdud hakimiyyət – nə xalq hakimiyyəti, nə özünü onun nümayəndələri adlandıranların hakimiyyəti, nə də qanunun hakimiyyəti olmamalıdır, qanun da onu verən hakimiyyətin özü kimi eyni hüdudlar daxilində olmalıdır. Prezident Heydər Əliyev özünün siyasi fəaliyyətində bu prinsipə dönmədən əməl etmişdir. Belə bir fakt gətirmək kifayətdir ki, postsovet məkanında az-az parlament tapılar ki, o, seçildiyi qanuni müddətin sonunadək fəaliyyət göstərmiş olsun. Hərçənd ki, məhz bizdə 1993-1995-ci illərdə Milli Məclisi də, içərisindən çıxdıqları Ali Soveti də dərhal buraxmağı və yeni parlament seçkiləri keçirilməsini təklif edənlər öz hərəkətlərini Milli Məclisin qeyri-legitimliyi ilə əsaslandırırdılar. Bəlkə də hər hansı başqa bir siyasətçi belə də edərdi, amma Heydər Əliyev yox. Onda qanuna hörmət ənənələrə şəksiz hörmətlə və cəmiyyətin sabitliyini poza biləcək addımlardan uzaq olmaq istəyi ilə vəhdət təşkil edir.

Ola bilsin ki, yeni reallıqların mahiyyətini tam şəkildə dərk etmək totalitar cəmiyyətin yetirmələri üçün bəzən də çətindir. Məhz buna görə də biz cəmiyyətimizdə hadisələrin demokratik axarını idarəetmənin indiyədək adi olan sxemləri və qaydalarının məcrasına yönəltmək cəhdləri ilə qarşılaşırıq. Lakin Azərbaycan siyasətçilərinin gənc nəsli artıq yeni şəraitdə formalaşaraq, həm ümumbəşəri, universal, həm də milli dəyərləri əxz edirlər. Gənc siyasətçilərin cəmiyyətin inkişafı üçün azadlıq və demokratiyanın əhəmiyyətini dərk etməsindən ötrü səkkiz il kifayət qədər müddətdir. Ona görə də təəccüblü deyil ki, sabitləşmiş baxışlara və həyat təcrübəsinə malik

siyasətçilərin yerinə tamamilə yeni tipli gənc siyasi elita gəlir. Təbii təkamül prosesi baş verir. Ona görə də inamla deyə bilərik ki, indi hakimiyyətə gəlməyə çalışan bu siyasətçilər istər cəmiyyətin sıx birləşdirilməsi vəzifələrini, istərsə də onun strateji inkişaf problemlərini həll etməyə qadirdirlər.

O ki qaldı "varis" və ya hakimiyyətin varisliyi problemlərinə, bizim üçün bir çox cəhətdən yaxşı nümunə ola biləcək ölkənin təcrübəsinə qısaca nəzər salaq.

Hakimiyyətin varisliyi barədə mülahizələr təkcə siyasi reallıqlarla deyil, tarixi analogiya və paralellərlə də şərtlənmişdir. Öz mahiyyəti etibarilə tarix analogiyalardan, təkrarlardan və tarixi paralellərdən ibarətdir. Bunlar bəşəriyyəti onun rasional və mütərəqqi inkişafının bütün yolu boyunca müşayiət edir. Bu cür analogiyalar inkişaf və tərəqqinin nəinki dövlətin, həm də hər bir vətəndaşın başlıca istəklərinə çevrildiyi sabit gələcək qurmağa hazır olan sonrakı nəsillərin öyrənməsi üçün bir çox cəhətdən nümunədir. Keçmişlə müqayisə olunan məhz tarixi paralellər bəzən ən pis hallardan qaçmağa, indinin və gələcəyin ən yaxşı imkanlarının gerçəkləşdirilməsinə kömək edir. Bu baxımdan, bizim ölkəmiz də istisna deyildir. Tarixdə millətin və dövlətin Yer üzündən silinib yox olmaq həddinə çatmasına dair bir çox misallar var. Lakin hər bir konkret tarixi dövrdə millətin iradəsini və amallarını, dövlətin diplomatiyası və strategiyasını, cəmiyyətin həmrəyliyini və konsensusunu özündə birləşdirməyə qadir şəxsiyyətin sayəsində bu dövlətlər tab gətirmiş və öz varlığını davam etdirmiş, millətlər isə dirçəlmişlər.

Almaniyanın tarixi və Konrad Adenauerin fəaliyyəti indinin və gələcəyin ən yaxşı imkanlarını gerçəkləşdirməyə kömək edən tarixi paralelə əyani nümunədir. Əgər Almaniyanın – müha-

ribənin od-alovlarından və xarabalıqlarından, totalitar ənənələrdən çıxmış, 1945-ci ildə özünün müharibədən əvvəlki ərazilərinin təxminən yarısını itirmiş, əhalisinin 25 faizi şərq hissədə qalmış ölkənin dirçəliş mərhələlərini araşdırsaq, onda K.Adenauerin İkinci dünya müharibəsindən sonra dediyi bu sözlər istər-istəməz yada düşür: “... biz dünyaya sübut edəcəyik ki, çox və inadla işləyərək böyük millət ola bilərik”.

Öz prinsiplərinə sadiq qalan və öz niyyətlərində inadkarlıq göstərən, Almaniyanın siyasi Olimpinə hələ Veymar Respublikası dövründə yüksəlməyə başlamış, nasist rejimi dövründə “arzu edilməyən” siyasi sima olmuş, ölkəsinin siyasi həyatının bütün mürəkkəbliklərini və gözlənilməz dəyişikliklərini öz üzərində hiss etmiş Konrad Adenauer təzədən hakimiyyətə gələndə yeni iqtisadiyyata, yeni dövlət quruluşuna və tamamilə yeni milli təfəkkür formasına malik yeni Almaniya qurmağa başladı. O, dövlət tərəfindən tənzimlənmənin sərt nəzarəti altında olan planlı təsərrüfat yaratmaq təkliflərindən üz döndərdi və sosialyönümlü bazar təsərrüfatı nəzəriyyəsi ilə silahlanaraq, bazar iqtisadiyyatı uğrunda çıxış etdi.

Bu nəzəriyyədə başlıcası ondan ibarət idi ki, dövlət iqtisadiyyatın sərbəst bazar əsasında inkişafına şərait yaratmalı və eyni zamanda, sənaye, kənd təsərrüfatı, ticarət inkişaf etdikcə, əhalinin həyat səviyyəsinin daim yüksəlməsi üçün qanunvericilik bazası işləyib hazırlamalı idi. Onun kansler olduğu dövrdə iş yerlərinin sayı artdı, bazar hamının ala biləcəyi mallarla doldu, Almaniya markası ən sabit valyutalardan birinə çevrildi. Bunun da nəticəsində təkcə 1950-ci illərin birinci yarısında insanların real gəlirləri iki dəfə artdı, mənzil problemi sürətlə və etibarlı şəkildə həll edilirdi, işsizliyin səviyyəsi aşağı düşdü.

Almaniya tarixinin “Adenauer erası” adlandırılmış həmin dövrü təxminən on beş il çəkmişdir. Amma alman iqtisadi möcüzəsi heç onda da möcüzə kimi qəbul edilmirdi. Əksinə, həmkarlar ittifaqları ümumi tətillə hədələyirdilər və hətta üç il sonra deputatlar K.Adenaueri və L.Erxardı “islahatların iflası”na görə tənqid edərək, sübuta yetirməyə çalışırdılar ki, islahatlar xalqı ancaq var-yoxdan çıxarır. Alman xalqının bəxtindən, K.Adenauer tənqidlərə qulaq asmadı, hökumət istefaya getmədi və o, başladığı işi axıra çatdırdı. Bunun nəticələrinin necə olduğunu aydınlaşdırmağa ehtiyac varmi? Almaniya totalitar rejimdən çıxaraq, mərhələ-mərhələ modernləşdırılmiş idarəetmə sisteminə, istehsala və güclü iqtisadiyyata malik demokratik dövlətə çevrildi. İndi Almaniya olduqca böyük insan ehtiyatlarına, güclü iqtisadi, texniki, elmi potensiala, ən yeni texnologiyaya malikdir, millət isə yüksək mədəniyyətinə və ana dilinə sadiqliyi ilə fərqlənir. Təbii ki, Konrad Adenauerdən sonra siyasi ardıcılları, onun xəttinin davamçıları olmasaydı, bütün bu nailiyyətləri və dəyərləri qoruyub saxlamaq və artırmaq mümkün olmazdı.

Konrad Adenauer və Heydər Əliyev. Bu şəxsiyyətlərin miqyasına və istedadına, zəkasına və müdrikliyinə, dövlətçilik təfəkkürünə və məqsədyönlülüyünə görə ümumi, oxşar cəhətləri çoxdur. Əgər Heydər Əliyevin fəaliyyətinin birinci mərhələsi ölkə rəhbərinin rolunun totalitar rejimin prinsipləri ilə məhdudlaşdırıldığı sovet dövrünə aiddirsə, dövlət müstəqilliyi əldə olunduqdan sonra onun fəaliyyətinin ikinci mərhələsi, ölkənin tədricən modernləşdirilməsi mərhələsi başlanmışdır. Totalitarizmdən uzaqlaşma, dövlət idarəçiliyinin və cəmiyyətin demokratikləşdirilməsi iqtisadiyyatın dirçəlişi və inkişafı,

istehsala və digər sahələrə ən yeni texnologiyaların tətbiqi, insanların yaşayışının səviyyəsi və keyfiyyətinin yüksəlməsi üçün yeni geniş imkanlar açmışdır.

Lakin bütün bunlar birdən-birə əldə edilməmişdir. Ölkənin idarə edilməsinə 1993-cü ilin ortalarında qayıdan Heydər Əliyevə görünməmiş, ağır bir tale qismət oldu: qarmaqarışıqlıq, hərc-mərclik və vətəndaş müharibəsi, ayrı-ayrı qrupların separatçı çıxışları nəticəsində ölkənin parçalanması təhlükəsi, Ermənistanın başladığı müharibə, iqtisadiyyatın tənəzzülü, durğunluğu, staqflyasiyası, əhalinin sosial vəziyyətinin kəskin şəkildə pisləşməsi, 1994-cü və 1995-ci illərdəki dövlət çevrilişi cəhdləri, dövlətin başçısı Heydər Əliyevə qarşı dəfələrlə terror aktları cəhdləri və sair. Azərbaycanın reallığı bütün bu və digər hallardan ibarət idi. Heydər Əliyev özünün dövləti idarə etmək istedadı və qətiyyəti sayəsində ilk iki-üç il ərzində ölkəni bütün bunlardan xilas etməli oldu, cəmiyyət və dövlət ölkədə dövlət quruculuğu problemlərinin həllinə və iqtisadi, siyasi islahatların və məhkəmə-hüquq islahatlarının aparılmasına yalnız 1996-cı ildə tam miqyasda başlaya bildi.

Almaniyanın müharibədən sonrakı (1945-ci il) inkişafının nümunəsi ölkəmizin bir çox problemlərinin həlli üçün çox mühüm örnək ola bilər. Ona görə də keçmişin tarixi paralellərini həmişə yadda saxlamaq lazımdır ki, yaşlı siyasətçiləri əvəz etməyə gələn gənc siyasətçilər Heydər Əliyevin müəyyən etdiyi yoldan sapmasınlar.

Azərbaycan gələcəkdə necə olacaqdır? Bu sualı verməyə hər birimizin haqqı var. Çünki bu sual taleyüklü xarakter daşıyır və Azərbaycanın hər bir vətənpərvər insanını dərindən düşünməyə və həm şəxsi rifah baxımından, həm də dövlətçiliyin, milli

müstəqilliyin, ərazi bütövlüyünün qorunub saxlanması və xalqın həyat şəraitinin ciddi şəkildə yaxşılaşdırılması mövqeyindən ona cavab verməyə vadar etməlidir.

2001-ci ildə Moskvada “Sülh, tərəqqi, insan hüquqları” rubrikası altında “Azərbaycan və Rusiya: cəmiyyətlər və dövlətlər” kitabı çap olunmuşdur. Kitab Andrey Saxarov adına muzeyin və ictimai mərkəzin nəşridir. Oradakı materiallar A.Saxarov fondu və onun ABŞ-dakı şöbəsi çərçivəsində keçirilmiş konfransın mahiyyətini əks etdirir. Şübhəsiz, maraqlı, amma müxtəlif səviyyəli və müxtəlif mənalı, bəzən də hətta xoşagəlməz məqalələrin daxil edildiyi bu kitabda mənim “Azərbaycan inqilabı” məqaləm də dərc olunmuşdur. Orada mənim “Keçmişimiz gələcəyin kontekstində” sərlövhəli müsahibəmdən (bax: “Bakinski raboçi”, 7 aprel 1992-ci il) sitatlar gətirilir.

Sitatlardan birində Heydər Əliyevin şəxsiyyəti haqqında mənim həmişə dediyim və heç vaxt dəyişmədiyim fikir öz əksini tapmışdır: “Mən “güclü əl”in əleyhinəyəm. Lakin güclü hakimiyyət və möhkəm intizam tərəfdarıyam. Məsələ avtoritarlıqda deyil, şəxsiyyətin nüfuzundadır. Beləliklə, şəxsi fikrimi ifadə edərək bildirirəm – Əliyevin respublikada nüfuzu var... şübhəsiz ki, o, qeyri-adi şəxsiyyətdir, lider keyfiyyətlərinə malik böyük dövlət xadimidir”.

Bəli, güclü hakimiyyət və möhkəm nizam-intizam. Azərbaycanın – gənc müstəqil dövlətin problemlərinin həlli üçün onun lideri dövlətin keçid dövrü, ölkədə gedən siyasi proseslərin mahiyyəti nəzərə alınmaqla, təkcə bu gün deyil, sabah da güclü, iradəli lider keyfiyyətlərinə də malik olmalıdır ki, bu da demokratiyanın inkişafına qətiyyən zidd deyildir.

Müasirlər haqqında yazmaq çox çətindir. Bu zaman saysız-hesabsız amilləri nəzərə almaq, adını bütöv bir xalqın taleyi ilə bağladığın siyasi xadimi dərk etməyi və başa düşməyi bacarmaq lazımdır. İndi biz yeni dövrün siyasətçisi, texnokrat siyasətçi barədə düşünürük. Kimsə yazılanları birmənalı qəbul etməyə bilər, amma mən əminəm ki, müəyyən mənada milyonlarla azərbaycanlının rəyini ifadə edir, bu rəyi onların ürəklərindən siyasət dilinə köçürürəm. Cəmiyyətimiz Azərbaycanın inkişaf strategiyasını davam etdirməyə, zamanın tələbləri məcrasında ölkənin siyasət və iqtisadiyyatını əhəmiyyətli dərəcədə dəyişdirməyə qadir yeni bir sosial qüvvənin meydana gəlməsinin şahidi olur. Ona görə də biz dərk etməliyik ki, Azərbaycanda ilk baxışdan bəlkə də, nəzərə çarpmayan hansısa “sakit inqilab”, “menecerlərin və texnokrat siyasətçilərin inqilabı” baş verir.

İdarəetmətdə və hakimiyyətdə elmin və elm, texnika sahəsindəki ziyalıların (texnokratların) əhəmiyyətinin və rolunun artmasında qeyri-təbii bir şey yoxdur. Yaxşı məlumdur ki, indi sənayecə inkişaf etmiş cəmiyyətlər, demək olar, tamamilə elmi-texniki səmərəlilik prinsipləri ilə tənzimlənir. Ona görə də humanitar siyasətçilərin menecerlərlə və texnokrat-larla ahəngdar birliyi ölkəmizin modernləşdirilməsi şəraitində onun inkişaf maraqlarına daha çox uyğundur.

**Karl Popper yazırdı: “Biz özümüzü peyğəmbərlər kimi görməkdənsə, öz taleyimizin yaradıcıları olmalıyıq. Biz hər şeyi bacardığımız qədər yaxşı etməyi və öz səhvlərimizi üzə çıxarmağı öyrənməliyik. Siyasi hakimiyyət tarixinin bizi mühakimə edəcəyi haqqında ideyanı başımızdan çıxarmaqla və tarixin bizə bəraət verib-verməyəcəyi**

**barədə narahatlıqdan xilas olmaqla biz, yəqin ki, müvəffəqiyyət qazana bilərik".**

İlham Əliyev mövzusu ilə bağlı tarixə ekskursumuz təsadüfi deyildi. Azərbaycanın ən yeni tarixi bizim gözlərimiz qarşısında keçmişdir. Biz onun şahidləri, bilavasitə iştirakçılarıyıq və buna görə də bilirik: müasir milli "əks-elita"dan az-az adam tapılar ki, yeni zəmanənin tələblərinə cavab verə bilsin. Bəlkə bu, respublika üçün çətin vaxtda ölkəni taleyin hökmünə buraxmış və məsuliyyətdən və öz xalqının qəzəbindən qurtarmaq üçün hərbi təyyarəyə minərək Moskvaya qaçmış Ayaz Mütəllibovdur? Yaxud, 70 milyon dollardan çox pulu mənimsədiyinə görə istintaq orqanlarının haqqında cinayət işi qaldırdıqları və məsuliyyətdən yayınaraq, ABŞ-da gizlənən Rəsul Quliyevdir? Yoxsa, əyalət siyasətçisi səviyyəsindən yuxarı qalxa bilməyən Əli Kərimovdur? Yaxud bəlkə, hələ də kiçik elmi işçi "libas"ının göründüyü və müxalifət üzrə "məsləkdaşlar"ının üz döndərdikləri İsa Qəmbərdir, yaxud öz sosial bazasını və partiya silahdaşlarını itirən Etibar Məmmədovdur? Fikrimin canı ondadır ki, bu adamların siyasi fəaliyyətinin özü cəmiyyətə təkzibolunmaz sübutlar vermişdir ki, tarixin həlledici anlarında onlar kor adam kimi aciz qalmışdılar.

Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və tarixinin mürəkkəb dövrü hələ tezliklə başa çatmayacaq ölkəyə gələcəkdə rəhbərlik etmək üçün bütün lazımi keyfiyyətlərə malikdir.

İlham Əliyevin dövlətlə, dövlətin inkişafı ilə bağlı baxışları məlumdur. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir.

O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır. Azərbaycana məhz belə siyasətçi gərəkdir, çünki alman dəqiqliyini və məsuliyyətini azərbaycanlıların açıqlığı, səmimiliyi və dini dözümlülüyü ilə birləşdirməyə Azərbaycanın ehtiyacı var. Bütün bunlar səmərəli işləməyi, qayda-qanunu bərqərar etməyi və hələ bir çox həll edilməmiş problemləri olan ölkədə müasir dövlət və cəmiyyət qurmağı öyrənməyə imkan verəcəkdir.

İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir və bu, şəxsiyyət dəyərlərini istisna etmir. Bizim şəraitimizdə bu, götür-qoy edilmiş  yoldur.

Zəif cəmiyyətə malik güclü demokratik dövlət ola bilməz. Dövlət maşınını ətalətdən, dövlət aparatını durğunluqdan, şəxsiyyəti isə hakimiyyətin qanunsuz hərəkətlərindən ancaq cəmiyyətin mükəmməl həyatı qoruya bilər.

“Güclü dövlət” və “dövlətin modernləşdirilməsi” – İlham Əliyevin dəyərlər sisteminin iki tərkib hissəsi bax, bunlardır. Bunlara, məsələn, Prezident Heydər Əliyevin xəttinə - güclü dövlət, sabit ictimai inkişaf və yeni təfəkkür tərzinin formalaşdırılmasına sadiqlik kimi daha bir mühüm ideyanı da əlavə etmək olar.

İlham Əliyevin iqtisadi baxışları belə deməyə əsas verir ki, o, modernləşdirməni iqtisadi islahatla məhdudlaşdırılan proses kimi başa düşmür. Onun üçün kiçik və orta biznesin inkişafı ilə paralel gedən demokratikləşdirmə ideyası önəmlidir. O, iqtisadiyyat işlərində əsla təzə adam deyildir. Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində işləmək onun üçün

dövlətin iqtisadi maraqlarını öyrənməkdə və həyata keçirməkdə yaxşı məktəbdir. Qərbin iqtisadi strukturları ilə yaranmış səmimi münasibətlər, ölkədəki sabitlik Azərbaycana gələcəkdə də sərmayələrin fəal cəlb olunacağına ümid etməyə imkan verir.

Den Syaopin bir vaxtlar yazırdı: "Çayı keçərkən ayaqlarının altındakı daşları əllərinlə yoxlamalısan". Ona görə də bizim hər birimiz – istər Azərbaycanın siyasi elitası, istərsə də, ola bilsin, "əks-elita"sı bu suala cavab verməli olacağıq: biz hakimiyyətin Konstitusiya yolu ilə güclü siyasətçiyə verilməsinin mümkünlüyünün taleyin hədiyyəsi olduğunu və demokratik cəmiyyət qurulması və vətəndaş konsensusu formalaşdırılması yolu ilə gedən ölkənin xəttinin varisliyini təmin etməyə çalışarkən, o hədiyyəni "əlimizlə yoxladığımızı" nə dərəcədə dərk etmişik?

*"Respublika" qəzeti,*
*11 yanvar 2002-ci il.*

## 20 YANVAR AZƏRBAYCANIN TARİXİNDƏ FACİƏLİ SƏHİFƏDİR

12 il əvvəl Azərbaycan xalqına indiyədək sağalmayan dərin yara vurulmuşdur. Respublikanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, SSRİ rəhbərliyi tərəfindən Azərbaycan barəsində ədalətsiz və qərəzli siyasət yürüdülməsinə etiraz əlaməti olaraq küçələrə çıxan əhalini qorxutmaq məqsədi ilə Bakıya və bir sıra digər rayonlara sovet qoşun hissələri qanunsuz surətdə yeridildi. Bu aksiya nəticəsində 137 günahsız insan öldürüldü və 612 nəfər yaralandı. Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev İTAR-TASS-a müsahibəsində o günlərin faciəli hadisələrinə bu cür qiymət verir.

Onun fikrincə, dinc dövr üçün görünməmiş qəddarlıqlarla və qan tökülməsi ilə nəticələnən qoşunların yeridilməsi "sovet rejiminin artıq can üstündə olduğuna aşkar sübut idi, azərbaycanlıların tarixi yaşayış yerlərindən zorakılıqla sıxışdırılıb çıxarılmasına dair məqsədyönlü siyasətin kulminasiyası oldu". R.Mehdiyev qeyd edir ki, heç bir şey - nə respublikadakı ictimai vəziyyət, nə azərbaycanlıların döyülməsini və əsrlər boyu yaşadıqları öz əzəli torpaqlarından didərgin salınmasını dayandırmaq və Dağlıq Qarabağın Ermənistanın tabeliyinə keçirilməsinə yol verilməmək barədə xalqın tələblər irəli sürməsi bu cür repressiyalar üçün əsas vermirdi. R.Mehdiyevin fikrincə, heç bir azərbaycanlı şübhə etmir ki, buna və onunla bir sırada duran digər kədərli hadisələrə səbəb Sov.İKP MK-nın və SSRİ Nazirlər

Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında 1988-ci ilin martında qəbul etdiyi qərar olmuşdur. Bu qərar Dağlıq Qarabağın Azərbaycan SSR-dən qoparılması üçün sosial-iqtisadi zəmin yaratmışdır. Muxtar vilayətdə xüsusi idarəetmə formasının tətbiq edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli Fərmanı bu bəsit və ədalətsiz strategiyanın həyata keçirilməsində mərkəzin növbəti addımı oldu. Xüsusi idarəetmə formasının tətbiqi isə, əslində, Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarmaq demək idi.

R.Mehdiyev 20 Yanvar hadisələrinin mənbələrini təhlil edərək deyir ki, o vaxt Qərb dövlətlərinin Azərbaycandakı ictimai-siyasi vəziyyət barəsində tutduqları mövqeyi də nəzərdən qaçırmaq olmaz. Başlıca olaraq sovet və Qərb KİV-lərinin səyləri ilə "fanatik və qeyri-sivilizasiyalı" azərbaycanlının mənfi obrazı uydurulmuşdu ki, bundan da Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlı əhalinin etnik "təmizlənməsi"nin qanunauyğunluğu və əsaslılığı barədə fikrə bütün dünyanın ictimai rəyini hazırlamaq məqsədi güdülürdü.

Qlobal səviyyədə düşünülmüş bütün bu geosiyasi intriqa nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edildi, bir milyondan çox insan qaçqın və məcburi köçkün oldu, - onların 600 min nəfərini qadınlar və uşaqlar təşkil edirdi, - 30 minədək adam öldürüldü, habelə on minlərlə insan yaralandı, şikəst oldu, müharibə nə qədər insanın həyatını qara günə qoydu.

Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri vurğulayır ki, Yanvar faciəsi millətin tarixi yaddaşına ələmli hadisə, matəm günü kimi daxil oldu, lakin bununla yanaşı, Azərbaycan xalqının tarixində fədakarlıq və qəhrəmanlıq zirvəsi oldu.

Ötən 12 ildə respublikada və onun hüdudlarından kənarda çox böyük sayda kitab, məqalə və tədqiqat əsərləri işıq üzü gördü.

Onlarda bütün səbəbləri müəyyən etməyə, gizli mexanizmləri aydınlaşdırmağa, faciənin təşkilatçılarını aşkarlamağa və gələcək nəsillər üçün zəruri dərslər cıxarmağa cəhdlər göstərilir.

R.Mehdiyev bildirir ki, Rusiya Prezidenti Vladimir Putinin respublikaya ötənilki səfəri azərbaycanlıların yaddaşında həmişəlik qalacaqdır. Bütün Azərbaycan xalqı Rusiya liderinin azərbaycanlılar üçün xüsusilə vacib olan addımını yüksək qiymətləndirir. O, 20 Yanvar hadisələri qurbanlarının memorialını ziyarət etmiş və onun önünə gül-çiçək qoymuşdur. Bu, respublikada Rusiya ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərində və çoxsahəli münasibətlərdə yeni mərhələnin, quruculuq mərhələsinin başlanması rəmzi kimi qarşılanmışdır. R.Mehdiyev deyir: Şübhə yoxdur ki, Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiyaya yanvarın 24-də başlanan dövlət səfəri xalqlarımız arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsində daha bir addım olacaqdır.

*İTAR-TASS-ın xüsusi*
*müxbirinə müsahibədən,*
*19 yanvar 2002-ci il.*

## AZƏRTAC-IN VƏ "TURAN" İNFORMASİYA AGENTLİYİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

***- Ramiz müəllim, Azərbaycan Prezidenti Heydər Əliyevin Klivlenddə cərrahiyyə əməliyyatı keçirməsi, onun sağlamlığının vəziyyəti və bütün bunların respublikada daxili vəziyyətə təsiri ilə bağlı son günlər bəzi mətbuat orqanlarında müxtəlif yazılar gedir. Xahiş edirik, bu məsələlərə aydınlıq gətirəsiniz.***

- Əvvəla, onu bildirim ki, respublika daxilində vəziyyət tam sabitdir. Üç-dörd qəzeti çıxmaq şərtilə, mətbuat orqanları da bu məsələyə tam normal yanaşır və prosesləri obyektiv işıqlandırır. Bütün dövlət strukturları ahəngdar işləyir. Ölkəmizin başçısı səfərə getdiyi andan hər gün respublikanın bütün rəhbərləri ilə - Milli Məclisin sədri Murtuz Ələsgərovla, Baş nazir Artur Rasizadə ilə, mənimlə, güc strukturlarının rəhbərləri ilə və digər rəsmi şəxslərlə mütəmadi əlaqə saxlayır, gündəlik iş haqqında ona məruzə olunur və məsləhətləşmələr aparılır. Odur ki, ölkədəki vəziyyət və Prezidentin bu vəziyyət haqqında məlumatlandırılması, onun rəhbər göstərişlərinin alınması və həyata keçirilməsi sahəsində heç bir problem yoxdur.

O ki qaldı Prezidentin səhhəti ilə bağlı məsələyə, onun Nyu-Yorkdan Klivlendə getməsi, orada tam müayinədən keçməsi, həkimlərin məsləhəti ilə aparılmış cərrahiyyə əməliyyatı haqqında dolğun məlumat verilmişdir. Prezidentin səhhəti elə ağır deyil ki, hər gün bu haqda rəsmi açıqlamalar verilsin. Prezidentin cərrahiyyə əməliyyatından sonrakı vəziyyəti haqqında onu deyə bilərəm ki, elə fevralın 14-də, yəni cərrahiyyə

əməliyyatı aparılan günün axşamı işlərimiz haqqında mənim Prezidentlə geniş söhbətim olubdur.

Belə olduğu halda, bəzi mətbuat orqanlarını qane etməyən nədir? Əslində, hər şey gün kimi aydındır, bu qəzetlər müxtəlif şayiələr, yalan və uydurmalar yaymaqla respublikada vəziyyəti qarışdırmaq, əhalini çaş-baş salmaq istəyir. Belə təsəvvür yaranır ki, bu adamlar uydurma, böhtan yarışına çıxıblar. Bax, özlərini belə mənəviyyatsız işlərə həsr edirlər. Ölkəmizin başçısı ilə sonuncu dəfə mən dünən, yəni fevralın 15-də axşam danışmışam. Cərrahiyyə əməliyyatından sonra onun vəziyyəti tam qənaətbəxşdir, bərpa dövrü müvəffəqiyyətlə keçir. Bu gün yenə də telefon danışığımız olacaqdır. Odur ki, Prezidentin səhhəti ətrafında şou düzəltmək cəhdləri əbəsdir.

***- Ramiz müəllim, ölkəmizin başçısının respublikaya qayıdışı barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz, əgər mən bu gün konkret bir tarix söyləsəm, sabah yenə bundan da istifadə etməyə çalışacaqlar ki, bəs, deyilən informasiya doğru çıxmadı. Hər halda, cərrahiyyə əməliyyatından sonra bərpa üçün müəyyən vaxt lazımdır. Bu, bir həftə də, on gün də ola bilər. Bunu biz yox, həkimlər müəyyən edirlər. Biz yalnız arzu edə bilərik ki, bu proses qısa və müvəffəqiyyətli olsun. Prezidentə bərpa üçün Klivlenddə neçə gün qalmaq tələb olunursa, o qədər də qalacaqdır. O ki qaldı Prezidentin ölkədə olmamasının daxili vəziyyətə təsirinə, bu barədə narahat olmağa heç bir əsas yoxdur. O, hər gün, respublikada olduğu kimi, ölkəni idarə edir.

***- Müsahibəyə görə sağ olun.***

*“Azərbaycan” qəzeti,*
*17 fevral 2002-ci il.*

# BÖLGƏLƏRƏ GÖSTƏRİLƏN QAYĞI İNSANLARIN FİRAVANLIĞINA QAYĞI DEMƏKDİR

*Müstəqilliyin ilk illərindəki "bir saatlıq xəlifələr"in dağıdıcı siyasətini, ölkənin müxtəlif bölgələrində qeyri-sabitlik dövrünü görmüş Azərbaycan indi özünün uğurlu regional siyasəti ilə MDB-nin bir sıra digər dövlətlərindən yaxşı mənada xeyli üstünlüyü ilə fərqlənir. Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından dərhal sonra mərkəzi hakimiyyət yerlərdə insanların problemləri ilə məşğul oldu. İlk növbədə, təhlükəsizlik məsələləri ilə - çoxları hələ beş-yeddi il əvvəl küçəyə çıxmağa qorxurdu, silahlı quldurlar adamları qarət edir və öldürürdülər. İndi vəziyyət bambaşqadır, ölkə tamam başqa məsələləri həll edir. Prezidentin İcra Aparatının rəhbəri Ramiz MEHDİYEV "İzvestiya"ya müsahibəsində Azərbaycan Respublikası rəhbərinin regional siyasətindən danışır.*

***- Ramiz Ənvəroviç, 1990-cı illərin əvvəllərində yerlərdə vəziyyət doğrudanmı bu dərəcədə dramatik idi?***

- Vəziyyət ondan da betər, faciəli idi. Sadə xalq bunu heç zaman unutmur. Amma Prezidentin opponentləri bunu yada salmamağı üstün tuturlar. Biz çətin sınaqlar yolu keçmişik. Ölkənin bir çox rayonlarında camaat yalnız bir parça çörək arzusunda idi. Çörək çatışmırdı.

İndi vəziyyət başqa cürdür – biz bölgələrin inkişafı məsələləri ilə məşğul oluruq, onların potensialından səmərəli şəkildə necə

istifadə edilməsi barədə fikirləşirik. Özünüz başa düşürsünüz ki, bu, artıq tamam başqa səviyyəli vəzifədir.

***- Regional siyasət olmadan heç bir dövlətin – nə böyük, nə də kiçik dövlətin normal fəaliyyəti mümkün deyildir. Buna Azərbaycanda nə kimi əhəmiyyət verilir?***

- Ölkəmiz müstəqil hüquqi dövlət quruculuğu yolu ilə gedir və eyni zamanda, mürəkkəb siyasi və sosial-iqtisadi vəzifələri həll edir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, bazar mexanizmlərinin tətbiqi, rifahın təmin edilməsi sosial-iqtisadi islahatların ardıcıl surətdə aparılması ilə qırılmaz surətdə bağlıdır. Bu islahatlar da məhz ölkənin bütün potensialından səmərəli şəkildə istifadə edilməsi üçün şərait yaradılmasına yönəldilmişdir.

***- Bəs neft sahəsi necə?***

- Əsasən, Abşeronda və Xəzər hövzəsində cəmləşmiş neft sənayesi ölkəmizin həyatında, əlbəttə, öncül əhəmiyyətə malikdir.

Xarici sərmayələr cəlb edilməklə neft yataqlarının işlənilməsi lazımi infrastrukturun yaradılmasını, başqa sahələrin inkişaf etdirilməsini, sərmayə axınının artmasını və s. stimullaşdırmağa imkan verir. Bununla yanaşı, biz dərk edirik ki, ölkənin bütün bölgələrinin mənafeləri nəzərə alınmadan, respublikanın sosial-iqtisadi problemlərinin həllinə kompleks surətdə yanaşmadan hərtərəfli və dinamik inkişafa nail olmaq mümkün deyildir. Ona görə də dövlətimizin rəhbərliyi regional siyasətin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir.

***- Bu zaman qarşıya hansı məqsədlər qoyulur?***

- Bilirsiniz ki, müxtəlif dövlətlərdə regional siyasətin konkret məqsəd və vəzifələri onların sosial-iqtisadi

xüsusiyyətlərinə görə müxtəlif cür ola bilər. Bununla belə, istisnasız bütün ölkələrin, o cümlədən də Azərbaycanın regional siyasəti üçün səciyyəvi olan ümumi məqsədlər mövcuddur. Bunlar vahid iqtisadi məkanın yaradılmasından və möhkəmləndirilməsindən, dövlətçiliyin iqtisadi, sosial, hüquqi və təşkilati əsaslarının təmin edilməsindən, nisbi regional iqtisadi tarazlığa, dövlət üçün xüsusilə böyük əhəmiyyətə malik bölgələrin üstün inkişafına nail olmaqdan, bölgələrin təbii, o cümlədən resurs xüsusiyyətlərindən maksimum istifadə etməkdən və sairdən ibarətdir.

Aqrar islahatların həyata keçirilməsi respublikanın aqrar sektorunda təsərrüfatçılıq şəraitini kökündən dəyişdirmişdir. Bu sektor bölgələrin iqtisadiyyatının özəyini təşkil edir.

TRASEKA proqramı çərçivəsində Böyük İpək yolu nəqliyyat layihəsində iştirak etmək Azərbaycanın bölgələrində lazımi infrastrukturun yaradılmasını stimullaşdırır. Regional layihələrə sərmayələr cəlb edilməsi məqsədi ilə proqramlar hazırlanması da dövlətin regional siyasətinin əsas istiqamətlərinin təcəssümüdür.

Təəssüf ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasının ağır nəticələri ölkənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərir və regional siyasətə təshihlər etməklə, bu istiqamətdə ardıcıl tədbirlərin hərtərəfli həyata keçirilməsinə ciddi maneələr yaradır.

***- Azərbaycanın inzibati-regional strukturu özlüyündə nədən ibarətdir?***

- Hər bir dövlətin inzibati-ərazi bölgüsü onun təbiətinə, dövlət hakimiyyətinin və idarəçiliyinin vəzifə və funksiyalarına uyğundur. İnzibati-ərazi quruculuğu prosesində ölkənin

coğrafi miqyası, təbiətinin xüsusiyyəti, demoqrafik, iqtisadi və digər amillər nəzərə alınır.

Müstəqillik əldə edildikdən sonra Azərbaycanın inzibati-ərazi quruluşu elə bir ciddi dəyişikliyə məruz qalmayıbdır. İndi ona Naxçıvan Muxtar Respublikası, inzibati rayonlar və şəhərlər daxildir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ona bitişik 7 inzibati rayonun ərazisi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

***- Məlumdur ki, Prezident Heydər Əliyev regional inkişaf məsələləri ilə xüsusi maraqlanır. Prezidentin regional siyasəti hansı prinsiplərə əsaslanır?***

- Siz doğru qeyd etdiniz ki, Prezident Heydər Əliyev regional inkişaf məsələlərinə xüsusi diqqət yetirir. Bu, təsadüfi deyildir, çünki regional siyasət milli sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir.

İndiki mərhələdə Azərbaycanda regional siyasət əsas istehsal sahələrinin sabitləşdirilməsinə və iqtisadi artımın dönməz xarakterinin təmin edilməsinə, əhalinin məşğulluq probleminin köklü surətdə həllinə və bu zəmində ölkənin hər bir bölgəsində həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir.

Bu sahədə siyasət aydın, sadə və eyni zamanda mürəkkəbdir: bölgələrin maddi-təbii sərvətlərini təsərrüfat dövriyyəsinə cəlb etmək, iqtisadiyyatın idarə olunmasının forma və metodlarını təkmilləşdirmək, iqtisadi cəhətdən əsaslandırılmış layihələrin həyata keçirilməsinə sərmayə cəlb etmək.

***- Bölgələrdə siyasətin müəyyənləşdirilməsi daimi prosesdir. Təşəkkül tapmış inzibati bölgü ölkənin iqtisadi inkişaf mənafelərinə, islahatların bundan sonra da aparılmasına, kiçik və orta biznesin genişləndirilməsinə uyğundurmu?***

- Postsovet məkanındakı bütün digər dövlətlər kimi, Azərbaycan da ölkənin həyat fəaliyyətinin bütün sahələrini sarsıtmış dərin sosial-iqtisadi böhran keçirmişdir.

Ölkəni böhran vəziyyətindən çıxarmaq üçün Prezident Heydər Əliyevin bilavasitə özü tərəfindən işlənib hazırlanmış və ardıcıl surətdə həyata keçirilmiş proqram respublikamızın təşəkkül tapmış inzibati bölgüsü çərçivəsində gerçəkləşdirilmişdir. Ona görə də demək olar ki, bu inzibati bölgü ölkənin iqtisadi inkişaf mənafelərinə, ümumən, uyğundur. İndiki inzibati-ərazi quruluşu şəraitində bölgələrdə sosial-iqtisadi münasibətləri köklü surətdə dəyişdirmiş və kənd təsərrüfatında istehsalın xeyli artmasına təkan vermiş aqrar islahatlar, kiçik və orta biznesin inkişafını stimullaşdırmış özəlləşdirmə uğurla keçirilmiş, demokratik regional idarəetmə təsisatlarının bünövrəsini qoymuş yerli özünüidarə sistemi yaradılmışdır.

İndi kiçik və orta biznesə yardım proqramları hazırlanır. Proqramlarda regional əlamətlər və inzibati-ərazi vahidlərinin xüsusiyyəti nəzərə alınır.

***- Azərbaycanda bölgələrin iriləşdirilməsinin, bölgələrarası strukturlar yaradılmasının mümkünlüyü nəzərdən keçirilirmi?***

- Bölgələrin iriləşdirilməsi, bölgələrarası strukturlar yaradılması məsələləri bu gün ölkəmiz üçün aktual deyildir. Məlumdur ki, dövlətin inzibati-ərazi quruluşunun sabitliyi onun sosial-iqtisadi və siyasi möhkəmliyinin göstəricilərindən biridir. Bəzən cəmiyyətdə respublikanın inzibati-ərazi quruluşunun dəyişdirilməsinə dair təkliflər irəli sürülsə də, bunlar hər hansı təhlilə əsaslanmır, bu məsələyə konseptual yanaşılmır və regional siyasətə dair elmi surətdə əsaslandırılmış müddəaları

nəzərə almır. Ümumiyyətlə, dövlətin mövcud inzibati bölgüsünü saxlamağın məqsədəuyğunluğu fikri üstünlük təşkil edir.

Həm də nəzərə almaq lazımdır ki, Azərbaycan öz coğrafi miqyasına görə böyük ölkə sayılmır və təşəkkül tapmış inzibati-ərazi strukturu müasir siyasi və sosial-iqtisadi inkişafın tələblərinə uyğundur, dövlət siyasətini bütün ölkədə daha operativ və səmərəli həyata keçirməyə imkan verir və inzibati vahidlərin regional xüsusiyyətlərini nəzərə alır.

***- Digər MDB ölkələrində aparılan inzibati islahatların təcrübəsi Azərbaycan üçün maraq doğururmu?***

- Demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatının formalaşdırılması prosesində Azərbaycan dəyərli xarici təcrübəni, o cümlədən də Qərbi Avropa dövlətlərinin və MDB ölkələrinin təcrübəsini öyrənir və əxz edir.

Təbii ki, Qərbi Avropa ölkələrinin regional siyasət təcrübəsi, o cümlədən inzibati islahatlar təcrübəsi xüsusi əhəmiyyətə malikdir.

Onlarda islahatlar dərin elmi tədqiqatlara, ətraflı regional diaqnostika və ekspertizanın nəticələrinə əsaslanır. Yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlər yaratmaq yoluna bu yaxınlarda qədəm qoyan MDB ölkələri dövlət quruculuğunda müəyyən təcrübə toplamışlar. Öz potensialına görə bu ölkələr arasında mühüm fərqlər var. İnzibati quruluşda köklü dəyişikliklər həyata keçirən Rusiya Federasiyası daha geniş maddi-texniki və elmi-intellektual imkanlara malikdir.

Biz MDB ölkələrində gedən prosesləri diqqətlə izləyir, onların təcrübəsini araşdırır, Azərbaycan Respublikasının özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla, bu təcrübəni tətbiq etmək imkanlarını üzə çıxarırıq.

***- Siz bölgələrdə yerli özünüidarə orqanlarının - bələdiyyələrin yaradılması prosesinin gedişindən razısınızmı? Onların icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri necə təşəkkül tapır?***

- Əhalinin geniş dairələrini dövlətin idarə olunması prosesinə fəal cəlb etmək cəmiyyətdə demokratik dəyişikliklərin həyata keçirilməsinin zəruri şərtlərindən biridir. Yerli özünüidarə orqanlarının – bələdiyyələrin yaradılması 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuşdur. Respublika Konstitusiyasının dördüncü bölməsi tamamilə bələdiyyələrə həsr olunmuşdur. Burada yerli özünüidarənin təşkilinin əsas prinsipləri müəyyənləşdirilir. 1999-cu il dekabrın 12-də çoxpartiyalılıq prinsipləri əsasında bələdiyyələrə seçkilər keçirilmişdir. Burada geniş siyasi spektr təmsil olunmuşdur. Regional siyasətin həyata keçirilməsində yerli özünüidarə orqanlarına xüsusi rol ayrılır. Bələdiyyələrin öncül vəzifələri təsərrüfatın inkişafına kömək göstərməkdən, müvafiq yerli proqramların gerçəkləşdirilməsi vasitəsilə əhalinin sosial və iqtisadi mənafelərini qorumaqdan ibarətdir.

Yerli özünüidarə orqanlarının dövlət hakimiyyətinin yuxarı strukturları ilə əsas əlaqəsi bələdiyyələrin büdcələri vasitəsilə həyata keçirilir. Qanunda nəzərdə tutulmuşdur ki, lazım gələrsə, qanunvericilik və icra hakimiyyətləri bələdiyyələrə əlavə səlahiyyətlər verə bilər. Bu səlahiyyətlərin icrası üçün bələdiyyələrə müvafiq maliyyə vəsaiti ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edir.

Respublikada yerli özünüidarə orqanlarının uğurlu fəaliyyəti üçün lazımi şərait yaradılmasının ümidverici prosesi gedir.

Bələdiyyələrin fəaliyyətinin normativ hüquqi əsasını yaradan mühüm qanunlar qəbul edilmişdir, dövlətin köməyi ilə maddi-texniki baza formalaşdırılır, yerli problemlərin həlli sahəsində tədricən təcrübə toplanır. Hələlik bu orqanların fəaliyyətinin vüsət almasından danışmaq olmaz. Təbii ki, bu, obyektiv və subyektiv xarakterli bir çox amillərlə də bağlıdır. Gərək insanlar bələdiyyələrin rolunu dərindən dərk etsinlər və öz qüvvələrinə inansınlar. Lakin ən başlıcası budur ki, qısa müddətdə toplanmış təcrübə seçilmiş yolun düzgünlüyünü təsdiqləyir.

*"Azərbaycan" qəzeti,*
*30 iyun 2002-ci il.*

## AZƏRBAYCANIN SİYASİ GƏLƏCƏYİ HEYDƏR ƏLİYEVİN FƏAL TƏRƏFDARLARI VƏ ARDICILLARI İLƏ BAĞLIDIR

Avqustun 24-ü müstəqil Azərbaycanın tarixinə qızıl xətlə yazılacaqdır. Məhz həmin gün respublikanın vətəndaşları Prezident Heydər Əliyev tərəfindən təklif olunmuş “Azərbaycan Respublikasının Konsititusiyasına dəyişikliklər edilməsi haqqında” Aktın layihəsinə ümumxalq səsverməsində fəal iştirak etmişlər. Referenduma çıxarılan məsələlərin son dərəcə aktual olduğunu və Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasının təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə yönəldiyini başa düşən xalq, vaxtında irəli sürülmüş bu təşəbbüsə öz müsbət münasibətini nümayiş etdirərək, Heydər Əliyevin siyasətini dəstəklədi.

“Bakinski raboçi” qəzeti redaksiyasının xahişi ilə Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev referendumun necə keçdiyindən, Azərbaycan cəmiyyətinin həyatının müxtəlif sahələrində nə kimi dəyişikliklər baş verdiyindən və bir çox digər məsələlərdən danışır.

***- Bir sıra müxalifət partiyalarının rəhbərləri xalqı referendumu boykot etməyə çağırsa da, beynəlxalq müşahidəçilərin etirafına görə, referendum baş tutdu və çox mütəşəkkil keçdi. Azərbaycan xalqı yeni müstəqil dövlət quruculuğunda Prezident Heydər Əliyevin rolunu hələ də şübhə altına almağa can atanların sözünə uymadı.***

- Referenduma çıxarılmış məsələlər demokratik, hüquqi dövlətin tələblərinə tamamilə cavab verir. Yeddi il əvvəl qəbul

olunmuş Konstitusiyamızı daha da təkmilləşdirmək zərurətini həyatın özü tələb edirdi. Ölkənin əsas qanunvericilik sənədindəki dəyişikliklər müstəqil Azərbaycanın ərazisində yaşayan hər bir insanın hüquq və azadlıqlarının qorunmasına əlavə təminatlarla, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyəti ilə bağlıdır.

Referendumda respublika vətəndaşlarının 83 faizi iştirak etdi və onların 96 faizi dəyişikliklərə səs verdi. Bu rəqəmlər Konstitusiyaya təklif olunmuş düzəlişlərin əhali tərəfindən qeyd-şərtsiz bəyənildiyini göstərir və xalqın birliyini, Prezident Heydər Əliyevin siyasi xətti ətrafında sıx birləşdiyini nümayiş etdirir. Odur ki, heç bir pozucu qüvvələr və müxalifət partiyaları hadisələrin gedişinə, vətəndaşların ümumxalq səsvermәsində iştirak etmək qərarına təsir göstərə bilmədi, çünki ölkə əhalisi Azərbaycanın həyatındakı dəyişikliklərin vacibliyini və əhəmiyyətini dərk edir.

Yadınızdadırsa, radikal müxalifət lap əvvəldən, əsasən, üç düzəlişlə, daha dəqiq desək, 83-cü, 105-ci maddələrdəki və 130-cu maddənin III hissəsinin 7-ci bəndindəki dəyişikliklərlə razı deyildi. Birinci düzəlişdə proporsional seçki sisteminin ləğv olunması və Milli Məclisə seçkilərin ancaq majoritar sistem əsasında keçirilməsi təklif edilirdi. Yeri gəlmişkən, ABŞ-da, Böyük Britaniyada, Kanadada, Avstraliyada və bir çox digər demokratik ölkələrdə seçkilər majoritar sistem üzrə keçirilir. Müsavat, Milli İstiqlal, Xalq Cəbhəsi və Demokrat partiyalarının rəhbərləri öz narazılığını onunla əsaslandırırdılar ki, guya bu dəyişiklik çoxpartiyalı sistemə zərbə vuracaqdır. Lakin onların tezisi bir çox ölkələrin çoxillik təcrübəsi ilə təkzib edilir. Majoritar sistemin əsasında seçicilərin daha çox səsini toplamış

namizəd durur. Belə sistem zamanı seçici kimə səs verdiyini və gələcəkdə onun qarşısında kimin məsuliyyət daşıyacağını bilir.

105-ci maddəyə təklif olunan düzəlişdə prezident obyektiv səbəblərə görə səlahiyyətlərini özü yerinə yetirə bilmədikdə, onun səlahiyyətlərinin parlamentin sədrinə deyil, baş nazirə verilməsi nəzərdə tutulurdu. Onların fikrincə, bu düzəliş ölkənin həyatında parlamentin rolunu aşağı salır. Siyasi opponentlərimiz bu məsələdə də ictimai şüurdan, elektoratın müəyyən hissəsinin məlumatsızlığından sui-istifadə edirlər. Problemin mahiyyəti isə bundadır ki, indiki halda Azərbaycan rəhbərliyi bir çox ölkələrdə, o cümlədən Rusiyada, Fransada və ABŞ-da mövcud olan təcrübəni əsas götürmüşdür. Bu dövlətlərin hamısında vahid qayda var: prezident tutduğu vəzifədən vaxtından əvvəl getdikdə, onun səlahiyyətlərini icra hakimiyyəti iyerarxiyasında ikinci yeri tutan şəxs, yəni vitse-prezident və ya baş nazir icra edir. Unutmamalıyıq ki, Konstitusiyaya görə, Azərbaycanda prezident respublikası modeli qüvvədədir. Qeyri-demokratik müxalifətin rəhbərləri isə heç bir məntiqi dəlil olmadan, bu məsələdə bir çox Qərb dövlətlərində uğurla tətbiq edilən konstitusiya qaydasının əleyhinə çıxırlar.

130-cu maddənin III hissəsinin 7-ci bəndinə düzəlişə gəldikdə, bildiyiniz kimi, o, mülki məhkəmələr sisteminə siyasi partiyaları və qeyri-hökumət təşkilatlarını buraxmaq hüququ verərək, sonuncuların təkcə Konstitusiya Məhkəməsinə deyil, bütün məhkəmə instansiyalarına müraciət etməsinə, aşağı məhkəmələrin qərarlarından apellyasiya qaydasında Konstitusiya Məhkəməsinə də şikayət verməsinə və qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin bütün subyektlərinin, partiyaların hüquq bərabərliyinin gözlənilməsinə təminat verir.

Ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklər siyasi sistemin təkmilləşdirilməsinə, çoxpilləli ədalət mühakiməsinin həyata keçirilməsinə, respublika vətəndaşlarının hüquq və azadlıqlarının genişləndirilməsinə yönəldilmişdir və bizim siyasi və hüquqi sistemimizi sovet və post-sovet hüquq sisteminin özünü doğrultmayan siyasi və hüquqi normalarından, "qalıqlarından" azad edir. Siyasi opponentlərimizin iddialarının əksinə olaraq, biz Konstitusiyamızı, qanunlarımızı və digər normativ hüquqi aktlarımızı ayrı-ayrı şəxslərin, hansısa hakimiyyət qruplarının siyasi mənafelərinə, hakimiyyət və cəmiyyətdə nüfuz uğrunda mübarizə mülahizələrinə uyğunlaşdırmırıq. Eyni zamanda, biz mühüm siyasi qərarlar qəbul olunarkən və hüquq sistemi təkmilləşdirilərkən ayrı-ayrı siyasi partiyaların, siyasi və regional qruplaşmaların siyasətbazlıq edən "liderlərinin" məhdud şəxsi və korporativ mənafelərini əsas götürə bilmərik. Bizim üçün başlıcası, vətəndaşların hüquqlarının və əsas azadlıqlarının qorunması üçün səmərəli sistem yaradılması, siyasi və iqtisadi sistemin rəvan inkişafına, siyasi proseslərin ardıcıl, ağrısız getməsinə təminat verilməsidir.

Əlbəttə, demokratikləşdirmə prosesi, hüquq normalarının və siyasi mədəniyyətin Qərbi Avropanın hamılıqla qəbul edilmiş standartlarına yaxınlaşdırılması özlüyündə mürəkkəb, uzunsürən proses olub, təşkilati və tərbiyəvi xarakterli ardıcıl, məntiqi tədbirlər görülməsini, yeni siyasi dəyərlərin siyasətin hər bir subyektinin, hər bir insanın həyat tərzinə çevrilməsini tələb edir. Ona görə də biz cəmiyyətimizin həyatı ilə bağlı bu taleyüklü məsələlərdə tələsməyin, irəliyə qaçmağın əleyhinəyik. Biz istəyirik ki, qəbul etdiyimiz yeni qanunlar və siyasi normalar cəmiyyətin daha da sabitləşməsinə və sıx birləşməsinə,

həqiqi demokratikləşməyə xidmət etsin. 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızın bu mühüm dəyişikliklərə ehtiyacı var idi. Bunu idarəçilik sistemində tərəqqinin mənafeləri də tələb edirdi. Nə gizlədim, biz beynəlxalq təcrübədən də istifadə etmişik ki, bu da təbii prosesdir. Axı heç bir hüquq sistemi sırf milli hadisə deyildir, heç bir dövlət öz hüquq sistemini digər ölkələrin təcrübəsini nəzərə almadan yaratmayıbdır.

***- Doğrudanmı majoritar sistem, müxalifət ideoloqlarının iddia etdikləri kimi, siyasi qüvvələrin real nisbətini və onların parlamentdə buna uyğun təmsil olunmasını əks etdirmir? Bu barədə düzəliş respublikada çoxpartiyalı sistemin inkişafına mane ola bilərmi?***

- Majoritar seçki sisteminin mahiyyəti ondadır ki, seçicilərin səslərinin müəyyən çoxluğunu toplamış namizəd seçkilərdə qalib gəlmiş hesab edilir. Respublikanın qanunvericiliyi seçkilərin növündən (prezident, parlament seçkiləri və ya yerli seçkilər) asılı olaraq, səslərin məhz hansı çoxluğunu - nisbi və ya mütləq çoxluğunu toplamağın zəruruliyini müəyyənləşdirir. Buna uyğun olaraq, nisbi çoxluğun majoritar sistemini və mütləq çoxluğun majoritar sistemini fərqləndirirlər. Nisbi çoxluğun majoritar sistemində öz rəqiblərinin hamısından çox səs toplamış namizəd seçilmiş hesab edilir. Bu sistem sadədir, çünki hətta minimum üstünlük qazanmış bir namizədin qələbəsini təmin edir. Dediyim kimi, hazırda bu sistemdən ABŞ-da, Kanadada, Böyük Britaniyada, Yeni Zelandiyada və digər ölkələrdə istifadə olunur.

Mütləq çoxluğun majoritar sistemi nəzərdə tutur ki, səsvermədə iştirak etmiş seçicilərin səslərinin yarısından çoxunu (50, faiz üstəgəl bir səs) qazanmış namizəd seçilmiş hesab olunur. Fransada V Respublikanın bütün prezidentləri bu sistem

üzrə seçilmişlər və yalnız 1958-ci ildə Şarl de Qoll birinci dövrədə səslərin 78,5 faizini toplamağa müvəffəq olmuşdu, qalan prezident seçkilərinin hamısı iki dövrədə keçirilmişdir.

Adı çəkilən seçki sisteminin  bir sıra müsbət cəhətləri var: seçicilərlə deputatlığa namizədlər arasında bilavasitə əlaqənin olması partiyaların iriləşməsinə və sabit çoxpartiyalı sistemin yaranmasına kömək edir. Bu müsbət cəhədləri əsas götürərək, ölkə Konstitusiyasına düzəliş etmək qərara alınmışdır.

Zənnimcə, Konstitusiyaya yeni düzəlişlər ediləndən sonra partiyalararası və partiyadaxili proseslərdə əhəmiyyətli dəyişikliklər baş verməyəcəkdir. Bu düzəlişin partiyalara mənfi təsirindən danışmağa dəyməz. Siyasi partiyalar siyasi mübarizənin ehtiyaclarından yaranır və qanuna uyğun olaraq fəaliyyət göstərirlər. Siyasi partiyaların sosial bazası, idarəetmə sistemi və fəaliyyəti seçki sistemlərindən asılı deyildir. Bu dəyişikliklər ancaq dərnək tipli "partiyalara", digərlərinin əlaltısı olan partiyalara təsir göstərə bilər. Öz ənənələri olan sabit partiyalar üçün isə yeni dəyişikliklər ancaq faydalı ola bilər. Sonuncu parlament seçkilərini yadınıza salın, onda partiya siyahıları, bir qayda olaraq, partiya "liderləri" tərəfindən öz bildikləri kimi və ya ilkin seçkilər – "praymeriz" əsasında tutulurdu. Onlar öz siyahılarına partiya qarşısında, əslində, heç bir xidməti olmayan, amma yalnız partiya bossları üçün "sərfəli" olan şəxsləri daxil edirdilər. Bu da, öz növbəsində, partiyalarda güclü narazılığa, kütləvi surətdə istefalara, siyasi təşkilatların parçalanmasına gətirib çıxarırdı. AMİP-də, ADP-də, AXCP-də və digər partiyalarda məhz belə olmuşdur.

Majoritar sistem isə, əksinə, yerlərdə partiya strukturlarının inkişafına, yerli müxalifət elitasının irəli çəkilməsinə, ayrı-ayrı

şəxslərin həqiqi potensialının üzə çıxmasına, təkcə “yuxarıdan” deyil, həm də “aşağıdan” demokratikləşdirməyə təkan verir. Əgər partiyalar həqiqi demokratiyanın tərəfdarıdırsa, onlar yeni seçki sisteminin əleyhdarı ola bilməzlər.

***- Bir çox ekspertlər, hətta bəzi beynəlxalq təşkilatların nümayəndələri hesab edirlər ki, Azərbaycanda demokratik müxalifət yoxdur. Bu, özünü onda da göstərir ki, bir sıra müxalifət partiyalarının rəhbərləri hər şeyi qara rəngdə görür, “əgər mən hökumət olsaydım, bu işi görərdim, o işi görərdim” prinsipi ilə hərəkət edərək, cəmiyyətdə baş verən müsbət dəyişiklikləri görmək istəmirlər.***

- Biz istəsək də, istəməsək də belə qənaətlərlə razılaşmalıyıq. Müxalifət partiyaları rəhbərlərinin ifrat demaqogiyalarına baxmayaraq, onları milli mənafelər az maraqlandırır. Onlar hakimiyyət davası aparır, yeni qisas almaq istəyirlər. Ali münsif hüququnu mənimsəyərək, iqtidara qarşı ancaq əsassız, pozuculuq məqsədi daşıyan tənqidlə məşğuldurlar. Onlara elə gəlir ki, hər şeyi – nəyin yaxşı, nəyin isə pis olduğunu və vəziyyətin daha yaxşı olması üçün nə etmək lazım gəldiyini həmişə bilirlər. Faktlar isə bunun əksini göstərir. Həyat onlara dərs olmadı. Bu adamlar bir il ərzində hakimiyyətdə oldular. Həmin müddətdə Azərbaycan xalqına və dövlətinə elə ziyan vurdular ki, ölkə o dövrün əzab-əziyyətini indi də çəkir. Yəqin ki, 1990-cı illərin əvvəllərini – dərəbəylik və anarxiyanın hökm sürdüyü, özbaşınalığın cəmiyyət həyatının bütün sahələrini bürüdüyü illəri xatırlayırsınız. Azərbaycan xalqının tarixinin taleyüklü dövründə özlərinin acizliyini və səriştəsizliyini nümayiş etdirən onlar deyildilərmi?!

Bu günədək təxminən 40 partiya qeydiyyatdan keçmişdir. Özü də onların böyük əksəriyyəti iqtidara müxalifətdədir. Lakin

bu partiyalar real siyasi qüvvədən daha çox yamsılamadır, əsasən, öz taleyindən narazı olan, dəqiq ideya mövqeləri olmayan adamlardan ibarətdir. Bütün bunlar belə deməyə əsas verir ki, bizdə konkret təbəqəyə, yaxud da elektorata istiqamətlənmiş ciddi demokratik müxalifət partiyaları yoxdur.

Açıq-aşkar qəbul edilən liderin olmaması, partiya və bloklarda liderlik uğrunda gedən amansız mübarizə, ayrı-ayrı qruplaşmaların hegemonluq cəhdləri onların öz ziddiyyətləri və siyasi hikkələri içində dolaşıb qalmasına, partiyadaxili çəkişmələrə qurşanmasına gətirib çıxarmışdır.

Bölgələrdə əhalinin dəstəyini qazana bilməmələrinin səbəbi isə çox sadədir – insanlar müxalif "siyasətçilərdən" hələ 1992-1993-cü illərdə məyus olmuşdular. İndi bu partiyaları siyasi təşkilatlar deyil, Bakının mərkəzi hissəsi çərçivəsində daha çox "şəxsi birliklər" hesab edənlər haqlıdırlar. Obrazlı desək, partiyalarda "liderlər" var, tərkibi və sosial bazası baxımından isə partiyaların özləri yoxdur.

Bu gün müxalifətçi qruplar istədikləri qədər mitinq keçirə və ya boykot edə bilərlər, amma bunun bir nəticəsi olmayacaq, çünki xalq onların "yürüşlərindən" və "yığnaqlarından" bezmişdir. İqtidarı tənqid etmək hər bir sivilizasiyalı ölkənin ictimai-siyasi həyatında adi haldır. Sağlam müxalifət iqtidara lazımdır. Lakin siyasi tarazlığı pozmağa çalışaraq, konstitusiya quruluşunun əsaslarının təftiş olunmasını tələb edənləri iqtidar dəstəkləməyəcəkdir.

***- İqtidar və müxalifətin dialoqu demokratik dövlətin həyatında çox mühüm amildir. Bu gün iqtidarla müxalifətin qarşılıqlı münasibətləri necədir?***

- Müxalifətçi partiya və hərəkatlar müasir Azərbaycanın siyasi sisteminin bir hissəsinə çevrilmişdir. İndi cəmiyyət

həyatının bütün tərəflərini əhatə edən dəyişikliklər siyasi sahədə, bəlkə də, daha aydın və aşkar şəkildə nəzərə çarpır. Siyasi həyat siyasi proseslərin rəngarəngliyi və dinamikası ilə fərqlənən yeni məzmunla dolğunlaşır.

Əlbəttə, iqtidarla müxalifət arasında vicdanlı, normal, sivil münasibətlər bütün cəmiyyət üçün nümunədir, siyasi sabitliyə, əhalinin müxtəlif qrupları arasında siyasi mədəniyyət, tolerantlıq tərbiyə olunmasına kömək edir. Bu da millətin intellektual və mənəvi qüvvələrini təxirəsalınmaz ümummilli vəzifələrin həllinə, xalqın daxilində inteqrativ meyillərin güclənməsinə səfərbər etməyə yardım göstərir.

Lakin müxalifətin indiki mövqeyini normal və sivil mövqe hesab etmək olmaz. Onların qəzetlərini təhlil etmək kifayətdir. Bu cür münasibəti ölkə əhalisi də mənfi qarşılayır. Azərbaycanın ictimai fikri konkret siyasi mənsubiyyətindən asılı olmayaraq, siyasətçilər arasında sağlam, dözümlü münasibət olmasını tələb edir. Yeri gəlmişkən, Prezident Heydər Əliyevin simasında Azərbaycanın hakim komandası iqtidarla müxalifət arasında münasibətlərin normallaşmasına yönəldilmiş təşəbbüslərlə dəfələrlə çıxış etmişdir. Belə çağırışlar Yeni Azərbaycan Partiyasının birinci və ikinci qurultaylarında, Dağlıq Qarabağ probleminin Milli Məclisdə müzakirəsi zamanı, digər dövlət tədbirlərində olmuşdur. Hətta bəzən elə görünürdü ki, siyasi opponentlər mühüm ümummilli məsələlərdə, daxili siyasət problemlərində konsensusa gəlməyə yaxındırlar. Amma son anda gözlənilmədən nə isə müxalifət partiyalarını mümkün kompromisləri pozmağa təhrik edirdi.

Hakimiyyət iddiaları göz qabağındadır. Bizim fikrimizcə, siyasi mədəniyyətin səviyyəsi yüksəldikcə, demokratik

müxalifət formalaşdıqca iqtidarla müxalifətin münasibətləri normal məcraya düşəcək, kompromis qərar, ümummilli problemlərə ağılla yanaşma nümunəsi olacaqdır.

***- Sizcə, Azərbaycanda normal demokratik müxalifət hansı istiqamətlərdə formalaşa bilər? Bu proses nə dərəcədə uzun çəkər?***

-Son onillikdə Azərbaycanda siyasi mübarizənin gedişi göstərir ki, qeyri-demokratik, davakar əhval-ruhiyyəli müxalifətin əsas liderləri və ənənəvi tərəfdarları dəyişməz qalırlar. Bu illər ərzində müxalifətin sıralarına az adam, əsasən, dövlət qulluğundan uzaqlaşdırılmış adamların kiçik bir hissəsi, yaxud da hakimiyyət iddiaları ödənilməmiş şəxslər qoşulmuşdur. Bununla yanaşı, partiyaların sosial bazası dağılmaqda davam etmişdir ki, bu da nəticə etibarilə onların əksəriyyətinin, əslində, təriqətçi təşkilatlara, korporativ surətdə birləşmiş insanların dərnəklərinə çevrilməsinə gətirib çıxarmışdır. Köhnə müxalifətin sıraları bitərəflərin, xüsusən də hakim partiyadan olanların nəzərəçarpacaq dərəcədə sayı hesabına artmamışdır. Ona görə də belə bir fakt tamamilə normal və təbiidir ki, yeni müxalifətin formalaşması prosesi elə müxalifət mühitinin öz daxilində gedir. Bu nəticə indiki çoxpartiyalı sistemin təşəkkül tarixi ilə də təsdiqlənir. Əgər yaxın tariximizə nəzər salsaq görərik ki, indiki bir çox müxalifət partiyaları ayrı-ayrı qrupların Xalq Cəbhəsindən qopub ayrılması nəticəsində meydana gəlmişdir.

Məsələn, bu partiyaların rəhbərliyi gənclər tərəfindən ciddi müqavimət və narazılıqla qarşılaşır. Partiyanın yuxarı dairələrinin qeyri-konstruktivliyi, davakar radikalizmi, hakimiyyətlə mübarizə metodları, heç nə verməyən mütəmadi mitinqlər, yürüşlər gəncləri hiddətləndirir. Müşahidələr göstərir ki, bu ziddiyyətlər

bundan sonra da dərinləşəcək və kəskinləşəcəkdir. Gənclər donuq təfəkkürlü, dünyada və ölkədə baş verən dəyişikliklərdən xəbərsiz olan ortodoksal rəhbərlərini uzaqlaşdırmaq istəyirlər.

Biz radikal, barışmaz partiyaların regional strukturları arasında böyük narazılıq olduğunu müşahidə edirik, onlar partiya rəhbərliyinin çirkin oyununda iştirak etmək istəmirlər. Bu partiyaların bir çox sıravi üzvləri cəmiyyətdə gedən müsbət dəyişiklikləri, quruculuq proseslərini, möhtəşəm iqtisadi və sosial layihələrin həyata keçirildiyini görərək, özlərinin "partiya bossları"na bütün inamlarını itirmişlər. Onlar öz "liderlərinin" siyasi xəttinin, taktika və strategiyasının (əgər belə şeylər varsa) perspektivsizliyini tədricən başa düşür və belə bir qənaətə gəlirlər ki, Prezident Heydər Əliyevin siyasətinin alternativi yoxdur. ADP-nin, Müsavatın, AMİP-in, AXCP-nin (istər "islahatçılar", istərsə də "klassiklər" adlananların) yerli strukturlarından gözlərimiz qarşısında baş verən kütləvi surətdə tərketmə prosesini bununla izah etmək olar.

Partiyaların sıravi üzvləri hakimiyyət strukturlarına, Yeni Azərbaycan Partiyasına getdikcə daha çox nəzər-diqqət yetirirlər. Üstəlik də, partiyalardan onların yaradıcısı olan adamlar uzaqlaşırlar. Zənnimcə, konstruktiv, sivil müxalifətin təşəkkülü heç də sadə proses deyil və illərlə davam edəcəkdir.

Beləliklə, bu gün müxalifət partiyalarındakı obyektiv, sağlam düşüncəli bir çox insanlar partiya "liderlərinin" amirliyinə qarşı, onların düşünülməmiş, avantürist siyasətinə qarşı, həm antihökumət xarakterli, həm də, ümumən dövlət mənafelərinə zidd olan əməllərinə qarşı etirazlarını getdikcə daha uca səslə bildirirlər. Hesab edirlər ki, onların partiyalarının "liderləri" özlərinin sosial bazasını, cüzi intellektual və təşkilat potensialını tükəndirərək qəzəblənmiş, təhlükəli yola qədəm qoymuşlar.

Yeri gəlmişkən, guya həm iqtidara, həm də müxalifətin özünə müxalif olan hansısa bir "üçüncü qüvvə"dən dəm vurmağı xoşlayan bəzi adamlar barəsində də danışmaq lazımdır. Onların fikrincə, vaxt gələcək, bu "üçüncü qüvvə" istər iqtidarda, istərsə də müxalifətdə olan "ən yaxşı qüvvələri" özündə cəmləşdirərək, "əsl müxalifət" rolunu öz üzərinə götürəcəkdir. Lakin ənənəvi müxalifətin daxilində gedən proseslər bu cür mülahizələrin tamamilə əsassız olduğunu göstərir və "üçüncü qüvvə" haqqında mifi puça çıxarır.

***- Gələcək prezident seçkilərində vahid namizədin irəli sürülməsi barədə müxalifət liderlərinin və ideoloqlarının vaxtaşırı rəyləri eşidilir. Referendumdan sonra bu məsələ mətbuatda daha tez-tez hallandırılmağa başlanmışdır. Bu məsələ barədə fikrinizi bilmək istərdik.***

- Biz bunu mühüm və diqqət yetirməyə layiq məsələ hesab etmirik, lakin buna baxmayaraq, suala cavab verməyə çalışacağam. Siyasi partiya və hərəkatların hər hansı məsələlərin həlli üçün birləşməsinin tarixi göstərir ki, belə birliklər, adətən, möhkəm olmur, müvəqqətidir və taktiki məqsədlər güdürlər, bu məqsədlərə çatdıqdan sonra iştirakçıların iddiaları artır, mənafelər toqquşur və bir-birilərini qəbul etmirlər. Bütün bunlar onların dağılmasına gətirib çıxarır və biz bunu müxalif qüvvələrin müxtəlif blokları və alyanslarının timsalında dəfələrlə görmüşük.

Məlumdur ki, müxalifətin vahid namizədi məsələsi ilk dəfə qaldırılmır. Hələ 1998-ci ildə, prezident seçkiləri ərəfəsində mərhum Ə.Elçibəy müxalifətdən prezidentliyə yeganə namizəd olmağa çalışırdı. Lakin o vaxt bir çox partiya liderləri onun namizədliyini dəstəkləmədi, sonra da öz namizədliklərinin real

olmadığını görərək, prezident seçkilərində iştirakdan ümumiyyətlə imtina etdilər. Müxalifətin pərakəndə qüvvələrini bir bayraq altında birləşdirməyə sonralar da dəfələrlə cəhd göstərildi. Birləşmənin müxtəlif model və formatları uyduruldu. Lakin bu cəhdlər elə başlanğıcdan uğursuzluğa məhkum idi. Məsələ ondadır ki, bu, tamamilə əks ideoloji məramnamələri olan ən müxtəlif siyasi qruplaşmaları prinsipsizcəsinə birləşdirmək cəhdləri idi. Bu qruplaşmalara başçılıq edən şəxslər isə, bir qayda olaraq, son dərəcə iddialı adamlardır və heç bir nüfuz sahibini tanımırlar. Təsadüfi deyil ki, onların bir çoxu - L.Şövkət, İ.İsmayılov, R.Quliyev, E.Məmmədov qarşıdakı seçkilərdə öz namizədliklərini irəli sürmək niyyətində olduqlarını qətiyyətlə bəyan edirlər. Bundan əlavə, bu adamları münaqişəli təfəkkür tərzi də fərqləndirir. Onlar ən yaxşı halda qrup liderləri və ya regional miqyaslı liderlərdir. Ona görə də müxalifətdən vahid namizəd məsələsi, yəqin ki, xəyaldır.

Sual olunur, onlar nəyin naminə birləşirlər? Yalnız hakimiyyəti ələ keçirmək naminə, Prezident Heydər Əliyevə qarşı vahid qüvvə yaratmaq üçün. Bu "birliklər" hər hansı mənəvi və etik əsasdan da məhrumdurlar. "Birləşənlər" hələ bu yaxın vaxtlaradək bir-birini hər cür günahlarda, xəyanətkarlıqda, satqınlıqda, dövləti cinayətlərdə təqsirləndirən adamlardır. Hər bir bu cür "birlik" kompromatlar müharibəsini yenidən qızışdırır, iqtidarın opponentləri arasında parçalanmanı daha da dərinləşdirir.

Daha bir məsələni də qeyd edim. Gəlin, nəzəri cəhətdən təsəvvürə gətirək ki, müxalifətçilər birləşdilər və Heydər Əliyevə qarşı vahid namizədlə çıxış edirlər. Lakin əslində, belə vəziyyət də heç nəyi dəyişdirmir. Ölkə vətəndaşlarının böyük əksəriyyəti Azərbaycan Prezidentinin siyasətinə real alternativi

təsəvvürünə gətirmir. Azərbaycanın siyasi gələcəyi Heydər Əliyevin fəal tərəfdarları və ardıcılları, onun siyasətini ürəkdən dəstəkləyən adamlarla bağlıdır.

***- Hazırda respublikadakı qeyri-hökumət təşkilatlarının rolunu və fəaliyyətini qənaətbəxş hesab etmək olarmı?***

- Bu suala birmənalı cavab vermək asan deyildir. Qeyri-hökumət təşkilatları demokratik, vətəndaş cəmiyyətinin mühüm tərkib hissələrindən biridir. Tamamilə təbiidir ki, bu gün Azərbaycan cəmiyyəti QHT ideyasının özünü müsbət qarşılayır. Qeyri-hökumət təşkilatlarında müəyyən informasiya ehtiyatları, intellektual və təşkilati potensial cəmləşmişdir. Biz onların fəaliyyətini vacib və faydalı sayırıq. Müəyyən səbəblər üzündən dövlət strukturlarının fəaliyyəti çətinləşdikdə və ya bu sahələr, ənənəvi olaraq, ictimai təşkilatların fəaliyyət dairəsi olduqda, QHT-lərin işi xüsusilə səmərə verir. Həmin sahələrə xeyriyyəçilik fəaliyyəti, ana və uşaqların müdafiəsi, ekologiya, əhalinin aztəminatlı təbəqələri ilə iş kimi sahələr daxildir. QHT-lərin fəaliyyəti bir də ona görə faydalı və səmərəlidir ki, bu, Azərbaycan vətəndaşlarının müəyyən hissəsinə məşğulluq problemini həll etməyə imkan verir. Biz bu təşkilatları təxirəsalınmaz sosial və mədəni problemlərin həllində dövlətin mühüm tərəfdaşları sayırıq. Azərbaycan vətəndaşları beynəlxalq təşkilatlarla sıx əlaqədə işləyərək, bu strukturların fəaliyyət prinsipləri ilə tanış olur, qiymətli təcrübə toplayırlar ki, bu da gənc dövlət üçün olduqca vacibdir.

Bununla yanaşı, bəzi QHT-lərin fəaliyyətində mənfi məqamlar da var. Təəssüf ki, QHT-lərin xeyli hissəsi müəyyən dərəcədə siyasiləşib, müəyyən siyasi qüvvələrin nüfuz dairəsindədir. Bu bir yana, müxalifətçi siyasi partiyalar xarici

dövlətlərdən və beynəlxalq təşkilatlardan qrantlar almaq məqsədi ilə müxtəlif yönlü çoxsaylı QHT-lər yaratmışlar və bunlar çox zaman partiya strukturları rolu oynayır. Belə QHT-lər müəyyən ideoloji mövqelərdən çıxış edir. Təbii ki, onların işi müəyyən dərəcədə qərəzli xarakter daşıyır. Bu isə heç də siyasi ideyaların deyil, məhz ictimai ideyaların təbliğinə və həyata keçirilməsinə yönəldilməli olan QHT yaratmaq ideyasının və onun fəaliyyətinin üzərinə kölgə salır.

Siyasiləşdirilmiş QHT-lərin fəaliyyəti, bəzi beynəlxalq fondların və donor təşkilatların işi nəticəsində QHT rəhbərlərinin müəyyən hissəsində belə bir yanlış fikir yaranmışdır ki, qeyri-hökumət təşkilatları öz mahiyyəti etibarilə hökumətə zidd qurumlar olmalıdır.

Onların fikrincə, QHT-lər hökumətlə əməkdaşlıq etməməli, hökmən əks ideyalar və layihələrlə çıxış etməlidirlər. Müxalifət qüvvələri burada da öz "rolunu" oynayaraq, himayələrində olan qeyri-hökumət təşkilatlarını özlərinin siyasi kombinasiyalarının ünsürlərinə çevirmişlər.

Cəmiyyətdə siyasi partiyaların və QHT-lərin fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması barədə tələblər səslənir və mən bununla tam razıyam. Yeri gəlmişkən, bu tələblər müvafiq qanunlarda da öz ifadəsini tapmalıdır. Hakim partiya olan Yeni Azərbaycan Partiyası özünün illik maliyyə hesabatlarını müntəzəm surətdə açıqlamağa hazırdır. Müxalifət partiyaları isə bu cür çağırışlara əsəbiliklə reaksiya verərək, bunu onların partiyadaxili işinə müdaxilə kimi qiymətləndirirlər. Buna görə də siyasi dairələrin xeyli hissəsində müxalifət partiyalarının və QHT-lərin fəaliyyətinin maliyyə mənbələri barədə tamamilə haqlı şübhələr yaranır.

***- Keçmiş sovet cəmiyyətində ideologiya onun əsas sistem-yaradıcı ünsürlərindən biri, cəmiyyət və dövlət quruculuğunun mühüm amili idi. Bu ideologiya ətraflı şəkildə işlənilmişdi və insanların həyatının, əslində, bütün tərəflərini və sahələrini əhatə edirdi, nəzəriyyə və konsepsiyalarda sinfi mənafelərin və partiya mənafelərinin ifadəsi qəbul olunurdu. Lakin indi zəmanə də, adamlar da başqadır. Sizcə, bu gün bizə milli ideologiya lazımdırmı?***

- Azərbaycan dövlətinin və cəmiyyətinin ideologiyası respublikamızın Konstitusiyasında əks olunmuşdur. Burada insan hüquqları və azadlıqlarının, ümumbəşəri dəyərlərin öncüllüyü, siyasi plüralizm, söz azadlığı, dövlətin dünyəvi xarakteri kimi əsas prinsiplər göstərilmişdir. Ona görə də cəmiyyətin hər bir subyektinin, fərdin və ya siyasi təşkilatın hər hansı ideologiyası ölkənin Konstitusiyasına - Əsas Qanununa uyğunlaşdırılmalıdır. Hüquqi dövlətdə hamı üçün məcburi olan vahid ideologiyadan əsla söhbət gedə bilməz. Bu, demokratiya və siyasi plüralizm prinsiplərinə zidd olardı.

Bununla yanaşı, qloballaşma dövründə ümummilli ideyalara tələbatı rədd edən iddialarla da razılaşmaq olmaz. İndi hətta inkişaf etmiş ölkələr və xalqlar da milli həyatın çox güclü amilləri olan ümummilli ideyalardan imtina etməmişlər. Zənnimcə, ictimai-siyasi və iqtisadi münasibətlərin transformasiyası dövrünü yaşayan ölkələr və xalqlar üçün güclü, canlı, cəlbedici ümummilli ideyalar xüsusilə zəruridir. Bu ideyalar tərəqqiyə doğru yolda düzgün istiqamət götürməyə, keçid dövrünün labüd çətinliklərini və toqquşmalarını ağrı-acısız dəf etməyə kömək göstərir.

Belə ideyalar kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların köməyi ilə aktuallaşdırıla və geniş yayıla bilər.

Ümummilli ideyaların səmərəli və bəhrəli olması üçün onlar müəyyən meyarlara cavab verməlidir: əhalinin müxtəlif təbəqələri üçün inteqrativ, anlaşıqlı, vətəndaşların mənafelərinə və tələbatına yaxın olmalıdır.

***- Heç kimə sirr deyil ki, Azərbaycan vətəndaşları öz gələcəyini Heydər Əliyevin adı ilə bağlayırlar. Onun hakimiyyətə qayıdışından sonra ölkədə böyük dəyişikliklər baş vermiş, insanlarda sabahkı günə inam yaranmışdır. Ölkədə və xaricdə bir çox tanınmış adamların fikirlərinin leytmotivi belədir. Siz bu barədə nə deyərdiniz?***

-Bəli, həqiqətən, Prezident Heydər Əliyevin sayəsində bu gün Azərbaycan Respublikası həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyatda çox böyük uğurlar qazanmışdır. Respublika iqtisadiyyatına qoyulan sərmayələrin həcmi artır, xarici ticarət dövriyyəsi ilbəil genişlənir.

Düzgün iqtisadi strategiya nəticəsində ölkədə maliyyə-iqtisadi sabitlik təmin edilmiş, ardıcıl demokratik islahatlar aparmaq üçün lazımi hüquqi və iqtisadi baza yaradılmışdır. İndi biz ümumi daxili məhsul istehsalının artımına görə MDB dövlətləri arasında birinci yerdəyik. Xarici sərmayələrin qoyuluşu sahəsində də Azərbaycan MDB ölkələri arasında ən yüksək göstəricilərə malikdir.

Konkret faktlara və rəqəmlərə müraciət edək. 2002-ci ilin yanvar-iyul aylarında Azərbaycanda sərmayələrin həcmi 2001-ci ilin həmin dövründəki göstəricidən 2 dəfə çox olmuş və 5321,5 milyard manat təşkil etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, xarici kapital qoyuluşlarının həcmi 4173,5 milyard manata (ümumi həcmin 78,4 faizinə) çatmışdır. Bank kreditləri 5,6 dəfə artaraq, 691 milyard manat və ya

sərmayələrin ümumi həcminin 13 faizi qədər olmuşdur. Müəssisə və təşkilatların vəsaitləri hesabına sərmayələr 86,3 faiz artaraq, 4233 milyard manata çatmışdır ki, bu da əsas kapital kimi qoyulmuş bütün vəsaitin 79,5 faizini təşkil edir.

Əhali tərəfindən qoyulmuş sərmayələrin göstəricisi 255,2 milyard manata (artım 61,5 faiz), dövlət büdcəsindən qoyulmuş sərmayələrin göstəricisi isə 75,4 milyard manata bərabərdir.

Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində 1994-cü ilin sentyabrında "Günəşli", "Çıraq" və "Azəri" dəniz yataqlarının işlənilməsinə dair "Əsrin müqaviləsi" bağlanmış, onu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan 12 şirkət imzalamışdır. "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi nəticəsində neft sənayesinin maddi-texniki bazası möhkəmlənmişdir. Neftin emalı üçün müasir qurğular, iritonnajlı üzən kranlar, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" üzən qazma qurğuları istifadəyə verilmiş, dənizin dərin yerlərində işlər canlanmışdır. Hazırda "Çıraq" yatağında gündəlik neft hasilatı orta hesabla 118.400 barrelə çatmışdır. Mütəxəssislərin hesablamalarına görə, 2005-ci ildə neft hasilatının illik səviyyəsi 20 milyon tona çatacaqdır ki, bu da layihəyə qoyulmuş sərmayələrin xərcini çıxarmağa və mənfəət götürməyə imkan verəcəkdir. Azərbaycan indiyədək "Çıraq" yatağından 400 milyon dollarlıq mənfəət nefti almışdır.

Xəzərin Azərbaycan sektorunda, dənizin dərinliyi 80-350 metr və daha çox olan sahələrdə 27 iri karbohidrogen yatağı kəşf edilmişdir. Onların çıxarıla bilən ilkin neft ehtiyatları təxminən 800 milyon ton, qaz ehtiyatları isə təqribən 200 milyard kubmetrdir.

Qurudakı mədənlərin neftçiləri yaxşı sürətlə işləyirlər, onlar ilin əvvəlindən bəri 468 min tondan şox "qara qızıl" hasil etmişlər. 2002-ci il avqustun əvvəlinədək, yəni yeddi ayda

"Azəri-Çıraq-Günəşli" sahəsində təbii qaz hasilatının ümumi həcmi isə 555 milyon kubmetr olmuşdur.

İndi neft hasilatı sahəsində dünyanın 14 ölkəsindən 32 şirkət çalışır, onlar respublikamızla 21 müqavilə bağlamışlar. Azərbaycan netfi yüksək keyfiyyətli məhsuldur və dünyanın bir çox ölkələri üçün maraq doğurur. Odur ki, biz bu məhsulun dövlət üçün sərfəli qiymətlərlə hasilatına və satışına dair müqavilələr bağlamağa hazırıq.

Respublikada Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır, indi onun hesabında təxminən 630 milyon dollar vəsait toplanmışdır. Bu, iqtisadiyyatın neft sektorunu inkişaf etdirməyə, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəldilməsinə kömək etməyə imkan verəcəkdir.

İqtisadiyyatın bütün sahələrində aparılan struktur islahatları özəl sektorun inkişafına və əhalinin rifahının yüksəlməsinə təkan verir. İndi ümumi daxili məhsulda özəl sektorun payı 71 faizə, o cümlədən sənayedə 50 faizə, tikintidə 76 faizə, kənd təsərrüfatı və ticarətdə 99 faizə çatmışdır.

"Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" ölkə Prezidentinin 2002-ci ilin sentyabrında verdiyi Fərman özəl sektorun inkişafını stimullaşdırmağa yönəldilmişdir. Özəl sektor üçün daha əlverişli şərait yaradılması məqsədi ilə Fərmanda sahələr və regionlar üzrə fərq qoymaqla, vergi dərəcələrinin aşağı salınması, vergilərin sadələşdirilmiş sisteminin tətbiqi sahəsinin genişləndirilməsi, sosial sığorta haqlarının azaldılması nəzərdə tutulur. Prezidentin Fərmanına uyğun olaraq, 2003-2005-ci illərdə sahibkarlığın inkişafına 250 milyard manat, o cümlədən 2003-cü ildə 50 milyard manat vəsait ayrılacaqdır.

Ölkənin bütün bölgələrində sahibkarlığın inkişafına yardım sahəsində konkret tədbirlər hazırlanması və həyata keçirilməsi üçün Fərmanda Nazirlər Kabinetinə və digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilmişdir.

Prezident Heydər Əliyevin Fərmanına əsasən, kiçik və orta biznesin inkişafı üçün dövlət başçısı yanında Sahibkarlar Şurası yaradılmışdır. Onun əsas məqsədi respublikada sahibkarlığın inkişafına dair təkliflər hazırlayıb Prezidentə təqdim etməkdən ibarətdir.

Prezident "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (SKMF) haqqında" Əsasnaməni təsdiq etmişdir.

Fond respublikada sahibkarlığın inkişafı üçün maliyyə ehtiyatlarının cəlb olunmasına, əmtəə bazarının inkişafına, sağlam rəğbətin formalaşmasına, yeni iş yerlərinin yaradılmasına kömək etməlidir.

Fonda iqtisadiyyatın öncül sahələrində sahibkarlığın inkişafına yönəldilmiş proqramları birbaşa maliyyələşdirmək imkanı verilmişdir. SKMF-nin vəsaitlərinin bölüşdürülməsinə gəldikdə isə, bunları kreditlər üzrə bütün riskləri öz üzərinə götürən agent banklar verəcəklər. Fond bankla müqavilə bağlayır və 5 il müddətinə kredit xətti açır. Bütün bu yeniliklər ölkədə sahibkarlığın inkişafına kömək edəcəkdir.

Özəl sektorun stimullaşdırılması üçün müvafiq dövlət proqramlarında tədbirlər nəzərdə tutulmuşdur. Məsələn, ölkənin energetika sisteminin inkişaf etdirilməsi proqramında bu sistemdə köklü dəyişikliklərin həyata keçirilməsi nəzərdə tutulur. Bu islahatlar nəticəsində elektrik enerjisinin satışından gələn vəsaitin həcminin artması müşahidə olunur.

"2002-2006-cı illərdə Azərbaycan Respublikasında aqrar sektorun inkişafının dövlət proqramı"nın layihəsinin hazır-

lanması işi başa çatmışdır. Bu proqramdan məqsəd aqrar sektoru inkişaf etdirmək, torpaqların məhsuldarlığını yüksəltmək, rəqabət qabiliyyətli məhsul istehsalını təmin etmək və istehsalçıların ixrac fəaliyyətini stimullaşdırmaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalında da böyük uğurlar qazanılmışdır. Respublika Dövlət Statistika Komitəsinin məlumatına görə, 2002-ci il sentyabrın əvvəlinə ölkədə 2.100.000 tondan çox taxıl yığılmışdır.

Kənd təsərrüfatının başqa sahələrində də nəzərəçarpan irəliləyiş müşahidə olunur. 1995-ci ildən bəri ət, süd, yağ, yumurta istehsalı hər il çoxalır. Son 5-6 ildə bütün bu məhsulların istehsalı 30-40 faiz artmışdır.

Respublikamız daxili imkanlar hesabına ərzaq müstəqilliyi probleminin həlli istiqamətində çox mühüm addımlar atmışdır. 2001-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 11 faiz artmışdır.

Azərbaycanda bu günədək 1946 şirkət, xarici kapitalla işləyən 935 birgə müəssisə qeydə alınmışdır.

Son illər ölkədə iqtisadi inkişafın sosial yönümünü artırmaq, əhalinin rifahını yaxşılaşdırmaq üçün bir sıra mühüm tədbirlər görülmüşdür ki, bu da vətəndaşlarımızın yaşayış səviyyəsini yüksəltməyə imkan vermişdir. Təkcə ötən il əhalinin pul gəlirləri 10 faiz artmışdır. Əhalinin banklarda saxladığı depozitlərin həcmi təkcə 2001-2002-ci illərdə 1,7 dəfə artaraq, 622 milyard manata çatmışdır. Əhalinin pul gəlirlərinin artması, ilk növbədə, əmək haqqının qaldırılması ilə bağlıdır. 2002-ci ilin avqustuna olan məlumata görə, respublikada orta aylıq əmək haqqı 308,8 min manat olmuşdur. Bütün sahələrdə maaşların təxminən 25-30 faiz artırılması nəzərdə tutulur.

Etibarlı tərəfdaş olan Azərbaycan beynəlxalq maliyyə strukturları ilə - Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankı və digər maliyyə təşkilatları ilə əlaqələri genişləndirir.

Böyük İpək yolu, TRASEKA layihələrinin həyata keçirilməsinə dair hazırlıq işləri görülür. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təntənəli şəraitdə təməli qoyulmuşdur.

Ölkədə iqtisadi islahatların uğurla aparılmasında özəlləşdirmə siyasəti böyük rol oynamışdır. Azərbaycanda güclü infrastruktur yaradılır. Əldə edilmiş uğurlar Azərbaycan iqtisdiyyatının inkişaf perspektivləri barədə nikbin proqnozlar verməyə imkan yaradır. Bütün bunlar və bir çox digər nailiyyətlər ölkənin iqtisadi, sosial, mədəni və mənəvi yüksəlişində Heydər Əliyevin olduqca böyük quruculuq roluna Azərbaycan vətəndaşlarının bəslədikləri ümidləri bir daha doğruldur. Azərbaycan əhalisinin böyük əksəriyyəti öz Prezidentinin siyasi xəttini dəstəkləyir. “Proqnoz” Müstəqil Sosioloji Tədqiqatlar Mərkəzinin 2002-ci ilin iyulunda Bakıda keçirdiyi sorğu göstərmişdir ki, elektoratın 75 faizi Prezident Heydər Əliyevə inanır. Əgər seçkilər qarşıdakı bazar günü keçirilsəydi, seçicilərin təxminən 70 faizi Heydər Əliyevə səs verərdi. Bizim proqnozlara görə, bu göstəricilər reallığa uyğundur. Sualınıza mənim cavabım belədir.

***- Hər bir dövlətin iqtisadi və siyasi müstəqilliyi, suverenliyi və istiqlalı onun kadr potensialından çox asılıdır. Məhz bu səbəbə görə kadr siyasəti hökumətin fəaliyyətində ümumən öncül yer tutmalıdır. Ölkə rəhbərliyi bu sahədə nə kimi işlər görür?***

- Bu suala cavab verərkən Prezident Heydər Əliyevin gənc müstəqil Azərbaycan dövlətinin intellektual, kadr potensialının yaradılması və ondan səmərəli istifadə olunması sahəsində

gördüyü ardıcıl işin rolunu və əhəmiyyətini vurğulamamaq mümkün deyildir. Ali siyasi hakimiyyətə qayıtdıqdan sonra dövlətimizin başçısı bütün siyasi qüvvələrə, ziyalılara, idarəetmə kadrlarına müraciət edərək, onları müstəqil dövlətin iqtisadi, siyasi və mənəvi-intellektual əsaslarının qurulması prosesinə fəal surətdə qoşulmağa çağırdı. Cəmiyyətin vətənpərvər, sağlam qüvvələri də ümummilli liderin bu çağırışına cavab verdilər.

Ötən illər ərzində Azərbaycan Prezidenti dəfələrlə belə çağırışlar etmişdir. Heydər Əliyev bəyan etmişdir ki, dövlət siyasətinin həyata keçirilməsinə ürəkdən kömək göstərmək istəyən hər bir adamı, hər hansı mütəxəssisi dövlət idarəçiliyinə cəlb etməyə hazırdır. Heydər Əliyev insanlarda, ilk növbədə, işgüzar keyfiyyətləri, ciddiliyi, xalqa və dövlətə səmimi qəlbdən xidmət etməyi, ümumi işə sədaqəti qiymətləndirir. Yadınıza salın, o, mütəxəssisləri, ziyalıların nümayəndələrini, bitərəfləri və hətta müxalifətçiləri ən yüksək məsul vəzifələrə təyin etmişdir və təyin edir, onların irəli çəkilməsi üçün optimal şərait yaradır. Belə siyasətin və praktikanın nəticəsidir ki, indi yüksək ixtisaslı mütəxəssislərin, idarəetmə kadrlarının, yaradıcı ziyalıların mütləq əksəriyyəti dövlət işinə, nəhəng iqtisadi layihələrin, o cümlədən energetika layihələrinin həyata keçirilməsinə cəlb olunmuşdur. Qətiyyətlə demək olar ki, xalqın əsas intellektual, kadr, idarəetmə potensialı hakim komandada, Yeni Azərbaycan Partiyasında cəmləşmışdir.

Cəmiyyətimizin çox mühüm intellektual və professional ehtiyatı kimi, Azərbaycanın kadr potensialının – ölkənin sosial-iqtisadi inkişafını təmin edən potensialın yaradılması dövlət siyasətinin ən ümdə məqsədidir. Vətəndaşların öz peşə qabiliyyətlərini sərbəst surətdə inkişaf etdirmək və bundan istifadə sahəsində, insanın imkanlarını üzə çıxarmaq üçün optimal şərait yaradıl-

ması sahəsində konstitusiya təminatlarının reallaşdırılmasında dövlətin rolunu gücləndirmək Azərbaycanda kadr siyasətinin strateji istiqamətidir. Dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı yüksək təhsilli peşəkarların düzgün yerləşdirilməsindən, onların imkanlarından, bacarıq və istedadından səmərəli istifadə edilməsindən asılıdır. Biz bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş kadr potensialımızla fəxr edə bilərik. Bu gün Azərbaycanın vüsətli sosial-iqtisadi inkişaf və dövlət quruculuğu vəzifələrini həyata keçirməyə qadir olan kadr potensialı var. Ötən əsrin 70-80-ci illərində Moskvanın, Sankt-Peterburqun, Kiyevin, Minskin və digər şəhərlərin ən nüfuzlu ali məktəblərinə tələbələrin müsabiqədənkənar qəbulu respublikanın kadr və intellektual potensialının formalaşdırılmasına çox böyük töhfə olmuşdur. Gənclər yeni elmi istiqamətlərin və sənaye sahələrinin inkişaf etdirilməsi üçün xalq təsərrüfatına lazım olan ixtisaslar üzrə təhsil almağa gedirdilər.

Vətənə qayıtdıqdan sonra gənc mütəxəssislərə daim diqqət yetirilir, onlar xüsusi qayğı ilə əhatə olunurdular. Gördüyünüz kimi, bunun nəticəsi də göz qabağındadır. Vaxtilə başqa şəhərlərdə təhsil almış minlərlə tələbə indi ölkədə ən mühüm və məsul vəzifələr tutur. Dövlət xarici ölkələrin nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrin bundan sonra da inkişaf etdirilməsinə bu gün də böyük səy göstərir.

Lakin elə düşünmək lazım deyil ki, respublikada yüksək ixtisaslı mütəxəssislər hazırlanan ali məktəblər yoxdur. Xeyr, bizdə yaxşı ali təhsil müəssisələri kifayət qədərdir. Onlar təhsil, habelə tələbə mübadiləsi sahəsində xarici həmkarları ilə əlaqələrini genişləndirir və möhkəmləndirirlər.

Peşə təhsili sistemində elmlə pedaqoji prosesin inteqrasiyası meyli aydın müəyyənləşdirilmişdir. İnnovasiya layihələri işlənib

hazırlanmışdır və həyata keçirilir. Ali məktəblərin elmi tədqiqat və elmi-texniki fəaliyyəti təkmilləşir, təhsil proqramlarının tədris, elmi və metodik ədəbiyyatla təminatı yaxşılaşır, tələbələrin elmi tədqiqat işinə geniş cəlb olunması üçün tədbirlər hazırlanır.

Son illərdə dövlətin elmi müəssisələrə köməyi əhəmiyyətli dərəcədə artmışdır. 2002-ci ilin dövlət büdcəsində elmə 61,705 milyard manat ayrılmışdır. Bütün bunlar ölkədə zamanın tələblərinə cavab verən yüksək ixtisaslı peşəkar kadrların olması üçün edilir.

***- Dünyanın təzələndiyi, yeni dünya təsərrüfatçılığının qurulduğu şəraitdə gənclər, onların tərbiyəsi, təhsili, dövlət quruculuğu prosesinə cəlb olunması mühüm problemlərdən biridir.***

- Bəli, siz haqlısınız. Gənclər arasında siyasi fəallığın artması, cəmiyyətin ümdə problemlərinin həllində onların öz yerini axtarması ən ciddi diqqət yetirilməsinə layiqdir. Çünki nəticə etibarilə, gələcək cəmiyyətin simasını və irəliyə doğru hərəkətinin istiqamətini gənc nəslə arxalanan qüvvələr müəyyən edirlər. Dövlət, onun başçısı bunu bilərək, gənclər probleminə böyük diqqət yetirirlər. Respublikada gənclərin məsələləri ilə məşğul olan, onların fəaliyyətini istiqamətləndirən xüsusi nazirlik yaradılmışdır.

Zaman gənclərin hüquq tərbiyəsinin yüksək səviyyədə olmasını tələb edir. Gələcəkdə cəmiyyətin və dövlətin idarə edilməsi məhz gənclərin hüquqi düşüncəsinin səviyyəsindən asılıdır.

İctimai-siyasi həyatda plüralizm gənclərimizə onların maraq və ehtiyaclarına daha yüksək dərəcədə uyğun gələn təşkilatı və ya hərəkatı sərbəst seçmək imkanı verir. Cəmiyyətdə gənclər təşkilatlarının rolu daha çox onların üzvlərinin sosial fəaliyyəti

ilə müəyyən edilir. Sosial fəallıq isə, öz növbəsində, bir çox amillərdən, ən əvvəl, gənc nəslin sosial-iqtisadi vəziyyətindən və siyasi mövqeyindən asılıdır.

Son illər gənclərin siyasi fəallığı artmışdır. Siyasi münasibətlərin subyektləri olaraq, ictimai-siyasi gənclər hərəkatları siyasi partiya və hərəkatlarla sıx qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir. Bu qarşılıqlı münasibətlərin xarakteri cəmiyyətdə vəziyyətə bilavasitə təsir göstərir.

Dövlətdə dəyişikliklərin müqəddəratı gənclərin kimin ardınca və hansı istiqamətdə gedəcəyindən, siyasətə və elmə totalitar təfəkkürdən, passiv biganəlikdən uzaq olan istedadlı insanların gəlib-gəlməyəcəyindən bilavasitə asılıdır.

İndi Yeni Azərbaycan Partiyasının gənclər birliyi respublikada fəaliyyət göstərən bu cür təşkilatlar arasında xüsusi yer tutur. Onun üzvləri intellektual səviyyələri, ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, dövlətin siyasi xəttinə sədaqəti ilə seçilirlər.

***- Bir ənənə olaraq, Azərbaycan cəmiyyəti həmişə qadına hörmətcil münasibətlə fərqlənmişdir, əsrlər boyu qadın cəmiyyətimizdə əhəmiyyətli rol oynamışdır. Bəs, demokratik cəmiyyətdə onun rolu necədir?***

- Azərbaycanın müstəqillik əldə etməsi ölkə vətəndaşlarının hamısına cəmiyyətin bütün sahələrinin demokratikləşdirilməsinə əsaslanan həyat yolunu özlərinin seçməsinə imkan yaratmışdır. Hələ Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadınları, müsəlman Şərqində ilk dəfə olaraq, kişilərlə bərabər hüquqlar almışdılar.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyası qadınların kişilərlə hüquq bərabərliyini təsdiqləmiş və onların demokratik cəmiyyət quruculuğu prosesində fəal iştirakı üçün hüquqi baza yaratmışdır.

İndi qadınların problemləri ilə məşğul olan dövlət qurumu – Qadın Problemləri üzrə Dövlət Komitəsi var. Ölkə həyatının ictimai-siyasi, iqtisadi və mədəni sahələrində qadının rolunu yüksəltmək haqqında xüsusi fərman verilmişdir. "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Prezidentin Fərmanı BMT tərəfindən rəsmi sənəd kimi qəbul edilmiş və bütün dövlətlərə göndərilmişdir.

2001-ci ildə Azərbaycan dörd il müddətinə BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının üzvü seçilmişdir. Bu komissiya qadınların hüquqlarının qorunmasında, gender siyasətinin həyata keçirilməsində, cəmiyyətin bütün strukturlarında qadınların mövqeyinin yaxşılaşmasında böyük rol oynayır. Son illər cəmiyyətdə qadının rolu xeyli artmışdır və bu, qanunauyğun prosesdir, çünki qadının rolunun azaldıldığı hər hansı bir cəmiyyət ahəngdar inkişaf edə, irəliləyə bilməz. Ona görə ki, cəmiyyətdə qadının mövqeyi bu cəmiyyətin sivilliyinin əsl səviyyəsini açıq-aydın göstərir, habelə cəmiyyət üzvlərinin humanizm, bərabərlik və mərhəmət prinsiplərinə sadiqliyinin dərəcəsini dürüst əks etdirir. Bilirsinizmi, cəmiyyətdə baş verən bir çox proseslər qadının öz imkan və qabiliyyətindən ailədə və cəmiyyətdə necə istifadə edə bilməsindən asılıdır. Axı, qadının cəmiyyətdəki mövqeyi ölkədəki ümumi vəziyyəti əks etdirir. İnamla demək olar ki, Azərbaycanda qadınlar dövlətin etibarlı müdafiəsi və himayəsi ilə əhatə olunmuşlar.

İndi qadınlar siyasətdə və biznesdə, elmdə və mədəniyyətdə öz bacarıqlarını göstərirlər. Onlar çevik zəka və məqsədyönlülük nümayiş etdirərək, kişilərlə bərabər mühüm dövlət vəzifələrində çalışırlar. Siyasətlə məşğul olan və rəhbər vəzifələrdə çalışan qadınlar siyasi prioritetlərin yenidən nəzərdən keçirilməsinə öz töh-

fələrini verir, bilavasitə qadınlarla bağlı problemləri də əks etdirən məsələlərin perspektiv və cari planlara daxil edilməsinə çalışırlar. Ətrafınıza nəzər salın, məgər müasir qadın təkcə ailə ilə məşğuldur, məgər onu təkcə kulinariya reseptləri, yaxud da məişət qayğıları maraqlandırır?! Zənnimcə, yox. Qadın cəmiyyətdə baş verən demokratik dəyişikliklər prosesinə çox fəal qoşulmuşdur.

***- Sonuncu sual. Neçə illərdir ki, ölkəmiz Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizama salmağa çalışır, amma əfsuslar olsun ... Mütəfəkkirlərin əsərləri real vəziyyəti əks etdirirdi – beynəlxalq işlərdə hər şeyi güc həll edir. Sözlərimizə qüvvət olaraq, Kautilyanın eramızdan əvvəl V-IV əsrlərin ayrıcında yazdığı "Artaşastra" əsərinə istinad edə bilərik. Məlum olduğu kimi, Amerikanın bir çox universitetlərində beynəlxalq münasibətlər nəzəriyyəsinin tarixi səpkidə öyrənilməsinə həmin əsərdən başlayırlar. Həmin müəllif sülh danışıqları barədə belə yazmışdır: "Sülh sazişi eyni səviyyəli və üstün olan hökmdarlarla bağlanmalıdır, daha zəif hökmdara isə hücum etmək lazımdır". Yeri gəlmişkən, N.Makiavelli də gücə üstünlük verir.***

- Düşünürəm ki, güc işlətmədən müdrikcəsinə hərəkət etmək gərəkdir. Artıq neçə illərdir ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməyə çalışırıq. Görkəmli və uzaqgörən strateq kimi, Heydər Əliyev bu məsələdə düzgün və real mövqe tutmuşdur.

Yaranmış şəraitdə məntiqə uyğun kompromislərə getmək lazımdır. Biz məsələnin hərbi yolla həll edilməsinin tərəfdarı deyilik. Çünki müasir dövrdə dövlətlərarası problemlərin güc işlətməklə həlli yolundan danışmaq cəfəngiyat, siyasi-hüquqi

paradoksdur. Biz əminik ki, torpaqlarımız tezliklə azad ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Prezident Heydər Əliyev problemin ədalətlə, sülh yolu ilə, qarşılıqlı surətdə məqbul kompromislər əsasında həll olunması üçün bütün imkanlardan istifadə edir. Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş bəyanatda və dövlətimizin başçısının 2001-ci ilin aprelində Ki Uestdə verdiyi bəyanatda ifadəsini tapmış prinsiplər bizim üçün əsasdır. Təəssüf ki, biz onları hələlik həyata keçirməyə müvəffəq olmamışıq. Ermənistan pozucu mövqe tutduğuna görə, münaqişənin həlli uzanır. Müharibənin krallar üçün, bir növ, idman məşğulliyyəti olduğu vaxtlar çoxdan arxada qalmışdır. Silaha ancaq onda əl atırlar ki, məqsədə başqa yollarla çatmaq mümkün deyildir.

*“Azərbaycan” qəzeti,*
*1 oktyabr 2002-ci il.*

## AZƏRBAYCANIN FƏLSƏFİ VƏ İCTİMAİ-SİYASİ FİKRİNİN AKTUAL PROBLEMLƏRİ

Fəlsəfə elmləri sahəsində tədqiqatlara ehtiyac müasir dövrdə nəinki azalmamış, hətta bir sıra aspektlərdə xüsusi aktuallıq kəsb etmişdir.

Bəşəriyyət qarşısında duran və həmişə insanları düşündürən, neçə əsrlər ərzində öz aktuallığını itirməyən ümumbəşəri fəlsəfi problemlərlə yanaşı, konkret ictimai-siyasi mühitin xüsusiyyətlərindən, dövrün sosial-siyasi ab-havasından, milli özünüdərkin konkret səviyyəsindən doğan yüzlərlə aktual problemlər ortaya çıxır ki, onların elmi-fəlsəfi təhlili qaçılmaz olur.

İstənilən problem fəlsəfədə həmişə insan-dünya münasibətləri kontekstində nəzərdən keçirilir. İnsan-dünya münasibətlərinin bütün dövrlərdə bütün insanlar üçün ümumi olan aspektləri ilə yanaşı, konkret zaman və məkan daxilində xüsusi aspektləri də vardır.

Müasir dövrdə Azərbaycanda yaşayan insanların ümumbəşəri fəlsəfi problemlərə münasibəti bir neçə mühüm amillərin təsiri ilə xüsusiləşərək, yeni problemlər doğurur.

Azərbaycan Respublikasının hüquqi-siyasi müstəvidə müstəqillik əldə etməsi hər bir Azərbaycan vətəndaşı üçün yeni dövrün başlanğıcıdır. Dövlət dəyişir, iqtisadi münasibətlər dəyişir, cəmiyyətin strukturu dəyişir, ideologiya dəyişir və şübhəsiz ki, belə bir şəraitdə köhnə ideologiyaya əsaslanmış fəlsəfi fikrin də dəyişilməsi zərurətə çevrilir.

İctimai şüurda gedən proseslərin kortəbii yox, elmi əsaslarla həyata keçməsi naminə əvvəlcə cəmiyyətdə gedən real dəyişil-

mələrin elmi təhlili verilməlidir. Yəni biz ictimai şüurun hansı istiqamətdə dəyişiləcəyini proqnozlaşdıra bilmək üçün, əvvəlcə ictimai reallığın hansı istiqamətdə dəyişildiyini dərk etməliyik.

Düzdür, ictimai varlığın, sosial-iqtisadi proseslərin dəyişilməsi də ideyalarsız həyata keçmir. Lakin cəmiyyəti dəyişən ideyalar və maraqlar sistemi dəyişdirilmiş cəmiyyətdən doğan yeni şüur sistemi ilə adekvat olmaya da bilər. Keçid dövrünü səciyyələndirən cəhətlərdən biri məhz ictimai şüurla ictimai varlıq arasındakı uyğunsuzluqlardır.

Marksizm-leninizm fəlsəfəsindən və bütövlükdə kommunist ideologiyasından imtina etmiş Azərbaycan onun əvəzinə, yeni bir ideologiya və yeni bir fəlsəfi sistem düşünməyə macal tapmadan, keçid dövrünün ziddiyyətləri ilə üz-üzə dayanmalı oldu. Müstəqil dövlət quruculuğu prosesi milli özünüdərk axtarışlarını sürətləndirsə də, müstəqilliyin ilk illərində yeni ideologiyanın, milli fəlsəfi fikrin formalaşmaması və ictimai şüurun inertliyi artıq hərəkətə gəlmiş böyük ictimai-siyasi proseslərin elmi əsaslarla idarə olunmasına imkan vermədi. Düzdür, 1993 cü ildən sonra Azərbaycan dövlətinə rəhbərlik edən Heydər Əliyevin böyük siyasi və idarəçilik təcrübəsi Azərbaycanın böhrandan çıxmasına, dövlət quruculuğu işinin uğurla həyata keçirilməsinə, müstəqilliyin möhkəmləndirilməsinə imkan verdi. Lakin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi sahələrdəki keçid prosesləri, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması ilə əlaqədar dəyişikliklərin elmi izahı xüsusi fəlsəfi tədqiqatlar tələb edir. Azərbaycanın, bir tərəfdən, coğrafi-siyasi vəziyyətinə görə, digər tərəfdən, zəngin təbii sərvətlərə malik olan bir ölkə kimi böyük dövlətlərin siyasi və iqtisadi maraqlarının diqqət mərkəzində olması onun özünün dünya siyasətinin

fəal iştirakçılarından birinə çevrilməsini tələb edir; siyasətşünaslığın aktual problemlərinin tədqiqinə böyük ehtiyac yaranır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması son vaxtlar nisbi müstəqil tədqiqat istiqamətinə çevrilmiş konfliktologiyanın da elmi-nəzəri əsaslarının öyrənilməsini və regional münaqişələrin təhlilinin artıq xeyli dərəcədə qərarlaşmış nəzəriyyələr kontekstində aparılmasını zəruri edir.

Keçid dövrünün yeni mərhələsi yeni iqtisadi münasibətlərin əsasında dayanmalı olan yeni düşüncə tərzinin fəlsəfi özünüdərk səviyyəsində formalaşmasını tələb edir. Daha doğrusu, burada fəlsəfi fikirlə düşüncə tərzi arasında müəyyən bir əks-əlaqəyə ehtiyac yaranır.

Beləliklə, fəlsəfi fikir, bir tərəfdən, müstəqillik əldə etmiş bir xalqın milli özünüdərk prosesini ehtiva etməli, digər tərəfdən də bir ictimai-iqtisadi quruluşun yenisi ilə əvəzlənməsindən irəli gələn ictimai şüurun elmi-nəzəri səviyyədə əsaslandırılmasına xidmət etməlidir. Bütün bunlar fəlsəfənin ənənəvi problematikasından kənara çıxmadan, mövcud elmi-fəlsəfi fikrə istinad etməklə həyata keçirilməlidir.

Müstəqillik əldə etmiş xalqın öz siyasi və iqtisadi azadlığını təmin etmək istiqamətindəki fəaliyyəti – müstəqil dövlət və təsərrüfat quruculuğu ilə yanaşı, ilk növbədə milli tarixin, ədəbiyyatın, mədəni-mənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsi, kommunist ideologiyasının təsirlərindən azad edilməsi ilə müşayiət olunur. Ateizm buxovlarından azad olmuş dini şüur yeni inkişaf müstəvisinə keçir və nəticədə dinlə ideologiyanın, dinlə fəlsəfənin də yeni münasibətləri formalaşır. İctimai şüurda gedən bütün bu yeni proseslərin elmi-fəlsəfi təhlilinə ehtiyac yaranır.

İdeologiyanın dəyişilməsi, milli şüurun inkişafı, ictimai şüurla yeni ictimai-iqtisadi münasibətlər arasındakı ziddiyyətlər və onların həllinə olan ehtiyac elmi-fəlsəfi tədqiqatların tematikasında da öz əksini tapmalı olduğu halda, təəssüf ki, Azərbaycanda fəlsəfə çaşqınlıq və durğunluq vəziyyətindən hələ çıxa bilməmişdir. Bu sahədə görülən işlər ya sovet dövründə aparılan tədqiqatların davamı kimi, ya müəyyən beynəlxalq forumların verdiyi qrantların tələblərinə uyğun olaraq, yaxud da indi Rusiyada dəbdə olan mövzuların bir növ təqlidi kimi ortaya çıxır. Əslində, tədqiqatdan daha çox icmal yazılır və ya elmi-publisistik yazılar dərc olunur. Digər tərəfdən də, bu vəziyyət elmi jurnalın olmamasından irəli gəlir.

Keçid dövrünün simptomlarından biri olan publisist və psevdosiyasi təfəkkürün elmi təfəkkürü üstələməsi, söz və mətbuat azadlığının ifrat formalarda anlaşılması, düşünmədən danışmaq, tədqiqat aparmadan yazmaq praktikasının genişlənməsi, kitab çapında əvvəlki meyarların itməsi və ümumiyyətlə, mətbuat və nəşriyyat işinin bazar iqtisadiyyatının təsirinə məruz qalması ictimai-siyasi fikrin mövcud vəziyyətinə təsir göstərməyə bilməzdi. Bu vəziyyət cəmiyyətşünaslıq sahəsində həqiqi elmi tədqiqatların üzə çıxmasına, publisistika ilə elmin fərqləndirilməsinə mane olur. Elmi nəşrlərsiz isə, təbii ki, elmi fikrin inkişafı mümkün deyildir.

Keçmiş sosialist ölkələrində kommunist ideologiyasından uzaqlaşdıqdan sonra fəlsəfə sahəsindəki tədqiqatların böyük əksəriyyəti kommunist ideologiyasının, totalitar rejimin tənqidinə, fəlsəfə tarixinə və müasir Qərb fəlsəfəsinin işıqlandırılmasına həsr olunur. İdeoloji qarşıdurma dövründə müasir Qərb fəlsəfəsinin hətta ən klassik nümunələri belə tərcümə olunmadığından və ya “xüsusi istifadə üçün”, “elmi kitabxanalar üçün” çox az tirajla çap

edildiyindən, geniş fəlsəfə ictimaiyyətinin müasir Qərb fəlsəfəsindəki tədqiqatlarla tanışlıq dərəcəsi aşağı səviyyədə idi. Təsadüfən hansısa bir kitab tərcümə olunurdusa, onun tənqidinə onlarca dissertasiya işi, məqalə və kitablar həsr edilirdi. İndi qadağalar aradan qalxdığından ABŞ və Qərbi Avropa filosofları, sosioloqları və politoloqlarının əsərləri rus dilinə tərcümə olunur və digər MDB ölkələrində, o cümlədən Azərbaycanda da yayılır. İndi rus filosoflarının özləri də daha çox müasir mövzularda yazır və ənənəvi fəlsəfi mövzuları, klassik fəlsəfəni çox vaxt praqmatik və tətbiqi səciyyəli problemlər əvəz edir. Bu mənada "müasirlik" anlayışı özünü həm müsbət, həm də mənfi çalarlarda göstərir. Ən çox qrantlar ayrılan və insan hüquqaları kontekstində həyata keçirilən psevdo-sosioloji tədqiqatlar köklü fəlsəfi məsələləri arxa planda qoyur. Qloballaşma fəlsəfi və ictimai-siyasi elmlərin predmetinə də ciddi təsir göstərir və ümumbəşəri fəlsəfi problemlərin öyrənilməsi dünyanın siyasi güc mərkəzlərində üstünlük təşkil edən hazır dəyərlər sisteminin transformasiyası ilə əvəz olunur. Digər tərəfdən, Qərb dünyasında elm və texnologiyaların aparıcı rolu fəlsəfəni də daha çox dərəcədə elmin əlavəsinə çevirir ki, nəticədə neopozitivizm, tənqidi rasionalizm, germenevtika, linqvistik fəlsəfə və s. bu kimi cərəyanlar da klassik fəlsəfi problemləri arxa plana sıxışdırır.

Jurnalda əsas bölmələrdən birinin fəlsəfə tarixinə həsr olunması nəzərdə tutulur. Burada həm Qərb, həm də Şərq fəlsəfi fikir tarixinin öyrənilməsinə, tədqiqinə geniş yer verilməli, xüsusilə, Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixi ön plana çəkilməlidir. Azərbaycanda peşəkar fəlsəfə tədqiqatlarının, əsasən, orta əsr islam dünyasının fəlsəfi fikri və peripotetika kontekstində aparıldığını nəzərə alsaq, məxsusi mənada milli Azərbaycan fəlsəfi fikrinin folklor və bədii ədəbiyyat kontekstində araşdırılmasına da ayrıca yer veriləcəyi nəzərdə tutulur.

Ayrıca bir rubrikada klassik fəlsəfi irsdən tərcümələr çap olunması da azərbaycandilli oxucu üçün əlavə fəlsəfi material verməklə yanaşı, həm də Azərbaycan fəlsəfi dilinin inkişafına xidmət edə bilər. Ona görə də biz jurnalın hər bir nömrəsində klassik fəlsəfi nümunələrin tərcüməsinə geniş yer verməyi nəzərdə tuturuq. Digər tərəfdən, başqa dillərdə çıxmış fundamental tədqiqatların qısa xülasəsi, onlar haqqında məlumatlar və resenziyaların dərc olunması da nəzərdə tutulur.

Jurnal həm də Azərbaycanda çıxan elmi-fəlsəfi əsərlərin, monoqrafiyaların elmi təhlilinə, onlara resenziyalar yazılmasına, müdafiə olunan namizədlik və doktorluq dissertasiyaları barədə məlumatlar verilməsinə, habelə fəlsəfi mövzuda yazılmış, lakin həqiqi fəlsəfədən uzaq psevdoelmi kitablar haqqında da tənqidi materiallar çap olunmasına, bu sahədə vahid meyarlar sisteminin formalaşmasına xidmət edə bilər.

Azərbaycan filosoflarının və dünya fəlsəfə klassiklərinin, görkəmli politoloqlar və sosioloqların yubileyləri ilə əlaqədar elmi materialların dərc olunması, beynəlxalq fəlsəfə qurumlarının, sosioloji və politoloji assosiasiyaların keçirdiyi tədbirlərin, elmi-fəlsəfi konfransların və s. işıqlandırılması və bu tədbirlər barədə irəlicədən məlumatlar verilməsi də, bizcə, Azərbaycan fəlsəfə ictimaiyyətinin və ictimai-siyasi fikir nümayəndələrinin bu sahədəki beynəlxalq proseslərə daha fəal qoşulmasına imkan yaradacaqdır.

Bir sözlə, jurnal Azərbaycanda ictimai elmlərin inkişafına, milli ideologiyanın elmi əsaslarının formalaşmasına, müvafiq elmi mühit yaranmasına xidmət edəcəkdir.

*"Fəlsəfə və sosial-siyasi elmlər"jurnalı,*
*№2, 2003-cü il.*

## XXI ƏSRDƏ MİLLİ DÖVLƏTÇİLİK: DEMOKRATİK İNKİŞAF VƏ MÜXALİFƏT

***İdeyalar dünyanı idarə edir və dəyişir... Müasir cəmiyyətin böyük siyasi və mənəvi böhranı əvvəl-axır zehni anarxiyadan asılıdır. Bizim ən qorxulu xəstəliyimiz həyatın bütün əsas məsələlərinə münasibətdə beyinlərdə dərin fikir ayrılığının olmasıdır, halbuki bu məsələlərə səbatlı münasibət həqiqi sosial qayda-qanunun birinci şərtidir.***

***Ogüst KONT,***
*fransız filosofu, pozitivizmin və*
*sosiologiyanın banilərindən biri*

Sovet İttifaqının dağılmasından sonra digər 14 respublika ilə birlikdə, Azərbaycan da dövlət müstəqilliyi qazandı. Beləliklə, milli dövlətin bərpa edilməsi XX əsrin sonu - XXI əsrin əvvəlində Azərbaycan cəmiyyətinin inkişaf yolunu müəyyənləşdirən başlıca amilə çevrildi.

Milli dövlət cəmiyyət haqqında təsəvvürləri dəyişdirməyə və dövləti yalnız tamın bir hissəsi kimi deyil, həm də daha artıq dərəcədə bəşər tarixinin dərk edilməsi üçün mühüm əhəmiyyət kəsb edən bütöv bir system kimi dəyərləndirməyə imkan verdi. Kommunist rejiminin süqutundan və totalitar sistemin iflasından sonra formalaşan milli dövlətimiz təbii-tarixi inkişaf yoluna çıxmaq üçün geniş imkan qazandı. Azərbaycanın son dövr tarixi

göstərdi ki, iqtisadiyyatı və cəmiyyəti sosialist metodları ilə idarə etmək praktikasından imtina edərkən, biz sərbəst bazar iqtisadiyyatına əsaslanan demokratik cəmiyyətə keçid prosesini çox sürətlə aparmağa başladıq. Bu isə, öz növbəsində, yaranan problemlərin optimal həlli yollarının tapılmasını xeyli çətinləşdirdi.

Milli dövlət quruculuğu ətrafımızda cərəyan edən hadisə və proseslərə yeni nəzərlə baxmağa və onları keyfiyyətcə başqa səviyyədə dəyərləndirməyə şərait yaratdı. İctimai şüurun yeniləşməsinə və müasir təfəkkür tərzinin formalaşmasına güclü təsir göstərən **milli dövlətimiz bu gün həm ölkə daxilində, həm də onun hüdudlarından kənardakı milyonlarla azərbaycanlını birləşdirən ümummilli ideyaya və vacib həyati amilə çevrilmişdir.**

Dünya tarixi ən qədim dövrlərdən bəri dövlətçiliyin müxtəlif formalarının şahididir. Üçüncü minilliyin ilk çağlarında keçmişi araşdırarkən asanlıqla başa düşmək olar ki, tarix totalitar keçmişi yeni nəslin səmərələşdirici potensialı ilə tez-tez əvəz edir. Bu potensial cəmiyyətin həyatına daxil edilir, köhnə stereotipləri və həyatın adət halını almış normalarını dəyişdirir, cəmiyyətin inkişafını zənginləşdirir və təkmilləşdirir, müəyyən çərçivələri qurur və yeni sosiumun yaranmasına təkan verir. **Tarixi təcrübə sübut edir: milli dövlətçilik yalnız elə bir cəmiyyətdə sabit və möhkəm ola bilər ki, orada icmanı milli dövlət quruculuğu səviyyəsinə qaldıraraq, bu icmanı millətə, onun nailiyyətlərini isə tarixi qələbələrə çevirməyə qadir güclü və istedadlı lider olsun.**

Təbii ki, hər bir quruluş dövlətçilik formalarına öz düzəlişlərini verərək, idarəetmənin prioritetlərini və tiplərini dəyişdirmişdir. Quldarlıq quruluşu dövründə yol verilənlər, bəlkə də zəruri olanlar feodalizm dövründə aktuallığını çox tezliklə itirmişdir, Avropada maarifçilik və reformasiya dövrü fərdin azadlıq və hü-

quqlarının yeni tərzdə başa düşülməsinə və tamamilə yeni tərzdə dərk olunmasına yol açmışdır. Bu gün qloballaşma dünya proseslərinin ümumi nizamına, iqtisadiyyata, siyasətə və sosiomədəni məkana yeni düzəlişlər edir. Politoloqların dövlətin funksiyaları adlandırdıqları metaforaların bəzən dəyişməsinə, dövlətçiliyin formalarının, xarakterinin, keyfiyyət və mənasının zaman-zaman təkmilləşməsinə baxmayaraq, bir məsələ şəksizdir: istənilən dövlətçiliyin əsasını onun milli mənafeyi və idealı, bir-birini tamamlayan və millətin, dövlətin inkişaf və tərəqqisini əvvəlcədən müəyyənləşdirən iki amil təşkil edir.

Qloballaşma dövründə dövlətin forma və prioritetləri, mənafe və idealları tədricən dəyişir. İndi dövlətin əsas mənafe və idealları, əvvəllər olduğu kimi, “istila və zülmə” deyil, “xilas və bərpaya” yönəldilmişdir. Nəzəriyyə praktika ilə çulğaşır və biz vahid dünya nizamının - Yer kürəsində birliyin, təhlükəsizliyə və sabitliyə təminatın harmoniyasını təmin etməyə qadir olan nizamın yaranmasının şahidi oluruq.

XXI əsrin milli dövlətçiliyindən danışarkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı surətdə bir-biri ilə bağlı olan **bir neçə amilin - milli mənafenin, insan hüquqlarının və ümumbəşəri humanist dəyərlərin təcəssümüdür.** İndi bütün bunlar milli dövlətçiliyin vahid, konkret seqmentini, özü də vətəndaş hüquqları və azadlıqlarına xeyli dərəcədə yönəldilmiş seqmenti təşkil edir. Hələ XX əsrin 40-cı illərində qloballaşmanın gələcək ideoloqları fiziki, iqtisadi və mədəni sərhədlər tanımayan ideal açıq cəmiyyət arzusunda idilər. Hazırda bu arzunun təcəssümü Yer kürəsinin əksər hissəsinin ümumdünya inteqrasiyası proseslərində - fərdin sosial simasını və dünya nizamının geostrategiyasını dəyişən proseslərdə öz əksini tapır. İstər qloballaşma, istərsə də milli dövlətçilik obyektiv proseslər olaraq, çox

vaxt bir-biri ilə ziddiyyətə girir. Bu ziddiyyətlərin həlli üçün dövlətdən elmi surətdə işlənib hazırlanmış strategiyanın və yoxlanılmış siyasi texnologiyaların tətbiq olunması tələb edilir.

Bu gün dəqiq müəyyənləşdirilmiş dövlət sərhədləri çərçivəsində milli dövlətçilik inkişafın əsas atributu sayılmır. Tam monoetnik və mədəni cəhətdən yekcins cəmiyyət yaratmaq utopiyadır. Etnomillətçilik ideyası, yəni əraziyə və dövlətçiliyə müəyyən etnik qrupun sahiblik etməli olması barədəki təsəvvür də vətəndaş cəmiyyəti yaratmağa kömək etmir, əksinə, münaqişələr törədir.

**Milli dövlətçilik müstəqil daxili və xarici siyasət aparmaq üçün təkcə aqremanın olması da demək deyildir. Milli dövlətçilik vahid məqsəd uğrunda - dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir.** Azərbaycanın ən yeni tarixini əsas götürsək, habelə dövlət quruculuğu sahəsində dünya təcrübəsini nəzərə alsaq, inamla təsdiq edə bilərik ki, **Azərbaycanda milli dövlətçiliyin bünövrəsi 1993-cü ildə, yeni siyasi elitanın səmərələşdirici potensialı əvvəlki elitanın dövlətin mahiyyəti və dünya birliyində yeri barədəki anarxist təsəvvürlərini dəyişdirdiyi dövrdə qoyulmuşdur.**

Biz burada milli dövlətçilik anlayışını və onun atributlarını hərtərəfli araşdırmağı qarşımıza məqsəd qoymuruq. Bu, ayrıca və olduqca çoxşaxəli işdir. Lakin təqdim edilən məqalənin mövzusu milli dövlətçiliyin elə əsasları ilə sıx çulğasır ki, bu əsaslar məhz dövlətin formalaşmasında və təşəkkülündə, onun ardıcıl, sabit inkişafında və tərəqqisində mühüm rol oynayır. XXI əsrdə Azərbaycanın milli dövlətçiliyi elə bir insanın həyat fəaliyyətinin bəhrəsidir ki, onun amalları azərbaycançılıq ideyasının zəfər çaldığı, fərdin hüquq və azadlıqlarının təmin edildiyi,

iqtisadiyyatın ardıcıl surətdə yüksəldiyi və ictimai inkişafa nail olunduğu məkan qurulmasına yönəlmişdir.

Yaşadığımız dünyanın bütün qabaqcıl demokratik ölkələrində dövlətin qanunlarına və cəmiyyətin normalarına uyğun fəaliyyət göstərən müxalifət partiyalarının mövcudluğu normal hal kimi qəbul edilir. Sivil dövlətlərdə və cəmiyyətlərdə müxalifət hakim elitadan fərqli ideyalar, proqramlar və layihələr irəli sürür, hakimiyyətin siyasətini sağlam mövqedən və əsaslandırılmış dəlillərlə tənqid edir, ölkə və dövlət qarşısında duran problemlərin həllinə kömək göstərir. Müxalifət həm də sistemin dayanıqlığı, Konstitusiya quruluşunun qorunması, siyasi proseslərin demokratik prinsiplərə uyğun şəkildə getməsi üçün hakimiyyətlə birlikdə məsuliyyət daşıyır.

Artıq müxalifətçi partiya və hərəkatlar müasir Azərbaycanın siyasi sisteminin bir hissəsinə çevrilmişdir. Bu, günün reallığıdır. İndi cəmiyyət həyatının bütün tərəflərini əhatə edən dəyişikliklər siyasi sahədə, bəlkə də, daha aydın və açıq şəkildə nəzərə çarpır. Siyasi həyat siyasi proseslərin rəngarəngliyi və dinamikası ilə fərqlənən yeni məzmunla dolğunlaşır.

Normal, konstruktiv müxalifətin mövcudluğu müasir cəmiyyət üçün müsbət amildir. Çünki belə müxalifət vaxtı çatmış mühüm problemləri aşkara çıxarmağa, ictimaiyyətin diqqətini ona yönəltməyə, səmərəli qərarlar hazırlanmasına və qəbul olunmasına kömək göstərir. Əlbəttə, müstəqilliyinin ikinci onilliyini yaşayan və keçid dövrünün labüd çətinlikləri, üstəlik, xarici təcavüzlə üzləşən Azərbaycan Respublikasında belə bir müxalifətin olması ancaq cəmiyyətin güclənməsinə və dinamikliyinə xidmət edərdi. Bu məzmun Azərbaycan müxalifətinə müəyyən qədər xas olsaydı, yəqin ki, respublikanın qarşısında duran problemlərin bir çoxunun həlli sürətlənər, ölkə zaman baxımından in-

kişaf mərhələlərini daha tez keçə bilərdi. Təəssüflər olsun ki, bu, bir xoş arzu olaraq qalır. Müxalifətlə bağlı bir çox məsələlərə aydınlıq gətirmək üçün belə bir suala cavab vermək zərurəti də yaranır: nə səbəbə Azərbaycan müxalifəti, əsasən də onun barışmaz hissəsi irrasional düşüncə və fəaliyyət fəlsəfəsi ilə yaşayır?

Yazıda Azərbaycan müxalifəti, onun siyasi xətti və fəaliyyəti ilə bağlı bütün problemləri araşdırmaq niyyətində deyilik. Bu, bizim filosofların, politoloqların və siyasi analitiklərin təxirəsalınmaz işidir.

Azərbaycan ictimai elminin mühüm vəzifələrindən biri də ölkədə fəaliyyət göstərən müxalifətin anatomiyasını, hərəkətlərinin həqiqi səbəblərini açmaq, bu fenomenin mahiyyətini, davranış tərzinin tarixi, siyasi, psixoloji və sosial köklərini təhlil etmək, siyasi və praktik cəhətdən cəmiyyət, onun inkişafı üçün nə kimi nəticələr verə biləcəyini açıb göstərməkdən ibarətdir. Güman edirəm ki, bu işin Azərbaycanda demokratik, konstruktiv müxalifətin formalaşmasına və vətəndaş cəmiyyətinin qurulmasına da əvəzsiz köməyi olar.

Demokratiyaya doğru keçilmiş yol nə qədər çətin olsa da, artıq onun böyük hissəsi arxada qalmışdır. İndi bu məsafənin yalnız kiçik bir hissəsi qalır ki, o da Azərbaycanın postindustrial era ölkələri sırasına maneəsiz daxil olmasını təmin edəcəkdir.

### Vətəndaş hüquqlarının dolğun təminatına yönəlmiş mühüm sənəd və yaxud siyasi inkişafımızın yeni mərhələsi

Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yaddaşlarda qalacaqsa, XXI əsr həmin müstəqilliyin möhkəmlənməsi, strukturlaşması və dönməz xarakter alması ilə əlamətdar olacaqdır. Nüfuzlu beynəlxalq ekspertlərin etiraf etdiyi əsl reallıq ondan ibarətdir

ki, **yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur.** Bu gün Azərbaycan rəhbərliyi, ölkə vətəndaşlarının böyük əksəriyyəti bu prosesi yeni məzmunla tamamlamaq, yeni istiqamətlərdə və yeni keyfiyyətdə davam və inkişaf etdirmək əzmindədir.

2002-ci il avqustun 24-ü müstəqil Azərbaycanın tarixinə mühüm siyasi hadisə ilə daxil oldu. Həmin gün respublika vətəndaşları Prezident Heydər Əliyev tərəfindən təklif olunmuş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" aktın layihəsinə ümumxalq səsverməsində fəal iştirak etdilər. Referenduma çıxarılan məsələlərin son dərəcə aktual olduğuna və Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasının təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə yönəldiyinə əmin olan Azərbaycan vətəndaşları vaxtında irəli sürülmüş bu təşəbbüsə öz müsbət münasibətlərini nümayiş etdirərək, dövlətin siyasi xəttini müdafiə etdilər.

Əslində, **referendum müstəqil Azərbaycanın inkişafı yolunda, xüsusən insan hüquqlarının müdafiəsi və demokratik proseslərin genişlənməsində yeni mərhələnin təməlini qoydu.** Təəssüflə qeyd etməliyəm ki, çoxları, o cümlədən də politoloqlar və təhlilçilər bu məqamı, onun hüquqi-siyasi mənasını yetərincə dərk edə bilmədilər və yaxud etiraf etmək istəmədilər. Barışmaz, ifrat radikal müxalifətin mövqeyini isə əvvəldən anlamaq mümkün idi. Çünki o, hakimiyyət tərəfindən həyata keçirilən bütün tədbirlərə, hətta xalqın və ölkənin rifahı və firavanlığı üçün boyük əhəmiyyətə malik olan taleyüklü siyasi və iqtisadi tədbirlərə daim mənfi münasibət bildirir. Ona görə də respublikada avqustun 24-də keçirilən referendum da bu baxımdan istisna olmadı.

**Bir sıra ifrat radikal müxalifət partiyalarının rəhbərləri xalqı referendumu boykot etməyə çağırsalar da, əksər beynəlxalq və daxili müşahidəçilərin etirafına görə, referendum baş tutdu və yüksək siyasi fəallıq şəraitində keçdi. Azərbaycan xalqı müstəqil dövlət və hüquqi vətəndaş cəmiyyəti quruculuğuna əngəl törədənlərin, iqtidarın bütün təşəbbüslərini hələ də şübhə altına almağa can atanların sözünə uymadı.**

Ölkə hüquqşünaslarının və beynəlxalq hüquqşünasların - Konstitusiya üzrə mütəxəssislərin fikrincə, referenduma çıxarılmış məsələlər sivil, hüquqi dövlətin və demokratik cəmiyyətin tələblərinə tamamilə cavab verirdi. Yeddi il əvvəl qəbul olunmuş Konstitusiyamızı daha da təkmilləşdirmək zərurətini həyatın özü tələb edirdi. Ölkənin əsas qanunvericilik sənədində baş verən dəyişikliklər müstəqil Azərbaycanın ərazisində yaşayan hər bir insanın hüquq və azadlıqlarının qorunmasına əlavə təminatlarla, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyəti ilə bağlıdır.

Referendumda respublika vətəndaşlarının 83 faizi iştirak etdi və onların 96 faizi dəyişikliklərə səs verdi. Bu rəqəmlər Konstitusiyaya təklif olunmuş düzəlişlərin əhali tərəfindən qeyd-şərtsiz bəyənildiyini göstərir və xalqın monolitliyini, dövlətin siyasi xətti ətrafında sıx birləşdiyini nümayiş etdirir. Odur ki, bütün səylərinə baxmayaraq, pozucu qüvvələr və barışmaz müxalifət partiyaları hadisələrin gedişinə, vətəndaşların ümumxalq səsverməsində iştirak etmək qərarına heç bir təsir göstərə bilmədi. Bu da əsasən onunla bağlıdır ki, genişmiqyaslı intensiv təbliğat və izahat işi nəticəsində ölkə əhalisi Azərbaycanın həyatındakı dəyişikliklərin vacibliyini və əhəmiyyətini dərk etdi və lazım bildi.

**Ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklər ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsinə, çoxpilləli ədalət mühakiməsinin həyata keçirilməsinə, respublika vətəndaşlarının hüquq və azadlıqlarının genişləndirilməsinə yönəldilmişdir və Azərbaycanın siyasi və hüquqi sistemini sovet və postsovet hüquq sisteminin özünü doğrultmayan siyasi və hüquqi normalarından, "qalıqlarından" azad edir.** Siyasi opponentlərin iddialarının əksinə olaraq, Azərbaycan iqtidarının fəaliyyəti göstərir ki, o, Konstitusiyanı, qanunları və digər normativ hüquqi aktları ayrı-ayrı şəxslərin, hansısa hakimiyyət qruplarının siyasi mənafelərinə, hakimiyyət və cəmiyyətdə nüfuz uğrunda mübarizə aparanların maraq və məqsədlərinə uyğunlaşdırmaq fikrindən uzaqdır. Eyni zamanda, bu da əsas prinsipdir ki, mühüm siyasi qərarlar qəbul olunarkən və hüquq sistemi təkmilləşdirilərkən ayrı-ayrı siyasi partiyaların, siyasi və regional qruplaşmaların liderlərinin məhdud şəxsi və korporativ mənafeləri də əsas götürülə bilməz. Birmənalı şəkildə o da aydındır ki, demokratiyaya xidmət etməyən, ölkədə demokratik proseslərin pozulmasına, demokratiyanın ayrı-ayrı ambisiyalı adamların və qüvvələrin iradəsindən asılı vəziyyətə salınmasına xidmət edən təklif və layihələr qəbul edilə bilməz. Başlıcası, vətəndaşların hüquqlarının və əsas azadlıqlarının qorunması üçün səmərəli sistem yaradılması, siyasi və iqtisadi sistemin rəvan inkişafa, siyasi proseslərin ardıcıl, ağrısız getməsinə təminat verilməsidir.

Təbii ki, demokratikləşdirmə prosesi, hüquq normalarının və siyasi mədəniyyətin sivil dünyanın hamılıqla qəbul edilmiş standartlarına yaxınlaşdırılması özlüyündə mürəkkəb, uzunsürən prosesdir, təşkilati və tərbiyəvi xarakterli ardıcıl, məntiqi tədbirlər görülməsini, yeni siyasi dəyərlərin siyasətin hər bir sub-

yektinin, hər bir insanın həyat tərzinə çevrilməsini tələb edir. Ona görə də cəmiyyətimizin həyatı ilə bağlı bu taleyüklü məsələlərdə tələsmək, irəliyə qaçmaq olmaz! Ən mühümü budur ki, yeni qanunlar və siyasi-hüquqi normalar cəmiyyətin daha da sabitləşməsinə və sıx birləşməsinə, həqiqətən demokratikləşməyə xidmət etsin. Bu baxımdan 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızın bu mühüm dəyişikliklərə ehtiyacı var idi. Bunu idarəçilik sisteminin müasir tələblərə və beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilməsi zərurəti də tələb edirdi. Dövlət quruculuğu prosesi qabaqcıl və həyatın sınağından çıxmış beynəlxalq təcrübədən istifadə olunmasını nəzərdə tutur. Bu, təbii prosesdir, çünki heç bir hüquq sistemi sırf milli hadisə deyildir və ona görə də heç bir müasir dövlət öz hüquq sistemini digər ölkələrin təcrübəsini nəzərə almadan yarada bilməz.

**Yeni minillikdə öz tarixi inkişafının yeni mərhələsini yaşayan dövlətimiz və cəmiyyətimiz aşkarlıq və şəffaflıq tələb edən vətəndaş cəmiyyətinə transformasiya olunur. Bu isə, öz növbəsində, müasir dövlət quruculuğu və səmərəli dövlət idarəçiliyi yaradılması prosesində bir sıra demokratik məzmunlu dəyişikliklərin aparılmasını tələb edir. Bu amil nəzərdən qaçmamalıdır.** Məsələn, majoritar seçki sisteminin mahiyyəti ondadır ki, seçicilərin səslərinin müəyyən çoxluğunu toplamış namizəd seçkilərdə qalib gəlmiş hesab edilir. Respublikanın qanunvericiliyi seçkilərin növündən (prezident, parlament seçkiləri və ya yerli seçkilər) asılı olaraq, səslərin məhz hansı çoxluğunu - nisbi və ya mütləq çoxluğunu toplamağın zəruriliyini müəyyənləşdirir. Buna uyğun olaraq, nisbi çoxluğun majoritar sistemini və mütləq çoxluğun majoritar sistemini fərqləndirirlər. Nisbi çoxluğun majoritar sistemində öz rəqiblərinin hamısından

çox səs toplamış namizəd seçilmiş hesab edilir. Bu sistem sadədir, çünki hətta minimum üstünlük qazanmış bir namizədin qələbəsini təmin edir. Hazırda bu sistemdən ABŞ-da, Kanadada, Böyük Britaniyada, Yeni Zelandiyada və digər ölkələrdə istifadə olunur.

Mütləq çoxluğun majoritar sistemi nəzərdə tutur ki, səsvermədə iştirak etmiş seçicilərin səslərinin yarısından çoxunu (50 faiz, üstəgəl bir səs) qazanmış namizəd seçilmiş hesab olunur. Fransada 5-ci Respublikanın bütün prezidentləri bu sistem üzrə seçilmişlər və yalnız 1958-ci ildə Şarl de Qoll birinci dövrədə səslərin 78,5 faizini toplamağa müvəffəq olmuşdu. Fransada sonrakı prezident seçkilərinin hamısı iki dövrədə keçirilmişdir.

Həmin seçki sisteminin bir sıra müsbət cəhətləri var: seçicilərlə deputatlığa namizədlər arasında bilavasitə əlaqənin olması partiyaların iriləşməsinə və sabit çoxpartiyalı sistemin yaranmasına kömək edir. Bu müsbət cəhətləri əsas götürərək, Azərbaycan Konstitusiyasına düzəliş etmək məqsədəuyğun hesab edildi və xalqın dəstəyi qazanıldı.

Belə bir vəziyyət öz mövqelərini itirməkdən ehtiyat edən partiya rəhbərlərini narahat edir. Lakin düşünürəm ki, Konstitusiyaya yeni dəyişikliklər ediləndən sonra partiyalararası və partiyadaxili proseslərdə yaxın zamanda əhəmiyyətli dəyişikliklər baş verməyəcəkdir. Bu cür dəyişikliklərin baş verməsini boyük ehtimalla prezident seçkilərindən sonra gözləmək olar. Bu dəyişikliklərin partiyalara mənfi təsirindən danışmağa dəyməz. Əksinə, bu dəyişikliyə siyasi partiyaların sıralarının möhkəmlənməsinə və səfərbərliyinə impuls verən amil kimi baxmaq lazımdır. Bu, ondan irəli gəlir ki, siyasi partiyalar siyasi mübarizənin ehtiyaclarından yaranır və qanuna uyğun olaraq fəaliyyət göstərirlər. Siyasi partiyaların sosial bazası, idarəçilik sistemi və fəaliyyəti seçki

sistemlərindən asılı deyildir. Beləliklə, bu dəyişikliklər ancaq dərnək tipli partiyalara, başqalarının yedəyində gedən qurumlara mənfi təsir göstərə bilər. Öz ənənələri olan sabit partiyalar üçün isə yeni dəyişikliklər ancaq faydalı ola bilər. Sonuncu parlament seçkilərini xatırlasaq görərik ki, o zaman partiya siyahıları, bir qayda olaraq, partiya "liderləri" tərəfindən öz bildikləri kimi və ya ilkin seçkilər – "praymeriz" əsasında tutulurdu. Onlar öz siyahılarına bu partiya qarşısında, əslində, heç bir xidməti olmayan, amma yalnız partiya başçıları üçün "sərfəli" olan şəxsləri daxil edirdilər. Bu da, öz növbəsində, partiyalarda güclü narazılığa, kütləvi istefalara, siyasi təşkilatların parçalanmasına gətirib çıxarırdı. AMİP-də, ADP-də, AXCP-də və digər partiyalarda bu hallar özünü daha açıq büruzə verirdi.

Majoritar sistem isə, əksinə, yerlərdə partiya strukturlarının inkişafına, yerli müxalifət elitasının irəli çəkilməsinə, ayrı-ayrı şəxsiyyətlərin həqiqi nüfuzunun və siyasi potensialının üzə çıxmasına, partiyaların təkcə yuxarıdan deyil, həm də aşağıdan demokratikləşməsinə təkan verir. Əgər müxalif partiyalar həqiqi demokratiyanın tərəfdarıdırsa, onlar yeni seçki sisteminin və daxili siyasi proseslərin yeni mərhələyə daxil olmasının əleyhinə çıxmamalıdırlar.

## Müxalifətin mahiyyəti və sosial-siyasi kökləri məsələsinə dair

Müxalifətçilik çoxcəhətli, mürəkkəb təzahürdür və bir determinantla şərtləndirilmir. Ona çoxpilləli, kompleks və ziddiyyətli proses kimi yanaşmaq lazımdır. Bu mürəkkəb prosesdə ictimai, siyasi amillər, əqidə və maliyyə amilləri müxtəlif şəkildə çulğaşır.

Müxalifətçiliyi təhlil etmək və ona qiymət vermək birinci dərəcəli iş olmasa da, buna ehtiyac var. Çünki siyasətdə və idarəçilikdə boşluq olmamalıdır. Müxalifətçiliyin səbəblərini araşdırmaq üçün emosional yanaşma nümayiş etdirmədən, onun daxili strukturu və fəaliyyət mexanizmləri ilə birlikdə elmi metodologiya əsasında təhlili tələb olunur. Nə qədər çətin görünsə də, tədqiqatçının əsas vəzifəsi müxalifətçiliyin hərəkətverici qüvvələrini, bu və digər mübarizə formalarını və metodlarını, onun qeyri-adekvat davranış və hərəkət tərzini şərtləndirən səbəbləri aydınlaşdırmaqdan ibarətdir.

Etiraf etməliyik ki, müasir cəmiyyətin əsas siyasi təsisatlarından biri olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən kənarda qalıbdır. Halbuki burada biz ideoloji, siyasi, mənəvi, psixoloji, şəxsi və sair amilləri və motivləri görə bilərik. Bu baxımdan Azərbaycanın bəzi müxalifət partiya və qurumlarının barışmaz mövqeyi də cəmiyyətin və siyasi ekspertlərin diqqətindən kənarda qalmamalıdır. Əsas məsələ bundadır ki, bu səbəblər sistemdən kənar səciyyə daşıyır.

Qeyd etdiyim kimi, müxalifət partiyaları və qrupları hüquqi dövlətin və demokratik, vətəndaş cəmiyyətinin ayrılmaz tərkib hissəsidir. Müxalifətin sadə bir anlayışı var: “Çoxluğun rəyinə qarşı və yaxud hakim rəyə qarşı çıxan partiya və qrup”. Müxalifətin siyasi düşüncəsi, əqidəsi və fəaliyyətinin əsasını təşkil edən ideya və dəyərlər hakim qrupdan, iqtidardan fərqlidir. Lakin bu o demək deyil ki, müxalifətin ideyaları və platforması daha mütərəqqidir, reallığa daha uyğundur, yaxud mövcud şəraitin tələblərinə daha dolğun cavab verir. Siyasi elmdə mötədil, radikal, loyal (hakimiyyətlə əməkdaşlığa və onu

müdafiə etməyə hazır olan), konstruktiv (məzmunlu, işgüzar təkliflər verən), destruktiv (dağıdıcı) müxalifəti fərqləndirirlər. Çoxrəngli və çoxqütblü Azərbaycan müxalifətinin palitrasında müxalifətin bütün bu çalarları bu və ya başqa dərəcədə təmsil olunmuşdur. Cəmiyyətimiz üçün aktuallığı nəzərə alınaraq, bu yazıda daha çox ifrat, radikal müxalifət, müasir siyasi proseslərdə onun yeri və rolu, taktika və strategiyası, onun içərisindən loyal, konstruktiv müxalifətin formalaşmasının təhlilinə ilk cəhd göstərilmişdir. Özü də bu, emosiyaya, hisslərə qapılmamaq şərti ilə, faktlara və məntiqə əsaslanaraq edilmişdir.

Əgər desək ki, məntiq bütün elmlərin tacıdır, yəqin ki, səhv etmərik. Mövzunu həqiqətən bilmək üçün onun bütün cəhətlərini və əlaqələrini əhatə etmək, öyrənmək lazımdır. Məntiqin tələbi belədir. Məntiqin əsaslandığı anlayışlar və kateqoriyalar insanın da inkişaf qanunauyğunluğunun ifadəsidir. Bununla yanaşı, məntiqi anlayışlar və kateqoriyalar ancaq əməli fəaliyyət əsasında, onun nəticəsi kimi yaranır, onların doğruluğu isə təcrübədə yoxlanılır. İctimai hadisə və proseslərin öyrənilməsinə məntiqi yanaşmanın, onun tərkib hissələrinin tətbiqi siyasi həyatın bütün mənzərəsinin əhatə olunmasına imkan yaradır, subyektlərinin mahiyyətini, sosial qrupları hərəkətə gətirən səbəbləri daha dolğun şəkildə açmağa kömək edir. Fəlsəfi anlayış olan mahiyyət predmetləri, onların daha mühüm olan daxili cəhətini, əsasını, onlarda gedən dərin prosesləri səciyyələndirən başlıca amilləri ifadə edir. Müxalifətin mahiyyətinə məntiqi yanaşma, müxalifət hərəkatının nəticələrinin müşahidə edilməsi və təhlili, müxalifətin planları barədə kütləvi informasiya vasitələrindən və digər mənbələrdən alınan məlumatlar məntiqin köməyi ilə zəncir kimi düzülür və belə bir qənaətə gətirib çıxarır ki, Azərbaycanda müxalifət tərkibcə yekrəng deyil,

müxtəlifdir, siyasi spektrin bütün çalarları ilə təmsil olunmuşdur. Lakin ümumi müxalifətin tərkibindən bütün əlamətləri və xüsusiyyətləri ilə seçilən pozucu, dağıdıcı (destruktiv) hissə ayrılaraq, bütövlükdə müxalifət adından danışmağa, onun funksiyasını təkbaşına mənimsəməyə çalışır. Ölkənin siyasi həyatının təhlili göstərir ki, müxalifətin pozucu, dağıdıcı hissəsinin cəmiyyətin real inkişaf qanunauyğunluqlarını, sosial qüvvələrin və mənafelərin nisbətini nəzərə almadan göstərdiyi siyasi fəaliyyət ciddi sosial itkilərə gətirib çıxarır, ölkənin və cəmiyyətin demokratik inkişaf proseslərinə mənfi təsir edir. Müxalifətin bu qolunun və onun aparıcı nümayəndələrinin əməli hərəkətlərinə dair faktlar bizə belə bir fikir söyləməyə əsas verir ki, Azərbaycanda pozucu, dağıdıcı (destruktiv) müxalifət fəallaşmışdır.

Praktikada bəzi müxalifət partiyaları hansısa taktiki məsələlərdə hətta vahid cəbhə halında çıxış edə bilərlər, qalan bütün məsələlərdə isə onların hamısı müxtəlifdir. Onlar özlərinin fəaliyyət taktikası və proqramı, ideologiyası, iqtidar partiyasına münasibəti və s. ilə bir-birindən fərqlənirlər. Onların hər biri öz həyatı ilə yaşayır, hər birinin fəaliyyət proqramı, öz siyasi məqsəd və vəzifələri var. Bu partiyaların bir qismi fəal, radikal, bəziləri isə konstruktiv və yaxud passiv müxalifətdədir. Lakin onların hamısı bu və ya digər dərəcədə və formada Yeni Azərbaycan Partiyasına qarşı müxalif mövqedədir. Onunla hətta əməkdaşlıq etsələr də, hər halda bu, onların müxalifətdə olmasını istisna etmir.

Təəssüf ki, Azərbaycan cəmiyyətinin siyasi strukturunun dərk olunmasına elmi yanaşma yoxdur, partiyaların siyasi və ideoloji yönümü baxımından onların dəqiq təsnifatı işlənib hazırlanmamışdır. Bu məsələyə kütləvi təbliğat da lazımi qədər diqqət yetirmir.

Müxalifət partiyalarının mahiyyətini, fəaliyyətlərini səciyyələndirən cəhətləri, onların bünövrəsini daxillərində baş verən köklü prosesləri nəzərə almadan bu partiyaların qiymətləndirilməsi yanlış nəticələrə gətirib çıxarır. Ona görə də çoxları belə hesab etməyə alışmışlar kı, yalnız "dördlük", yaxud da "onluq" və sair formulu çərçivəsində fəaliyyət göstərən partiyalar əsl müxalifət partiyalarıdır. Digər tərəfdən, bütün müxalifət partiyaları özlərini "demokratik partiyalar" kimi qələmə verirlər, halbuki onlar neobolşevik, ifrat millətçilik ideologiyası və digər qeyri-demokratik ideologiyalardan geniş istifadə edirlər. Belə qarmaqarışıqlıq cəmiyyətin bu və ya digər partiyanın əsl niyyətlərindən baş çıxarmasına mane olur, müstəqil fəaliyyət göstərən başqa partiyaların hüquq və mənafelərinə xələl gətirir. Eyni zamanda, beynəlxalq strukturlarda də belə bir yanlış rəy yaranır ki, Azərbaycanda yalnız "onluğa" və ya "dördlüyə" daxil olan partiyalar müxalifət partiyalarıdır. 20-dən çox digər müxalifət partiyası diqqətdən kənarda qalır.

Müxalifət partiyalarını səciyyələndirən cəhətlərdən danışarkən, siyasi həyatımızın anlaşılmaz təzahürlərindən birinə toxunmaya bilmərəm. Söhbət Xalq Cəbhəsi Partiyasının adından gedir. İş bundadır ki, Xalq Cəbhəsi Partiyasının başçıları "cəbhə" anlayışına möhkəm vurulublar və ona görə də köhnə əhval-ruhiyyədən əl çəkə bilmirlər.

Məlumdur ki, XX əsrin 80-ci illərinin sonunda Baltikyanı ölkələrdə və bəzi başqa sovet respublikalarında xalq kütlələri SSRİ rəhbərliyinin ədalətsiz siyasətinə qarşı etiraz aksiyaları keçirirdilər. Bu aksiyalar təşkilati baxımdan formalaşaraq, Xalq Cəbhəsi adı ilə çıxış etməyə başladı. Lakin respublikalar

müstəqilliyini əldə edəndən sonra Xalq Cəbhəsi qurumlarının bir qismi başqa ad altında partiyaya çevrildi, bəziləri isə vəzifələrini bitmiş hesab edib fəaliyyətlərini dayandırdılar. Əslində, bundan sonra Azərbaycan Xalq Cəbhəsi də öz missiyasını başa vurduğundan buraxılmalı idi. Çünki söhbət artıq imperiyaya və digər xarici düşmən qüvvələrə qarşı birləşməkdən deyil, müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğunun məzmun, forma və metodlarından gedirdi.

Hakimiyyətə gəlmək uğrunda mübarizənin sivil forması müəyyən bir sosial təbəqənin və milli dövlət quruculuğu proqramının təmsilçisi kimi siyası partiya yaratmaq və öz platformasından çıxış edərək tərəfdaşlar toplamaqdır. Lakin bu, çətin yol idi. Ən asanı isə xalq kütlələrinin müstəqillik uğrunda mübarizə əhval-ruhiyyəsinə söykənərək, artıq vaxtı keçmiş qurumu necə olursa-olsun, yaşatmaq, yaxud heç olmazsa, onun adından bəhrələnərək, əvvəlki elektoratın daha da mühafizəkar və inert hissəsini saxlamaq idi.

Cəbhə - düşmənə qarşı bütün xalqın mübarizə üsulu, ön cəbhə, arxa cəbhə - bunlar müharibə dövrünə aid olan anlayışdır. Buna baxmayaraq, üç qanada parçalanmış Azərbaycan Xalq Cəbhəsinin bugünkü başçıları 1980-90-cı illərin ab-havası ilə yaşayaraq, zamanın tələblərinə uyğun olmayan addan möhkəm yapışıblar. Bu da həmin partiyanın həqiqi mahiyyətini və onun rəhbərlərinin düşüncəsini açıq-aydın göstərir.

Pozucu müxalifətin fəaliyyətinin müşahidə edilməsi, bu fəaliyyətin nəticəsinin təhlili, həmin müxalifətin aparıcı nümayəndələrinin tərcümeyi-halı ilə tanışlıq belə bir qənaətə gəlməyə əsas verir ki, bu sosial qrupun üzvlərinin psixologiyasının fərdi xüsusiyyətləri mövcuddur. O ki qaldı bu

qrupun pozuculuğuna və davakarlığına, onun da izahı var. Psixika haqqında elm olan psixologiya təsdiq edir ki, şəxsiyyətin xarakterinə xas xüsusiyyət kimi, davakarlığın formalaşması cəmiyyətin mənafelərinə zidd həyat təcrübəsi ilə bağlıdır. Nə əməli, nə də həyat təcrübəsi olmayan, - biz hələ hansısa peşəkarlıq keyfiyyətlərini demirik, - bir qrup şəxsin zorla hakimiyyəti ələ keçirdiyi 1992-1993-cü illərin hadisələrini təhlil etmək fikrində deyiləm. Təkcə bir misal çəkmək istərdim. Ölkə çox yüksək kadr potensialına malik olduğu halda, Pənah Hüseynovun Nazirlər Kabinetinə başçılıq etməsi faktı məgər Azərbaycan üçün paradoks deyildimi? Məlumdur ki, xarici dövlətlərin başçıları Azərbaycanın o zamankı rəhbərlərini, yumşaq desək, ciddi qəbul etmirdilər. Nə qədər də acı olsa, özümüzü aldatmamalı və həqiqəti etiraf etməliyik. Biz hamımız müstəqil dövlətin necə səriştəsiz qurulmasının ağrı-acısını görmüşük. İndi iqtidara qarşı barışmaz müxalifətdə duranların hakimiyyəti dövründə Azərbaycanın bir dövlət kimi necə ağır və gülünc vəziyyətə düşdüyünə dair yüzlərlə misal çəkmək olar. Bu adamlar real surətdə ölkəni fəlakətə sürükləyirdilər. Amma bir dəfə hakimiyyətdən faydalanmış, necə deyərlər, onun ləzzətini dadmışlar, yenidən iqtidara gəlməyə can atırlar. **Həmin sosial qrupdakı davakarlıq hissləri və niyyətləri də məhz bu psixoloji əhval-ruhiyyədən doğur!**

Deyilənlərə aydınlıq gətirmək üçün qeyd edim ki, davakarlıq (aqressivlik) konkret sosial və digər obyektlərə zərər vurmaq məqsədi güdən pozucu davranış tərzidir. Xatırlatmaq yerinə düşər ki, davakarlıq müxtəlif cür olur - fiziki davakarlıq (haray-həşir, çığır-bağır salmaq, hədə-qorxu gəlmək, lənətləmək, söyüş söymək), bilavasitə subyektə, şəxsiyyətə yönəldilən birbaşa

davakarlıq, dolayısı ilə davakarlıq, kinli dedi-qodular), impulsiv davakarlıq (intensiv emosional-ekspressiv hərəkətlərdə təzahür edən hiddət-qəzəbin coşması) və sair.

Bütün bu keyfiyyətlər Azərbaycanda destruktiv müxalifətə xasdır. Qara-qışqırıq, hədə-qorxular, lənətlər, söyüşlər, nifrət, dövlət başçısının şəxsiyyətinin təhqir olunması - onların tədbir və mitinqləri bütün bunlardan ibarətdir, nəşr etdikləri qəzetlərin səhifələri bütün bunlarla doludur! Beləliklə, barışmaz ifrat radikal müxalifət öz mahiyyətinə və mənəvi-psixoloji vəziyyətinə görə nəinki pozucudur, həm də davakardır!

Nifrətin və məkrli niyyətlərin gücü çox böyükdür. Nifrət və məkrli niyyətlər texnogen qüvvəni dağıtmağa və məhv etməyə yönəldiyindən, bəşəriyyətın ozunüməhvinə gətirib çıxara bilər. İtalyan siyasi mütəfəkkiri Nikollo Makiavelli (o, özünün güman etdiyi kimi, siyasi parçalanmanın qarşısını ala biləcək dövlət nəzəriyyəsi yaratmışdır) deyirdi ki, heç vaxt nifrət, kin-küdurət təlqin etməyin. “Nifrət şəhvətdən, ehtirasdan, fanatizmdən doğan mənasız şərdir. Nifrət ağlın səslədiyi tərəfə getməyə mane olan iradə zəifliyinin nəticəsidir”.

Biz xeyir və şərin təbiətini hələ yaxşı dərk etmirik, lakin bir şey şübhəsizdir ki, onların kökündə böyük yaradıcı və dağıdıcı qüvvə durur. Əbəs deyildır kı, xeyirə sitayiş inkişafa və tərəqqiyə, şərə sitayiş isə münaqişələrə və sosial kataklizmlərə gətirib çıxarır. Odur ki, insan cəmiyyətinin mənəvi inkişafı müsbət mənada prinsipial əhəmiyyətə malikdır və hətta onun maddi təcəssümü də var.

Bir sözlə, mənəvi başlanğıc cəmiyyətin həyatında çox böyük rol oynayır. Yüksək mənəvi potensiala, eləcə də mərkəzəqaçma psixi enerjisinə (bu mənəvi-psixoloji kateqoriyalar isə qarşılıqlı

əlaqədədir və bir-birini tamamlayır) malik olan insan, yaxud sosial qruplar həmişə xeyir toxumu səpir, özlərinin bu keyfiyyətlərindən insanların və cəmiyyətin rifahı naminə istifadə edirlər. Bu halda yaradıcı psixi enerjidən söhbət gedir. Bunun əksinə olaraq, mərkəzdənqaçma psixi enerji də mövcuddur ki, o da şər, nifrət, kin-küdurət doğurur. O, yalnız dağıntıya və münaqişələrə gətirib çıxarır.

Bu mülahizələr ictimai-siyasi proseslərin mahiyyəti, eləcə də onların iştirakçılarının mənəvi-psixoloji keyfiyyətləri araşdırılarkən də eyni dərəcədə tətbiq oluna bilər. Azərbaycanın siyasi həyatına yuxarıda deyilənlər baxımından nəzər salsaq, o qədər də sevindirici olmayan bir halla üzləşirik: destruktiv müxalifətin bütün fəaliyyəti onda mərkəzdənqaçma psixi enerjisinin üstünlük təşkil etdiyini göstərir. Pozucu müxalifət yüksək mənəvi potensialı ilə də öyünə bilməz. Onun ölkə rəhbərliyinin həyata keçirdiyi müsbət nə varsa, hər şeyə nifrət bəsləməsi, kin-küdurəti də bundan irəli gəlir. Hakimiyyətə gəlmək xəstəliyinə tutulmuş destruktiv müxalifət, ələlxüsus da onun rəhbərləri obıvatelin psixi enerjisini mərkəzdənqaçmaya, yəni qarşıdurmaya və dağıntıya yönəltməyə cəhd göstərir. Onların öz tərəfdarlarını ideoloji cəhətdən hazırlaması da bu məqsədə qulluq edir. Belə bir faktı da inkar etmək olmaz ki, insanın öz daxili aləmini hər gün nəzərə çarpmadan təhlil etməsi və özünün narahat daxili aləminə qapılması böyük gücə malikdir. Əgər həmin qüvvə üzə çıxıb mərkəzdənqaçma xarakteri alsa, mütləq fəlakətə səbəb olacaqdır. Buna görə də cəmiyyətin inkişafının indiki mərhələsində vətəndaşlarımız ən çox məhz pozucu, dağıdıcı müxalifətdən ehtiyat etməlidirlər, çünki o, mənfi psixi enerjini toplamışdır və yeganə məqsədi hakimiyyətə gəlməkdir. Bunun üçün hansı

üsullardan və vasitələrdən istifadə ediləcəyinin onun üçün heç bir əhəmiyyəti yoxdur. Əgər vətəndaşlarımız dağıdıcı müxalifətin qeyri-real niyyətlərinə qarşı laqeyd, etinasız mövqe tutsalar, onun ardıcıllarının mərkəzdənqaçma psixi enerjisi get-gedə təhlükəli xarakter alacaq, bu isə qarşıdurmaya, münaqişələrə və dağıntılara gətirib çıxaracaqdır.

Destruktiv müxalifət demokratiyanı öz bildiyi kimi, yəni hərki-hərkilik və məsuliyyətsizlik kimi yozaraq, belə şəraitdə öz xudbin planlarını həyata keçirməyə ümid bəsləyir. O, həyat təcrübəsini, səriştəliliyi, idarəetmə elmini, əhalinin mənafelərini, əhval-ruhiyyəsini qulaqardına vurur, dərk etmək istəmir. Təbii ki, belə mövqe dövlət quruculuğu prinsiplərinə və dövlətçiliyin möhkəmləndirilməsinə kökündən ziddir. Azərbaycanın müasir inkişaf mərhələsi sabit dövlətdə vətəndaşlarımızın həyatını qurmağın başqa bir konsepsiyasının işlənib hazırlanmasını nəzərdə tutur. **Bu gün olduğu kimi, gələcəkdə də Azərbaycanda xarici və daxili amillər, ölkənin coğrafi-siyasi mövqeyi nəzərə alınmaqla, güclü hakimiyyət və güclü ölkə başçısı olmalıdır. Dövlət başçısının mövqeyinin amorfluğu, zəifliyi və qeyri-müəyyənliyi, onda lazımi iradi keyfiyyətlərin, dövlətqoruyuculuğu, təşkilatçılıq və idarəçilik keyfiyyətlərinin, həyat təcrübəsinin olmaması ölkə üçün fəlakətdir və biz bu dövrü 1990-cı illərin əvvəllərində artıq yaşamışıq və acı təcrübələrini görmüşük!**

Ona görə də demokratiyanı məqsəd kimi deyil, insanların həyatının yüksək standartlarına, vətəndaş cəmiyyətinin funksiyalarının artmasına və idarəetmə prinsiplərinin təkmilləşməsinə nail olmaq vasitəsi kimi başa düşmək lazımdır. Demokratiya birdəfəlik və həmişəlik verilmiş, dəyişməz kateqoriya deyildir.

Onun müxtəlif dövlətlərdə müxtəlif təzahür formaları, xüsusiyyətləri var. ABŞ-ı və Qərbi Avropa ölkələrini götürək. Heç kim iddia etməz kı, bu ölkələrdə dövlətlərin həyatı vahid meyarla təşkil olunmuşdur. Bu ölkələrdə ictimai inkişaf da onların xüsusiyyətlərinə uyğun olaraq gedir. Bu demokratik ölkələrin hər biri demokratiyanı özünə görə zənginləşdirmiş, ona öz xüsusiyyətlərini əlavə etmiş, xalqın tarixini və mentalitetini nəzərə almışdır.

**Azərbaycan şəraitində demokratiya özünün universal dəyərləri və ümumi prinsipləri ilə yanaşı, vətənpərvərlik, sabitlik, nüfuzlu rəhbərlık və s. bu kimi mühüm taleyüklü cəhətlərlə də zənginləşdirilməlidir. Vətəndaşlarımız unutmamalıdırlar ki, məhz dövlət başçısının zəkası, istedadı, uzaqgörənliyi və əzmi sayəsində ölkədə sabitlik yaranmışdır. Heydər Əliyevin simasında tale Azərbaycana və millətimizə güclü siyasi lider, ölkə əhalisi arasında və dünya birliyində yüksək, inkaredilməz nüfuza malik, beynəlxalq miqyaslı dövlət xadimi bəxş etmişdir.**

Bir sözlə, əgər Azərbaycan şəraitində demokratiyanın ümumi prinsiplərinin gerçəkləşməsi uğurla gedirsə, müxalifətin pozucu fəaliyyəti ucbatından əhalinin vətənpərvərliyi ilə əlaqədar vəziyyət bir qədər mürəkkəbdir, hər halda, birmənalı deyildir. Qəribə olsa da, məsələnin mahiyyəti ondadır ki, pozucu müxalifət bu fenomeni də dövlət mövqeyindən və ya dövlətçiliyin maraqları baxımından deyil, özünün qeyri-adekvat, iddialı planları baxımından dərk edir.

Məlumdur ki, demokratıya və etnomərkəzçilik bir araya sığmayan iki sosial-siyasi kateqoriyadır. Qərb tədqiqatçıları (T.Adorno və başqaları) müəyyənləşdirmişlər ki, adətən, etno-

mərkəzçilik ehkamçılıqla, siyasi mühafizəkarlıqla və qəddarlıqla, habelə gizli antidemokratik ideologiya ilə bağlıdır. Sual olunur, bu kateqoriyaların bizim gerçəkliyimizlə əlaqəsi necədir? Təəssüf ki, birbaşa əlaqəsi var. Azərbaycanda yaşayan bütün aborigen etnik qruplar (talışlar, tatlar, ləzgilər, avarlar və başqaları) azərbaycanlıdırlar. Bu, fundamental elmi və siyasi prinsipdir. Lakin təcrübə göstərir ki, Azərbaycan cəmiyyəti bu prinsipin əksi olan mənfi əhval-ruhiyyələrin təzyiqinə dəfələrlə məruz qalmışdır. Sözlərimizə misal olaraq, insanlara etnik baxımdan yanaşılmasını göstərə bilərik. Müxalifət bunu canfəşanlıqla təbliğ edir. Onun destruktiv hissəsinin mətbuatı hesab edir ki, bu cür praktika hamı üçün faydalıdır və vətənpərvərliyə, ümumən, demokratiyaya zidd deyildir. Ölkə vətəndaşlarına etnik cəhətdən fərq qoyulmadan dövlət mənafelərinin həyata keçirilməsi, etnik əlamətə görə insanlara qarşı ayrı-seçkiliklə mübarizə, ölkədə yaşayan bütün etnosların nümayəndələrinə dövlət strukturlarında işləmək üçün eyni hüquqlar verilməsi və şərait yaradılması kimi başa düşülən müasir dovlət quruculuğunu isə pozucu müxalifət əsas əhalini təşkil edən millətə qarşı xəyanət kimi qiymətləndirir.

Pozucu müxalifətin antivətənpərvərliyi öz ifadəsini bunda da tapır ki, o, Azərbaycanın xaricdəki bədxahlarının ölkə haqqında yalan, millətimiz üçün təhqiramiz xəbərlərini, fikirlərini və yazılarını öz mətbuatı vasitəsilə şövqlə və canfəşanlıqla yayır. Əgər erməni mətbuatında Azərbaycan rəhbərliyinə böhtanlar yağdırılırsa, sadəlövhcəsinə düşünməyin ki, bizim destruktiv müxalifət bunu pisləyəcəkdir. Yəqin ki, əksinə olacaqdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə bağlı hər hansı bir problem yaranırsa, müxalifət buna sevinir. Bir gəmi batıb insanlar həlak olubsa, bu milli müsibətə xalqla birlikdə

kədərlənmək və həmin faciə ilə əlaqədar dövlətə mənəvi həyanlıq göstərmək əvəzinə, müxalifət sevinir ki, dövlət rəhbərlərini ölkəni idarə etməyə qadir olmamaqda təqsirləndirmək üçün əllərinə girəvə düşübdür. Azərbaycanda destruktiv müxalifətin vətənpərvərliyi, bax, bundan ibarətdir!

Müxalifətin pozucu rolunun müxtəlif xarici strukturlar tərəfindən maddi cəhətdən dəstəklənməsi onun üçün normal haldır və vətənpərvərliyinə zidd deyildir. Bunu dövlətin daxili işlərinə müdaxilə kimi pisləyənlər isə, sən demə, antivətənpərvərlərdir. Gördüyümüz kimi, burada anlayışlar və prinsiplər açıq-aşkar, şüurlu surətdə qarışdırılır.

Azərbaycanda destruktiv müxalifətin əsl mahiyyəti təkcə yuxarıda göstərdiyimiz elementlərdən ibarət deyildir.

Siyasi ekspertlərin fikrincə, 2002-ci ilin ortalarından başlayaraq, müxalifət düşərgəsində yeni vəziyyət yaranıb: hər dəfə "birlik" nümayiş etdirməyə çalışan və bunu ölkə ictimaiyyətinə və beynəlxalq təşkilatlara cidd-cəhdlə təqdim edən müxalifət nəticədə daha çox parçalanır. Əvvəllər yaranmış bir sıra qurumlar ("Dəyirmi masa", SİDSUH, DUH, DUBB, DEMKONQRES və s.) özünü doğrultmayaraq, artıq arxivə verilibdir. Bundan sonra müxalifətin birgə əməkdaşlıq məqsədi ilə təsis etdiyi "Birləşmiş Müxalifət Hərəkatı" (BMH) da parçalandı. 2002-ci ilin son aylarında isə ifrat radikal mövqedə duran və hakimiyyətə hədsiz iddialı olan Müsavat, AXCP, ADP, AMİP və onlara qoşulan daha altı partiya və qrup başçısı, özlərinin dedikləri kimi, "onluq" formatını və "Müxalifətin Koordinasiya Mərkəzi" adlanan qurumu yaratdılar. Bu partiya başçılarının ambisiyalarını, bir-birinə olan inamsızlığı, qısqanclığı və uzun tarixi olan kompromat savaşını nəzərə alsaq,

destruktiv müxalifətin bu təşəbbüsünün də uğursuzluqla nəticələnəcəyini indidən söyləmək olar.

Çoxqütblü və çoxrəngli müxalifət spektri daxilindəki hadisələr göstərir ki, "dördlük" (Müsavat, AXCP, ADP, AMİP) özünü əsas və aparıcı müxalifət adlandıraraq bütün səylərini ona yönəldib ki, tərəfdarlarının sayını artırsın, başqa partiyaları öz ssenarilərinə uyğun davranışa məcbur etsin və ona nail olsun ki, iqtidar ancaq bu quruma daxil olan partiyaların tələblərini nəzərə alsın. Bu dörd partiyanın fəaliyyətində davakarlıq və barışmazlıq notlarının güclənməsi, onların hakimiyyətə qarşı fasiləsiz ideoloji hücumları, mətbuat səhifələrində iqtidar haqqında yaydıqları şayiələr və böhtanlar, beynəlxalq qurumlara müraciət və sair də bununla bağlıdır. Ancaq bütün bunlar bir nəticə vermir. Onlar özlərinə müxtəlif cəlbedici adlar qoyaraq ifrat radikal, destruktiv mübarizə metodlarını və platformalarını əsaslandırmağa çalışırlar. Məsələn, müxaliflər "milli qüvvə" adı ilə özlərini xalqın, millətin maraq və mənafelərinin yeganə və ardıcıl müdafiəçisi kimi göstərmək istəyirlər. Hətta hadisələrə fərqli mövqe bildirən partiyaları isə antimilli qüvvə kimi səciyyələndirirlər. Məsələn, Arif Hacıyevin bəzi partiyaları milli qüvvə olmamaqda günahlandırması ALP-nin sədr müavini Ə.Temirxanın hiddətinə səbəb olub: "Kimin qeyri-milli olmasını tarix müəyyənləşdirir, öz üzərinə Azərbaycan Respublikasının müxalifət naziri postunu götürən A.Hacıyev yox. Kimin milli olmasını onun 9 dövlətin mənafeyinə deyil, milli mənafeyə xidmət etməsi müəyyənləşdirir" *("Ədalət" qəzeti, 12 noyabr 2002-ci il; "Mərkəz" qəzeti, 12 noyabr 2002-ci il).*

Hamılıqla qəbul olunmuş belə bir məlum həqiqət var ki, ayrı-ayrı adamlar və sosial qruplar özlərinə müxtəlif adlar qoya bilər. Lakin o demək deyil ki, bütün cəmiyyət bu insanları belə qəbul

edir. Məsələ bundadır ki, “milli qüvvə” ifadəsi özlüyündə qeyri-müəyyən, mücərrəd bir anlayışdır. Qeyd etməliyəm ki, bunun heç elmi tərifi də yoxdur. Onun yalnız konkret halda konkret məzmunu ola bilər. Fikrimcə, müasir Azərbaycan reallıqları şəraitində “milli qüvvə” ifadəsinin dərin konkret məzmunu və mənası var. “Milli qüvvə” deyəndə, biz Azərbaycan dövlətini, milli dövlətçilik və azərbaycançılıq platformasında dayanan bütün siyasi və ictimai qurumların birliyini nəzərdə tutmalıyıq. Bu halda millilik bəhs edilən qüvvələrin konkret fəaliyyət proqramına, milli platformasına və atdıqları real praktiki addımlara söykənir. Yəni, bu siyasi qurumların fəaliyyətinin xalqın, millətin həqiqi mənafeyi və maraqlarına nə qədər cavab verməsi onların milli ad altında fəaliyyət göstərməsini şərtləndirir. Digər tərəfdən, “milli qüvvə” ifadəsi xalqın, millətin əsas, böyük bir hissəsini əhatə etməlidir. Beləliklə, Azərbaycanda “milli” adına millətin taleyükü problemlərinin həllində hərtərəfli iştirak edən geniş sosial qruplar, xalq qüvvələrini səfərbər edə bilən təsisatlar iddia edə bilər. Bu nöqteyi-nəzərdən “milli qüvvə” anlayışının ifrat radikal, destruktiv müxalifətə heç bir aidiyyəti yoxdur və onların milli ad altında çıxış etməsinin heç bir əsası yoxdur.

Barışmaz müxalifətin ayrı-ayrı nümayəndələri bəzi xarici dövlətlərin və qurumların ancaq onların partiyaları ilə özəl münasibət yaratması, əməkdaşlıq etməsi və onlara dəstək verməsi haqqında həvəslə, özü də şişirdilmiş məlumatlar yayırlar. Bu, müəyyən siyasi məqsədlərə xidmət etsə də, illüziyadan başqa heç nə deyildir. Bununla onlar çalışırlar cəmiyyətə işarə etsinlər ki, guya beynəlxalq aləmdə artıq iqtidarı yox, bizi qəbul edirlər”. Bu fikri yayanlar əsas məsələni

unudurlar. Əgər xalq istəmirsə, heç bir xarici qüvvə kimisə önə çəkə bilməz və çəksə də, onun nəticəsi olmayacaqdır. Hesab edirəm ki, bu məsələ ilə bağlı ALP sədri Lalə-Şövkət Hacıyeva müxalifətçi həmkarlarına düzgün cavab verir: "...Qərbin kimisə dəstəkləməsi haqda iddialar mediada geniş şəkildə vüsət alıb. Gəlin, məntiqlə danışaq. Qərb Azərbaycanda əsl sabitliyin olmasını istəyir. Bu sabitlik nə vaxt olur? Əgər millətin böyük hissəsinin etimad göstərdiyi iqtidar dövləti idarə edirsə, doğrudan da, daimi sabitlik yarana bilər. Ancaq xarici dövlətlər kimisə hakimiyyətə gətirirsə və millətin böyük əksəriyyəti bunu qəbul etmirsə, hansı sabitlikdən söhbət gedə bilər. Heç kəs fikirləşməsin ki, ABŞ və ya Qərb kimisə önə çəkib, millətimə sırıyacaq. Bu, qətiyyən olası məsələ deyil (*"Xalq Cəbhəsi" qəzeti*, 26 sentyabr 2002-ci il).

Sabiq AMİP-çi Şadman Hüseynin də bu məsələyə fərqli münasibəti var. O, açıq qeyd edir ki, bir çox müxalifət partiyaları xarici qurumlardan maliyyə yardımı alır. Öz fəaliyyətlərini tənzimləmək üçün onların xaricdən maliyyə yardımlarına ehtiyacları var və bunları da alırlar. Bunun müqabilində isə xarici qüvvələrin tapşırıqlarını yerinə yetirməlidirlər... Azərbaycanı istəməyən qüvvələr çalışır ki, istənilən formada bizə təzyiqlər olsun. Həmin qüvvələrin xaricdən ölkəmizə gücləri çatmırsa, buna daxildən nail olmağa cəhd edirlər. Daxildən həyata keçirmək üçünsə, Azərbaycanda istənilən qədər siyasətlə məşğul olan adam və partiya var. Bunların vasitəsilə xarici qüvvələr Azərbaycanda qarşıdurma yaratmaq, ölkəmizin adına ləkə gətirmək imkanına malikdirlər" *("Yeni Azərbaycan" qəzeti, 4 sentyabr 2002-ci il)*. Nə qədər acı olsa da, zənnimcə, bu dəyərləndirmə ilə razılaşmaq lazımdır.

Təəssüflər olsun ki, 15 ildən artıq siyasi səhnədə olmalarına baxmayaraq, siyasi mübarizənin sivil formaları bir çox müxalif liderlərin fəaliyyət prioritetinə çevrilməyibdir. Təsadüfi deyil ki, bir çox ekspertlər və bəzi beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanda demokratik, obyektiv, konstruktiv müxalifətin olmaması haqqında açıq fikir söyləyirlər. Müxalifətin hər şeyi inkar etmək siyasəti özünü onda göstərir ki, bir sıra müxalifət partiyalarının rəhbərləri hər şeyi qara rəngdə görür, "əgər mən hökumət olsaydım, bu işi görərdim", o işi görərdim prinsipi ilə hərəkət edərək, cəmiyyətdə baş verən müsbət dəyişiklikləri qəbul etmək istəmirlər.

Azərbaycanın bugünkü barışmaz, destruktiv müxalifətinin mövqeyi və fəaliyyət prinsipləri Qərb müxalifətçiliyi prinsiplərindən ciddi surətdə fərqlənir. Təhlillər və araşdırmalar onu deməyə əsas verir ki, Azərbaycanda destruktiv müxalifətin davranışı və mahiyyəti, onun sosial tərkibi, sona qədər formalaşmayan ideologiyası (sollar, sağlar, mərkəzçilər, millətçilər və sair bütün müxalif partiyaların fəaliyyətində öz əksini tapıb) partiya rəhbərlərinin həyat və idarəçilik təcrübəsinə, mənəvi-psixoloji durumuna, onların ümumi hazırlığına adekvat olmayan iddiaları ilə bağlıdır.

Faktlar sübut edir ki, destruktiv müxalifət partiyaları rəhbərlərinin millət, vətən, müstəqillik, azadlıq haqqında ifrat demaqogiyasına baxmayaraq, onları milli mənafelər az maraqlandırır. Hakimiyyət davası apararaq, onlar yenə qisas almaq istəyirlər, ali münsif hüququnu mənimsəyərək, iqtidara qarşı ancaq əsassız, pozuculuq məqsədi daşıyan tənqidlə məşğuldurlar. Mitinqlərin daimi şüarı isə istefadır. İqtidar ilə dialoqa da hazır deyillər, çünki arqumentləri yoxdur və ciddi, əsaslandırılmış tənqidə davam

gətirmirlər. Üstəlik, konstruktiv dialoq müxaliflərin siyasi maraqlarına və niyyətlərinə daxil deyildir. 2003-cü ildə keçiriləcək prezident seçkiləri və Seçki Məcəlləsi layihəsi ətrafında qaldırılmış səs-küy də bunun bariz nümunəsidir.

Məsələ bundadır ki, **destruktiv müxalifət partiyalarında müasir dünya reallıqlarına və beynəlxalq standartlara uyğun heç bir müsbət dəyişiklik baş vermir. Onların sədrləri 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində olduğu kimi, yenə də uğursuz mitinq taktikasına və qarşıdurma ovqatı yaratmağa üstünlük verirlər.** Şadman Hüseynin fikrincə, bu ifrat radikal mübarizə forması bundan sonra Azərbaycanda heç bir müsbət nəticə verməyəcəkdir. “Artıq küçə, meydan mübarizəsindən keçib masa arxasında əyləşərək ümummilli məsələləri müzakirə etmək lazımdır. Müxalifətdəkilər, təəssüflər olsun ki, hələ də 1988-1992-ci illərin ab-havasından uzaqlaşa bilmirlər. Elə başa düşürlər ki, kütləvi aksiyalar keçirməklə nə isə əldə etmək mümkündür. Ancaq anlamırlar ki, Azərbaycan xalqı o zamankı xalq deyil. O vaxt Azərbaycan xalqı sovet imperiyasının tərkibindən çıxmaq üçün mübarizə aparırdı. Bu günsə bir qrup müxalifətçi partiya başçıları öz şəxsi maraqları naminə insanları küçələrə çıxarmağa cəhd göstərirlər. ...Onlar yenə də xaos yaratmaq və Azərbaycan xalqının əziyyət çəkməsini istəmirlərsə, öz iddialarından əl çəkməlidirlər. Yaxşı olar ki, əvvəlcə onlar öz partiyaları daxilindəki mənasız problemləri həll etsinlər. Hesab edirəm ki, adicə bir təşkilatı idarə edə bilməyən partiya başçısının 8 milyonluq xalqı idarə etmək üçün cəhd göstərməsi yersiz və gülüncdür *(“Azərbaycan” qəzeti, 29 oktyabr 2002-ci il).*

Müxalifətin barışmaz başçılarına elə gəlir ki, hər şeyi - nəyin yaxşı, nəyin pis olduğunu və vəziyyətin daha yaxşı olması üçün

nə etmək lazım olduğunu onlar həmişə bilirlər. Təəssüf ki, həyat onlara dərs olmayıbdır. **Dağıdıcılıq psixologiyası ilə yaşayan indiki barışmaz müxalifət başçıları unudurlar ki, məhz onların hakimiyyətdə olduqları bir il müddətində Azərbaycan xalqı və dövləti güclü siyasi və iqtisadi sarsıntılar keçirmiş və zərbələr almışdır! Yəqin ki, 1990-cı illərin əvvəlləri – Azərbaycanda dərəbəylik və anarxiyanın hökm sürdüyü, özbaşınalığın cəmiyyət həyatının bütün sahələrini bürüdüyü illər uzun zaman vətəndaşlarımızın xatirəsindən silinməyəcəkdir. Azərbaycan tarixinin taleyüklü dövründə özlərinin acizliyini və səriştəsizliyini nümayiş etdirənlər bu gün iqtidarı bacarıqsızlıqda günahlandırırlar. Nə qədər haqsızlıq olsa da, həyatımızın reallığı bundan ibarətdir və belə düşüncəni, psixologiyanı anlamaq çətindir! Azərbaycandakı dağıdıcı müxalifətin başçıları sivil, demokratik dünyada istifadə olunan mübarizə üsullarını qəbul etmək iqtidarında deyillər!**

Dünya dəyişib, beynəlxalq siyasi səhnədə də ciddi dəyişikliklər baş veribdir. Ancaq Azərbaycanda destruktiv müxalifət başçılarının düşüncəsində və fəaliyyətində dəyişiklik baş vermir. Bu da ondan irəli gəlir ki, bu yönümlü müxalifətçiliyin əsası əvvəldən düzgün qoyulmayıbdır. Çünki ilk gündən xalq hərəkatına rəhbərliyi ələ keçirənlərin əhval-ruhiyyəsi demokratik dəyərlərdən uzaq idi. Əlbəttə, bütövlükdə o dövrün mübarizə metod və formalarına kölgə salmaq düzgün olmazdı. Kəskin radikallıq yaranmış vəziyyətin tələbi idi. Ancaq hər dövrün özünəməxsus fəaliyyət proqramı və metodları olmalıdır. Bu, aksiomdur. Mitinq, yürüş, daş-kəsək, yalan, böhtan, təhqirlər və s. bu tipli mübarizə metodları keçmişdən xəbər verir və indi cəmiyyət tərəfindən qətiyyən qəbul olunmur.

Radikal müxalifət partiyalarının qəzetləri Azərbaycan dövlətinə və onun başçısı Heydər Əliyevə qarşı, sözün əsl mənasında, informasiya müharibəsi aparırlar. 2003-cü ilin prezident seçkiləri yaxınlaşdıqca, bu qəzetlərin ölkədə olan müsbət hər şeyə düşmən münasibəti, dövlət rəhbərinə, iqtidar nümayəndələrinə qarşı təhqir, böhtan və iftiraları daha da güclənir və intensiv xarakter alır. Məsələn, Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın 2003-cü ilin yanvar ayında Azərbaycana səfərindən sonra destruktiv müxalifət partiyalarının başçıları ölkəmiz üçün hansı nəticə verə biləcəyinin fərqinə qətiyyən varmadan, respublikamızda hansısa terrorçu təşkilatların fəaliyyəti haqqında uydurma, böhtan xarakterli məlumatlar yaymağa başladılar. Bu məlumatların adi təhlili göstərir ki, məqsəd ölkədə milli etimadsızlıq yaratmaq və milli ədavəti qızışdırmaq, iki qardaş ölkənin münasibətlərini pozmaq, Türkiyə rəhbərliyində Azərbaycana qarşı inamsızlıq təlqin etməkdən ibarətdir. Onların qəzetləri həmin günlər heç bir əsası olmayan, tamamilə qərəzli uydurma olan belə bir məlumat da yaymışdı ki, guya Rəcəb Tayyib Ərdoğan Heydər Əliyevlə görüş zamanı ona PKK-nın Azərbaycanda fəaliyyəti ilə bağlı detallarınadək açıqlanmış dosye təqdim edib. Və guya həmin mühüm sənəddə indiyədək yazılan (-?) və deyilən (-?) faktlar da (-?) daxil olmaqla, xeyli ilginc, maraqlı faktlar var imiş. Bu yalanı uyduran həmin qəzet heç nədən çəkinmədən və utanmadan hansısa məlumatlı mənbəyə belə istinad edir. Bax, budur əsl yalan, qərəz və təxribatçı böhtan.

Bir vəzİfəli şəxs kimi mən məsuliyyətlə bildirirəm ki, bu məlumatın heç bir əsası yoxdur, tamamilə uydurulmuş və yalan məlumatdır. Heydər Əliyev Rəcəb Tayyib Ərdoğanla təkbətək, heç kimin iştirakı olmadan görüş keçiribdir. Ona görə də

kiminsə dosye haqqında məlumatı olması ancaq xəstə düşüncəsinin məhsulu ola bilər. İki ölkənin çoxsaylı nümayəndələrinin görüşü zamanı isə belə fakt ümumiyyətlə olmayıbdır.

**Dövlətin və xalqın mənsub olduğu hər şeyi hakimiyyət ambisiyasına qurban verməyə hazır olan həmin partiya rəhbərləri və onlara xidmət edən mətbuat orqanlarının səyi ilə Azərbaycanı terroru dəstəkləyən ölkə kimi təqdim etmək yalnız bir məqsəd güdür: nə qədər Azərbaycana pis olsa, onun iqtidarına da pis olacaq, deməli, müvafiq olaraq, pozucu müxalifətə yaxşı olacaqdır. Bu, dövlətçilik üçün çox təhlükəli məntiqdir.**

Müxalifət qəzetlərində hakimiyyətin bölüşdürüləcəyi, bəzi rəhbər vəzifəli şəxslərin istefaya göndərəcəyi, iqtidarın daxilində qruplaşmaların olması və onların bir-biri ilə kəskin mübarizə aparması, rəhbər şəxslərin xaricə qaçması üçün xüsusi təyyarə saxlaması, guya Heydər Əliyevin istefaya getmək planları və s. haqqında uydurma və dezinformasiyaları da bu sıraya əlavə etmək olar. Belə təxribat niyyətli, açıq-aşkar böhtan və saxtakarlıq üzərində qurulmuş yazıları "azad sözün" təzahürü kimi qiymətləndirmək qətiyyən mümkün deyildir.

Ölkədə bugünədək 42 partiya dövlət qeydiyyatına alınmışdır. Özü də onların böyük əksəriyyəti iqtidara müxalifətdədir. Lakin bu partiyalar real siyasi qüvvədən daha çox siyasi fəaliyyət imitasiyasıdır, əsasən, öz taleyindən narazı olan, qarşılarına qoyduqları məqsədə çatmayan, dəqiq ideya mövqeləri olmayan bir qrup adamdan ibarətdir. Daha dəqiq desək, müxtəlif sosial təbəqələrin və elementlərin konqlomeratından ibarətdir. **Bütün bunlar belə deməyə əsas verir ki, Azərbaycanda konkret təbəqəyə, yaxud da elektorata istiqamətlənmiş, ciddi demokratik müxalifət partiyaları yoxdur!**

Açıq-aşkar qəbul edilən liderin olmaması, partiya və bloklarda liderlik uğrunda gedən amansız mübarizə, ayrı-ayrı qruplaşmaların hegemonluq cəhdləri onları ziddiyyətlər və siyasi hikkələr burulğanına salmış partiyadaxili çəkişmələrə sövq etmişdir. Ümumi əhalinin dəstəyini qazana bilməmələrinin səbəbi isə çox sadədir - insanlar müxalif “siyasətçilərdən” hələ 1992-1993-cü illərdə ümidlərini üzüblər. “İndi bu partiyaları siyasi təşkilatlar deyil, Bakının mərkəzi hissəsi çərçivəsində daha çox şəxsi birliklər” hesab edənlər haqlıdırlar. Obrazlı desək, partiyalarda “liderlər” var, tərkibi və sosial bazası baxımından isə partiyaların özləri yoxdur. Bu tezisi 2002-ci il oktyabr ayının 5-i, 14-ü və 27-də, noyabrın 24-də “Birləşmiş Müxalifət Hərəkatı” adlı qurum tərəfindən təşkil olunmuş mitinqlər də təsdiq etdi. Bütün güclərini, təşkilati və maliyyə imkanlarını ortaya qoyan müxalifət partiyaları birlikdə, mitinqə ən yaxşı halda, 4-5 min adam cəlb edə bilirdilər. Onların da yarıdan çoxu müxtəlif vədlərlə şirnikləndirilərək, aksiyalara cəlb edilmiş təsadüfi şəxslər idi. Bu mitinq və yürüşlərə çoxlu sayda “muzdlu” adamların, şagirdlərin cəlb edilməsi müxalifətin sosial bazasının olmasından yox, onun ictimai rəylə manipulyasiya etmək, görüntü yaratmaq istəyindən xəbər verir.

Aqressiv müxalifət hakimiyyətə qarşı informasiya müharibəsi aparmaqdadır. İnformasiya müharibələri qarşı tərəfin mövqeyində, psixikasında, şüur və düşüncələrində müəyyən dəyişikliklərə nail olmaq məqsədi daşıyan ardıcıl və əlaqəli tədbirlər kompleksi kimi başa düşülür. Ona görə də müxalifət ideoloqları tərəfindən hakimiyyət uğrunda siyasi mübarizəni psixoloji müharibə elementləri ilə tamamlamaq meyli özünü getdikcə daha artıq büruzə verməkdədir. Bu da təsadüfi deyildir.

Müxalifət başçıları dərk edirlər ki, seçkilər müxalifət partiyalarının hər biri və ya hamısı üçün fəlakətli ola bilər. **Bu gün Azərbaycan cəmiyyəti dərk edir ki, ölkədə müxalifətin destruktiv hissəsi artıq siyasi yararlılıq həddini keçibdir. Müxalifət başçılarının özləri anlayırlar və onu da bilirlər ki, 2003-cü ildə Heydər Əliyevlə layiqli rəqabət aparmağa tək-tək və cəm halında heç bir şansları yoxdur.**

**Hesab edirlər ki, belə şəraitdə əhalinin narazı təbəqələrini müxtəlif yalan və böhtanlarla iqtidar üzərinə qaldırmaq, geniş ictimaiyyətdə Heydər Əliyev hakimiyyətinə inamsızlıq yaymaq, nəticədə "istefa" şüarı ilə qarşıdurma ovqatını gücləndirmək yeganə çıxış yoludur. Azərbaycanda siyasi proseslərin informasiya müharibəsi mərhələsinə qədəm qoyması destruktiv müxalifətin ümid bəslədiyi yeganə yoldur!**

Hakimiyyət Azərbaycanın müxalifətçi qruplarına istədikləri qədər mitinq keçirməyə şərait yaradıbdır. Amma ardı-arası kəsilməyən mitinqlərin bir nəticəsi görünmür, çünki xalq onların fasiləsiz "yürüşlərindən" və aksiyalarından bezmişdir. İqtidarı tənqid etmək hər bir sivil ölkənin ictimai-siyasi həyatında qəbul olunmuş haldır. Sağlam müxalifət cəmiyyətə və iqtidara lazımdır. Lakin siyasi tarazlığı pozmağa çalışaraq, konstitusiya quruluşunun əsaslarının təftiş olunmasını tələb edənləri heç bir iqtidar normal qəbul etmir.

Azərbaycanın ənənəvi müxalifət partiyalarının ideologiyasının, əməli fəaliyyətinin təhlil edilməsi bir sıra ümumiləşdirmələr aparmağa imkan verir. **Destruktiv, dağıdıcı müxalifət son 10-15 ildə Azərbaycan xalqına və cəmiyyətinə inteqrasiya olunmayıbdır. Bu müxalifət xalqdan, müxtəlif əhali qruplarından kənarda, onların ehtiyac və istəklərinə biganə qalaraq yalnız öz**

**planları, korporativ, regional, qrup maraqları ilə yaşayıb və fəaliyyət göstəribdir. Müxalifətin xalqdan və vətəndaşların əksər hissəsindən fərqli ideyaları və dəyərlər sistemi yaranıbdır.**

**YAP sədrinin birinci müavini, Milli Məclisin deputatı İlham Əliyevin təbirincə desək, onun mikroaləmi formalaşıbdır. Bu ideyaların, meyarların və dəyərlərin müasir standartlara və reallıqlara nə dərəcədə uyğun olması isə onun başçılarını və ideoloqlarını maraqlandırmayıbdır. Azərbaycanın indiki müxalifət başçılarını və funksionerlərini artıq bir dəfə hakimiyyətdə görmüş vətəndaşlar, geniş əhali qrupları beynəlxalq hüquqi və siyasi reallıqlara qətiyyən uyğun olmayan bu ideyalardan (ifrat millətçilik, turançılıq və s.) tezliklə üz döndərdilər. Bu ideya və şüarlar ətrafında spekulyasiyalar isə bir səmərə vermir. Heç bir elmi və sosial əsası olmayan bu ideyalar xalqın içərisinə nüfuz edə bilməyibdir.**

**Ona görə də Azərbaycanın destruktiv müxalifət başçılarını tamamilə haqlı olaraq mifik ideyalar və dəyərlər əsiri kimi xarakterizə edə bilərik.**

Beləliklə, barışmaz destruktiv müxalifətin ideya və təbliğati imkanlarını heçə endirən, onu əhalidən və potensial seçicilərdən təcrid edən başqa bir səbəb ondan ibarətdir ki, uzun illər siyasi səhnədə fəaliyyət göstərən bu qüvvələr cəmiyyətdə "ideya istehsalçısı" ola bilməyibdir. Bunun da səbəbi var. O da ondan ibarətdir ki, bu müxalifət müasir dünyada gedən inkişaf prosesinin xüsusiyyətlərini qəbul etmir. Ona görə də köhnəlmiş, aktuallığını itirmiş ideyalardan əl çəkmir. Baxmayaraq ki, müxalifətin indiyə qədər irəli sürdüyü heç bir ideya həyatda sınaqdan keçməyib və özünü doğrultmayıbdır. Əslində, hər hansı real alternativ ideya, proqram və layihələrdən danışmağa da dəyməz. Təsadüfi deyildir

ki, Müsavat Partiyasının sədri İsa Qəmbər 2002-ci ilin iyununda ABŞ-da səfərdə olan zaman "Hakimiyyətə gələcəyiniz halda Heydər Əliyevdən fərqli hansı daxili və xarici siyasət yeridəcəksiniz?" - sualına doğru-dürüst cavab verə bilməmişdi. Ümumi ifadələrlə kifayətlənmişdi ki, "bəs biz daxili və xarici siyasət sahəsində əsas istiqamətləri saxlamaqla, daha effektiv siyasət yeridəcəyik, Dağlıq Qarabağ məsələsində isə Ermənistanı daha konstruktiv olmağa (?!), vasitəçiləri daha obyektiv mövqe tutmağa dəvət edəcəyik". Ölkə daxilində işlətdikləri davakar ritorikadan isə əsər-əlamət olmamışdı. ABŞ nümayəndələri elə oradaca İsa Qəmbərə xatırlatmışdılar ki, o, artıq bir dəfə hakimiyyətdə olub və dar ayaqda onu başlı-başına buraxaraq çıxıb gedibdir.

**Hazırda Azərbaycanda real, perspektivli, cəlbedici ideya və layihələr hakimiyyətə məxsusdur. Müxalifət ideoloqlarının təşəbbüsləri isə daha çox zay "idxal məhsulu" olaraq, kompilyativ xarakter daşıyır.** 1990-cı illərin əvvəllərindən müxalifət ideoloqlarının cəmiyyətə qəbul etdirməyə çalışdıqları siyasi və ictimai təşkilatların "Dəyirmi masa" ideyası, indi mətbuata atılmış "Milli Etimad hökuməti" təklifi və s. bu qəbildəndir. Beləliklə, obrazlı desək, müxalifətin ideya bazarına çıxarmağa əmtəəsi yoxdur. AXCP ("klassiklər") sədri Mirmahmud Fəttayev haqlı olaraq etiraf edir ki, müxalifətin fikirləri qocalıbdır. Real alternativ ideyaların yoxluğu, ideya və mənəvi kasadlıq parlamentdənkənar müxalifəti bu vəziyyəti mifik və fantastik ideya və projelərlə kompensasiya etməyə vadar edir. Belə hallarda isə labüd olaraq ideoloji platformanı və təbliğatı siyasi lirika və "şifahi xalq yaradıcılığının" şayiə janrı əvəz edir. Müxalifət təbliğatı yalnız hakimiyyətin ideya və layihələrini əsassız tənqid etməklə məşğul olub, özünün isə konstruktiv

ideyaları yoxdur! Bu halı isə belə "əsaslandırıblar" ki, bunlar hakimiyyətin qayğısı və vəzifəsidir. Məsələn, ADP-nin baş katibi Sərdar Cəlaloğlu "Niyə mitinqlərdə Qarabağ problemi ilə bağlı şüarlar irəli sürmürsünüz?" - sualına cavab vermişdi ki, bunlar hakimiyyətin isidir. Beləliklə, iqtidar yaradıcı, müxalifət isə dağıdıcı mənfi amil kimi çıxış edir.

Xalq hərəkatı dövründə hədsiz romantizm müxalifət üçün gerçəkliyə nisbətən daha cəlbedici olmuşdu. **Emosional hisslər, romantik idealizm bir çoxlarını indi də tərk etmir. Bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanda müxalifət xalqımızın milli ideyasına ciddi təsir edə bilməyibdir. Mən azad, müstəqil və demokratik Azərbaycan dövləti ideyasını nəzərdə tuturam. Bu ideyanın və azərbaycançılıq ideologiyasının formalaşması, həyata keçirilməsi də Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.**

Digər bir problem Azərbaycanda siyasi fəaliyyətlə məşğul olan insanlarda siyasi mədəniyyət və siyasi şüur səviyyəsi ilə bağlıdır. Məsələ bundadır ki, **1980-ci illərin sonunda xalq hərəkatı dalğasında siyasətlə, dövlət idarəçiliyi ilə heç bir əlaqəsi olmayan, üstəlik, savadı və biliyi ilə seçilməyən çoxlu sayda təsadüfi adamlar, bəzən isə avantüristlər siyasi meydana atılmışdı. Bu adamlarda nə onların qısamüddətli hakimiyyəti dövründə, nə də müxalifətçi rolunda olduqları uzun illərdə siyasi fəaliyyət, daha doğrusu, siyasi fəaliyyət imitasiyası siyasi şüurun yüksəlməsi və siyasi mədəniyyət tərbiyəsi ilə paralel getməyibdir**. Bir çox siyasətçi "ideoloq" və "funksionerlərdə" isə siyasi düşüncə tərzi deyil, bədii-macəraçı şüur və düşüncə tərzi üstünlük təşkil edir.

Bununla sıx bağlı olan başqa bir məsələ də mövcuddur. O da **müxalifətin üzdə olan şəxslərinin Azərbaycanın, xalqın və**

**Vətənin taleyi üçün məsuliyyətsizliyidir. Bir dəfə xalq hərəkatı dalğasında siyasi hakimiyyətin olimpinə yüksəlmiş, məsul dövlət vəzifələri tutmuş indiki destruktiv müxalifət başçıları nə daşıdıqları vəzifənin məsuliyyətini, nə də dövlət, xalq qarşısında məsuliyyəti dərk edərək, onlara etibar edilmiş postları çətin ayaqda buraxıb qaçdılar. Bu gün isə yorulmadan hakimiyyətə gəlmək arzusu və qətiyyətini təkrar edən həmin səxslər yenə də hər hansı məsuliyyət hiss etmədən, nəyin bahasına olursa-olsun, istəklərini gerçəkləşdirməyə çalışırlar.** Müsavat Partiyasının funksioneri Hikmət Hacızadə hətta 10 il keçdikdən sonra da bəyan edir ki, "vəzifədə xalq hərəkatının iştirakçıları olmalıdırlar" *("Yeni Müsavat" qəzeti, 24 dekabr 2002-ci il).* Müsavat Partiyasının sədr müavini və "Yeni Müsavat" qəzetinin redaktoru Rauf Arifoğlu isə daha qabağa gedərək yazır: "Azərbaycanın növbəti prezidenti seçilə bilmək üçün gərək ən azı səkkiz il Heydər Əliyev rejiminə qarşı" mübarizə aparmış olasan *("Yeni Müsavat" qəzeti, 26 dekabr 2002-ci il).* Sanki bu şəxslərin və qrupların hakimiyyətə əzəli və əbədi bir monopoliyası varmış, Azərbaycan xalqı isə günahkar bir görkəmlə hakimiyyəti qızıl məcməyidə onlara təqdim etməliymiş.

**Azərbaycanın əksər müxalifət başçılarının fəaliyyətinin acı nəticələri və fəsadları həm də onunla bağlıdır ki, onlar öz səhvlərini etiraf etmək gücündə deyillər; hər halda, Azərbaycan ictimaiyyəti və siyasi dairələr bunun şahidi olmayıbdır. Onlar nə hakimiyyətdə olduqları dövrdə, nə də sonra lazım gələndə nizam-intizama tabe olmağı, dövlətçilik düşüncəsi ilə yaşamağı və işləməyi öyrənmədilər. Tarixdə nadir hadisələrdəndir ki, məğlub olan və hakimiyyəti biabırçılıqla başlı-başına qoyub qaçan qüvvələr az sonra bu**

**qədər hakimiyyət ehtirası nümayiş etdirsinlər və hakimiyyəti onların əlində əbədi saxlamadığına görə xalqı məzəmmət etsinlər, onu özlərinə borclu bilsinlər!**

Destruktiv müxalifətin qrantla işləyən siyasiləşmiş qeyri-hökumət təşkilatlarından asılılığı onu xarici qeyri-hökumət qurumları ilə möhkəm bağlayıbdır. Buna görə də müxalifət başçıları çox zaman xarici dairələrin verdiyi tapşırıqlara uyğun hərəkət etməyə məcburdurlar. Belə təsəvvür etsək ki, onlar bir vaxt hakimiyyətə gələ bilərlər, ölkəni də hansı prinsiplərlə idarə edəcəkləri indidən bəlli olur.

Barışmaz müxalifət bütün cəhdlərinə baxmayaraq, cəmiyyətin strukturlarına (infrastrukturlarına) nüfuz edə bilməyib, əhalinin müxtəlif təbəqə və qruplarının - ziyalıların, məcburi köçkünlərin, fermerlərin, iş adamlarının və s. etimadını qazanmayıbdır. Bu da təbiidir, çünki insanlar müstəqillik illərində çox dəyişilib, çətinliklə qazanılmış sabitliyi və ölkənin sosial-iqtisadi inkişafını da yüksək qiymətləndirirlər. Onlar 1992-1993-cü illərin anarxiya, özbaşınalıq dövrünü təkrarən yaşamaq istəmirlər.

Belə bir vəziyyəti anlayaraq, destruktiv müxalifət kortəbii narazılığa ümid edir. Onun təşkil etdiyi ardı kəsilməyən mitinqlərin sosial tərkibi bunun canlı şahididir. Bu müxalifət inciklik, küskünlük, natamamlıq kompleksini xalqdan gizlətmir və onları tezliklə hakimiyyətə dəvət etmədiyinə görə Azərbaycan xalqını daim məzəmmət edir.

**Hakimiyyətin opponentləri dərk edirlər ki, kadr baxımından, əqli-intellektual, siyasi müstəvidə iqtidarla heç bir rəqabət aparmağa qadir deyillər. Azərbaycanda müasir sivil hakim elita formalaşıbdır. Hakimiyyətin əzəmətli iqtisadi və sosial proqram və layihələri uğurla həyata keçirilir. Eyni**

**zamanda, hələlik müəyyən obyektiv səbəblərə görə həll olunmamış problemlərin çözülməsini də xalq yalnız Heydər Əliyevdən, onun komandasından gözləyir. Belə olan halda, destruktiv müxalifət başçıları xalqın dəstəyini qazanmağa və hakimiyyətə qayıtmağa son ümidlərini itirərək, psixoloji uçurum qarşısında qalmışlar. Onların başçılarının aqressivliyini şərtləndirən səbəblərdən birini elə burada axtarmaq lazımdır. Aqressivlik onların tarix və siyasət səhnəsindən birdəfəlik silinmək qorxusu ilə izah olunur.**

Destruktiv müxalifət başçılarının və ideoloqlarının aqressivliyinin güclənməsi həm də 2003-cü il prezident seçkilərindən sonra partiyaların dağılmaq və siyasi səhnədən silinmək perspektivi ilə bağlıdır. **Onlar başa düşürlər ki, əgər müxalifətin namizədlərinin bu seçkilərdə qələbə çalmasının mümkünsüzlüyü bir yana, əgər onlar hakimiyyətin namizədi ilə həqiqi döyüşə girə bilməsələr, olub-qalan elektoratı da onlardan tam imtina edəcəkdir.**

Əli Kərimovun etirafına görə, 2003-cü il seçkilərində müxalifətin məğlubiyyəti müxalifət düşərgəsində ciddi dəyişikliklərə gətirəcəkdir. Seçkilərdə məğlubiyyət zəlzələ effekti yaradacaqdır. Bunu bütün müxalifət liderləri dərk edirlər *("Zerkalo" qəzeti, 26 dekabr 2002-ci il).* Müxalifət partiyaları daxilində narazılıq, rəhbərliyin istefa tələbləri sübut edir ki, **2003-cü il prezident seçkilərindən sonra bir çox partiyalar, əslində, mövcudluq uğrunda mübarizə aparacaqdır. Müxalifət başçıları siyasətlə vidalaşmağa məcbur olacaqlar. Elə ona gorə də indidən prezident seçkilərinin nəticəsini pozmaq haqqında düşünürlər.** Müsavata yaxın bir mənbə bildirir ki, fevral ayının əvvəlində Müsavat Partiyasının qərargahında

partiya Məclisinin bir üzvü narazılıqla qeyd edirdi ki, partiya rəhbərliyi üzvlərlə hazırda seçkilərə hazırlaşmaq əvəzinə, onlara seçkı günündən dərhal sonra keçiriləcək kütləvi aksiyalara hazırlaşmağı tövsiyə edir.

**Destruktiv müxalifətin aparıcı simaları xarici dövlətləri və mərkəzləri müntəzəm olaraq Azərbaycanın daxili işlərinə qarışmağa, müxalifətə dəstək verməyə çağırırlar. Eyni zamanda, xarici dövlətlərin və ya beynəlxalq təşkilatların rəsmi təmsilçiləri bu müxalifətin maraqlarına toxunan, onun sxemlərinə uyğun olmayan fikir bildirirsə, mövqe nümayiş etdirirsə, müxalifət başçılarının qəzəbinə tuş gəlir, tənqid və şantaj obyektinə çevrilirlər.** ATƏT cəsarətsiz bir şəkildə olsa da, destruktiv müxalifətin mövqeyi ilə razılaşmırsa, dərhal arzuolunmaz şəxs elan edilir. Azərbaycanda ABŞ-ın səfiri işləmiş S.Eskudeyro haqqında qərəzli yazılara geniş yer verilir, çünki o, iqtidar haqqında müxalifətə sərf etməyən fıkir söyləyir. Hətta Azərbaycan hakimiyyətinə sərt və qeyri-obyektiv münasibətilə seçilən AŞPA-nın Azərbaycan üzrə məruzəçisi A.Qross referendumda səsvermənin normal və standartlara uyğun keçdiyini deyirsə, müxalifət mətbuatının qəzəbli yazıları ona qarşı çevrilir. **Təsadüfi deyil ki, Avropa Şurası və ATƏT-in təmsilçiləri J.Bomel və J.Ştudman Azərbaycanda hakimiyyət opponentlərini qərəzli, ədalətsiz müxalifət kimi xarakterizə etmişdilər.** Hələ 2000-ci ilin parlament seçkiləri ərəfəsində ATƏT DTİHB-nin direktoru J.Ştudman radikal müxalifət başçılarına - E.Məmmədova və İ.Qəmbərə xəbərdarlıq edirdi ki, siyasi qarşıdurmanı genişləndirmək xətti tutmağınız ciddi səhv olar və bütün məsuliyyət sizin üzərinizə düşmüş olardı” *(“Azərbaycan” qəzeti, 27 iyul 2000-ci il).* J.Bomel isə

qeyd edirdi ki, Azərbaycanda sərt müxalifət var və onlar Heydər Əliyevlə çox zaman sərt rəftar edirlər *("Yeni Müsavat" qəzeti, 29 iyun 2000-ci il).* Lakin barışmaz müxalifət başçıları beynəlxalq təşkilatların bu qəbildən olan tövsiyələrini qəbul etməyiblər və hər hansı konstruktivlik nümunəsi göstərməyə hazır deyillər.

Dərin təhlil aparmadan belə, üzdə olan faktları və təzahürləri nəzərə alsaq görərik ki, **Azərbaycanın barışmaz müxalifətinin sosial bazasının yoxluğu, minimal vəzifələri reallaşdıra bilməməsi, cəmiyyət tərəfindən ciddi qəbul olunmaması və başqa səbəblər onun kəskin radikallığını doğurur. Müxalifət partiyaları xalq arasında olan-qalan nüfuzunu və tərəfdarlarını itirdikcə, məhdud sosial bazası daraldıqca daha da aqressivləşir, yolverilməz, sivil dunyanın rədd etdiyi üsul və vasitələrdən getdikcə daha artıq dərəcədə istifadə etməyə meyil göstərir. Çirkin siyasi texnologiyalardan, qara piardan, təxribat xarakterli tədbirlərdən istifadə edərək, ictimai rəyə təsir göstərməyə çalışırlar. Bu, nəticə vermədiyi halda, müxalifət başçıları təmkinini daha çox itirir, əsəbiləşirlər. Bu da təbii və anlaşılandır: bütün dünyada cəmiyyətdə yerini itirmək vəziyyətinə düşən siyasi-ictimai qüvvələr tarixdən silinmək təhlükəsi qarşısında mövcudluğunu qorumaq üçün ifrat metodlara əl atmağa, təxribat, avantürist hərəkətlər etməklə özlərini siyasi səhnədə saxlamağa çalışırlar!**

Barışmaz müxalifət başçıları üçün hakimiyyətin və siyasətin konfliktli şərhi səciyyəvidir. Bu isə son dərəcə təhlükəlidir. Məhz belə bir vəziyyət həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda daim mənasız, üzücü mübarizə üçün ideya əsası yaradır, insan resurslarının və maddi resursların itkisinə gətirib çıxarır. Müxalifətdaxili qeyri-sabitlik vəziyyəti müəyyən

şəraitdə müxalifətin özü üçün idarəolunmaz problemə gətirib çıxarar, cəmiyyətdəki proseslərə də mənfi təsir göstərə bilər.

Beləliklə, **Azərbaycanda müxalifətin fəaliyyətini qiymətləndirərkən onu hədsiz iddialı, parçalanmış və daxili ziddiyyətləri nəticəsində dağılan kimi səciyyələndirsək, buna oxşar başqa ifadələrdən istifadə etsək, səhv etmərik.**

Biz artıq yuxarıda qeyd etmişdik ki, destruktiv müxalifət öz niyyətini həyata keçirmək məqsədi ilə müxtəlif çirkin metodlardan istifadəyə cəhd göstərir. Məsələn, onun başçıları sosial problemlər adı altında xalqı hakimiyyətə qarşı qaldırmağa, hətta xırda, xüsusi xarakterli narazılıq təzahürlərini də şişirtməyə, qızışdırmağa və genişləndirməyə çalışırlar. Cəmiyyətdə marginal, antisistem qruplaşmaların qanunsuz tələblərinin qeyd-şərtsiz müdafiə edilməsi, onlarla məntiqsiz həmrəylik nümayiş etdirilməsi partiya başçılarının və ideoloqlarının bəyan etdikləri platformadan və ideologiyadan praktik məqsədlər naminə imtina etdiklərini sübut edir. Ümumiyyətlə, onlar hesab edirlər ki, hakimiyyət uğrunda mübarizədə bütün metod və vasitələr məqbuldur.

Siyasi radikalizmin və siyasi makiavellizmin xalis nümunəsi olan bu taktikanın və siyasi mübarizə "metodlarının" ideya əsasları "Müxalifətin mitinq taktikası", "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" adlı bədnam sənədlərdə əksini tapıbdır. Bu sənədlərdə partiyalara və onların ideoloji strukturlarına təlimat verilir ki, hakimiyyətə qarşı mübarizədə bütün metod və vasitələrdən, hətta yalan, böhtan və təhqirdən istifadə olunması məqbuldur. Tövsiyə olunur: 1. Cəmiyyətdə siyasi qütbləşməni dərinləşdirmək; 2. İqtidarın ən adi səhvlərini şişirdərək, cəmiyyətə faciə kimi təqdim etmək; 3. Heydər Əliyev şəxsiyyətini birbaşa hədəfə gotürmək və onun "ifşasını" ardıcıl şəkildə davam

etdirmək; 4. Sabitliyi pozmaq və sosial partlayış təşkil etmək; 5. İqtidar-cəmiyyət qarşıdurmasına nail olmaq; 6. İdarəetmə sisteminin fəaliyyətinə mane olmaq, qərarların sabotajı, qeyri-adekvat qərarların qəbuluna sövqetmə, vətəndaş itaətsizliyi aksiyaları, iqtidar nümayəndələrinə qarşı ifşa yə şantaj, dezinformasiyaların yayılması, iqtidar nümayəndələrinin ələ alınması; 7. Aclıq və piket, küçə yürüşlərinin təşkili, kütləvi çaşqınlıq yaradan şayiələrin yayılması, narazılıqların qızışdırılması; 8. Beynəlxalq təşkilatların dəstəyinin təmin olunması; 9. İctimai rəy formalaşdırmaq üçün daxildə müdafiə komitələrinin yaradılması, qeyri-hökumət təşkilatlarının gücünün səfərbər edilməsi; 10. Bütün bunların müxalifətyönümlü mətbuatda işıqlandırılması və əhaliyə çatdırılmasının təmin olunması.

Faktlar onu göstərir ki, bütün bu çirkin mübarizə metodları və vasitələri indi xüsusilə qüvvədədir və heç bir məhdudiyyət qoyulmadan destruktiv müxalifət tərəfindən tətbiq olunur.

Barışmaz müxalifətin siyasi və vətəndaşlıq mövqeyini normal və sivil mövqe hesab etmək olmaz. Bu fikrin düzgünlüyünə əmin olmaq üçün radikal müxalifət partiyalarının ölkənin mühüm problemlərinə olan münasibətini, ümumiyyətlə, fəaliyyətini təhlil etmək kifayətdir. Onların bütun məsələlərə kəskin mənfi münasibətini ölkə əhalisi də pis qarşılayır. Azərbaycanın ictimai fikri konkret siyasi mənsubiyyətindən asılı olmayaraq, müxalifət partiyalarından hadisələrə sağlam, dözümlü münasibət olmasını tələb edir.

Əlbəttə, iqtidarla müxalifət arasında vicdanlı, normal, sivil münasibətlər bütün cəmiyyət üçün nümunədir, siyasi sabitliyə, əhalinin müxtəlif qrupları arasında siyasi mədəniyyət, tolerantlıq tərbiyə olunmasına kömək edir. Bu da millətin intellektual və

mənəvi qüvvələrini təxirəsalınmaz ümummilli vəzifələrin həllinə, xalqın daxilində inteqrativ meyillərin güclənməsinə səfərbər etməyə yardım göstərir.

Yeri gəlmişkən, Prezident Heydər Əliyevin simasında Azərbaycanın hakim komandası iqtidarla müxalifət arasında münasibətlərin normallaşmasına yönəldilmiş təşəbbüslərlə dəfələrlə çıxış etmişdir. Belə çağırışlar Yeni Azərbaycan Partiyasının birinci və ikinci qurultaylarında, Dağlıq Qarabağ probleminin Milli Məclisdə müzakirəsi zamanı, Respublika günü münasibətilə keçirilən toplantılarda və digər dövlət tədbirlərində səslənmişdir. Hətta bəzən elə görunürdü ki, siyasi opponentlər mühüm ümummilli məsələlərdə, xarici və daxili siyasət problemlərində konsensusa gəlməyə yaxındırlar. Amma son anda gözlənilmədən müxalifət partiyalarının barışmaz başçıları mümkün dialoqdan geri çəkilirdilər. Görünür, siyasətdə qalmaq üçün onlara qarşıdurma daha məqbuldur.

Radikal müxalifət partiyaları başçılarının dialoqa və sivil siyasi mübarizəyə hazır olmamasını Seçki Məcəlləsinin müzakirəsi ilə baglı hadisələr də göstərdi. “Dəyirmi masa” ilə bağlı, demək olar ki, bütün şərtlərin qəbul olunmasına baxmayaraq, müxalifət partiyalarının başçıları müzakirələrdə iştirakdan imtina etdilər. Digər müxalifət partiyaları və siyasiləşmiş qeyri-hökumət təşkilatları isə radikal müxalifət başçılarının qınağından çəkinərək və prinsipsiz həmrəylik nümayiş etdirərək müzakirələrə qoşulmadılar. Lakin dünya praktikasından da məlum olduğu kimi, kompromis o demək deyil ki, sənin bütün tələblərin qeyd-şərtsiz qəbul olunmalıdır, sənsə heç bir məsələdə güzəştə getməyəsən. Güzəşt qarşılıqlı olmalıdır!

Ümumiyyətlə, dialoq haqqında danışarkən belə bir fakta diqqət yetirmək lazımdır: necə olur ki, bütün sahələrdə, daxili və xarici

siyasətin bütün məsələləri üzrə dialoq və kompromis tərəfdarı olan, azərbaycanlıların ümummilli həmrəyliyinə çalışan Heydər Əliyev iqtidarı dialoq tərəfdarı olmur, daxili və xarici siyasətin bütün məsələlərində münaqişə və ziddiyyət axtaran, bir-biri ilə vuruşan, cəmiyyəti qarşıdurmaya sövq edən müxalifət başçıları isə dialoq və kompromis tərəfdarı olurlar? Məntiq haradadır?

Seçki Məcəlləsi ilə bağlı radikal müxalifət ideoloqlarının və başçılarının cığallığını və qeyri-konstruktivliyini göstərən başqa bir fakt budur ki, beynəlxalq hüquq və təcrübədən danışmağı sevən müxalifət başçıları öz hakimiyyət maraqlarını təmin etmək üçün dünya praktikasında və beynəlxalq hüquqda analoqu olmayan formatları Azərbaycana tətbiq etməyə çalışırlar. Buna misal olaraq seçki komissiyalarının iqtidar və müxalifət partiyalarının namizədlərindən paritet əsasında təşkil edilməsi təklifini göstərmək olar. "Azadlıq" qəzeti hələ 2000-ci il parlament seçkiləri ərəfəsində seçki komissiyalarının formalaşması prinsiplərindən danışaraq haqlı olaraq qeyd edirdi ki, "müxalifətin paritet tələbləri 1991-ci ildə yaradılmış Milli Şuranın yeni variantıdır. Bu yolla dövləti iflic etmək və hakimiyyəti ələ keçirmək istəyirlər" *("Azadlıq" qəzeti, 2 iyun 2000-ci il).* **Müxalifət partiyaları başçılarının mövqeləri, əslində, ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən bitərəf, siyasi mənsubiyyəti olmayan insanların bir vətəndaş kimi hüquqlarını pozmaqdır.** Bitərəflərdən prezidentliyə namizəd olsa (praktika göstərir ki, belə hallar prezident seçkilərində tez-tez baş verir), komissiyalarda onların maraqlarını kim qoruyacaq? Müxalifət başçıları və ideoloqları uzun zaman belə bir fikri cəmiyyətə aşılamağa çalışırlar ki, siyasət, siyasi proseslər partiya mənsublarının inhisarında olmalıdır, onların hakimiyyətdə və siyasi həyatda iştiraka

müstəsna hüquqları olmalıdır. Demokratik düşüncə tərzinin və davranış normalarının tezliklə bərqərar olmasını istəyiriksə, bu kimi illüziyalardan, əlbəttə, tezliklə azad olmaq lazımdır. Çünki demokratiya bütün vətəndaşların, əhali qruplarının hüquq bərabərliyinin və maraqlarının bərabər əsaslarla təmin olunmasını nəzərdə tutur. Referendum zamanı "dialoq" imitasiyasının acı təcrübəsi də müxalifət liderlərinə dərs oldu. Onlar ATƏT-in Bakı ofisinin təşkil etdiyi "Dəyirmi masa"da hakimiyyət nümayəndələrinin arqumentlərinə qarşı heç bir ciddi dəlil-sübut qoya bilmədilər, ayrılan vaxtdan isə özünüreklam və siyasi bəyanatlar məqsədi ilə istifadə etdilər. Nəticədə, onların mövqeyinin əsassızlığı, siyasi və elmi-məntiqi cəhətdən qeyri-ciddiliyi bütün çılpaqlığı ilə aşkara çıxdı. Müxalifət liderlərinin çağırışlarının əksinə olaraq, vətəndaşlar referendumda yüksək fəallıq və vətəndaş mövqeyi göstərdilər.

**Siyasi proseslər və faktların araşdırılması göstərir ki, destruktiv müxalifət fəalları məhdud saydadır. Demək olar ki, bu müxalifət illər boyu dəyişən, siyasi cəhətdən köhnə, çoxdandır ki, insanlarda müsbət hiss doğurmayan sifətlərdən ibarətdir. Əsasən, köhnəlmiş düşüncə sahiblərindən və böyük iddiada olan adamlardan təşkil olunmuş bu müxalifət partiyaları uğursuz özfəaliyyət dərnəyini xatırladır.** Burada toplaşanların çoxu xalqın müxtəlif problemləri haqqında uzun-uzadı fikir söyləsələr də, onun üçün heç nə etməyiblər. Bunlar o şəxslərdir ki, eyni fikirləri illər boyu mətbuatda təkrar edirlər. Bu təkrardan oxucular yorulsa da, özləri yorulmur! Cəsarətlə demək olar ki, destruktiv müxalifət millilikdən, daha dəqiq desək, milli maraqların düzgün anlanmasından, dövlətə və xalqa xidmətdən uzaqdır. Milli maraqları şəxsi maraqlar ilə əvəz edən bu qrupların

əsas qayəsi şübhəli maliyyə təşkilatlarının və müxtəlif xarici qüvvələrin dəstəyi ilə Azərbaycanın milli maraqlarına qarşı yönəlmiş fəaliyyəti həyata keçirməkdir. Öz maraqlarını dövlət və xalq maraqlarından üstün tutan bu qruplar Azərbaycan dövlətinin problemlərini, onun gerçək vəziyyətini nə bu günədək tez-tez səfər etdikləri hansısa bir xarici dövlətin xarici siyasət idarəsində, nə beynəlxalq təşkilatlarda, nə də ki, şəxsi görüşlər zamanı müzakirə obyektinə çevirməyiblər! Məhz şəxsi ambisiyalarının reallaşması uğrunda ölkədə və ölkə xaricində mübarizə aparan bu şəxslər bir amala xidmət edir və onun reallaşması üçün əlindən gələni edirlər - Azərbaycanda hakimiyyətin dəyişdirilməsi və onların hakimiyyətə gəlməsi! Təbii ki, heç kəs azad seçimin və azad seçki prinsipinin əleyhinə çıxmaq niyyətində deyildir! Lakin xalqın problemini yalnız iqtidar yox, həmçinin müxalifət və adi xalq kütlələri də həll etməlidirlər. Bunun üçün hər kəs əlindən gələni əsirgəməməlidir. Hər bir Azərbaycan vətəndaşı bu gün ölkənin problemlərinin həlli üçün özünü məsuliyyətli hiss etməli, ölkədə və ələlxüsus, ölkə xaricində bunun üçün var qüvvəsi ilə çalışmalıdır. Bu baxımdan Con Kennedinin məşhur kəlamından istifadə etmək yerinə düşərdi. Çünki Azərbaycan müxalifəti bu günədək “Mən dövlət üçün nə etmişəm?” sualını cavabsız qoyubdur. Yarandığı vaxtdan bugünədək daha çox populist və mitinq ab-havası ilə yaşayan müxalifət yeni mübarizə metodlarını özü üçün arayıb tapa bilmir, ölkənin daim inkişafda olduğu, tərəqqiyə doğru irəlilədiyi bir zamanda, sabitlik və demokratik şəraitin yaradıldığı bir məqamda müxalifət yığın, dəstə səviyyəsini aşa bilmir. Bunun səbəbini müxalifətin yeni fikir, yeni ideya irəli sürmək qabiliyyətinin yoxluğu ilə izah etmək olar. Çünki yeni dünya nizamı artıq ölkələrin daxili siyasətinə öz

təsirini göstərərək, siyasi mübarizə metodlarını daha da təkmilləşdirir və yeni məcraya keçirir. Lakin reallıq onu göstərir ki, Azərbaycanda destruktiv müxalifət hələ də köhnə siyasi təcrübə ilə yaşayır və ümumi düşüncə potensialının zəifliyi ucbatından yeni siyasi mübarizəyə transformasiya edə bilmir.

Müxalifətin münaqişə cəhdləri, qarşıqoyma siyasəti o qədər dərin kök salıbdır ki, artıq o, heç bir zaman milləti və cəmiyyəti bir yerə yığmaq, birləşdirmək funksiyasını həyata keçirə bilməyəcəkdir! Destruktiv müxalifət bütün fəaliyyəti ilə təsdiq edir ki, onun mahiyyəti ifrat millətçilikdir! Bu, özünü ölkədə yaşayan etnik qruplara olan münasibətdə aydın surətdə göstərir. Əgər bu siyasi qruplar müxalifətdə olduqları dövrdə milli azlıqlara belə dözülməz münasibətdədirlərsə, onda onların hakimiyyət ambisiyasının gerçəkləşdiyi təqdirdə ölkədəki qarşıdurmanın və münaqişənin miqyasını təsəvvür etmək çətin deyildir! Bu isə, öz növbəsində, təhlilimizin yenə də bir əsas tezisini təsdiqləyir: Azərbaycan müxalifəti, təəssüflər olsun ki, milli maraqlar nə olduğunu bu günədək dərk etməyibdir. Onun aparıcı simalarının şəxsi maraqları milli maraqlardan və dövlət maraqlarından üstün tutulur.

Dünya inkişafının qloballaşma mərhələsində siyasətin əsas qayəsini anlamaq və siyasətlə məşğul olanların dövlət maraqlarını müdafiə etməsi olduqca vacib məsələdir. Lakin müxalifət partiyalarının rəhbərləri əvvəlki illərdə buraxdıqları kobud siyasi səhvlərdən özləri üçün nəticə çıxarmayıblar və yenə də yanlış yol ilə gedirlər. Bu, Nardaran qəsəbəsində (2002-ci il iyun-2003-cü il fevral) baş vermiş hadisələrdə də özünü açıq-aydın göstərdi. Destruktiv müxalifət, onun mətbuatı və bəzi hüquq müdafiə qurumlarının bu proseslərin təşkilatçılarını dəstəkləmə-

si, qanunazidd əməllər törədənləri müdafiə etməsi, hadisələrin başqa bölgələrə yayılmasına cəhd göstərməsi onların ölkədə sabitliyin pozulmasında, kəskin qarşıdurmanın yaranmasında maraqlı olduqlarından ciddi xəbər verir.

Müxalifət ideoloqlarından biri sayılan Rasim Ağayev hesab edir ki, müxalifət partiyaları Nardaran məsələsindən istifadə edərək, etiraz aksiyalarının çərçivəsini genişləndirə, sosial gərginliyi daha da artıra bilərdilər. Ancaq bu, baş vermədi. O, həm də etiraf edir ki, əgər müxalifət buna cəhd etsəydi də, heç nə alınmayacaqdı - **xalqda müxalifətə inam və onun nüfuzu yoxdur. Azərbaycanda xalqa rəhbərlik edib onu arxasınca apara biləcək müxalifət partiyası yoxdur.** Gecə və gündüz xalqın problemləri haqqında fikirləşən müxalifət barədə mif növbəti dəfə puç oldu *("Novoe vremya" jurnalı, 13 fevral 2003-cü il).* Bu etiraf bir daha onu təsdiq edir ki, hətta radikal müxalif partiyalar ölkədə ictimai-siyasi proseslərə güclü təsir göstərmək iqtidarında deyildir. Beləliklə, destruktiv müxalifətin fəaliyyətində dövlət quruculuğu, demokratik cəmiyyət quruculuğu istəyi yox, hədsiz hakimiyyət iddiaları göz qabağındadır. Lakin inanırıq ki, siyasi mədəniyyətin səviyyəsi yüksəldikcə, demokratik müxalifət formalaşdıqca iqtidarla müxalifətin münasibətləri normal məcraya düşəcək, dialoqa, ümummilli problemlərə ağılla yanaşma nümunələri yaranacaqdır. Bunu cəmiyyətin inkişaf maraqları təkidlə tələb edir!

## Müxalifətin inteqrasiya cəhdləri və yaxud "vahid namizəd" problemi

Kəskin radikal müxalifət dairələrində 2003-cü il prezident seçkilərində vahid namizəd məsələsi ətrafında qızğın müzakirə-

lər aparılır. 24 avqust referendumundan sonra bu müzakirələr intensivləşərək, daha tez-tez mətbuat səhifələrinə çıxarılır. Sual olunur: bu ideya kimə və hansı məqsədlərə xidmət edir? Vahid namizədin müəyyənləşdirilməsi fikrini müxalifət daxilində kimlər qəbul edir? Kimlər qəbul etmir? Vahid namizəd anlayışının məzmununu, onun müəyyənləşdirilməsi mexanizmini destruktiv müxalifət dairələrində necə təsəvvür edirlər? Bu, nə qədər realdır? Vahid namizəd qismində müxalifət partiyalarında kimi görürlər? Vahid namizəd və müxalifət dairələrində vaxtaşırı müzakirə mövzusu olan koalision hökumət ideyaları arasında nə kimi əlaqə var? Bu suallar siyasi dairələri və siyasi proseslərlə maraqlanan vətəndaşları bu və ya digər dərəcədə düşündürməkdədir.

On ildən artıqdır ki, müxalifətdə ayrı-ayrı qruplar inteqrasiya uğrunda axtarışlar aparır. Müşahidələr göstərir ki, bu axtarışlar həm də iddialı partiya rəhbərlərinin özünü güc mərkəzi kimi təsdiq etməsinə, başqa partiyaların potensial tərəfdarlarını cəlb etməyə xidmət edir. Bu müddət ərzində müxtəlif bloklar, hərəkatlar və s. yaradılıb, ancaq qısa bir vaxtdan sonra onlar parçalanıb, dağılıblar. Məsələn, belə aqibəti “Dəyirmi masa”, SİDSUH, Demokratiya Uğrunda Böyük Birlik, Demokratiya Uğrunda Hərəkat, Birləşmiş Müxalifət Hərəkatı, Demkonqres yaşayıbdır. 2002-ci ilin son aylarında isə “Dördlük”, “Onluq” qurumları, Müxalifətin Koordinasiya Mərkəzi yaradılıbdır. Bütün bunlar bir məqsəd daşıyır: hakimiyyətə gəlmək üçün səyləri səfərbər etmək. Lakin obyektiv və subyektiv səbəblərə görə müxalif qüvvələrin birləşməsi xeyli maneələr və ziddiyyətlərlə üzləşdiyindən bu səylər bir nəticə vermir.

Bunu müxalif qurumların özü də etiraf edir. AXCP (“klassiklər”) rəyasət heyəti partiyanın “Onluq” formatında

keçirildiyi görüşlərə qatılmayacağı barədə hətta xüsusi qərar veribdir. “Bu format müxalifətin daha da parçalanmasına səbəb olub. Biz hesab edirik ki, hansısa ekstremal situasiyada bürokratik qurumların yaradılması ənənəsi özünü doğrultmur. “Onluq” formatı yalnız siyasi reabilitasiyaya çalışan, cəmiyyətdə heç bir nüfuzu olmayan partiyalara sərfəlidir” (*“Bizim əsr” qəzeti, 26 noyabr 2002-ci il*).

Yuxarıda deyildiyi kimi, müxalifətdaxili çəkişmələr, qarşıdurmalar, intriqalar, dərin kök salmış ziddiyyətlər, hakimiyyət hərisliyi müxalif partiyaların inteqrasiyasının əleyhinə işləyən amildir. Beiə bir vəziyyətin əsas səbəblərindən biri də müxalifətin daxilində çoxsaylı qeyri-sağlam, intellekti, ümumi dünyagörüşü və mədəniyyəti aşağı olan, məsuliyyətsiz adamların fəaliyyət göstərməsidir. Azərbaycan Liberal Partiyasının sədri Lalə-Şövkət Hacıyeva bu məsələyə münasibətini bildirərək deyir: “Çəkişmələr insanların tərbiyəsindən, dünyagörüşündən, səviyyəsindən irəli gəlir. Əgər hər hansı liderin özünün mədəniyyət səviyyəsi yüksək deyilsə, sözsüz ki, intriqalar da, qeyri-etik münasibətlər də olacaq. Mədəniyyətsiz insan özünə demokrat deyəndə, onun fikri məndə gülüş doğurur və qeyri-ciddi səslənir” *(“Xalq Cəbhəsi” qəzeti, 26 sentyabr 2002-ci il).*

Heç şübhə yoxdur ki, **müxalifət başçılarının vahid namizəd cəhdləri Heydər Əliyev şəxsiyyəti, onun miqyası, böyüklüyü qarşısında, xalq arasında nüfuzu və hörməti önündə hakimiyyət opponentlərinin gücsüzlüyü və zəifliyinin etirafının göstəricisidir.**

Müxalifətin vahid namizədi məsələsi ilk dəfə qaldırılmır. Hələ 1998-ci ildə prezident seçkiləri ərəfəsində mərhum Ə.Elçibəy müxalifətdən prezidentliyə yeganə namizəd olmağa

çalışırdı. Lakin o vaxt bir çox partiya liderləri onun namizədliyini dəstəkləmədi, sonra da öz namizədliklərinin real olmadığını görərək prezident seçkilərində iştirakdan, ümumiyyətlə, imtina etdilər. Müxalifətin pərakəndə qüvvələrini bir bayraq altında birləşdirməyə sonralar da dəfələrlə cəhd göstərilir və bu məqsədlə müxtəlif model və formatlar irəli sürülürdü.

2000-ci il parlament seçkilərində də Müsavat Partiyasının başçıları müxalif partiyaların səylərini birləşdirmək, seçkilərdə vahid siyahı ilə iştirak etmək haqqında təkliflər irəli sürmüşdülər. Lakin bu cəhdlər də elə başlanğıcdan uğursuzluğa düçar oldu, onları dəstəkləyən tapılmadı.

Son vaxtlar köhnə müxalifət tərəfindən yaradılmış blokların daxilində gedən proseslər bir daha sübut edir ki, bu qurumlarda təmsil olunan partiyaların əməkdaşlığı möhkəm özül və ideya üzərində qurulmayıbdır. Dayaqlar indidən sarsılmağa başlayıbdır. Buna baxmayaraq, "vahid namizəd" ideyasının müəllifləri vurnuxmalarını və axtarışlarını davam etdirirlər. Xüsusən də, Müsavat Partiyasının sədri İsa Qəmbər bu məsələni daim aktuallaşdırır və hətta onun "reallaşma mexanizmini" də təklif edib: "Dəfələrlə bəyan etmişik ki, biz bunun (vahid namizədin - **R.M**.) tərəfdarıyıq. Bunun müəyyənləşməsi mexanizmi kimi ilkin seçkini görürük. Hesab edirik ki, bu, ən düzgün, ədalətli və ən demokratik üsuldur" *("Azadlıq" qəzeti, 8 noyabr 2002-ci il).*

Maraqlıdır ki, Müsavat başçıları, bir tərəfdən, guya vahid namizədin müəyyən edilməsinin özləri üçün əsas məsələ olmadığını bildirir, bu halda təşəbbüsün başqa partiyalardan gəlməli olduğunu deyirlərsə, digər tərəfdən, öz funksionerlərinin dilindən bu məsələnin həll olunması vacibliyini qeyd edir, mətbuatda onu daha çox müzakirə edir və tezliklə müəyyənləşdirilməsinin zəruriliyini vurğulayırlar.

Müsavat Partiyasının sədr müavini Arif Hacıyev hesab edır ki, "bu gün Azərbaycanda ilk dəfə olaraq prezident seçkilərində müxalifətin aparıcı partiyalarının vahid siyasi platforma və vahid namizədlə iştirak etməsi ehtimalı yaranıb". Onun iddiasına görə, "ictimai fikrə təsir etmək imkanı olan partiyalardan AMİP, AXCP və ya Dempartiya Müsavata qoşulsa, bizi müdafiə edən klassiklərlə birlikdə bu, kifayətdir ki, müxalifətin vahid namizədini baş tutmuş hesab edək. Təkbaşına çıxış edən başqa partiyaların heç bir şansı olmayacaq" *("Exo" qəzeti, 29 noyabr 2002-ci il).* **Bu fıkrin özü onu göstərir ki**, vahid namizəd ideyası başqa partiyalara, birinci növbədə, AMİP və ADP-yə qarşı çevrilmişdir.

Müsavat Partiyası sədrinin birinci müavini Vurğun Əyyub da bəyan edir ki, "Müsavatın namizədi şanslı namizədlərdən biri deyil, birincisi olacaq. Müsavatın namizədinin vahid namizəd olması üçün ciddi fəaliyyət göstərəcəyik" *("Mərkəz" qəzeti, 26 oktyabr 2002-ci il).*

Bu məsələdə Xalq Partiyasının sədri, əslində, İsa Qəmbərin sözçüsü kimi tanınan Pənah Hüseynov heç də Müsavat Partiyasının sədrindən fərqli düşünmür: "Hər birimiz başa düşməliyik ki, bizə mütləq birləşmək lazımdır. Yeni şəraitə uyğun fəaliyyət göstərmək lazımdır. Köhnə formatlardan yapışmaqla özümüz də köhnələ bilərik *("Azadlıq" qəzeti, 9-11 noyabr 2002-ci il).* Pənah Hüseynova görə, bir sıra siyasi blokların yaranması, onların seçkidə birgə iştirakı bunun konkret ifadəsi kimi vahid namizəd mövzusunun aktuallığını artıracaq *("Şərq" qəzeti, 25 noyabr 2002-ci il).*

Pənah Hüseynov öz ampluasına sadiq qalaraq, müxalifət üçün bloklaşma strategiyasını müəyyən edir: "Müxalifətin

daxilində müəyyənləşmə, aydınlaşma, konkretləşmə getməlidir. Bu, müxalifətin strukturlaşmasının indiki səviyyəsindən - siyasi bloklar mərhələsindən prezidentliyə namizədlər ətrafında yaradılan seçki blokları mərhələsinə keçid şəklində aparıla bilər”. P.Hüseynova görə, müxalifətin ümumi mənafeləri naminə onun fəaliyyətini əlaqələndirən əməkdaşlıq mexanizminin olması zəruridir. “8-9 siyasi təşkilatın, bir o qədər də siyasi liderin yarısının birləşməsi müxalifətin birləşməsi kimi qəbul edilə bilər. Bu yarının vahid namizədi müxalifətin vahid namizədi olar”. **Bu yarı istənilən tərkibi yox, geosiyasi, ideoloji, regional və s. mənafelərin işarəsi olan namizədləri ehtiva etməlidir** (seçdirmə bizimdir - **R.M.**). Vahid namizəd ideyası müxalifətin elektoratının təmərküzləşməsinə xidmət edir və bu təmərküzləşmə prosesinin başa çatması konkret vahid namizədin müəyyən olunmasını mümkün edən mühüm şərtlərdən biridir *(“Yeni Müsavat” qəzeti, 29 noyabr 2002-ci il).*

2002-ci ilin ortalarından başlayaraq Müsavat Partiyası ilə sıx əlaqə yaradan, AXCP-ni (“klassiklər”) dağıdandan sonra onun üzvlərini Müsavat və AXCP (“islahatçılar”) arasında bölüşdürməyə razılığa gələn Əli Kərimov vahid namizəd məsələsinə bir qədər fərqli yanaşır. O bildirir ki, müxalifət əvvəlcə müxalifətdaxili əməkdaşlıq məsələsini müttəfiqlik səviyyəsinə qaldırmalıdır. Əgər buna nail olmasaq, onda heç olmasa, müxalifət partiyalarının xeyli hissəsini birləşdirmək və müxalifətin bu spektrindən vahid namizəd məsələsini müzakirə etmək lazımdır *(“Zerkalo” qəzeti, 14 sentyabr 2002-ci il).* O, Müsavatı nəzərdə tutaraq deyir ki, əgər vahid namizədi müəyyən etməyə bizi tələsdirsələr, kim kimi müdafiə edəcək tipli diskussiyalar aparılsa, prezident seçkiləri ayırıcı faktora

çevriləcəkdir. "İndidən başlanan söhbət yüzdə-yüz uğursuzluğa məhkumdur və müxalifətin parçalanmasına gətirib çıxaracaq" *("Politika" qəzeti, 26 oktyabr 2002-ci il).*

Vahid namizədin müəyyən edilməsi mexanizminə də münasibət fərqlidir. Müsavat Partiyasında bunun əsas yolunu ilkin seçkilərdə görürlərsə, Əli Kərimov başqa cür düşünür. O hesab edir ki, bunu ölkə miqyasında keçirilən ilkin seçki, müxalifətin sifarişi ilə beynəlxalq təşkilatlar, özünü təsdiq etmiş sosioloji araşdırma mərkəzləri tərəfindən keçirilən sosioloji sorğular müəyyən etməlidir *("Yeni Müsavat" qəzeti, 1 dekabr 2002-ci il).* Əli Kərimov qeyd edir ki, "söhbət müəyyən meyarlar əsasında bəzi yarış qaydalarının razılaşdırılmasından gedə bilər ki, bu və ya başqa liderin bu meyarlara uyğunluğu da tam şəffaflıq şəraitində, geniş ictimaiyyətin müşahidəçiliyi ilə aşkar oluna bilər" *("Zerkalo" qəzeti, 26 dekabr 2002-ci il).* Bu sözlərdən Əli Kərimovun Müsavata qarşı manevrləri aydın görünür. Ehtimal ki, o, AXCP-nin beynəlxalq təşkilatlarla daha yaxşı əlaqələri olduğunu əsas götürərək, digər namizədlər üçün bu yolla sürprizlər edəcəyini düşünür.

Bir neçə il əvvəl ABŞ təmsilçilərindən Maykl Oksun Əli Kərimovun gələcək prezidentlik imkanları haqqında dediyi sözlərin necə effekt yaratdığını və mətbuatda necə müzakirələr doğurduğunu siyasi dairələrdə yaxşı xatırlayırlar. AMİP sədri E.Məmmədov hesab edir ki, vahid namizəd məsələsini həyata keçirmək üçün geniş müzakirələr olmalıdır və bu zaman bir çox problemlər baş verə bilər. "Əsas bir neçə aparıcı partiyanın bir namizəd çıxarması real görünür. Bunu cəmiyyət yox, namizədlər özləri müəyyən edə bilər. Bunun üçün prinsipial siyasi qərarlar verilməlidir. Artıq AMİP, AXCP və Tərəqqi Partiyasının vahid

namizədlə getmək haqqında sənədi var” *(“Azadlıq” qəzeti, 17 oktyabr 2002-ci il).* AMİP funksioneri Əli Əliyev vahid namizədin müəyyənləşməsi məsələsində digər müxalifət partiyalarının arqumentləri ilə razılaşmayaraq bildirir. “Bizim vahid namizəd məsələmiz müəyyənləşdirilən zaman nə beynəlxalq dəstək, nə də mitinq iştirakçılarının sayı prioritet götürülməyəcək. Vahid namizəd yetərincə ciddi arqumentlərlə bəlirlənəcək” (xatırlayaq ki, AMİP müxalifətin birgə mitinqlərinə az adam çıxarırdı).

AMİP Siyasİ Şurasının üzvü, keçmiş millət vəkili Nazim İmanova görə, aparıcı Qərb dövlətlərinin Azərbaycanın daxili siyasi proseslərinin inkişafı ilə bağlı mövqeləri bir neçə tezisdə ifadə oluna bilər. Birinci yerdə ölkədəki siyasi sabitliyin saxlanması durur *(“Olaylar” qəzeti, 8 oktyabr 2002-ci il).* N.İmanov müxalifət başçılarının birincilik məsələsində bir-birinə güzəştə gedə bilməsi perspektivləri haqqında maraqlı mülahizələr söyləyir: “Liderlərdən biri digərinə güzəşt edəndə təkcə prezidentliyə namizədliyi güzəşt etmir. Həmin adam müəyyən mənada öz siyasi gələcəyini, gələcəkdəki birinciliyini də qismən güzəştə gedir. Partiyanın rəhbərliyinə daxil olanlar və üzvlər, xüsusən başqa partiyanın sədrini bəyənməyənlər (uzun illər aparılan əks-təbliğat nəticəsi olaraq - **R.M.**) öz sədrlərinin yaxasından yapışıb soruşmağa başlayırlar ki, biz başqa bir partiyanın sədrini müdafiə edəcəkdiksə, illər uzunu niyə sənin təşkilatının arxasınca düşməliydik? Təbii ki, o partiyanın içərisində ciddi çaxnaşmalar ola bilər. Başqa bir mürəkkəblik ondadır ki, söhbət təkcə iki-üç namizəddən yox, ən azı 6-7 namizədin və onların partiyalarının mənafelərinin uzlaşdırılmasından gedir” *(“Cümhuriyyət” qəzeti, 1 dekabr 2002-ci il).*

**Göründüyü kimi, vahid namizəd məsələsinin absurd olduğunu müxalifətin aparıcı adamları gözəl başa düşür və ona görə də heç vəchlə qəbul etmək istəmirlər. Həqiqətən də, bu, həlli olmayan bir məsələdir.** Onun da kökündə İsa Qəmbər problemi durur. Çünki müxalifətin əksər başçıları onu qəbul etmir və müxalif partiyaların bir-biri ilə səngimədən ideoloji və kompromat müharibəsinin də əsasında bu problem dayanır. Nazim İmanov belə acınacaqlı vəziyyətin mövcud olduğunu gizlətmir: "…böyük bir qismin AMİP-dən, onun sədrindən, rəhbərlərindən, bir qism AMİP-çilərin Müsavat rəhbərliyindən xoşu gəlmir. Partiya rəhbərliyindəki şəxslərin bunu qəbul etmələri isə, ümumiyyətlə, çətindir. Məsələ təkcə liderin mənəm-mənəmliyində deyil. Bütövlükdə daha dərin məsələlər var və bu istiqamətdə düşünmək lazımdır" *("Yeni Müsavat" qəzeti, 5 yanvar 2003-cü il).*

Digər bir AMİP funksioneri Əli Əliyevin açıqlamasına görə, "müxalifət düşərgəsində daha böyük blokların yaranmasına ehtiyac var. Təbii ki, vahid namizəd məsələsi razılaşdırılarkən müəyyən sənədlər də tərtib olunmalıdır. Vahid namizədin təmsil etdiyi qüvvələrdə seçkidən sonrakı dövr üçün atılacaq addımlar, keçiriləcək siyasi tədbirlər haqqında arxayınçılıq olmalıdır" *("Şərq" qəzeti, 23 oktyabr 2002-ci il).* AMİP rəhbərliyinin ilk baxışdan reallaşdırılması inandırıcı görünməyən başqa bir proqnozu da var: birdən müxalifətdəki əksəriyyət Etibar Məmmədovun vahid namizədliyi ilə razılaşdı. "Əli Kərimlini razı salmaq bizə o qədər də çətin olmayacaq." Etibar Məmmədov bütün müxalifətin deyil, müxalifətin bir qanadının seçkilərə vahid namizədlə getməsinə daha çox ümid bəsləyir.

AMİP funksionerlərinin fikrincə, son proseslər AMİP-in ziyanına işləyir: "Çünki Müsavat günbəgün AXCP islahatçı-

larını ələ keçirməyə doğru yaxınlaşır. E.Məmmədovun vahid namizədliyi Ə.Kərimlinin mövqeyindən asılıdır. Əgər Ə.Kərimli İsa Qəmbəri tutsa, onda AMİP seçkilərə müstəqil getmək məcburiyyətində qalacaq” *(“Palitra” qəzeti, 29 noyabr 2002-ci il).*

Azərbaycan Demokrat Partiyasının təmsilçiləri isə, ümumiyyətlə, vahid namizədin müəyyənləşdirilməsinin əleyhinə çıxır, onun müəyyənləşəcəyi halda isə, vahid namizədin yalnız Rəsul Quliyev olmasını tələb edirlər. Hələ 2000-ci ilin sonunda Rəsul Quliyev bəyan edirdi ki, özünün birinciliyini başqalarına qəbul etdirmək niyyətində olan şəxs psixi cəhətdən qeyri-normal adamdır. Belə şeyin əvvəlcədən mümkün olmadığını görə-görə bu istiqamətdə iş aparmaq, buna cəhd etmək Don Kixotluqdur. Vahid lider, vahid komanda ideyaları müxalifətin birliyinin qayçısıdır. İqtidara qarşı mübarizədə yalnız Rəsul Quliyev və ADP müxalifətin daxilində birləşdirici, təmərküzləşdirici rol oynaya bilər” *(“Millət” qəzeti, 19 dekabr 2000-ci il).*

S.Cəlaloğlu, N.Məmmədli israrla bildirirlər ki, hazırda müxalifətdə R.Quliyev qədər prezidentliyə şansı olan ikinci şəxs yoxdur. Əgər seçkilərə vahid namizədlə getmək məsləhətdirsə, onda niyə İ.Qəmbərov, E.Məmmədov, İ.İsmayılov və başqaları R.Quliyevə güzəştə getməsin? Rəsul Quliyevin kiminsə xeyrinə öz namizədliyindən imtina etməsi fikri tamamilə absurddur. N.Məmmədli müxalifət başçılarını da hədələyir ki, əgər hər hansı bir səbəbdən R.Quliyev və ya A.Mütəllibov seçkilərdə iştirak etməsə, həmin seçkilərin nəticələri legitim hesab edilməyəcəkdir. ADP R.Quliyevin iştirak etmədiyi seçkilərdə qələbə çalmış namizədin legitimliyini tanımayacaqdır *(“525-ci qəzet”, 24 oktyabr 2002-ci il).*

Vahid namizəd məsələsi ilə bağlı daha bir diqqətçəkən məqam. Müxalifətin yaxın ətrafından sızan məlumata görə, ADP

tərəfindən müxalifət partiyalarına təklif edilmişdir ki, prezident seçkilərində ikinci tura keçən müxalifət namizədini digər partiyaların üzvləri dəstəkləsin və onlara qarşı əks-təbliğat aparılmasın. Bu fikir İ.Qəmbəri qane etməyib və o, yaxınlarına bildirib ki, təklif mahiyyətcə R.Quliyevin şəxsi maraqlarına xidmət etdiyindən məqbul sayıla bilməz. Odur ki, o, öz nəzarətində saxladığı qəzetlərə bu təklifin yalnız R.Quliyevin maraqlarının təmininə yönəldiyi barədə yazıların dərci haqda göstəriş veribdir. Göründüyü kimi, seçkilər ərəfəsində müxalifəti inteqrasiyaya səsləyən başçılar şəxsi maraqlarının həll olunduğu prinsipial məqamda bir-birilərinə zidd mövqe tutur, güzəştə getmək barədə düşünmək belə istəmirlər.

**Müxalifət başçıları son vaxtlarda Qərb dövlətlərinin, müxtəlif beynəlxalq təşkilatların adından sui-istifadə edərək, onların guya hakimiyyət opponentlərini müdafiə etməsi haqqında məlumatları cidd-cəhdlə dövriyyəyə buraxırlar.** Nurəddin Məmmədli həmçinin bildirir ki, "nə ABŞ, nə də digər xarici ölkələr, nə də ölkənin daxilindəki ciddi siyasi qüvvələrdən hər hansı biri ADP-nin mövqeyini nəzərə almadan hakimiyyət məsələsini reallaşdıra bilməzlər. Heç bir partiyanın Amerika ilə münasibətləri ADP-ninkindən yaxşı ola bilməz" *("Şərq" qəzeti, 2 noyabr 2002-ci il).*

**Gördüyümüz kimi, xarici siyasi dairələrə özünü daha yaxın göstərmək uğrunda Azərbaycan müxalifət başçıları arasında, sözün əsl mənasında, yarış gedir.** AXCP ("islahatçılar") sədri Əli Kərimov müxalifətin birləşməsinin Qərbin sifarişi olduğunu vurğulamağa çalışır: müxbirin "bəziləri hesab edirlər ki, bu format (dördlük) Qərbin maraqlarına cavab verir və o, əvvəlcədən gələcək koalisiyanın ştrixlərini cızır" sualına cavab olaraq

deyir ki, "aparıcı demokratik dövlətlər Azərbaycanın gələcəyinə təsir göstərə bilərlər. Beynəlxalq birlik bu partiyaların əməkdaşlığına müsbət baxır."

"Vahid namizəd" problemi ilə sıx bağlı şəkildə müzakirə edilən başqa bir məsələ müxalifət başçılarının və funksionerlərinin, öz xülyalarında yaratdıqları "koalisyon hökumət", "Milli Etimad Hökuməti" ideyalarıdır. Bu da bəri başdan aydındır ki, bu müddəalar ətrafında müzakirələr aparanlar, əslində "koalisyon, milli etimad" hökumətlərinin harada, nə kimi şəraitdə yaradıldığından, onun mahiyyətindən xəbərsiz adamlardır. İkinci bir tərəfdən, "Milli Etimad Hökuməti" ideyası 1992-ci ildə Azərbaycanı fəlakətə gətirmiş "Milli Şura" təcrübəsinin, 1995-ci ilin mart dövlət çevrilişi cəhdi zamanı müxalifət dairələrində müzakirə edilən "müxalifət konsorsiumu" ideyasının yenidən reanimasiya edilməsi təşəbbüsündən başqa bir şey deyildir.

Müsavat funksioneri Arif Hacıyevə görə, koalisyon hökumət məsələsində hər şey bəri başdan şərtləndirilməli və partiyalar üzərinə öhdəlik götürməlidirlər: "Hakimiyyət düşərgəsində hər qrupun öz bayrağı altında fəaliyyət göstərməsini Milli Etimad Hökuməti kimi qələmə vermək düzgün olmaz və bu, dövlətin mənafelərinə ziyandan başqa bir şey deyil. Milli Etimad Hökuməti seçkidən sonra formalaşacaq komanda kimi qəbul olunmamalıdır. Ölkədə belə bir hökumətin yaranmasını istəyənlər indidən öz seçimlərini edərək, konkret namizədi dəstəkləməli və həmin namizədin seçkidə qalib gəlməsi ilə ümumi bir komanda formalaşmalıdır" *("Şərq" qəzeti, 29 noyabr 2002-ci il).*

Müsavat Partiyasının sədr müavini və "Yeni Müsavat" qəzetinin redaktoru Rauf Arifoğlunun fıkrincə, ölkədə yeni siyasi situasiya yaradılmalıdır və həmin situasiya "Heydər Əliyevin haki-

miyyətdən danışıqlar yolu ilə vaxtından əvvəl çəkilməsinə, hakimiyyəti milli qüvvələrdən təşkil olunmuş koalisiyanın dinc yolla nəzarətə götürməsinə əsas ola bilər" *("Yeni Müsavat" qəzeti, 21 oktyabr 2002-ci il).*

Bütün bunlar onu gostərir ki, müxalifət ideoloqları və funksionerlərinin 1990-1992-ci illərdə tətbiq etdikləri "dinc" yolla hakimiyyət çevrilişi ssenariləri yenə də qüvvədədir və yaşarılığını itirməyibdir. Pənah Hüseynovun fıkrincə, əgər partiyalar seçki zamanı qüvvələrini, səylərini birləşdirəcəklərsə, güc mərkəzinin vahid namizədinin qalib gələcəyi halda, onu dəstəkləmiş qüvvələr də adekvat olaraq, verdiyi dəstəyə uyğun hakimiyyətdə təmsil olunmalıdırlar. Onun iddiasına görə, bu partiyaların əksəriyyətinin seçkilərdə vahid namizədlə iştirak edən və seçkilərdə qələbə çalaraq ölkə problemlərini çözməyə qadir dayanıqlı hökumət yarada biləcək siyasi komandaya çevrilməsi potensialı vardır.

İlyas İsmayılovu və onun sədri olduğu Ədalət Partiyasını təbliğ edən "Politika" qəzeti bir tərəfdən, müxalifət partiyalarının öz qüvvələrini birləşdirməsinin zəruriliyini vurğulayır, digər tərəfdən, belə bir namizədin məhz İlyas İsmayılov ola biləcəyini sübut etməyə çalışır. Bununla yanaşı, müxalifətin daxilindən ortaya çıxan yeni bir motiv də səsləndirilir. Hansısa partiya hakimiyyətə gəlsə, təkbaşına ölkəni idarə etməyə qadirdirmi? Problemləri yoluna qoymağa qadir olan güclü komanda yarada biləcəkmi? Ayrı-ayrılıqda müxalifət partiyalarının üzdə olan simalarının idarəçilik fəaliyyətini analiz etsək, ayrılıqda müxalifətin kadr potensialının zəifliyini aydın şəkildə görə bilərik. İlk novbədə, cəmiyyətə peşəkar kadrlardan təşkil olunmuş monolit komanda təqdim olunmalıdır. Müxalifətin çıxış yollarından biri seçkilərə vahid namizədlə gedib qələbədən sonra koalisyon hökumət şəklində fəaliyyət göstərməkdir" *("Politika" qəzeti, 2 oktyabr 2002-ci il).*

Əli Kərimov koalision hökumət fikrini dəstəkləyərək qeyd edir ki, protest elektoratının səsləri hazırda müxtəlif müxalifət partiyaları arasında o dərəcədə bölünüb ki, onların heç biri müstəqil şəkildə hakimiyyətə gəlməyə qadir deyil. İndi koalisiya yaranmasına ehtiyac var *("Zerkalo" qəzeti, 26 dekabr 2002-ci il).*

Müxalifət partiyalarının birləşməsi və prezident seçkilərində vahid namizədlə çıxış etməsi ideyasını təbliğ edənlərdən biri də özünü "üçüncü qüvvələrin" təmsilçisi kimi qələmə verən Eldar Namazovdur. Onun qənaətinə görə, "hətta üç partiyanın birlikdə hakimiyyəti Azərbaycanda mövcud olan problemləri həll edə bilməz. Biz bütün partiyalarla əməkdaşlığa hazırıq" *("Reytinq" qəzeti, 27 oktyabr 2002-ci il).* E.Namazov Milli Etimad Hökumətinin yaradılması ideyasının müəlliflərindən biri kimi çıxış edir. "Mən yeni hakimiyyəti milli barış, Milli Etimad Hökuməti qurulmasında görürəm. O hökuməti gərək indiki iqtidar, müxalifət və digər qüvvələr birlikdə yaratsınlar" (Bu konqlomerat hökumət Azərbaycanı nə günə salacaq? - təsəvvür etmək çətin deyil - **R.M.**). Azərbaycanı idarə edəcək gələcək hakimiyyət heç bir partiyanın təsiri altında olmamalıdır. E.Namazovun ssenarisinə görə, bunun ən uğurlu yolu məhz demokratik seçkilər nəticəsində formalaşan Milli Etimad Hökumətidir *("525-ci qəzet", 8 oktyabr 2002-ci il).*

Mütəllibovun mövqeyini ifadə edən və "Vətəndaş Birliyi" Partiyası adlanan qurumun baş katibi Sabir Hacıyev müxalifət partiyalarının hakimiyyətdə birgə təmsil olunmasını mümkün sayır: "Əgər biz müxalifət olaraq mübarizə dövründə birgə əməkdaşlıq ediriksə, istisna deyil ki, bu əməkdaşlıq müxalifət qüvvələrinin hakimiyyətdə birlikdə təmsil olunması üçün zəmin yarada bilər. Əgər bu gün əməkdaşlığın bəhrəsini görsək, arada

anlaşılmazlıq baş verməsə, əlbəttə, koalisiya hakimiyyəti qurmaq mümkündür" *("Politika" qəzeti, 18 oktyabr 2002-ci il).*

Lakin vahid namizəd ideyasının əleyhinə çıxan və bunun mümkünlüyünü, ümumiyyətlə, inkar edənlər kifayət qədərdir, hətta daha çoxdur. Liberal Partiyasının sədri Lalə-Şövkət hesab edir ki, vahid namizəd söhbətlərini yığışdırmaq lazımdır.

"Heç kim heç kimə səlahiyyət verməyib ki, hansısa partiya bütün müxalifətə rəhbərlik etsin. Heç kim müxalifətdən özünə rəhbər seçməyib. Heç kim də özünü rəhbər göstərməsin" *("Şərq" qəzeti, 25 oktyabr 2002-ci il).*

Lalə-Şövkətin fikrincə, "Onluğ"a sədrlik edən insan vahid namizədliyə iddialı olacaqdır. Ancaq o iddianın reallaşması mümkün deyildir. "Vahid namizəd məsələsi inteqrasiya prosesinin qarşısını ala bilər. Dəfələrlə şahidi olmuşuq ki, vahid namizəd məsələsi ortaya atılanda müxalifət arasında çəkişmələr, ziddiyyətlər baş qaldırır və bununla da inteqrasiyaya yönələn cəhdlər boşa çıxır". Lalə-Şövkət "Onluğ"a sədr seçilməsinə digər partiyaların razılıq verəcəyi təqdirdə belə, ALP-nin bu məsələyə müsbət yanaşmayacağını vurğulayır: "Əgər belə olarsa, biz onluqda təmsil olunmayacağıq. Bu təkliflərin mahiyyətində vahid namizəd məsələsi dayanır" *("525-ci qəzet", 30 oktyabr 2002-ci il).* Lalə-Şövkətə görə, bu gün bəzi müxalifətçilər arasında məntiqsiz oyun gedir: "Vahid namizədliyimi qəbul edib mənimlə olsanız, onda siz aparıcı qüvvə, çox böyük adam olursunuz. Vahid namizəd məsələsini məntiqsiz şey kimi qəbul edirəm. Sivil dünyada belə şey yoxdur. Müxalifət rəngarəngdir, müxtəlif ideologiyalar, səviyyələr, müxtəlif dəyərlər sistemi, müxtəlif konsepsiyalar var. Necə olur ki, kommunistlərin, demokratların və liberalların hamısından bir nəfər namizəd çıxır?" *("Ekspress" qəzeti, 4 dekabr 2002-ci il).*

Müxalifətin aparıcı üzvlərinin vahid namizəd məsələsinə fərqli münasibəti göstərir ki, bu ideyanı ortaya atan Müsavat başçıları ancaq öz maraqlarını əsas tuturlar və bu maraqların reallaşması üçün istənilən şəxsi və ya qurumu ayaq altına tullamağa hazırdırlar. Elçibəyin ölümündən sonra Müsavatın AXCP-nin fəallarını öz tərəfinə çəkmək cəhdi və bunun üçün də bu partiya daxilində "parçala və hökm sür siyasəti", sonra AXCP-nin sədri kimi gah Əli Kərimovu, gah da Mirmahmud Fəttayevi tanıması oyunları, özü də bu mövqeyini bir neçə dəfə dəyişməsi onun müxalifətin daxilində qeyri-səmimi fəaliyyətindən və dağıdıcı missiyasından xəbər verir. Bunu partiya rəhbərlərindən Lalə-Şövkət, Sabir Rüstəmxanlı, İlyas İsmayılov, Etibar Məmmədov və çox güman ki, Əli Kərimli və Mirmahmud Fəttayev yaxşı başa düşürlər.

Heç də təsadüfi deyil ki, Sabir Rüstəmxanlı müxalifətin vahid namizəd ideyasını real saymır, hesab edir ki, ortaya atılmış bu məsələ müxalifətin diqqətini yayındırır. O, bu problemlə bağlı fikrini belə ifadə edir: "Vahid namizəd məsələsinin baş tutacağı real deyil. Bütün müxalifət partiyalarının iddiaları var. Ona görə də real olmayan məsələ haqqında düşünməyə dəyməz. Əslində, vahid namizəd məsələsi bir buxova çevrilib. Bunun ətrafında baş sındıra-sındıra qalmışıq" *("525-ci qəzet", 8 noyabr 2002-ci il).*

Sərdar Cəlaloğlu vahid namizəd ideyasının əleyhinə sərt çıxış edərək bildirir ki, müxalifət seçkilərdə vahid namizədlə iştirak edəcəksə, xalqın seçimi məlum olmayacaqdır. "Biz seçkilərə vahid namizədlə gediriksə, xalq nəyi seçməlidir? Bu gün vahid namizəd ideyasını irəli sürənlər istəyirlər ki, xalqdan qabaq özümüz kimisə seçək, sonra isə xalqı həmin namizədi müdafiə etməyə məcbur edək. Vahid namizəd ortalığa atılan kimi birləşmək mümkün olmayacaq." Başqa müxalifət partiyalarının vahid namizəd

iddialarına qarşı çıxan S.Cəlaloğlu bəyan edir ki, heç bir namizəd Azərbaycan xalqını elliklə belə bir seçkiyə cəlb edə bilməz. "Bir neçə real alternativ olmalıdır ki, geniş xalq kütlələrini, müxtəlif elektoratları, regionları, etnik qrupları maraqlandıra və seçkiyə cəlb edə bilsin" *("Hürriyyət" qəzeti, 17 noyabr 2002-ci il).*

Öz destruktivliyi ilə seçilən, destruktiv qüvvələrin fəal tərəfdarı kimi çıxış edən Milli Məclisin deputatı İqbal Ağazadə bu sahədəki vəziyyəti belə səciyyələndirir: "Azərbaycanda müxalifətin elektoratı vahid elektoratdır. Partiyaçılıq prinsipi Azərbaycanda heç nəyi həll etmir. Ümumi qələbə naminə Rəsul Quliyevin İsa Qəmbərə və ya Lalə-Şövkətin İlyas İsmayılova güzəştə gedəcəyinə inanmıram. Əslində, müxalifətin yığışıb müzakirələr aparması onlara aydınlıq gətirir ki, onlar bir yerdə ola bilməzlər" *("Üç nöqtə" qəzeti, 23 oktyabr 2002-ci il).*

AXCP-nin ("klassiklər") qurucularından olan Zəlimxan Məmmədli hesab edir ki, vahid namizəd ideyası o qədər də uğurlu ideya deyil və bu ideyanın məqsədi müxalifəti parçalamaq, dağıtmaqdır. "Demokratik mühit olsa, demokratik düşərgədən on-on beş nəfər də namizəd iştirak edə bilər. Bu, əksinə, insanların daha çox siyasi proseslərə cəlb olunması və saxtakarlıq elementlərinin aradan qaldırılması üçün münbit şərait yaradır." *("Şərq" qəzeti, 22 oktyabr 2002-ci il).* "Əgər bu dörd partiya müttəfiqləşirsə, ən azı, onlardan kənarda kifayət qədər özünü ciddi qüvvə hesab edən, proseslərə ciddi təsir etmək imkanında olan qüvvələr var. Belə halda ən azından "dördlər"ə alternativ formalaşır. Faktik, bu qurumun mövcudluğu dezinteqrasiyaya yol açır!" Gördüyümüz kimi, bu fikirlər "dördlər"in diktatına qarşı çevrilib.

**Müşahidələr maraqlı bir məsələni də ortaya çıxarır: müxalifətin öz içində "vahid namizəd" ideyasının reallaşmasını**

**və ümumiyyətlə, "onluğ"un fəaliyyətinin hər hansı nəticə verəcəyini güman edənlər çox azdır.** Buna şübhə ilə yanaşanlardan biri də AXCP-nin üçüncü qanadının sədri Qüdrət Həsənquliyevdir. Onun fikrincə, "onluğ"a daxil olanlar vaxtilə bir-birini hakimiyyətdən salmış və Azərbaycanı fəlakətlə üz-üzə qoyan qüvvələrdir. "Sabah əgər bunlar birgə hakimiyyətə gəlsələr, yenə onların arasında qanlı dava başlanacaq. "10-luq"da toplaşanlar, demək olar ki, tamamilə başqa dövlətlərdən asılıdırlar". Bunu da sübut etmək çox asandır. "Azərbaycanda Vergilər Nazirliyi, Maliyyə Nazirliyi və başqa əlaqədar orqanlar var. Onlar müvafiq araşdırmalar aparmalıdırlar: hər partiyada nə qədər adam çalışır, nə qədər maaş alır, nə qədər vergi verir, hansı tədbirə nə qədər vəsait xərclənib, yaxud adını qeyri-dövlət təşkilatı qoyub, əslində, kimlərə işləyirlər. Yəni bütün bunların hesabı aparılandan sonra qaranlıq heç nə qalmayacaq. Onda aydın olacaq kim hara və necə işləyir. Onların hələlik bir arada olması da xaricdəki ağalarının istəyi ilə ortaya çıxan nəticədir" *("Azad Azərbaycan"qəzeti, 20 noyabr 2002-ci il).*

Müxalifətin sıralarında nəinki vahid namizəd ideyasını qəbul etməyənlər mövcuddur, ümumiyyətlə, müxalifətdə ölkənin birinci şəxsi olmaq səviyyəsində adam olmadığını hesab edənlər də var. Məsələn, ASDP-nin həmsədri Zərdüşt Əlizadə vahid namizəd ideyasını və müxaliflərin prezidentlik iddialarının qeyri-mümkün və əsassız olduğunu söyləyir: "Mən əksər müxalifət liderlərinin iddiasını sabun köpüyünə bənzədirəm. Onların nə savadı, nə iradəsi, nə mənəvi xüsusiyyətləri və təcrübələri imkan verəcək ki, gəlib ölkədə birinci şəxs olsunlar" *("Mərkəz" qəzeti, 3 oktyabr 2002-ci il).*

ASDP-nin başqa həmsədri Araz Əlizadə isə müxalifət başçılarını xalqa dəfələrlə yalan deməkdə günahlandırır: "Müxalifət-

də xalqı aldatmış şəxslər var... Bu vahid namizəd anlayışı çox gülünc və mənasız məsələdir. Məsələn, sosial-demokratlarla milli demokratlar necə vahid namizəd irəli sürə bilər? Bizdə əqidə ayrılığı var” *(“Politika” qəzeti, 4 yanvar 2003-cü il).*

Müxalifət başçılarını yaxşı tanıyan Nemət Pənahlı Əlizadə qardaşlarının fikrini dəstəkləyərək, vahid namizəd məsələsinin ortaya atılmasını təxribat sayır: “İnanmıram ki, İsa Qəmbər Etibar Məmmədovun, Etibar Məmmədov da İsa Qəmbərin vahid namizədliyini qəbul etsin. Demokratiyadan dəm vuranlar hansı haqla vahid namizəd məsələsini ortaya atırlar?” *(“Xalq Cəbhəsi” qəzeti, 3 oktyabr 2002-ci il).*

Demək olmaz ki, Müsavatın bütün funksionerləri vahid namizəd ideyasını qəbul edir, əksinə, elələri var ki, bu məsələyə mənfi yanaşırlar. Partiyanın sədr müavini Qabil Hüseynli bu ideyanı müxalifəti birləşdirən yox, ayıran amil hesab edir: “Ən ideal variant siyasi müxalifətin bir namizədlə seçkilərə getməsidir, amma indiki şəraitdə bunu mümkün hesab eləmirəm. Bu gün bir çox siyasilər öz iddialarını ortaya qoyaraq, əvvəlcədən də elan ediblər ki, heç bir güzəştə getməyəcəklər” *(“Ekspress” qəzeti, 27 dekabr 2002-ci il).*

Rəsul Quliyevin və İsa Qəmbərin müxtəlif vaxtlarda bir-biri haqqında dedikləri də bu qənaəti möhkəmləndirir. Rəsul Quliyev nə İsa Qəmbərin, nə də Etibar Məmmədovun komandasında işləməyi mümkün hesab edir *(“Azadlıq” qəzeti, 27 yanvar 1999-cu il).* İsa Qəmbər də öz növbəsində bildirir ki, Müsavat başqanı heç bir partiya sədrinin yanında ikinci adam ola bilməz.

Xüsusi qeyd edilməlidir ki, nəzərdə tutulan bu “birliklər” hər hansı mənəvi və etik əsasdan da məhrumdur. “Birləşənlər” hələ bu yaxın vaxtlaradək bir-birini hər cür günahlarda, xəyanətkar-

lıqda, satqınlıqda, dövləti cinayətlərdə təqsirləndirən adamlardır. Hər bir bu cür “birlik” kompramatlar müharibəsini yenidən qızışdırır, müxalifət partiyaları arasında parçalanmanı daha da dərinləşdirir. Qüdrət Həsənquliyev bu məsələ ilə bağlı fikrini belə açıqlayır: “Mən inanmıram ki, R.Quliyev vaxtilə dolayıb ələ saldığı İ.Qəmbərin namizədliyini müdafiə edəcək, yaxud “əlin qana batıb”, - deyən E.Məmmədov İsa Qəmbərin namizədliyinə səs verəcək. Yaxud, İ.Qəmbər onu hakimiyyətdən salan E.Məmmədovu dəstəkləyəcək və ya istefa ərizəsi yazdırdığı Mütəllibovun namizədliyini müdafiə edəcək. Gördüyünüz kimi, bütün bunlar absurd bir şeydir” *(“Azad Azərbaycan” qəzeti, 20 noyabr 2002-ci il).*

**Aydındır ki, müxalifətin vahid namizədi, heç olmasa, müxalifət dairələrinin lider kimi qəbul etdiyi şəxs olmalıdır. Bu səxs müəyyən xarizmaya malik olmalı və xalq arasında nüfuzu ilə seçilməli, başqa müxalifət başçılarından özünün intellektinə, təşkilatçılığına və digər keyfiyyətlərinə görə əsaslı şəkildə fərqlənməlidir. Müxalifət başçıları arasında isə bu keyfiyyətlərə cavab verən və dövlət idarəçiliyində özünü təsdiq etmiş sima yoxdur.** Həm də vahid namizəd məsələsi elədir ki, liderlərdən başqa, partiyaların daxili strukturu da buna uyğunlaşmalı və hazır olmalı, ideoloji prinsiplərdə oxşar cəhətlər üstünlük təşkil etməli, siyasi maraqlar uzlaşmalı, xarici prioritetlər eyni olmalı, tərəfdarların əksəriyyəti partiya liderinin atdığı addımı dəstəkləməli, hətta müəyyən şəxsi maraqlar da qorunmalıdır. Gördüyümüz kimi, süni, obyektiv əsası olmayan məsələ çoxsaylı, həlli praktik olaraq qeyri-mümkün problemlər doğurur.

Bir neçə partiyanın birləşib vahid namizədlə çıxış etməsi o deməkdir ki, onlar koalisyon hökumət qurmağın tərəfdarıdır. Tarixi təcrübə göstərir ki, ən çox problem yaradan, cəmiyyəti

inkişafdan saxlayan, daxili sabitliyi qoruya bilməyən hökumətlər koalisyon hökumətlərdir. Müasir dövrdə belə hökumətlərin tez-tez dəyişilməsi adi hal olan İtaliyanı, Latın Amerikası ölkələrini və s. buna misal göstərmək olar.

Müxalifət başçılarının qarşıdakı prezident seçkilərində heç bir şansının olmadığını bir çox xarici müşahidəçilər və kütləvi informasiya vasitələri, o cümlədən Azərbaycana və Azərbaycan iqtidarına o qədər də müsbət münasibəti olmayan xarici KİV-lər və sorğu mərkəzləri də təsdiq edir. Xarici sosioloji proqnozlar sübut edir ki, indi vətəndaşların böyük əksəriyyəti Heydər Əliyevə səs verərdi. Elektoratın seçimi bu halda iki amillə müəyyən olunur: müxalifət düşərgəsində tanınmış və hamının qəbul etdiyi liderin olmaması, digər tərəfdən, hakimiyyətin dəyişəcəyi halda mümkün sosial-iqtisadi sarsıntılar təhlükəsi *("Nezavisimaya qazeta", 18 noyabr 2002-ci il).*

Bugünkü pozucu müxalifəti səciyyələndirən və vahid namizəd ideyasını heçə endirən cəhətlərdən biri də onun başında duranların bir-birinə paxıllıq, qısqanclıq hissləridir. Prezident seçkiləri ilində bu hisslər daha da güclənibdir. Müxalifətin mətbuatında zahiri birlikdən fərqli olaraq, partiyaların daxilində bu münasibətlər heç də gizlədilmir.

Məsələn, müxalifət mənbələrinin verdiyi məlumata görə, 2003-cü il yanvar ayının 22-də Müsavat Partiyasının idarə heyətinin üzvlərindən, Müsavatın aparıcı simalarından biri yaxın ətrafına bildirir ki, AXCP ilə bağlı son vaxtlar yaranmış vəziyyət (Ədliyyə Nazirliyinin qərarının ləğvi nəzərdə tutulur) yalnız Əli Kərimlinin nüfuzunun artmasına xidmət edir. M.Fəttayevin Ə.Kərimli ilə birləşməsi və sonuncunun partiyaya sədr seçilməsi istiqamətində nümayəndələr vasitəsilə müzakirələr aparması,

AXCP-nin böyük qüvvəyə çevrilməsi mümkünlüyü prezident seçkiləri ərəfəsində bütövlükdə Ə.Kərimlinin daha çox şanslı olmasına imkanlar yaradır.

Onun sözlərinə görə, Müsavat M.Fəttayevin rəhbərlik etdiyi AXCP-dəki müsavatyönümlü şəxslər vasitəsilə bu danışıqların qarşısının alınması istiqamətində fəal iş aparır. O bildirir ki, yaranmış vəziyyət Müsavatın nəzarətindən çıxacağı təqdirdə, M.Fəttayevin Demkonqresə sədr seçilməsi məsələsinə baxılacaq, bu yolla onun AXCP-nin sədri kimi liderliyi qorunub saxlanılacaqdır.

Beləliklə, vahid namizəd ideyasını ortaya atan Müsavat Partiyası başçılarının məqsəd və niyyətlərinin indidən iflasa uğraması şübhə doğurmur. Məsələ bundadır ki, bu tamamilə əks ideoloji məramnamələri olan ən müxtəlif siyasi qruplaşmaları prinsipsizcəsinə birləşdirmək cəhdləridir. Bu qruplaşmalara başçılıq edən şəxslər isə bir qayda olaraq, son dərəcə iddialı adamlardır və heç bir nüfuz sahibini tanımırlar. Təsadüfi deyil ki, onların bir çoxu - L.Şövkət, İ.İsmayılov, R.Quliyev, E.Məmmədov, S.Rüstəmxanlı və digərləri qarşıdakı seçkilərdə öz namizədliyini irəli sürmək niyyətində olduqlarını qətiyyətlə bəyan edirlər. Bundan əlavə, bu adamların dünyagörüşü, mənəvi keyfiyyətləri, təfəkkür tərzi və iqtidara olan münasibəti fərqlidir. Ona görə də müxalifətdən vahid namizəd məsələsinin reallaşması xülyadır. Destruktiv müxalifətin vahid namizəd ideyası bəşəriyyətin ümumi qardaşlıq xam xəyalını xatırladır.

Daha bir məsələni qeyd edək. Nəzəri cəhətdən təsəvvürə gətirək ki, müxalifətçilər birləşdilər və Heydər Əliyevə qarsı çıxış etdilər. Əslində, belə vəziyyət də heç nəyi dəyişdirmir. **Müxalifət partiyaları başçılarının istər qısamüddətli hakimiyyətdə olduqları dövrdə, istərsə də müxalifətdə olduqları uzun illərin reallıqları göstərdi ki, onlar qrup, korporativ maraqlar**

**əsasında qruplaşma liderləri, ən yaxşı halda isə, partiya başçıları səviyyəsindən yuxarı qalxa bilməyiblər, yalnız nüfuz dairəsi üstündə, müxalifət statusu uğrunda bir-biri ilə çarpışma aparan qurumların, Pənah Hüseynovun ifadəsini işlətsək, müəyyən geosiyasi, ideoloji, regional və s. maraqların təmsilçisi roluna iddia edə biliblər. Xalqın hamılıqla qəbul edilmiş rəhbəri, ümummilli lider olan Heydər Əliyev şəxsiyyəti qarşısında müxalifət başçılarının siyasi, idarəçilik, intellektual, mənəvi kasadlığı, cılızlığı hec kəsdə şübhə doğurmur.**

Bir məsələ də hamıya aydındır ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müxalifət partiyalarından və liderlərindən heç kəs onunla ciddi dialoqa girə bilməyibdir. Xalqın arasında müxalifətin aparıcı liderləri Heydər Əliyev tərəfindən məğlub edilmiş siyasətçilər imici qazanıblar.

“Zerkalo” qəzetindəki analitik yazıda getmiş mülahizələr maraqlıdır: “Əgər seçkilər indi keçirilsəydi, prezidentliyə çoxlu namizədlər olacağı halda, hətta nisbətən ədalətli seçkilər keçirilsə belə, müxalifətin heç bir şansı olmazdı.

Müxalifətdən olan digər namizədlərin ikinci turda İsa Qəmbərə səs verəcəkləri şansı çox müəmmalıdır”. Azərbaycan elektoratının böyük hissəsi “regionçu imici qazanmış İsa Qəmbərə səs verməyəcəkdir” *(“Zerkalo” qəzeti, 20 noyabr 2002-ci il).*

Böyük əhəmiyyət kəsb edən məsələ budur ki, Qərb dövlətləri, o cümlədən ABŞ Azərbaycanda siyasi xaos yaranmasında maraqlı deyildir. Qərb hesab edir ki, müxalif siyasətçilərdən heç kəs ölkədə sabitliyi təmin etmək iqtidarında deyildir. Qərb ölkələrində müxalifət başçılarına dəfələrlə açıqca bildirilib ki, Qərb xaos və ya sabitlik dilemması qarşısında qalacağı təqdirdə, qətiyyən heç bir tərəddüd göstərməyərək, heç bir halda müxalifətə istinad etməyəcəkdir.

Beləliklə, **yuxarıda qeyd olunanlar onu göstərir ki, destruktiv müxalifətin başçıları bir-birinə güzəştə gedə bilməyəcəklər, psixoloji cəhətdən də onların heç biri özünü başqaları qarşısında məğlub hesab edə bilməz. Aydın olur ki, vahid namizədin müəyyənləşdirilməsi də, onun olmaması da müxalifətə həlli mümkün olmayan problemlər yaradacaqdır. Bütün hallarda pozucu müxalifətin ağır itkiləri qaçılmazdır.**

**Müşahidələr, təhlillər və xarici sorğu qurumlarının araşdırmaları belə bir möhkəm qənaətə gəlməyə əsas verir ki, ölkə vətəndaşlarının böyük əksəriyyəti Azərbaycan Prezidenti Heydər Əliyevin siyasətinə real alternativi təsəvvürünə gətirmir. Respublikadakı mövcud ictimai-siyasi durum, sabit inkişaf perspektivləri və meyilləri göstərir ki, Azərbaycanın siyasi gələcəyi Heydər Əliyevin komandası, onun fəal tərəfdarları və ardıcılları, bu siyasəti birmənalı şəkildə dəstəkləyən adamlarla bağlıdır.**

### Yeni müxalifətin formalaşması

Məlumdur ki, hər bir siyasi partiya hakimiyyətə gəlməyi qarşısına məqsəd qoyur. Bu, o vaxt normal bir hal olar ki, belə məqsəd demokratik prinsiplərə əsaslansın. Ancaq Azərbaycanda destruktiv müxalifətin mahiyyəti buna imkan vermir. Ona görə ki, bu müxalifətin rəhbərləri vərdiş etdikləri zorakılıq fəlsəfəsindən əl çəkə bilmirlər. Məsələ ondadır ki, hakimiyyətdə olduqları dövrdə də zorakılıq üsulları, meydan psixologiyası və konfliktli, davakar davranış ifrat radikal müxalifətin fəaliyyətinin əsas prinsiplərini təşkil edirdi. Odur ki, iqtidarda olduğu bir il müddətində AXC-Müsavat cütlüyü dövləti məhvolma həddinə çatdırdı, özünün yaratdığı xaos və özbaşınalığın öhdəsindən gələ

bilmədi. Qeyd etdiyimiz kimi, təəssüf doğuran hal budur ki, radikal müxalifətin başında duranlar köhnəlmiş təfəkkürlə yaşayaraq və aqressiv mövqedən çıxış edərək, yenə də dağıdıcılıq funksiyasını yerinə yetirirlər.

Bu gün bu müxalifətdə təmsil olunanlar o insanlardır ki, nə hakimiyyətdə olduqları bir ildə, nə də ki, 1993-cü ildən bu günə qədər Azərbaycanın maraqları naminə, kiçik də olsa, bir iş görməyiblər. Fikirləşmək olardı ki, heç olmasa, ümummilli problem olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Müsavat, ADP, AMİP və AXCP ("klassiklər") hakimiyyətlə həmrəy olacaq. Lakin bu da arzu olaraq qalır. Əksinə, Dağlıq Qarabağ probleminin belə mürəkkəb düyünə düşməsinin səbəbkarlarından biri də Azərbaycanın destruktiv müxalifətidir desək, səhv etmərik. Azərbaycan vətəndaşlarının əksəriyyətinə, sağlam düşüncəli insanlara qətiyyən sirr deyil ki, Qarabağ faciəsi, torpaqlarımızın itirilməsi xeyli dərəcədə hakimiyyət uğrunda çirkin vasitələrdən istifadə etməklə mübarizə aparan destruktiv müxalifətin hərbi-siyasi qruplaşmalarının intriqalarının və oyunlarının nəticəsi idi. Bütün mümkün vasitələrdən istifadə etməklə problemin ədalətli həllinə çalışan Azərbaycan iqtidarına dəstək vermək əvəzinə, hakimiyyət ambisiyasına hər şeyi qurban verməyə hazır olan radikal partiya rəhbərləri bu amildən hakimiyyətə təzyiq vasitəsi kimi istifadə edir, insanları inandırmağa çalışırlar ki, ancaq onlar Dağlıq Qarabağ məsələsini həll edə bilərlər; bunu reallaşdırmağın da bir yolu var, o da destruktiv müxalifət başçılarının hakimiyyətə gəlməsidir. Vətənin taleyi ətrafında bu cür oyunların aparılması çox acınacaqlı hal olsa da, bu, faktdır. Çətin inanmaq olar ki, hansısa ölkədə müxalifətin belə mövqeyi ilə rastlaşmaq mümkündür.

Əgər **Azərbaycan Qərbə, Avropaya inteqrasiya yolunu tutubsa, Azərbaycanın müxalifəti bu ölkələrin müxalifətindən nümunə götürməlidir. Artıq biz bilirik ki, bu ölkələrdə parlament və prezident seçkiləri ərəfəsində tənqidlər, siyasi dialoq və diskussiyalar çox qızğın olur, seçkilərə həsr olunmuş geniş kütləvi tədbirlər keçirilir. Lakin seçilmiş deputat və ya ölkə başçısı artıq barışmaz rəqib deyildir. Seçilməyən namizəd seçilənə, dövlətçiliyə, milli maraqlara qarşı mübarizə aparmır və sair. Cəmiyyət Prezidentə dovlətin rəmzi kimi hörmət və ehtiram göstərir. Bizə qardaş olan Türkiyədə də vəziyyət belədir.**

**Ölkə Prezidenti Heydər Əliyev müxalifəti köhnəlmiş mübarizə üsullarından əl çəkməyə, müasirləşməyə çağıraraq qeyd edir ki, bu gün müasirləşmək üçün çox böyük imkanlar var. Çünki dünyada indi demokratiya daha geniş inkişaf edir və dünyanın əksər ölkələrini əhatə edir. İnkişaf etmiş ölkələrdə müxalifətin iş metodları, taktikası, proqramları, strategiyası dövlətin və cəmiyyətin magistral inkişafı ilə ziddiyyət təşkil etmir. Əgər Azərbaycan müxalifəti onlara daha çox istinad etsə, onun özü üçün də faydalı olar.**

Lakin Azərbaycanda siyasi proseslərin gedişi göstərir ki, son on ildə qeyri-demokratik, davakar əhval-ruhiyyəli müxalifətin liderləri və ənənəvi tərəfdarları dəyişməz qalıblar. Əsasən də bu, partiya başçılarına aiddir. **Partiyalarda sədr seçkiləri avtoritar, qeyri-demokratik prinsiplər əsasında keçirildiyindən, bir qayda olaraq, alternativsiz olub və onlar ciddi demokratik siyasi partiya kimi formalaşa bilməyiblər. Bu illər ərzində müxalifətin sıralarına hakimiyyət sıralarından və bitərəflərdən çox az adam, əsasən, dövlət qulluğundan uzaq-**

**laşdırılmış adamların kiçik bir hissəsi, yaxud da hakimiyyət iddiaları ödənilməmiş şəxslər qoşulmuşdur. Bununla yanaşı, müxalifət partiyalarının sosial bazası dağılmaqda davam etmişdir ki, bu da nəticə etibarilə onların əksəriyyətinin, əslində, sekta tipli təşkilatlara, korporativ maraqlar əsasında birləşmiş insanların dərnəklərinə çevrilməsinə gətirib çıxarmışdır.** Demək olar ki, köhnə müxalifətin sıraları bitərəflərin sayı hesabına artmamışdır, əksinə, azalmaqda davam edir.

Araşdırmalar göstərir ki, **müxalifət partiyalarının bu vəziyyətdə qalmasının bir neçə səbəbi var.**

**Birinci səbəb ondan ibarətdir ki,** xalq hərəkatı başlayanda onun aparıcı şəxsləri qarşılarına partiya yaratmağı məqsəd qoymamışdılar. Əsas məqsəd Dağlıq Qarabağ problemi, torpaqlarımızın erməni qəsbkarlarından təmizlənməsi idi. Bu partiyaların ortaya çıxması xalq hərəkatının son dövrünü əhatə edir. Yəni partiyaların yaranma dövrü xalq hərəkatının milli azadlıq mübarizəsinə transformasiya dövrü ilə sıx bağlıdır. Aydındır ki, bu dövrdə tələm-tələsik elan olunan partiyalar amorf xarakter daşıyırdı, populist çağırışlar və şüarlar onların proqramlarının özəyini təşkil edirdi. Təbii ki, bu siyasi qurumların sosial dayaqları da rəngarəng idi. Məqsəd mümkun qədər çox tərəfdar yığmaq, hakimiyyətdən pay almaq idi. Belə bir vəziyyətdə daha çevik və iddialı şəxslər öz ətrafındakıların köməyinə arxalanaraq partiya rəhbərliyini ələ keçirib, öz maraqlarına uyğun idarə strukturunu yaratdılar. Ekspertlərin və partiyaları tərk edən funksionerlərin fikrincə, bu partiyalarda idarəçilik avtoritar, hətta diktatura üsulları əsasında qurulubdur. Gündəliyə çıxarılan məsələnin müzakirəsində və yaxud qarşıda duran problemin həllində kollektiv seçkili idarə orqanlarının fikri, rəyi, təklifləri əksər hallarda nəzərə alınmır.

**İkinci səbəb partiyaların dağılmaq təhlükəsidir.** Çünki onların sosial dayaqları çox məhduddur, bəzi partiyalar isə tək sədrdən və ətrafından ibarətdir. Ona görə də partiya adı ilə siyasətdə qalmaq və görüntü yaratmaq daha sərfəlidir.

**Üçüncü səbəb ölkə və cəmiyyətin keçid dövründə yaşaması ilə bağlıdır.** Cəmiyyətdə iqtisadi islahatların tam başa çatmaması, orta təbəqənin formalaşması prosesinin davam etməsi siyasi partiyaların xeyli hissəsinin ideoloji və taktiki cəhətdən amorf vəziyyətdə olmasına, ziddiyyətli taktiki və strateji xətt yeritməsinə səbəb olur. Müxalifət düşərgəsində ciddi dəyişiklik üçün zaman keçməli və cəmiyyət özü bunu sifariş etməlidir.

**Dördüncü səbəb müxalifətin daxilində ümummilli səviyyədə liderin olmamasıdır.** Bütün partiyaların başçıları böyük iddialarla yaşayır, böyük potensiala və çoxsaylı tərəfdarlara malik olduqlarını iddia edirlər. Bu əsassız iddialar da ondan irəli gəlir ki, onlar həyat təcrübəsi, idarəçilik bacarığı, intellekti, dünyagörüşü ilə bir-birindən, demək olar ki, fərqlənmirlər.

Azərbaycanın siyasi palitrasının bir hissəsi belə zəif halqalardan ibarətdir və bu halqalarla, obrazlı desək, möhkəm zəncir toxumaq müşkül işdir. Hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda iştirak ölkənin bütün insanlarının vətəndaşlıq borcudur. Buna təkcə iqtidar deyil, müxalifət də məsuliyyət daşıyır. Bu partiyaların əqli-intellektual, kadr potensialı buna imkan verirmi?! Keçmiş AMİP-çi Şadman Hüseyn bu suala mənfi cavab verir: “Mən təəssüf edirəm ki, həmin partiya sədrləri Azərbaycana rəhbərlik etmək iddiasındadırlar. Başçılıq etdiyi partiyaları bu günədək lazımi səviyyədə idarə edə bilməyən, proqramları həyata keçirməyən şəxslərin bu iddiada çıxış etməyə əsasları varmı? Əgər bu partiyalar qurultay keçirsələr,

hesabat versələr, sözsüz ki, onlar istefaya göndəriləcəklər" *("Yeni Azərbaycan" qəzeti, 4 sentyabr 2002-ci il).*

**Demokratik, plüralist cəmiyyətdə müxalifət partiyalarının siyasi həyatdakı rolunu nəzərə alsaq, birmənalı deməliyik ki, destruktiv müxalifət partiyaları daxilində yeniləşmə zəruridir. Birinci növbədə bu, cəmiyyətin inkişafı üçün lazımdır.** Müsavat Partiyasının nümayəndəsi Rəhman Bədəlovun fikrincə, müxalifət partiyalarının başında on ildir ki, eyni sifətlər görünür. Bu, partiyalarda seçkilərin saxtalaşdırılmasının nəticəsidir: "Biz durğunluq dövründə yaşayırıq və başa düşmürük ki, bu, nə qədər təhlükəlidir. Siyasi meydanda dəyişilmə çox vacibdir, biz başqa sifətlər görməliyik, biz müxalifət liderlərinin başqa plastikasını görməliyik" *("Exo" qəzeti, 7 noyabr 2002-ci il).*

Gördüyümüz kimi, destruktiv müxalifətin köhnə başçılarının dəyişilməsi müxalifətin öz daxilindən tələb olunur. Partiyalarda sıravi üzvlər və obyektiv mövqeli insanlar başa düşürlər ki, dağıdıcı təfəkkür və köhnə mübarizə üsulları ilə nəyəsə nail olmaq mümkün deyildir. Əksinə, belə mövqe müxalifət partiyalarının sosial bazasının tamamilə itirilməsinə gətirə bilər. Bunun qarşısını almaq üçün siyasi meydana yeni, demokratik müxalifət qüvvələri gəlməlidir. Qeyd etməliyəm ki, artıq bu proses başlayıbdır. Faktlar belə bir fikri təsdiqləyir ki, yeni müxalifətin formalaşması prosesi elə müxalifət mühitinin öz daxilində gedir. Bu nəticə indiki çoxpartiyalı sistemin təşəkkül tarixi ilə də təsdiqlənir. Əgər yaxın tariximizə nəzər salsaq görərik ki, indiki bir çox müxalifət partiyaları ayrı-ayrı qrupların Xalq Cəbhəsindən qopub ayrılması nəticəsində meydana gəlmişdi.

Destruktiv müxalifət partiyalarının başçıları konstruktiv qrup tərəfindən ciddi müqavimət və narazılıqla qarşılaşır. Bu partiya-

lardakı konstruktiv qrup öz başçılarının demokratik prinsiplərə uyğun hərəkət etmələrinə inamlarını itirdiklərinə görə, onların dəyişdirilməsi təşəbbüsü ilə çıxış edirlər. Hadisələr göstərir ki, partiyaların yuxarı dairələrinin qeyri-konstruktivliyi, davakar radikalizmi, hakimiyyət uğrunda qeyri-sivil mübarizə metodları, 1990-1992-ci illərin meydan əhval-ruhiyyəsi, heç nə verməyən mütəmadi mitinqlər, yürüşlər gənclər, sağlam mövqeli partiya üzvləri tərəfindən qəbul olunmur. Onlar hesab edirlər ki, mitinqlər dövrü çoxdan keçib, zaman bu gün yeni, sivil mübarizə üsullarını və formalarını tələb edir.

Müşahidələr onu deməyə əsas verir ki, radikal müxalifət partiyaları daxilində ziddiyyətlər bundan sonra da dərinləşəcək və kəskinləşəcəkdir. Artıq partiyalar daxilində cərəyan edən proseslər bunu təsdiqləyir. Sağlam mövqeli partiya üzvləri və onları dəstəkləyən gənclər donuq təfəkkürlü, dünyada və ölkədə baş verən dəyişikliklərdən xəbərsiz olan ortodoksal rəhbərləri qəbul etməyərək, yeni iş üsulunu, yeni ab-havanı, konstruktivliyi və müsbət fəaliyyətə keçməyi tələb edirlər.

Müsavat Partiyasından daxil olan məlumat göstərir ki, onun bir qrup üzvləri tələb edir ki, Məmməd Əmin Rəsulzadənin ideyaları partiyada bərpa olunsun və onlar müasir dovrün tələblərinə uyğunlaşsın. Görünur, bu çağırışlar təsadüfi deyildir. İş bundadır ki, Müsavat Partiyasının fəaliyyəti müsavatçılıq ideologiyası ilə üst-üstə düşmür. Məlumdur ki, müsavatçılıq ideologiyası cəmiyyətdə tarazlığın olması, ədalətin bərqərar edilməsi əsasında yaranıb və daha çox sosialyönümlü partiya ideologiyası kimi çıxış edirdi. Bugünkü Müsavat Partiyası isə, əslində, Xalq Cəbhəsinin parçalanmasından sonra İsa Qəmbərin öz tərəfdarları ilə yaratdığı bir qurumdur. Daha dəqiq desək, bu partiya 1990-cı

ilin 20 Yanvar faciəsindən sonra İsa Qəmbərin Şimali Azərbaycan Demokratik Partiyası yaratmağa çalışdığı qurumun sonradan Müsavat Partiyası adı altında fəaliyyətidir.

İsa Qəmbərin yaratdığı Müsavat Partiyasının siyasi platforması eklektik bir platformadır. Yəni müxtəlif ideya cərəyanlarının, baxışların, nəzəriyyələrin prinsipsiz birləşməsidir. Bu partiyanın funksionerləri konyunktur maraqlara əsaslanaraq, praktik fəaliyyətlərində solçu, islamçı, ifrat millətçi, sağçı və sair. siyasi baxışların şüar və çağırışlarından geniş istifadə edirlər.

Siyasi ekspertlərin və təhlilçilərin fikrincə, Müsavat Partiyası məhz ona görə yaradıldı ki, onun başında duran şəxslər sovet rejiminə qarşı aparılmış mübarizənin 20 yanvardakı faciəvi nəticəsindən qorxuya düşmüşdülər. Gələcəkdə məsuliyyətdən yayınmaq üçün onlar özlərinin Xalq Cəbhəsi rəhbərliyində guya liberal qanad olduqlarını nümayiş etdirmək istəyirdilər. Təhlilçilər hesab edirlər ki, bugünkü Müsavatın gələcəyi çox dumanlıdır və fəaliyyətini demokratiyanın prinsiplərinə uyğunlaşdıra bilməsə, Azərbaycanın siyasi səhnəsini tərk etmək məcburiyyətində qalacaqdır.

Bununla yanaşı, barışmaz müxalifət partiyalarının regional strukturları arasında da böyük narazılıq olduğunu müşahidə edirik. Görünür, onlar partiya rəhbərliyinin perspektivi olmayan oyununda iştirak etmək istəmirlər. Bu partiyaların bir çox sıravi üzvləri cəmiyyətdə gedən müsbət dəyişiklikləri, quruculuq proseslərini, iqtisadi və sosial layihələrin uğurla həyata keçirildiyini görərək, özlərinin "partiya bossları"na bütün inamlarını itirirlər. Onlar öz "liderlərinin" siyasi xəttinin, hansısa müəmmalı səbəblərdən tez-tez dəyişən taktika və strategiyasının uğursuzluğunu tədricən başa düşür və belə bir qənaətə gəlirlər ki, Prezident Heydər Əliyevin siyasətinin alternativi yoxdur. Görünür, ADP nin,

Müsavatın, AMİP-in, AXCP-nin (istər islahatçılar, istərsə də “klassiklər” adlananların) yerli strukturlarında baş verən kütləvi tərketmə prosesini bununla izah etmək lazımdır. 2002-ci ilin avqustunda referendumdan sonra bu proses xüsusilə sürətləndi, yüzlərlə insan radikal müxalifət partiyalarını tərk edərək, öz siyasi taleyini və gələcəyini Yeni Azərbaycan Partiyası ilə bağladı.

Siyasi ekspertlər partiya “liderlərinin” amirliyini, onların aqressiv, davakar, yanlış siyasətini, dövlət mənafelərinə zidd olan əməllərini müxalifətin özünün zərərinə olan hərəkət kimi qiymətləndirirlər. Hesab edirlər ki, partiya liderləri tərəfdarlarının, sosial bazasının intellektual və təşkilati potensialının tükəndiyini yaxşı başa düşürlər və özlərini siyasi səhnədə saxlamaq üçün təhlükəli yola qədəm qoymuşlar.

İndi yetkin düşüncələr və hərəkətlər zamanı, keçmişdən nəticə çıxarmaq, müsbət təcrübə zərrəciklərinin toplanması və demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi kimi öz ruhuna və məzmununa görə, həqiqətən, demokratik müxalifət məkanının yaradılması mərhələsi başlanmışdır; burada vətəndaş konsensusu tərəqqi və sabitliyin təminatı kimi çıxış edir.

Müxalifət partiyalarının sıravi üzvlərinin hakimiyyət strukturlarına, Yeni Azərbaycan Partiyasına getdikcə daha çox nəzər-diqqət yetirmələri, partiyalardan onların yaradıcısı olan adamların da uzaqlaşması rasional düşüncənin təzahürü kimi qiymətləndirilə bilər. Bu, həmin siyasi qurumlar daxilində gedən mövqelərin aydınlaşması, siyasi prosesləri dərketmə, konkretləşmə, gələcək fəaliyyət yollarının və metodlarının müəyyənləşməsi ilə bağlıdır.

Lakin illüziyalara qapılmaq da lazım deyildir. Bu da aydındır ki, **konstruktiv, sivil müxalifətin təşəkkülü heç də** sadə proses deyil və bu proses illərlə və ziddiyyətli bir şəkildə davam

edəcəkdir. İstənilən halda, bu prosesin baş verməsi və uğurla nəticələnməsi Azərbaycan dövləti, cəmiyyəti, onun demokratik inkişaf mənafeləri üçün zəruridir.

## Ülvi məqsədə aparan yeni tarix

Hər millətin və dövlətin həyatında elə bir tarixi məqam olur ki, həlledici, taleyüklü anda liderin söylədiyi sözlər dövlətin və millətin inkişafının həyat aksiomuna çevrilə bilir. Bu millətin və dövlətin hansı dövrdə - dinc dövrdə, yaxud müharibə dövründə yaşamasının, eləcə də bu döyüşün necə adlanmasının fərqi yoxdur. Həm də vacib deyil ki, hər cür mübarizə qan tökülməsi ilə müşayiət edilsin. Axı, məsələn, İslamda dövlətin və millətin inkişafına təminat verən şəraitin yaradılmasına yönəldilmiş müqəddəs mübarizə kimi anlayış mövcuddur. Vacib olan budur ki, bu mübarizə dövlətin və milli mənliyin qorunub saxlanmasına yönəldilmiş olsun. Aşağıda misal gətirəcəyim sözlər hər zaman aktualdır, çünki onlar hər bir millət üçün məqsədyönlülüyün əyani sübutu ola bilər.

Hitler Almaniyasının hücumu nəticəsində Fransanın təslim olmasından az sonra, 1940-cı il iyunun 18-də görkəmli siyasətçi Uinston Çörçill İcmalar palatasında çıxış etmişdi. Parlament üzvlərinin çoxu əmin idi ki, Britaniyanı da eyni aqibət gözləyir. Britaniyanın yaşadığı həmin dövrün bütün mürəkkəbliyinə baxmayaraq, "onun amansız təhlükə və böyük şöhrət çağında" Çörçill Böyük Britaniya xalqını "İngiltərə uğrunda döyüş"də qalib gəlmək üçün özünün bütün qüvvələrini cəmləşdirməyə çağırdı. Uinston Çörçill millətə müraciət edərək demişdir: "Gəlin bütün qüvvələrimizi müqəddəs borcumuzun yerinə yetirilməsi üçün səfərbər edək və özümüzü böyük millətə layiq

aparaq və əgər Britaniya imperiyası və Millətlər Birliyi hətta min il də mövcud olarsa, gələcək nəsillərimiz qürurla deyə bilsinlər: "Bəli, bu onların səadət anı idi".

Bir neçə ildən sonra siyasi fikrin başqa bir nəhəngi – müharibənin və aclığın viran qoyduğu Almaniyanın federal kansleri Konrad Adenauer almanların keçmiş qüdrətini və məğrurluğunu qaytarmağa çalışaraq, müharibələrin köməyi ilə deyil, məhz gərgin əməyin köməyi ilə böyük millət olmağın əzəmətindən və buna çalışmaqdan danışmışdır. Uinston Çörçill Böyük Britaniyanın Baş naziri seçildikdən üç gün sonra İngiltərə parlamentinin aşağı palatası qarşısında və Nazirlər Kabinetində elə bu cür çıxış edərək demişdir: "...Sizə təklif edə biləcəyim ancaq bunlardır - qan, ağır zəhmət, göz yaşları və tər".

XX əsrin bu görkəmli siyasətçilərinin, parlaq natiqlərin və doğrudan da, hərtərəfli təfəkkür sahiblərinin sözlərində böyük həqiqət var. **Tarixin gedişini dəyişdirməyə və milləti, dövləti dirçəltməyə yalnız ağır zəhmət, inkişaf etmiş millətlərin səviyyəsinədək yüksəlmək niyyəti və istedadlı lider qadirdir. Tarix şahiddir ki, həmişə belə olmuşdur. Sübut edilmişdir ki, hər yarım əsrdən bir dünya tarixinin səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadları, bacarıqları və görünməmiş işgüzarlıqları sayəsində onların adları və əməlləri bəşəriyyətin xeyli hissəsinin pərəstiş obyektinə çevrilir. Məhz belə insanlar faydasızı faydalıya, itirilmişi məna kəsb edənə, irrasional olanı rasionala çevirərək, tarixin gedişini dəyişdirmiş və dəyişdirirlər. Tarix dovlətləri və xalqları öz girdabında əridərək, imperiyaları məhv edərək, mustəbidləri taxttacdan salaraq, gələcək nəsillərə ancaq o kəslərin adlarını saxlayır ki, bu adamlar haqqında inamla demək olar: onların "səadət anı" olmuşdur.**

**Bu mənada Azərbaycanın tarixi heç də istisna deyildir. Azərbaycanın ən yeni tarixini elə bir insan yaradır ki, onun səmərələşdirici potensialı dövləti və milləti dirçəltmişdir, gələcəyə itirilmiş inamı qaytarmışdır. Yaxın keçmişə, ölkənin vətəndaş müharibəsi və qiyamçı komandirlərin iğtişaşları həddinə gəlib çatdığı dövrə nəzər salsaq, milli tarixin dövlətin və millətin dilemma - müstəqil dovlətçiliyi və milli identikliyi ya qoruyub saxlamaq, ya da itirmək dilemması qarşısında qaldığı vaxtlardakı dövrün bütün mürəkkəbliyini və dolaşıqlığını başa düşmək olar. Ona görə də ötən illər güclü və sabit dövlətçiliyin qurulmasına sərf edilmişdir. Elə bir dövlət ki, burada, ən başlıcası, fərdin hüquq və azadlıqlarıdır, ardıcıl yeridilən iqtisadi siyasət sabit inkişaf üçün şərait yaradılmasına yönəldilmişdir, siyasət isə səmərəli olub milli həmrəyliyə təminat verir və vətəndaş cəmiyyətini formalaşdırır.**

On il sürən tufanlı və bəzən də çox ağrılı-acılı siyasi və sosial-iqtisadi təbəddülatlardan sonra ölkəmiz sıx birlik, iqtisadi yüksəliş, hüquqi dövlətin və demokratik cəmiyyətin əsaslarının möhkəmləndirilməsi dövrünə qədəm qoydu. Daxili dəyişikliklərin uğurla başa çatdırılması və ölkənin dinamik inkişaf yoluna çıxması üçün real zəmin yarandı. **Aristotelin belə bir kəlamını xatırlamaq yerinə düşərdi: “Dövlət ancaq yaşamaq naminə deyil, əsasən, xoşbəxt yaşamaq üçün yaradılır”, çünki bizim keçmişimiz müxtəlif anarxist qruplaşmaların dövlətdən nə kimi məqsədlərlə ifadə edilməsinə canlı sübutdur.**

Son illər ərzində ölkəmiz totalitar və posttotalitar, ənənəçilik təfəkkürlü və həyat tərzli cəmiyyətdən, obyektiv olaraq posttransformasiyalı era adlandırıla bilən yeni eraya kəskin sıçrayış etmişdir. Kütləvi şüurun istiqamətləri tədricən dəyişir və fərdin

dövlətdə, cəmiyyətdə yeri və rolu yeni tərzdə dərk olunur. Rasional təfəkkür vaxtı gəlib çatmışdır və indi dövlətin hər bir vətəndaşı öz hüquqlarını və vəzifələrini aydın dərk etməyə və digər adamın hüquqlarının başlandığı yerdə öz hüquqlarının məhdudlaşdığını başa düşməyə qadirdir. Fikir, öz iradəsini ifadə etmək, vicdan və söz azadlığı əsla anarxiya azadlığı demək deyildir. Azadlıq mütləq anlayış deyildir. Hər bir azadlığın öz çərçivəsi var və vətəndaşın borcu onun hüquqlarını təmin edən qanunlara əməl etməkdir. Heç bir siyasi qüvvə və ya təşkilat dövlətə qarşı müxalifətdə ola bilməz. Müxalifətçilik anlayışı özünü dövlətə qarşı deyil, hakimiyyətə qarşı qoymağı qəbul edir, dövlətin və cəmiyyətin tərəqqisini və inkişafını məhz həmin konstruksiyanın dərk olunması təmin edə bilər. Təəssüf ki, nəzəriyyə ilə praktika heç də həmişə uyğun gəlmir və Azərbaycanın siyasi qüvvələrinin əksəriyyəti müxalifətçiliyi təkcə hakimiyyətə qarşı deyil, həm də dövlətə qarşı opponentlik etmək kimi başa düşür. Demokratik cəmiyyətdə milli müxalifətin yeri və rolu probleminə bir daha qayıtmaq istəməzdim. Lakin siyasi hikkəli şəxslərin müəyyən bir qrupunun dövlətin və millətin tərəqqisini əsas tutmaq istəməməsi milli siyasi məkanı daha da qeyri-müəyyən edir, müxalifətçi qüvvələrə isə konstruktiv fəaliyyətə hazır olmağa imkan vermir. Milli müxalifətdə siyasi mədəniyyətin olmaması milli siyasi məkanın inkişafını çətinləşdirən amilə çevrilir.

Bütün bunlara baxmayaraq, **ölkənin siyasi mühitinin sabit xarakter alması, onun iqtisadiyyatının nə kimi nəticələr verəcəyinin irəlicədən bilinməsi, sosial-mədəni məkanın isə dayanıqlı olması və kor-koranə qərbləşməyə məruz qalmadan milli ssenari üzrə inkişaf etməsi üçün artıq çox işlər görülmüşdür.**

Təbii ki, istər siyasətə, istərsə də iqtisadiyyata aid olan bu bəndlərdən hər birini dövlətin həyatının ayrıca götürülmüş

sahələri kimi nəzərdən keçirmək olar. Biz isə onlara vahid kontekstdə nəzər salmağa çalışacağıq, çünki güclü iqtisadiyyat möhkəm dövlətçiliyin və sabit siyasi quruluşun rəhnidir.

Son illər ölkənin iqtisadi inkişafının əsas göstəricilərinə - inflyasiyanın səviyyəsinin aşağı salınmasına və əhalinin ödəmə qabiliyyətinin yüksəlməsinə qısa müddətdə nail olmuşuq. İndi inflyasiyanın səviyyəsi 2-2,5 faizdir, əmək haqqı isə daim artır. 2002-ci ildə orta əmək haqqı və pensiyalar 20 faiz artırılmışdır. Ola bilsin, həmin rəqəm özlüyündə çox da böyük deyil, amma həyati əhəmiyyətli bu məsələdə daim irəliləyişin olması və durğunluğun, "Broun hərəkəti"nin (qarmaqarışıqlığın) olmaması Azərbaycanın davamlı sürətlə inkişafını və iqtisadiyyatın modernləşdirilməsini sübut edir. Bu fikri əsaslandırmaq üçün bildirək ki, artıq 2002-ci ildə ÜDM (ümumi daxili məhsul) 10,5 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 6 faiz, sənaye istehsalı 3,5 faiz çoxalmışdır. Təkcə 2002-ci ildə sərmayələrin həcmi 2 milyard dollara çatmışdır ki, bunun da 1 milyard 700 milyon dolları xarici sərmayələrdir. Müqayisə üçün deyim ki, sərmayələrin belə yüksək göstəricisi yalnız 1997-ci və 1998-ci illərdə (müvafiq surətdə - 1,3 milyard və 1,5 milyard ABŞ dolları), əsas neft müqavilələrinin imzalandığı və dünya bazarlarında enerji daşıyıcılarının qiymətlərinin yüksək olduğu dövrdə olmuşdur.

Hazırda milli büdcənin xeyli hissəsini neft sənayesinin gəlirləri təşkil edir. Buna baxmayaraq, sənayenin digər sahələri və kənd təsərrüfatı canlandığına görə, dövlət büdcəsində neft sektorunun payının səviyyəsi tədricən azalır. Xəzər şelfindəki neft yataqlarının işlənilməsinə dair 1994-cü ildən bəri imzalanmış müqavilələr milli iqtisadiyyatın müxtəlif sahələrinə böyük məbləğdə sərmayə qoyulmasını təmin edir.

2002-ci ilin sentyabrında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanması imzalanmış müqavilələrin nəticəsidir. Azərbaycan nefti, gələcəkdə isə Qazaxıstan nefti bu boru kəməri vasitəsilə dünya bazarlarına göndəriləcəkdir. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi perspektivləri də ölkə iqtisadiyyatının inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. O, Azərbaycan qazının və ola bilsin, Türkmənistan qazının da Türkiyə və dünya bazarlarına göndərilməsi imkanını artıracaqdır.

Neft sənayesi sahəsində aparılan məqsədyönlü siyasət sayəsində Azərbaycanın neft ixracından mənfəəti 2006-cı ildə 1,5 milyard, 2007-ci ildə 2,2 milyard, 2008-ci ildə 3,4 milyard, 2011-ci ildə 5,8 milyard ABŞ dolları təşkil edəcəkdir. Bu göstəricilər respublika vətəndaşlarının rifahının yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi məqsədi ilə həyata keçirilən iqtisadi proqramın səmərəliliyinə parlaq misaldır. İqtisadiyyat sahəsində planauyğun siyasət nəticəsində ölkənin büdcəsi 1994-cü ildəkinə nisbətən 17 dəfə artmış və 2003-cü ildə 1 milyard 200 milyon dollar təşkil etmişdir.

Son illər ərzində iqtisadiyyatın güclənməsi Azərbaycanın siyasi inkişafını sabitləşdirməyə imkan vermişdir. Eyni zamanda, ölkədə vəziyyətin sabitləşməsi onun dünya birliyində vəziyyətinə müsbət təsir göstərməyə bilməzdi. Azərbaycan XXI əsrə öz milli mənafelərini və dünya meydanında rolunu aydın dərk edərək, özünün yaxın və uzunmüddətli xarici siyasi vəzifələrini dəqiq görərək qədəm qoymuşdur. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənmiş, dünyada onun dostlarının və həmfikirlərinin dairəsi genişlənmişdir. Beynəlxalq işlərdə məsuliyyətli, müstəqil və müəmmasız xətt yeridən etibarlı tərəfdaş kimi Azərbaycan dövlətinin nüfuzu yüksəlmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci ilin sentyabr hadisələrinə dərhal reaksiya verərək, beynəlxalq antiterror koalisiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarının planlarına kömək etməyə hazır olduğu barədə bəyanatı Qərbdə yüksək qiymətləndirilmiş və bu, ölkəmizin beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxarmışdır. Bütünlükdə 2002-ci il bir neçə amillə şərtləndirilən yüksək xarici siyasi fəallıq əlaməti altında keçmişdir. Əvvəla, bu fəallıq öz təcəssümünü beynəlxalq antiterror koalisiyası çərçivəsində birgə tədbirlərdə tapmışdır. Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşünə də bu kontekstdən yanaşmaq lazımdır. İkincisi, bu, ABŞ ilə qarşılıqlı strateji münasibətlərin yeni mərhələsinin başlanğıcıdır və o, “Azadlığa Dəstək Aktı”na ədalətsiz, ayrı-seçkilik xarakteri daşıyan 907-ci düzəlişin qüvvəsinin dayandırılması sayəsində mümkün olmuşdur. İndi ABŞ ilə müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə də tərəfdaşlıq həyata keçirilir ki, bu da daha təhlükəsiz və sabit dünya nizamı yaradılmasına yönəldilmişdir.

Bundan əlavə, 2002-ci il Rusiya ilə qarşılıqlı münasibətlərin möhkəmlənməsi əlaməti altında keçmişdir. Bu münasibətlərin əsası hələ 2001-ci ildə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bakıya rəsmi səfəri zamanı qoyulmuşdur. 2002-ci ildə isə Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizaminin abidəsinin açılması və Heydər Əliyevin Rusiyaya dövlət səfəri möhkəmlənən münasibətlərin daha bir təcəssümü olmuşdur. Rusiya ilə qarşılıqlı münasibətlərin Azərbaycan üçün öncül əhəmiyyəti var. Bu, həm xalqlarımızı birləşdirən tarixi və mənəvi tellərlə, həm də daim inkişaf edən və təkmilləşən strateji tərəfdaşlığın artan səviyyəsi ilə müəyyənləşmişdir.

Otən il Azərbaycanın beynəlxalq strukturlarda fəaliyyəti baxımından da çox səmərəli olmuşdur. Təhlükəsizlik Şurasından sonra BMT strukturunda əhəmiyyətinə görə ikinci olan İqtisadi və Sosial Şurada - EKOSOS-da Azərbaycan Şərqi Avropanı təmsil edir. Azərbaycan nümayəndə heyəti Avropa Şurasında son dərəcə fəal işləyir və bu işin bəhrələri göz qabağındadır.

**İlham Əliyevin Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçilməsi ölkəmizdə insan hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində olan irəliləyişin, tərəqqinin, Azərbaycanda demokratik dəyərlərin bərqərar olmasının və vətəndaş cəmiyyətinin əsaslarının qurulmasının bariz təzahürüdür.**

Son on ildə Azərbaycan bu sahələr üzrə diqqətə çarpacaq tərəqqiyə nail olmuşdur. İlham Əliyevin bu yüksək vəzifəyə seçilməsi Azərbaycanın xarici siyasətində, onun Avropa məkanında mövqelərinin möhkəmlənməsinə daha bir parlaq sübutdur.

Bu hadisə, eyni zamanda, əsası hələ 30 il öncə qoyulmuş siyasətin məntiqi davamıdır. Çünki məhz 30 il öncə Azərbaycanın bu gününü öncədən görən, onun müstəqil və güclü dövlət olması arzusu ilə yaşayan Heydər Əliyev azərbaycanlı tələbələri Moskvaya, Kiyevə və Sovet İttifaqının digər şəhərlərinə təhsil almağa göndərirdi. İlham Əliyev bu şəxslər arasında idi. Məhz o zaman bugünkü müstəqil dövlətin yeni siyasətçilər və yeni ruhlu diplomatlar, ölkəni qloballaşan dünya nizamı çərşivəsində beynəlxalq miqyasda tanıdacaq şəxslər "kastası" formalaşırdı. Şübhə yoxdur ki, məhz bu yeni nəsil ölkəmizi XXI əsrdə inkişafa, tərəqqiyə doğru aparacaq, dövlətçiliyi möhkəmləndirəcək və Azərbaycanın siyasi və iqtisadi mövqelərini regional və beynəlxalq miqyasda daim qoruyacaq, gücləndirəcəkdir.

Qloballaşmaqda olan yeni dünya yeni siyasət tələb edir. Bu siyasət dövlətlərin daxili siyasətindən və onun xarici siyasətə təsirindən formalaşır. Daxili siyasətin sabit olması ölkəni qlobal proseslərə daha tez qoşur və onu qloballaşmanın müsbət təsiri altına salır. Bu isə, öz növbəsində, ölkənin siyasi və iqtisadi inkişafını təmin edir. Azərbaycanda formalaşan yeni siyasətçilər nəsli ölkənin müasir prioritetlərini dərk edir və dövlətin yüksələn xətt üzrə inkişafı və tərəqqisi naminə daim çalışır.

Lakin təəssüflər olsun ki, destruktiv siyasi qruplaşmalar və onların başında duran şəxslər Azərbaycanın Avropa məkanındakı nailiyyətləri və qələbələrinə öz cılız təfəkkürləri çərçivəsindən yanaşırlar. Milli maraqların əhəmiyyətini dərk etməyən bu şəxslər ölkənin xarici siyəsətində qazanılmış nailiyyətlərə qısqanırlar. Əslində, bu, çox təəccüblü haldır. Adətən, sivil dövlətlərdə müxalifət daxili siyasətin həyata keçirilməsində iqtidarla mübarizə aparsa da, xarici siyasət məsələlərində əksər hallarda hakimiyyətə dəstək verir. Çünki burada milli maraqlar mövcuddur. Heç bir həqiqi vətəndaş öz ölkəsinin xarici siyasət sahəsindəki nailiyyətinə qarşı çıxış etməz! Qəribə görünsə də, destruktiv, ifrat müxalifət Azərbaycanın xarici siyasətində də iqtidar ilə mübarizə üçün müxtəlif amillər axtarır. Bu müxalifət uğurlara sevinməyə, qürur hissi keçirməyə öyrəşməyibdir. Daim şəxsi maraqlara üstünlük verərək, dövlətin nailiyyətlərini heçə endirməyə cəhd edibdir. Xatırlatdığımız faktlar müxalifətin konstruktiv dialoqa və dövlətin inkişafı məsələlərinə məsuliyyətli yanaşmaya hazır olmadığını bir daha göstərir.

2002-ci ildə Azərbaycan NATO Parlament Assambleyasına assosiativ üzv qəbul edilmişdir. Azərbaycan GUÖAM çərçivəsində Gürcüstan və Ukrayna ilə, Moldova və Özbəkistanla

strateji tərəfdaşlığı daha da genişləndirmişdir. Dünya inkişafının müasir meyilləri fonunda bu proseslərin əhəmiyyəti xüsusilə böyükdür. İnsan fəaliyyətinin bütün sahələrinin qloballaşması keyfiyyətcə yeni mərhələyə keçir. Onun coğrafi və geosiyasi dairəsi genişlənir, müasir sivilizasiyaya təsirinin səviyyəsi artır. Beynəlxalq münasibətlərin, maliyyənin, ticarətin, elmin, informasiya sahəsinin qloballaşması hər bir dövlətin mənafelərini əhatə edir və müasir dünya siyasətinin xarakterini müəyyənləşdirən əsas amilə çevrilir. Bu proseslər ölçülüb-biçilmiş və ətraflı düşünülmüş siyasət - əvvəla, dövlətlərin dünya birliyinə inteqratoru, ikincisi isə, milli məkanın birtərəfli qaydada qərbləşdirilməsi proseslərinin tənzimləyicisi rolunu oynayacaq siyasət yeridilməsini tələb edir.

Qloballaşma proseslərinin tədricən təsiri və dövlətin dinamik iqtisadi modernləşdirilməsi bu modernləşmənin siyasi cəhətdən təzələnməsini, yəni cəmiyyətdə liberal-demokratik dəyərlərin üstünlük təşkil etməsini şərtləndirir ki, bu da öz növbəsində Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına müsbət təsir gostərir.

Dünyada qloballaşma bütün proseslərin əsas inteqratorudur. İnformasiyalı cəmiyyətin və informasiya-kommunikasiya texnologiyalarının (İKT) rolu daim artır. Kapitalın sürətlə yerdəyişməsi və informasiyadan istifadə imkanı öncül əhəmiyyətə malik dəyərdir. Azərbaycan bu proseslərdən kənarda qalmır. Dünya birliyinin bir hissəsi kimi, son illər ərzində istər cəmiyyətin, istərsə də ayrılıqda hər bir fərdin həyatında İKT-nin tətbiqinin genişlənməsi sahəsində ölkəmizin əldə etdiyi nailiyyətlər göz qabağındadır. Məhz bu nailiyyətlərin nəticəsidir ki, 2002-ci ilin noyabrında ölkəmiz BMT-nin Avropa İqtisadi

Komissiyasının üzvü olan dövlətlərin Buxarest Bəyannaməsinə qoşulmuşdur. Azərbaycanın informasiyalı cəmiyyətə çevrilməsi sahəsində ardıcıl surətdə atılan addımlar qloballaşma dövründə dövlətin sabit inkişafına təminat verir.

Dövlət hakimiyyəti orqanlarında islahatların ardıcıl surətdə aparılması, qərarların qəbulu mexanizminin təkmilləşdirilməsi, siyasi yönümü və meylindən asılı olmayaraq, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şəraitin yaxşılaşması, habelə cəmiyyətin həyatında üçüncü sektorun (qeyri-hökumət təşkilatları) rolunun güclənməsi ölkədə vətəndaş cəmiyyətinin tədricən formalaşmasına əyani sübutdur. Bütün bunlar son bir neçə ildə ölkədə həyata keçirilən işlərin yalnız kiçik bir siyahısıdır. Ümumiyyətlə, fərdin hüquq və azadlıqlarının prioritet olduğu, dövlətin bu hüquq və azadlıqlara hörmət göstərməyi, onların həyata keçirilməsi üçün şərait yaratmağı öhdəsinə götürdüyü vətəndaş cəmiyyəti qurmaq prosesi sürəkli, uzunmüddətli, həm də dönməz prosesdir. Azərbaycanda vətəndaş cəmiyyəti artıq utopiya deyil, tamamilə hissedilən gerçəklikdir.

Posttransformasiya dövrünün yeni cəmiyyətinin - dövlətin əsasını vətəndaşın azad siyasi və iqtisadi təşəbbüsünün təşkil etdiyi cəmiyyətin və formalaşmaqda olan ictimai şüurun ilkin şərtlərinin bünövrəsi müstəqil Azərbaycan qurmaq layihəsini həyata keçirmiş olan istedadlı və görkəmli siyasətçi, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Mənim fikirlərim bəlkə də qeyri-adidir, lakin Heydər Əliyev haqqında yazmaq olduqca çətindir. Bunun səbəbi ondadır ki, hər hansı bir nailiyyəti və ya problemi əhatə edən bu və ya digər tarixi zaman kəsiyinin təsvirinə cəsarət edib girişən müəllif Heydər Əliyevin işlədiyi fəallıqla, sadəcə olaraq, ayaqlaşa

bilmir. Çünki bir nailiyyət ardıcıl surətdə digəri ilə əvəzlənir, bir iş o birisini üstələyir, bu da tədqiqatçını, tarixçini, filosofu çox vaxt çaşdırır. Bəzən hər hansı bir işdən yazmağa çalışanda görürsən ki, artıq olduqca çox başqa işlər həyata keçirilmiş, yeni nailiyyətlər əldə edilmişdir. Bir nailiyyəti təsvir etməyə macal tapmamış, gözlənilmədən yeni bir faktla - bu görkəmli siyasətçinin artıq gerçəkləşmiş olan yeni tarixi nailiyyətlərinə dair faktla üzləşirsən. **Son dərəcə istedadlı bu insanın və qüdrətli siyasətçinin təxminən 30 il ərzində silahdaşı olan, onunla çiyin-çiyinə işləyən bir adam kimi qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. O, dünyamiqyaslı tarixi sima və şəxsiyyətdir.**

1993-cü ilin ortalarında Heydər Əliyevin Bakıya qayıtması və milli dövlətçilik yaradılmasına yönəldilmiş islahatçılıq tədbirlərinə başlanması gənc nəsil üçün milli tarixdir. Gələcək nəsillər bu barədə tarixə dair oçerklərdən və kitablardan məlumat alacaq, oxuyacaq və öyrənəcəklər. Lakin bu tarixin bir çox şahidləri ölkənin Ermənistanla qanlı müharibə şəraitində olduğu, məmləkəti vətəndaş müharibəsinə cəlb etmiş müxtəlif qruplaşmaların daxili qarşıdurmasının yaxınlaşdığı, iqtisadiyyatın sovet dövründəki durğunluq səviyyəsindən başdan-başa viranəlik vəziyyətinə düşdüyü günləri yaxşı xatırlayırlar. Ölkədə, xüsusən də paytaxtda qətiyyən idarə olunmayan qeyri-formal silahlı qruplaşmalar azğınlıq edirdilər. “Parçala və hökm sür” prinsipi Azərbaycanın hakim dairələrinin əsas tezisinə çevrilmişdi. Adlarını “demokrat” qoyanlar xalq və gələcək nəsillər qarşısında heç bir məsuliyyət hiss etmədən, açıq-aşkar ölkəni parçalanmağa, dağılmağa, viranəliyə doğru sürükləyirdilər!

O vaxtdan ötən 10 ildən sonra milli siyasətdən danışarkən biz hər yerdə, bütün bölgələrdə sabit inkişafı nəzərdə tuturuq. İndi

biz əsası Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideyasından danışırıq. Lakin çoxlarının yadındadır ki, hələ 10 il öncə “demokratlar”ın yeritdikləri milli siyasətin səhvləri və uğursuzluqları, onların qəbul etdikləri qərar və qanunlar, etnomillətçiliyə can atmaları Azərbaycanın bölgələri arasında qarşılıqlı münasibətlərin mürəkkəbləşməsinə zəmin yaratmış və nəticə etibarilə buna gətirib çıxarmışdı.

Bütün bunlar Azərbaycan xalqının qarşılaşdığı və 1993-cü il iyunun 15-dən sonra Heydər Əliyevin həll etməli olduğu istər daxili, istərsə də xarici siyasət problemlərinin ancaq kiçik bir siyahısıdır. Ona görə də 10 il əvvəlki hadisələrin iştirakçısı, şahidi və müşahidəçisi olmuş adam kimi mən bir il ərzində hakimiyyətin sükanı arxasında durmuş və saysız-hesabsız siyasi səhvlər buraxmış və özlərinin iqtidarsızlığını, fərsizliyini göstərmiş indiki müxalifət “liderləri”nin hədsiz siyasi hikkələrini başa düşməkdə çətinlik çəkirəm. Azərbaycanın vətəndaşları kimi, mənə də bunu dərk etmək çətindir ki, bu adamlar niyə yenidən hakimiyyətə gəlməyə can atırlar?! Əsla başa düşmək olmur ki, onlar 1990-cı ilin yanvarına və bir çox fəlakətlərə görə indiki və gələcək nəsillər qarşısında vicdan əzabı çəkmədən ölkəni necə idarə edə bilərlər! Bu adamları “demokratiyanın təminatçıları” hesab edərək, onların siyasi gələcəyi sarıdan tez-tez canıyananlıq edənləri də anlamaq olmur. Qərbin hər hansı bir dövlətində ölkəni və xalqı müsibətlərə düçar etmiş hökumət və ya siyasətçi siyasət səhnəsindən gedir və bir daha qayıtmır! Amma Azərbaycanda indi pozucu müxalifətin liderləri ilə təmsil olunan əvvəlki rejimin yuxarı dairələri, təəssüf ki, siyasi praktikanı qəbul etmirlər.

**Heydər Əliyevin və onun komandasının böyük səyləri nəticəsində bu gün Azərbaycanda ümumi siyasi, iqtisadi və**

**sosial inkişafı təmin edən sabitlik yaranıbdır. Buna görə gələcək inkişafı yalnız və yalnız siyasi xəttin varisliyi təmin edə bilər. Siyasi xəttin varisliyi isə bu gün düzgün anlanmalı və başa düşülməlidir. Çünki siyasi xətt varisliyi hakimiyyət varisliyi kimi yox, aparılan siyasi və iqtisadi islahatlara varislik kimi qiymətləndirilməlidir! Bu, həm milli birliyin, vətəndaş konsensusunun yaradılmasına, həm də ölkənin inkişafına xidmət edən amildir. Təcrübə isə göstərir ki, milli birliyin möhkəmlənməsini bundan sonra da ancaq indiki iqtidar təmin edə bilər. Destruktiv müxalifət qüvvələrinin hakimiyyətə gəlməsi milli birliyə güclü zərbə vurar. 1990-cı illərin əvvəlindəki səhvlərin həyata keçirilməsinə yol vermək olmaz! Gələcək nəsillərə sivil, demokratik və qüdrətli Azərbaycan lazımdır!**

Ona görə də 10 ildə özünü doğrultmuş siyasi xətt bundan sonra da davam etməlidir. Siyasi xəttin davamı o deməkdir ki, qarşıdan gələn beş ildə ölkədə heç bir fəlakət baş verməyəcək, qisasçılıq, radikal kadr dəyişiklikləri və s. olmayacaqdır. Ölkə sivil qaydada inkişaf edəcək, siyasi plüralizm, iqtisadi modernləşmə və sosial inkişaf təmin olunacaqdır. Halbuki, müxalifət hakimiyyətə gəlmək ambisiyasını reallaşdırsa, qarşıdurmaya təkan verəcək və nəticədə Azərbaycanda idarəolunmaz hadisələr baş verəcəkdir. Çünki ölkə rəhbərliyinin və onun siyasi xəttinin dəyişilməsi millətlərarası və konfessiyalararası münasibətlərin kəskinləşməsinə səbəb olar, qarşıdurmanın, separatçılığın və mərkəzdənqaçma meyillərinin əmələ gəlməsinə və güclənməsinə gətirər. Halbuki, bu gün ölkə əhalisinin əksər hissəsi öz statusuna milli mənsubiyyətə görə yox, vətəndaşlıq nöqteyi-nəzərindən yanaşır. Bütün etnik qrupları ümumvətən, azərbaycançılıq

duyumu, hissi birləşdirir. Hamı özünü azərbaycanlı hesab edir. Bu proses milli birliyin tərkib hissəsi olaraq, bugünkü iqtidarın səyi nəticəsində gələcəkdə daha da güclənəcək və vahid azərbaycançılıq ideyası daim siyasi xəttin əsas qayəsi olaraq qalacaqdır.

Azərbaycanda aparılan siyasi, iqtisadi, sosial, məhkəmə və s. islahatlar onu deməyə əsas verir ki, qarşıdan gələn illərdə də demokratik proseslər inkişaf edəcək və onun səviyyəsi Avropa standartlarına daha da uyğunlaşacaqdır. Destruktiv müxalifətdən bunu gözləməyə dəyməz, çünki onun fəaliyyəti avtoritar prinsiplər üzərində qurulubdur.

10 illik ağır və gərgin işdən sonra biz inamla bəyan edə bilərik ki, Azərbaycan tədricən öz inkişafının yeni dövrünə qədəm qoyur. Transformasiya tədricən posttransformasiya dövrü ilə əvəz olunur ki, bu da dövlətin və cəmiyyətin inkişafının sabitləşdiyinə sübutdur. Yeni dövrün əsas aspektləri heç də təkcə müstəqilliyi qoruyub saxlamaqdan və möhkəmlətməkdən, milli həmrəyliyə nail olmaqdan və vətəndaş cəmiyyətinin əsaslarını yaratmaqdan ibarət deyildir. **Azərbaycanın ən yeni tarixinin yeni dövrü ölkənin informasiyalı cəmiyyətə doğru ardıcıl surətdə irəliləməsi dövrüdür.**

**On il əvvəl təsəvvürə gətirmək çətin və bəlkə də kimlər üçünsə həm də ağlasığmaz idi ki, biz iqtisadiyyatın istiqamətini dəyişdirib lazımi məcraya yönəltməyə, ölkəni qarmaqarışıqlıqdan və dağıntılardan çıxarmağa, durğunluğu aradan qaldırmağa, ictimai inkişaf üçün əlverişli şərait yaratmağa, Azərbaycanın regional səviyyədə və dünya səviyyəsində siyasi və iqtisadi mövqelərini gücləndirməyə belə tezliklə müvəffəq olacağıq. Lakin Heydər Əliyev Bakıya qayıdarkən qarşıya məhz bu məqsədləri qoymuşdu, son on il ərzində məhz bu**

**məqsədləri gerçəkləşdirir, gələcək nəsillər üçün güclü və müstəqil Azərbaycan yaratmaq onun həyat amalıdır.**

Bugünkü Azərbaycan Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. Bu gün Azərbaycan xalqının Heydər Əliyevə 1993-cü ildəkindən daha çox ehtiyacı var. Çünki qarşıda keyfiyyətcə yeni vəzifələrin həlli durur. Ölkə daim inkişafdadır və vətəndaşlarımız gələcəkdə yeni islahatları, yeni nailiyyətləri və yeni tarixi qələbələri gözləyirlər. Bu proses inqilabi səciyyə daşımır və gələcəkdə də daşımamalıdır. Çünki hər bir proses rasional tərəqqi yolu ilə inkişaf etməlidir. Dövlət quruculuğu, ələlxüsus, son on il ərzində yaşadığımız tarix bu aksiomu bir daha sübut etdi. Məhz Heydər Əliyev zəkası və müdrikliyi tarixi varisliyi qoruyub saxlaya bildi, ölkəni yeni demokratik inkişafa doğru apardı və Azərbaycanı sivil ölkələr siyahısına yazdırdı.

Demokratiyanın dərinləşməsinin fəal təkanvericisi və təşkilatçısı olmasına baxmayaraq, ölkə əhalisinin əksəriyyəti Heydər Əliyevi müdrikliyinə, dərin zəkasına, güclü idarəçilik keyfiyyətlərinə, dəmir iradəsinə və mənfi, pozucu hallara qarşı ardıcıl, güzəştsiz mübarizəsinə görə sevir. Həqiqət isə ondan ibarətdir ki, **güclü Azərbaycan dövləti qurmaq üçün bu günümüz və sabahımız naminə bizə iradəcə güclü, böyük siyasi və idarəçilik bacarığına və təcrübəsinə malik, vətənini sevən Prezident gərəkdir.**

Sağlam düşüncəli və praqmatik siyasətçi olaraq, Heydər Əliyev mürəkkəb dövlət problemlərində öz zəngin siyasi təcrübəsindən həmişə bacarıqla istifadə edir. Onun təbiətinin

çoxcəhətliliyi zamanın sınağından çıxmış müdrikliyə, uzaqgörənliyə və yenilməz iradəyə dəqiq şəkildə tabe olur. Vaxtilə Hegel görkəmli adamlar barədə belə yazmışdı: "Onlara elə ümumi məqamlar baxımından yanaşmaq lazımdır ki, bunlar fərdlərin maraqlarını və beləliklə də, ehtiraslarını təşkil edir. **Onlar məhz ona görə dahi adamlardır ki, böyük işlər, özü də xəyali və uydurma işlər deyil, məhz ədalətli və gərəkli işlər arzulamış və həyata keçirmişlər"** *("Mir filosofii". M.1991, c. 2, səh. 242)*. **Bu sözlər dahi və qadir siyasətçinin ədalətli və gərəkli bir işi - müstəqil, sabit və güclü Azərbaycan yaratmaq işini həyata keçirmək niyyətini gözəl təcəssüm etdirir.**

Cəmiyyətimiz sürətlə qlobal dünyanın bir hissəsinə çevrilir. Bu, sovet dövrünün totalitarizmindən inkişafın demokratik, açıq modelinə keçidin qanunauyğun nəticəsidir. Vətəndaşın hüquq və azadlıqlarının dərəcəsi və səviyyəsi dinamik şəkildə yüksəlir, çünki insan hüquqları sahəsində fəaliyyət iqtisadi, siyasi və digər islahatları demokratikləşdirmək prosesinin, ictimai inkişafın keyfiyyətcə daha yüksək pilləsinə doğru irəliləyişin mühüm tərkib hissəsidir. Şəxsiyyətin hüquq və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində, sosial və hüquq təsisatlarını demokratikləşdirmək proseslərinin dərinləşdirilməsində, cəmiyyətdə özünüidarənin və özünütənzimləmənin genişləndirilməsində, cəmiyyətin əxlaqi-mənəvi mühitinin təzələnməsində, siyasi mədəniyyətin və hüquq mədəniyyətinin yüksəldilməsində yeni prinsiplərin bərqərar olmasının geniş perspektivləri nəzərə alınmaqla inkişaf edir. Tədricən hakimiyyətin və dövlət idarəçiliyinin varisliyi prioriteti yaranır. Qərb demokratiyası ölkələrinin təcrübəsi sübut edir ki, dövlətçiliyin yeni demokratiya dövlətləri üçün ən məqbul və səmərəli forması haki-

miyyətin və dövlət idarəçiliyinin varisliyindədir. **Azərbaycanın tərəqqisini və inkişafını yalnız səmərəli dövlətçilik quruluşunun müasir xəttinə varislik təmin edə bilər.**

Fikrimizi tamamlayarkən, Çin incəsənətində mövcud olan gözəl bir obraz yada düşür. Çoxsaylı, gözəl, müdrik və ənənəvi Çin obrazları arasında belə bir obraz da var: şam ağacı ilə bambuk yan-yana bitir. Onlar müxtəlif, bir-birinə bənzəməyən bitkilərdir, buna baxmayaraq, kökləri sarmaşaraq bir-birinə dayaq olur və harmonik canlı sistem yaradır. Zənnimcə, bu, milli ənənəni və posttransformasiya dövrünün mühitimizə gətirdiyi yeni epoxanı təcəssüm etdirən gözəl obrazdır. Əvvəlki və müasir nailiyyətlər və doğulmaqda olan yeni ideyalar bir-birini dəstəkləyərək və tamamlayaraq, industrial eradan postindustrial eraya keçməyi təmin etməyə qadir olan nəsillərin dəyişməsinin və varisliyin rəmzinə çevrilir. Lakin bu keçid nə qədər çətin olsa da, onun əsasları və ilkin şərtləri artıq yaradılmışdır və hətta sabah "ülvi məqsədin doğum əzabları" (U.Çörçill) ağır və çətin dəfedilən olsa da, qarşıya qoyulmuş məqsədə çatmağa inam həmişə olacaqdır, çünki getdiyimiz yol ən düzgün və doğru yoldur!

*"Azərbaycan" qəzeti,*
*18-20 fevral 2003-cü il.*

***"Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".***

**Heydər ƏLİYEV**

## ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER HAQQINDA BƏZİ DÜŞÜNCƏLƏR

Bu günlərdə mən "Azərbaycan – İRS" jurnalının növbəti nömrəsi ilə tanış oldum. O, bütünlüklə Azərbaycan Prezidenti Heydər Əliyevə həsr edilmiş xüsusi buraxılışdır. Ona heyran qaldığımı gizlətməyəcəyəm: jurnal həqiqətən də çox gözəl tərtib olunub, Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən nadir fotoşəkillər verilmişdir. Buradakı məqalələr də belə yüksək səviyyədədir. Zəngin faktik material və gözəl ifadə tərzi bir-birini son dərəcə ahəngdar şəkildə tamamlayır. "Həyat dərsi" məqaləsi diqqətimi xüsusilə cəlb etdi. Jurnalın bu nömrəsi də elə həmin məqalə ilə açılır.

Həcmcə çox da böyük olmayan bu məqalədə bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsi dolğun və dəqiq ifadələrlə canlandırılır. Müəllif Mehriban Əliyeva yazır ki, onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq

nümunədir, İnsanın məğlubedilməzliyinə inam dərsidir. Müəllif yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər: Heydər Əliyev. Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətənin – Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı".

Məqalənin müəllifi ilə razılaşaq: Heydər Əliyevin Azərbaycan üçün varlığı "talenin Tanrı payıdır".

Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Onun qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jurnalistlərin diqqətini ona cəlb edir. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük. Bir çox jurnalistlər onu hakimiyyət Ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər

bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət magiyası ona artıq otuz ildən çoxdur ki, sadəcə, hakimiyyətin zirvəsində qalmağa deyil, həm də milyonlarla insanın sevimlisi, idealı kimi qalmağa imkan vermişdir.

Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür - onun şəxsiyyət kimi və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı və təşəkkül tapdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Onun dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsviri kimi çox geniş yayılmış yanaşma da haqlı ola bilər. Bütün bu yazılarda onun gördüyü işlərin çox böyük əhəmiyyətini hiss edirik. Bir çox müəlliflər qeyd edirlər ki, onun gördüyü bütün işlər və söylədiyi sözlər heyrət doğurur, eləcə də bu şəxsiyyəti başa düşməyə çalışan hər bir kəs onun yaratdıqlarına ürəkdən valeh olmaq üçün səbəb axtarıb tapır.

Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin acısını dadır, məhvedici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir. Bu deyilənlər sanki Azərbaycanın ən yeni tarixinin səhifələrindən köçürülmüşdür.

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərc-mərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülür, bir sıra

bölgələrdə separatçılıq əhval-ruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətl-qarətlər törədilir, ziyalılar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparılırdı, Xalq Cəbhəsi hökumətinin və ayrı-ayrı şəxslərin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizam-intizam və tabeçilik yox idi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri bir-birinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər və sair. Adama elə gəlirdi ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığını və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yolu yoxdur.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölkəni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda, böyük həqiqəti rəhbər tuturdu: nə qədər ki, insanlar özlərinin həyatı və yaşamaq hüququ uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olunmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz.

Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində

Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan qanlı münaqişəsi məhz Heydər Əliyevin dövründə beynəlxalq hüquq prinsipləri əsasında həlli üçün sülh danışıqları mərhələsinə keçdi. Məhz onun dövründə ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu. Məhz onun dövründə Azərbaycan özünün coğrafi-siyasi vəziyyətinin nadir imkanlarından istifadə edə bildi. Bu yol nə qədər enişli-yoxuşlu olsa da, Azərbaycan xalqı öz gələcək inkişafının üfüqlərini məhz Heydər Əliyevin həyata keçirdiyi sistemli fundamental dəyişikliklər çərçivəsində görür.

Şübhəsiz ki, Heydər Əliyev öz xalqının psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub-yaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək, sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirməyə çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə lider lazımdır.

Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat

və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdədir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir".

Yeni minilliyin astanasında biz dönüb hadisələrlə zəngin olan yaşadığımız əsrə nəzər salır, bu hadisələrdən bir çoxunun həqiqi əhəmiyyətini dərk edir və ictimai inkişafın hərəkətverici qüvvəsinə çevrilə bilmiş siyasi xadimlərin tarixə verdikləri töhfəni sanki yenidən qiymətləndiririk. Müasir dövrün görkəmli siyasətçilərindən biri kimi Heydər Əliyev, şübhəsiz ki, həmin tarixi simalar sırasında xüsusilə seçilir.

Öz tənqidçilərindən və siyasi opponentlərindən fərqli olaraq, Heydər Əliyev ölkənin bir çox problemlərinin – siyasətin, iqtisadiyyatın və ictimai həyatın məğzini və mahiyyətini müəyyənləşdirən problemlərin həllinin açarını tapmışdır. Yalnız həmin problemlərin həllindən sonra Azərbaycan üçün gələcək inkişafın perspektivləri açılmış və bu perspektivlər bizdən ötrü nikbinlik və daha yaxşı gələcək üçün ümidlər mənbəyi olmuşdur. Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb ümummilli problemlərin həlli yollarına işıq salır. Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiy-

yətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyanı təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir.

Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə - ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı dövrlərdə ölkəyə rəhbərlik etməyə başlamışdır. 1993-cü ilin iyununda Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək həddinə çatmışdı. Zaman və hadisələr, həyatın özü tələb edirdi ki, kimsə öz xalqına inamı qoruya, ölkəni viranedici fəlakətlərdən xilas edə bilsin. O, ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi və bununla da Azərbaycan tarixində öz misilsiz yerini bəri başdan müəyyənləşdirdi. Həmin taleyüklü günlərdə onun tükənməz enerjisi, nikbinliyi və milli amallara sadiqliyi – bütün bu şəxsi keyfiyyətləri, əslində, milli dirçəliş konsepsiyasının həyata keçirilməsi üçün tam səfərbər olunmuşdu.

Ankaradakı Bilkənd Universitetinin banisi, dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: "Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".

Heydər Əliyevin dövründə Azərbaycanı onun hüdudlarından çox-çox uzaqlarda tanıdılar. Mübaliğəsiz deyə bilərik ki, o, ölkəni siyasi təcriddən çıxararaq, xarici siyasətdə çox böyük irəliləyiş yaratdı. Azərbaycanın səsi mötəbər beynəlxalq təşkilatların və dövlət başçıları sammitlərinin tribunalarından getdikcə daha tez-tez və gur eşidilməyə başladı, Azərbaycan beynəlxalq strukturlara üzv qəbul edildi.

Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi. Şəkkakların əksinə olaraq, o, bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, insanların maddi vəziyyətini yaxşılaşdıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər.

Heydər Əliyev Azərbaycana elə xidmət edir ki, bizlərdən hər biri də ölkəmizə onun kimi – öz ağıl-zəkasının tam gücü ilə, xalqın milli tarixinə və mənəvi dəyərlərinə qayğıkeş münasibətlə, Azərbaycanın milli sərvətlərini artırmaq və hər bir vətəndaşa layiqli yaşayış təmin etmək istəyi və əzmi ilə xidmət etməlidir. O, ümumxalq məhəbbəti və hörmətini ancaq belə qazana bilmişdir. Onun bütün həyatı milli tarixin salnaməsinə düşməyə layiq olan seçmə nümunədir.

O, sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir, öz zəmanəsinin ən yaxşı natiqlərindən biri kimi tanınmışdır, öz xalqının xarakterini dərindən öyrənmişdir, bilir ki, ümummilli vəzifələrin həyata keçirilməsi üçün onun çox

böyük qüvvəsini necə səfərbərliyə almaq lazımdır. Belə demək ədalətli olardı ki, o, bir çox həmvətənlərindən, eləcə də cilov bilməyən hikkələri ilə hakimiyyət iddiasında olanlardan həmişə daha bəsirətli, uzaqgörən olmuşdur. O, Dağlıq Qarabağ üstündə gedən Ermənistan-Azərbaycan müharibəsinin Azərbaycan üçün perspektivsizliyini lap əvvəldən başa düşmüşdü: ölkə müharibəyə hazır deyildi, təpədən-dırnağadək silahlanmış və əvvəlcə sovet, sonra da Rusiya qoşunlarından kömək alan erməni birləşmələrinin hücumlarına tab gətirə bilmirdi. O, Azərbaycana zor gücünə qəbul etdirilmiş münaqişənin dinckliklə həllinin labüdlüyünü hamıdan əvvəl başa düşərək dərk etmişdi ki, Cənubi Qafqaz regionunda sülhə və sabitliyə tərəfdar olan dünyanın aparıcı ölkələri problemin hərbi yolla həllinin əleyhinədirlər. Öz ərazi bütövlüyünün bərpası baxımından bu müharibə Azərbaycan üçün ədalətli sayılardı, lakin hər bir müharibə kimi, o da inkişafa doğru yolda dəfedilməz maneə olardı. Heydər Əliyev son dərəcə mürəkkəb və çətin bir şəraitdə ölkəyə sosial sülh verə bildi, əvvəlki nəsillərin nail olduqları yaxşı nə varsa, hamısını qoruyub saxlayaraq ölkəni yeniləşdirdi.

Həyat sübut edir ki, sınaqlara tab gətirməyənlər iflasa uğrayır, özünü dəf edə bilənlər isə xalqın rəğbətini qazanır. Heydər Əliyev istər fiziki, istərsə də ictimai baxımdan ciddi sınaqlardan keçmişdir. Bu sınaqlar onda cəsarət və səbirlə yanaşı, dəyişiklikləri həssaslıqla hiss etmək, iti tarixi duyum kimi keyfiyyətlər də aşılamışdır. O, dönüş məqamının başlandığını əvvəlcədən duymaq və qarşıdakı işlərin zəruriliyini buna uyğun olaraq əsaslandırmaq üçün kifayət qədər uzaqgörəndir. Öz liderinin dövlətçilik istedadına və müdrikliyinə güvənən xalq həmişə bilir ki, o, sabitliyi qoruyub saxlamaq, ölkəni dəyişmək, zamanın tələb-

lərinə layiqli cavab vermək üçün nə kimi tədbirlər görəcəkdir. Məhz buna görə də insanlar indiki çətinliklərə dözməyə hazırdır, çünki inanırlar ki, onlar dönmədən daha gözəl həyata doğru aparan prosesin iştirakçılarıdır.

Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər - iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir. Onun fenomenal yaddaşı barədə rəvayətlər söylənir: neçə illər əvvəl olmuş və çoxları üçün əhəmiyyətsiz görünmüş faktları və hadisələri bütün təfərrüatı ilə xatırlaya bilir. Çoxdan və ötəri görüşdüyü adamların adları da yadındadır.

Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun - ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

Bununla belə, hesab edirəm ki, bu məqalə və kitablarda müəlliflər Heydər Əliyevin səciyyəvi keyfiyyətlərini tam açmağa, onun istedadını və parlaq şəxsiyyətini bütünlüklə göstərməyə müvəffəq olmamışlar. Ən əvvəl ona görə ki, bu, olduqca çətindir. Heydər Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, Azərbaycan tarixinin bütöv bir dövrünü təsvir etməyə cəhd göstərmək demək olardı. Bütöv bir dövrü təsvir etmək isə son dərəcə çətin bir vəzifədir. Bu məqalədə biz onun çoxşaxəli fəaliyyətinin ancaq bir cəhətindən, yəni azərbaycançılıq ideologiyasında öz təcəssümünü tapan milli ideyanı gerçəkləşdirməsindən danışmağa çalışacağıq.

Heydər Əliyev dövrünə müraciət edən istənilən tədqiqatçı belə bir suala cavab tapmalıdır ki, dövlətçiliyimizin çoxəsrlik tarixində nə üçün məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəsna yer tutur. Axı, indi onun adı da, elə özü də bu dövlətçiliyi təcəssüm etdirir. Əlbəttə ki, öz əhəmiyyətinə görə Heydər Əliyevin fəaliyyətinin Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxdığını deyən siyasətçi və politoloqlarla razılaşmaq lazımdır. Bu da doğrudur ki, müasir dövrdə Azərbaycanda da, bütün postsovet məkanında da, hətta deyərdik, bütün dünyada da gedən prosesləri Heydər Əliyevin fəaliyyət dairəsindən kənarda təsəvvür etmək mümkün deyildir. Lakin bu, hansısa bir fenomenin, olsa-olsa, nəzərə çarpdırılmasıdır, bizim məqsədimiz isə bu fenomenin mahiyyətinə varmaqdır.

Əgər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında son onilliklər ərzində yazılanların hamısını nəzərdən keçirsək, onda ən əvvəl demək lazımdır ki, müxtəlif ölkələrdə, bir çox dillərdə Azərbaycan Prezidentinin şəxsiyyətindən, həyat yolundan, siyasi baxışlarından bəhs edilən kitab və məqalələr nəşr olunur. Bütün bu nəşrlərdə əsas diqqət Heydər Əliyevin siyasi fəaliyyətinin konkret cəhətlərinin təhlilinə yetirilir. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, nadir istedada, ensiklopedik biliyə, genişmiqyaslı dünyagörüşünə malik olan bu tarixi şəxsiyyətin fəaliyyətini yalnız əməli fəaliyyətlə, gerçəkləşdirdiyi konkret layihələrlə məhdudlaşdırmaq olmaz.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin otuz ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar onun həm əməli fəaliyyətində, həm də inkişafımızın paradiqmasının fəlsəfi anlamında öz əksini tapmış-

dır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır. Lakin çox vaxt bütün bunlar Heydər Əliyevin konkret fəaliyyətinin kölgəsində qalır. Buna görə də, Heydər Əliyev fenomeninin mahiyyətini başa düşmək üçün göstərilən cəhdlər diqqətimizi onun dünyagörüşünün tərkib hissəsini təşkil edən fəlsəfi cəhətlərə yönəldir.

Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə savadlı və yüksək erudisiyaya malik insandır. Bu savadlılıq akademik xarakter, hansısa cərəyan və konsepsiyaların həyatdan təcrid olunmuş halda dərk edilməsi xarakteri daşımır, onda ümumbəşəri dəyərlər Azərbaycan ziyalılarının bir çox nəsillərinin yaratdıqları milli ideallar sistemi ilə ahəngdarlıq təşkil edir. Məhz buna görə də o, dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlaya bilmişdir ki, burada sosiologiya və fəlsəfənin bır çox mücərrəd problemləri ideyalar və elm sahəsindən əməli siyasət müstəvisinə keçmişdir. Mirzə Fətəli Axundovdan başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs cəhətlər haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görümündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyaları başa düşmək lazımdır.

Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun

bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə, məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə **milli dirçəliş fəlsəfəsinin** gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər hansı təlim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim hamımızın gözləri qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışlarında son dərəcə aydın ifadə olunmuşdur. Məhz natiqlik istedadı ona ilk baxışdan qeyri-mümkün görünən məsələni reallaşdırmağa - öz fəlsəfi və siyasi əqidəsini böyük auditoriyalar qarşısında şifahi çıxışlar çərçivəsində formalaşdırmağa imkan vermişdir.

Gerçəkliyin özünün obyektiv qanunlarını əks etdirən elmi metodologiyaya uyğun olaraq, Heydər Əliyev XX əsr Azərbaycan tarixini özünəxas peşəkar tarixçi dəqiqliyi ilə dörd mərhələyə bölür. **Birinci mərhələ** ötən əsrin əvvəlindən oktyabr inqilabınadək olan tariximizdir. **İkinci tarixi mərhələ** 1918-1920-ci və 1920-1922-ci illəri – Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olanadək dövrü əhatə edir. **Üçüncü mərhələ** 1922-ci ildən Azərbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövrdür. **Dördüncü mərhələ** isə 1991-ci ildən bu günədək olan dövrü əhatə edir. Əgər diqqət yetirsək görərik ki, son mərhələlər – üçüncü və onun bilavasitə nəticəsi olaraq, dördüncü mərhələlər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

Həqiqətən də, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən – məhz onun hakimiyyətə gəlişindən sonra başlanır.

Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. Bir tərəfdən, o, keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara son dərəcə dəqiq və nəzakətlə əməl edirdi. O dövrdəki nitqləri ilə tanış olarkən başa düşürsən ki, onun özü də kommunizm amallarına ürəkdən inanırdı. Lakin bununla yanaşı, o, sovet mədəniyyətinin ənənəvi formuluna – formaca milli və məzmunca sosialist mədəniyyəti formuluna tamamilə yeni bir məna verə bilmişdir. Onun gördüyü bütün işlər formal surətdə marksizm-leninizm ideologiyasının tələblərinə uyğun gəlirdi. Buna baxmayaraq, o, əvvəlki, standart stereotipləri qırır, hansısa yeniliklər daxil edə bilirdi ki, bunları da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə, bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. O, milli ruhun dirçəldilməsinə, öz zəmanəsinin Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə biz Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini – nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.

Məhz bu baxımdan Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Məsələ bunda-

dır ki, Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də respublikanın iqtisadi inkişafının sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi.

Heydər Əliyev öz fəlsəfi konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca mürəkkəb mexanizmdən istifadə etmişdir. Lakin onun atdığı ilk addımlar son dərəcə sadə idi – o, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərini müntəzəm qeyd etmək ənənəsinin bünövrəsini qoydu. Bu, formal bir hadisə deyildi. Bu, Azərbaycan mədəniyyəti klassiklərinin yaradıcılığının tarixinə və mahiyyətinə həqiqi müraciət idi, milli düşüncənin dərin qatlarını üzə çıxarmaq idi.

İlk baxışdan adama elə gəlir ki, Cəfər Cabbarlı qədər ikinci bir sovetpərəst dramaturq təsəvvür etmək çətindir. Təsadüfi deyil ki, o, sovet ədəbiyyatının bütün dərsliklərinə Azərbaycan sovet dramaturgiyasının banisi kimi daxil olmuşdur. Lakin Heydər Əliyev dövründə respublikamızda keçirilmiş ilk yubileylərdən birinin necə məna kəsb etdiyini yada salaq. Zahirən hər şey o dövrün qaydalarına uyğun idi – 1969-cu il oktyabrın 10-da görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 70 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Cəmi on gün sonra isə müasir dramaturgiyamızın banilərindən biri olan bu ustadın yubileyi ümumittifaq səviyyəsində, Azərbaycan incəsənət xadimləri nümayəndələrinin iştirakı ilə Moskvada İttifaqlar Evinin Sütunlu salonunda keçirildi.

Lakin ona diqqət yetirək ki, bir tərəfdən, Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının yubileyi ənənəvi sovet qanun-qaydalarına uyğun olaraq keçirildi, digər tərəfdən

isə, burada tamamilə “qeyri-ənənəvi” cəhətlər vardı. Sovet ədəbiyyatşünaslığının adətən fikir vermədiyi əsərlər ictimaiyyətin diqqət mərkəzinə çıxarılırdı. Yeni nəsil özü üçün tamamilə yeni bir Cabbarlını kəşf etdi, o Cabbarlını ki, rəsmi ideologiya çərçivəsində bəzən ezop dili ilə elə məsələlərə toxunurdu ki, bu, Azərbaycanın keçdiyi tarixi yolun nadirliyi barədə hamını düşünməyə vadar edirdi. Dərk edirdik ki, biz hamımız olduqca böyük tarixi sərvətlərin, çox yüksək tolerantlıq, dini və etnik dözümlülük şəraitini qoruyub saxlamış və zəmanəmizə, bizə gətirib çatdırmış əcdadlarımızın yaratdıqları misilsiz mənəvi xəzinənin varisləriyik. Bu yubiley tədbirlərinin bütün iştirakçıları fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qayıdır, XX yüzilliyin başlanğıcındakı mürəkkəb sosial prosesləri gözlərinin qarşısına gətirir, milli teatrın, dünyəvi təhsil sisteminin təşəkkülünün təfərrüatına vaqif olurdular.

Bakının mərkəzində Cəfər Cabbarlıya abidə ucaldılanda, Azərbaycan kinostudiyasında onun büstü açılanda, əsərləri yenidən səhnəyə qoyulanda aydın oldu ki, Cabbarlı dramaturgiyası və poeziyası bədii obrazlar sistemi vasitəsilə məhz Heydər Əliyevin siyasətinin öncül qayəsi olan ümummilli dəyərlərin bərqərar edilməsinə yönəlmişdir. Məhz bu baxımdan həmin yubileyin son dərəcə rəmzi mənası oldu.

Azərbaycan mədəniyyətinin yubileyləri təntənə ilə qeyd edilən bir çox nümayəndələrinin xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri bu və ya digər formada şərh edilir, araşdırılır və sistem halına salınır, nəticədə isə böyüməkdə olan nəslin sərvətinə çevrilir, onların dünyagörüşünün əsasını formalaşdırırdı.

Daha bir misal. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq, Bakı Dövlət Universitetinin yaradılmasını respub-

likamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək, universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Heydər Əliyev çıxışlarından birində bu barədə deyir: "Bu, dözülməz bir hal idi. Elə həmin 1969-cu il noyabrın 1-də biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunmuşdur ki, bu çıxışın universitetdə böyük əks-sədası oldu. Çünki bu çıxış Azərbaycan dilində idi və universitetin qarşısında qoyulan məsələlər bizim ümummilli problemlərimizlə sıx bağlı idi".

O yubiley günlərində çoxları, ümumiyyətlə bəlkə də, ilk dəfə düşünürdü ki, görəsən, əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətini yaradanların məqsəd və məramları nə idi. Axı, sovet elmində Azərbaycan Xalq Cümhuriyyətinin həmin nümayəndələrinə ancaq rüsvayçılıq damğası vurulurdu, əslində isə, Bakıda universiteti məhz onlar açmışdılar və respublikada ali təhsilin bünövrəsini də məhz bu universitet qoymuşdur.

Sovet dövrünün ehkamları respublika rəhbərindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də, bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi. Bu da heyrət qarışıq bir heyranlıq və bu üslubu təqlid etmək arzusu doğururdu. 1972-ci illərin ortalarında yazıçılardan biri ona "yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl

danışırsınız!" deyəndə, Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız".

Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi.

Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki, gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində Heydər Əliyev ana dilinə özünün münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarında və tədbirlərində son dərəcə aydın ifadə edəcək, eyni zamanda, öz çıxışlarında da bu mövzuya müraciət edəcəkdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlatmaq istərdik: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir".

Elə görünür ki, öz milli müstəqilliyimizi bəyan etdikdən sonra biz ilk növbədə gələcək inkişafımızın bəzi, heç olmasa, əsas istiqamətlərini müəyyənləşdirməli idik. Lakin 1991-93-cü

illərdə Azərbaycanda keçmişə nihilist münasibət və tarixi tamamilə yenidən yazmaq istəyi hökm sürürdü. Yeni dalğanın gətirdiyi bir çox “demokrat”ların platformasını bəzi tədqiqatçılar “neobolşevizm” adlandırırlar. Ölkənin o vaxtadək yaradılmış iqtisadi potensialına həmin illərdə çox böyük ziyan vuruldu, milli dəyərlərin hansısa bir yoxlanılmış sisteminə əsaslanmayan ideyasız inkişaf pərəstiş obyekti səviyyəsinə qaldırıldı. Hamıya məlumdur ki, təkcə təbiət deyil, cəmiyyətin inkişafı da boşluğa dözmür. Bu ideya boşluğu dərhal mentalitetimizə yad ideologiya ilə dolduruldu və çox tez bir zamanda cəmiyyətə nifaq saldı.

Azərbaycan xalqı Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərliyi dövründə həyata keçirdiyi tədbirlərin əhəmiyyətini yalnız müstəqilliyin iki ilindən sonra – səhvlərin və yanılmaların, mənfi təcrübənin acı dərslərini görəndən və yaxınlaşan fəlakəti hiss edəndən sonra dərk etdi. Aydın oldu ki, Heydər Əliyev, ilk növbədə, milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas edə bilmişdir. Hamının və hər şeyin elliklə inkar edildiyi hərc-mərclik dövründə Heydər Əliyevin adını belə xalqın tarix və yaddaşından silməyə can atanlar da qəlbinin dərinliyində gözəl başa düşürdülər ki, onun siyasi və dövlətçilik fəaliyyəti xalqın milli dövlətçilik barədə çoxəsrlik arzu və istəklərinin həyata keçməsi üçün əlverişli zəmin yaratmışdır. 1993-cü ildə ölkəyə yenidən başçılıq edən Heydər Əliyevi, ilk növbədə, bütövlükdə respublikaya vurulan ziyanın miqyası dəhşətə gətirdi. Çox şeyə boş yerdən başlamaq lazım gəldi. Heydər Əliyev ötən əsrin 70-ci illərində Azərbaycanda necə böyük quruculuq işlərinin həyata keçirildiyini sonralar öz çıxışlarında dəfələrlə xatırlayacaqdır. Artıq 1980-ci ilin ortalarında Azərbaycan həm formal cəhətdən, həm də faktik olaraq keçmiş SSRİ-nin ən dinamik inkişaf edən respublikalarından birinə çevrilmişdi.

Bu vəziyyət Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı dövrdəkindən kəskin surətdə fərqlənirdi. SSRİ-nin perspektivsiz əyalətlərindən biri kimi respublikamız barəsində formalaşmış fikrin nəticəsi idi ki, 1960-cı illərin sonlarına yaxın Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində geridə qalırdı. Sovet hökumətinin rəsmi dairələri səviyyəsində belə bir fikir vardı ki, məşhur neft yataqları öz keçmiş əhəmiyyətini itirmişdir və respublikanın neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur. Bunun, demək olar, alternativi yox idi. Vəziyyətdən çıxmaq üçün yeni yollar axtarmaq əvəzinə, respublikada mənfi meyillərin tədricən güclənərək, daha dərin kök atması ilə barışmışdılar, hakimiyyət uğrunda gizli mübarizə getdikcə daha eybəcər şəkil alırdı.

Belə bir vəziyyətdə, ilk növbədə, respublika iqtisadiyyatının getdikcə güclənən tənəzzülünün qarşısını almaq, ictimai-siyasi həyatdakı mənfi halları aradan qaldırmaq lazım idi. Buna ən əvvəl respublikanın siyasi rəhbərliyindəki intriqalar, dövlət və əmək intizamının, tələbkarlığın olmaması, hakimiyyət orqanlarındakı qohumbazlıq və rüşvətxorluq mane olur və bütün bunlar da cəmiyyətə son dərəcə mənfi təsir göstərir, cəzasızlıq və hərki-hərkilik şəraiti yaradırdı.

Xalqın etibarından və dəstəyindən məhrum olan, habelə başı daxili çəkişmələrə qarışan ölkə rəhbərliyi məqsədyönlü dövlət siyasətini həyata keçirə bilmirdi. Ona görə də milli dilin inkişafı və işlədilməsi, dövlət idarəçiliyi sturukturlarının yerli əhali sırasından olan kadrlarla möhkəmləndirilməsi sahəsində ciddi tədbirlər görülmürdü. Üstəlik, ölkə rəhbərliyi saxta beynəlmiləlçilik adı altında həmin istiqamətdə bütün mümkün təşəbbüslərin qarşısını alırdı ki, bu da, heç şübhəsiz, milli şüurlu, milli kateqo-

riyalarla düşünən və milli mentalitetin daşıyıcısı sayılan kadrların irəli çəkilməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatını bütövlükdə dərin və uzunsürən böhran bürümüş respublikanı bu ağır vəziyyətdən çıxarmağın yollarını axtarıb tapmaq, prinsipcə yeni konseptual səviyyədə yanaşma əsasında ölkənin inkişaf planlarını işləyib hazırlamaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni metodlar tətbiq etmək lazım idi. Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir.

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfi hallarla fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başlandı. 1969-cu il Azərbaycanın ən yeni tarixində dönüş ili oldu. Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı.

Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə - 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır.

Əlbəttə, milli dirçəliş ideyalarının, azərbaycançılıq ideologiyasının əməli surətdə həyata keçirilməsini yalnız təsərrüfat və sənaye sahələrində qazanılmış uğurlar fonunda, onların əsasında inkişaf etdirmək olardı. Heydər Əliyevin strateji proqramında diqqəti çəkən cəhət məhz odur ki, burada mənəvi, bədii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlərlə və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə birləşərək, vahid məcrada reallaşdırılmışdır. Yeri gəlmişkən, Heydər Əliyev müstəqillik dövründə çıxışlarından birində “Dədə Qorqud” qazma qurğusunu nəzərdə tutaraq deyir: “...adını da “Dədə Qorqud” qoyduq, əvvəl “Şelf-2” adlanırdı. Amma biz ona Dədə Qorqud adı verdik, çünki bu, bizim babamızdır”. Gördüyümüz kimi, Prezident Heydər Əliyev hətta iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda qoymur, çünki o, öz ölkəsinin iqtisadi inkişafını hər zaman mənəvi mədəniyyət problemləri ilə sıx bağlılıqda, vahid axarda görür.

1970-ci illərdən başlayaraq, Azərbaycan sürətli iqtisadi inkişafla və iqtisadi potensialın gücləndirilməsi ilə yanaşı, demək olar, daxilən, tədricən öz təkamülünün növbəti mərhələsi kimi tarixən şərtləndirilmiş suverenliyə və müstəqilliyə hazırlaşırdı. 1980-ci illərin axırları - 1990-cı illərin əvvəllərində ərazi bütövlüyü uğrunda xalq hərəkatının geniş vüsət alması Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə təmin edilmiş iqtisadi inkişaf, milli ruhun və milli özünüdərkin dirçəlməsi sayəsində mümkün olmuşdur. Bu, Azərbaycanda milli özünüdərk prosesinin xüsusilə gücləndiyi həmin 70-ci illərdir. Bu, həmin 70-ci illərin əvvəlləri idi ki, Heydər Əliyev Novruz bayramının keçirilməsi barədə ziyalılara cavab verərək demişdir: “Mənim tapşırığımla deyil,... qoy ürəkləri istədikləri şəkildə keçirsinlər”. Hər bir azərbaycanlı

ümummilli dəyərlər sisteminə məhz beləcə, özünün istədiyi kimi qoşulurdu. Bu, həmin 70-ci illərdir ki, onda Heydər Əliyev cəmiyyətin həyatındakı çoxsaylı dəyişiklikləri dahi Nizaminin bu ölməz sözlərini sitat gətirərək həyata keçirirdi: "Qoy ədalət zəfər çalsın!". Bu haqq-ədalətin daşıyıcısı, carçısı və bayraqdarı, ilk növbədə, onun özü - ölkədə danılmaz nüfuza malik olan ümummilli lider idi.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının bir çox respublikalarında aşkar şəkildə hiss olunduğu bir vaxtda, Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və cəmiyyətdə, mədəniyyətdə, ədəbiyyatda gedən prosesləri necə başa düşdüyünü açıq ifadə etməyə, əslində isə, milli-mənəvi ideallarıın bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

Məhz o illərdə respublikada şəhərsalma və şəhərlərin, rayon mərkəzlərinin abadlaşdırılması sahəsində böyük işlər görülürdü. Bakıda bir sıra memarlıq ansamblları, inzibati mərkəzlər, saraylar, institutlar, nəşriyyatlar, tədris korpusları, komplekslər tikilib istifadəyə verilmişdir ki, bunlar da müasir Azərbaycan memarlığının əsərləri xəzinəsinə daxil olmuşdur. Bir çox memarlıq abidələri məhz Heydər Əliyevin təşəbbüsü sayəsində bərpa edilmişdir. Onun sayəsində Bakının ən gözəl güşələrində xalqımızın milli ruhunun ifadəçiləri olan görkəmli xadimlərə əzəmətli abidələr ucaldılmış, məşhur tarixi şəxsiyyətlərin ev muzeyləri yaradılmış və bunlar mədəniyyət mərkəzlərinə çevrilmişdir. Məhz o dövrdə Kirovabadda şəhərin təzə yaşayış massivlərindən birinə "Yeni Gəncə" adı verilmiş və bununla da dolayısı ilə bildirilmişdir ki, Azərbaycanın bu qədim şəhərinin tarixi və əsl adı Gəncədir.

Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi. Bu işlərin sırasında gənclərdə elmi dünyagörüşünü, məntiqli düşüncə qabiliyyətini artırmaq məqsədi ilə, demək olar ki, bütün şəhərlərdə və rayon mərkəzlərində şahmat məktəblərinin inşa olunması və fəaliyyəti mühüm işlərdən biri hesab oluna bilər.

Bununla bərabər, Heydər Əliyev hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Bu prosesin inkişaf etdirilməsi məqsədi ilə 1969-1982-ci illərdə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verildi, ali məktəblərin şəbəkəsi genişləndirildi. 1980-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatmışdı.

Heydər Əliyev həmişə bu fikirdə olmuşdur ki, konkret işlər nəzəri mülahizələrdən qat-qat vacibdir. O deyirdi ki, müasir milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında milli dirçəlişə ümid bəsləmək mümkün deyildir. 1969-cu ildə rəhbərliyə gəldiyi elə ilk aylardan o, milli hərbçi kadrlar hazırlanması sahəsində bir sıra addımlar atdı. Heydər Əliyev özünün yaratdığı hərbi liseyin 30 illik yubileyində iftixarla demişdir: “Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum ar-

zuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm". Heydər Əliyev ona görə xoşbəxtdir ki, onun öncədən gördükləri həyata keçdi: Azərbaycan müstəqillik əldə etdi, bu hərbçi kadrlar isə müstəqilliyin qorunması üçün çox gərəkli oldular.

1970-80-ci illərdə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilməsi ənənəyə çevrilmişdi. Bununla bərabər, SSRİ respublikalarında da, sosializm düşərgəsi ölkələrində, habelə bir sıra başqa xarici dövlətlərdə də Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bunlar Azərbaycanın xarici ölkələrlə əlaqələr qurmasına imkan yaradır, özünəməxsus tariximizin, milli mədəniyyətimizin nailiyyətlərinin tanıdılmasını təmin edirdi. Paytaxtımız Bakı şəhəri isə sürətlə dünya şöhrətli elm və mədəniyyət mərkəzinə çevrilirdi.

Bu, elə bir vaxt idi ki, fəal vətəndaşlıq nümunəsi sayılan və hətta Moskva və Leninqrad jurnallarında çap etdirmək mümkün olmayan "dissident" materialları Bakı mətbuatında işıq üzü görürdü. Heydər Əliyev bu yazıların müəlliflərini hər cür hücumlardan və qəsdlərdən qoruyurdu. Təsadüfi deyil ki, Azərbaycanda həmin dövrdə "sandıqda yatıb qalmış dissident ədəbiyyatı" yoxdur. Ədiblərin heç bir qadağa olmadan istər tarixi keçmişimizə, istərsə də bu günümüzə həsr etdikləri milli ruhlu əsərlər yarada bilməsi üçün əlverişli şəraitin təmin edilməsi heç də asan iş deyildi. Bunu həm gənc şair və yazıçılara xüsusi qayğı və diqqətin təzahürü kimi, həm də, ilk növbədə, Heydər Əliyevin fəlsəfi və siyasi amalının konkret işlərdə öz əksini tapması kimi qiymətləndirmək olar. Eyni sözləri mədəniyyət və incəsənətin digər sahələrində - kino, rəssamlıq, musiqi sahəsindəki milli ruhlu əsərlər barəsində də demək olar. Bu baxımdan kino sənətinin "İstintaq", "Bir cənub şəhərində", "Ulduzlar sönmür" kimi nümunələri səciyyəvidir.

Görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri var. Nərimanov 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti devrildikdən sonra son dərəcə mürəkkəb bir dövrdə Azərbaycan dövlətçiliyini qoruyub saxlayan qeyri-adi siyasi şəxsiyyət kimi Heydər Əliyevi cəlb etmişdi. Əlamətdar haldır ki, taleyin hökmü ilə Heydər Əliyev də 1993-cü ildə dağılıb parçalanmaq təhlükəsi qarşısında qalmış Azərbaycanı xilas etmək missiyasını öz üzərinə götürməli olacaqdı.

Xalqımızın böyük oğlu Nəriman Nərimanovun şanlı adını bərpa etmək üçün Heydər Əliyevin atdığı cəsarətli addım, həqiqətən, Azərbaycan dövlətinin mənafeləri naminə qazanılmış mühüm qələbə idi. Bu addımı atmaq heç də asan iş deyildi, belə ki, buna görə Heydər Əliyev öz siyasi karyerasını itirə bilərdi. Azərbaycanın düşmənlərinin iradəsi ilə Nəriman Nərimanov siyasi unutqanlığa məruz qalmışdı, davakar millətçi kimi qələmə verilirdi. 1972-ci ilin yazında Nərimanovun 100 illik yubileyi keçirildi, Bakıda isə ona əzəmətli abidə ucaldıldı. Heydər Əliyev abidənin təntənəli açılış mərasimində çıxış edərək demişdi: “Nəriman Nərimanov... öz zəkası və iradəsi ilə xalqına xidmət edirdi... Nəriman Nərimanov bu gün də bizimlədir. Bu gün o, özünün nəhəng qaməti ilə burada - qocaman Xəzərin dalğaları üzərində ucalmaqdadır”. Bir müddət sonra “Pravda” qəzetində Heydər Əliyevin N.Nərimanovun həyat və fəaliyyəti haqqında məqaləsi dərc edildi. O, bununla kifayətlənməyərək, Nərimanov haqqında çəkilən filmin ekranlara çıxarılmasına da nail olur. Az sonra, 1977-ci ildə məhz onun səyləri ilə Ulyanovsk şəhərində Nərimanova abidə ucaldıldı, 1982-ci ildə isə Moskvada xatirə lövhəsinin açılışı oldu.

Sovet rəhbərliyinin bəzi dairələrində Azərbaycanın SSRİ-nin geridə qalmış ucqar əyaləti olması barədə yaranmış təsəvvürü Heydər Əliyev özünün yorulmaz təşkilatçılıq və siyasi fəaliyyəti ilə qısa müddətdə aradan qaldıra bildi. O, hətta Sovet Azərbaycanının 50 illik yubileyinə həsr edilmiş tədbirləri də elə səviyyədə keçirdi ki, onlar milli mədəniyyətimizin və tariximizin parlaq bayramına çevrildi. Azərbaycanın bir çox yazıçılarına, mədəniyyət və incəsənət xadimlərinə Dövlət mükafatları verildi. Həmin il keçirilmiş böyük rəssamlıq sərgisi isə mədəniyyətimizin nailiyyətlərinin görünməmiş nümayişinə çevrildi.

Heydər Əliyevi narahat edən bir məsələ də bütün sənaye potensialının, elm və mədəniyyət müəssisələrinin, təhsil ocaqlarının Bakıda cəmlənməsi, rayonların isə inkişaf prosesindən bir növ kənarda qalması idi. Bu mənfi meyilləri aradan qaldırmaq lazım idi, bununla bağlı problemlər Gəncədə, Naxçıvanda, digər şəhər və rayonlarda ictimaiyyətlə görüşlərdə müzakirə olunurdu. Xatırladaq ki, bu sahədə vəziyyət tezliklə kökündən dəyişdi.

Azərbaycanın inkişafı yolunda Heydər Əliyevi xüsusi qayğılandıran digər məsələ milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi. Bu məqsədlə 1972-ci ildə 50 illiyi təntənə ilə qeyd olunmuş S.Vurğun adına Rus Dram Teatrından səmərəli şəkildə istifadə edilirdi.

Əgər fikrən o illərə qayıtmağa çalışsaq, əhəmiyyəti və mənası bütün dolğunluğu ilə yalnız indi dərk edilən nailiyyətlərin heyrətamiz mənzərəsi gözlərimiz qarşısında canlanar. Bu salnamənin yalnız bəzi hadisələrini yada salaq. 1972-ci ilin aprelində Heydər Əliyev görkəmli humanist şair İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə hazırlıqla bağlı qərar qəbul edilməsinə nail olur, bir il sonra isə müttəfiq respublikaların

çoxsaylı nümayəndələrinin inştirakı ilə klassikimizin şanlı yubileyi Bakıda və Moskvada qeyd edilir.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi keçirilir. Həm dahi Üzeyir bəyin adını daşıyan Konservatoriya, həm də professor və müəllimlər təltif olunurlar. Bir sözlə, yubiley bütün mədəniyyətimizin bayramına çevrilir. Üç il sonra Üzeyir Hacıbəyovun 90 illik yubileyi Bakıda və Moskvada böyük təntənə ilə qeyd olunur. Elə həmin il "Koroğlu" operası yeni quruluşda tamaşaya qoyulur. İctimaiyyətin diqqəti Üzeyir bəyin irsinə, bəstəkarın bənzərsiz musiqi yaradıcılığına, ədəbi fəaliyyətinə bir daha cəlb edilir. Hacıbəyovun publisistikası araşdırılarkən, XX əsrin əvvəllərində onu düşündürən milli oyanış problemləri – Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər xüsusilə vurğulanırdı.

Milli özgünlüyün atributu olan xalçaçılıq tarixən mədəniyyətimizdə son dərəcə mühüm yer tutmuşdur. Lakin o dövrdə xalq sənətinin bu növünə ögey münasibət bəslənildiyindən, Azərbaycanda bir dənə də xalça muzeyi yox idi. Bu iş Heydər Əliyevin vəzifə səlahiyyətləri çərçivəsindən kənarda olsa da, onu çox narahat edirdi. Bu narahatlığa tezliklə son qoyuldu, 1972-ci il aprelin 25-də Bakıda təntənəli şəraitdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi açıldı.

Bundan bir ay sonra Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Aşıq Ələsgərin anadan olmasının 150 illiyi münasibətilə təntənəli yığıncaq keçirildi. Bu, həmin dövrdə görünməmiş bir hadisə idi. Vətəni Göyçə mahalı sovet dövründə Ermənistan SSR-in tərkibinə daxil edilən Aşıq Ələsgərin belə bir yubileyinin keçirilməsindən məqsəd böyük el sənətkarını Azərbaycan xalqı-

na qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycan torpaqlarının real sərhədlərinin necə olduğu, ulu ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrini yeni nəslə çatdırmaq idi.

1974-cü il. Azərbaycan teatrının 100 illik yubileyi qeyd edilir. Heydər Əliyev yubiley mərasimində çıxış edərək, Şərqdə ilk professional teatrın inkişaf yollarından, ictimai fikrin formalaşmasına onun göstərdiyi təsirdən danışır. Azərbaycan teatrının görkəmli nümayəndələrinə yüksək dövlət mükafatları verilir. Tanınmış səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı SSRİ xalq artisti fəxri adına layiq görülürlər. Moskvada Azərbaycan Akademik Dövlət Dram Teatrının yubiley qastrolları böyük uğurla keçir.

Azərbaycan dilinin tədqiqi sahəsində araşdırmalara görə həmin il respublikanın bir qrup dilçi alimi də Dövlət mükafatına layiq görülür. Həmin dövrdə respublikamızda ilk dəfə olaraq müstəqil Dilçilik İnstitutu yaradılır ki, bu da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmlənməsinə kömək edir və dilin tarixinə, dialektologiyaya və bir çox digər problemlərə dair fundamental tədqiqatlar aparılmasına imkan verir. Millətlərarası ünsiyyət vasitəsi kimi rus dilinin fəal təbliğ olunduğu o illərdə Heydər Əliyev respublikada tam qoşadillilik mühitinin bərqərar edilməsinə çalışırdı. Sonrakı illərdə - 1980-90-cı illərdə respublikanın rəhbərinin istər rəsmi, istərsə də qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməməsi, əslində, ana dilimizin nüfuzunu təsdiqləyirdi.

1975-ci il. Bakıda xalqımızın görkəmli şairi Səməd Vurğunun ev muzeyi açılır. Dekabrda isə Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə yaradılmış Ümumittifaq yubiley komissiyasının Moskvada birinci iclası keçirilir. 1976-cı ildə

Moskvanın Böyük Teatrında Səməd Vurğunun yubileyi qeyd edilir. Elə həmin il İttifaqlar Evinin Sütunlu salonunda Müslüm Maqomayevin 90 illik yubileyi keçirilir. Dekabrın 12-də isə Azərbaycan memarı Əcəmi Naxçıvaninin anadan olmasının 850 illiyi münasibətilə, onun yaratdığı Mömünə xatın türbəsinin qarşısında bu dahi sənətkarın abidəsinin təməli qoyulur.

1977-ci il iyunun 20-də Azərbaycanda görkəmli opera müğənnisi Şövkət Məmmədovanın 80 illik yubileyi qeyd edilir. Həmin ilin oktyabrında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1978-ci il. Fevralın 3-də Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Elə həmin gün böyük bəstəkara Sosialist Əməyi Qəhrəmanı adı verilir. Fevralın 15-də isə Moskva Konservatoriyasının Böyük salonunda ustadın yubileyi qeyd olunur.

Həmin ilin ən böyük hadisəsi isə, çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verilməsi oldu. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq, respublikanın 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər olan bu addım gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdı.

1978-ci ilin sentyabr və oktyabr aylarında Ukraynada və Böyük Britaniyada respublikamızın mədəniyyət və incəsənət xadimlərinin böyük bir qrupunun iştirakı ilə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1979-cu ilin yanvarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği ilə

bağlı xüsusi qərar qəbul edilir və geniş tədbirlər planı təsdiq olunur. Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının İsveçdə konsertləri böyük uğurla keçir.

1980-ci ilin fevralında isə böyük Azərbaycan şairi Nəsiminin abidəsinin təntənəli açılışı olur. İndi Nəsimini nəinki təkcə Azərbaycanda tanıyırlar, artıq o, bütün dünyaya tanıdılır və o, məşhurlaşdıqca, bütün planetdə yaşayan insanlar Azərbaycanı da tanıyacaqlar.

1980-ci ilin noyabrında bir qrup Azərbaycan alimi və mədəniyyət xadimi SSRİ Dövlət mükafatına layiq görülür. Dekabrın sonlarında Azərbaycanın xalq artisti Qurban Pirimovun anadan olmasının 100 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Bir neçə ay sonra –1981-ci ilin martında görkəmli aktyor və rejissor Hüseynqulu Sarabskinin anadan olmasının 100 illiyi qeyd olunur. Həmin il iyunun 11-də Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsi, iyulun 21-də isə Hüseyn Cavidin 100 illiyinin keçirilməsi barədə qərarlar qəbul edilir. Avqustda isə Bakının mərkəzindəki ən gözəl binalardan biri milli mənəvi sərvətlərimizin qorunub saxlandığı Respublika Əlyazmalar Fonduna verilir.

Elə həmin ilin avqustunda dahi Nizami Gəncəvinin 840 illik yubileyinin, görkəmli astronom və filosof Nəsirəddin Tusinin anadan olmasının 780 illiyinin və Aşıq Alının 180 illiyinin bayram edilməsi haqqında qərarlar imzalanır.

Bir neçə ay sonra tanınmış yazıçı Mirzə İbrahimovun 70 illiyi münasibətilə təntənəli yığıncaq olur. Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Nizami Gəncəvinin yubiley gecəsi keçirilir. Noyabrda N.Tusinin 780 illiyinin, dekabrda isə görkəmli maarifçi və ədib Abdulla Şaiqin 100 illiyinin qeyd edilməsi respublikanın o vaxtkı mədəni həyatında yaddaqalan hadisələr olur.

Həmin dövrdə Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof şair Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur. Sonralar onun məzarı üzərində məqbərə ucaldılmışdır. Bu addım təkcə xalqımızın mədəniyyət salnaməsinə düşmüş bir hadisə deyil, həm də sovet gerçəkliyində görünməmiş və mümkün ola bilməyən hadisələrdəndir. Təsadüfi deyil ki, xarici müəlliflərin bir çoxunun geniş mənbələrə əsaslanan kitablarında bu fakt son dərəcə müfəssəl şərh olunur, o cümlədən Azərbaycanın müstəqilliyə can atmasının məhz başlanğıcı kimi vurğulanır.

Görülən bütün bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini daha yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir. XX yüzilliyin 1969-1982-ci illərində Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır. Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlədilməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin ümumittifaq miqyasında keçirilməsi, Nəsimiyə, Cabbarlıya, Nərimanova abidələr ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet İttifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri və sair – bütün bunlar Heydər Əliyevin siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi.

1982-ci ilin dekabrı. Mübaliğəsiz demək olar ki, bütün xalq öz şanlı oğlunu SSRİ paytaxtına iftixar və qürur hissi ilə yola salırdı. Beş il ərzində o, Azərbaycanda gedən ictimai-siyasi və

mədəni prosesləri uzaq Moskvadan müşahidə etməli olacaqdır. Buna baxmayaraq, heç olmasa, ildə bir dəfə Vətənə gələrək, insanlarla görüşəcək, respublika haqqında daha səhih məlumat almağa çalışacaqdır. 1982-ci ildən etibarən o, dünyanın ən nəhəng dövlətinin aparıcı rəhbərlərindən biri olur. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi onun rəhbərlik etdiyi sahələr son dərəcə genişmiqyaslı və çoxşaxəli idi – elm, təhsil, mədəniyyətdən tutmuş nəqliyyata, hətta o dövrün ən iri layihələrindən biri hesab olunan BAM-ın tikintisinə qədər. Heydər Əliyevin qarşısında öz geniş erudisiyasını, böyük idarəçilik və təşkilatçılıq qabiliyyətini tətbiq etmək üçün hədsiz imkanlar açılır. Yüksək tələbkarlığı, tükənməz enerjisi ilə fərqlənən Heydər Əliyev bu imkanlardan mahir rəhbər kimi istifadə edərək, nə kimi potensiala malik olduğunu qısa müddətdə əyani şəkildə nümayiş etdirdi.

O, yeni tipli siyasi lider kimi təkcə ittifaq miqyasında deyil, həm də dünya miqyasında tanındı. Moskvada Heydər Əliyevin rəhbərliyi altında çalışmış idarə, təşkilat və müəssisələrin rəhbərlərinin və sadə işçilərinin onun şəxsiyyəti, iş üslubu, rəhbər keyfiyyətləri barədə bu günədək söylədikləri yüksək rəy və fikirlər buna əyani sübutdur.

Heydər Əliyevə xas olan istedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat keyfiyyətləri Moskvada işlədiyi müddətdə tezliklə ona çox böyük nüfuz və şöhrət qazandırdı. Onun iş üslubunun bir çox xüsusiyyətləri Kremldəkilərə qeyri-adi görünürdü. O, Kremlin ciddi riayət etdiyi qaydalar çərçivəsindən kənara çıxmadan öz xəttini yürüdür, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayırdı. Onun fəaliyyətini Azərbaycanda hamı böyük diqqətlə və iftixar hissi ilə izləyirdi.

Bu da tamamilə təbii idi. Axı, o vaxta qədər heç bir azərbaycanlı SSRİ-də belə yüksək vəzifə tuta bilməmişdi. Onun Kremldə atdığı elə ilk addımlar təkcə Kremlətrafı mühitdə deyil, hətta uzaq xaricdə geniş əks-səda doğururdu. Qərb mətbuatı bütün sovet stereotiplərini alt-üst edən, Siyasi Büronun heç bir üzvünə bənzəməyən, gülərüz, cavan və hətta incə zövqlə geyinən yeni tipli bir siyasi xadimdən yazırdı. Ərəb ölkələrinin qəzetlərində o, "sovetlərin dəmir xarakterli müsəlman rəhbəri" kimi, türk mətbuatında isə "Kremldəki türk" kimi səciyyələndirilirdi. İndi, keçmiş Sovet İttifaqının bir çox rəhbərlərinin xatirələri və memuarlarının çap edildiyi bir vaxtda, onunla birlikdə işləmiş insanların rəyi ilə tanış olmaq mümkündür. Onun xarakterinin və iş üslubunun bir çox qeyri-adi xüsusiyyətləri həmin kitabların səhifələrində də öz əksini tapmışdır.

Heydər Əliyev Moskvada son dərəcə gərgin iş rejiminə baxmayaraq, Azərbaycan haqqında məlumatlarla daim maraqlanırdı. O, imkan taparaq, Moskvada yaşayıb işləyən azərbaycanlılarla, o cümlədən vaxtilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı gənclərlə görüşür, onların həyatı ilə maraqlanır, üzləşdikləri problemlərin həllinə kömək edirdi. Heydər Əliyevin Moskvada yaşayan azərbaycanlılara diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi.

Keçmiş sovet rəhbərliyinin Heydər Əliyevi "səhhətinə görə" istefaya göndərmək qərarı Mərkəzin Azərbaycana qarşı yönəldilmiş riyakar siyasətinin həyata keçirilməsi yolunda ilk addım oldu. Heydər Əliyev kimi dövlət xadiminin SSRİ rəhbərliyinin yüksək dairələrindən çıxarılması erməni millətçilərinin və onların Kremldəki havadarlarının əl-qolunu açdı. Azərbaycanın o vaxtkı

rəhbərliyinin Mərkəzə yarınmaq üçün yeritdiyi xalqa zidd siyasəti respublikada ictimai-siyasi vəziyyəti son dərəcə kəskinləşdirdi. 1990-cı ilin Qanlı Yanvar hadisələri bütün dünyaya nümayiş etdirdi ki, sovet rəhbərliyi və onun yerlərdəki əlaltıları Azərbaycan xalqına qarşı ən ağır cinayətlər törətməkdən çəkinmirlər.

Pensiyaya göndərilən, "ev dustağı" şəraitində yaşamağa məcbur edilən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş qanlı faciə ilə əlaqədar yaranmış vəziyyətdə daha susa bilməzdi. O, faciənin səhərisi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanatla çıxış etdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm".

Heydər Əliyevin həmin bəyanatda səslənən "qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun bu məsələ ilə əlaqədar sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də öz aktuallığını saxlamışdır. O, həmişə belə bir mövqedən çıxış etmişdir ki, "xalqa qarşı cinayət cəzasız qalmamalıdır". Çünki xalq onun üçün həmişə - onda da, sonralar da ən ülvi dəyər olmuşdur.

1990-cı ilin qanlı 20 Yanvar hadisələri Heydər Əliyevi siyasi fəaliyyətə qaytardı. Lakin artıq bu fəaliyyət sovet sisteminin

məcrasından kənara çıxırdı. Siyasi vəzifəsi olmayan insan keçmiş SSRİ-də siyasi fəaliyyətlə məşğul ola bilməzdi. Buna, sadəcə olaraq, yol verilmirdi, əzəldən sərt qadağa qoyulmuşdu. 20 Yanvar faciəsi ilə əlaqədar onun siyasi bəyanatı təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu.

Heydər Əliyev bu siyasi eraya sıravi vətəndaş kimi qədəm qoydu. Onun rəsmi statusu ittifaq əhəmiyyətli fərdi pensiyaçı idi. Buna baxmayaraq, Heydər Əliyevin adı sovet rəhbərliyində elə bir xof, vahimə yaratmışdı ki, onu siyasi fəaliyyətdən təcrid etmək, susdurmaq üçün hər cür vasitələrə, o cümlədən ən çirkin üsullara əl atılırdı. Heydər Əliyevin əleyhinə ittifaq və respublika mətbuatında genişmiqyaslı kampaniya başlandı. Onunla bağlı olan bütün hadisələr saxtalaşdırılır, yalan və böhtanlar yayılırdı. Onu Kunayevin və Rəşidovun vəziyyətinə salmaq üçün ən iyrənc vasitələrə əl atılırdı. SSRİ-nin o vaxtkı rəhbərlərinin sonralar etdikləri etiraflara görə, “onun ayağının altını möhkəm qazırdılar”. Lakin onlar öz məqsədlərinə çatmaq üçün lazımi faktları yalnız bir səbəbə görə əldə edə bilmədilər - belə faktlar, sadəcə olaraq, yox idi. Əliyev əleyhinə kampaniyanın şişirdilməsi çərçivəsində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsindən tutmuş SSRİ Prokurorluğunun xüsusi qruplarına qədər saysız-hesabsız strukturlar səfərbər olunmuşdu. Sonrakı hadisələr göstərdi ki, Heydər Əliyevin hücumlar üçün hədəf kimi seçilməsindən məqsəd nəticə etibarilə bütün Azərbaycana zərbə endirmək idi. Heydər Əliyevi cismani divan tutmaqla hədələyərək, onu Vətənə qayıtmağa qoymur, ona hansısa şəkildə həyanlıq göstərənlərin hamısını təcrid edirdilər. Heydər Əliyevə qarşı təqibləri dövlət terroru siyasəti səviyyəsinə qaldırmışdılar.

Əjdər Xanbabayev kimi gözəl bir insanın qətlə yetirilməsi, əslində, Heydər Əliyevə qarşı yönəldilmiş aksiyaların gücünə əyani sübutdur. Lakin onu heç nə qorxutmadı və o, bütün maneələri dəf edərək, Vətənə dönməyə imkan tapdı.

1990-cı ildə Azərbaycan Ali Sovetinə seçkilər zamanı Heydər Əliyev deputat seçildi. 1991-ci il ərzində onun Ali Sovetin sessiyalarında etdiyi çıxışlarda istər SSRİ-də, istərsə də respublikada yaranmış böhranlı vəziyyətin dəqiq təhlili verilirdi. Gələcək inkişaf baxımından kommunist sisteminə məhz Heydər Əliyev qətiyyətlə "yox" dedi.

Əslində, bu çıxışlar yeni siyasi gerçəkliklərin, yeni siyasi ideologiyanın inikası idi. Heydər Əliyevin 1991-ci il fevralın 5-də parlamentin sessiyasındakı çıxışından bəzi xarakterik məqamları yada salaq:

"Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında bəzi fikirlərimi və təkliflərimi Ali Məclisə çatdırmaq istəyirəm.

Birinci: ölkə, sovet cəmiyyəti, dövlət üsul-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır.

Bunların səbəbləri: şübhəsiz ki, əmələ gəlmiş vəziyyətə keçmişin ayrı-ayrı mərhələlərində buraxılmış səhvlərin təsirini inkar etmək olmaz. Fəqət, əsas səbəblər "perestroyka" adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir.

Təəssüf ki, bunların üstü örtülüb basdırılır, rəsmi dairələr və kütləvi informasiya orqanları ancaq keçmişi atəşə tuturlar.

Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə ölkəmizdə başlanmış dəyişikliklərin elmi, siyasi və iqtisadi əsaslarla işlənib hazır-

lanmış uzunmüddətli strategiyası olmamış və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər, təbiidir ki, müsbət nəticələr verməmişdir.

Milli siyasət sahəsində buraxılmış böyük səhvlər ölkənin bir çox respublikalarında faciəli vəziyyət yaratmışdır. Alma-Atada, Tbilisidə, Fərqanədə, Bakıda, Novı Uzendə, Oşda, Baltikyanı respublikalarda baş vermiş hadisələr müttəfiq respublikaların hüquqlarının tapdalanmasının, Mərkəzin imperiya siyasətinin nəticəsidir.

Əvvəlki illərdə özünə müəyyən qədər yol açmış demokratiya, aşkarlıq, siyasi plüralizm artıq məhdudlaşdırılır, ölkədə diktatura üsul-idarəsi tətbiq olunur.

Bunların hamısı cəmiyyəti fəlakət həddinə gətirib çıxarmışdır.

Sovet dövlətinin xarici siyasəti də çox qüsurludur.

Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur. Son beş ildə Qorbaçov xalqa çox vədlər verib. Lakin onların heç birini həyata keçirə bilməyib. Söz ilə əməl arasında boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, Kommunist Partiyası nüfuzdan düşüb.

İkinci: ölkədə yaranmış vəziyyət eyni ilə Azərbaycanda da hökm sürür. Respublikanın rəhbərliyi həmişə olduğu kimi, Mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır. Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respub-

likamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub...

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 1920-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə, mümkün olsa, öz sözlərimi deyərəm. Biz 1922-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu, xırda məsələ deyil. Bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması – məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq...

Üçüncü: Azərbaycan Sovet Respublikasının mövcud olduğu 70 ildə Ermənistan Mərkəzin havadarlığına söykənərək, respublikamıza qarşı torpaq iddiaları edib, təxribat əməliyyatları aparıb, nəticədə xeyli torpaqlarımız zəbt olunub. Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə qəsbkarlıq fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq. İndi də belə mövqedəyik.

Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan respublikasının ərazisindən 625 kvadratkilometr

torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan, gərək ki, deputat Bədəlova çıxış elədi və Nüvədi kəndi haqqında danışdı. Sonra deputatlardan biri Zəngəzur, Göyçə mahalı haqqında danışdı. İndi qəti rəqəm demək istəmirəm. Ancaq mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadratkilometr olub. İndi isə 86 min kvadratkilometrdir. Gör əlimizdən nə qədər torpaqlar gedib.

Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər.

Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsini yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaq sahələri verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik.

Burada soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda, arayış verə bilərəm

ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V.Polyaniçko dedi ki, 1977-ci ildə də Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı. Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq".

SSRİ-də gedən dağıdıcı proseslər gündən-günə güclənirdi. Siyasi, iqtisadi və sosial böhran son həddə çatmışdı. Belə bir şəraitdə üzdəniraq yenidənqurma ideoloqları yeni prinsiplər əsasında ittifaq müqaviləsi bağlanmasının zəruriliyindən danışaraq, SSRİ-nın qalıb-qalmaması məsələsini ümumxalq səsverməsinə çıxardılar. Bununla yanaşı, sovet təbliğat maşını hər bir insanı inandırmağa çalışırdı ki, heç bir müttəfiq respublika İttifaqsız yaşaya bilməz.

O dövrdə Naxçıvan Muxtar Respublikası İttifaqın qalıb-qalmaması barədə səsvermədə iştirakdan imtina etmiş yeganə bir diyar oldu. Muxtar respublikanın sakinləri öz Ali Məclisinin sədri Heydər Əliyevin bu prinsipial məsələ ilə əlaqədar mövqeyini tam dəstəkləyərək, İttifaqa "yox" dedilər. Lakin Bakıda Mütəllibov hökuməti öz fəaliyyətini Moskvanın diktəsi ilə quraraq, sübut etməyə çalışırdı ki, Azərbaycan İttifaqdan çıxsa, məhv olar. Ali Sovetin sessiyasında məhz belə fikirlərin səslənməsi üçün hər cür şərait yaradılmışdı və çoxları İttifaqı saxlamağın zəruriliyindən danışırdı. Heydər Əliyev həmin sessiyada öz qəti, sarsılmaz mövqeyini bildirərək, əslində, Azərbaycanın tam müstəqilliyinə nail olmağın zəruriliyini bəyan etdi. 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyevin çıxışının bəzi məqamlarına müraciət edək:

“1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda, çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz.

Biz hamımız bu İttifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda, tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini İttifaq daxilində görmüşük. Mən və mənimlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik...

Ölkənin rəhbərliyi 70 il mövcud olan İttifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni İttifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi İttifaq olmayıb, respublikalar heç də İttifaqda yaşamayıb, əsl İttifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni İttifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır... yetmiş il respublikamız sovet sosialist məzmununu daşıyıb. İndi biz respublikamızın adını bu sözlərdən azad etdik. Bəs indi biz hansı yeni siyasi quruluşu qəbul edirik? Məlum deyil.

Yetmiş il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. Fəqət, bu, heç də yeni bayraq deyil. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?..

28 may Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 may 1918-ci ildə ilk Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Belə olan halda, bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun.

İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət, öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?

Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə, onların İttifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır...

Bu təbliğat əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm. Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm... Fikrimizcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi İttifaqda olan respublikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bərabər hüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının

başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni İttifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin İttifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib.

1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə sovet ordusunun müasir silahlı qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz... Məlumdur ki, Sovet İtifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Eyni zamanda, yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri sovet orqanlarında rəhbər vəzifə tutmamalıdırlar. Demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün

siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidir. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərqərar olmalıdır.

Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin edilə bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək və onlar, tarix bizi bağışlamayacaqdır. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Bu, Heydər Əliyevin yeni mərhələdə siyasi platformasının, gələcək fəaliyyət proqramının əsas prinsiplərini özündə aydın əks etdirən bəyanat idi. Həmin sessiyada bütün Azərbaycan rəhbərliyi ayağa qalxaraq, onu susdurmağa cəhd göstərdi. Bu cəhd baş tutmadı. Heydər Əliyev öz siyasi platformasının müddəalarını xalqa çatdırmağa, böhrandan çıxış yolları barədə fikirlərini ifadə etməyə müvəffəq oldu.

Artıq seçim edilmişdi, geriyə yol yox idi. Beləliklə, Dövlət Təhlükəsizliyi Komitəsinin sabiq sədri, general-mayor, iyirmi yaşından Kommunist Partiyasına sədaqətlə xidmət etmiş, onun ali rəhbərliyində çalışmış olan Heydər Əliyev kommunist seçimindən şüurlu surətdə imtina etmişdi. Bu, uzun sürən gərgin

düşüncələrin, axtarışların məntiqi nəticəsi idi. Azərbaycanın bir nömrəli kommunisti nəinki partiya sıralarını tərk etdi, həm də bu yolun yanlış olduğunu bütün xalqa bəyan etmək üçün özündə qüvvə tapdı. Burada 1990-cı ilin qanlı yanvar faciəsi günlərində partiya biletlərini atan, sonra isə yenidən onun sıralarına qayıtdığını bildirən bəzi üzdəniraq "əqidə sahibləri"ni yada salmaq yerinə düşər. Heydər Əliyevin 1991-ci il iyulun 19-da SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizəsinin mətnini olduğu kimi oxucuların diqqətinə çatdırmaq da yerinə düşərdi:

"Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

Birincisi, hələ 1990-cı ilin yanvarında, Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi ilə Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, Konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbirlə gözlədim. Bir müddət sonra mənim çıxışlarıma cavab əvəzinə, "Pravda"da və partiyanın digər mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycanın kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

Artıq ilyarım keçib. Bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları nəinki üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələn hər şeyi edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaqdır. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyildir.

İkincisi, üç ildən artıqdır ki, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyləri ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət Mərkəzin ikiüzlü siyasəti nəticəsində qalmaqdadır. Vilayət Azərbaycan dövlətinin idarəçiliyindən, əslində, tamamilə çıxmışdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulmuşdur. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən adamlar həlak olur. Bütün bunlar "humanist ideologiyalı" sovet dövləti üçün adi faktdır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişənin qarşısını hələ 1987-ci ildə, təzəcə başladığı vaxtda ala bilərdi, istər Azərbaycan xalqı üçün, istərsə də erməni xalqı üçün dəhşətli fəlakət və müsibətlər gətirmiş bu faciəyə imkan verməzdi. Deməli, bu münaqişə siyasi Mərkəzə lazımdır.

Üçüncüsü, bütün cəmiyyətin demokratikləşməsinin, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə ərazi bütövlüyünün müdafiəsi və cəmiyyətin demokratikləşməsi üçün Azərbaycanda başlanmış geniş demokratik hərəkat Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyləri ilə yatırılmışdır. Bu illərdə bir çox insanlar siyasi fəaliyyətinə görə repressiyalara məruz qalmışdır.

Artıq ilyarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən saxtalaşdırılmış referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın öz iradəsini sərbəst ifadə etməsinə ümid bəsləmək sadəlövhlük olardı. Demokratik təşkilatlar dəfələrlə məsələ qaldırmışdılar ki, seçicilərin əksəriyyəti referendumda iştirak etməmiş, referendumun nəticələri isə saxtalaşdırılmışdır. Lakin Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağı belə lüzum bilməmişdir.

Mən Mərkəz tərəfindən zorla qəbul etdirilən yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. Hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət, habelə bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Əsl siyasi, iqtisadi azadlıqlar üçün, milli dövlətin dirçəldilməsi məqsədi ilə müstəqillik üçün bütün müttəfiq respublikalara imkan vermək lazımdır. Bu, respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə əsla mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətlərdə inkişaf etməsinə təsir göstərər.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi mən öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırmışam. Təklif edirdim ki, xalq arasında nüfuzunu tamamilə itirən Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabər hüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranması üçün aşkarlıq və plüralizm üçün şərait yaratsın.

Lakin Azərbaycanın kommunist rəhbərliyi nəinki mənim çıxışlarıma və təkliflərimə baxmır, əksinə, onlara mənə qarşı

mütəşəkkil və hazırlanmış hücumlarla cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxdığımı bildirməyə məcbur etmişdir, hərçənd ki, bu qərara gəlmək mənim üçün son dərəcə çətin olmuşdur.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlı olmuşdur. 1943-cü ildə, 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyası ilə bağlamışam. Kommunist partiyasının ideallarına bütün varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi inamım məni tərk etmişdir. Yeniləşən partiya və respublikaların yeniləşən İttifaqı haqqında saysız-hesabsız bəyanatlar xalqı yenə də aldatmaqdır.

Xalqa açıq və düzünü demək lazımdır ki, ölkəmizdə kommunist eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaradılmış və saxlanılan respublikalar İttifaqı dağılmaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edirəm, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun açıq təhlili məni yuxarıda bəyan etdiyim mövqeyə gətirib çıxardı”.

1990-cı ilin yanvarından başlayaraq, Bakı və bütün Azərbaycan son dərəcə gərgin bir vəziyyətdə yaşayırdı. Fövqəladə vəziyyət şəraitində parlament və prezident seçkiləri keçirilmişdi. Sovet ordusunun tankları və əsgərləri Bakının küçələrində, strateji nöqtələrdə yerləşdirilmişdi. Bakının, bütün Azərbaycanın

taleyini Moskva emissarları və hərbi bölmələr müəyyən edirdi. Dağlıq Qarabağda vəziyyət günbəgün gərginləşirdi.

1991-ci il avqustun 29-da biz deputat Heydər Əliyevi Ali Sovetin tribunasında yenidən gördük. Onun çıxışında acı həqiqətlə yanaşı, sərt prinsipial tələblər də səslənirdi. Bu tələblərin ən başlıcası 20 yanvar hadisələrinə qiymət verilməsi barədə idi. Heydər Əliyevin 1991-ci il avqustun 29-da Ali Sovetin sessiyasındakı çıxışından:

"Hörmətli millət vəkilləri! Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət hakimiyyəti böhranı son dərəcə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupların həyata keçirdikləri dövlət çevrilişi boşa çıxıb. Biz artıq Sovet imperiyasının, Kommunist partiyasının dağılmasının şahidiyik. Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır.

Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti, buraxdığı kobud və bağışlanılmaz səhvlərdir *(zaldan etiraz səsləri)*. Mən xahiş edirəm ki, sessiyada heç bir deputatı öz sözünü deməkdən məhrum etməyəsiniz. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi ölkədə olmuş 19-22 avqust dövlət çevrilişini, Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş, beləliklə də, Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur. Erməni millətçiləri bu haldan dərhal çevikcəsinə istifadə etmiş, respublikamıza qarşı hərbi əməliyyatı, siyasi təbliğatı gücləndirmişlər.

İndi biz respublikanın həyatında ən çətin dövrdə çıxış yolu tapmalıyıq. Çıxış yolunun tapılmasına hamımız səy göstərməliyik. Ancaq biz aydın etməliyik: bu çıxış yolunu biz necə tapa

bilərik? Son günlərdə, o cümlədən bu gün bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikib. Ancaq biz bu günlərdə nəyin bahasına olursa-olsun, milli birlik yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: biz bu milli birliyə hansı platforma əsasında nail ola bilərik? Bu birliyi təmin etmək üçün bir neçə şərt təcili olaraq yerinə yetirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarımda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart aylarında keçirilən sessiyalarında, bu il iyul ayının 19-da Kommunist partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət, bu il avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyim məktubda göstərmişəm. Təkrar etmək istəmirəm. Ancaq bu təkliflər haqqında bir neçə əlavə fikrimi bildirmək istəyirəm.

Birinci: ilyarımdır ki, Bakıda fövqəladə vəziyyət hökm sürür. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır? O, götürülməlidir. Çox yaxşı, ancaq bəs bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanvarın 22-də qəbul olunmuş qərarı ləğv olunub və indiyə qədər həyata keçirilməyibdir? Aydınlaşdırmaq lazımdır ki, bu ilyarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər dəyib.

İkinci: Azərbaycan Respublikası rəhbərliyinin dövlət çevrilişi haqqında mövqeyinə dair cürbəcür söhbətlər gəzir. Xarici və İttifaq informasiya orqanları bu barədə xəbərlər yayırlar və bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o, bizə məlum deyil, ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti rus və

Azərbaycan dillərində oxunub və bu müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və Dövlət Fövqəladə Vəziyyət Komitəsinin köməyi ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlı erməni quldur qruplarının tərksilah olunması məsələsinin həlli fövqəladə vəziyyət komitəsinin fəaliyyəti ilə bağlanıbdır. Bunu aydın demək lazımdır. Əgər belə bir səhv buraxılıbsa, bunu açıq etiraf etmək lazımdır, xalq həqiqəti bilməlidir. Bu gün belə, sabah isə başqa cür demək olmaz, bu, heç bir xalqda inam yarada bilməz.

Üçüncü: xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. O, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını saxlamaq, bunu qurultayda həll etmək fikri məsələni uzatmaq, kommunist partiyasının imkanlarından yenə istifadə etmək meylini göstərir. Bununla heç cür razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün mətbuat orqanlarının fəaliyyəti dayandırılmalıdır və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Parlament bunun üçün komissiya yaratmalıdır.

Məlumdur ki, Fövqəladə Vəziyyət Komitəsinin hökm sürdüyü dövrdə Azərbaycan Respublikasının mətbuat orqanları, partiyanın mətbuat orqanları bu komitənin sənədlərini 3 gün ərzində rus və Azərbaycan dillərində dərc edəyib. Elə bunun özü əməkdaşlığın olmasını göstərir. Kommunist partiyasının mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidir.

Dördüncü: 20 Yanvar faciəsindən ilyarımdan çox vaxt keçir. Bu gün burada, bu salonda da cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir.

Mən Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova sual verirəm: bu məsələyə indiyə qədər nə üçün siyasi qiymət verilməyib? Mən Tamerlan Qarayevin verdiyi arayışla razı ola bilmərəm. Çünki bu məsələnin həm siyasi, həm də hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı məsələnin hüquqi cəhətinə, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunmasına, onu, şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Məsələyə siyasi qiymət verilmədiyinə görə, başqa tədbirləri də həyata keçirmək olmur.

Bu hərbi təcavüzün günahkarı kimdir? Bu gün deyirlər ki, Yazov, Kryuçkov, Bakatin, Girenko, Qorbaçov. Bu, doğrudur. Bəs, Azərbaycan rəhbərliyindən kimdir günahkar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa üzvləri. Bəli, əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Başqa qüvvələr də günahkardırsa, demokratik qüvvələr, Xalq Cəbhəsi də günahkardırsa, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitlik əldə etmək olmaz. Əgər bu məsələyə siyasi qiymət verilibsə, Ayaz Mütəllibovdan xahiş edirəm desin, Qorbaçov 3 nazirin təyin olunması barədə 9 respublikanın rəhbərlərinin razılığını alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin olunmasına nə üçün etiraz etməmişdir? Əgər edibsə, bəs niyə çıxışında demədi? Nə üçün 20 Yanvar faciəsinin günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatları qurultayına Hazırlıq komissiyasına üzv seçilibdir. Onu ora kim təqdim edib? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günahkardırlar, mən bunu tam açıqlığı ilə demək istəyirəm.

Bütün bu məsələləri aydınlaşdırmadan, - şübhəsiz ki, mən də çıxış edən deputatların təklifləri ilə razıyam, - Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Sonra, Azərbaycan Respublikası Ali Soveti deputatlarının əksəriyyəti, tam əksəriyyəti kommunist olduqlarına görə, Kommunist Partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə, mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər keçirilməlidir.

Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra, xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə də heç narahat olmayın. Mən bu gün öz vicdanım qarşısında cavabdeh olaraq bu çıxışı edirəm".

Beləliklə, bütün bu çıxışlardan göründüyü kimi, 1987-1991-ci illərdə Heydər Əliyevi məhz milli dövlətçiliyimizin taleyi narahat edirdi. O, artıq öz siyasi seçimini etmiş və Azərbaycanın müstəqilliyi uğrunda gərgin siyasi mübarizəyə başlamışdı. Onun Naxçıvanda həyata keçirdiyi siyasət sayəsində Azərbaycanın bu qədim diyarında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa edilmiş, "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdi. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin təşəkkülünün əsas ideyaları və yolları haqqında ən başlıca taleyüklü fikirlərini 1992-ci ildə yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi platformasında əks etdirdi. Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetindəki çıxışları ilə həmvətənlərini yaranmış vəziyyəti təhlil etməyə və Azərbaycanın yeni inkişaf yolu barədə öz seçimlərini etməyə çağırdı. Onun şəxsi siyasi kredosu müstəqil milli dövlət quruculuğu konsepsiyasında əksini tapdı.

O, hələ 1990-cı ilin baharında deyirdi: "İstəyirəm xalqımızda birlik olsun, milli qürur hissi daha güclü olsun, tariximizi sevək, el üçün yanmış şəxsiyyətlərimizin qədrini bilək...". Bu zaman onun ən dəruni arzusu və ümidi də məhz xalqın birliyinə, bütün azərbaycanlıların həmrəyliyinə əsaslanan milli dövlət qurmaqla bağlı idi. Ancaq o, hətta Naxçıvanda da şəxsən özünə qarşı yönəldilmiş bir çox hücumlara və təqiblərə məruz qalırdı. Heydər Əliyev "el üçün yanmış şəxsiyyətlərin qədrini bilməkdən" danışdığı bir vaxtda, Bakıda əyləşən bəzi nazirlər həyatlarının başlıca məqsədini Heydər Əliyevi cismən məhv etməkdə görürdülər.

Tarixin hökmü ilə baş verən hadisələr isə sanki Heydər Əliyevin 1991-ci il ərzindəki çıxışlarında göstərdiyi ssenari üzrə cərəyan edirdi. 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının XXXIII fövqəladə qurultayı çağırıldı. Azərbaycan Kommunist Partiyası məhz bu qurultayda ləğv olundu. Nəhayət, kommunizmə rəsmi səviyyədə də "yox" deyildi. 1991-ci il dekabrın 8-də SSRİ adlı nəhəng bir dövlət dünyanın siyasi xəritəsindən silindi. "Azərbaycanın dövlət müstəqilliyi haqqında" 1991-ci il oktyabrın 18-də qəbul olunmuş Konstitusiya aktı, nəhayət ki, dekabrın 29-da ümumxalq referendumuna çıxarıldı. Bu Konstitusiya aktı qüvvəyə minərək, Azərbaycanın müstəqillik, suverenlik yolunu seçməsi haqqında qəti qərarını hüquqi cəhətdən təsdiq etdi. Azərbaycanın müstəqilliyi qısa bir zamanda Birləşmiş Millətlər Təşkilatı tərəfindən və beynəlxalq hüquq normalarına uyğun olaraq, dünyanın bütün ölkələri tərəfindən tanındı. Lakin Azərbaycanda müstəqil milli dövlət quruculuğu prosesi bir çox ciddi əngəllərlə üzləşirdi. 1990-1991-ci illərdə Dağlıq Qarabağda

hadisələr gündən-günə gərginləşirdi. Respublikada baş alıb gedən siyasi hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr dövlətçiliyə ağır zərbələr vururdu. 1992-ci ilin may-iyun aylarında Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətə gəldi. Həmin günlərdə nəinki dövlət quruculuğu prosesi ilə bağlı məsələlər ön plana çəkilmirdi, hətta hər bir azərbaycanlının ləyaqətinə və qüruruna toxunan ağlasığmaz qərarlar qəbul edilirdi. Bu baxımdan Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərarı milli özünüdərk və milli dövlətçilik ideyasının dirçəldilməsinə vurulan ən ağır zərbələrdən biri hesab etmək olar.

Çox qısa bir müddətdə respublikada yaranan ictimai-siyasi hərc-mərclik dövlətçilik böhranına və Azərbaycanın məhv olması təhlükəsinə gətirib çıxardı. 1993-cü ilin iyununda baş verən Gəncə qiyamı Xalq Cəbhəsinin daxilində gedən qarşıdurmanı siyasi, hərbi və ictimai böhran müstəvisinə keçirdi. “Olum, ya ölüm” dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı yeganə ümidini Heydər Əliyevin hakimiyyətə dəvət olunmasında gördü.

1993-cü ilin iyun ayında deputat Heydər Əliyev Azərbaycan parlamentinin başçısı seçildi. Onun ilk üç ay ərzindəki gərgin fəaliyyəti hər hansı bir nəzəriyyədən və ideyalardan tamamilə uzaq idi. Milli Məclisin televiziya ilə birbaşa yayımlanan iclasları zamanı aparılan kəskin siyasi diskussiyalar, ayrı-ayrı siyasi və ictimai xadimlərlə görüşlər, qəti qərarlar və konsturiktiv təkliflər Heydər Əliyevə bu üç ay ərzində dərin siyasi və ictimai böhran prosesini dayandırmağa imkan verdi. Bu, möcüzəyə bənzər bir hadisə idi. Əslində, tabeliyində heç bir qurum olmayan, yalnız öz sözünə və zəkasına arxalanan siyasi xadim məhz öz zəngin rəhbərlik təcrübəsinə əsaslanaraq, dövlətin dağılmasının qarşısını ala bildi. “Fəaliyyətini donduran” dövlət məmurlarının

sabotajı, ancaq öz bölgə komandirlərinə tabe olan silahlı qurumlar, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş bir məmləkət – bunların hamısı acı gerçəklik idi. Lakin o da gerçəklik idi ki, 1993-cü ilin oktyabrında Azərbaycan xalqı Heydər Əliyevi öz Prezidenti seçdi. Artıq sonrakı aylarda Azərbaycanda dövlət var idi, dövlət qurumları fəaliyyət göstərirdi. Respublikada həyat tədricən normal məcrasına qayıdırdı.

1993-cü ilin 10 oktyabr günü. Zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etmiş Heydər Əliyev əlini Konstitusiyaya və Qurana basaraq, Azərbaycan xalqına sədaqətlə xidmət edəcəyinə, müstəqil dövlətimizin dünya birliyində layiqli yer tutmasına çalışacağına, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacağına və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafını təmin edəcəyinə and içdi.

Ölkə müharibənin od-alovu içərisində idi. Buna baxmayaraq, Prezident andiçmə mərasimindən cəmi 20 gün sonra xalq şairi Məmməd Arazın yubiley gecəsində iştirak etdi. O, bunu onunla izah etdi ki, Məmməd Araz Azərbaycan xalqının milli özünüdərkinin təşəkkülündə müstəsna xidməti olan qələm sahiblərindən biridir.

Heydər Əliyev mədəniyyət və ədəbiyyat xadimlərimizin arasında üç söz ustasının - Bəxtiyar Vahabzadənin, Məmməd Arazın və mərhum Xəlil Rzanın adlarını çəkərək deyir: “Dövlətimiz müstəqil dövlətdir, formalaşır, onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat - “İstiqlal” ordeni - təsis olunub. Bu orden birinci kimə çatmalıdır? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy etmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bizim görkəmli şəxsiyyətlərimizə çatmalıdır.

Bu şərəfə, ilk növbədə görkəmli şəxsiyyətlərimiz layiq görülməlidirlər. Buna görə də mən dünən Fərman verdim və hörmətli şairlərimiz Bəxtiyar Vahabzadə, Məmməd Araz və mərhum Xəlil Rza Azərbaycan xalqının milli azadlığı uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə bu ordenlə təltif olundular. Hesab edirəm ki, düzgün addım atmışam. Düşünürəm ki, xalqımız, ictimaiyyətimiz bunu bəyənəcəkdir". Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevrildiyi haldır.

Yanvar hadisələrinin dördüncü ildönümü yaxınlaşırdı. Heydər Əliyev Fərman imzalayır və burada sovet qoşunlarının 1990-cı ilin yanvarında Azərbaycana təcavüzünə ilk dəfə hüquqi və ictimai-siyasi qiymət verilir. İfadələr son dərəcə dəqiqdir: totalitarizmin insanlığa və humanizmə qarşı tarixdə görünməmiş cinayəti. 20 Yanvar faciəsinə onun verdiyi siyasi qiymət məhz belədir.

Bir qədər əvvəl - 1993-cü il sentyabrın 21-də, Azərbaycan üçün hələ olduqca çətin və həyəcanlı günlərdə, Ermənistanın işğalının öz miqyasına və xarakterinə görə görünməmiş bir şəkil aldığı dövrdə prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə müharibədən və iqtisadi çətinliklərdən daha çox mədəniyyətə qayğıdan danışır və mütəfəkkir şair Məhəmməd Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsinin zəruriliyini vurğulayırdı: "Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, həm də bəşəriyyət qarşısında böyük xidmətləri olan, dünya mədəniyyətinə qiymətli töhfələr vermiş

böyük filosof və mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq".

Bu sözlər hərbi sahədəki uğursuzluqlarla və torpaqlarımızın bir hissəsinin işğalı ilə yanaşı, Azərbaycanda terror və sui-qəsd cəhdlərinin davam etdiyi, anarxiya meyillərinin güclü olduğu, ölkənin ziddiyyətlər məngənəsində boğulduğu bir zamanda deyilmişdi. Bunun səbəbi çox sadədir və Heydər Əliyevin siyasi mövqeyi ilə bilavasitə bağlıdır. O, öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəldilməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli-mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət verirdi. Füzulinin 500 illik yubileyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclasında Prezidentin dediyi aşağıdakı sözlər bu baxımdan olduqca səciyyəvidir: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

Prezident 1994-cü il martın 16-da Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Fərman imzalayır. Azərbaycan dövlətçiliyi və azərbaycançılıq baxımından Heydər Əliyevin Füzulinin yubileyi ilə bağlı fikir və tövsiyələri müstəqil Azərbaycanda öz aktuallığını həmişə saxlayacaqdır: "...bu yubileyi keçirməklə biz xalqımızın özünü daha yaxından tanıması üçün

hər şey edəcəyik və etməliyik. Xalq gərək öz kökünü daim xatırlasın, tarixini öyrənsin, öz milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Bu yubileyin keçirilməsi, şübhəsiz, indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə nə qədər böyük töhfələr verdiyini bir daha dərk etməsinə imkan verəcək və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar hissini daha da yüksəldəcəkdir. Elə bunun özü müstəqil Azərbaycanda bizim üçün zəruri amildir".

Heydər Əliyev bu yubileyin Azərbaycan gəncliyi üçün əhəmiyyətini vurğulayır. Gənclik azərbaycançılıq ideologiyasından yaxşı baş çıxarmalı, Azərbaycan xalqının mədəniyyətini, incəsənətini, elmini bilməlidir. Bu, son dərəcə mühüm məsələdir. Azərbaycanın müstəqilliyinin başlıca mənbəyi və bu müstəqilliyin dönməzliyi və əbədiliyinin təminatçısı məhz Azərbaycan gəncliyidir.

Müstəqil Azərbaycanın keçirdiyi bu mədəniyyət və incəsənət bayramı beynəlxalq miqyas aldı və Parisdə - YUNESKO-nun iqamətgahında, İraqda, Mərkəzi Asiya respublikalarında, qonşu İranda, Türkiyədə və Rusiyada da qeyd olundu. Sonuncu iki ölkədəki yubiley təntənələrində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Heydər Əliyev dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin yubileyinin bayram olunmasının başlıca mənasını mədəni irsimizi, tariximizi, milli incəsənətimizi bir daha, - bu dəfə artıq milli müstəqillik dövründə, - təhlil süzgəcindən keçirməkdə və bunları ideoloji buxovlardan və qadağalardan xilas etməkdə görürdü. Buna görə də Heydər Əliyev deyirdi: "Biz Füzulinin 500 illiyini məhz müstəqillik dövründə keçirdik. Digər tərəfdən, əsl poeziya bayramına, milli

mədəniyyət bayramına çevrilən bu təntənələr Azərbaycan dövlətçiliyinin, Azərbaycanın müstəqilliyinin bayramı oldu".

Təbiidir ki, tariximizin sovet dövründə Füzuli yaradıcılığının mahiyyətini bütün genişliyi ilə açmaq mümkün deyildi. Sadəcə olaraq, bu, sovet ideologiyasının hakimlik ruhuna sığışmırdı. Dahi sənətkarın əsərlərinin xeyli hissəsi geniş oxucu kütləsinin diqqətindən kənarda qalmışdı. Onun yalnız bu və ya digər dərəcədə marksist-leninçi yozumuna uyğun gələn fəlsəfi əsərləri təbliğ olunurdu. Heydər Əliyevin xidməti bundadır ki, onun sayəsində böyük şair Azərbaycan xalqı qarşısında ilk dəfə bütün əzəməti ilə, ideoloji qəliblərdən azad olunmuş şəkildə dayandı.

Heydər Əliyev dövrlər arasında bolşevizm tərəfindən qırılmış müqəddəs əlaqəni özünün bütün siyasəti ilə bərpa etdi. O, bu çox çətin məsələnin bir hissəsini hələ 1969-1982-ci illərdə həll etmişdi. Lakin onun Azərbaycan xalqının milli dirçəlişinə dair fəlsəfi konsepsiyası, əlbəttə ki, tam şəkildə yalnız müstəqil Azərbaycanda həyata keçirilə bilərdi. Burada onun fəlsəfi dünyagörüşünün əsasını ümumbəşəri idealların və milli dəyərlərin ahəngdar vəhdəti təşkil etdi. O, bütün tariximizi əsl böyük humanizm məktəbi, yüksək tolerantlıq, mədəniyyətlərin və sivilizasiyaların ibrətamiz dialoqu kimi gördü. Heydər Əliyev tərəfindən Azərbaycanın nadir coğrafi-siyasi mövqeyi həm Böyük İpək yolunun dirçəldilməsi kimi genişmiqyaslı iqtisadi layihələrin reallaşdırılması üçün istifadə edildi, həm də o, Azərbaycan mədəniyyətinin əsl əhəmiyyətini bütün genişliyi və müxtəlifliyi ilə fəlsəfi baxımdan dərk etmək üçün bünövrə oldu.

Azərbaycan Respublikasının təqvimində faşizm üzərində Qələbə gününün bərpası kimi sadə addımlardan başlayaraq elm, mədəniyyət və təhsil sahəsində dəyişikliklərə qədər Heydər

Əliyevin son 10 ildə gördüyü bütün işlər onun milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsinə, azərbaycançılıq ideologiyasının formalaşmasına xidmət etmişdir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin 500 illiyinin keçirilməsi haqqında Fərman imzalanandan düz bir il sonra Azərbaycanın başının üstünü yenidən təhlükə aldı. Lakin Azərbaycan xalqı milli müstəqillik kimi müqəddəs sərvətini qoruyub saxlamaq üçün özündə güc tapdı. Bu təhlükəni aradan qaldıran xalq öz əziz bayramına qovuşdu. Nəhayət, 1996-cı ilin yazında Bakıda keçirilən yubiley şənlikləri məhz Prezident Heydər Əliyevin istədiyi kimi, müstəqil dövlətimizin böyük ədəbiyyat və mədəniyyət bayramı oldu. Dahi Füzulinin şərəfinə keçirilən bu bayram, həqiqətən, Azərbaycan dövlətçiliyinin təntənəsinə çevrildi. Hələ bir neçə il əvvəl böhran, hərc-mərclik, anarxiya və vətəndaş müharibəsi təhlükəsi içərisində olan ölkə öz böyük mədəniyyətinin böyük bayramını misilsiz ruh yüksəkliyi ilə qeyd etdi.

1993-cü il oktyabrın 28-də Heydər Əliyev Rusiyada yaşayan azərbaycanlıların nümayəndələrindən biri, məşhur neftçi Fərman Salmanovla görüşdü. Bu görüşü 2001-ci il noyabr ayının 9-da keçirilən Dünya azərbaycanlılarının birinci qurultayından təxminən səkkiz illik bir vaxt ayırır. Məhz bu qurultayda Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməli barəsində danışarkən ona çox dəqiq və aforizmə bənzər bir tərif verdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır". Bu səkkiz ildə Azərbaycanın siyasi, ictimai və mədəni həyatında baş verən bir çox hadisələr, əslində, milli dövlətçiliyimizin prinsiplərinin ideya baxımından formalaşmasına xidmət etmişdir. Bu prosesləri diqqətlə izləyən, çox vaxt onların təşəbbüskarı

və iştirakçısı olan Heydər Əliyev belə bir fikri vurğulayır ki, "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda, Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da - intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim dahi insanlardır. Onlar bəşər mədəniyyətini əsrlərdən-əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".

Azərbaycançılıq ideologiyasının formalaşdırılması sahəsində atılan ən böyük addımlardan biri misilsiz milli-mənəvi sərvətimiz olan "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılması oldu. "Dədə Qorqud" eposu 1930-cu illərdən bəri qadağan olunmuş, ona pantürkizm damğası vurulmuşdu. Müstəqil Azərbaycan dövləti eposa öz rəsmi münasibətini bildirdi və bu, Prezident Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında 1997-ci il 20 aprel tarixli Fərmanında öz əksini tapdı. Azərbaycan Prezidenti 1999-cu il fevralın 21-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Sərəncam imzaladı. Yubiley təntənələrindəki çıxışlarında o, türk xalqlarının ümumi tarixi köklərinin "Dədə Qorqud"la bağlı olduğunu bildirərək, eposun bütün türk xalqlarına, lakin ilk növbədə, Azərbaycan xalqına mənsub olduğunu vurğuladı və bu qəhrəmanlıq eposunu milli sərvətimizin ən əzəmətli və parlaq abidəsi kimi səciyyələndirdi.

Dədə Qorqud xalq birliyi, dövlətçilik düşüncəsinin daşıyıcısıdır. Heydər Əliyev başlıca ideyası vətənpərvərlik olan

"Kitabi-Dədə Qorqud" haqqında danışarkən demişdir: "Əsrlərin və minilliklərin qovuşduğu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlət başçılarının, dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos, nəhayət, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də təkcə bir cəngavər, bir igid haqqında deyil, bütöv bir xalqın qəhrəmanlığı haqqında eposdur... Eposun əsas mahiyyətini qəhrəmanlıq ideyası təşkil edir. Xalqımızın həyatının bugünkü mərhələsində, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, onun ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə qədər vacib olduğu gün kimi aydındır".

Hər bir xalqın, dövlətin milli ideallar sistemi var. Bu mənada epos azərbaycançılıq ideologiyasında mühüm yer tutur. "Bizim üçün bir tarixi amil, azərbaycançılıq var" - söyləyən Heydər Əliyevin fikrincə, bu baxımdan milli dövlətçiliyimizin ideya təməlində "Kitabi-Dədə Qorqud"un yeri tamamilə aydın görünür. Buna görə də Azərbaycan Prezidenti iftixar hissi ilə bildirir ki, "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim qədim əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz var, fəxr edirik ki, Dədə Qorqud kimi əcdadımız var... Bir sözlə, "Kitabi-Dədə Qorqud" bu gün bizə çox gərəkdir".

Hamımızın ümumi ruhunun ifadəçisi olan "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin təntənə ilə keçirilməsi, həqiqətən, onu birdəfəlik Azərbaycan xalqının mənəvi sərvətinə çevirdi, gənclərimizin mənəvi dəyərlər sisteminə daxil etdi.

"Kitabi-Dədə Qorqud"un yubileyi sayəsində xalqın diqqəti bir daha milli ənənələrə, özünün zəngin milli-mənəvi xəzinəsi olan mədəniyyətinə yönəldi. "Kitabi-Dədə Qorqud Ensiklopediyası" yaradıldı və bu eposun nə qədər zəngin sərvət olduğu bütün dünyaya tanıdıldı.

Heydər Əliyevin "Biz yeni əsrə, yeni minilliyə Qorqud irsinin bayrağı altında, Qorqudun övladları, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq" sözləri bu baxımdan son dərəcə mənalıdır.

Heydər Əliyev dünya azərbaycanlılarının qurultayındakı dolğun nitqini bitirərkən demişdir: "Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!". Heydər Əliyevin bu sözlərini mahiyyətcə canlı orqanizmi xatırladan, milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etmək olar.

Qoy, bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın! Qoy, bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın! Qoy, Azərbaycanın bu həmişəyaşıl mənəvi sərvətlər ormanlığından bir ağac belə kəsilməsin! Qoy, Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim günəş nur saçsın!

Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır.

Lakin unutmamalıyıq ki, bu gün Azərbaycanda xarici qüvvələrin dəstəklədiyi, vətəndaş qarşıdurması qızışdırmaq istəyən məsuliyyətsiz adamlar vardır. Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyəti yalnız öz zəkasının gücü ilə idarə edir.

Azərbaycanın böyük dövlətlərin arasında məngənəyə alındığı ağır bir vaxtda Heydər Əliyev öz xalqının xilaskarı kimi gəldi. O, tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu yaxın və uzaq dövlətlər ilə münasibətlərdə etmək o qədər də çətin deyildi, çünki bu ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən və milli özgünlüyündən heç vaxt imtina etməyəcəkdir.

Heydər Əliyev bizim müasirimizdir. Elə bircə bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi dahi tarixi şəxsiyyətdir.

Heydər Əliyev bütün varlığı ilə Azərbaycanın, onun bu gününün və gözəl gələcəyinin təcəssümüdür. Hətta 2003-cü il aprelin 21-də Respublika sarayında baş vermiş hadisə də xalqının dahi oğlu kimi onun nüfuzuna xələl gətirməmişdir. O, yıxıldıqdan sonra iki dəfə tribunaya qayıtmaqla dövlətçilik iradəsi və məsuliyyəti nümayiş etdirərək, sanki ölkənin bütün vətəndaşlarına bir daha bildirdi: “Narahat olmayın, mən sizinləyəm və biz birlikdə Azərbaycan dövlətini bütün çətinliklərdən keçirərək, sivilizasiyalı inkişaf yoluna çıxaracağıq”.

Fransanın “Kuryer İnternasional” jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler dövlətimizin başçısı Heydər Əliyevə həsr etdiyi məqaləsində yazır: “Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda

göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq.

Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: "Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir".

*"Azərbaycan" qəzeti,*
*7 iyun 2003-cü il.*

## DÖNÜŞ ONİLLİYİ

### Biz hansı dövləti və cəmiyyəti qurmağa çalışırıq

Hər bir ictimai–siyasi quruluş dövlətçilik formalarına öz düzəlişlərini edərək prioritetləri, idarəçilik tiplərini və bütöv nəsillərin təfəkkür formalarını dəyişdirir.

XX əsrin hələ 40-cı illərində qloballaşmanın gələcək ideoloqları "fiziki, iqtisadi və mədəni sərhədlər tanımayan ideal açıq cəmiyyət" arzu edirdilər. Bu arzunun təcəssümü indi siyasət, iqtisadiyyat, din, mədəniyyət, sosial həyat, hərbi əməkdaşlıq sahələrində və digər sahələrdə dövlətlər arasında əlaqələrin intensivləşdirilməsində öz əksini tapır.

Vahid mədəniliyin və eyniliyin müəyyən edilmiş səviyyəsi inkişafın Qərb modelləri üzrə standartlaşdırmaya gətirib çıxarır. Ölkələrdə tarixən təşəkkül tapmış ənənəvi həyat tərzi, sabitləşmiş meyar və anlayışlar, adət edilmiş mənəvi dəyərlər, milli həyatın əxlaqi komponentləri dağılır. Dərinləşməkdə olan qloballaşma prosesi fərdin sosial simasını və dünya nizamının geostrategiyasını dəyişdirir.

Bunlar obyektiv proseslərdir. Lakin nəzərə almaq lazımdır ki, qloballaşma və milli dövlətçilik indi bir-biri ilə ziddiyyətə girir. Bu problemlərin həlli dövlətdən elmi surətdə işlənib hazırlanmış srategiyanın və yoxlanılmış siyasi texnologiyaların tətbiq olunmasını tələb edir.

Müasir dünyada milli dövlətçilik heç də təkcə dəqiq müəyyənləşdirilmiş dövlət sərhədləri çərçivəsində inkişafın əsas

atributu deyildir. Özü də tam monoetnik və mədəni cəhətdən yekcins cəmiyyət qurulması xülyadır, etnomillətçilik ideyası isə, müəyyən bir etnik qrupun ərazinin və dövlətçiliyin "sahibi" olması barədə təsəvvürlər vətəndaş cəmiyyəti yaradılmasına əsla kömək etməyən münaqişələr törədir. Bununla yanaşı, milli dövlətçilik heç də təkcə müstəqil daxili və xarici siyasət aparılması üçün "razılığın" olması demək deyildir. Bu, vahid məqsədə - dövləti möhkəmlətmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha yaxşı həyat şəraiti yaratmaq məqsədinə nail olmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir.

XXI əsrin milli dövlətçiliyini nəzərdən keçirərkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı surətdə bağlı olan bir neçə amilin - milli mənafeyin, insan hüquqlarının və ümumbəşəri humanitar dəyərlərin təcəssümüdür. İndi bütün bunlar milli dövlətçiliyin vahid, konkret seqmentidir və ilk növbədə, vətəndaş hüquq və azadlıqlarına istiqamətləndirilmişdir.

Azərbaycanın ən yeni tarixini əsas tutaraq, habelə dövlət quruculuğunun dünya təcrübəsini nəzərə alaraq, inamla təsdiqləmək olar ki, Azərbaycanda milli dövlətçiliyin bünövrəsi 1993-cü ildə, Prezident Heydər Əliyev başda olmaqla, yeni siyasi komandanın səmərəli potensialı müstəqil dövlətçiliyin mahiyyətini və keyfiyyətcə yeni dünya birliyində Azərbaycanın yerini dərk etməyə qadir olmayan əvvəlki elitanın anarxist təsəvvürlərini və pozucu hakimiyyət iddialarını əvəz edən vaxtdan qoyulmuşdur.

Bu məqalədə "milli dövlətçilik" anlayışının araşdırılması təhlil məqsədi daşımır. Bu, ayrıca və olduqca çoxşaxəli vəzifədir. Lakin dövlətin formalaşmasında və təşəkkülündə mühüm rol

oynayan milli dövlətçiliyin əsaslarının onun dinamik, ardıcıl və sabit inkişafı ilə necə çulğaşdığını bilmək bizim üçün vacibdir.

Milli ideya kimi milli dövlətçilik məsələsi XIX əsrin axırları - XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının bir çox görkəmli nümayəndələri tərəfindən dəfələrlə qaldırılmışdır. İdeyanın özünün əməli surətdə və dönməz şəkildə gerçəkləşdirilməsi yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtmasından sonra mümkün olmuşdur.

Keçilmiş yol nə qədər mürəkkəb olsa da, onun böyük hissəsi artıq qət edilmişdir. İndi yalnız kiçik və məsul bir mərhələ - Azərbaycanın postindustrial era ölkələrinin sıralarına maneəsiz daxil olmasını təmin edən mərhələ qalır.

Məsələ yalnız bundadır ki, ölkə öz tarixi yolunun bu mərhələsini hansı müddətə keçəcəkdir.

**Biz hansı yolu keçmişik**

Hər bir sivilizasiyanın, dövlətin və xalqın tarixində iki tarixi dövr – nailiyyətlər və uğurlar dövrü, habelə sarsıntılar və süqut dövrü mövcuddur. Hər bir epoxanı həmin tarixi zaman kəsiyi üçün xüsusi xarici və daxili amillər müşayiət edir. Bu amillər sivilizasiyanın, dövlətin və cəmiyyətin möhkəmliyini imtahana çəkir. Əgər onlardan biri taleyin onu çəkdiyi tarixi sınaqda məhv olmursa, deməli, o, mövcud olmaq hüququna malikdir.

XX əsr Azərbaycan tarixinə nailiyyətlər və müstəqilliyin, sabit dövlətçiliyin qazanılması erası kimi yazılacaq, XXI əsrin başlanğıcı isə milli tarixdə möhkəm və səmərəli iqtisadiyyatı olan, vətəndaş hüquq və azadlıqlarına öncül əhəmiyyət verən və vətəndaş cəmiyyətinin əsaslarının təşəkkül tapdığı güclü dövlətin formalaşdığı dövr kimi qalacaqdır.

Müstəqillik əldə edildiyi gündən ötən on iki il ərzində Azərbaycan müstəqil daxili və xarici siyasəti, iqtisadiyyatı olmayan, totalitar sosiumun, inzibati-amirlik təfəkkür tərzinə malik tipik ənənəvi cəmiyyətdən liberal-demokratik amal və dəyərlərə dönmədən istiqamət götürmüş müasir dövlətə çevrilmişdir. Son illər ərzində ölkədə islahatlar aparılmış, bu islahatlar dövlət idarəçiliyini, iqtisadiyyatı təkmilləşdirilmiş yeni siyasi mədəniyyət yaratmış və hakimiyyət-cəmiyyət müstəvisinin kütləvi şəkildə qavranılması tərzini dəyişdirmişdir.

## Məqsəd və vəzifələrimiz

Dövlətin dinamik, yüksələn xətlə inkişafı həmişə islahatları sürətləndirmək və dövlət idarəçiliyi mexanizmini daim təkmilləşdirmək zərurəti yaradır. Lakin sürətləndirmə hərəkət və aksiyalarda qarma-qarışıqlıq demək deyildir, o, daim hamıdan öndə gedən zamanın tələblərinə uyğun olaraq dövlət idarəçiliyinin, iqtisadi siyasətin keyfiyyətcə yaxşılaşmasına və inkişafına yönəldilmişdir.

İnkişafın hər bir mərhələsi müvafiq qərarlar tələb edir. Prezident Heydər Əliyevin 2002-ci ilin avqustunda Azərbaycan Respublikasının Konstitusiyasına dəyişiklik və əlavələr edilməsi barədə təşəbbüsləri xalq tərəfindən dəstəklənmişdir. Bu referendum demokratik, hüquqi, dünyəvi dövlət olaraq müstəqil Azərbaycan Respublikasının inkişaf istiqamətini uzun illər üçün qabaqcadan müəyyənləşdirmişdir.

## Ölkəmizə necə müxalifət layiqdir

Demokratikləşmə prosesi, hüquq normalarının müəyyənləşdirilməsi və qorunması, siyasi mədəniyyətin inkişaf etdirilməsi mürəkkəb, uzun sürən prosesdir. O, təşkilati və ideoloji xarak-

terli ardıcıl, məntiqi tədbirlər görülməsini, yeni siyasi dəyərləri siyasətin hər bir subyektinin, hər bir insanın həyat tərzinə çevrilməsini tələb edir. Müasir cəmiyyətin siyasi dəyərləri və siyasi etiketi inzibati-amirlik sistemi epoxasının siyasi mübarizəsindən köklü şəkildə fərqlənir.

Hər bir məsələyə yeni tərzdə yanaşmaq tələb olunur. Müasir cəmiyyətin siyasi mədəniyyəti mübarizə aparmağın köhnə nümunələrini, hətta bir növ bolşevik və ya neobolşevik ritorikasını xatırladan nümunələrini qəbul etməyəcəkdir.

Müasir Azərbaycan cəmiyyətində xalqın onun baxışlarına daha uyğun olan dəyərlər sistemini üzə çıxarmaq, dərk etmək imkanı var. Bir də ki, əhali partiyalarına təfriqələr düşmüş, ziddiyyətlərin, dedi-qoduların, pərakəndəliyin baş alıb getdiyi və aralarında siyasi konsensusun olmadığı adamların arxasınca gedəcəkmi?

Müstəqil Azərbaycan Respublikasının siyasi məkanı artıq əvvəlki zamanələrin yeknəsəq monoliti deyildir. Cari iqtisadi, siyasi və sosial inkişaf barədə, ümumən, cəmiyyətin həyatının quruluşu barədə müxtəlif baxışları və mövqeləri ifadə edən mənafe qruplarının və az-çox sabit birliklərin olması ölkənin müasir demokratik quruluşunun ayrılmaz atributudur.

## Prezident xalqın hakimiyyət hüququnu müdafiə etdi

Mən bu məqaləni hazırlayarkən tarixdə analoqlar axtarmağa çalışdım və görkəmli adamların tərcümeyi-halını öyrənərkən, Britaniyanın görkəmli siyasətçisi Uinston Çörçillin həyatına dəfələrlə müraciət etdim. Bu adamın həyat və fəaliyyəti siyasətçi, filosof, tarixçi üçün öyrənmək baxımından olduqca maraqlıdır, kimlər üçünsə təqlid etməkdən ötrü həm də gözəl

nümunədir. Çörçill haqqında kitabları oxuyarkən Hitler Almaniyasının hücumu qarşısında Fransa təslim olduqdan az sonra, 1940-cı il iyunun 18-də onun İcmalar palatasında etdiyi çıxışlarından birinə rast gəldim. O vaxt İcmalar palatasının bir çox üzvləri əmin idi ki, Britaniyanın da taleyi belə olacaqdır. Lakin Britaniyanın yaşadığı dövrün bütün çətinliklərinə baxmayaraq, Çörçill xalqa müraciət edərək, onu "İngiltərə uğrunda döyüş"də qalib gəlmək üçün özünün bütün qüvvələrini cəmləşdirməyə çağırmışdı.

Ola bilsin ki, bu sətirlər ölkəmizdə çoxlarına əlamətdar kimi görünəcəkdir. Müstəqil, amma hələlik möhkəmlənməmiş olan Azərbaycanın rəhbəri Heydər Əliyev 1995-ci ilin oktyabrında xalqa müraciət edərək, onu qanuni hakimiyyəti dəstəkləməyə və bununla da dövlətin sabit və mükəmməl inkişafını təmin etməyə çağırdı. Heydər Əliyev "ölüm təhlükəsi anında" məhz öz çıxışı ilə sabit, demokratik gələcəyə - seçkilərdə iştirak etməyə hazır olan hər kəsin hakimiyyət hüququnun ola biləcəyi gələcəyə doğru mürəkkəb, çətin keçilən yol açmışdır.

Hər bir millətin, dövlətin tarixində elə bir tarixi məqam olur ki, bu zaman liderin həlledici, taleyüklü vaxtda söylədiyi söz dövlətin və millətin inkişafı üçün həyati əhəmiyyət kəsb edə bilər. Özü də bu millətin və dövlətin hansı dövrdə - dinc dövrdə və ya müharibə dövründə yaşamasının fərqi yoxdur, eləcə də, bu savaşın necə adlanmasının fərqi yoxdur. Vacib deyil ki, hər cür savaş qan tökülməsi ilə müşayiət edilsin. Vacib olan budur ki, bu savaş dövlətin və milli özünüdərkin qorunub saxlanmasına yönəldilmiş olsun. Aşağıda misal gətirmək istədiyim sözlər həmişə aktualdır, çünki bu sözlər hər bir millət üçün məqsədyönlülüyə əyani sübut ola bilər.

Çörçill Böyük Britaniyanın Baş naziri seçildikdən üç gün sonra İngiltərə parlamentinin aşağı palatası və Nazirlər Kabineti qarşısında çıxış edərək demişdir: "…Sizə təklif edə biləcəyim ancaq bunlardır - qan, ağır zəhmət, göz yaşları və tər". Bir neçə il sonra başqa bir lider - müharibənin və aclığın viran qoyduğu Almaniyanın kansleri Konrad Adenauer almanların keçmiş əzəmət və qürurunu qaytarmağa çalışaraq, müharibənin köməyi ilə deyil, məhz gərgin əmək sayəsində böyük millət olmağa səy göstərməkdən danışmışdır.

XX əsrin bu görkəmli siyasətçilərinin, əla natiqlərin və doğrudan da çox geniş təfəkkür tərzinə malik bu insanların sözlərində böyük həqiqət var. Yalnız ağır zəhmət, inkişaf etmiş millətlər səviyyəsinə yüksəlmək səyləri və istedadlı lider tarixin gedişini dəyişdirməyə, milləti və dövləti dirçəltməyə qadirdir.

Tarix sübut edir ki, həmişə belə olmuşdur.

Sübuta yetirilmişdir, hər yarım əsrdən bir dünya tarixinin səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadı, bacarığı və ağlasığmaz iş qabiliyyəti sayəsində onların adları və əməlləri bəşəriyyətin xeyli hissəsinin pərəstiş obyektinə çevrilir. Məhz belə insanlar tarixin gedişini dəyişdirmiş və dəyişdirirlər, faydasızı faydalıya, itirilmişi mənalı bir şeyə, irrasional olanı rasionala çevirirlər. Tarix öz girdab və burulğanlarında dövlətləri və xalqları batıraraq, imperiyaları məhv edərək, müstəbidləri taxt-tacdan salaraq, gələcək nəsillərə yalnız elə şəxsiyyətlərin adlarını saxlayır ki, onların haqqında inamla demək olar: onlar xalqla və ölkə ilə birlikdə olmuşlar, qarşıya qoyulmuş məqsədlərə birgə zəhmətlə çatmışlar.

Bu mənada Azərbaycanın tarixi heç də istisna deyildir.

## Ona ölkənin ehtiyacı var idi

Respublikamızın ən yeni tarixi elə bir insan tərəfindən yazılır ki, onun səmərələşdirici potensialı dövləti və milləti dirçəltmiş, gələcək barədə itirilmiş inamı qaytarmışdır. Yaxın keçmişə, ölkənin vətəndaş müharibəsinin astanasında durduğu və qiyamçı komandirlərin iğtişaşları ilə qarşılaşdığı dövrə nəzər salsaq, milli tarixin bütün mürəkkəbliyini və dolaşıqlığını - dövlət və millət müstəqil dövlətçiliyi və milli eyniyyəti qoruyub saxlamaq və ya itirmək dilemması ilə üzləşdiyi dövrü başa düşmək olar. Ona görə də son on il güclü və sabit dövlətçilik yaradılmasına sərf edilmişdir; elə bir dövlətçilik ki, burada fərdin hüquq və azadlıqları əsas kimi götürülür, iqtisadiyyat ardıcıldır və sabit inkişafa şərait yaradılmasına yönəldilmişdir, siyasət isə səmərəlidir, milli həmrəyliyə təminat verir və vətəndaş cəmiyyətini formalaşdırır.

Azərbaycan keşməkeşli və bəzən çox ağrılı-acılı siyasi və sosial-iqtisadi dəyişikliklərə son qoyaraq sıx birlik, iqtisadi yüksəliş, hüquqi dövlətin və demokratik cəmiyyətin əsaslarının möhkəmləndirilməsi dövrünə qədəm qoymuşdur. Daxili dəyişikliklərin başa çatdırılması və ölkənin dinamik inkişaf yoluna çıxması üçün real zəmin yaranmışdır.

Aristotelin belə bir kəlamını xatırlasaq çox yerinə düşər: "Dövlət heç də təkcə yaşamaq naminə deyil, həm də, əsasən, xoşbəxt yaşamaq üçün yaradılır". Çünki yaxın keçmişimiz müxtəlif anarxist qruplaşmaların dövlətdən nə kimi məqsədlər naminə istifadə etmələrinə canlı sübutdur.

Son illər ərzində ölkə totalitar və posttotalitar, ənənəvi təfəkkür və həyat tərzi olan cəmiyyətdən obyektiv surətdə

posttransformasiya erası adlandırıla bilən eraya doğru kəskin sıçrayış etmişdir. Kütləvi şüur oriyentirləri tədricən dəyişir və fərdin dövlət və cəmiyyətdə yeri və rolu yeni səpkidə dərk olunur. Rasional təfəkkür dövrü gəlib çatmışdır, elə bir dövr ki, indi dövlətin hər bir vətəndaşı öz hüquq və vəzifələrini dəqiq dərk etməyə və bir adam hüquqlarının başlandığı yerdə digərinin hüquqlarının məhdudlaşdığını aydın başa düşməyə qadirdir.

Fikir, iradəni ifadə etmək, vicdan və söz azadlığı heç də anarxiya azadlığı demək deyildir. Azadlıq mütləq deyildir. Hər bir azadlığın öz çərçivəsi var və vətəndaşın vəzifəsi də onun hüquqlarının qorunmasını təmin edən qanunlara riayət etməkdir. Heç bir siyasi qüvvə və ya təşkilat dövlətə müxalifətdə ola bilməz. Müxalifətçilik özünü dövlətə qarşı deyil, hakimiyyətə qarşı qoymaq kimi başa düşülməlidir və dövlətin, cəmiyyətin tərəqqisi və inkişafını təmin etməyə məhz bu konstruksiyanın dərk olunması qadirdir.

## Biz vətəndaş cəmiyyəti qururuq

Son illər ərzində iqtisadiyyatın möhkəmlənməsi və artımı Azərbaycanın siyasi inkişafını sabitləşdirməyə imkan vermişdir. Bununla yanaşı, ölkədə vəziyyətin sabitləşməsi onun dünya birliyində mövqeyinə də əlverişli təsir göstərməyə bilməzdi. Azərbaycan XXI əsrə öz milli mənafelərini və dünya səhnəsində rolunu aydın dərk edərək, özünün yaxın və uzunmüddətli xarici siyasət vəzifələrini dəqiq təsəvvür edərək qədəm qoymuşdur. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənmiş, dünyada dostları və həmfikirlərinin sıraları genişlənmişdir. Onun beynəlxalq işlərdə məsul, müstəqil və sonu bəlli olan xətt yeridən etibarlı tərəfdaş kimi nüfuzu yüksəlmişdir.

Qloballaşma proseslərinin tədricən öz təsirini göstərməsi və dövlətin dinamik iqtisadi modernləşdirilməsi onun siyasi cəhətdən təzələnməsini, yəni cəmiyyətdə liberal-demokratik dəyərlərin üstün olmasını şərtləndirir ki, bu da, öz növbəsində, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına müsbət təsir göstərir. Dövlət hakimiyyəti orqanlarında ardıcıl islahatlar aparılması, qərarların qəbulu mexanizminin təkmilləşdirilməsi, siyasi yönümündən və meylindən asılı olmayaraq, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şəraitin yaxşılaşdırılması, habelə cəmiyyətin həyatında üçüncü sektorun, qeyri-hökumət ictimai təşkilatlarının (QHT) rolunun güclənməsi ölkədə vətəndaş cəmiyyətinin tədricən formalaşmasına əyani sübutdur. Bütün bunlar ölkədə son bir neçə ildə həyata keçirilmiş işlərin yalnız kiçik bir siyahısıdır.

Ümumiyyətlə, fərdin hüquq və azadlıqlarına öncül əhəmiyyət verilən və dövlətin bu hüquq və azadlıqlara hər vasitə ilə hörmət etməyi və onların həyata keçirilməsinə şərait yaratmağı bir vəzifə kimi öhdəsinə götürən vətəndaş cəmiyyəti qurmaq prosesi uzun sürən, lakin dönməz prosesdir. Azərbaycanda vətəndaş cəmiyyəti artıq xülya deyil, aşkar hiss olunan reallıqdır.

Dövlətin əsasını vətəndaşın azad siyasi və iqtisadi təşəbbüsünün təşkil etdiyi posttransformasiya dövrünün yeni cəmiyyətinin və formalaşan ictimai şüurun müqəddəm şərtlərinin bünövrəsi müstəqil Azərbaycan yaradılmasına dair layihəni həyata keçirmiş olan Heydər Əliyev tərəfindən artıq qoyulmuşdur.

Belə istedadlı dövlət xadiminin və siyasətçinin silahdaşı olan, onunla artıq otuz ilədək bir dövr ərzində çiyin-çiyinə işləyən bir adam kimi mən dərin inamla deyə bilərəm ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. O, tarixi sima və dünya miqyaslı şəxsiyyətdir.

Heydər Əliyevin 1993-cü ilin ortalarında Bakıya qayıtması və milli dövlətçilik yaradılmasına yönəldilmiş islahatların başlanması gənc nəsil üçün dövlətin tarixidir.

Gələcək nəsillər bu barədə informasiyanı tarixə dair oçerkləri və kitabları oxuyaraq alacaqlar. Lakin ölkənin Ermənistanla qanlı müharibə vəziyyətində olduğu, ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxarmış müxalif qruplaşmaların daxili qarşıdurmasının yetişdiyi, iqtisadiyyatın sovet dövründəki durğunluq səviyyəsindən ucdantutma dağıntılar səviyyəsinə endiyi günlər o tarixin bir çox şahidləri üçün unudulmaz günlərdir. Qətiyyən idarə olunmayan qeyri-formal silahlı qruplaşmalar ölkədə, xüsusən də paytaxtda azğınlıq edirdilər. “Parçala və hökm sür” prinsipi Azərbaycanın hakim dairələrinin əsas tezisi kimi təsbit olunmuşdu. Üzdəniraq “cəbhəçi demokratlar” xalq və gələcək nəsillər qarşısında heç bir məsuliyyət daşımadan ölkəni parçalanmağa, süquta və dağıntılara doğru sürükləyirdilər.

## Liderin rolu

On il ərzində milli siyasətin həyata keçirilməsindən danışarkən, biz bütün bölgələrin sabit inkişafını nəzərdə tuturuq. İndi biz əsası Heydər Əliyev tərəfindən qoyulmuş “azərbaycançılıq idealodiyası”ndan danışırıq. Şübhəsiz, çoxlarının yadındadır ki, hələ 10 il əvvəl “demokratlar”ın yeritdiyi siyasətin səhvləri və uğursuzluqları, etnomillətçiliyə can atması Azərbaycanın bölgələri arasında qarşılıqlı münasibətlərin mürəkkəbləşməsinə gətirib çıxarmışdı. Azərbaycanın xarici siyasətinin birtərəfliliyinin doğurduğu təzyiq ölkənin daxilində, eləcə də onun hüdudlarından kənarda narazılığa səbəb olurdu.

Bütün bunlar Azərbaycan xalqının qarşılaşdığı və 1993-cü il iyunun 15-dən sonra Heydər Əliyevin həll etməli olduğu həm daxili, həm də xarici siyasi problemlərin yalnız kiçik bir siyahısıdır.

On il əvvəl təsəvvür etmək çətin, bəlkə də, kimlər üçünsə ağlasığmaz idi ki, biz belə tezliklə iqtisadiyyatın yönümünü dəyişdirəcək, ölkəni hərc-mərclikdən və dağıntılardan çıxaracaq, durğunluğu aradan qaldıracaq, ictimai inkişaf üçün əlverişli şərait yaradacaq, regional səviyyədə və dünya səviyyəsində ölkənin siyasi və iqtisadi mövqelərini gücləndirəcəyik. Lakin Heydər Əliyev Bakıya qayıtdıqdan sonra qarşısına məhz bu məqsədləri qoymuşdu, o, son 10 il ərzində məhz bu planları həyata keçirir, gələcək nəsillərə güclü və müstəqil Azərbaycan vermək məqsədi onun məhz həyat amalıdır.

Praqmatik siyasətçi kimi, Heydər Əliyev özünün zəngin siyasi təcrübəsindən mürəkkəb dövlət problemlərinin həllində məharətlə istifadə edir. Onun təbiətinin çoxşaxəliliyi zamanın sınağından çıxmış müdrikliyə, uzaqgörənliyə və möhkəm iradəyə dəqiq şəkildə tabedir.

## Bizə güclü Azərbaycan lazımdır

Cəmiyyətimiz sürətlə qlobal dünyanın bir hissəsinə çevrilir. Bu, sovet dövrünün totalitarizm və avtarkiyasından inkişafın demokratik, açıq modelinə doğru dönüşün qanunauyğun nəticəsidir. Vətəndaşın hüquq və azadlıqlarına təminat dinamik surətdə möhkəmlənir, çünki insan hüquqları sahəsində fəaliyyət iqtisadi, siyasi və sosial islahatların demokratikləşdirilməsinin bütün prosesinin, ictimai inkişafın keyfiyyətcə daha yüksək pilləsinə irəliləyişin mühüm tərkib hissəsidir. Şəxsiyyətin hüquq

və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində, sosial və hüquqi təsisatların demokratikləşdirilməsi proseslərinin dərinləşməsində, cəmiyyətdə özünüidarə və özünütənzimləmənin genişlənməsində, cəmiyyətin əxlaqi-mənəvi mühitinin təzələnməsində, siyasi və hüquqi mədəniyyətin artmasında yeni prinsiplərin bərqərar olunması nəzərə alınmaqla inkişaf edir.

Tədricən hakimiyyətin və dövlət idarəçiliyinin varisliyinin öncül istiqaməti yaranır. Qərb demokratiyası ölkələrinin təcrübəsi göstərir ki, dövlətçiliyin yeni demokratiya ölkələri üçün ən məqbul və səmərəli forması hakimiyyətin və dövlət idarəçiliyinin varisliyindədir. Azərbaycanın tərəqqisi və inkişafını yalnız səmərəli milli dövlətçilik qurulmasının müasir xəttinin varisliyi təmin edə bilər.

Uinston Çörçillin 1942-ci il oktyabrın 12-də Edinburqda "Eşer-Holl"da etdiyi çıxışı yada düşür. O demişdir: "Biz hamımız bütün gücümüzü toplamağa borcluyuq. Biz özümüzə xas olan ölçü hissini qoruyub saxlamalı və artırmalıyıq. Biz müdriklik və cəsarətliliyin üstünlüklərini birləşdirməyə çalışmalıyıq. Biz hamılıqla, birlikdə və qətiyyətlə irəliləməliyik".

Son on il ərzində Heydər Əliyev müdriklik və cəsarətliliyin üstünlüklərini özündə vəhdət şəklində birləşdirərək, güclü Azərbaycan yaradılmasına doğru irəliləyir. O, ölkənin əsas siyasi qüvvələrini bu məqsəd naminə sıx birləşdirərək səmərəli dövlətçilik, sabit iqtisadi inkişaf, ardıcıl xarici siyasət və etibarlı diplomatiya yaradılmasına qətiyyətlə, dönmədən çalışır.

*"İzvestiya" qəzeti,*
*26 iyun 2003-cü il.*

# AZƏRBAYCAN QLOBALLAŞMA DÖVRÜNDƏ: İNKİŞAF STRATEGİYASI

## İki yol ayrıcında: zelotlar, yoxsa irodçular

Yeni minillikdə Azərbaycanın inkişafı ölkənin bir epoxadan digərinə keçidi ilə şərtlənir. Keçmiş Sovet İttifaqının sosialist respublikası olmuş Azərbaycan müstəqilliyə qovuşduqdan sonra postsovet məkanı kimi qaldığımız industrial eradan mərhələ-mərhələ digər epoxaya - qloballaşan dünyanın əlamətdar tərkib hissəsini təşkil edən postindustrial epoxaya keçməyə başlamışdır.

XXI əsrdə qloballaşma dünya inkişafının strategiyasını xeyli dərəcədə müəyyənləşdirəcəkdir. Bu da qanunauyğundur, çünki biz tarixdə ilk dəfə olaraq, bəşəriyyətin sağ qalması məsələsinin qarşıya çıxdığı dövrə qədəm qoymuşuq.

Qloballaşma prosesi təzə hadisə deyildir. Tarix boyu bəşəriyyət həmişə inteqrasiya etməyə, vahid siyasi, iqtisadi və ya sosiomədəni məkanın bir hissəsi olmağa can atmışdır. Tarix bu cür nümunələr yaradaraq, bu və ya digər dövlət xadiminə, yaxud sərkərdəyə öz hərbi-siyasi, bəzən də iqtisadi nüfuz dairəsini iki, hərdən isə üç qitəyə genişləndirmək imkanı vermişdir. Üç dünya dininin meydana gəlməsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratdı. İudaizm, Xristianlıq, sonra isə İslam kütləvi şüura təsirin dairəsini genişləndirərək, əsasən, bu və ya digər dinin nümayəndələrinə mənsub olan oykumenlər

yaratdılar. Lakin dünya tarixində bəşəriyyət hələ heç vaxt vahid məqsədə - könüllü surətdə ümumi siyasi və iqtisadi məkan yaradılmasından ibarət olan və özünün sabit, təhlükəsiz inkişafını təmin etməli olan məqsədə çatmağa istiqamətlənməmişdir. XIX əsrdə başlanan, XX əsrdə fasilələrlə davam edən və hazırda baş verən ümumdünya inteqrasiya prosesinin tarixi analoqları olmayıb və yoxdur, ona görə də ümumdünya inteqrasiyasının faydalı və zərərli cəhətlərinə ölçülüb-biçilmiş və əlaqələndirilmiş şəkildə yanaşmaq son dərəcə vacibdir.

BMT-nin Beynəlxalq Hüquq Komissiyasının üzvü professor İ.İ.Lukaşuk yazır: “Bəşəriyyət qarşısında duran problemlərin xüsusiyyəti bundadır ki, onlar qlobal xarakter daşıyır və yalnız bütün dövlətlərin birgə səyləri ilə həll edilə bilər. Beynəlxalq birlik bəşəriyyəti xilasetmə birliyi olmalıdır. Bundan ötrü həm milli, həm də qlobal səviyyədə sosial proseslərin idarə edilməsi daha yüksək səviyyədə olmalıdır. İdarəetməni əhəmiyyətli dərəcədə təkmilləşdirmək problemi digər qlobal problemlər arasında ön sıraya çıxmışdır. Nəticədə, idarəetmənin dövlət, beynəlxalq təşkilatlar, hüquq kimi vasitələrinin rolu artır”.

Professor E.Q.Koçetov hamılıqla qlobalaşmaya müasir dünyanın inkişafında başlıca meyil kimi baxır: “Beynəlmiləlləşmə yekun mərhələsinə qədəm qoymuşdur, dünya nəinki fəlsəfi baxımdan, həm də real surətdə vahidləşir”.

Ötən əsr bəşəriyyətin xatirində iki dünya müharibəsi ilə qalmışdır. Bu müharibələr on milyonlarla adamın həyatına son qoymuş, qlobal siyasi və iqtisadi proseslərlə insanların şüurunu dəyişdirmişdir. Yüz il ərzində dünyanın nizamı bir neçə dəfə dəyişmişdir: dünya nizamı çoxqütblü sistemdən təkqütblü sistemə, sonra monosentrik sistemə çevrilmişdir, hazırda

isə özlüyündə beynəlxalq münasibətlərin tək-çox qütblü sisteminin hibridindən ibarətdir. Elə bir sistemdən ki, burada müasir dünya nizamının digər aparıcı aktorlarının (iştirakçılarının) dəstəyi olmadan təkcə bir böyük dövlətin qərarları əməli gücə malik deyil və səmərəsizdir.

XX əsrin iri transformasiyaları və dərin sarsıntıları dünya tarixində qlobal iqtisadi inteqrasiyanın, heyrətamiz elmi-texniki tərəqqinin, dünyanı, dövlətləri, cəmiyyətləri və fərdləri dəyişdirmiş demokratik ideyaların və liberal baxışların geniş yayılmasının başlanğıc dövrü kimi qalacaqdır.

Eyni zamanda, ötən əsr beynəlxalq münasibətlərin yeni aktorlarını da yaratmışdır. Dövlətlər və beynəlxalq təşkilatlarla yanaşı, transmilli korporasiyalar dünya proseslərinin və hadisələrinin gedişinə və inkişafına əhəmiyyətli təsir göstərən amillərə çevrilmişlər. Müasir dünyada transmilli korporasiyalar iqtisadi dəyişikliklərin və maliyyə əməliyyatlarının əsas inteqratorlarıdır. Buna baxmayaraq, inkişaf etmiş və geridə qalmış dövlətlərin və cəmiyyətlərin olması barədə tezis dünyada hələ də aktualdır. Dünyada gedən proseslərin aydın nəzərə çarpan xarakterinə baxmayaraq, habelə ardıcıl inkişafın müasir dünya nizamının səciyyəvi xüsusiyyəti olmadığını başa düşərək və bununla yanaşı, bəşəriyyətin öz ətrafında cərəyan edən prosesləri vəhdətdə dərk edə bilmədiyini anladığımıza baxmayaraq, biz Krılovun məşhur təmsilinin qlobal kontekstdə real təcəssümünün şahidinə çevrilirik. Redyard Kiplinqin belə bir sitatı da yada düşür: “Qərb Qərbdir, Şərq isə Şərqdir və onlar qiyamət günündə Göylə Yer qovuşmayınca, yerlərindən tərpənməyəcəklər...”.

Tanınmış Amerika tədqiqatçısı Samuil Hantinqton hələ 1990-cı illərdə “Sivilizasiyaların toqquşması” əsərində sivilizasiyala-

rın qlobal şəkildə qarşıdurmasının mümkünlüyü barədə sual vermişdir. Tədqiqatçının qaldırdığı məsələ yeni dünya nizamı və İslam dünyasında baş verən hadisələr baxımından dünya birliyi qarşısında tam kəskinliyi ilə durur. Doğrudan da, Şərqlə Qərb arasında qarşıdurma mümkündürmü? Sivilizasiyaların tarixi anlamda deyil, coğrafi-siyasi anlamda mövcudluğu şəraitində onların arasında qarşıdurma mümkündürmü? Belə şəraitdə transformasiya dövrünü yaşayan dövlətlər nə ilə üzləşəcəklər və hadisələrin bu cür inkişaf edəcəyi halda həmin dövlətlərin davranış strategiyası necə olmalıdır? Doğrudanmı, qloballaşma bəşəriyyətə təhlükə törədir, yoxsa olsa-olsa, inkişaf etməkdə olan məkanlara və avtarkiya məkanlarına təhdiddir? İndi bu məsələlər nəinki təkcə siyasətçiləri və iqtisadçıları, sosioloqları və filosofları düşündürür, ümumən, bütün dünya ictimaiyyəti qloballaşma proseslərinin dinamikasından, qloballaşmanın siyasi və iqtisadi aspektlərindən və sosiomədəni təsirindən narahatdır. Şərq tradisionalistlərinin fikrincə, sosiomədəni mühitin qloballaşması təkcə müsəlman dünyasına deyil, həm də kökləri əsrlərin dərinliklərinə gedib çıxan qədim ənənələrə malik bütün Şərqə fəlakətli təsir göstərir.

Antiqloballaşmanın bir çox məddahları dünya məkanında siyasi və iqtisadi baxışların qlobal "müdaxiləsini", Şərq cəmiyyətlərinin McDonaldlaşmasını (qərbləşməsini) "mezalyans", yəni sosial vəziyyətləri bərabər olmayan şəxslərin nikahı kimi başa düşürlər.

Qərb alimlərinin çoxsaylı yazılarında "qloballaşma onun gedişində sosial fəallığın çox hissəsinin dünya xarakteri kəsb etdiyi proses, zəmanəmizin tarixi fenomenini müəyyən edən, cəmiyyətin fəaliyyətinin xarakterini və nəticələrini dəyişdirən

proses kimi nəzərdən keçirilir. Qloballaşma getdikcə artan qarşılıqlı iqtisadi asılılıq və texnoloji imkanlar, hüquqi tənzimləmənin səviyyəsinin aşağı düşməsi və bazar inteqrasiyası da daxil olmaqla, dünya iqtisadiyyatındakı dəyişikliklərlə stimullaşır. Qloballaşma ikitərəfli prosesdir. O, bolluq yaratmağa, istehsalın məhsuldarlığını, səmərəliliyini yüksəltməyə qadirdir. Digər tərəfdən, o, qeyri-bərabərliyi dərinləşdirir, yeni şəraitə uyğunlaşmanı çətinləşdirir, müxtəlifliyi azaldır, vətəndaş cəmiyyətini sarsıdır. Qloballaşma inkişafın, demokratikləşmənin və sosial təminatın perspektivlərinə uzunmüddətli təsir göstərərək, qlobal proseslərin tənzimlənməsində dövlətin rolunu azaldır və korporasiyaların rolunu artırır".

Bu yazılarda diqqət ona cəlb edilir ki, "qloballaşma dünyanın qarşılıqlı asılılığını möhkəmləndirməklə yanaşı, çox vaxt yoxsulluğun müəyyən regionlarda cəmləşməsi ilə müşayiət olunan separatçılıq, yerliçilik meyillərini stimullaşdırır. Qloballaşma, bir tərəfdən, mövcud sistemin hakim mövqeyini möhkəmləndirir, digər tərəfdən isə, qeyri-ənənəvi zəmində münaqişələrə meyli üzə çıxarır".

Nəticədə, professor E.Q.Koçetovun fikrincə, "müharibə, təcavüz, təcavüzkar, müharibələrin başlanması və qurtarması, qələbə, məğlubiyyət, zərər, müharibə meydanı, döyüş əməliyyatları meydanı, strateji tərəfdaşlıq, təzminat və sair anlayışlar" yeni məna kəsb edir.

Bununla yanaşı, qloballaşma prosesləri nəzərdən keçirilərkən, başqa bir yanaşma da mövcuddur.

Qərb alimlərinin əksəriyyəti qloballaşmaya dair diskussiyalarda müsbət amillərə istinad edirlər. Şübhəsiz ki, qloballaşma dünyanı getdikcə daha çox qarşılıqlı surətdə bağlayan çox müs-

bət amildir. Onun faydaları sayəsində maliyyə vəsaitləri dünyanın bir hissəsindən digərinə asanlıqla hərəkət edir, informasiya azadlığı və bundan bəhrələnmək imkanı o dərəcədə asanlaşmışdır ki, planetin istənilən hissəsində baş vermiş hər hansı siyasi və ya hərbi-siyasi aksiyanı gizlətmək mümkün deyildir. İnsan hüquqları və azadlıqlarının qorunması qlobal, beynəlxalq səviyyədə təmin olunur. İnkişaf etməkdə olan cəmiyyətlərin qarşılaşdığı problemlərin əksəriyyəti aşkar olmuşdur ki, bu da onların müsbət həllinə müəyyən dərəcədə kömək etmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı fərdləri daha da kamilləşdirir, mənzil sahibinin harada olmasından asılı olmayaraq, internet vasitəsilə tam idarə edilən "elektron kotteclər" yaradır. Soyuducuda müəyyən məhsulların çatışmadığı barədə yaxınlıqdakı ərzaq mağazasına avtomatik surətdə məlumat verilməsi kimi keçmişdə əsla ağlasığmayan sistem müasir dünyada yuxu deyil, məişət reallığıdır.

Qloballaşma heç də təkcə iqtisadi fenomen, fərdin həyat şəraitini yaxşılaşdırmaq və informasiyadan istifadənin və onun ötürülməsinin yeni yollarını yaratmaq demək deyildir. Qloballaşma cəmiyyət həyatının bütün sahələrini, o cümlədən sosial-siyasi aspektini əhatə edən çoxsəpkili prosesdir. O, milli sosial-iqtisadi qurumları vahid dünya iqtisadi və ictimai sistemi ilə qarşılıqlı surətdə bağlayan ümumdünya hadisəsidir.

Qloballaşma bəşəriyyətin onilliklər ərzində qarşılaşdığı bir çox problemləri üzə çıxarmışdır. "Qızıl milyard"la Şərq arasında böyük iqtisadi fərqin olması qəribə kəşf deyildir. Çünki əgər 1960-cı ildə dünya əhalisinin ən varlı 20 faizinin gəlirləri onun ən yoxsul hissəsinin 20 faizinin gəlirlərindən 30 dəfə çox idisə, 2002-ci ilə bu fərq 3 dəfə artmışdır. Hazırda Yer kürəsi əhali-

sinin yarısının gündəlik gəliri 2 dollardan azdır. Təxminən 1 milyard insan işsizdir, işləyənlərin isə, demək olar, 89 faizinin sosial təminatı yoxdur.

Müasir qloballaşma prosesləri inkişaf etməkdə olan cəmiyyətləri həyat tərzinin, davranış və hətta, qəribə olsa da, təfəkkür formalarının qərbləşməsi dilemması qarşısında qoymuşdur. Qərbləşmə daxili siyasi determinantlara təsir göstərərək, milli ənənələrin, adətlərin, bəzən də tarixin ağırlıq mərkəzini dəyişdirir, bu zaman "enerjinin yenidən bərpa olunan müxtəlif mənbələrinə; müəssisələrdə yığma konveyerlərinin əksəriyyətini gərəksizləşdirən istehsal metodlarına; yeni qeyri-nuklear ailələrə; "elektron kottec" adlandırıla bilən yeni struktura; gələcəyin köklü surətdə dəyişdirilmiş məktəb və birliklərinə əsaslanan yeni həyat tərzini" öncül mövqelərə çıxarır.

Qərbləşmə modernləşmə əlaməti altında baş verir. Onun açıq cəmiyyətlərə və avtarkiya cəmiyyətlərinə təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Əgər o, bəzi ölkələrdə siyasi və sosial-iqtisadi həyata yeniliklər gətirərək cəmiyyətin dayaqlarını təkmilləşdirirsə, digər ölkələrdə diffuziya baş verir, sonra da tarixən təşəkkül tapmış normalar və adət-ənənələr gizli şəkildə yox olub gedir. Bu məsələdə problem əks-təsirin dərəcəsi və səviyyəsində, habelə yeni eranın determinantlarına müqavimət göstərilməsinin əsaslılığındadır. Qərbləşmə qeyri-qərb məkanlarını tədricən "canına çəkərək", müəyyən məkanda siyasi dispozisiyaların xarakterini dəyişdirir.

Aydındır ki, qərbləşmənin alqoritmi cəmiyyətlərin və ya ümumən, məkanların keçidinin təmin edilməsindən ibarət deyildir. Qərbləşmənin məqsədi yeni qlobal iqtisadi baxışlar və siyasi ideyaların "desantı üçün meydança hazırlamaqdır". Qlo-

ballaşma genişləndikcə, inteqrasiya proseslərinin aparıcı agentlərinin siyasi, iqtisadi və sosial həyatının əsas komponentləri yeni məkanlarda assimilyasiya olunur. Tanınmış tarixçi Arnold Toynbi özünün məşhur "Sivilizasiya tarixin məhkəməsi qarşısında" kitabında xəbərdarlıq edirdi ki, Qərb mədəniyyəti ünsürlərinin qəbul olunması, əslində, elə bir təsirdir ki, bir müddətdən sonra o, ənənəvi cəmiyyətə nüfuz edəcək və onu amansızcasına ikiyə parçalayacaqdır. Çünki bu, nəticədə ənənəvi cəmiyyətin simasını tamamilə dəyişdirən mədəni inqilaba start verir.

Şübhəsiz ki, mədəni inqilab transformasiya dövrünü yaşayan cəmiyyətin inkişafının labüd tarixi atributudur. Şərq ölkələrinin əksəriyyəti milli "Mən"in təşəkkülünün və möhkəmlənməsinin bu mərhələsindən keçmişdir. Yaponiyada Meydzi inqilabı, Türkiyədə Mustafa Kamal Atatürkün mədəni inqilabı bu Şərq cəmiyyətlərinin modernləşməsinə və tərəqqisinə təkan vermişdir.

Lakin qərbləşmə və onu müşayiət edən mədəni inqilab yeni dəyərlərin sahibləri üçün heç də həmişə uğurla nəticələnməmişdir. Bu zaman milli suverenliyin məhdudlaşması və sərhədlərin silinməsi tradisionalist və modernist qrupların mənafelərinin toqquşmasına gətirib çıxarır ki, bu toqquşma da qərbləşmə cərəyanlarının təsiri altına düşür. Bu halda müqavimət son dərəcə sərt olur və yeni səmərəli mədəni inqilabın mümkünlüyü heçə enir. İranda 1979-cu il inqilabına tradisionalistlərin və modernistlərin məhz bu cür toqquşması səbəb olmuşdur. Dövlətin və cəmiyyətin gələcəyi ənənə ilə qərbləşmə arasında qarşıdurmadan sonra dövlətin hansı yolu seçməsindən asılıdır.

Tarixə nəzər salsaq görərik ki, Yer məkanının bu və ya digər hissələrini inteqrasiya, müvafiq olaraq, həm də assimilyasiya

etmək cəhdi ilə bağlı proseslər heç vaxt səngiməmişdir. Ola bilsin, bu proseslər daha sürətlə, yaxud da ləng getmişdir. Lakin prosesin özü, əslində, daim mövcud olmuşdur. Hətta müharibələrə, münaqişələrə və dini ziddiyyətlərə baxmayaraq, bəşəriyyət həmişə daha çox qarşılıqlı asılılığa və daha çox inteqrasiyalı olmağa çalışmışdır.

Misal üçün, Makedoniyalı İskəndərin Şərqə yürüşlərinin başlanması yunan və qədim Şərq tarixinin ellinizm mərhələsinin bünövrəsinin qoyulması ilə əlamətdar olmuşdur. Ellinizmi o dövrün məlum coğrafi anlayışları çərçivəsində eramızdan əvvəl mövcud olmuş ümumdünya inteqrasiyası hesab etmək olar. Makedoniyalı İskəndərin yürüşləri çox vaxt dağıdıcı xarakter daşısa da, ümumən, sosial münasibətlərin yeni formalarının yaranmasına, yeni şəhərlər salınmasına, o vaxtkı dünyanın coğrafi hüdudlarının genişlənməsinə, iqtisadiyyatın və ticarət əlaqələrinin inkişafına kömək etmişdir.

Ellinist oykumeninin ərazi çərçivələrinin genişlənməsi öz ifadəsini ticarətin və əmtəə-pul münasibətlərinin sürətli inkişafında tapırdı. Köhnə ticarət yolları bərpa edilir, yeniləri açılırdı. Məsələn, Nil çayından, Qırmızı dənizdən, Babülməndəb boğazından və Ərəbistan dənizindən keçməklə İskəndəriyyədən Hindistana ticarət yolu açılmışdı. Şəhərsalma intensivləşirdi: yunan tipli 170-dən çox iri və kiçik şəhər salınmışdı. Dövlət quruluşunun yeni forması meydana gəlmişdi ki, bu da suveren yunan polisinin və qədim Şərq istibdadının ənənəvi tiplərinin ellinist monarxları ilə əvəzlənməsinə gətirib çıxarmışdı. Mədəniyyətin yüksəlişi başlanmış, əhalinin yerdəyişməsi və qaynayıb-qarışması halları güclənmişdi, əqli görüş dairəsi zənginləşir, insanların yaradıcılıq həvəsi yüksəlirdi.

Lakin bununla yanaşı, ellinizm heç də hər yerdə müsbət amil kimi qəbul edilmirdi və heç də bütün ölkələr bu cür inteqrasiya ilə razı deyildi. Odur ki, tabeçiliyə və müdaxiləyə qarşı müqavimət göstərilir, silahlı çıxışlara çevrilən qarşıdurma yaranırdı. Ellinizmlə qarşıdurma dövründə yəhudi tarixində iki siyasi qruplaşma meydana gəlmişdi. Makkaveylər dövründə (eramızdan əvvəl I əsrin ikinci yarısı) meydana gəlmiş və Roma hökmranlığının bütün qəti əleyhdarlarını birləşdirən birinci qruplaşma zelotlar adlanırdı. Digər qruplaşma isə çar Böyük İrodu dəstəkləyən qüvvəni təmsil edirdi. Mübarizə yolları və metodları bir-birinə son dərəcə zidd olsa da, hər iki qruplaşmanı ellinizmə qarşı çıxış etmək niyyəti birləşdirirdi.

Fələstində əvvəlcə yunanların, sonra isə romalıların hökmranlığına qarşı azadlıq müharibəsinin iştirakçıları olan zelotlar ellinizmə qarşı sərt müqaviməti üstün tuturdular. Ellinizm nə qədər çox təzyiq göstərirdisə, zelotlar bir o qədər sıx birləşir və özlərinə qapanırdılar. Onlar öz mübarizəsində dinlərinin paklığını qoruyub saxlamaq, bununla da İlahinin mərhəmətini qazanmaq ümidində idilər. Daha inkişaf etmiş və irəli getmiş sivilizasiya qarşısında tab gətirə bilməyəcəklərini anlayan zelotlar başını quma soxan dəvəquşuya və ya qınına çəkilmiş tısbağaya bənzəyirdilər. Zelotlar toplara və odlu silaha qarşı nizə və xəncərlərlə gedən döyüşçüləri xatırladırdılar. Onlar öz vəziyyətinin ümidsizliyini dərk etsələr də, heç nəyə baxmadan, ənənələrə, öz tarixinə sadiqliyini qoruyub saxlamağı davam etdirərək, onu əziz tutur və o dünyada layiqli haqlarını alacaqlarına ümid bəsləyirdilər.

Eyni vəziyyət XIX əsrin axırlarında modernləşməkdə olan Yaponiyanın tarixində də nəzərə çarpır. Samuraylar və yapon

zadəganlığının bir qismi Qərb modernləşməsində və qərbləşmədə milli "Mən"ə təhlükə görür və yapon modernistlərinin ölkəni və həyat tərzini dəyişdirmək strategiyasına müqavimət göstərirdilər. İmperator, samuray qılıncı və Busido ruhu onlar üçün önəmli dəyərlər idi. Onların fikrincə, modernləşdirmə bu dəyərləri alt-üst edə bilərdi.

Çar Böyük İroda sadiq olan qruplaşmalar irodçular adlanırdı. İrodçuların ellinizmlə müharibə probleminə münasibəti belə idi ki, onlar əvvəla, düşmənin üstünlüyünü və məğlubedilməzliyini etiraf edir, ikincisi, gələcəkdə inkişaf prosesində yəhudilərə faydalı ola biləcək hər şeyi düşməndən öyrənməyi zəruri hesab edirdilər.

Zelotlar irodçuların metodlarını qəbul etmir, bu metodları satqınlıq və millətin mənafelərinə cavab verməyən üsullar sayırdılar. Hərçənd, digər tərəfdən, tamamilə aydındır ki, irodçuların problemə yanaşma tərzi daha səmərəli idi və manevr üçün, təbii olaraq, inkişaf üçün meydan açırdı. Ellinizm dövrünün nailiyyətləri yəhudilərin malik olduqlarından əhəmiyyətli dərəcədə üstün idi. Ona görə də irodçuluq inkişaf etmiş və qüdrətli sivilizasiya ilə mübarizədə daha səmərəli vasitə idi. Bu, yunanların, sonralar isə romalıların idarə etdikləri zamanla ayaqlaşmaq üçün ən optimal üsul idi. İrodçular yunanların hərbi-siyasi və iqtisadi sahələrdə inkişafına rəvac vermiş nə varsa, hamısını onlardan öyrənirdilər. Zelotlardan fərqli olaraq, onlar yeni reallıqlara uyğunlaşmaq praktikasına üstünlük verirdilər.

Qloballaşmanın gətirdiyi qərbləşmə bir çox dövlətləri buna oxşar vəziyyətə salmışdır. Müasir dünya nizamı inkişaf etməkdə olan və transformasiya dövrünü yaşayan cəmiyyətləri "zelot-

lar"a və "irodçular"a bölmüşdür. Həm də, bəzi dövlətlər qərbləşmə proseslərinə fəal müqavimət göstərmək yolu seçmişlər, "qətiyyətli müqavimət göstərmək əzmindədirlər", çox zəif potensialla avtarkiya yoluna qədəm qoymuşlar. Bəziləri isə indiki vəziyyətdə irodçuların yoluna üstünlük vermişlər, dərk edirlər ki, qloballaşmaya və modernləşməyə müqavimət göstərilməsi inkişafa gətirib çıxarmayacaqdır. Qloballaşmanın mənfi nəticələrindən xilas olmaq isə ancaq inkişafın milli strategiyasına dərk edilmiş münasibət bəslənildiyi, bu strategiyanın dəqiq təsəvvür edildiyi və başa düşüldüyü təqdirdə mümkündür.

Əhalinin geniş təbəqələrinin siyasi şüurunun və müvafiq mədəniyyətinin aşağı səviyyədə olması, millətçiliyin üstünlük təşkil etməsi qlobal problemlərin həlli yolunda əsas maneələrdən biri olaraq qalır. BMT-nin baş katibi Kofi Annan bu məsələyə toxunaraq yazır: "Bütün dünyada milyonlarla insan qloballaşmanı tərəqqi vasitəsi kimi deyil, həyatı, işi və ənənələri məhv etməyə qadir olan qasırğaya bənzəyən viranedici qüvvə kimi qəbul edir. İnsanların bir çoxu üçün bu prosesə mane olmaq və millətçilik, təməlçilik və digər "çiliklər" simasında xəyali təskinliyə əl atmaq kimi qızğın istək xarakterikdir".

Yeni, eyni zamanda, keçid dövrü dövləti olan Azərbaycan ümumdünya inteqrasiyasının taleyüklü perspektivlərini başa düşərək, dünya birliyinə inteqrasiyanın strateji yolunu seçmişdir. Tamamilə aydındır ki, qloballaşma münaqişəsiz və hamar proses deyildir. Buna baxmayaraq, müasir dünya nizamının reallıqlarının nəzərə alınmaması və bu prosesdən maksimum fayda götürməyə cəhd göstərilməməsi uzunmüddətli perspektivdə Azərbaycanın milli inkişaf strategiyasının məqsədlərinə cavab verməzdi. Prezident İlham Əliyev 2004-cü il martın 19-da Slovaki-

yanın paytaxtı Bratislavada “Genişlənən Avropaya doğru: yeni gündəlik” beynəlxalq konfransında çıxışında Azərbaycanın inteqrasiya perspektivlərini xarakterizə edərək demişdir: “Milyardlarla dollar dəyəri olan enerji layihələri bizim müstəqil ölkələrin həm bir-birinə, həm də Avratlantik məkanına inteqrasiyasına şərait yaradacaqdır. Bu, bizim həqiqi arzumuz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avratlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir”. Prezidentin bu sözləri Azərbaycanın tutduğu strateji xəttin mahiyyətini açıqlayır. Azərbaycan qloballaşan dünyanın bir hissəsi olaraq, Qərbin nailiyyətlərindən istifadə etməklə yanaşı, Şərq mentallığını, öz adət-ənənələrini və milli tarixini qoruyub saxlayır. Bu, dərk edilmiş strateji xəttdir və dövlətin, cəmiyyətin inkişafına istiqamətləndirilmişdir. Son on il ərzində ölkədə məhz bu xətt həyata keçirilir və o, ölkəni tərəqqiyə, firavanlığa gətirib çıxarmağa qadirdir.

Müasir Azərbaycan bir çox beynəlxalq təşkilatlarda təmsil olunmuşdur, bir çox qlobal nəqliyyat-kommunikasiya layihələrinin iştirakçısıdır, dünya bazarına enerji daşıyıcıları göndərir. Azərbaycan Avropa və Asiyaya uzunmüddətli strateji çıxış üçün coğrafi-siyasi və coğrafi-iqtisadi meydandır. Çox mühüm nəqliyyat dəhlizi və qloballaşma proseslərinin bir hissəsi olan Azərbaycanın sürəti azaltmaması, qloballaşmanı daha asan idarə etməyə və bunun nə ilə nəticələnəcəyini öncədən görməyə imkan yaradan, “sarsıdıcı” zərbələr ehtimalını azaldan, ona sosial cəhətdən məsul və demokratik xarakter verən yeni layihə və birliklərin formalaşdırılmasında ölçülüb-biçilmiş və fəal iştirakı son dərəcə zəruridir.

## Qloballaşma dövründə milli inkişaf

Son onillik ərzində qloballaşma beynəlxalq münasibətlərə mühüm təsir göstərmişdir: əsas beynəlxalq təşkilatlar - ümumdünya inteqrasiyasının aktorları dəqiq müəyyənləşmişdir; postindustrial dövrdə səmərəli inkişaf üçün həyata keçirilməli olan konkret və önəmli vəzifələr meydana gəlmişdir; ayrıca götürülmüş dövlətlərin deyil, bütöv regionların dolğun inkişafı məqsədi ilə regional inteqrasiya proseslərini təkmilləşdirmək zərurəti yaranmışdır; iqtisadi baxımdan vahid və bütöv regional məkanlar yaranması üçün ilkin zəmin formalaşmışdır.

Bu gün qloballaşma dedikdə, biz ən ümumi şəkildə nəticə etibarilə sistemin özünü dəyişdirən sosial, iqtisadi, siyasi, mədəni kommunikasiyaların inkişafını başa düşürük. Yuxarıda qeyd olunan hallar 1993-cü ilin ortalarından başlayaraq özünün sosial-iqtisadi inkişafında, dövlətin və hüququn formalaşmasında, habelə XXI əsrin reallıqlarına cavab verən, dövlətin milli və beynəlxalq maraqlarını təmin edən xarici siyasət konsepsiyasının formalaşmasında ciddi sıçrayış etmiş Azərbaycan üçün çox böyük əhəmiyyətə malikdir. Azərbaycanın xarici tərəfdaşları açıq etiraf edirlər ki, Heydər Əliyev dövlətin xarici siyasət konsepsiyasını düzgün və dəqiq quraraq, onu dünya inkişafının qlobal meyilləri ilə əlaqələndirmişdir.

Dinamik əsrimizdə gələcək haqqında aydın təsəvvür olmadan dövlətin ardıcıl, səmərəli siyasətindən söhbət belə gedə bilməz. **Azərbaycan öz təbii ehtiyatlarından bəhrələnərək və onların dünya bazarlarına çıxarılması üsullarını müəyyənləşdirərək, regional mərkəzlər arasında kompleks qarşılıqlı iqtisadi əlaqələr yaradaraq, dünya qloballaşma proseslərinə qoşul-**

**muşdur.** Enerji daşıyıcılarının dünya bazarlarına nəqli layihəsinin, o cümlədən "Əsrin müqaviləsi"nin həyata keçirilməsi və 2002-ci ilin sentyabrında başlanmış Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi Azərbaycanın inteqrasiya layihələrində və qlobal iqtisadi layihələrdə fəal iştirakını sübut edən başlıca amillərdəndir. Bu proseslərdə səriştəlilik dövlətin və cəmiyyətin modernləşdirilməsi səviyyəsini və mümkünlüyünü öncədən müəyyənləşdirir. Başqa sözlə, İlham Əliyevin qeyd etdiyi kimi, **"Azərbaycan üçün indi də, bir çox illər öncədən də iqtisadi və siyasi vəziyyət təbii ehtiyatların işlənilməsi strategiyasından asılı olacaqdır... bu, iqtisadi azadlıq və iqtisadi inkişaf imkanı əldə etmək yoludur".**

Regional inteqrasiya proseslərində fəal iştirak etmək Azərbaycanın hərtərəfli inkişafının əsas tərkib hissəsidir. Müasir dövrdə ölkəmiz bir neçə qlobal layihənin iştirakçısıdır. Bu layihələrin mahiyyəti Azərbaycanın beynəlxalq aləmdə kommunikasiya əhəmiyyətini artırmaqdan ibarətdir. Bu, eyni zamanda, ölkə və ümumən region üçün mühüm iqtisadi faydadır. Azərbaycan xarici sərmayəçilər və maliyyə qurumları ilə birlikdə iqtisadi layihələr irəli sürərək və ya yaradaraq, əslində, bütün Cənubi Qafqaz məkanının inkişaf etməsini qarşısına məqsəd qoyur. Çünki regionun iqtisadi cəhətdən modernləşdirilməsi burada uzun illərdən bəri mövcud olan etnik münaqişələrin həlli üçün əsas ola bilər.

Azərbaycanın Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üstündə yerləşməsi qloballaşma prosesləri baxımından onun təkcə regional layihələrdə deyil, həm də beynəlxalq layihələrdə əhəmiyyətini xeyli artırır. Heydər Əliyevin təşəbbüsü ilə GUÖAM təşkilatının yaradılması

bir sıra dövlətlərin mənafelərinin siyasi və iqtisadi cəhətdən birləşdirilməsi yolunda ilk addım olmuşdur. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRASECA – “Böyük İpək yolu” proqramı Azərbaycanın bölgələrinin iqtisadi dirçəlişi üçün zəmin yaratmışdır. Bu layihənin gerçəkləşdirilməsinin gedişində yeni iş yerlərinin, istehsal komplekslərinin yaradılması, xidmət sahələrinin təkmilləşdirilməsi, tikinti işlərinin və şəhərsalmanın intensivləşdirilməsi və modernləşdirilməsi inteqrasiya layihələrinin iqtisadi səmərəliliyinin ən yaxşı göstəricisidir. Bu layihə Azərbaycanı, bir tərəfdən, Qərblə, digər tərəfdən, Şərqlə bağlamışdır. Tarixi ənənələri dirçəldərək və keçmişdə unudulmuş kommunikasiya layihələrinə qayıdaraq, ölkə rəhbərliyi güclü dövlət və demokratik cəmiyyət, sabitlik və gələcək nəsillərin perspektiv inkişafı naminə səmərəli iqtisadi inkişafı və irəliləyişi qarşısına məqsəd qoymuşdur. **Azərbaycanda demokratik dəyişikliklər, siyasi sabitlik və iqtisadi inkişafın mühüm zəmini olmadan bu layihələrin həyata keçirilməsi ciddi çətinliklərlə qarşılaşardı.** Azərbaycan açıq məkan yox, avtarkiya cəmiyyəti olsaydı, inteqrasiya və iqtisadi inkişaf ölkəmizdən yan keçərdi, yaxud da ondan ancaq xammal mənbəyi kimi istifadə edilərdi. Bu və ya digər iqtisadi layihə formalaşdırılarkən, sonra isə həyata keçirilərkən buna yalnız o halda önəm verilir ki, o, ümumən, Azərbaycanın milli mənafelərinə uyğun olsun, bölgələrin iqtisadi inkişafına, vətəndaşların rifahının yüksəlməsinə kömək etsin. Başlıcası isə, bu layihə uzunmüddətli olsun və onun iqtisadi faydası gələcək nəsillərin inkişafına xidmət etsin.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimində çıxış edərkən, inteqrasiya proseslərinin Azərbaycan üçün va-

cibliyini dəqiq səciyyələndirmişdir: **"Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarımız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu, baş veribdir. Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişlər və bu proses davam edəcəkdir".**

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması və 2002-ci ilin sentyabrında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanması və tikintisi nəzərdə tutulan Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı aparıcı Qərb dövlətlərinin strateji maraqları zonasına çevirmişdir. Azərbaycanın neft yataqlarının xarici tərəfdaşlar tərəfindən işlənilməsi, Azərbaycan neftinin dünya enerji daşıyıcıları bazarlarına getdikcə daha çox çıxarılmasına kömək göstərilməsi, qaz hasilatında birgə iştirak, karbohidrogenlərin bazarlara nəqli vaxtını və qiymətini əhəmiyyətli dərəcədə azaldan çox mühüm neft və qaz boru kəmərlərinin tikintisi sübut edir ki, Azərbaycan qlobal inteqrasiyanın passiv iştirakçısı deyil, əksinə, onun fəal regional oyunçusudur.

Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycan həmişə Avropanın bir hissəsi olmuşdur. Azərbaycan Ağqoyunlu dövlətinin tarixində ilk diplomatik münasibətlər İtaliyanın şəhər-respublikaları ilə qurulmuşdur; ötən əsrin əvvəllərindən başlayaraq Qərb maqnatları, maliyyəçiləri və Avropanın, Amerikanın ən varlı ailələrinin nümayəndələri burada fəal işləmişlər. Hazırda Azərbaycan bütün Avropa strukturları ilə fəal əməkdaşlıq edir. Qloballaşma prosesləri ilə əlaqədar iqtisadi müstəvidə Avropa Birliyi ilə münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Bu günlərdə həmin təşkilatın üzvlərinin artması və onun məsuliyyət zonasına yeni aktorların daxil edilməsi təşkilatın

sərhədlərinin genişləndiyini və inteqrasiya proseslərində onun yeni fəal iştirakçıların olmasını istədiyini göstərir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa işlərində, xüsusən XXI əsrdə Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Buna belə bir fakt da sübutdur ki, 2007-ci ildən başlayaraq, Avropa bazarına hər gün 1 milyon barrel Azərbaycan nefti göndəriləcəkdir.

Siyasi baxımdan Azərbaycan Avropanın iki iri strukturunun – Avropa Şurasının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvüdür. Hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm elementi olan NATO ilə əməkdaşlığa böyük diqqət yetirilir. Qloballaşan dünya məkanına yeni hədə və təhlükələr beynəlxalq terrorizmə və separatizmə, etnik zorakılığa və setsessiya (dövlətin tərkibindən çıxmaq) cəhdinə qarşı mübarizədə birgə tədbirlər görülməsini zərurətə çevirir. Bu məsələdə "ikili standartlar" olmamalıdır və ola da bilməz. Beynəlxalq hüquq nəinki ərazi bütövlüyünün qorunmasına təminat verir, həm də insan hüquqları və azadlıqlarının təmin edilməsini öhdəsinə götürür. Hüquqları tapdalanmış bir milyondan çox azərbaycanlı beynəlxalq hüququn əsas normalarının reqlamentasiyasından kənarda qalmamalıdır. Beynəlxalq qurumlar erməni təcavüzkarlarını cilovlamalı və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə kömək etməlidirlər.

Bununla belə, qloballaşma dövründə milli strategiyanın əsasını təkcə iqtisadi və hərbi-siyasi amillər təşkil etmir. Azərbaycan XXI əsrdə qloballaşma məkanları sivilizasiyalarının dialoq və

təmas nöqtəsidir. Qloballaşan dünyanın əsas cəhətlərindən biri keyfiyyətli və yüksək intellektual səviyyəyə ehtiyacın artmasıdır. Müasir dünyada "kraxmallı köynəklilər" qloballaşma proseslərinin uğurlu "müdaxiləsinin" əsas vəsiləsini təşkil edirlər. Məsələn, hər bir insanın həyatında informasiya texnologiyalarının əvəzsiz rolu nəzərə alınmaqla, Azərbaycanda təhsilin səviyyəsinin artırılmasının və ən yeni texnologiyaların cəlb edilməsinin nə qədər rentabelli olduğunu dərk etmək lazımdır. Qloballaşmanın indiki mərhələsi sənaye müəssisələrinin inkişaf etməkdə olan ölkələrə keçirilməsi fenomenini yaratmışdır. 1970-ci illərin ortalarından ABŞ, Yaponiya və Avropa şirkətləri yeni və daha ucuz işçi qüvvəsi əldə etmək və sənaye istehsalı üçün zəruri olan xammalın gətirilməsi xərclərinə qənaət etmək üçün öz sənaye müəssisələrini fəal surətdə başqa ölkələrə keçirməyə başlamışlar. Bu, bir çox malların qiymətini xeyli aşağı salmağa və Yer kürəsi əhalisinin böyük bir hissəsinin həmin malları əldə edə bilməsinə imkan vermişdir. Digər tərəfdən, bu, həmin layihələrin həyata keçirildiyi yeni məkanlarda təhsilin səviyyəsinin artmasını şərtləndirmiş, habelə transformasiya dövrünü yaşayan bir sıra cəmiyyətlərdə işsizlik problemini qismən həll etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Cenevrədə İnformasiya cəmiyyəti üzrə ümumdünya sammitində çıxışında Azərbaycanda qabaqcıl informasiya–kommunikasiya texnologiyalarının inkişafının və tətbiqinin aktuallığını aydın surətdə xarakterizə etmişdir: **"Ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyi Azərbaycanı Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir. Hazırda həmin informasiyanı rabitə texnologiyalarına çevirmək ehtiyacı duyulur".**

Təhsil hər bir dövlətin və cəmiyyətin inkişafının mühüm elementidir. Keyfiyyətli təhsil vətəndaşın və deməli, dövlətin uğurlu, hərtərəfli və perspektivli inkişafının rəhnidir. Uzun tarixi seleksiya prosesi keçmiş təhsil sistemi Sovet İttifaqı dağıldıqdan sonra tənəzzül etməyə başladı. Siyasi, iqtisadi və sosiomədəni məkanlarda meydana çıxan problemlər bir çox postsovet respublikalarında, o cümlədən Azərbaycanda təhsil sisteminin keyfiyyətlə fəaliyyət göstərməsinə nəzərəçarpacaq dərəcədə mənfi təsir göstərdi.

Ötən əsrin 80-ci illərinin axırlarında – 90-cı illərinin əvvəllərində keçmiş V.İ.Lenin adına meydandakı mitinqlərdə tələbələrin, bəzən də şagirdlərin iştirak etməsi hələ də yadımızdadır. 1988-1993-cü illərdə Azərbaycanda özbaşınalıq hökm sürdüyündən, ölkə rəhbərliyinin gələcək üçün dəqiq inkişaf planı olmadığından gənclərin təhsilə marağı sönmüşdü. Həmin dövr milli təhsil sistemində xeyli tənəzzülə gətirib çıxarmışdı. Təhsil sistemində yaranmış boşluq tələm–tələsik digər dövlətlərin təhsil qurumları və sistemləri ilə doldurulmuşdu. Azərbaycanın olduğu hələ formalaşmamış məkanda Amerika, Türkiyə və keçmiş sovet təhsil sistemləri bir-birinə qarışmışdı. Lakin keçid dövrünün mövcud problemlərinə və onların doğurduğu çətinliklərə baxmayaraq, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra onun səyləri sayəsində ölkənin təhsil sistemində qismən institusional yenidənqurma həyata keçirmək mümkün oldu. Lakin müasir dünya bir-biri ilə qarşılıqlı surətdə bağlı və bir-birindən qarşılıqlı surətdə asılı olan dövlətlərdən, cəmiyyətlərdən, ayrı-ayrı fərdlərdən ibarət sürətlə inkişaf edən məkandır. Region dövlətləri lazımi səviyyədə inkişaf etdiyi təqdirdə, qloballaşma uğurlu layihə olmaq şansı qazanır, əks

halda isə, qloballaşmanın siyasi, iqtisadi və sosiomədəni məkana hibrid təsiri labüddür. Bu baxımdan məhz **keyfiyyətli təhsil səmərəli inkişafa və qloballaşma proseslərinə mükəmməl inteqrasiyaya imkan yaradır. Bu isə, öz növbəsində, industrial epoxadan postindustrial epoxaya keyfiyyətli sıçrayışı və keçidi təmin edir.** Təkcə informasiya–kommunikasiya texnologiyalarının inkişafı hesabına hər il təxminən 4-5 milyard dollar mənfəət götürən müasir Hindistanı buna misal göstərmək olar. Ölkəmizin əldə edə biləcəyi belə imkanlar nəzərə alınmaqla, qloballaşma gedən məkan kimi, Azərbaycanda təhsil sistemi keyfiyyətcə yeni texnologiyaların tətbiqinə əsaslanmalı, milli mənafelərə cavab verməli, tədrisin yüksək səviyyəsini təmin etməli, vətənpərvər, intellektual və səriştəli gənclər yetişdirməli, "beyin axını"nın qarşısını almağa kömək etməlidir.

Qloballaşmanın milli məkanlara təsiri prosesində dövlətin daxili inkişafı böyük əhəmiyyət kəsb edir. İnteqrasiya proseslərinin təsiri yeni qavrayış, təfəkkür tərzi formalaşdırır, sonra isə yeni dövrün bu komponentlərini həyata çıxarır. Yeni stereotiplər və davranış formaları yaranır. Demokratik dövlət kimi Azərbaycan hüquqi və demokratik əsasların gücləndirilməsi xətti götürmüşdür. Müstəqillik əldə edildiyi gündən 13 il keçəndən sonra əminliklə demək olar ki, totalitar dövrün kütləvi şüur formasının açıq, şəffaf və demokratik cəmiyyət elementlərilə zənginləşmiş şüur forması ilə əvəz olunmasını nəzərdə tutan ictimai transformasiya, əslində, baş vermişdir. Bu, bütövlükdə, cəmiyyətdə yeni siyasi oriyentirlərin formalaşmasına əhəmiyyətli təsir göstərir, funksional baxımdan yeni siyasi təşkilatların yaranmasına gətirib çıxarır. Formalaşan siyasi məkan xeyli dərəcədə əhalinin bütün təbəqələrinin mənafelərini ifadə edir.

Demokratik cəmiyyətdə monosentrik siyasi sistemdən danışmağın əsassız olması tamamilə təbiidir. Lakin siyasi məkan ikiqütblü, yaxud polisentrik olsa belə, kütlənin tələblərinə cavab verməli, əhalinin mənafelərini ifadə etməli, inkişafa və tərəqqiyə yardım göstərməli, başlıcası isə, dövlət müstəqilliyinin əsası kimi, milli suverenliyi, - o cümlədən daxili siyasi məsələlərdə, - qoruyub saxlamalıdır.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna nail olmaq siyasi hakimiyyətin bütün sahələri üçün öncül istiqamət sayılan məqsəddir. Kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, üçüncü sektorun - qeyri–hökumət təşkilatlarının, birlik və assosiasiyaların maneəsiz işləməsi, söz, öz iradəsini, fikrini sərbəst ifadə etmək, dini etiqad azadlığı müasir Azərbaycanın ictimai-siyasi inkişafının öncül istiqamətidir. Lakin qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün *a priori* qəbul edilən, hər şeyi əhatə edən aksiomalar kompleksi mövcuddur və onlarsız keçid dövrü cəmiyyətlərinin inkişafı mümkün deyildir. Vətəndaş cəmiyyətində dialoqun mühüm tərkib hissəsi tolerantlıq, dözümlülükdür. Lakin tolerantlığın hamı tərəfindən qəbul edilən paradiqma olması üçün daxili siyasi prosesin bütün iştirakçılarının konstruktiv əməkdaşlığı zəruridir. Qlobal "demokratik dalğanın" genişlənməsi prosesində yeni partiya ənənələrinin formalaşması, siyasi məkanın təkmilləşməsi ancaq cəmiyyət daxilindəki uçurumu aradan qaldırmaq səylərinə əsaslanmalıdır. Axı, insanlar arasında dialoq və onların rasional yetkinliyi nəticəsində formalaşmış məkan raison detre-dən, yəni məntiqi əsasdan asılı olacaqdır və ona görə də belə məkan barışmazlıqdan daha yaşarıdır. Ümumdünya inteqrasiyası və milli "Mən"in gizli şəkildə yoxa çıxması

dövründə cəmiyyətdə dialoq, şəffaflıq və dözümlülük kimi dəyərlər keyfiyyətcə yeni, daha aktual xarakter alır.

Buna görə də müxalifətin, xüsusilə də onun dağıdıcı–radikal hissəsinin liderləri dərk etməlidirlər ki, Azərbaycan öz inkişafının elə bir mərhələsinə qədəm qoymuşdur ki, müxalifətin hakimiyyətlə qarşılıqlı münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı forma və üsullarla, dialoq, real şüarlar və daha cəlbedici sosial-iqtisadi proqramlar irəli sürmək yolu ilə aparıla bilər. Dəyənəklər, dəmir çubuqlar, daş-kəsək "proletariatın silahı" kimi tarixin arxivinə göndərilməlidir. Dünya birliyi də bu məsələyə birmənalı şəkildə öz mənfi münasibətini bildirməlidir. Hakimiyyətin dinc yolla təhvil verilməsi bəşəriyyətin ən gözəl nailiyyətlərindən biridir. Hindistanın böyük oğlu Mahatma Qandi zorakılığa əl atmaqdan imtina etməyə çağırmışdır. Çünki bu, "bəşəriyyətin əlində ən böyük qüvvədir. O, insanın nə vaxtsa icad etdiyi ən dağıdıcı silahdan da güclüdür".

"Demokratik dalğanın" genişləndiyi dövrdə, şəffaflıq, dialoq və konstruktiv əməkdaşlıq erasında "açıq cəmiyyət" ideyaları və dövlətin demokratik inkişaf səviyyəsi ölkənin qloballaşma proseslərində səmərəli və mükəmməl iştirakının əsas inteqratorlarına çevrilmişdir. Dövlətin və cəmiyyətin dinamik inkişafı demokratik dəyişikliklərin, məhkəmə hakimiyyətinin müstəqilliyinin, orta sinfin mövcudluğunun və gənc nəslin nümayəndələrinin bu və ya digər sahəyə rəhbərlik prosesinə fəal surətdə cəlb edilməsinin səviyyəsindən asılıdır. Əgər demokratik islahatlar və dəyişikliklər kütlələrin arzularına uyğundursa, zamanın tələblərinə cavab verirsə, yəni statik, yaxud tələm-tələsik deyilsə, əgər onlar xaotik, yaxud sistemsiz şəkildə yox,

ardıcıl surətdə həyata keçirilirsə, demokratik dəyişikliklərin uğurla nəticələnəcəyi labüddür.

Məhkəmə hakimiyyətinin daim təkmilləşdirilməsi və monitorinqi demokratik ideyaların və baxışların qloballaşması dövründə dövlətin və onun vətəndaşlarının hərtərəfli inkişafının mühüm tərkib hissəsidir. Demokratik cəmiyyətdə insanın hüquq və azadlıqlarının səmərəli təminatı dövlətin vətəndaşına, onun hüquqlarına və azadlıqlarına münasibətinin əsas göstəricisidir. J.J.Russo vaxtilə demişdir: "Hətta ən güclü sahib də öz gücünü hüquqa, itaəti isə borca çevirə bilməsə, həmişəlik sahib olmağa gücü çatmaz". Azərbaycan vətəndaşının hüquq və azadlıqları toxunulmazdır və kimsə tərəfindən hücum obyekti ola bilməz. Bu hüquqlar Azərbaycan Respublikasının Konstitusiyası, bir sıra qanunvericilik aktları və həmin hüquqlara əməl edilməsinin, qanunun aliliyinin və ölkədə qayda–qanunun təminatçısı olan dövlət başçısı tərəfindən qorunur. Lakin yaddan çıxarmaq olmaz ki, "bir nəfərin hüququ başqa bir nəfərin yaşamaq, toxunulmazlıq və dövlət tərəfindən müdafiə hüququnun başlandığı yerdə məhdudlaşır". Odur ki, hər bir insan, əvvəla, özünün "təbii" və ikincisi, Əsas qanunla - Konstitusiya ilə təmin olunmuş hüquqlarını nəzərə almaqla, təkcə öz hüquqlarını və azadlıqlarını başa düşməli deyil, digər vətəndaşın hüquqlarının təmin olunmasında öz məsuliyyətini də dərk etməlidir.

2004-cü il bələdiyyə seçkiləri, 2005-ci il isə parlament seçkiləri ilə əlamətdar olacaqdır. Həm bu, həm də digər seçkiləri ölkənin demokratiyaya güclənən keçidinin daha bir mərhələsi kimi qiymətləndirmək lazımdır. 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkiləri göstərdi ki, tradisionalistlərin və təşəxxüslü, ekspressiv siyasi disputlarda itib-batmış qüvvələrin dövrü

keçmişdə qalmışdır. Müasir epoxa Azərbaycanın siyasi səhnəsində dövləti keyfiyyətlə inkişaf etdirməyə, onu dünya birliyinə tam miqyasda inteqrasiya etməyə, əsası 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulmuş səmərəli dövlətçilik xəttini inamla davam etdirməyə qadir olan modernist qüvvələrə yol açmışdır. Tamamilə aydındır ki, 2004 və 2005-ci illərin seçkiləri savadlı, tərəqqipərvər vətəndaşların dövlət idarəçiliyinə fəal surətdə cəlb edilməsinə, onların lokal səviyyədə və respublika səviyyəsində təmsil olunmalarına göstərilən ciddi cəhddir. Bələdiyyə orqanlarına və ölkə parlamentinə seçkilərdə həm də güclü və müstəqil dövlət, mükəmməl vətəndaş cəmiyyəti quruculuğunda iştirak etmək istəyən gənc, səriştəli, intellektual, vətənpərvər insanların iştirakı ölkənin yeni siyasi elitasının təşəkkülünə, siyasi rəqabətin demokratik əsaslarının möhkəmlənməsinə və kadrların keyfiyyətli rotasiyasına kömək edəcəkdir.

Çoxları yaxşı xatırlayır ki, sovet dövründə belə kadrları ÜİLKGİ hazırlayırdı. Sovet İttifaqı dağıldıqdan və bundan sonra layiqli kadrların  seleksiyası prosesində yaranmış boşluq ölkənin inkişaf strategiyasına mənfi təsir göstərdi. Heydər Əliyev 1993-cü ilin iyununda Bakıya qayıtdıqdan sonra, Ali Sovetin sədri olarkən Azərbaycan gənclərinin nümayəndələri ilə ilk görüşlərindən birini məhz yeni gənc və işgüzar vətəndaşların üzə çıxarılmasına həsr etmişdir.

Tamamilə təbiidir ki, demokratiya monosentrik siyasi ideyaları qəbul etmir. İnsan zəkası cəmiyyətin siyasi və iqtisadi həyatının inteqratoru olan bir baxış, yaxud ideya çərçivəsində olan varlığı qəbul etmir. Dünya tarixi dəfələrlə sübut etmişdir ki, ideyaların avtoritarizmi bəzən nə qədər açıq görünsə də, bu və yaxud digər sistemin legitimliyini, yaxud disfunksionallığını itirməsi ilə

şərtlənən müəyyən çərçivələrə və sərhədlərə malikdir. Antik dövrlərdən tutmuş SSRİ-nin dağılmasına qədər bəşəriyyət həmişə hər bir fərdin böyük azadlığa və **geniş seçim hüququna** malik olduğu polisentrik siyasi sistemə can atmışdır. **Müasir dövrdə "seçim hüququ" anlayışının fəlsəfi qavrayışı dövlətin milli suverenliyinin qorunması məsələsində və beynəlxalq münasibətlərdə, bəlkə də, əsas əngəldir.** Ona görə belə bir mülahizə də əsassız deyildir ki, bəşəriyyət "demokratiyadan yorulmaq" kimi səciyyələndirmək mümkün olan həddə çata bilər, demokratik ideallarin və dəyərlərin genişlənməsi haqqında sözçülük baxımından monosentrik qloballaşma və milli suverenliyin məhdudlaşması "xalqların nüfuzdan və qərar qəbul etmək hüququndan məhrum olunması" kimi qəbul edilə bilər.

Buna görə də aydındır ki, ölkəni tərəqqiyə və inkişafa aparmağa qadir olan yeni siyasi elitanı elə bir nəsil formalaşdıracaq ki, ondan ötrü milli "Mən", milli eynilik, təkcə regional planda deyil, həm də qlobal miqyasda milli müstəqilliyin və dövlət suverenliyinin qorunub saxlanması, ölkənin iqtisadi baxımdan güclənməsi mühüm amildir. Gənc nəsil lokal və respublika əhəmiyyətli seçkilərdə fəal iştirak edərək, qarşıda qoyulmuş məqsədlərə uğurla nail olmağa kömək edə bilər. Bu məsələdə dövlət gənc azərbaycanlı liderlərin inkişafına və təşəkkülünə yönəlmiş dəqiq mövqe tutur. Bu, dövrün tələblərinə cavab verir və milli mənafe və təhlükəsizlik məsələsidir. **"Demokratik dövlətlərdə hakimlərin legitimliyi, adətən, onların əsas seçki qruplarının istəklərinə nə dərəcədə cavab vermələrindən, yəni onların vasitəsilə əldə etdikləri nəticələrdən asılıdır. Sistemin legitimliyi isə prosedurlardan, seçicilərin səsvermə yolu ilə özünə hakim seçmək bacarığından asılıdır".**

Milli eynilikdən danışarkən bəzi qloballaşma məkanlarında sakitləşən, digərlərində isə, əksinə, fəallaşaraq, dövlət həyatının bütün sahələrinə getdikcə daha çox təsir göstərən dinin rolunu unutmaq olmaz. Bəzi Qərb tədqiqatçılarının fikrincə, Qərbdə din siyasi və sosial məsələlərdə artıq həlledici rol oynamır. O, sosial münasibətləri nizamlamır. Din sosial ədalət haqqında təsəvvürlərin inkişafında müsbət rolunu oynamışdır.

Dini həyatda dəyişikliklər Azərbaycandan da yan ötməmişdir. Obyektiv və subyektiv səbəblərə görə din müxtəlif üsullarla hakimiyyətə təsir göstərərək, ictimai proseslərə öz təsirini gücləndirməyə cəhd göstərir. Halbuki, ölkə Konstitusiyasında Azərbaycan hüquqi, dünyəvi dövlət kimi müəyyən edilmişdir.

Keçmiş kommunist hakimiyyəti illəri Azərbaycan xalqını "elmi ateizmin" əsaslılığına inandıra bilmədi. Müstəqillik əldə edildikdən sonra Azərbaycanda gözlənilmədən fikir və dini etiqad azadlığının hiss olunması məscidlərin, mədrəsələrin, ilahiyyat fakültələrinin sayının sürətlə artmasına gətirib çıxarmışdır. Dini etiqadı ilə heç vaxt fərqlənməyən, orta məktəblərin, kitabxanaların, poliklinikaların, xəstəxanaların, sosial təyinatlı digər obyektlərin fəaliyyəti üçün normal şəraiti olmayan bölgələrdə mesenatların köməyi ilə məscidlər yağışdan sonra çıxan göbələklər kimi artmağa başladı. Tamamilə qanunauyğun bir sual doğur, bütün ötən illər ərzində insanların dinə etiqadı o dərəcədə dərin idi ki, müstəqillik əldə etdikdən sonra onların bütün bu hissləri birdən-birə üzə çıxdı? Yoxsa, mömin hesab edilmək indi dəbdədir? Yaxud da bu, milli eyniliyi, islam sivilizasiyasına mənsubluğu gözə çarpdırmaq cəhdidir? Bizim fikrimizcə, məsələnin mahiyyəti başqa müstəvidədir. SSRİ dağıldıqdan sonra Azərbaycan vətəndaşlarının təhsil sahəsi kimi, dini etiqad sahəsi

də iri dövlətlərin dini modellərinin təsiri altında olmuşdur. Demokratikləşmə eyforiyası, bir tərəfdən, dini etiqad azadlığına gətirib çıxarmış, digər tərəfdən, ölkənin milli təhlükəsizliyini təhlükə altında qoymuşdu. Təriqətçilik cərəyanlarının sayı artmağa başlamış, Azərbaycanda din yeni Avropa (xristian), İran, Türkiyə, ərəb dini modellərinə, ya da "liberal islam" modelinə yönəlmənin təcrübə obyektinə çevrilmişdi. Siyasi partiya bayrağı altında radikal islam qruplarını birləşdirməyə cəhdlər göstərilmişdir. Həmin modellərin hər biri transformasiya dövrünü yaşayan Azərbaycanın milli reallıqlarında müstəsnalıq iddiasında idi. Bu sahədə milli inkişaf strategiyasını düşünülmüş və konseptual şəkildə müəyyənləşdirmək və Azərbaycanda dinin yerini və rolunu inamla səciyyələndirmək üçün on ilə yaxın vaxt lazım olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, **Azərbaycan dünyəvi idarəetmə forması olan demokratik dövlətdir. Bu, müsəlman və eyni zamanda, nəzərəçarpacaq Avropa aksenti olan çoxkonfessiyalı ölkədir. Azərbaycanın tarixi təkcə 1400 illik (711-720-ci illərdən başlayaraq) islam tarixi yox, üç dünya dininin bir məkanda çoxəsrlik mövcudluğu tarixidir.** Azərbaycan, bəlkə də, dünyada çox nadir dövlətlərdən biridir ki, burada "sivilizasiyaların toqquşması" yolverilməz hesab edilir. **Təfəkkürün və informasiyanın sirkulyasiyası, qlobal təbəddülatlar və proqnozlaşdırılan "sivilizasiyaların toqquşması" dövründə konfessiyalararası dialoq milli eyniliyi qoruyub saxlamağa və onun postindustrial dövrə ötürülməsinə imkan yaradır.** Bəzən dövlətlərin transformasiyasını müşayiət edən milli eyniliyin itirilməsi bütün bəşəriyyətin mükəmməl inkişafını ləngidən böhrana gətirib çıxarır. Odur ki, bəzən filosoflar, politoloqlar və sosioloqlar deyirlər ki, bəşəriyyət "böhranın normallaşması" dövründə yaşayır, yəni dünyada mövcud dünya

nizamı vaxtaşırı normallaşaraq, dövlətlərin və cəmiyyətlərin qismən inkişafına kömək edən daimi, xroniki, ümumi böhran kimi qiymətləndirilir. "Tarixi təcrübə getdikcə qəhrəmanlıq eposundan daha çox "acı bağırsaq kimi uzanan operaya" dönür. Böhran və onun normallaşması barədə danışıqların ən heyrətləndirici əlamətlərindən biri sosial dəyişikliklər və tarixi təkamül barədə nikbin söhbətlərin iflasa uğramasıdır".

Əlbəttə, modernləşmə islamı sıxışdırıb aradan çıxarmaq cəhdi kimi qəbul edilməməlidir. İndi Qərbin regionumuzda tətbiq etdiyi ideya, - ictimai və dövlət həyatının modernləşməsi, vətəndaş cəmiyyətinin, hüquqi dövlətin və sairənin yaradılmasına kömək, - dövrün tələbindən irəli gəlir. Lakin o, praktikada gerçəkləşməyə başlayan kimi, Qərbin niyyətlərinin səmimiliyinə şübhələr (bəzən əsaslı) meydana çıxır, çünki bu niyyətlər ekspansiya (təsir dairəsini genişləndirmək) cəhdi kimi təsəvvür edilir. Bəzən bu şübhələr boş yerdən doğmur. Məsələ bundadır ki, qloballaşmanın təbiətinin başa düşülməməsi ona gətirib çıxarır ki, bəzi hökumətlər qarşılıqlı asılılıqdan sui-istifadə edirlər, birtərəfli siyasətin köməyi ilə ondan ancaq öz mənafeləri üçün istifadə etməyə çalışırlar. Bu zaman tilsimli dairə alınır: dəyişikliklərə getməmək, vaxtı ötüb keçmiş köhnədən yapışıb qalmaq olmaz, əgər hər şey olduğu kimi saxlansa, bunun necə pis olacağı təsəvvürə belə gətirilə bilməz. Modernləşməyə getmək isə əhalinin geridə qalan hissəsinin, dini radikalizm tərəfdarlarının müqaviməti ilə rastlaşmaq deməkdir ki, biz bunu bəzən Azərbaycanın müasir həyatında bu və ya digər şəkildə müşahidə edirik. Lakin çətinliklər ictimai həyatın və dövlət həyatının təzələnməsinə mane olmamalıdır. Dünya birliyinin bir hissəsi kimi Azərbaycan Respublikası bəşəriyyətin inkişafının magistral yolundan kənarda qala bilməz.

## Milli təhlükəsizlik: reallıqlar və prioritetlər

Qloballaşma dövründə dövlətin inkişafını səmərəli milli təhlükəsizlik strategiyasına uyğunlaşdırmaq lazımdır. 2001-ci il sentyabrın 11-dən sonra dünya nizamının açıq-aşkar birqütblü xarakter aldığı və eyni zamanda, siyasi inteqrasiyanın xeyli dərəcədə sürətləndiyi nəzərə alınmaqla, dövlətlərin milli təhlükəsizliyinin qorunması və təmin edilməsi dünyada çoxtərəfli əməkdaşlığın mühüm amili olmuşdur. Antiterror koalisiyasının üzvü olaraq, Azərbaycan milli təhlükəsizliyin təminatına öz baxışını Əfqanıstanda və İraqda terrorizmlə müharibədə iştirak etməklə, Balkan yarımadasında sülhməramlı fəaliyyətə kömək göstərməklə, Avratlantik qurumları ilə fəal əməkdaşlıqla və strateji tərəfdaşımız olan Rusiya ilə münasibətləri təkmilləşdirməklə müəyyənləşdirdi.

Məsələyə bir qədər nəzəri baxımdan yanaşaraq, qeyd etmək istərdik ki, “milli təhlükəsizlik” anlayışının özü ilk dəfə 1943-cü ildə Uolter Lipmanın kitabında işlədilmiş, Milli təhkükəsizlik haqqında akt (1947-ci il) qəbul edildikdən sonra isə ABŞ-da rəsmən qəbul olunmuşdur. Həmin akt əsasında Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi yaradılmışdır. Bu konsepsiyanın dəqiq strukturlaşma xarakteri alması üçün, düşünülmüş və aydın təriflərə əsaslanması üçün onilliklər lazım gəlmişdir.

Postsovet dövlətlərində, məsələn, Rusiyada bu anlayış siyasi təcrübədə 1997-ci ildə, Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyasının ilk variantı imzalananda işlədilmişdir. Sonrakı illərdə bu konsepsiya dəyişmiş və təkmilləşmişdir.

Son illər ərzində digər postsovet respublikalarında milli təhlükəsizliyin təmin edilməsi sahəsində “dövlət orqanlarının, mülkiyyət formasından asılı olmayaraq təşkilatların, habelə vətəndaşların hüquqi münasibətlərini, ...milli təhlükəsizliyin təmin olunmasının məqsədlərini, sistemini və istiqamətlərini” müəyyənləşdirən belə qanunlar və konsepsiyalar qəbul edilmişdir.

Azərbaycanın milli təhlükəsizlik strategiyası Azərbaycan cəmiyyətinin daimi mənafelərini qorumaq məqsədi ilə real və proqnozlaşdırılan meyillərin idarə edilməsi sahəsində qarşılıqlı surətdə bağlı olan ideyaların məcmusundan ibarətdir. ABŞ, Yaponiya, Fransa kimi ölkələrdə milli təhlükəsizlik onilliklər ərzində formalaşmışdır və bu zaman dövlətin regiondakı rolu, ortamüddətli və uzunmüddətli perspektivdə onun beynəlxalq münasibətlərdə mövqeyi nəzərə alınmışdır. Amerika Birləşmiş Ştatları mövcud olduğu 200 ildən artıq bir müddətdə 20-yə yaxın xarici siyasət doktrinası həyata keçirmiş, milli təhlükəsizlik strategiyasını isə daha tez-tez dəyişmiş və təkmilləşdirmişdir ki, bu da milli təhlükəsizlik məsələlərinə dair yalnız rəsmi, sənədli xülasədən ibarətdir. Vaxtilə M.Olbraytın dediyi kimi, ABŞ-ın fundamental mənafeləri 200 ildən artıq bir müddət ərzində dəyişməz qalmışdır və Amerika xalqının təhlükəsizliyi, tərəqqisi və azadlığının təmin olunmasından ibarətdir.

Məsələn, Fransa, yaxud Yaponiyanın milli təhlükəsizlik konsepsiyalarına ötəri nəzər salsaq görəcəyik ki, birincisi, (**fransız**) Fransanı nəinki qitə və dəniz dövlətlərinə aid edir, həm də dəqiqləşdirir ki, o, eyni zamanda, həm Atlantik okeanına, həm də Aralıq dənizinə çıxışı olan (**İspaniyadan savayı**) yeganə Avropa ölkəsidir. Konsepsiyada Fransanın mövqeyində üç istiqamət dəqiq nəzərə çarpdırılır. Bu konsepsiya, əvvəla, Fransa

üçün öz mandatı altında olan ərazilərə və özünün keçmiş müstəmləkələrinin inkişafına kömək göstərməyə görə "öhdəlikləri və məsuliyyəti" kimi daimi qlobal cəlbetmənin zəruriliyini müəyyənləşdirir və "tyermondizm" adlanır. İkincisi, Fransanın milli təhlükəsizliyinin mahiyyəti ölkənin həm Aralıq dənizi hövzəsində, Şimali Afrikada, həm də Yaxın Şərqdə və ona bitişik akvatoriyalarda regional nizamın formalaşmasında iştirakının zəruriliyinə əsaslanır. Həmin aspekt "Avropa perimetri" adlanır. Nəhayət, üçüncü aspekt - "avrosentrizm" Fransanın Avropada təhlükəsizliyin arxitekturası məsələsinə cəlb edilməsinin və Avropa işlərində iştirakının vacibliyini qarşıya məqsəd qoyur. Fransa Avropada özünü regional lider hesab edir və ABŞ-ın burada üstünlüyə malik olmaq meyillərinin qarşısını almağa cəhd göstərir.

Yaponiya doktrinasında Yaponiya inkişafı dəniz coğrafi-siyasi oriyentasiyası ilə bağlı olan ada ölkəsi kimi nəzərdən keçirilir. Yaponiya konsepsiyası da ölkənin üççəhətli mövqeyinə əsaslanır. Əvvəla, Yaponiya üçün qlobal iqtisadi və hərbi-strateji rol nəzərdə tutulur. "Panyaponizm", mahiyyət etibarilə, Asiya-Sakit okean regionunda təkbaşına hakim mövqe tutmaq, digər inkişaf etmiş ölkələrlə birgə Yaxın Şərqin enerji ehtiyatlarına nəzarət etmək, qlobal iqtisadi rəqabət və Yaponiya üçün əhəmiyyətli olan bütün beynəlxalq problemlərin həllində iştirak etmək deməkdir. İkinci aspekt - "Asiyasentrizm"- Yaponiyanın fəallığının coğrafi cəhətdən Asiya-Sakit okean regionu ilə məhdudlaşmasını, bütün səylərini oraya cəlb etməsini nəzərdə tutur. Yaponiya həmin modeldən iki dünya müharibəsi arasındakı dövrdə və İkinci Dünya müharibəsi zamanı istifadə etmişdir. Yaponiya təhlükəsizlik strategiyasının üçüncü kom-

ponenti – "birgə Asiyasentrizm" ABŞ-la sıx qarşılıqlı hərbi–siyasi fəaliyyəti və milli qüdrətin güc vasitələrinin məhdudluğu nəzərə alınmaqla, indiki şəraitdə Yaponiyanın özünün coğrafi-siyasi roluna baxışını müəyyənləşdirir.

1993-cü ilin ortalarından başlayaraq, Azərbaycanda həyata keçirilən xarici və daxili siyasət milli təhlükəsizlik strategiyasının öncül konturlarını müəyyən etmək üçün zəmin yaratmışdır və bu strategiyanı tam əsasla üç hissəyə bölmək olar. Əvvəla, bu, Avropanın problemlərinin həllində Azərbaycanın fəal iştirakının vacibliyini və Avropanın təhlükəsizliyi arxitekturasının formalaşması prosesinin iştirakçısı kimi onun mövqeyini müəyyənləşdirən **"avtosentrizmdir"**. Azərbaycan Avropanın bir hissəsidir, odur ki, Avropada təhlükəsizlik Azərbaycanın sabitliyi və tərəqqisinin rəhni kimi qiymətləndirilir. Bizim ölkəmiz sülhməramlı əməliyyatlar çərçivəsində NATO ilə fəal əməkdaşlıq edir və öz gələcəyini bu təşkilatla sıx əməkdaşlıqda görür. Milli təhlükəsizlik strategiyasının ikinci aspekti – **"atlantizm"** dünyanın qüdrətli dövlətləri ilə, o cümlədən Birləşmiş Ştatlarla strateji yaxınlaşmaya səmtlənmişdir. Bu amil antiterror koalisiyasını dəstəkləməyə və onda iştirak etməyə, siyasi və iqtisadi xarakterli məsələlərdə ABŞ-la birgə qarşılıqlı fəaliyyətə istiqamətlənmişdir. Strategiyanın üçüncü komponenti – **"regional perimetr"** Azərbaycanın regional siyasi və iqtisadi dominant kimi güclənməsini, Xəzər dənizinin enerji ehtiyatlarının dünyanın aparıcı dövlətləri ilə birgə işlənilməsini, ölkə ərazisindən Şimal-Cənub və Şərq-Qərb yollarının əsas nəqliyyat arteriyası kimi istifadə edilməsini, region ölkələri ilə strateji və tərəfdaşlıq münasibətlərinin saxlanmasını nəzərdə tutur.

İndiki dövrün qeyri–adiliyi göz qabağındadır. Azərbaycan cəmiyyətinin qarşılaşdığı problemlər bunlara cavab tapmağı,

yaxud da qloballaşmanın təqdim etdiyi inkişaf modelinə alternativləri zəruri edir. Lakin Pax Romana, yəni “hegemon dünya” dövründə bu fakt dövlətimizin kövrəkliyi və iradəsizliyi barədə xülya doğurmamalıdır. **Qloballaşma dövründə milli suverenliyin məhdudlaşmasından biz inteqrasiya prosesinin əlverişli meyillərinin milli məkanda assimilyasiyası üçün imkan kimi istifadə etməli, ardıcıl, ölçülüb-biçilmiş və əlaqələndirilmiş siyasət yeritməliyik.** Bu, xüsusilə sivilizasiyalı daxili siyasi məkanın formalaşması proseslərinə aiddir. Həmin məkanın əsasını ölkənin inkişafına, onun iqtisadiyyatının modernləşməsinə və müasir Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi əsaslarının möhkəmlənməsinə kömək edə biləcək qüvvələr təşkil etməlidir.

Yuxarıda göstərildiyi kimi, qloballaşma kütlələrin şüurunda yeni stereotiplər formalaşdırır və cəmiyyətə yeni mənəvi-əxlaqi komponentlər gətirir. Lakin postindustrial dövrün yeni aspektləri necə olursa-olsun, bizim vəzifəmiz milli tariximizi, adət və ənənələrimizi, dinimizi qoruyub–saxlamaq və onların varisliyini təmin etməkdir. Bu, çoxlarının tələm-tələsik hesab edə biləcəyi kimi, atavizm deyildir. Bu, qloballaşan məkana uğurlu və rentabelli inteqrasiyanın əsası kimi milli “Mən”i qoruyub saxlamaq səyidir. Qloballaşma prosesi **“insan cəmiyyəti üçün yeni üfüqlər açır... Lakin o, azlıqlardan ötrü yeni bazarlar açmaq, yaxud milli mədəniyyətlərin vahid qlobal mədəniyyətə assimilyasiyası üçün istifadə edilməməlidir”.**

Qloballaşmanın müasir mərhələsi dünya tarixinin bir hissəsidir və o, yeni aktorlar yaradır, dövlət sərhədlərini virtual surətdə transformasiya edir, sivilizasiya konsepsiyasının özündə dəyişikliklər edir, yeni ideyalar gətirir və köhnələri unutdurur.

Hər bir dövlət öz ərazisində məskunlaşmış insanların əsrlər boyu yaratdıqları qayda-qanunlarla yaşayır. Bu dövlətin, onun cəmiyyətinin, tarixinin, adət-ənənələri və dininin yaşarılığı həmin insanların baxışlarından, ideyalarından və atdıqları addımlardan asılıdır. Əgər dövləti tradisionalist və modernist dəyərləri birləşdirməyə qadir olmayan adamlar idarə edirsə, əgər dövlət öz inkişafının ortamüddətli və uzunmüddətli perspektivlərini aydın görə bilmirsə, o zaman qloballaşma məkanı uğursuz transformasiya edir, sosial-iqtisadi və siyasi münasibətlərin hibrid formalarını yaradır.

Vaxtilə Böyük Britaniyanın Baş naziri Uinston Çörçill demişdir: “Bu gün biz dəhşət bürümüş dünyaya var gücümüzlə demək istəyirik: “Biz hələ də öz taleyimizin sahibiyik. Biz hələ də öz qəlblərimizin sükançısıyıq”. **Qazanılmış nailiyyətlərin dərk edilməsi, azərbaycançılıq konvergensiyasında və konfessiyalararası dialoqda ifadə olunmuş milli “Mən”in qorunub saxlanması və varisliyinin təmin edilməsi güclü və müstəqil dövlət quruculuğunda birinci dərəcəli vəzifədir.** 1993-cü ildən sonra Azərbaycanda görülmüş işlər aydın şəkildə sübut edir ki, milli inkişaf strategiyası sabit və təhlükəsiz siyasi və iqtisadi inkişafa, milli suverenliyin və sosiomədəni məkanın dəyişməzliyinin təmin olunmasına yönəlmiş öncül vəzifələrin dərk edilməsinə əsaslanır.

*“Azərbaycan” qəzeti,*
*26 may 2004-cü il.*

## AZƏRBAYCANDA DEMOKRATİK SEÇKİLƏR KEÇİRMƏK ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILMIŞDIR

*(2003-cü il oktyabrın 7-də Binə hava limanında jurnalistlərə müsahibə)*

***- Ramiz müəllim, İlham Əliyevin təbliğat və təşviqat kampaniyasını necə qiymətləndirirsiniz?***

- Mən bunu çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu kampaniyada ən müasir seçki texnologiyasından istifadə olunur. Siz telekanallardan və mətbuatdan görürsünüz ki, seçki kampaniyası, həqiqətən, çox yüksək səviyyədə keçirilir. Ən əsası odur ki, xalq özü cənab İlham Əliyevi ürəkdən sevir, ona səmimiyyət göstərir. Bu da İlham Əliyevin keçirdiyi görüşlərdə öz təzahürünü tapır.

***- Ramiz müəllim, sizin də bir neçə bəyanatınız olub ki, iqtidar bu seçkilərdə vahid komanda kimi iştirak edir. Lakin müxalifət çalışır və ortaya elə məsələlər çıxarır ki, guya iqtidar nümayəndələri arasında hansısa ziddiyyətlər və maraqların toqquşması vardır. Buna münasibətinizi bilmək olarmı?***

- Müxalifət illər boyu çalışır ki, hansısa bir məsələni ortaya ataraq, bunu iqtidar daxilində qarşıdurma amili kimi qələmə versin və öz təbliğatını, siyasətini bunun əsasında həyata keçirsin. Bu, sadəcə olaraq, onlar tərəfindən göstərilən cəhddir. Əslində,

iqtidarda heç bir qarşıdurma yoxdur. Bu, həqiqətən, vahid bir komandadır, Heydər Əliyevin komandasıdır. Bu gün də bu komanda İlham Əliyevin ətrafında birləşib, seçki kampaniyasını təşkil edərək həyata keçirir. Hesab edirik ki, bu seçkilər Azərbaycanın tarixində ən demokratik, ən yüksək səviyyədə təşkil olunmuş seçkilərdir. Zənnimcə, bu, belə də davam edəcəkdir. Biz bütün beynəlxalq ictimaiyyətə, cəmiyyətimizə göstərəcəyik ki, Azərbaycanda, həqiqətən, demokratik, şəffaf, təmiz seçkilər keçirildi.

***- Siz müxalifəti seçkilərdə sivilizasiyalı yolla mübarizə aparmağa çağırmışdınız. Müxalifətin bu çağırışa cavab verəcəyinə inanırsınızmı?***

- Mən belə müraciətlə çıxış etmişəm və hesab edirəm ki, bu, bizim gələcəyimiz üçün, Azərbaycan üçün, dünyadakı imicimiz üçün lazımdır. Müxalifət üçün qanunla müəyyən olunmuş demokratik şərait yaradılmışdır. Sadəcə, bu imkanlardan istifadə etmək lazımdır. Lakin çox təəssüf, müxalifət buna riayət etmir. Çox vaxt çalışırlar ki, hüquq mühafizə və hakimiyyət orqanlarını müəyyən hərəkətlərə təhrik etsinlər, yaxud özləri təxribat törətsinlər. Lakin hadisələrin gedişi göstərir ki, onlar buna nail ola bilmirlər. Biz onlar üçün lazımi şərait yaratmışıq və istəyirik ki, qanunla müəyyən olunmuş yerlərdə öz görüşlərini, mitinqlərini demokratik şəkildə keçirsinlər. Qətiyyən təxribata və qarşıdurmaya getməsinlər.

Çox təəssüflər olsun ki, belə təhriklər olmuşdur. Bazar günü Əli Bayramlı şəhərində, elə həmin gün Şəki şəhərində təxribat yaratmağa cəhdlər göstərmişdir. Lakin bizim qəti göstərişimiz var ki, dövlət və hüquq mühafizə orqanları belə təxribatlara uymasınlar, sabitliyi qorusunlar və müxalifət qanunla müəyyən olunmuş yerlərdə öz mitinqlərini keçirsin.

***- Seçki günü müxalifətin təxribat törətmək planları gözlənilirmi?***

- Hər halda, çox təəssüf ki, mətbuatdan da göründüyü kimi, radikal müxalifət belə təxribatlara getmək istəyir. Əgər onların mətbuatına nəzər salsaq görərik ki, bir aydan çoxdur hər nömrəsində, hər səhifəsində təxribata çağırış var. Bu gün mənə məlumat verdilər ki, "Müsavat" və "Hürriyyət" qəzetlərində hətta üsyana çağırış vardır. Əlbəttə, bu, baş tutan məsələ deyildir. Xalq artıq 1992-93-cü illərdəki xalq deyildir. Dünya 1992-93-cü illərdəki dünya deyildir. Bu gün insanlar yaxşını pisdən ayıra bilirlər. Ölkədə yaranmış sabitliyi bütün xalq qoruyur və xalqımız maraqlıdır ki, Azərbaycanda sabitlik olsun. Heç kim qarşıdurma olmasını istəmir. Ona görə də insanlar radikal müxalifətin belə çağırışlarına uymayacaqlar. Digər tərəfdən, dövlət də güclüdür, qüvvətlidir və özünü müdafiə etməyə qadirdir. Dövlətimiz imkan verməyəcəyik ki, nə ayın 15-də, 16-da, nə də sonralar kimsə Azərbaycanda qarışıqlıq, qarşıdurma, toqquşma yaratsın.

***- Ramiz müəllim, Prezident Heydər Əliyevin ölkəyə qayıdışı nə vaxt gözlənilir?***

- Bu məsələ bilavasitə həkimlərdən asılıdır. Onlar nə vaxt məsləhət görsələr, cənab Prezident o vaxt Azərbaycana qayıdacaqdır. Şübhə etmirəm ki, oktyabr ayında Azərbaycan xalqı Heydər Əliyevi qarşılayacaqdır.

*"Azərbaycan" qəzeti,*
*8 oktyabr 2003-cü il.*

# MÜASİR AZƏRBAYCAN FƏLSƏFİ FİKRİNİN AKTUAL PROBLEMLƏRİ

Müasir Azərbaycanda milli-siyasi özünüdərk ümumbəşəri dəyərlərlə yanaşı, ilk növbədə, milli fəlsəfi fikrə əsaslanmalıdır. Bu baxımdan Azərbaycanda fəlsəfi fikir tarixinin öyrənilməsinə ehtiyac getdikcə artmaqdadır. Xüsusilə, sovet dövründə böyük mütəfəkkirlərimizin dünyagörüşü və fəlsəfi əsərləri öyrənilərkən məqsədyönlü surətdə təhriklərə yol verildiyini, onların fikirlərini, necə olursa-olsun, materialist mövqedən işıqlandırmağa cəhd göstərildiyini nəzərə alsaq, fəlsəfə tarixinə yenidən nəzər salınmasına böyük ehtiyac yarandığı aşkar müşahidə olunar. Düzdür, sovet dövründə milli fəlsəfə tarixinin öyrənilməsi sahəsində müəyyən uğurlar da əldə edilmişdir. Azərbaycan filosoflarının orta əsrlərdə ərəb və fars dillərində yazdığı bir sıra fəlsəfi əsərlər, habelə mütəfəkkir şairlərimizin fəlsəfi yönümlü bədii yaradıcılığı Azərbaycan və ya rus dilinə tərcümə olunaraq tədqiqatçıların istifadəsinə verilmişdir.

Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikrinin öyrənilməsi, sistemləşdirilməsi və dünya fəlsəfi fikri ilə müqayisəli təhlili sahəsində sovet dövrünün böyük filosofu Heydər Hüseynovun xüsusi xidmətləri olmuşdur. Heydər Hüseynov təkcə özü bu sahədə tədqiqatlar aparmaqla kifayətlənməmiş, Azərbaycanda fəlsəfə tarixçiləri məktəbi yaratmış və bu sahənin inkişafına geniş yol açmışdır. Bəhmənyarın, Nizaminin, Ş.Sührəvərdinin, Nəiminin, Nəsiminin, Şəbüstərinin, Füzulinin fəlsəfi dünyagörü-

şünə dair xüsusi tədqiqatlar aparılmış, dissertasiya işləri yazılmış, monoqrafiyalar çap olunmuşdur. Xüsusilə, yaxın keçmişin böyük mütəfəkkirləri olan M.F.Axundovun, A.Bakıxanovun, H.Zərdabinin fəlsəfi-bədii irsi hərtərəfli tədqiq olunmuş və onların Azərbaycanda milli şüurun inkişafındakı rolu geniş işıqlandırılmışdır. Lakin o dövrdə bütün bu tədqiqatlar kommunist ideologiyasının qoyduğu məhdudiyyətlər çərçivəsində aparıldığından bir sıra təhriflərə də yol verilmişdir. Əsasən, idealist fəlsəfi zəmindən çıxış edən böyük filosoflarımız və şairlərimiz yeni nəslə az qala ateist kimi təqdim olunmuşlar. Əlbəttə, bu, həmin dövrün tələbi idi. Lakin indi zaman dəyişmiş, böyük mütəfəkkirlərimizin əsərlərini olduğu kimi çap etmək və onlara obyektiv şərh və təhlil vermək imkanı yaranmışdır. Bunsuz həqiqi milli özünüdərk mümkün deyildir.

Digər tərəfdən, sovet dövründə dünya fəlsəfəsinə, əsasən, marksizm mövqeyindən və ən yaxşı halda, rus fəlsəfi fikri pəncərəsindən baxmağa məcbur olan tədqiqatçılarımız indi ümumbəşəri fəlsəfi dəyərləri bilavasitə mənimsəmək, dünya fəlsəfə klassiklərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmək və öz fəlsəfi axtarışlarını dünya fəlsəfi fikri kontekstində aparmaq imkanı əldə etmişlər. Əlbəttə, Gertsenin, Çernışevskinin, Dobrolyubovun, Belinskinin əsərləri təkcə inqilabi-demokratik ideyaların təbliği ilə məhdudlaşmırdı, onlar həm də dünya fəlsəfi fikrinin daşıyıcıları olmaqla, bizim üçün dünyaya pəncərə idilər. L.Tolstoy və F.Dostoyevski yaradıcılığındakı ümumbəşəri fəlsəfi ideallar bu gün də dünya fəlsəfi fikrində özünəməxsus yer tutur. Lakin rus fəlsəfəsi dünya fəlsəfi fikrinin bütöv spektrini özündə əks etdirə bilmir. Azərbaycan peripatetikləri öz yaradıcılığında antik fəlsəfənin şərhini verdikləri və bu sahədə ciddi ad-

dımlar atdıqları bir vaxtda Rusiyada peşəkar fəlsəfi fikir hələ heç formalaşmamışdı. Bu baxımdan, Azərbaycanın fəlsəfi fikir tarixi dünya fəlsəfəsinin ayrılmaz tərkib hissəsi olduğu üçün müasir dövrdə də Azərbaycan filosoflarının beynəlxalq fəlsəfi proseslərə daha fəal qatılması üçün böyük əsas vardır.

Fəlsəfə tarixi qarşısında duran vəzifələrdən biri də XX əsrin əvvəllərində və sovet dövründə fəaliyyət göstərmiş mütəfəkkir ədiblərin yaradıcılığına yeni metodoloji zəmində qiymət verilməsidir. Belə ki, Mirzə Cəlilin, Məhəmməd Hadinin, Hüseyn Cavidin, Cəfər Cabbarlının və başqalarının ədəbi-bədii əsərlərindəki fəlsəfi ideyaların daha kommunist ideologiyası mövqeyindən deyil, artıq ümumbəşəri və milli fəlsəfi dəyərlər mövqeyindən dəyərləndirilməsinə böyük ehtiyac yaranmışdır. Bu baxımdan, bütövlükdə ədəbi tənqidin metodoloji əsaslarında və meyarlar sistemində ciddi dəyişikliklər aparılması zərurəti yaranmışdır. Bu isə yalnız ədəbiyyatçılar və filosofların əməkdaşlığı şəraitində həyata keçirilə bilər.

Müasir dövrdə fəlsəfə elmləri sahəsində tədqiqatlara ehtiyac nəinki azalmamış, hətta bir sıra aspektlərdə xüsusi aktuallıq kəsb etmişdir. Bəşəriyyət qarşısında duran və həmişə insanları düşündürən, neçə əsrlər ərzində öz aktuallığını itirməyən ümumbəşəri fəlsəfi problemlərlə yanaşı, konkret ictimai-siyasi mühitin xüsusiyyətlərindən, dövrün sosial-siyasi ab-havasından, milli özünüdərkin konkret səviyyəsindən doğan yüzlərlə aktual problem ortaya çıxır ki, onların elmi-fəlsəfi təhlili qaçılmaz olur.

Fəlsəfədə hər hansı problem həmişə insan–dünya münasibətləri kontekstində nəzərdən keçirilir. İnsan-dünya münasibətlərinin bütün dövrlərdə insanların hamısı üçün ümumi olan aspektləri ilə yanaşı, konkret zaman və məkan daxilində xüsusi

aspektləri də vardır. Müasir dövrdə Azərbaycanda yaşayan insanların ümumbəşəri fəlsəfi problemlərə münasibəti bir neçə mühüm amilin təsiri ilə xüsusi səciyyə kəsb edərək, yeni problemlərin üzə çıxmasına zəmin yaradır.

Azərbaycanın hüquqi-siyasi müstəvidə öz dövlət müstəqilliyini bərpa etməsi hər bir vətəndaşımız üçün yeni bir dövrün başlanğıcıdır. Dövlət quruluşu dəyişir, iqtisadi münasibətlər sistemi, cəmiyyətin strukturu, ideologiya dəyişir və köhnə ideologiyaya əsaslanmış fəlsəfi fikrin də dəyişilməsi zərurətə çevrilir.

İctimai şüurda gedən proseslərin kortəbii yox, elmi əsaslarla həyata keçməsi naminə əvvəlcə cəmiyyətdə baş verən real dəyişikliklərin elmi təhlili verilməlidir. Yəni biz ictimai şüurun hansı istiqamətdə dəyişiləcəyini proqnozlaşdıra bilmək üçün əvvəlcə ictimai reallıqdakı dəyişikliklərin hansı istiqamətdə getdiyini dərk etməliyik.

Düzdür, ictimai varlığın, sosial-iqtisadi proseslərin dəyişilməsi də ideyalarsız həyata keçmir. Lakin cəmiyyəti dəyişdirən ideyalar və maraqlar sistemi dəyişdirilmiş cəmiyyətdən doğan yeni şüur sistemi ilə adekvat olmaya da bilər. Keçid dövrünü səciyyələndirən cəhətlərdən biri də məhz ictimai şüurla ictimai varlıq arasındakı uyğunsuzluqlardır.

Marksizm-leninizm fəlsəfəsindən və bütövlükdə kommunist ideologiyasından imtina etmiş Azərbaycan onun əvəzinə yeni bir ideologiya və yeni bir fəlsəfi sistem düşünüb hazırlamağa macal tapmadan keçid dövrünün ziddiyyətləri ilə üz-üzə dayanmalı oldu. Müstəqil dövlət quruculuğu prosesi milli özünüdərk axtarışlarını sürətləndirsə də, müstəqilliyin ilk illərində yeni ideologiyanın, milli fəlsəfi fikrin formalaşmaması və ictimai şüurun inertliyi artıq hərəkətə gəlmiş böyük ictimai-siyasi

proseslərin elmi əsaslarla idarə olunmasına imkan vermədi. Düzdür, 1993-cü ildən sonra Azərbaycan dövlətinə rəhbərlik edən Heydər Əliyevin böyük siyasi və idarəçilik təcrübəsi Azərbaycanın böhrandan çıxmasına, dövlət quruculuğu işinin uğurla həyata keçirilməsinə, müstəqilliyin möhkəmləndirilməsinə imkan verdi. Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamlarının, azərbaycançılıq ideologiyasının başlıca ünsürlərinin tədricən formalaşması prosesi də elə həmin dövrdən başlandı. Bununla yanaşı, ictimai-siyasi, iqtisadi və mədəni-mənavi sahələrdəki keçid prosesləri, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması ilə əlaqədar dəyişikliklərin elmi izahı xüsusi fəlsəfi tədqiqatlar tələb edir. Azərbaycanın, bir tərəfdən, coğrafi-siyasi vəziyyətinə görə, digər tərəfdən zəngin təbii sərvətlərə malik olan bir ölkə kimi böyük dövlətlərin siyasi və iqtisadi maraqlarının mərkəzində olması onun özünü dünya siyasətinin fəal iştirakçılarından birinə çevirib və ona görə də siyasətşünaslığın aktual problemlərinin tədqiqinə böyük ehtiyac yaranır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması son vaxtlar nisbi müstəqil tədqiqat istiqamətinə çevrilmiş konfliktologiyanın da elmi-nəzəri əsaslarının öyrənilməsini və artıq regional münaqişələrin təhlilinin xeyli dərəcədə qərarlaşmış nəzəriyyələr kontekstində aparılmasını zəruri edir.

Keçid dövrünün yeni mərhələsi yeni iqtisadi münasibətlərin əsasında dayanmalı olan yeni düşüncə tərzinin fəlsəfi özünüdərk səviyyəsində formalaşmasını tələb edir. Daha doğrusu, burada fəlsəfi fikirlə düşüncə tərzi arasında müəyyən bir əks-əlaqəyə ehtiyac yaranır.

Beləliklə, fəlsəfi fikir, bir tərəfdən, müstəqillik əldə etmiş xalqın milli özünüdərk prosesini ehtiva etməli, digər tərəfdən də

bir ictimai-iqtisadi quruluşun yenisi ilə əvəzlənməsindən irəli gələn ictimai şüurun elmi-nəzəri səviyyədə əsaslandırılmasına xidmət etməlidir. Bütün bunlar isə fəlsəfənin ənənəvi problematikasından kənara çıxmadan, mövcud elmi-fəlsəfi fikrə istinad etməklə həyata keçirilməlidir.

Müstəqillik əldə etmiş xalqın öz siyasi və iqtisadi azadlığını təmin etmək istiqamətindəki fəaliyyəti müstəqil dövlət və təsərrüfat quruculuğu ilə yanaşı, ilk növbədə milli tarixin, ədəbiyyatın, mədəni-mənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsi, kommunist ideologiyasının təsirlərindən azad edilməsi ilə müşayiət olunur. Ateizm buxovlarından azad olmuş dini şüur yeni inkişaf müstəvisinə keçir və nəticədə dinlə ideologiyanın, dinlə fəlsəfənin də ənənəvi münasibətləri bərpa olunur. İctimai şüurda gedən bütün bu yeni proseslərin elmi-fəlsəfi təhlilinə ehtiyac yaranır.

İdeologiyanın dəyişilməsi, milli şüurun inkişafı, ictimai şüurla yeni ictimai-iqtisadi münasibətlər arasındakı ziddiyyətlər və onların həllinə olan ehtiyac elmi-fəlsəfi tədqiqatların tematikasında da öz əksini tapmalı olduğu halda, təəssüf ki, Azərbaycanda fəlsəfə çaşqınlıq və durğunluq vəziyyətindən hələ çıxa bilməmişdir. Bu sahədə görülən işlər ya sovet dövründə aparılan tədqiqatların davamı kimi, ya müəyyən beynəlxalq forumların verdiyi qrantların tələblərinə uyğun olaraq, yaxud da indi Rusiyada dəbdə olan mövzuların bir növ təqlidi kimi ortaya çıxır. Əslində, tədqiqatdan daha çox icmal yazılır və ya elmi-publisistik yazılar dərc olunur. Digər tərəfdən də, bu vəziyyət elmi jurnalın olmamasından irəli gəlir. Keçid dövrünün simptomlarından biri olan publisist və psevdosiyasi təfəkkürün elmi təfəkkürü üstələməsi, söz və mətbuat azadlığının ifrat forma-

larda anlaşılması, düşünmədən danışmaq, tədqiqat aparmadan yazmaq praktikasının genişlənməsi, kitab çapında əvvəllər öz müsbət nəticələrini vermiş meyarların itməsi və ümumiyyətlə, mətbuat və nəşriyyat işinin bazar iqtisadiyyatının təsirinə məruz qalması ictimai-siyasi fikrin mövcud vəziyyətinə mənfi təsir göstərməyə bilməzdi. Bu vəziyyət cəmiyyətşünaslıq sahəsində həqiqi elmi tədqiqatların üzə çıxmasına, publisistika ilə elmin fərqləndirilməsinə mane olur. Elmi nəşrlərsiz elmi fikrin inkişafı isə, təbii ki, mümkün deyildir.

Kommunist ideologiyasından uzaqlaşdıqdan sonra keçmiş sosialist ölkələrində fəlsəfə sahəsindəki tədqiqatların böyük əksəriyyəti kommunist ideologiyasının, totalitar rejimin tənqidinə, fəlsəfə tarixinə və müasir Qərb fəlsəfəsinin işıqlandırılmasına həsr olunur. İdeoloji qarşıdurma dövründə müasir Qərb fəlsəfəsinin hətta ən klassik nümunələri belə tərcümə olunmadığından və ya "xüsusi istifadə üçün", "elmi kitabxanalar üçün" çox az tirajla çap edildiyindən, geniş fəlsəfə ictimaiyyətinin müasir Qərb fəlsəfəsindəki tədqiqatlarla tanışlıq dərəcəsi aşağı səviyyədə idi. Təsadüfən hansısa bir kitab tərcümə olunurdusa, onun tənqidinə onlarca dissertasiya işi, məqalə və kitablar həsr edilirdi. İndi qadağalar aradan qalxdığından, ABŞ və Qərbi Avropa filosofları, sosioloqları və politoloqlarının əsərləri rus dilinə tərcümə olunur və digər MDB ölkələrində, o cümlədən Azərbaycanda da yayılır. İndi rus filosoflarının özləri də daha çox müasir mövzularda yazır və ənənəvi fəlsəfi mövzuları, klassik fəlsəfəni çox vaxt praqmatik və tətbiqi səciyyəli problemlər əvəz edir. Bu mənada "müasirlik" anlayışı özünü həm müsbət, həm də mənfi çalarlarda göstərir. Ən çox qrantlar ayrılan və insan hüquqları kontekstində həyata keçirilən psevdososioloji tədqiqatlar köklü

fəlsəfi məsələləri arxa planda qoyur. Qloballaşma fəlsəfi və ictimai-siyasi elmlərin predmetinə də ciddi təsir göstərir və ümumbəşəri fəlsəfi problemlərin öyrənilməsi dünyanın siyasi güc mərkəzlərində üstünlük təşkil edən hazır dəyərlər sisteminin transformasiyası ilə əvəz olunur. Digər tərəfdən, Qərb dünyasında elm və texnologiyaların aparıcı rolu fəlsəfəni də getdikcə daha çox elmin əlavəsinə çevirir ki, nəticədə neopozitivizm, tənqidi rasionalizm, germenevtika, linqivistik fəlsəfə və s. bu kimi cərəyanlar da klassik fəlsəfi problemləri arxa plana sıxışdırır.

Azərbaycanda Şərq fəlsəfi fikir ənənələrinin bərpa edilməsi və müasir Qərb fəlsəfəsi ilə inteqrasiya fəlsəfi fikrin inkişafına yeni təkan verə bilər. Milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş əsas prinsiplərindən biri olan millilik və ümumbəşəriliyin vəhdəti prinsipi Azərbaycanda fəlsəfənin inkişaf yolunun müəyyənləşdirilməsi üçün də əsas götürülməlidir.

Azərbaycanda fəlsəfə dərslikləri yazılarkən Qərbin və Şərqin fəlsəfi dəyərlər sistemi arasında sadəcə tarazlıq yaratmaq yox, onların üzvi vəhdətindən çıxış etmək prinsipi rəhbər tutulmalıdır. Azərbaycan qədim İpək Yolunun bərpası işində aparıcı rol oynamaq, öz coğrafi-siyasi mövqeyinə görə Şərq ilə Qərb arasında körpü kimi çıxış etmək missiyaları ilə yanaşı, dünya fəlsəfi fikrinin inkişafında da inteqrativ rol oynaya bilər. Bu cəhət Azərbaycan filosoflarının tədqiqat əsərlərində, dissertasiya işlərinin mövzularının seçilməsində, dərsliklərin və dərs vəsaitlərinin strukturunda da nəzərə alınmalıdır.

Fəlsəfə gününün bütün dünyada, o cümlədən Azərbaycan ictimaiyyəti tərəfindən qeyd edilməsi, əlbəttə, yaxşı haldır. Lakin Azərbaycan fəlsəfi fikri qarşısında duran vəzifələr o qədər

çoxdur və elmi-fəlsəfi ictimaiyyətin üzərinə o qədər böyük məsuliyyət düşür ki, fəlsəfə tək bir gün ərzində deyil, ilboyu, həmişə diqqət mərkəzində saxlanılmalıdır. Bütün digər ictimai-siyasi elmlərin, hətta tarix və ədəbiyyatın inkişafı da, istər-istəməz, fəlsəfi fikrin real vəziyyəti, ictimai şüurda fəlsəfənin yeri və bütün cəmiyyətin fəlsəfəyə münasibəti ilə bağlıdır. Bu vəzifə təkcə MEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun, universitetlərin fəlsəfə kafedralarının deyil, bütövlükdə Təhsil Nazirliyinin, ali məktəb rəhbərlərinin, habelə müvafiq ictimai təşkilatların və kütləvi informasiya vasitələrinin birgə səyi ilə yerinə yetirilə bilər.

*"Azərbaycan" qəzeti,*
*20 noyabr 2003-cü il.*

## HEYDƏR ƏLİYEVİN QURDUĞU AZƏRBAYCAN ƏBƏDİ YAŞAYACAQDIR

**34 il bundan əvvəl, 1969-cu ilin iyul ayının 14-də Heydər Əlirza oğlu Əliyev Azərbaycanın rəhbəri seçildi. Respublikanın 46 yaşlı yeni rəhbərinin o zaman da böyük idarəçilik və rəhbərlik təcrübəsi olmasına baxmayaraq, əvvəlki illərdə çalışdığı sahənin spesifikliyi ilə əlaqadar cəmiyyətdə onun haqqında geniş məlumat yox idi. Lakin hamı bilirdi ki, Heydər Əliyev respublikada sovet dövlət sistemində xüsusi nüfuzu ilə fərqlənən Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri səviyyəsinə yüksəlmiş yeganə azərbaycanlıdır və elə bu faktın özü onun şəxsiyyəti haqqıda bitkin təsəvvür yaradırdı. Azərbaycana rəhbər seçimi məsələsində məhz onun üzərində dayanılmasını şərtləndirən əsas amil isə Heydər Əliyevin çox yüksək şəxsi keyfiyyətlərə malik olması, respublikanın problemlərini dərindən dərk etməsi, insanları yaxından tanıması, hakimiyyətdaxili çəkişmələri, ziddiyyətləri gözəl bilməsi idi.**

**Həmin dövrdən keçən 34 il ərzində xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın alternativsiz və hamılıqla qəbul olunan lideri funksiyasını şərəflə daşıması bir daha göstərdi ki, bu böyük dövlət xadiminin 1969-cu ildə hakimiyyətə qəlişi özünü tam doğrultmuş mühüm tarixi zərurət olmuşdur. Təsadüfi deyil ki, bu illər tariximizin Heydər Əliyev dövrü adlandırılır.**

1960-cı illərin sonlarında keçmiş SSRİ-nin əyalətlərindən biri olan Azərbaycanda iqtisadiyyatda, cəmiyyətin ictimai-siyasi həyatında narahatlıq doğuran tənəzzül prosesləri açıq müşahidə edilirdi. Sovet İttifaqına daxil olan digər müttəfiq respublikaların gözəçarpan inkişafı fonunda Azərbaycanın bütün sahələrdə geriləməsi, mənfi meyillərin və halların getdikcə dərin kök atması, hakimiyyət uğrunda gizli rəqabətin ifrat həddə çatması və eybəcər formalar kəsb etməsi respublikanın iqtisadi potensialını dağıtmaq, xalqın milli-mənəvi birliyinə sağalmaz yaralar vurmaq qədər təhlükəli miqyas almışdı.

Azərbaycanın siyasi-iqtisadi həyatında yaranmış tənəzzül xalqın mənəvi-psixoloji durumuna da mənfi təsir göstərmişdi. Respublikanın siyasi rəhbərliyində kosmopolit əhval-ruhiyyə hökm sürürdü. Milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlılaşdırılması yönündə heç bir ciddi addım atılmır, əksinə, bu istiqamətdə edilən təşəbbüslərin qarşısı alınırdı. Aydındır ki, belə bir vəziyyət milli şüura, milli düşüncəyə və milli mentalitetə xas olan kadrların yetişməsinə əngəl yaradırdı. Məhz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi bu baxımdan mövcud olan anormal vəziyyəti aradan qaldırdı. Onun təşəbbüsü və təkidi ilə Azərbaycanın o dövrdə - 1978-ci ildə qəbul olunan Konstitusiyasında Azərbaycan dili dövlət dili statusu aldı.

Respublikanı bürümüş tənəzzülün tezliklə qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin və ictimai ovqatın qərarlaşması lüzumu çox ciddi, hətta qeyri-standart qərarların qəbul edilməsini zəruriləşdirmişdi. Lakin bundan da vacib məsələ vəziyyətin nizama salınması ilə bağlı gərgin və çoxşaxəli

dəyişiklik və yeniliklər proseslərini həyata keçirməyə qadir olan şəxsiyyətin rəhbərliyə gəlməsi idi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsindən sonrakı illərin tarixi yekunu bunu söyləməyə əsas verir ki, belə bir seçimə Heydər Əliyevin layiq görülməsini təsadüf hesab etmək olmaz.

Respublikanın iqtisadi, sosial və mənəvi-psixoloji durumu rəhbər seçilməsinə xüsusi məsuliyyətlə yanaşmağı tələb edirdi. Seçiləcək adamın şəxsi keyfiyyətlərinə, rəhbərlik bacarığına ciddi tələbkarlıq mövqeyindən yanaşmadan respublikanın qarşısında duran tarixi vəzifələrin uğurla yerinə yetiriləcəyinə təminat verilə bilməzdi. Təkcə elə bu səbədən Azərbaycanda 1969-cu ilin siyasi seçimi Heydər Əliyevin liderlik keyfiyyətlərinin, dövlətçilik təcrübəsi və qabiliyyətlərinin etirafı kimi qiymətləndirilir. Həmin tarixi andan keçən 34 il ərzində xalqımızın qət etdiyi tərəqqi və azadlıq yolu bu həqiqətin bariz təsdiqinə çevrilmişdir.

**Azərbaycan tarixinin 1969-cu ilin 14 iyulundan sonrakı dövrünün əhatəli təhlili və qiymətləndiriıməsi belə bir həqiqəti də aşkar edir ki, Heydər Əliyevin respublikaya rəhbər seçilməsi öz əhəmiyyətinə və əzəmətli nəticələrinə görə adi rəhbərlik dəyişdirilməsi prosedurundan məna və keyfiyyətcə çox-çox fərqlənən hadisə olmuşdur. Bu, əslində, ölkəmizin çağdaş tarixində xronologiya baxımından XX əsrin dar çərçivələrinə sığınmış, lakin çox böyük məzmun yükünə malik olan yeni eranın başlanğıcı deməkdir.** Çünki 1969-cu ilin ortalarından etibarən Azərbaycan cəmiyyətinin mövcudluğunun, fəaliyyətinin, bütünlükdə həyatının ideya-konseptual prinsiplərində yeni milli-mənəvi dəyərlərin və fəlsəfi yanaşmaların əsası qoyulmşdur. **Əslində, 14 iyul 1969-cu il Azərbaycanın ən yeni tarixinə dönüş mərhələsi kimi daxil olmuşdur.** Bu,

tənəzzül içində olan Azərbaycanın tərəqqiyə dönüşü, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüşünün başlanğıcı idi.

Bu gün tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanda milli özünüdərk və milli özünüifadənin bütün formalarınn geniş vüsət almasına, milli şüurun yüksəlməsinə təkan verən sürətli inkişaf strategiyasının seçilməsi və böyük uğurla həyata keçirilməsi Heydər Əliyevin otuz dörd il bundan əvvəl əsası qoyulmuş rəhbərlik və idarəetmə fəlsəfəsinin aparıcı ideya-siyasi qayəsini təşkil edir. Sübuta ehtiyac yoxdur ki, qısa vaxtda cəmiyyət həyatının bütün sahələrinin tezliklə sürətli yüksəlişi, istehsalın, elmin, mədəniyyətin, mənəviyyatın tərəqqisi, bir sözlə, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublikada ictimai-mənəvi durumu səciyyələndirən bütün bu gerçəkliklər, əslində, daha böyük niyyətlərin - milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən əzəmətli planın tərkib hissələri olmuşdur.

Milli dövlətçiliyin və milli şüurun indiki yüksəkliyindən ötən 34 ilin nəticələrinə ən ümumi şəkildə qiymət verməyə çalışsaq, belə bir cəhət ilk növbədə vurğulanmalıdır ki, Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmiş buxovlardan azad olması, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. **İndi hamılıqla Azərbaycanın müasir intibahı dövrü kimi dəyərləndirilən 1970-80-ci illərin böyük inkişaf epoxası xaqlımızın**

**qəlbində, düşüncələrində illərlə sıxılıb qalmış milli ideyanın – azadlıq, müstəqillik, suveren Azərbaycan dövləti ideyalarının canlanmasına, gələcək qüdrətli milli-azadlıq hərəkatının ideya-mənəvi nüvəsi və hərəkatverici qüvvəsi dərəcəsinə yüksəlməsinə əlverişli zəmin yaratmışdır.**

1970-ci illərdən başlayaraq, Azərbaycan nəinki sürətli yüksəliş mərhələsinə qədəm qoymuş, yeni intibahını yaratmış, həm də bu intibahın növbəti zəruri pilləsi  olan azadlıq mücadiləsinə daxilən hazırlanmışdır. 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində müstəqillik hərəkatının geniş vüsətinə aparan çətin, ziddiyyətlərlə dolu tarixi yolun mühüm, bəlkə də həlledici mərhələlərindən biri, şübhəsiz, 1970-ci illərin ümumi milli yüksəlişi və onun sayəsində xalqın daha qabarıq mübarizlik ruhunun formalaşması olmuşdur.

Bu illərdə Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdir. Həmin proses Heydər Əliyev tərəfindən çox böyük həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. Sovet sisteminin ağır təzyiqlərinə baxmayaraq, Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atılırdı. Keçmiş SSRİ-nin ayrı-ayrı respublkalarında rejimin əleyhinə çıxış edən elm və mədəniyyət xadimləri, ziyalılar təqiblərə, təhdidlərə məruz qaldıqları halda, Azərbaycanda yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti hökm sürürdü. Daha konkret desək, Azərbaycanda "dissident axtarışı" aparılmırdı. Bütün bunlar Azəbaycan ziyalılarının - şair və yazıçıların, incəsənət nümayəndələrinin milli ruhlu, milli tariximiz və ədəbiyyatımızla bağlı əsərlər yaratması üçün münbit şəraiti təmin edirdi (Bununla bağlı xeyli misallar göstərmək mümkündür. Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının həmin illərdə

üzə çıxması və buna görə onun təqib edilməməsi və hətta Lenin ordeni alması məhz böyük şairin siyasi təqibdən qorunması naminə atılan addım sayıla bilər).

Milli azadlıq və milli özünüdərk ruhunun açıq və gizli təbliği üçün həmin illərdə yaradılmış şərait sonrakı mərhələlərdə öz bəhrəsini vermişdir. Keçmiş SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda, demək olar ki, milli müstəqillik ideyalarının daşıyıcısı olan böyük bir zümrə yetişmişdi. Xalqın bütün təbəqələri – ziyalılar, fəhlə və kəndlilər, tələbələr, dövlət məmurları və hətta Kommunist Partiyasının rəhbərliyində olan bəzi şəxslər və başqaları arasında bu ideyaların daşıyıcıları kifayət qədər idi. Mixail Qorbaçov başda olmaqla, keçmiş SSRİ rəhbərliyinin 1980-ci illərin axırlarında Azərbaycana qarşı təzyiqlərinin artdığı, Azərbaycanı parçalamaq, onun inkişafının və müstəqilliyə gedən yolunun qarşıını almaq məqsədi ilə qondarma "Dağlıq Qarabağ məsələsi"nin ortaya atıldığı vaxtda xalqımızın yüz minlərlə oğul və qızları ayağa qalxdı. Bu, böyük xalq hərəkatının başlanğıcı idi. Bu, bir həqiqətdir ki, həmin hərəkatın siyasi, iqtisadi, mənəvi-psixoloji təməli məhz 1970-ci illərdə - möhtərəm Heydər Əliyevin Azərbaycanda rəhbər olduğu dövrdə qoyulmşdu. Tam qətiyyətlə demək olar ki, xalq hərəkatının banisi və ilhamvericisi ümummilli liderimiz Heydər Əliyev idi.

XXI əsrin astanasında dövlət suverenlyi və milli müstəqillyin əzəmətli bünövrəsini yaratmağa nail olmuş Azərbaycan xalqı bu tarixi şansın reallaşması istiqamətində onilliklər ərzində göstərilmiş xidmətləri yüksək qiymətləndirir. Əgər biz 1990-cı illərin əvvəlində əldə etdiyimiz müstəqilliyi tarixin xoş təsadüfündən daha çox xalqımızın və onun liderlərinin, ziyalılarının, azadlıqsevər vətənpərvərlərinin məqsədyönlü mübarizəsinin

yekunu kimi dəyərləndirmək istəyirikcə, bu hərəkatın tarixi köklərinin araşdırılıb üzə çıxarılmasına xüsusi diqqət yetirməliyik. Obyektiv araşdırmalar və təhlillər isə göstərir ki, azadlıq uğrunda açıq mübarizəyə hazırlıq mərhələsi 1970-80-ci illəri əhatə etmişdir. Həmin mərhələnin əsas məqsədi Azərbaycanın hərtərəfli iqtisadi, siyasi, sosial, mədəni inkişafı zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək, onu gələcək müstəqilliyinin bəhrələrini dəyərləndirməklə yanaşı, çətinlik və məhrumiyyətlərinə da hazırlamaq olmuşdur. Heydər Əliyevin 1969-cu ildən başlayan milli liderliyinin qayəsi, həlledici mənası, onun gərgin və çoxşaxəli fəaliyyətinin nəticəsi kimi meydana çıxmış sosial-iqtisadi və mənəvi yüksəlişin başlıca nəticəsi də məhz Azərbaycanın əsrlərlə arzuladığımız müstəqilliyə doğru addım-addım irəliləməsində təzahür edir.

Heydər Əliyevin respublikanın rəhbəri seçilməsi ilə əsası qoyulan və mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında əsas vəsilə iqtisadiyyatın tezliklə dirçəldilməsi, Azərbaycanın təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və mədəniyyət potensialından xalqın bəhrələnməsi üçün ən əlverişli şəraitin yaradılması idi.

Əsas etibarilə xammal regionu kimi tanınan, zəngin nefti ilə şöhrət qazanmış Azərbaycan iqtisadiyyatının 1960-cı illərin sonuna yaxın keçirdiyi güclü tənəzzül həyatın bütün sahələrinə ciddi təsir edir, ayrı-ayrı mənfi meyilləri gücləndirirdi. Bu səbəbə görə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra əhatəli iqtisadi inkişaf konsepsiyası hazırlanmış, respublikada ənənəvi təsərrüfat sahələrinin şöhrətini və səmərəliliyini bərpa etməklə yanaşı, yeni-yeni istehsal istiqamətlərinin yaradılması yolunda çoxşaxəli fəaliyyətin əsası qoyulmuşdur. Hər şeydən əvvəl,

respublikada iqtisadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi xətti yeridilməyə başladı ki, bunun nəticəsi də bir yandan, Azərbaycanın iqtisadi potensialının qat-qat güclənməsi, digər tərəfdən isə, onun əvvəlcədən formalaşmış xammal bazası yönümünün dəyişdirilməsi oldu.

1970-ci illərdə və 80-ci illərin əvvəllərində yaradılmış çoxsaylı sənaye müəssisələri, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələri respublikanın iqtisadi infrastrukturunu köklü surətdə dəyişdirdi, onun əsasən aqrar yönümlü respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırladı. Həmin illərdə Bakıda, Azərbaycanın digər şəhərlərində və rayon mərkəzlərində yaradılmış sənaye istehsalı sahələrinin, böyük zavod və fabriklərin yalnız kiçik bir qismini sadalamaqla, deyilənin həqiqət olduğunu sübut etmək mümkündür.

Ölkənin iqtisadi həyatında önəmli rol oynayan Bakı məişət kondisionerləri zavodu, “Azon” Elm-İstehsalat Birliyi, Elektron hesablayıcı maşınlar zavodu, Dərin özüllər zavodu, Azərbaycan DRES-i, Sumqayıt kompressor zavodu, Üst trikotaj fabriki, Bakı tikiş və ayaqqabı fabrikləri, Gəncə əlvan metallar emalı zavodu, Naxçıvan şüşə qablar zavodu, Əli Bayramlı məişət cihazları zavodu və s. yüzlərlə digər iri sənaye istehsalı obyektləri 1970-ci illərin Heydər Əliyev iqtisadi siyasətinin diqqətəlayiq bəhrələridir. Həmin dövrdə bir çox zavod və fabriklər, o cümlədən neftayırma və neftmaşınqayırması zavodları, demək olar ki, tamamlə yenidən qurulmuşdur.

**Bu siyasətin nəhəng miqyasları belə bir faktda özünü göstərir ki, əgər 1970-ci ilə qədər Azərbaycanda cəmi 233 iri və orta sənaye müəssisəsi fəaliyyət göstərirdisə, təkcə 1970-**

**1980-ci illər ərzində 213 iri və orta sənaye müəssisəsi yaradılıb istifadəyə verilmişdi. Başqa sözlə, təkcə 15 il ərzində ondan əvvəlki 40 ildəki qədər sənaye müəssisələri yaradılmışdı. Keyfiyyət gösəricilərinə görə isə yeni yaradılan sənaye bazası əvvəlkindən müqayisəolunmaz dərəcədə üstün idi. Məhz bunun sayəsində bu illərdə Azərbaycanda sənaye məhsulları istehsalının həcmi bir neçə dəfə artmışdı.**

İqtisadiyyatın, o cümlədən sənayenin strukturunda ciddi keyfiyyət dəyişikliklərinə nail olunması da yeridilən siyasətin önəmli cəhətlərndən biri idi. Görülən tədbirlər, aparılan islahatlar sayəsində respublika sənayesinin birtərəfli inkişafı meyli aradan qaldırılır, iqtisadiyyatın və məhsuldar qüvvələrin inkişafında mühüm əhəmiyyətə malik maşınqayırma və cihazqayırma sahələrinin yüksəlişi təmin edilirdi. Azərbaycan iqtisadiyyatında önəmli yer tutan yeni sahələrin – elektron sənayesinin, yüngül və yeyinti sənayesi üçün maşınqayırmanın yaradılması 1970-1980-ci illərə təsadüf edir. Həmin dövrdə Azərbaycanın neft maşınqayırması sənayesi keçmiş SSRİ-nin neftçıxarma texnikasının 70 faizindən çoxunu verirdi.

Azərbaycan iqtisadiyyatının hərtərəfli və kompleks inkişaf planlarını müəyyən edərək, rəhbərliyinin ilk dövründə sosial-iqtisadi yüksəlişə nail olan Heydər Əliyev növbəti addım atmağa – keçmiş SSRİ hökumətinin, Azərbaycan da daxil olmaqla, bir sıra milli respublikaları başlıca olaraq xammal mənbəyi kimi saxlamağa yönəlmiş siyasətinin nəticələrinin aradan qaldırılması və respublikanın mənafelərinə cavab verən tarazlaşmış milli iqtisadiyyatın formalaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycanda mövcud olan zəngin xammal növlərindən hazır məhsullar istehsal edən

sənaye sahələrinin yaradılması ön plana çəkildi, bir sıra rayon və şəhərlərdə yerli xammalla işləyən sənaye müəssisələri işə salındı. Astara və Lənkəranda çay fabriklərinin, Bakıda şampan şərabları zavodunun, Kəlbəcərdə “İstisu” mineral su zavodunun, Sumqayıtda əyirici, Yevlaxda yunun ilkin emalı fabriklərinin işə salınması Azərbaycanın xammal bazasından müasir texnologiya əsasında hazır məhsul istehsal və ixrac edən respublikaya çevrilməsi istiqamətində uğurlu addımlar idi.

1970-ci illərdə Azərbaycan neftinin əvvəlki şöhrətinin bərpa edilməsi də respublika rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Neft hasilatının artırılması məqsədi ilə Bahar, Zağlı-Zeyvə, Muradxanlı və Bulla-dəniz sahələrinin səmərəli istismarına dair bir sıra qərarlar qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Dənizdə neft və qaz hasilatının yeni, mütərəqqi avadanlıq və texnika ilə təchiz edilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür. İlk dəfə Xəzərin 70 metr dərinliyindəki sahələrdə dərinliyi 6 kilometr olan quyular qazılması üçün yeni üzən qurğular, suyun altında neft və qaz kəmərləri çəkilməsi və geoloji axtarış, mühəndis axtarışı işləri aparılması üçün ixtisaslaşdırılmış gəmilər, dənizin dərin sahələrində bir özüldən on quyu qazılmasına imkan verən sabit platformalar, 2,5 min ton yük götürən nadir kranlı gəmi respublika neftçilərinin istifadəsinə verilmişdir.

Azərbaycanın ənənəvi təsərrüfat sahələrinin – aqrar bölmənin sürətli yüksəlişi, respublikanın əlverişli təbii-iqlim şəraitinin üstünlüklərindən bacarıqla istifadə edilməsi 1970-ci illərin iqtisadi strategiyasının mühüm tərkib hissələrindəndir. Həmin sahəyə diqqətin artırılmasının vacibliyi onunla şərtlənirdi ki, Azərbaycan üçün ənənəvi təsərrüfat sahəsi olmasına baxmayaraq, aqrar bölmənin inkişafı dövrün tələblərindən əhəmiyyəli dərəcədə geri

qalırdı və respublikaya böyük gəlir vermək imkanlarına malik olan pambıqçılıq, üzümçülük, bağçılıq-bostançılıq öz mövcud potensialının cüzi bir hissəsini reallaşdıra bilirdi.

Əsası 1969-cu ildə qoyulan və məqsədi aqrar sahəni sürətlə irəliyə aparmaqdan ibarət olan strateji xətt çox qısa vaxtda öz bəhrələrini verməyə başladı. Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1481 min tona çatdırıdlı. Üzümçülüyün inkişafı çox gəlirli sahə olan şərabçılığın yüksəlişinə güclü təkan verdi və beləliklə, respublika ixrac etdiyi çeşidli şərablardan böyük mənfəət götürməyə başladı.

Qeyd olunan dövrdə pambıqçılığın inkişaf sürəti də heyrətamiz vüsət aldı. Əhəmiyyətinə və mənfəətinə görə "ağ qızıl" adlandırılan pambıq istehsalına münasibət kökündən dəyişdi. Təsərrüfatın bu sahəsi Azərbaycanın istehsal strukturunda öncül yer tutdu. Cəmi 10 il ərzində pambıq istehsalı 1970-ci ildəki 335,6 min tondan artaraq, 831,2 min tona çatdı. Heydər Əliyevin Azərbaycandan Moskvaya  ali siyasi və dövlət vəzifəsinə irəli çəkildiyi 1982-ci ildə respublikanın kənd təsərrüfatı zəhmətkeşləri artıq milyon ton pambıq istehsalı uğrunda çalışırdılar.

Oxşar inkişaf sürəti bağçılıq-bostançılıq sahələrində də müşahidə edilirdi. Respublikanın təbii iqlim şəraiti meyvə-tərəvəz istehsalını qat-qat artırmağa imkan verirdi və Heydər Əliyev özünün iqtisadi strategiyasında bu potensialdan ağılla, səmərəli şəkildə istifadə edilməsini bir vəzifə kimi qarşıya qoymuşdu. 1970-ci illərdə bu vəzifə də müvəffəqiyyətlə yerinə yetirildi və müqayisə olunan illərdə dövlətə tərəvəz satışı 410 min tondan 850 min tona yüksəldi.

1970-ci illərin və 80-ci illərin əvvəllərinin sürətli aqrar yüksəlişi intensiv metodların tətbiqinə, elmin, texnologiyanın ən

müasir nailiyyətlərindən kənd təsərrüfatı sahələrində istifadə edilməsinə əsaslanırdı. Bu illər ərzində respublikada geniş meliorasiya və irriqasiya işləri həyata keçirilir, çoxlu dəryaçalar salınır, hidrotexniki qurğular tikilirdi. Tərtərçay, Arpaçay, Ağstafaçay, Xanbulançay və s. dəryaçaların istifadəyə verilməsi suvarılan torpaq sahələrinin 1 milyon 450 min hektara çatdırılmasına imkan yaratdı.

İstehsalın yeni texnologiya əsasında təşkil olunmaqla yüksəlişi maldarlıq və quşçuluq sahələrini də əhatə etmişdi. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda yeni texnologiyaya əsaslanan 30-a qədər iri quşçuluq kompleksi, o cümlədən Siyəzən, Dəvəçi, Yeni Bakı broyler, Abşeron damazlıq quşçuluq fabrikləri tikilib istifadəyə verilmişdi.

Bu illərdə iqtisadi sahədə əldə edilmiş nailiyyətləri ümumiləşdirilmiş rəqəmlərlə ifadə etdikdə, görülmüş işlərin nəhəngliyi bir daha əyani şəkildə özünü büruzə verir. Həmin dövrdə respublikada milli gəlir 2,5 dəfə artmış, eyni zamanda sənaye istehsalı 2,7 dəfə artaraq, əvvəlki 30 ildə istehsal edilən məhsulun həcmindən 2 dəfə çox olmuşdu. Kənd təsərrüfatında ümumi məhsul 2,7 dəfə artmışdı. İqtisadiyyatın inkişaf etdirilməsinə əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuşdu. Həmin illərdə Azərbaycanda böyük quruculuq, yaradıcılıq və inkişaf mərhələsi, cəmiyyətin bütün sahələrində yüksəliş və tərəqqi dövrü hökm sürürdü. Bütün bunların nəticəsi idi ki, keşmiş SSRİ məkanında yalnız iki respublika – Rusiya Federasiyası və Azərbaycan ittifaq büdcəsindən heç bir dotasiya almadan fəaliyyət göstərirdi. Tarixdən məlumdur ki, millətin siyasi müstəqilliyinin bazisini iqtisadi müstəqillik, iqtisadi

qüdrət şərtləndirir. Bu baxımdan, Azərbaycanın 1970-80-ci illərdə iqtisadi sahədə əldə etdiyi nailiyyətlər syasi müstəqilliyə aparan yolda mühüm vasitə sayılmalıdır. Möhtərəm Heydər Əliyevin həmin illərdə həyata keçirdiyi iqtisadi siyasət xətti indiki mərhələdə də özünün dəyərli bəhrələrini verməkdədir.

1970-80-ci illərin iqtisadi tərəqqisi Azərbaycanın müasir tarixini zənginləşdirən böyük əmək salnamələrinin əsasını qoymuş, respublikamızın iqtisadi potensialını yüksəldən, əmək hünərləri ilə Azərbaycanı tanıdan çoxsaylı peşəkar fəhlə və kənd əməkçiləri ordusunu fomalaşdırmışdı. Əmək adamına qayğı, peşəsi və zəhməti ilə Vətəninin inkişafına xidmət göstərən insanların şan-şöhrətə çatması bu illərin ən yaddaqalan hadisələrindən idi. Əmək xarüqələri yaratmış minlərlə sadə peşə adamlarının – maşınqayıranların, neftçilərin, kimyaçıların, pambıqçıların, üzümçülərin, maldarların, digər peşə sahiblərinin ali dövlət və hökumt mükafatları ilə təltif edilməsi, onların xalqa tanıdılması və geniş təbliğ olunması Heydər Əliyevin əməyi, əmək adamını daim uca tutduğunu göstərir.

İqtisadiyyatda baş verən sürətli yüksəliş sosial sahədə əvvəlki onillər ərzində yığılmış çoxsaylı problemlərin həlli üçün zəmin yaratmış oldu. Ümumiyyətlə, 1970-ci illər və 80-ci illərin əvvəllərində respublikanın inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri tərəqqinin kompleks xarakter dasımasında, həyatın ayrı-ayrı sahələrində inkişafın ahəngdarlığının təmin edilməsində özünü büruzə verirdi. Xalqın həyat səviyyəsinin və yaşayış tərzinin köklü surətdə yaxşılaşdırılması, Bakının, başqa şəhərlərin, kənd və qəsəbələrin abadlaşdırılması, genişmiqyaslı tikinti işləri, səhiyyənin, təhsilin, elmin, mədəniyyətin yüksəlişi istiqamətində diqqətəlayiq nailiyyələrin əldə edilməsi və digər uğurlar həmin

dövrdə Azərbaycanın sosial inkişaf sahəsində keyfiyyətcə yeni mərhələyə daxil olduğuna əyani sübutdur.

**Heydər Əliyevin sosial-iqtisadi inkişaf konsepsiyasının ana xətti həmişə belə bir ideyadan ibarət olmuşdur ki, iqtisadiyyatın yüksəlişi, iqtisadi tərəqqi xalqın sosial-iqtisadi tələbatını ödəmək, insanların həyatını yaxşılaşdırmaq məqsədinə tabe edilməlidir. Təsadüfi deyildir ki, 1970-80-ci illərin sürətli iqtisadi yüksəlişi qısa bir vaxtda sosial sahənin də inkişafına təkan verdi, adamların həyat səviyyəsində və yaşayış tərzində nəzərəçarpan dəyişikliklər etdi.**

Bu illərin sosial inkişaf proqramlarının vüsətini və əhəmiyyətini qabarıq şəkildə əks etdirən ən mühüm göstəricilərdən biri quruculuq, tikinti-abadlıq və digər infrastruktur işlərinin geniş miqyas alması idi.

Qısa bir vaxtda respublikada yüz kilometrlərlə yeni dəmir və şose yolları, respublikanın rayonlarında və şəhərlərində yüzlərlə körpü, çay keçidləri və digər infrastrukturlar inşa edilmişdir. Bakı şəhərində metropolitenin “Ulduz”, “Əzizbəyov”, “Qara Qarayev”, “Neftçilər”, “Nizami” stansiyaları və başqa stansiyalar istifadəyə verilmiş, əhalinin nəqliyyat problemlərinin həlli ilə bağlı ciddi işlər görülmüşdür.

Həmin illərdə Bakı şəhərinin, digər şəhərlərin və rayon mərkəzlərinin, kənd və qəsəbələrin, bütünlükdə Azərbaycanın böyük bir tikinti meydançasını xatırlatdığını desək, səhv etmərik. Bakıda, digər şəhərlərdə bir çox yaşayış massivləri, əzəmətli mədəniyyət sarayları, ictimai binalar, yaraşıqlı parklar, xiyabanlar 1970-80-ci illərin yadigarıdır. Paytaxtın, respublika şəhərlərinin, rayon mərkəzlərinin və kəndlərin simasını kökündən dəyişdirən həmin tikililər 25-30 il əvvəl Azərbaycanın

keçdiyi tərəqqi, inkişaf yolunun gənc nəsillərə, ölkəmizin qonaqlarına etibarlı bələdçiləridir.

1970-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanda quruculuq və abadlıq işlərinin, mənzil tikintisinin vüsətini aydın təsəvvür etmək üçün bir neçə ümumiləşdirilmiş rəqəmə diqqət yetirmək, zənnimcə, kifayətdir. Təkcə 1971-83-cü illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilmidir ki, bu da 1920-83-cü illərdə, yəni 63 ildə tikilən mənzil fondunun 33 faizinə bərabərdir. Bakının, Gəncənin, Sumqayıtın bir sıra yaşayış massivləri, mikrorayonları məhz bu illər ərzində salınmışdır. Nəticədə həmin illərdə 1 milyon 700 mindən çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı. Başqa sözlə, cəmi 10-12 il ərzində respublikada əhalinin hər 4 nəfərindən biri mənzil şəraitini yaxşılaşdıra bilmişdi.

Bu illərdə kənd yerlərində də tikinti-abadlıq işləri geniş miqyas almış, ümumi sahəsi 4,8 milyon kvadratmetr olan yaşayış evləri tikilib istifadəyə verilmişdi. Azərbaycan kəndinin sosial mənzərəsinin, həyat tərzinin tanınmaz dərəcədə dəyişməsi məhz bu dövrə təsadüf edir. Uzun illər köhnə, heç bir kommunal şəraiti, rahatlığı olmayan, uçuq-sökük evlərdə yaşayan kənd sakinləri üzümçülüyün, pambıqçılığın, meyvə-tərəvəzçiliyin, təsərrüfatın digər sahələrinin sıçrayışlı inkişafı nəticəsində əldə etdikləri vəsait hesabına yaraşıqlı, geniş, hər cür rahatlığı olan iki və üçmərtəbəli evlər tikdirməklə həm özlərinin həyat tərzini köklü surətdə yaxşılaşdırdılar, həm də kəndin mənzərəsini yeniləşdirdilər.

Heydər Əliyev Vətəninə, xalqına ona daxilən xas olan məhəbbətlə Bakının, digər şəhərlərin abadlaşdırılmasına daim fikir verirdi. Paytaxtımızın yaşıllaşdırılması, yeni-yeni bağların, xiyabanların salınması 1970-80-ci illərin böyük abadlıq və quru-

culuq işlərinin tərkib hissəsi idi. Geniş ümumxalq hərəkatına çevrilmiş yaşıllaşdırma sayəsində Bakıda adambaşına yaşıllıq sahəsi 1970-ci ildəki 5 kvadratmetrdən 1981-ci ildə 23 kvadratmetrə çatdırıldı, başqa sözlə, 11 ilin içində paytaxtın yaşıllıq örtüyü 5 dəfəyədək artdı.

Bakıya, respublikanın şəhər və qəsəbələrinə yaraşıq verən çoxlu sayda ictimai əhəmiyyətli binaların, mədəniyyət ocaqlarının inşa edilməsi də 1970-80-ci illərin böyük quruculuq planlarının səciyyəvi cəhətlərindəndir. “Abşeron”, “Moskva”, “Azərbaycan”, “Təbriz” kimi nəhəng mehmanxanaların, Respublika sarayının, indiki Prezident sarayının, Prezident iqamətgahının, Milli Məclisin binasının, habelə “Gülüstan” sarayının, İdman-Konsert Kompleksinin, Əl oyunları idman sarayının, onlarca digər binaların, idman-mədəniyyət komplekslərinin tikilib istifadəyə verilməsi, dövlət, mədəniyyət, incəsənət xadimlərinin, tarixi şəxsiyyətlərin, milli qəhrəmanların xatirəsini əbədiləşdirən abidələrin qoyulması bu dövrün quruculuq salnaməsinə və ümumiyyətlə, Azərbaycanın memarlıq-şəhərsalma tarixinə qızıl hərflərlə həkk olunubdur.

Heydər Əliyevin rəhbərliyi illərinə təsadüf edən, Azərbaycan intibahını şərtləndirən, onu səciyyələndirən mühüm amillər sırasında təhsilin, elmin, mədəniyyətin yüksəlişi xüsusilə diqqəti cəlb edir. Bu böyük şəxsiyyət özünəməxsus müdrikliklə hələ o zamandan belə bir həqiqəti qəti şəkildə mənimsəmişdi ki, mədəniyyətin, mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan iqtisadi inkişaf bütövlükdə cəmiyyətin yüksəlişini, xüsusilə də onun davamlı xarakter almasını təmin edə bilməz.

Bütün dövrlərdə cəmiyyətin tərəqqisinin, elmin, mədəniyyətin, mənəviyyatın inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan

təhsilə qayğının artırılması, xalq maarifinin yüksəlməsinə dövlət siyasətinin üstün prinsipi kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş qayəsini ifadə edən önəmli cəhət olubdur. Bu amil Azərbaycanın 1970-ci illərdən başlayan mənəvi yüksəliş tarixinin inkaredilməz reallığıdır.

1969-cu ildən 1980-ci illərin ortalarına qədər Azərbaycanın şəhər, kənd və qəsəbələrində müasir tələblərə cavab verən 700-ə qədər məktəb binası tikilib istifadəyə verildi. Ali təhsilin kəmiyyətcə və keyfiyyətcə sürətli yüksəlişi xətti seçildi. Ali təhsil müəssisələrinin şəbəkəsi genişləndi, yüzlərlə yeni kafedra açıldı, yeni ali məktəblər yaradıldı. Azərbaycanı yüksək ixtisaslı inşaatçı mühəndis kadrları ilə təmin etmək üçün İnşaat Mühəndisləri İnstitutu təsis edildi. Respublikada üzümçülüyün və şərabçılığın geniş miqyasda inkişafı ilə bağlı Gəncə Texnologiya İnstitutu açıldı. Habelə Rus Dili və Ədəbiyyatı İnstitutu, Naxçıvan və Xankəndidə pedaqoji institutlar, digər ali təhsil müəssisələri yaradılıb fəaliyyətə başladı. Beləliklə də, 1969-cu illə müqayisədə 1980-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırıldı.

1970-80-ci illərdə Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən gözəl, ən dəyərli təhsil ənənələri sırasında azərbaycanlı gənclərin respublikamız üçün gərəkli ixtisaslara yiyələnməsindən ötrü keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilməsi praktikası xüsusi yer tuturdu. Hər il respublikanın ən perspektivli, qabiliyyətli gənclərinin böyük bir hissəsinin SSRİ-nin ən böyük, elm və tədris ənənələri ilə tanınmış qabaqcıl ali məktəblərinə oxumağa göndərilməsi Heydər Əliyevin uzaqgörən siyasətinə ən bariz misallardandır.

Bu yolla Azərbaycanın elmi və kadr potensialının yüksəldilməsi ilə yanaşı, ən qabiliyyətli gənclərimizin vasitəsilə xalqımızın mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin təbliği, Azərbaycan haqqında ona layiq olan rəyin və təsəvvürlərin formalaşdırılması kimi çox vacib bir vəzifə də yerinə yetirilirdi. Böyük iftixar və qürur hissi ilə deyə bilərik ki, həmin illərdə Azərbaycandan kənara ali məktəblərə oxumağa göndərilən gənclərin bir qismi indi yaxın xaric hesab edilən ölkələrdə respublikamızın və xalqımızın mənafeyini müdafiə edən, ona dayaq olan Azərbaycan diasporunun düşünən beynini, vuran qəlbini təşkil edir.

1970-ci illərdən başlayaraq gənclərin Azərbaycandan kənarda təhsil almağa göndərilməsi 80-ci illərin əvvəllərində böyük ümumxalq hərəkatına çevrilmişdi. Əgər 1969-cu il üçün respublikadan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılırdısa və bunların əksəriyyəti qeyri-azərbaycanlı idisə, 1970-ci illərin sonlarında hər il 700-800 nəfər, 80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər Azərbaycandan kənarda təhsil almağa göndərilirdi ki, bunların da böyük əksəriyyəti azərbaycanlı gənclər idi. Artıq 1981-ci ildə Moskvanın, Leninqradın, Kiyevin və digər şəhərlərin qabaqcıl ali məktəblərində 244 ixtisas üzrə 3600-dən çox azərbaycanlı oğlan və qız təhsil alırdı.

Möhtərəm Heydər Əliyevin 1970-ci illərdəki uzaqgörənliyinin mühüm təzahürlərindən biri milli hərbi təhsilin əsasını qoymaq istiqamətində atdığı addımlar idi. Xalqın gələcəyini aydın görən Heydər Əliyev milli hərbi kadrlar hazırlamağın əhəmiyyətini yüksək qiymətləndirərək, bu sahədə də ciddi və təxirəsalınmaz tədbirlər görməyə başladı. 1972-ci ildən başlayaraq, hər il 300-400 azərbaycanlı gənc hərbi təhsil almaq

üçün müxtəlif ali məktəblərə qəbul olunurdu. 1980-ci illərin əvvəllərində onların sayı artıq 800-1000 nəfərə çatmışdı. Ona da xüsusi diqqət yetirilirdi ki, hərbi məktəbə oxumağa göndərilənlərin əksəriyyəti milliyyətcə azərbaycanlı olsun. 1982-ci ildə Azəbaycandan SSRİ-nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyətcə azərbaycanlı idi. Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin açılması Azərbaycanda professional hərbi təhsilin əsaslarını möhkəmlətməklə yanaşı, gənclərin bu sahəyə meylinin artmasına da güclü təkan verdi.

Heydər Əliyevin titanik fəaliyyətinin əhəmiyyətli bir qolunu Azərbaycanın şöhrətinin artırılmsı, onun bütün dünyada tanıdılması, xalqımızın elm və mədəniyyətinin, tarixi adət-ənənələrinin, tanınmış xadimlərinin təbliği istiqamətində həyata keçirdiyi genişmiqyaslı işlər təşkil edirdi. Azərbaycanın tarixi şəxsiyyətlərinin adlarının əbədiləşdirilməsi, görkəmli mədəniyyət xadimlərinin fəxri adlara layiq görülməsi, keçmiş SSRİ respublikalarında Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi respublikamızın təkcə neft, pambıq, üzüm diyarı deyil, həm də qədim və böyük mədəniyyətə malik diyar olduğunu bütün dünyaya bəyan edirdi. S.Rüstəm, R.Rza, S.Rəhimov, M.İbrahimov, Q.Qarayev. F.Əmirov, R.Behbudov kimi şairlərin, yazıçıların, incəsənət xadimlərinin SSRİ-nin ən yüksək mükafatlarını və fəxri adlarını alması Azərbaycan mədəniyyətinin inkişafına, təbliğinə, tanınmasına Heydər Əliyevin verdiy ən böyük töhfələrdəndir.

Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm cəhətlərindən biri həmin illərdə Azərbaycanın yalnız keçmiş SSRİ məkanında deyil, həmçinin dünya miqyasında tanıdılmasına nail olmaq idi.

Bu yöndə xeyli işlər görülürdü. Bəllidir ki, keçmiş SSRİ-nin xarici siyasətində müttəfiq respublikalar birbaşa iştirak edə bilmirdilər. Lakin bütün maneə və sədlərə baxmayaraq, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsinə, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinə maksimum səy edilir, Bakıda beynəlxalq tədbirlər təşkil olunur, xarici ölkələrdə məskunlaşmış azərbaycanlılarla əlaqələrin qurulması istiqamətində mühüm addımlar atılırdı. Azərbaycanın paytaxtı Bakı şəhəri həmin dövrdə dünya miqyasında tanınan mədəniyyət və elm mərkəzinə çevrilmiş, azərbaycanlılar özünəməxsus tarixi, mədəniyyəti, ənənələri olan bir millət kimi tanınmış, Cənubi Qafqaz respublikaları içərisində Azərbaycan önəmli mövqeyə çıxmışdı.

Məlum olduğu kimi, Heydər Əliyev 1982-ci ilin axırlarında Moskvaya, keçmiş SSRİ-nin ali siyasi və dövlət rəhbərliyinə irəli çəkildi. Bu gün biz müstəqil dövlət quruculuğunu həyata keçirərkən keçmiş SSRİ dövlətinin tarixinə, o dövrün dəyərlərinə fərqli prizmadan yanaşırıq və hesab edirəm ki, bu, təbii və qanunauyğun haldır. Lakin o illərin reallıqları tamam başqa xarakter daşıyırdı və SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində Azərbaycan xalqının nümayəndəsinin təmsil olunması onun milli özünüifadəsi və inkişafı faktının bir növ etirafı kimi qavranılırdı. İndi hər bir həqiqi vətənpərvər qürur hissi ilə qeyd edir ki, Heydər Əliyev SSRİ-nin ali siyasi və dövlət rəhbərliyinin ən yüksək pilləsində təmsil olunmuş yeganə azərbaycanlı idi.

Xüsusi vurğulamağı vacib sayıram ki, Heydər Əliyevin Azərbaycan rəhbərliyindən SSRİ hökumətində daha yüksək vəzifəyə irəli çəkilməsi onun fəaliyyətinin milli məzmununa heç bir xələl gətirmədi. Əksinə, xalqa, doğma Vətənə bağlılıq onun

yüksək vəzifə səlahiyyətlərinin geniş imkanlarından istifadə edərək, Azərbaycana daha böyük qayğı göstərməsini şərtləndirən amil oldu. Heydər Əliyev Moskvada yüksək dövlət vəzifəsində çalışdığı dövrlərdə, respublikamız onun gündəlik yardımını və qayğısnı daim hiss etmiş, Azərbaycan SSRİ-nin bütün mümkün imkan və vasitələrindən özünün inkişafı və tərəqqisi üçün maksimum bəhrələnmişdir.

Azərbaycan müstəqillik savaşına qalxdığı günlərdə xalqımızın sədaqətli oğlu səsini həmişə onun haqq səsinə qatmış, azərbaycanlılara və Azərbaycana qarşı törədilən haqsızlıqlara qarşı qətiyyətlə mübarizə aparmışdır. 1990-cı ilin 20 yanvar qırğınından hiddətlənərək, bu qanlı hadisəni törədən imperiyanın paytaxtında etiraz yürüşünə çıxan on minlərlə həmvətənimizin ön sırasında duran Heydər Əliyevin əzmkarlığı, qanlı Bakı faciəsinin günahkarlarını lənətləyən gur səsi həmin faciəli günlərdə xalqımızın azadlıq mücadiləsində daha möhkəm birləşməsinə güclü təkan verdi.

Həmin dövrdə Moskvada yaşayan Heydər Əliyev sülhsevər Azərbaycan xalqına qarşı silah tətbiq edilməsini qətiyyətlə pisləyən bəyanatla çıxış edərək, xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdı. Onun verdiyi bəyanat 20 Yanvar cinayətinin mahiyyətini və onu törədən dairələrin çirkin niyyətlərini açıq şəkildə göstərmişdi. Sovet qoşunlarının Bakıda törətdikləri qanlı qırğına baxmayaraq, Azərbaycan xalqı müstəqillik uğrunda mübarizəsini daha böyük inam və qətiyyətlə davam etdirirdi. Xalq özünün ümummilli lideri Heydər Əliyevə arxalanırdı.

**Heydər Əliyevin adı, nüfuzu öz azadlığı uğrunda mübarizəyə qalxan Azərbaycan xalqı üçün parlaq mayak olmuşdur. Müdrik milli lider 1990-cı ildə Moskvadan Vətənə qayıt-**

**dıqdan sonra bu mayakın işığı daha da güclənmiş, xalqımızın azadlığın daşlı-kəsəkli yolları ilə inamla irəliləməsində ona əvəzsiz yardımçı olmuşdur.**

Xalq öz liderinə etimad göstərərək, onu yekdilliklə Azərbaycan Ali Sovetinə deputat seçdi. Ali Sovetin iclaslarında Dağlıq Qarabağ probleminin həlli, respublikanın siyasi müstəqilliyi ilə bağlı onun proqram əhəmiyyətli çıxışları tarixi yaddaşlardan heç vaxt silinməyəcəkdir.

Görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi Azərbaycanın istiqlalı yolunda xüsusi mərhələ oldu. Naxçıvan onun rəhbərliyi altında Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolunu öz üzərinə götürdü. SSRİ-ni saxlamaq üçün qurulmuş qondarma referendum burada boykot edildi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi ilk dəfə qəbul olundu, sovet qoşun hissələri muxtar respublikadan çıxarıldı, 20 Yanvar faciəsinə həqiqi siyasi qiymət verildi və sair. Dövlət müstəqilliyimizin 12-ci ilinin yüksəkliyindən o dövrə baxarkən etiraf etmək lazımdır ki, Naxçıvan o zaman bütün Azərbaycan üçün milli azadlıq və milli dövlət quruculuğu nümunəsi göstərirdi. O, xaos və təhlükələr, açıq şəkildə bildirilən kəskin ictimai narazılıqlar və qarşıdurmalar, dövlət çevrilişləri dövrünü yaşayan ölkəmiz üçün ümid yerinə çevrilmişdi. Heydər Əliyevin Naxçıvana rəhbərlik etməsi Azərbaycanın bu qədim guşəsinin erməni işğalından xilas olmasında əsas rol oynadı.

Heydər Əliyevin siyasi bioqrafiyasına yaxından bələd olan və onu yüksək qiymətləndirən xalqımız Azərbaycanın ayrılmaz tərkib hissəsi olan və onun qarşılaşdığı bütün çətinlikləri və

ziddiyyətləri yaşamağa məhkum edilmiş Naxçıvanda sabitliyin, əmin-amanliğın məhz bu böyük dövlət xadiminin müdrikliyi, siyasi təcrübəsi və iradəsi sayəsində əldə edildiyini yaxşı bilirdi. Buna görə də **1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda, xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu, ümummilli hərəkata çevrildi. 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş günü kimi daxil oldu. Həmin gün müdrik siyasətçinin, təcrübəli və iradəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı baş verdi. Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün yeni, daha şərəfli, daha əzəmətli mərhələsinə daxil oldu.**

Azərbaycan dövlətçiliyinin xilaskarı Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı: hakimiyyətsizlik, dağıdıcılıq, xaos quruculuq mərhələsi ilə əvəz edildi, elmi əsaslarla, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması istiqamətində uğurlu addımlar atıldı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Ayrı-ayrı daxili və xarici qüvvələr tərəfindən prezidenti fiziki cəhətdən məhv etmək üçün dəfələrlə təşkil edilmiş sui-qəsdlər zərərsizləşdirildi, müstəqil Azərbaycanın dövlətçiliyi qorunub saxlandı. Silahlı yolla hakimiyyətə qəlmək cəhdlərinə birdəfəlik son qoyuldu. Respublikada möhkəm, davamlı sabitlik təmin edildi.

Heydər Əliyevin 34 illik hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Şübhə yoxdur ki, zəngin siyasi proseslər, hüquqi, demokratik dövlət quruculuğu və milli dirçəliş sahəsində mühüm nailiyyətlərlə müşayiət olunan son 10 il müstəqil Azərbaycanın bu günü və gələcəyi baxımından taleyüklü, tarixi mərhələdir. Bu illərin ən mühüm nəticəsi, hər şeydən əvvəl, müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizənin real bəhrələr astanasına gəlib çatmasıdır. Digər mühüm nəticə isə ondan ibarətdir ki, qeyd olunan mərhələdə yaradılmış sabit siyasi durum, mənəvi-psixoloji mühit şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilmiş, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox diqqətəlayiq tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı 1988-1993-cü illərdə Azərbaycanda yaranmış iqtidarsızlığa, hərc-mərcliyə son qoydu və eyni zamanda, iki əsas amili üzə çıxardı. Birincisi, hakimiyyətin naşı və vassal düşüncəli dairələrin əlində olmasının Vətən üçün, xalq üçün təhlükə yaratmasını; ikincisi, Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək naminə xarici qüvvələrdən dəstək almaq niyyətində olanların iflasının qanunauyğunluğunu. Bəli, Azərbaycan xalqı 1993-cü ilədək iqtidarda

olmuş dairələrin xəyanətini, naşılığını, hakimiyyət hərisliyini və əsassız ambisiyalarını əyani şəkldə gördü, kimin kim olduğunu bir daha dərk etdi. Tarixi gerçəklik bir daha təsdiq etdi ki, xalqın istək və iradəsini heç nə ilə - yalan və şantajla, silah və zor gücünə sındırmaq olmaz.

**Xalqın iradəsi, istəyi və məhəbbəti ilə siyasi hakimiyyətə qayıtmış Heydər Əliyev Azərbaycan xalqının müdrik lideri olaraq əliyevçilik ideologiyasını –Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini özündə əks etdirən ideologiyanı bizlərə bəxş etmişdir. Müstəqil Azərbaycanın təməl prinsipi olan əliyevçiliyin əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalətlilik, demokratiya, milli tərəqqi, bəşərilik və bu kimi digər məfhumlar təşkil edir.**

Heydər Əliyevin qayıdışından sonra atılan əsas addım Azərbaycanın qarşısında duran ən ümdə, taleyüklü məsələnin həlli – ölkəmizə qarşı erməni təcavüzünün dəf edilməsi, işğal olunmuş torpaqların geri qaytarılması, ev-eşiyindən didərgin salınmış bir milyondan çox soydaşımızın öz el-obalarına dönməsi istiqamətində görülən tədbirlərdir.

Ölkədə daxili ictimai-siyasi durumun son dərəcə mürəkkəb olmasına baxmayaraq, təcili surətdə həyata keçirilən təşkilati tədbirlər nəticəsində ayrı-ayrı xarici mərkəzlərdən dəstəklənən Ermənistan silahlı qüvvələrinin azğınlıqlarının qarşısı alındı, düşmənə güclü əks-zərbələr endirildi və beləliklə də, 1994-cü ilin mayında münaqişənin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edildi. Mənasız qanlar axıdılmasına, ordunun canlı qüvvəsinin sıradan çıxmasına son qoyuldu. Ölkədə bir çox özbaşınalıqların səbəbkarı olan qanunsuz silahlı dəstələr tədricən ləğv edildi, nizami ordu quruculuğuna başlandı.

Təcavüzkar düşmənin dəf olunması, eyni zamanda, respublikamızın ərazi bütövlüyünün qorunmasına etibarlı təminat verən güclü ordunun yaradılması qarşıda duran ən mühüm vəzifələrdən biri idi. 1993-cü il noyabrın 2-də Prezident Heydər Əliyev xalqa müraciət etdi. Bu tarixi müraciətində Heydər Əliyev Azərbaycanın düçar olduğu fəlakətlərin, Vətənimizin düşməndən müdafiəsi sahəsində yaranmış ağır vəziyyətin səbəblərini dərindən təhlil etdi, milli ordu quruculuğu məsələsinin həlli üçün ümdə vəzifələri müəyyənləşdirdi. **Müstəqil dövlətiçiyimizi qorumağa qadir olan ordu quruculuğu sahəsində görülən işlər öz bəhrəsini verdi. Bu gün tam məsuliyyətlə və razılıq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın güclü, düşmənə layiqli cavab verməyə qadir nizami milli ordusu yaradılmışdır.** Cəbhə bölgələrində, sərhəd zonalarında əbədi mənfi xislətindən əl çəkməyərək, ayrı-ayrı vaxtlarda atəşkəs rejimini pozmağa cəhd göstərən erməni silahlı qüvvələrinə qətiyyətlə lazımi cavab verilməsi faktları ordumuzun yüksək döyüş qabiliyyətinə əyani sübutdur.

Dağlıq Qarabağ probleminin həlli yönümündə Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun və dünya ictimaiyyətinin yaxından köməyi ilə nizama salınması təşkil edir. Vaxtilə dünya siyasətində demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda, erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız və yalnız Prezident Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı

ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Dağlıq Qarabağ münaqişənin həlli istiqamətində Azərbaycanın diplomatik səylərinin yeni bir nəticəsi bütün dünyada sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi xidmətləri olan Amerika Birləşmiş Ştatlarının bu problemin çözülməsinə diqqətinin artırılmasında özünü göstərir.

Dünya dövlətlərinin Azərbaycanda qaçqınların problemlərinə diqqət yetirməsi, yurd-yuvalarından didərgin düşmüş insanlara həm ayrı-ayrı ölkələr, həm də beynəlxalq ictimai təşkilatlar tərəfindən humanitar yardımlar göstərilməsi də Heydər Əliyevin həyata keçirdiyi uğurlu beynəlxalq siyasətin və diplomatik səylərin bariz təzahürüdür.

Azərbaycanın xarici siyasət fəaliyyəti çoxşaxəli istiqamətlərdə inkişaf edir, bütünlükdə ölkəmizin qlobal beynəlxalq siyasətə qoşulmasını, dünya birliyinə inteqrasiyasını nəzərdə tutur. Heydər Əliyev prezidentliyi dövründə dünyanın ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Türkiyə, İran, Pakistan və s. kimi aparıcı dövlətlərinə rəsmi səfərlər etmiş, ölkələrimizin arasında bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Bu illər ərzində Türkiyə ilə əlaqələrimiz keyfiyyətcə yeni mərhələyə qalxmış, "bir millət, iki dövlət" formulu əsasında, sarsılmaz təməl üzərində qərar tutmuşdur.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır, dövlətimiz beynəlxalq və regional siyasətin həyata keçirilməsində getdikcə daha fəal

iştirak edir. Heydər Əliyevin təşəbbüsü və bilavasitə səyləri sayəsində yaradılmış GUÖAM Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın daxil olduğu böyük bir məkanda region qüvvələrinin birləşməsi, razılaşdırılmış siyasi və iqtisadi strategiyasının işlənib hazırlanması regional təhlükəsizliyin təmin edilməsi yönümündə fəal rol oynamağa başlamışdır.

Azərbaycanın BMT, ATƏT kimi nüfuzlu təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son illərin uğurlu xarici siyasətinin real nəticələridir. NATO-nun regionda təhlükəsizliyin təmin edilməsinə diqqətinin artması, Dağlıq Qarabağ münaqişəsinin ədalətlə nizama salınmasında maraqlı olduğunu bildirməsi beynəlxalq aləmdə qərarlaşmış əlaqə və münasibətlər kontekstində Azərbaycan diplomatiyasının mövcud reallıqları düzgün qiymətləndirmək və optimal qərar qəbul etmək bacarığının əyani göstəricisidir. Müasir beynəlxalq həyatda cərəyan edən proseslər prizmasından yanaşaraq, ümid edirik ki, müəyyən olunmuş siyasi xətt öz bəhrələrini verəcək, Dağlıq Qarabağ problemi ədalətli prinsiplər əsasında nizama salınacaqdır.

**Heydər Əliyevin prezidentliyi dövründə əldə edilən ən mühüm, strateji əhəmiyyət daşıyan nailiyyətlər sırasında Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş siyasətin işlənib hazırlanması və uğurla həyata keçirilməsi xüsusilə diqqətəlayiqdir.**

1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” adı almış irimiqyaslı neft müqaviləsinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı

ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəlməsi, iqtisadiyyata bu gün lazım olan milyardlarla dollar xarici sərmayənin respublikaya axması üçün geniş imkanlar yaratmışdır.

Dünyanın 15 ölkəsinin 30 ən iri şirkəti ilə bağlanmış 21 neft müqaviləsinə əsasən, Azərbaycana 60 milyard dollardan çox xarici sərmayə qoyulması gözlənilir ki, bu da ölkənin iqtisadi sistemini, müvafiq infrastrukturunu cana gətirəcək güclü maliyyə kanalıdır. Lakin neft müqavilələrinin əhəmiyyətini təkcə iqtisadi kateqoriyalarla müəyyənləşdirmək, hesab edirəm ki, onun tarixi mənasını azaltmaq olardı. İmzalanmış müqavilələrin siyasi mənası, dəyəri heç də az əhəmiyyət daşımır. Dünyanın aparcı dövlətlərinin ən qüdrətli şirkətlərinin iştirak etdiyi, sərmayə qoyduğu neft müqavilələri Azərbaycanın coğrafi-strateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirir.

**Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı ümumdünya kommunikasiya proqramının həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın İcraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi tərəqqisinə təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirir.**

Təqdirəlayiq haldır ki, tarixi İpək Yolunun bərpası ilə bağlı ilk beynəlxalq konfrans Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilmişdir. 1998-ci ilin sentyabrında keçirilən Bakı konfransında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək nümayəndəliyinin, o cümlədən 7 ölkənin prezidentinin təmsil olunması

bu tədbirin xüsusi statusunu vurğulamaqla bərabər, Avropa ilə Asiyanı birləşdirəcək kommunikasiya sisteminin yaradılmasında Azərbaycana böyük önəm verildiyini də göstərir.

**Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyata keçirilən genişmiqyaslı tədbirlər sisteminin ümumi məntiqi milli dövlət quruculuğu prosesində bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsindən ibarətdir.** Makroiqtisadi tənəzzülün qarşısının alınması və ilk artım meyillərinin özünü büruzə verməsi, özəlləşdirmə proqramının birinci mərhələsinin başa çatdırılması, aqrar islahatların həyata keçirilməsi və ilk bəhrələrini göstərməsi, ifrat həddə çatmış inflyasiyanın dəf edilməsi və manatın alıcılıq qabiliyyətinin dayanıqlı surətdə sabit saxlanması bu iqtisadi siyasətin uğurlu nəticələrindəndir.

1980-ci illərin sonlarından etibarən Azərbaycanda başlayan iqtisadi tənəzzül görülmüş tədbirlər nəticəsində 1995-1996-cı illərdə dəf edilmiş, 1997-ci ildən isə tərəqqi, irəliləyiş əldə olunmağa başlamışdır. Ümumi daxili məhsulun həcmi 1997-ci ildə 5,8 faiz, 1998-ci ildən etibarən isə hər il 10 faiz artmışdır. İqtisadiyyata kapital qoyuluşu əhəmiyyətli dərəcədə çoxalmış, xüsusilə də istehsal təyinatlı yatırımın artım sürəti daha yüksək olmuşdur. Özəlləşdirmənin həyata keçilrilməsi və sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması sayəsində ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 70 faizə çatdırılmışdır.

İqtisadi islahatların vüsəti aqrar sahədə özünü daha aydın büruzə verir. “Torpaq haqqında” qanunun qəbul edilməsi ilə torpaq üzərində xüsusi mülkiyyət hüququ təsbit edilmiş, kənd əhalisinə torpaq sahələri paylanmışdır.

Kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi kənddə sahibkarlığın inkişafına geniş təkan vermiş, kənd təsərrüfatı məhsulları istehsalının artımını təmin etmişdir.

Böyük dövlət xadimi kimi Heydər Əliyevə xas olan ən mühüm keyfiyyətlərdən biri idarəçilikdə demokratik metodlara, aşkarlığa, kadrların yaradıcılıq təşəbbüskarlığına geniş meydan verilməsi idi. Bu keyfiyyətlər müasir dövrdə Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu prosesində özünü daha qabarıq şəkildə büruzə vermişdir.

1993-cü ildən etibarən götürülən siyasi xəttin əsas üstün cəhətlərindən olan demokratik, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi ölkəmizdə demokratiyanın, insan hüquqları və azadlıqlarının fundamental prinsiplərinin qərar tutmasına zəmin yaratmışdır. 1995-ci ildə ölkənin bəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, ölkə tarixində ilk dəfə olaraq Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, bir sıra digər mühüm qanunların qəbulu və əməli tədbirlərin həyata keçirilməsi Azərbaycanın demokratik dövlət quruculuğu yolunda atdığı önəmli addımlardandır.

Siyasi plüralizmə rəvac verilməsi, söz və mətbuat azadlığının təmin edilməsi, siyasi partiyaların və ictimai təşkilatların fəaliyyəti üçün əlverişli şərait yaradılması ölkəmizdə demokratik mühitin qəti şəkildə qərarlaşdığından xəbər verir.

İnsan hüquqları və azadlıqlarının qorunması, humanizm, sosial ədalət prinsiplərinin möhkəmlənməsi həmişə Heydər Əliyev hakimiyyətinin mahiyyətini təşkil edən dəyərlər kimi qavranılıbdır. Həyata keçirilmiş genişmiqyaslı hüquq islahatları, məhkə-

mə orqanları sisteminin təkmilləşdirilməsi həmin prinsiplərin hüquqi bazasını yaratmışdır. Buna görə də 1993-cü ildən sonrakı dövrü ölkəmizdə insan hüquq və azadlıqlarnın inkişafı tarixində dönüş mərhələsi kimi səciyyələndirməliyik.

Heydər Əliyevin təşəbbüsü və qətiyyətli addımı ilə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda ölüm cəzasının ləğv edilməsi ümummilli liderin insan hüquqları və azadlıqlarına hörmət və ehtiramının parlaq təzahürü, həmçinin həyata keçirdiyi dövlət siyasətinin məntiqi nəticəsidir.

İnsan hüquqları və azadlıqları sahəsində ardıcıl surətdə həyata keçirilən tədbirlərin təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır. Heydər Əliyev ölkəmizin inkişafını bu yüksək ideyalar əsasında strateji yol kimi müəyyən etmişdir. Hər bir insanın həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları və azadlıqları sahəsində 125 beynəlxalq konvensiya və sazişə qoşulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı ölkəmizin dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə və demokartiyanın inkişaf etdirilməsinə daha geniş imkanlar yaratmış, insan hüquqları sahəsində görüləcək işlərin istiqamətini və konsepsiyasını müəyyən edərək, onu dövlət siyasəti səvyyəsinə qaldırmışdır.

**Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbyacan Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır.**

Respublikamızda cinayət hüququ siyasətinin humanistləşdirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirilmiş, 1995-ci ilin mayında əfvetmə institutu bərpa edilmiş, bir neçə amnistiya aktı qəbul olunmuşdur. Son 8 il ərzində əfv fərmanlarına və amnistiya aktlarına əsasən, 70 mindən artıq şəxs müxtəlif cəzalardan tam və ya qismən azad edilmişdir.

Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə hüquq mühafizə orqanlarının fəaliyyətində də əsaslı dönüş yaranmış, bu orqanlarda ciddi intizam, tələbkarlıq, dövlət mənafeyi amilləri ön plana çəkilmiş, mühüm təşkilati-praktik tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə cinayətkarlığa qarşı mübarizənin gücləndirulməsi, qanunçuluğun və əmin-amanlığın bərqərar edilməsi demokratik prinsiplərin inkişaf etdirilməsinə daha geniş imkanlar yaratmışdır.

Heydər Əliyevi bir şəxsiyyət, dövlət xadimi və lider kimi dəyərləndirən aparıcı keyfiyyətlər sırasında millilik, milli köklərə bağlılıq həmişə öndə olubdur. O, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ürəyinin ən dərin qatlarına qədər milli lider olduğunu nümayiş etdirmişdir. Xalqımızın tarix boyu qərarlaşmış milli dəyərlərinin bərpa edilməsi, Azərbaycan dilinin inkişafı, milli mədəniyyətimizin, əxlaq normalarımızın, dinimizin, mənəviyyatımızın yüksəldilməsi, gənclərin milli ruhda tərbiyə edilməsi Heydər Əliyevin liderlik qayəsini müəyyən edən cəhətlərdən idi.

Azərbaycan dilinin, mədəniyyətinin inkişafına, mədəniyyət və incəsənət xadimlərinə dövlət qayğısının artırılması, tariximizin obyektiv mənzərəsinin yaradılması və sair yollarla milli mənəviyyatı və milli qüruru yüksəldən, milli şüuru və milli ruhu zənginləşdirən özünəqayıdış prosesi Heydər Əliyevin çoxşaxəli fəaliyyəti, diqqəti və təşəbbüskarlğı sayəsində reallığa çevrilmişdir.

**Onun parlaq siyasi zəkası, müdrikliyi sayəsində xalqımız öz milli-mənəvi dəyərlərini qoruyaraq, yeni minilliyə inamla qədəm qoymuşdur. Tarixin nadir hallarda yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə qarşıya çıxan bütün maneələri dəf edərək, Azərbaycana regionda və dünyada layiqli yer qazandırmışdır.**

İstər hakimiyyətinin birinci dövründə, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi son on ildə yalnız vətənini və xalqını düşünən Heydər Əliyevin ürəyi müstəqilliyimizin möhkəmləndirilməsi, xalqın xoşbəxtliyi üçün çırpınırdı. O, Azərbaycanın ən çətin anlarında üzərinə düşmüş xilaskar missiyasını ləyaqətlə yerinə yetirmiş, bu yolda heyrətamiz fədakarlıqlar göstərmiş, xalqı bir çox müdhiş bəlalardan qoruya bilmişdir.

O, fitri istedadı və zəngin təcrübəsi hesabına hadisələrin gedişini qabaqcadan görür, böyük əhəmiyyət kəsb edən tarixi qərarlar qəbul edir və bu zaman əsl vətənpərvər mövqeyində dayanırdı. Heydər Əliyev zəngin və çoxəsrlik Azərbaycan tarixində dövlət başçısı və prezident kimi müstəsna yer tutubdur. Onun çoxşaxəli fəaliyyəti əhəmiyyəti və dəyəri baxımından ölkəsinin hüdudlarını aşır, dünyada gedən qlobal proseslərə öz təsirini göstərirdi.

Heydər Əliyev həm də zəmanəsinin böyük mütəfəkkiri və filosofu olaraq, azərbaycançılıq fəlsəfəsini formalaşdırır və inkişaf etdirirdi. Məhz bu fəlsəfə Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin təməl prinsiplərini təşkil etmişdir. Dünya azərbaycanlılarının həmrəyliyinə və birliyinə nail olunmasında Heydər Əliyevin misilsiz xidmətləri var. O, dünya azərbaycanlılarının müstəqil Azərbaycan dövləti ətrafında birləşməsi üçün yorulmadan çalışmış, bu istiqa-

mətdə misilsiz qərarlar qəbul etmişdir. Onun təşəbbüsü ilə Dünya azərbaycanlılarının Bakıda keçirilmiş I qurultayı yaxın-uzaq ellərdə yaşayan soydaşlarımızın bir araya gətirilməsində müstəsna rol oynamışdır.

Heydər Əliyev Azərbaycana demokratiya və demokratik seçkilər, bəşəri dəyərlər gətirmişdir. Onun bu istiqamətdə həyata keçirdiyi siyasət ölkənin hər bir vətəndaşının azad yaşamaq hüququnu təmin etmiş, hər kəsə öz rifahını yaxşılaşdırmaq imkanı yaratmışdır. Heydər Əliyev prezidentliyi dövründə həyata keçirilən iqtisadi islahatlar, Azərbaycanın dünya iqtisadiyyatına ardıcıl surətdə inteqrasiya etməsi ölkəmizin gələcək tərəqqisinin rəhnidir.

**Öz fitri istedadı, iti zəkası və digər nadir keyfiyyətləri hesabına yeni Azərbaycanı, həyatımızın mövcud gerçəkliklərini yaradan ümummilli lider Heydər Əliyev, eyni zamanda, gələcəyə aparan yolları da müəyyənləşdirmişdir. Son günlərin hadisələri, xalqın nümayiş etdirdiyi birlik və mütəşəkkillik bir daha təsdiqləyir ki, Azərbaycan xalqı Heydər Əliyev ideallarına sadiqdir, onun müəyyənləşdirdiyi yolla gedəcəkdir.**

Bu gün hər birimizin taleyində dahi müasirimiz olan Heydər Əliyev dühasının bir zərrəsi var. Onun həyatı və fəaliyyəti, şəxsiyyəti tariximizin ayrılmaz bir hissəsini təşkil edir. Heydər Əliyev elə zəngin irs qoyub ki, ondan Azərbaycan xalqının hələ neçə-neçə nəsilləri bəhrələnəcəkdir.

Azərbaycan tarixində dərin, pozulmaz izlər qoymuş Heydər Əliyevin əziz və parlaq xatirəsi qədirbilən xalqımızın qəlbindən heç vaxt silinməyəcəkdir. Onu qurduğu Azərbaycan əbədi yaşayacaqdır.

*"Azərbaycan" qəzeti,*
*17-18 dekabr 2003-cü il.*

## HEYDƏR ƏLİYEV İRSİ DÜNYA SİYASİ ELMİNİN QİYMƏTLİ NAİLİYYƏTİNƏ ÇEVRİLƏCƏK

*(“Azərbaycan” qəzetinə müsahibə)*

***- Ramiz müəllim, artıq başa çatmış 2003-cü il dövlətimizin və xalqımızın taleyində hansı məqamlarla yadda qalacaq? Keçən il Azərbaycanın inkişafı istiqamətində hansı proseslərlə əlamətdar oldu?***

- Qeyd etmək lazımdır ki, 2003-cü il bütövlükdə Azərbaycan dövlətinin bütün istiqamətlər üzrə möhkəmlənməsi, Azərbaycan rəhbərliyinin siyasətinin həm ölkə vətəndaşları tərəfindən, həm də dünyanın nüfuzlu gücləri, aparıcı dövlətləri tərəfindən qəbul edilməsi, dəstəklənməsi ilə əlamətdar olmuşdur. Keçən il təqvimə Heydər Əliyev siyasi xəttinin, strateji kursunun təntənəsi kimi daxil olmuşdur. İlin ən mühüm hadisələri sırasına isə, şübhəsiz, Azərbaycanda yeni Seçki Məcəlləsi əsasında prezident seçkiləri keçirilməsini, cənab Heydər Əliyevin 80 illik yubileyinin ümumxalq bayramı kimi qeyd olunmasını, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişinin həlledici mərhələyə daxil olması və onun birmənalı şəkildə reallaşmasını, iqtisadiyyatda və dövlət quruculuğunda islahatların daha da dərinləşməsini və bütün sahələri əhatə etməsini, dövlət büdcəsindən maliyyələşən bütün kateqoriyalardan olan işçilərin maaşlarının artırılmasını, Bakıda və rayonlarda quruculuq və abadlıq işlərinin aparılmasını, müəssisələrin açılmasını və sairi aid etmək lazımdır.

Əlbəttə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtsız vəfatı dövlətimiz və xalqımız üçün, bütün vətəndaşlarımız üçün ağır itkidir. Xalqımız bu bəd xəbəri sonsuz kədər və üzüntü ilə qarşıladı. Çox təəssüf ki, cənab Heydər Əliyevin gördüyü böyük işlər, dünya miqyaslı layihələr tam reallaşmaqda olduğu, səmərəsini verməyə başladığı bir zamanda xalqımızın rəhbəri dünyasını dəyişdi.

***- 2003-cü ilin ən mühüm siyasi hadisəsi kimi oktyabrın 15-də keçirilən prezident seçkilərini qeyd etdiniz. Ümumiyyətlə, seçkilərə hazırlığı, onun gedişini və nəticələrini necə qiymətləndirirsiniz?***

- 2003-cü il prezident seçkiləri həm qanunvericilik təminatı, həm də təşkilati işlər və siyasi fəallıq baxımından yüksək səviyyədə keçmişdir. Bütün seçkiləri əhatə edən vahid Seçki Məcəlləsi qəbul olunmuş, seçki qanunvericiliyi Avropa standartlarına uyğunlaşdırılmışdır.

Həm Avropa Şurasının və ATƏT-in ekspertləri, həm də Azərbaycanda prezidentliyə namizədlər və partiya funksionerləri bildirmişlər ki, bu Məcəllə ilə demokratik, ədalətli seçkilər keçirmək mümkündür. Seçkilərin normal hazırlanması və keçirilməsi, namizədlər üçün bərabər təbliğat imkanları yaradılması üçün zəruri tədbirlər görülmüşdür. Seçkilər həm prosesin özünün yüksək səviyyədə təşkili, səsvermə prosesinə yeniliklərin tətbiqi, həm də elektoratın yüksək fəallığı ilə çox əlamətdar olmuşdur. Mən deyərdim ki, aparılmış yüksək təşkilat və təbliğat işi nəticəsində seçkilər misli görünməmiş siyasi fəallıq, ruh yüksəkliyi şəraitində keçmişdir.

Seçkidə iştirak edənlərin böyük əksəriyyəti Azərbaycanda sabitliyi və firavanlığı təmin etmiş Heydər Əliyev siyasi xəttinə, bu xəttin layiqli davamçısı İlham Əliyevə səs vermişlər.

***- Sizcə, cənab İlham Əliyevin qələbəsini şərtləndirən amillər hansılardır?***

- Cənab İlham Əliyevin qələbəsi Azərbaycan vətəndaşları və müşahidəçilər tərəfindən təbii qarşılandı. Hələ avqust ayında cənab İlham Əliyevin Baş nazir təyin olunmasını vətəndaşlarımız, Azərbaycanı sevən bütün insanlar böyük ruh yüksəkliyi ilə, razılıqla qarşıladılar. Azərbaycan vətəndaşları, əhalinin müxtəlif qrupları uzun illərin təcrübəsinin nəticəsi olaraq, Heydər Əliyev siyasi xəttini yeganə düzgün, alternativi olmayan siyasət kimi qəbul edirdi və özü üçün yalnız bu xəttin təmsilçisinə səs verəcəyini qətiləşdirmişdi. Bunu Azərbaycanda siyasi qüvvələr nisbətini, real namizədlərin şanslarını müşahidə edən obyektiv xarici ekspertlər, sorğu mərkəzləri də təsdiq edirdilər. Seçkidən öncəki aylarda ABŞ-ın nüfuzlu Beynəlxalq Respublikaçılar İnstitutunun keçirdiyi sorğuların nəticələri də dediklərimizi bir daha təsdiq edir. Sorğular hakimiyyət namizədinin seçkidə ən azı 64 faiz səs alacağını, Yeni Azərbaycan Partiyasının isə təxminən 70 faiz populyarlığa malik olduğunu göstərirdi. Lakin seçkiqabağı aylarda İlham Əliyev tərəfindən görülən quruculuq işləri, düzgün qurulmuş təbliğat işi onun nüfuzunu, xalqın aparılan siyasətə inamını daha da artırdı. İlham Əliyevin rəqibləri isə öz təbliğatını əsasən hakimiyyətin siyasətini tənqid üzərində, müəyyən qədər də real olmayan vədlər üzərində qurdular. Həm də bu vədlər o qədər fantastik, tənqidə davamsız idi ki, hətta siyasətçi və mütəxəssis olmayanlar belə, onların canlı həyatla və siyasətlə əlaqəsi olmadığını görürdülər. Bir qayda olaraq, opponentlərin çıxışları bütün sahələrdə əldə edilmiş uğurlardan imtinanı, iqtisadiyyatda, kadr məsələlərində kəskin dəyişikliyi, çox vaxt bir-birinə zidd olan tezisləri ehtiva edirdi. Nəticədə xalq haqlı olaraq, indiki ra-

dikal müxalifətin timsalında dağıdıcı, destruktiv qüvvələri, xaos, anarxiya daşıyıcılarını görürdü. Digər tərəfdən, İlham Əliyevin opponentləri öz təbliğatında çirkin siyasi texnologiyalardan, xalqımızın mentalitetinin və düşüncəsinin qəbul etmədiyi, etikadan uzaq terminologiyadan istifadə edirdilər və bu da vətəndaşlar tərəfindən qəbul olunmur, onlarda ikrah və təəssüf hissi doğururdu.

Cənab İlham Əliyev isə təbliğatda Heydər Əliyev siyasi xəttinə sadiq olduğunu daim vurğulayaraq, bu xətti davam etdirəcəyini bildirir, əldə edilmiş uğurlara, konkret elmi hesablamalara əsaslanmaqla xalqa real vədlər verirdi. Xalqımız isə çoxdandır ki, nağıllara, "inqilabi-romantik" süjetlərə inanmır, eyni zamanda, faktlara və hadisələrə obyektiv qiymət verməyi öyrənibdir. Deyə bilərəm ki, bu gün azərbaycanlılarda reallıq hissi daha güclüdür. İlham Əliyev müxalifət başçılarının yolu ilə getməyərək, öz rəqiblərini televiziya ekranlarından təhqir etmədi, onların şəxsiyyətini alçaltmadı, etikadan kənar ifadələrə yol vermədi, onlarla yalnız arqumentlərin və faktların köməyi ilə polemika apardı. Vətəndaşlar, seçicilər İlham Əliyevin ciddiliyini, səmimiliyini, siyasi mədəniyyətini, intellektini bir daha müşahidə etmək imkanı qazandılar.

Nəticədə İlham Əliyev rəqibləri üzərində parlaq qələbə qazandı, müxalif namizədlərin yaxın gələcəkdə onunla rəqabət aparmaq şanslarını darmadağın etdi, Azərbaycanda siyasi qüvvələrin düzümündə və gələcək siyasi münasibətlərdə yeni meyillərə güclü təkan verdi.

***- Prezident İlham Əliyev seçkiqabağı görüşlərində ölkənin hələ də həllini gözləyən problemlərinin qarşıdakı beş il ərzində nizamlanacağını bəyan etmişdi. Bu vədin reallaşması üçün xüsusi tədbirlər planı hazırlanırmı?***

- Qeyd etdiyimiz kimi, cənab Prezident İlham Əliyev xalqa, seçicilərə real, yerinə yetirilməsi mümkün olan vədlər verdi. İnsanlar isə bu vədlərin real olduğuna, artıq həyatda öz təsdiqini tapmış uğurlara söykəndiyinə əmin oldular. Müxalifət namizədlərindən fərqli olaraq, İlham Əliyev kifayət qədər dövlət idarəçiliyi təcrübəsinə malikdir, ona etibar edilmiş sahələrdə etimadı doğrulda bilmişdir. İlham Əliyev yaxın beş il ərzində ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, icrası üçün mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Başlıcası isə, bu işləri həyata keçirmək üçün cənab İlham Əliyevin siyasi iradəsi vardır. Cənab Prezidentin noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman məhz belə bir siyasi iradənin təzahürüdür. Məlum olduğu kimi, Fərmanda işsizliyin aradan qaldırılması, regionların dinamik inkişafının təmin edilməsi, maliyyə intizamının möhkəmləndirilməsi, sənayenin və aqrar bölmənin inkişafı, icra strukturları tərəfindən vətəndaşların zəruri ehtiyaclarına və qanuni tələblərinə diqqətlə yanaşılması və s. məsələlər barədə konkret tapşırıqlar müəyyənləşdirilmişdir. Bu cür proqram xarakterli sənədlər bundan sonra da zərurət olduqca qəbul ediləcəkdir. Başlıcası isə, onları vaxtında və keyfiyyətlə icrasını təmin etməkdir.

Yeri gəlmişkən, cənab İlham Əliyevin seçkiqabağı platformasının ən mühüm bəndlərindən biri qarşıdakı beş ildə Azərbaycanda 600 min iş yerinin açılması haqqında öhdəlikdir. Sosial-iqtisadi sahədə işlərin ağırlığı əsasən bu sahəyə yönəldiləcəkdir. Şərti olaraq götürsək, hər il 120 min iş yeri açmaq lazım gələcək. Düşünürük ki, bu çətin, gərgin axtarışlar, düzgün və cəsa-

rətli makroiqtisadi, vergi-maliyyə siyasəti yürüdülməsini tələb edən, lakin real məsələdir. Biz hər bir Azərbaycan ailəsinə normal səviyyədə yaşamağa və özünü inamlı hiss etməyə imkan verən şərait yaratmaq istəyirik və buna nail olacağıq. Onu da deyim ki, artıq aqoniya dövrünü yaşayan ifrat radikal müxalifətin təbliğat orqanları, həmişə olduğu kimi, bu məsələdə də möhtəkirliklə məşğuldurlar. Seçki ərəfəsində müxalifət namizədləri hər il 500 min iş yeri açmağı, əmək haqlarını və maaşları qısa müddətdə 3-5 dəfə artırmağı vəd edir və bunu yorulmadan təkrar edirdilər. İndi isə Azərbaycan Prezidentinin beş ildə 600 min iş yeri açmaq vədinin real olmadığını sübut etməyə çalışır, onun yerinə yetirilməsinin "mümkünsüzlüyü" barədə müxalif mövqeli "iqtisadçı ekspertlərin" rəylərini mətbuat səhifələrində yerləşdirirlər. Lakin belə rəylər bizim üçün və bütün sağlam düşüncəli vətəndaşlarımız üçün əhəmiyyətsizdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli qarşıdakı illərdə xarici siyasi fəaliyyətin əsas istiqaməti olacaqdır. Dövlət başçısı kimi cənab İlham Əliyev artıq bu istiqamətdə ilk addımlar atmış, Minsk qrupu həmsədrlərini qəbul etmiş, Ermənistan Prezidenti ilə birinci ikitərəfli görüş keçirmişdir. Əminik ki, Prezident İlham Əliyev problemin Azərbaycanın ümdə maraqları qorunmaqla, beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə edəcək və mühüm nəticələrə nail olacaqdır.

***- Xarici dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən seçkilərin legitimliyinin və nəticələrinin tanındığını bildirirsiniz. Bu kontekstdə ATƏT DTİHB-nin rəyini necə qəbul etmək olar?***

- Bəli, seçkilərdən dərhal sonra əksər beynəlxalq təşkilatlar, dünyanın aparıcı dövlətlərinin başçıları Azərbaycanda seçkilərin

qanun və ədalət əsasında keçirildiyini qəbul etdilər və bunu öz təbrik məktublarında ifadə etdilər, cənab İlham Əliyevlə əməkdaşlıq etmək arzularını bildirdilər. Onlar İlham Əliyevin şəxsində Azərbaycanda sabitliyi, regional layihələrin təhlükəsizliyini təmin etməyə qadir olan, beynəlxalq aləmlə sivil münasibətlər qurmağa çalışan etibarlı tərəfdaş görərək, onun dövlət başçısı seçilməsini razılıqla qarşıladılar. ATƏT-in müşahidəçilər missiyasının rəyini isə çoxsaylı qiymətləndirmələrdən biri kimi, bir qədər fərqli baxış kimi qəbul etmək lazımdır. Həm də bu rəyi Qərbdə müəyyən dairələrin Azərbaycan hakimiyyətinə gələcəkdə təzyiq vasitələrini saxlamaq cəhdi kimi səciyyələndirmək olar. Çünki Qərbdə müəyyən dairələrə güclü hakimiyyəti olan Azərbaycan sərfəli deyildir. Bu dairələrə daha çox zəif hakimiyyəti olan, daha çox daxili siyasi məsələlərə başı qarışmış hakimiyyət maraqlıdır. Düşünürəm ki, elə buna görə də həmin qüvvələr indi iflic vəziyyətinə düşmüş, sosial bazasını demək olar, tamam itirmiş ifrat radikal müxalifətin birləşməsində, özünə gəlməsində maraqlıdırlar. Daxili siyasi proseslərə müəyyən təsiri olan, xarici dairələrin diktəsi ilə oturub duran, hakimiyyət naminə istənilən şərti yerinə yetirməyə hazır olan sistemdənkənar müxalifətin mövcudluğu belə dairələr üçün son dərəcə vacibdir. Rəyin qeyri-obyektivliyi, qərəzliliyi də bununla bağlıdır. Biz bu rəyi olduğu kimi qəbul etmirik və ona öz etirazımızı bildirmişik. Lakin o da qeyd edilməlidir ki, bizim üçün başlıcası daxili ictimai rəydir, Azərbaycan xalqının iradəsidir. Daxili rəy, xalqın inamı və etibarı isə birmənalı şəkildə Azərbaycan iqtidarına ünvanlanıbdır.

***- Radikal müxalifətin antimilli fəaliyyətinin bəzən xarici qüvvələr tərəfindən dəstəklənməsi barədə mülahizələr ictimaiyyətdə,***

***eləcə də müxalifətin öz daxilində geniş müzakirə edilən mövzulardandır. Bu yönümlü fikirləri hakimiyyət də bölüşürmü?***

- Ümumiyyətlə, müxalifətdəki bir sıra qüvvələrin xaricdəki müəyyən dairələr tərəfindən istiqamətləndirilməsi və idarə olunması barədə məlumatlar Azərbaycan ictimaiyyəti üçün sirr deyildir. Həm də qəribə və təəccüblü olanı budur ki, xalqa və dövlətə rəhbərlik etmək iddiasına düşmüş şəxslər qətiyyən utanıb-çəkinmədən hansısa xarici qüvvələr, başqa dövlətlərin siyasi qrupları tərəfindən dəstəkləndiyi, "prezident kimi qəbul edildiyi" barədə məlumatları fəxrlə dövriyyəyə buraxır, bununla daxili ictimai rəyə təsir etməyə çalışırlar. Biz Azərbaycanda prezident seçkiləri ərəfəsində "filan dövlət filan siyasətçini prezident kimi qəbul etdi", "filan beynəlxalq təşkilat filan namizədin prezident olmasını istəyir", "filan institut müxalifətə birləşməyi tövsiyə edib" kimi ifadələrə və xəbər başlıqlarına tez-tez rast gəlirdik. Hətta xarici dövlətlərə və beynəlxalq təşkilatlara Azərbaycan müxalifətinin başçılarına daha cəsarətlə kömək etmək, ona maddi, texniki və mənəvi yardım göstərmək, Azərbaycanda daxili siyasi proseslərə birbaşa müdaxilə etmək, müxalifəti hakimiyyətə gətirmək çağırışları ən populyar mövzular idi. Əgər siyasətçi hakimiyyətə gəlmək üçün xaricdə dəstək axtarırsa, bu, onun xalq arasında nüfuzunun olmamasından, onun müxtəlif manipulyasiyalar hesabına siyasi səhnədə qalmaq istəyindən xəbər verir. Bu, həmin siyasətçinin bir şəxsiyyət, bir fərd kimi tükənməsinin açıq göstəricisidir.

Daha acınacaqlısı budur ki, özlərini müxalifətçi adlandıran şəxslər, onların mətbu orqanları, ideoloqları bir çox hallarda Ermənistan mətbuatına, kütləvi informasiya vasitələrinə müxtəlif spekulyasiyalar üçün mövzular verirlər. Azərbaycanda daxili

siyasi vəziyyət, “insan hüquqlarının pozulması”, siyasi fəaliyyət azadlığı üçün şərait olmaması, söz azadlığının boğulması, korrupsiya və s. barədə dezinformasiyalar yaymaqla Azərbaycan haqqında insan hüquqlarına hörmət etməyən ölkə imici formalaşdırmağa çalışırlar. Müqayisə üçün deyək ki, ölkə daxilində bir-birinə çox sərt münasibətdə olan, rəqiblərinə qarşı silah işlədən Ermənistan siyasi partiyaları xaricdə ölkədaxili məsələləri heç zaman müzakirəyə çıxarmır, “bu, bizim daxili işimizdir” deyə qətiyyətli mövqe nümayiş etdirir. Görünür, bizim ölkə müxalifətinin yaxın qonşularımızdan öyrənməli olduğu çox şeylər var.

***- Cənab Heydər Əliyev prezidentlik müddətində ölkə müxalifətinin yeni, sivil dəyərlərə əsasən fəaliyyət göstərməsinin vacibliyini daim vurğulayırdı. Bu təşəbbüsün nəzəri məqamları sizin tərəfinizdən elmi-nəzəri məqalələrdə təhlil olunub və Azərbaycanda yeni müxalifətin formalaşması zərurəti faktların, proseslərin müqayisəsi ilə araşdırılıbdır. “Yeni müxalifət” dedikdə, hansı qüvvələr qəbul olunmalıdır və bu qüvvələrin fəaliyyət istiqaməti hansı prinsipləri ehtiva etməlidir?***

- Cənab Heydər Əliyev bütün prezidentliyi dövründə ölkədəki siyasi qüvvələrə qarşı ədalətli, nəzakətli münasibət göstərmiş, onların ictimai-siyasi həyatda tamhüquqlu iştirakı üçün şərait yaratmışdır. Cənab Heydər Əliyev siyasi opponentlərinə münasibətdə həmişə səbir nümayiş etdirərək, onları ölkə Konstitusiyası və qanunları əsasında fəaliyyət göstərməyə, xalqın və dövlətin problemləri ilə yaşamağa, konstruktivliyə dəvət etmişdir. O, müxalifətin bir çox qanunazidd hərəkətlərinə göz yummuş, humanizm nümayiş etdirmiş, bir millət atası kimi onları tərbiyələndirməyə çalışmışdır. “Müxalifətçilik edin, ancaq konstruktiv, sivil müxalifətçilik edin, xalqa, dövlətə qarşı

müxalifətdə olmayın" - Heydər Əliyevin müxalifət başçılarına tövsiyəsi həmişə belə olubdur.

Ölkədə yaradılmış demokratik ab-hava, söz, fikir, siyasi fəaliyyət azadlığı nəticəsində bir sıra müxalifət partiyaları strukturlaşmış, öz çoxsaylı mətbu orqanlarını, beynəlxalq donor təşkilatlardan və fondlardan alınan qrantlar hesabına yaşayan və əslində, partiyaların müxtəlif strukturları funksiyasını yerinə yetirən, özlərinə yaxın qeyri-hökumət təşkilatları şəbəkəsini yaratmış, təbliğat-təşviqat işini istədikləri (daha doğrusu, bacara bildikləri) səviyyədə qurmuşlar. Başqa məsələ ki, Azərbaycan müxalifəti konstruktivlikdən uzaqdır və ona görə də öz ideoloji-təbliğat istiqamətlərini, taktika və strategiyasını düzgün qura bilməyibdir. Xalqın problemləri, insanların qayğıları ilə maraqlanmaq, onların həlli yollarını göstərmək, taleyüklü məsələlərdə xalqın və dövlətin ümdə mənafelərindən çıxış etmək əvəzinə, Azərbaycanın əksər müxalifət partiyaları, xüsusən onun radikal qanadı maniakal bir tərzdə nəyin bahasına olursa-olsun, hakimiyyətə gələcəyini bildirir, öz siyasi rəqiblərini hədələyir, nifrət təbliğ edir, xaricdə Azərbaycana yad və düşmən qüvvələrlə əməkdaşlıq və sıx əlaqələr qurduqları halda, Azərbaycan hakimiyyəti ilə hər hansı təmasdan, dialoqdan imtina edirlər. Konkret misallar göstərmək istəyirəm. Azərbaycanın bütün müxalifət partiyaları başçıları dövlət səviyyəsində təşkil edilən tədbirlərə həmişə dəvət olunublar, lakin bütün hallarda heç bir səbəb göstərmədən bu tədbirlərdə iştirakdan imtina ediblər. Dağlıq Qarabağ probleminə hakimiyyətin "laqeyd münasibətindən" danışmağı sevən, hakimiyyəti dünya azərbaycanlılarının qurultayını keçirməməkdə ittiham edən barışmaz müxalifət başçıları və ideoloqları 2001-ci ilin fevralında Azərbaycan Milli Məclisində

Dağlıq Qarabağ probleminin müzakirəsində iştirakdan imtina etdilər, Dünya azərbaycanlılarının qurultayı kimi ümummilli tədbirə də gəlmədilər. Bunlar acı təəssüf doğuran faktlardır.

Radikal müxalifətin bu cür destruktiv, sivil normalarla bir araya sığmayan fəaliyyəti, təbii ki, sadə vətəndaşlar, sağlam düşüncəli insanlar tərəfindən, hətta bu partiyaların normal düşüncəli üzvləri tərəfindən narazılıq və ikrah hissləri ilə qarşılanır. Hakimiyyətə gələcəyini yorulmadan bəyan edən və ayrı-ayrı insan qruplarını müxtəlif vədlərlə öz tərəfinə cəlb edən bu partiyalar bununla gələcək dağılma və iflasın da əsasını qoymuşdular. Seçkilərə qədərki dövrdə yazdığım bir sıra məqalələrdə mən müşahidələr və təhlillər əsasında belə nəticəyə gəlmişdim ki, hakimiyyətə iddia edən ifrat radikal müxalifət partiyaları seçkilərdə labüd məğlubiyyətdən sonra mütləq dağılacaq, dərnək tipli qurumlara çevriləcəkdir. 15-16 oktyabr hadisələri və seçkilərdən sonra bu partiyalarda baş verən proseslər gəldiyimiz qənaətləri tamamilə təsdiq etdi. Cənab İlham Əliyevin Baş nazir təyinatı ilə müxalifət partiyalarında başlanmış sarsıntı və çaşqınlıq son mərhələyə daxil oldu. Bu gün AMİP-də onun qurucularından və fəal üzvlərindən heç kəs qalmamışdır. Siyasi Şura üzvlərinin çoxu AMİP-də fəaliyyətin perspektivsizliyini görərək, qurumu tərk etmişdir. Müsavat Partiyasında dağılma, parçalanma prosesləri dönməz xarakter almaqdadır. Bu partiyadan da onun rəhbər orqanlarının üzvləri, tanınmış simaları istefa verirlər. Tam əminliklə demək olar ki, bu partiya seçki ərəfəsində malik olduğu az-çox təsir və nüfuzu, elektoratı heç vaxt qazana bilməyəcək, ən yaxşı halda, seçki ərəfəsi gücünün 20-25 faizini bərpa edə bilər. Çox güman ki, Müsavatın parçalanması nəticəsində bir neçə qrupun yaranmasını müşahidə edəcəyik. Eyni pro-

sesi Azərbaycan Demokrat Partiyası, Əli Kərimlinin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi Partiyası da yaşamalı olacaqdır.

Yuxarıda qeyd etdiyim kimi, indi ayrı-ayrı beynəlxalq təşkilatlar, media, hüquq müdafiə qurumları siyasi və mənəvi cəhətdən iflas etmiş, xalq arasında dayaqlarını tamamilə itirmiş ifrat müxalifət partiyalarını reabilitasiya etmək üçün cəhdlər göstərirlər. Lakin bununla onlar, ən yaxşı halda, tam mənada qrantlardan asılı olan korporativ, dərnək tipli qurumlar formalaşdıra bilərlər. Xalqın etimadını və inamını isə xarici təşkilatların və qrantların hesabına bərpa etmək mümkün deyildir.

Azərbaycan siyasi jurnalistikasında yanlış bir ənənə formalaşıbdır. Ölkədə baş verən siyasi proseslərdən danışarkən hakimiyyət-müxalifət münasibətlərini həmişə siyasi həyatın ən vacib məsələsi kimi, ölkənin sabit və dinamik inkişafının ən mühüm şərti kimi qələmə verməyə çalışırlar. Əslində, ölkənin siyasi həyatı ilə bağlı, inkişafı təmin edən proseslər tamamilə başqa müstəvidə, başqa miqyaslarda cərəyan edir. Ölkədəki ictimai-siyasi proseslərə bütövlükdə müxalifətin təsiri cüzidir. Əslində, ölkədəki siyasi prosesləri hakimiyyət-müxalifət münasibətlərinə müncər etmək kökündən yanlışdır. Bu xarakterli qəzet məqalələri onun nəticəsidir ki, bəzi jurnalistlər peşəkarlıqdan uzaqdırlar və ölkədə gedən həmin prosesləri dərindən təhlil etməyə qadir deyillər.

Demək lazımdır ki, "yeni, konstruktiv müxalifət" hakimiyyətin, yaxud digər siyasi qüvvələrin sifarişi, istəyi ilə formalaşmır. Buna cəmiyyətin sosial sifarişi olmalıdır. Belə bir sosial sifariş isə inamla demək olar ki, cəmiyyətdə mövcuddur. Müasir demokratik cəmiyyəti müxalifətsiz təsəvvür etmək mümkün deyildir. Normal, konstruktiv müxalifətin olması sivil cəmiyyətlər üçün

müsbət haldır, cəmiyyətin möhkəmlənməsinə, güclənməsinə xidmət edən amildir. Bu baxımdan sistem daxilində, Konstitusiya, qanunlar çərçivəsində fəaliyyət göstərən, öz fəaliyyətində xalqın, vətəndaşların maraq və mənafelərini əsas götürən konstruktiv, sağlam, vətənpərvər müxalifətin olması ölkəyə, dövlətə də lazımdır.

Yeni, konstruktiv müxalifətin formalaşması mənbələri də müxtəlifdir. Bu, ictimaiyyət üçün yeni olan hansısa "üçüncü qüvvənin" meydana çıxması demək deyildir. Yeni müxalifət ümumi "müxalifət" termini ilə ifadə olunan çoxsaylı partiya və qurumların daxilindən formalaşa bilər. Artıq bu gün Azərbaycanda mövcud olan partiyaların xeyli hissəsi radikallığı, prinsipsiz "barışmazlığı", küçə-meydan mübarizə taktikasını qəbul etmir. Radikal müxalifət partiyalarından ayrılanlar isə, bir qayda olaraq, başqa partiyalarda, yaxud özlərinin yaradacağı qurumlarda siyasi fəaliyyətlərini davam etdirəcəklərini bildirirlər. Yeni Azərbaycan Partiyasından, hakimiyyəti müdafiə edən qüvvələrdən kimlərinsə müxalifətə keçməsi ehtimalı çox azdır. Beləliklə, müxalifət daxilində cərəyan edən proseslər, hadisələrin daxili məntiqi göstərir ki, "yeni müxalifət" "müxalifət" adı altında birləşən cəmiyyət kəsiminin daxilində formalaşacaq, "köhnələr" yeni simalarla əvəzlənəcəkdir.

***- Siyasi partiyaların fəaliyyətindən danışarkən, YAP-ın təcrübəsinə də nəzər saldınız. Hakim partiya yeni siyasi şəraitdə öz fəaliyyətini necə qurmalı və hansı siyasi-ideoloji hədəfləri müəyyənləşdirməlidir?***

- Yeni Azərbaycan Partiyasının bugünkü fəaliyyətindən danışarkən qeyd olunmalıdır ki, YAP-ın yeni şəraitdə işləməsi həm asandır, həm də çətin. Asandır ona görə ki, Azərbaycan

ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında xüsusən son on ildə çox uğurlu inkişaf yolu keçib, iqtisadi sahədə, neft-qaz layihələrinin reallaşdırılmasında, sosial problemlərin həllində sanballı nailiyyətlər qazanılıb, Azərbaycan dünya birliyinə, qlobal təhlükəsizlik sisteminə möhkəm tellərlə inteqrasiya olunur. Bütün istiqamətlərdə dövlət quruculuğu müasir sivil standartlara cavab verən səviyyədə aparılıb, ölkədə demokratik, azad cəmiyyət yaradılması üçün mühüm işlər görülübdür. Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı məktublarında, xarici mətbuatdakı analitik yazılarda Azərbaycanın qazandığı bu nailiyyətlər, onun geosiyasi əhəmiyyəti, xalqımızın parlaq və firavan gələcəyinə inam ifadə olunurdu. İndi vəzifə bu güclü, fundamental nəzəri-ideoloji və maddi-institusional baza üzərində qazanılmış uğurları daha da inkişaf etdirməkdən, onları öz məntiqi sonluğuna çatdırmaqdan ibarətdir. YAP-ın işini asanlaşdıran ən mühüm məqam ondan ibarətdir ki, partiya xalq içərisində böyük inam kreditinə sahibdir, vətəndaşların böyük əksəriyyəti tərəfindən dəstəklənir. İnsanlarımız cənab İlham Əliyevə elliklə səs verməklə Heydər Əliyev siyasətinin davam etdirilməsini istədi. Digər tərəfdən, irəliyə doğru gedən magistral yolun istiqaməti, konturları artıq məlumdur, sadəcə, bu yolu inamla, sürətlə keçmək üçün əzm və iradə nümayiş etdirmək, bu magistral xəttə yeni şəraitə uyğun təshihlər etməklə onu sona qədər getmək, firavan, təhlükəsiz, azad Azərbaycan idealını tamamilə reallaşdırmaq gərəkdir.

Eyni zamanda, hakim partiya olan YAP-ın işini çətinləşdirən, onu daha məsuliyyətli olmağa, gərgin fəaliyyət göstərməyə, axtarışlar aparmağa vadar edən səbəblər də var. Bunların ən mühümü ondan ibarətdir ki, çox təəssüf, bu gün YAP-ın lideri,

ideoloqu, onun qurucusu cənab Heydər Əliyev artıq həyatda yoxdur. Ümummilli liderimiz daim partiyaya bilavasitə rəhbərlik edərək, onun taktikası və strategiyasını, konkret dövr üçün proqramını, fəaliyyət metodlarını və istiqamətlərini müəyyən edirdi. Bu itkinin partiya üçün yerini doldurmaq çox çətindir, demək olar, qeyri-mümkündür. Bu baxımdan Yeni Azərbaycan Partiyası cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi olmadan fəaliyyət göstərməyə məcburdur. Lakin Heydər Əliyevin ideyaları, **bitkin elmi-nəzəri platforma olan əliyevçilik ideologiyası bir mayak kimi onun yolunu işıqlandıracaqdır.** Xalq Yeni Azərbaycan Partiyasına, qeyd etdiyimiz kimi, böyük bir inam və etibar krediti veribdir, bu krediti doğrultmaq, möhkəmlətmək, daha da artırmaq lazımdır. YAP cənab İlham Əliyevin simasında özünün yeni liderini, ona uğurla rəhbərlik edən başçısını görür. İlham Əliyevin rəhbərliyi YAP üçün, onun daxili cəhətdən güclənməsi, birliyinin və monolitliyinin möhkəmlənməsi üçün çox vacib amildir.

***- Bu gün bəzi, nisbətən loyal siyasi dairələr dövlət idarəçiliyində müxalifətin də iştirakını arzulayır. Bu təklif iqtidar tərəfindən necə dəyərləndirilir?***

- Təəssüf ki, siyasi mədəniyyət səviyyəsinin kifayət qədər yüksək olmaması üzündən bir çox partiya funksionerləri hakimiyyət-müxalifət dialoqunu məhz hakimiyyətin bölüşdürülməsi, dövlətdə bir sıra mühüm postların opponentlərə verilməsi kimi təqdim etməyə çalışırlar. Müxalifət anlayışı altında hakimiyyətdə olan siyasi qüvvəyə opponentlik edən, onunla əsas məsələlərdə razılaşmayan qurumlar nəzərdə tutulur. Yəni müxaliflik özü hakimiyyət sistemindən kənarda olmaq deməkdir. Lakin əlbəttə, bu, cəmiyyətdən, dövlətdən kənarda olmaq, bir “antisis-

tem" təşkil etmək kimi başa düşülməməlidir. Müxalifət sistem daxilində bir müxalif qüvvə olmalıdır. Bu baxımdan müxalif siyasi qüvvələrin dövlət idarəçiliyində iştirakı barədə təklifin özü yersizdir.

Digər tərəfdən, indi Azərbaycanda hakimiyyətə gəlməyə iddia edən bir çox qüvvələrdən fərqli olaraq, Heydər Əliyev hakimiyyəti (indi demək olar ki, İlham Əliyev hakimiyyəti də) komanda prinsipi ilə təşkil olunub, burada vahid siyasi xətt mövcuddur. Lakin müxalifətdən kimsə hakim komandanın mövqeyini, siyasətini tamamilə qəbul edərsə, səmimiyyətlə işləməyə razı olarsa, bu məsələlərə fərdi qaydada baxıla bilər və biz bunu istisna etmirik.

***- Hakimiyyət komandasının peşəkarlardan ibarət olduğunu bildirirsiniz. Bəs yeni kadr hazırlığı yönümündə görülən işləri necə, qənaətbəxş saymaq olarmı?***

- Müasir tələblərə cavab verən, demokratik idarəçilik prinsiplərinə əsaslanan kadr hazırlığı dövlət quruculuğu sahəsindəki işimizin mühüm istiqamətlərindən biridir. Bu günün kadrları müasir idarəçilik metodlarına inadla yiyələnməli, geniş dünyagörüşə malik olmalı, informasiya texnologiyalarını bilməlidirlər. Dövlətə sədaqət, vətənpərvərlik, mənəvi təmizlik, ciddilik və tələbkarlıq kimi keyfiyyətlər də böyük əhəmiyyət kəsb edir. Son illərdə bu sahədə istər qanunvericilik bazasının yaradılması, istərsə də əməli-təşkilati tədbirlər səviyyəsində xeyli işlər görülmüşdür. Dövlət idarəçiliyində islahatlar üzrə komissiyanın yaradılması, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının təşkili, "Dövlət qulluğu haqqında" qanunun və xeyli sayda normativ hüquqi aktların qəbulu, icra strukturlarının islahatı və yenidən qurulması, kadrların attestasiyasının keçirilməsi üzrə təd-

birlər və s. bu işlərə aydınlıq gətirən misallardır. Biz bu istiqamətdə işlərimizi davam etdirərək, xarici ölkələrin təcrübədə sınaqdan çıxmış iş metodlarından və formalarından istifadə edəcəyik. İndi yalnız köhnə inzibati metodlarla idarə etmək mümkün deyildir. Həyat yeniləşir, inkişaf edir, idarəçiliyə yeni tələblər qoyur. Özünü dövlət idarəçiliyinə həsr etmək istəyən vətəndaşlar bu tələblərə uyğunlaşmalı, öz bilik və bacarıqlarını inkişaf etdirməlidirlər.

***- Hakimiyyətdaxili münasibətlər, guya ki, iqtidar komandasında hansısa ziddiyyətlərin olması müxalifət mətbuatının diqqətində olan mövzudur. İctimaiyyət üçün maraqlıdır: Heydər Əliyev komandasının üzvləri özlərini yeni prezidentin komandasında necə hiss edirlər?***

- Hakimiyyət komandasında ziddiyyətlər haqqında fikirlər radikal müxalifətə xidmət edən qəzetlərin və təəssüf ki, həm də özünü "müstəqil" adlandıran bir çox qəzetlərin "sevimli" mövzusudur. Hakimiyyətdə guya hansısa qruplaşmaların, maraq qruplarının mövcud olması haqqında "materiallar", "ekspert" rəyləri daim bu cür qəzetlərin səhifələrini doldurur. Əlbəttə, bu cür yazılardan məqsəd kimlərisə çaşdırmaq, kiminsə ürəyinə xal salmaq, cəmiyyətdə hakimiyyət komandasında monolitliyin olmaması, ziddiyyətlərin baş alıb getməsi haqqında təsəvvürlər formalaşdırmaqdır. Digər tərəfdən də, belə yazılar bu qəzetlərin oxucularının sayını artırmaq, onların maddi vəziyyətini yaxşılaşdırmaq məqsədini güdür. Əlbəttə, bu, o qədər də nəcib məşğuliyyət deyildir.

Sualınızın ikinci hissəsinə gəldikdə, deməliyəm ki, Prezident İlham Əliyev ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin komandası ilə işləyəcəyini

bildiribdir. Cənab İlham Əliyev kadr siyasətində sabitliyin, varisliyin tərəfdarı olduğunu dəfələrlə bəyan edib, bildirib ki, onun komandası elə Heydər Əliyevin komandasıdır.

Eyni zamanda, Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən nazirlərə, yüksək vəzifəli məmurlara münasibətdə son dərəcə tələbkar, ciddi olduğunu nümayiş etdirdi. O bildirdi ki, kim vəzifəsinin öhdəsindən layiqincə gələcəksə, etimadı doğruldacaqsa, onunla işləyəcəyik. Lakin kimsə qoyulan tələblərə cavab verməsə, tapşırılan işin öhdəsindən gələ bilməsə, onunla vidalaşacaqdır. Cənab Prezident Nazirlər Kabinetinin birinci iclasında, "Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanında əmək və maliyyə intizamının möhkəmləndirilməsini, vətəndaşların qanuni arzu və tələblərinə məmurlar tərəfindən diqqətli münasibət göstərilməsini tələb edibdir. Bu, bütün səviyyəli məmurlar üçün çox ciddi xəbərdarlıqdır. "Məmurlar dövlət üçün, xalq üçün, vətəndaşlar üçün işləməlidir" - cənab Prezidentin hər bir dövlət qulluqçusundan tələbi budur.

***- Son günlər ictimaiyyətin geniş təmsilçiləri ümummilli liderimiz Heydər Əliyevin adının əbədiləşdirilməsi üçün müxtəlif təşəbbüslər irəli sürürlər. Bütün təkliflərdə bu fikir özünü aparıcı xətt kimi büruzə verir: dövlət və xalq təhlükəsizliyi, inkişafı üçün öz rəhbərinə borcunu qaytarmalıdır və liderinin adını tarixə həkk etdirməlidir! Bu təşəbbüslər Prezidentin İcra Aparatı tərəfindən necə qiymətləndirilir?***

- Mərhum Prezident Heydər Əliyevin dəfni və matəm tədbirləri bu böyük şəxsiyyətə ümumxalq məhəbbətinin parlaq təzahürü, onun Azərbaycanda və bütün dünyada nə qədər yüksək nüfuza malik olduğunun əyani göstəricisi oldu. Ümummilli

liderimizin həyatdan getməsi milyonlarla insanın sonsuz kədərinə səbəb oldu, vətəndaşlar Əliyevsizliyin onlar üçün nə qədər ağır olduğunu hiss etdilər. İnsanlar dünya təcrübəsində çox az təsadüf olunan kütləviliklə, mütəşəkkilliklə, sevgi və istəklə öz daimi Prezidenti ilə vidalaşmağa gəldilər. Fəxri xiyaban dahi rəhbərlə vidalaşmağa gələn insanların hamısını qəbul edə bilmir. Azərbaycanın hər yerində, xarici ölkələrdə mərhum Prezidentimizin bütün təəssübkeşləri, onu sevən, hörmət edən insanlar onun xatirəsini yad edirlər. Dünya siyasətçiləri, tanınmış politoloqlar Heydər Əliyev fenomeninə qiymət verilməsi istiqamətində fikirlər söyləyir, araşdırmalar aparırlar. Heydər Əliyevin böyüklüyünü, dünya miqyaslı lider olduğunu onun siyasi rəqibləri də açıq etiraf edirlər. Düşünürəm ki, zaman keçdikcə, bizi bu böyük insandan ayıran vaxt intervalı artdıqca, onun Azərbaycan üçün, xalqımız üçün etdiyi xidmətlər, gördüyü tarixi işlər daha aydın dərk ediləcək, onun Qafqaz regionu, MDB məkanı üçün əhəmiyyəti layiqincə qiymətləndiriləcəkdir. Ümummilli liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcrübəsi, münaqişələri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri və sair Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcəkdir. Bu gün artıq cəsarətlə demək olar ki, **Heydər Əliyev irsi dünya siyasi elminin, politoloji fikrin qiymətli nailiyyətinə çevriləcəkdir. O da birmənalıdır ki, Heydər Əliyev xalqımızın bütün tarixi boyu yetirdiyi ən qüdrətli tarixi şəxsiyyətdir.**

Təbii, biz xalqımızın rəhbəri, onun mənəvi atası Heydər Əliyev qarşısında insanlıq və vətəndaşlıq borcumuzu qaytarmalıyıq. Bunun üçün, ilk növbədə, onun bizə qoyub getdiyi mirası inkişaf

etdirməliyik, Heydər Əliyevin müəyyənləşdirdiyi magistral yolla irəliləyərək, firavan, təhlükəsiz və qüdrətli Azərbaycan qurulması işini uğurla başa çatdırmalıyıq.

Hər bir Azərbaycan vətəndaşını, Azərbaycan ailəsini varlı, qayğısız və xoşbəxt görmək Heydər Əliyevin böyük arzusu idi. O, Azərbaycanın müstəqilliyinin dönməzliyinin, torpaqlarımızın bütövlüyünün, suverenliyinin təmin edilməsi arzusu ilə yaşayırdı. Bu işlərin görülüb başa çatdırılması bizim hər birimizin mərhum Prezident Heydər Əliyevin ruhu qarşısında ən əsas xidmətimiz olacaqdır. Əlbəttə, artıq biz ümummilli liderimizin adının əbədiləşdirilməsi qayğısına qalmalıyıq. Deyim ki, bu istiqamətdə təkliflər olduqca çoxdur. Onların müəllifləri sadə vətəndaşlar, yaşayış məntəqələrinin sakinləri, elm, təhsil, istehsalat kollektivləri, dövlət orqanlarının işçiləri, bir sözlə, ən müxtəlif zümrələrə mənsub insanlardır. Heydər Əliyevin adının əbədiləşdirilməsi onun şəxsiyyətinə layiq səviyyədə olmalıdır. Bu mühüm işdə özfəaliyyətə, tələsik qərarlara yol vermək olmaz. Xüsusi Dövlət Komissiyası tərəfindən müvafiq təkliflər ümumiləşdiriləcək və lazımi qərarlar qəbul ediləcəkdir.

*“Azərbaycan” qəzeti,*
*3 yanvar 2004-cü il.*

# PREZİDENT İLHAM ƏLİYEV BÜTÜN SAHƏLƏRDƏ MÜSBƏT NƏTİCƏLƏR ƏLDƏ OLUNMASI ÜÇÜN SİYASİ İRADƏ NÜMAYİŞ ETDİRİR

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Azərbaycan" qəzetinə verdiyi müsahibədə ilin ən mühüm hadisələri sırasında ilk növbədə yeni Seçki Məcəlləsi əsasında prezident seçkilərinin keçirilməsini qeyd edir. Ötən ilin yekunlarından danışarkən bildirir ki, bütün seçkiləri əhatə edən vahid seçki qanunvericiliyinin yaradılması, üstəlik, bu sənədin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi, seçki komissiyalarının təşkilində müxalifətə çox böyük güzəştlər edilməsi vacib məqamlar kimi dəyərləndirilməlidir. 2003-cü ildə prezident seçkilərinin Seçki Məcəlləsinə uyğun keçirilməsi üçün yüksək təşkilati və təbliğati işlər aparıldı, vətəndaşların öz iradələrini azad ifadə etməsi üçün bütün imkanlar yaradıldı, yəni hakimiyyət göstərdi ki, ədalətli, şəffaf, qəbul etdiyi qanunlara və Avropa standartlarına uyğun seçki keçirmək onun əsas məqsədidir.

Seçkidə iştirak edənlərin böyük əksəriyyətinin Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı İlham Əliyevə səs verməsi onunla əlaqədardır ki, xalq öz ölkəsinin inkişafı, müstəqilliyinin əbədi olması üçün hakimiyyətin varisliyi xəttini dəyişmək fikrində deyildir. Əksinə, Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik ənənələrinin yaşamasında və zənginləşməsində maraqlıdır.

Qələbəni şərtləndirən amillər sırasına digər məqamlar da daxildir. Azərbaycan vətəndaşları Heydər Əliyev siyasi xəttinin düzgün, alternativi olmayan siyasət kimi qəbul edir və yalnız bu xəttin təmsilçisinə səs verəcəyini əvvəlcədən qətiləşdirmiş, seçkiqabağı aylarda İlham Əliyev tərəfindən görülən quruculuq və düzgün aparılan təbliğat işi yüksək nəticələr vermişdir. Bu sıraya İlham Əliyevin 1993-cü ildən bəri Azərbaycan dövlətinin inkişafı və Avropa məkanına inteqrasiya istiqamətində mühüm xidmətlərini əlavə etməliyik. Cənab İlham Əliyev opponentlərindən fərqli olaraq, daim Heydər Əliyev siyasi xəttinə sadiq olduğunu, indiyədək aparılan quruculuq işlərinin davam edəcəyini, Azərbaycanın zəngin, qüdrətli dövlətə çevriləcəyini real aspektdə əsaslandırır, ənənəvi, şişirdilmiş seçkiqabağı vədlər vermir, ölkənin siyasi, iqtisadi, sosial həyatına aid proqramlarını açıqlayırdı. Digər tərəfdən, cənab İlham Əliyev müxalif partiyalardan irəli sürülmüş prezidentliyə namizədlərin yolu ilə getməyərək, rəqiblərinin şəxsiyyətinə toxunan bir kəlmə belə işlətmir, etikadan, mənəviyyatdan kənar ifadələrə yol vermir, xalqla canlı, səmimi ünsiyyət qurur, Heydər Əliyev kimi, gücünü yalnız bu böyük dayaqdan alacağını, bütün işlərində xalqa güvənəcəyini söyləyirdi. Onsuz da heç bir sosial dayağa malik olmayan müxalifətin prezident seçkisində ağır məğlubiyyətə düçar olmasının səbəbini Prezidentin İcra Aparatının rəhbəri belə izah edir: **"İlham Əliyevin rəqibləri öz təbliğatını əsasən hakimiyyətin siyasətini tənqid üzərində, müəyyən qədər də real olmayan vədlər üzərində qurdular. Həm də bu vədlər o qədər fantastik, tənqidə davamsız idi ki, hətta siyasətçi və mütəxəssis olmayanlar belə, onların canlı həyatla və siyasətlə əlaqəsi olmadığını görürdülər. Opponentlərin çıxışları, bir qayda olaraq, bütün sahələrdə əldə edilmiş uğurlardan imtinanı, iqti-**

**sadiyyatda, kadr məsələlərində kəskin dəyişikliyi, çox vaxt bir-birinə zidd olan tezisləri ehtiva edirdi. Nəticədə xalq haqlı olaraq, indiki radikal müxalifətin timsalında dağıdıcı, destruktiv qüvvələri, xaos, anarxiya daşıyıcılarını görürdü".**

Seçkidən dərhal sonra uduzduqlarını başa düşən, lakin bu iflasla barışmayaraq paytaxtda kütləvi iğtişaşlar, vandalizm hərəkətləri törədən müxalif partiyaların rəhbərləri özlərinin on-on beş ildən bəri dəyişməyən simalarını bir daha cəmiyyətə, dünyaya göstərdilər. Bu gün isə, əvvəlcədən proqnozlaşdırıldığı kimi, siyasi səhnədə qalıb-qalmamaq probleminin həlli ilə məşğuldurlar.

Ramiz Mehdiyev bu fikirdədir ki, seçilmiş Prezident bütün sahələrdə nəticələr əldə olunması üçün siyasi iradə nümayiş etdirir. Xalq şahidi olur ki, seçki ərəfəsində təbliğat naminə deyilən fikirlərin, irəli sürülən tezislərin heç biri söz olaraq qalmır. Azərbaycan Respublikasının seçilmiş Prezidenti ötən il noyabrın 24-də ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələ olacaq mühüm fərman imzaladı, müvafiq icra hakimiyyəti orqanlarına xalq, dövlət naminə işləmək və nəticələr əldə etmək üçün konkret tapşırıqlar verdi. **"Cənab İlham Əliyev yaxın beş il ərzində ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, icrası üçün mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir".** Cənab Prezident ölkə həyatının ən müxtəlif sahələrinə, əhalinin rifah halının yaxşılaşmasına, sosial müdafiə tədbirlərinin artırılmasına aid elan etdiyi proqramları yerinə yetirmək və formalaşmış, müstəqil dövlət quruculuğunda püxtələşmiş komanda ilə işləmək əzmindədir. Müxtəlif sahələrdə olduğu kimi, kadr siyasətində də sabitlik, varislik qorunub saxlanılır. Bununla belə, yeni, müasir tələblərə cavab verən, demokratik idarəçilik prinsiplərinə əsaslanan kadr

hazırlığı işi diqqət mərkəzindədir. Bu komanda həyatın inkişafından, dünyanın dəyişməsindən irəli gələn yeni tələblərə hazırdır, hətta bəzi hallarda bu tələbləri qabaqlaya bilir. Beləliklə, hakimiyyətin varisliyi siyasətinə sadiq olan Prezident öz komandasının Heydər Əliyev komandası olduğunu söyləyibdir. Eyni zamanda, Ramiz Mehdiyev yeridilən vahid siyasi xəttin tələblərinə cavab verməyən məmurların bu komandadan uzaqlaşdırılacağını da istisna etmir: **"Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən nazirlərə, yüksək vəzifəli məmurlara münasibətdə son dərəcə tələbkar, ciddi olduğunu nümayiş etdirdi. O bildirdi ki, kim vəzifəsinin öhdəsindən layiqincə gələcək, etimadı doğruldacaq, onunla işləyəcəyik. Lakin kimsə qoyulan tələblərə cavab verməsə, tapşırılan işin öhdəsindən gələ bilməsə, onunla vidalaşacaq. Cənab prezident Nazirlər Kabinetinin birinci iclasında "Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında əmək və maliyyə intizamının möhkəmləndirilməsini, vətəndaşların qanuni arzu və tələblərinə məmurlar tərəfindən diqqətli münasibət göstərilməsini tələb edib. Bu, bütün səviyyəli məmurlar üçün çox ciddi xəbərdarlıqdır. "Məmurlar dövlət üçün, xalq üçün, vətəndaşlar üçün işləməlidir", - cənab prezidentin hər bir dövlət qulluqçusundan tələbi budur".**

## Yeni Azərbaycan Partiyasının fəaliyyəti siyasi qurumlara nümunə olmalıdır

Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatına 1992-ci ildə - ölkə xaos, hərc-mərclik girdabında çapaladığı, beynəlxalq aləmdən təcrid olunduğu dövrdə qədəm qoydu. Ondan əvvəl yaranmış siyasi partiyaların bəzisi hakimiyyətdə

təmsil olunub, bəzisi isə təsis edildiyi vaxtdan müxalifətdədir. YAP-dan başqa, bu partiyaların hər biri qarşısına yalnız hakimiyyətə gəlməyi məqsəd qoyub, daha doğrusu, bu məqsədlə yaranıbdır. AXC-nin təcrübəsinə nəzər salsaq, 1989-93-cü illərdə onun çıxardığı qərarların qeyri-qanuni olduğunu, hakimiyyəti zorakılıqla qəsb etməyə doğru yönəldiyini, daha sonra isə dövlət, xalq əleyhinə işlədiyini görərik. AMİP-in, Müsavatın təcrübəsində də xalq, dövlət, vətən üçün xidmətlərlə bağlı qürrələnməli fakt yoxdur, qaragüruhçuluğunun miqyasına görə ADP-dən isə danışmağa dəyməz. Bu partiyaların heç biri ötən müddət ərzində sivil, konstruktiv müxalifətçilik qaydalarını mənimsəməyib, ayrı-ayrı hakimiyyət təmsilçiləri ilə müxalifətçiliyi xalqa, dövlətə qarşı müxalifətçiliklə dəyişik salıb. Onlar, heç olmasa, ölkənin daxili həyatına aid məlumatları beynəlxalq təşkilatlara çatdırmamaqda düşmən ölkənin müxalif qurumlarının təcrübəsindən bəhrələnmirlər. Məhz bu səbəbdən yeni, sivil müxalifətin formalaşması məsələsi indi daha aktual görünür. Ramiz Mehdiyev bildirir ki, "bu, ictimaiyyət üçün yeni olan hansısa "üçüncü qüvvənin" meydana çıxması demək deyildir. Yeni müxalifət ümumi "müxalifət" termini ilə ifadə olunan çoxsaylı partiya və qurumların daxilində formalaşa bilər. Lakin fikrimizcə, bu o qədər də asan və tez uğur gətirən proses olmayacaqdır. Əvvəla, ona görə ki, müxalif düşərgədə yeni, hansısa qurumu, həmçinin xalqı arxasınca apara biləcək sima yoxdur, həm də orada cəlbedici ideyalar, adamları inandıracaq alternativ fikirlər də yox dərəcəsindədir. Bu düşərgə hələ də imperiya dövrünün ideyaları ilə yaşayır”.

Professor Ramiz Mehdiyev yeni şəraitdə YAP-ın işini asanlaşdıran ən mühüm məqamı bu partiyanın xalq içərisində böyük inam kreditinə sahib olması ilə bağlayır. Ümummilli liderimiz,

müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin dünyasını vaxtsız dəyişməsi hakim partiya olan YAP-ın işini çətinləşdirən səbəblərdəndir: "Ümummilli liderimiz daim partiyaya bilavasitə rəhbərlik edərək, onun taktikası və strategiyasını, konkret dövr üçün proqramını, fəaliyyət metodlarını və istiqamətlərini müəyyən edirdi. Bu itkinin partiya üçün yerini doldurmaq çox çətindir, demək olar, qeyri-mümkündür. Bu baxımdan YAP cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi olmadan fəaliyyət göstərməyə məcburdur. Lakin Heydər Əliyevin ideyaları, bitkin elmi-nəzəri platforma olan əliyevçilik ideologiyası bir mayak kimi onun yolunu işıqlandıracaqdır. YAP cənab İlham Əliyevin simasında özünün yeni liderini, ona uğurla rəhbərlik edən başçısını görür. İlham Əliyevin rəhbərliyi YAP üçün, onun daxili cəhətdən güclənməsi və monolitliyinin möhkəmlənməsi üçün çox vacib faktordur".

Prezidentin İcra Aparatının rəhbərinin müsahibəsindən gəldiyimiz qənaət bundan ibarətdir: Azərbaycan xalqı, YAP Azərbaycan Prezidenti ətrafında sıx birləşərək, Heydər Əliyevin ideyalarını, başladığı, nəticələrini aydın gördüyü bir sıra layihələri yerinə yetirəcəkdir, Azərbaycanı dünyanın ən qüdrətli, ən nüfuzlu dövlətlərindən birinə çevirəcəkdir.

*"Azərbaycan" qəzeti,*
*13 yanvar 2004-cü il.*

# HEYDƏR ƏLİYEV XƏTTİ: İDEYA-SİYASİ VƏ MİLLİ-MƏNƏVİ AMİLLƏR

Heydər Əliyev bəşər tarixində özünəməxsus siyasi dəst-xətti, idarəçilik üslubu və yaradıcılıq əzmi olan böyük şəxsiyyətlərdən biri olmaqla yanaşı, konkret bir şəraitdə konkret bir dövlətin formalaşmasına bilavasitə rəhbərlik etmiş, onun həm ideya müəllifi, həm memarı, həm də qurucusu olmuşdur. Müasir Azərbaycan dövlətçiliyi müstəsna olaraq Heydər Əliyevin adı ilə bağlıdır.

Lakin Heydər Əliyev dühasının hüdudları ancaq Azərbaycanla məhdudlaşmır. O, bütövlükdə Şərq dünyasında dövlətçiliyin yeni tipologiyasının əsasını qoymuşdur. Qərb dünyasında, xüsusi mülkiyyətə əsaslanan cəmiyyətlərdə kapitalist iqtisadi münasibətlərinə adekvat olan siyasi-hüquqi formaların yaranması, hüquqi, demokratik dövlət quruculuğu qanunauyğun bir haldır. Lakin bir ənənəvi Şərq ölkəsində, üstəlik, sosializm dövründə dərin kök salmış, ictimai şüurda və mentalitetdə iz qoymuş kommunist ideologiyasından imtina edilməsi və yeni sosial-iqtisadi münasibətlərə keçilməsi şəraitində müasir tipli bir dövlət qurmaq çox çətindir və dövlət quruculuğu praktikasında yeni bir hadisədir. Bu, heç şübhəsiz, yeni konseptual baxış, yeni dövlətçilik ideologiyası, yeni fəaliyyət taktikası tələb edir.

Təsadüfi deyildir ki, Heydər Əliyev azərbaycançılıq və dövlətçiliyi milli ideologiyanın iki ən əsas tərəfləri kimi, müəyyən mənada bir medalın iki üzü kimi qiymətləndirirdi. Ona görə də Heydər Əliyev təkcə bilavasitə dildən, milli-mənəvi dəyərlərdən

bəhs edərkən yox, həm də bütövlükdə dövlətçilikdən, Azərbaycanda dövlət quruculuğundan bəhs edərkən azərbaycançılıq təlimini ön plana çəkirdi.

Prezident Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun ən üstün hissəsini vurğulamışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Bu baxımdan, dövlət siyasətinin strategiyası olan "azərbaycançılıq" Azərbaycan cəmiyyətinin bu günü və gələcəyinin müasir ideoloji qavrayışı ilə sıx çulğalaşır.

Mübaliğəsiz demək olar ki, son otuz ildə Azərbaycan dilinin hərtərəfli inkişafı, onun yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında gündəlik həyatda, praktikada dövlət dilinə, ümumişlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, get-gedə zənginləşərək nüfuz qazanması, dünyanın bir çox mötəbər kürsülərindən eşidilməsi Heydər Əliyevin dilimizin inkişafına, cəmiyyətimizdə layiqli yer tutmasına yorulmadan göstərmiş olduğu qayğı və diqqətin, son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin nəticəsidir. Bu mənada, tarix boyu böyuk-böyük şəxsiyyətlərin öz xalqları üçün, öz dilləri üçün gördükləri işi müasir mərhələdə Azərbaycan xalqı və Azərbaycan dövləti üçün daha mükəmməl şəkildə, daha yüksək səviyyədə Heydər Əliyev görmüşdür. O, respublikaya rəhbərlik etməyə başladığı 1960-cı illərin sonundan etibarən öz zəngin siyasi təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələdliyi sayəsində

milli dilin inkişaf etdirilməsinə və tətbiqinə dair ardıcıl, uzunmüddətli siyasət işləyib hazırlamış və bütün çətinliklərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.

Heydər Əliyev mərkəzdən asılı olan, qapalı sistemin daxilində yaşayan və üstəlik də, müsəlman-türk respublikasında milli dil siyasətini son dərəcə düşünülmüş və incə şəkildə həyata keçirmişdir. O, hər bir vətəndaşın, ilk növbədə isə, yaradıcı ziyalıların ən həssas yeri olan milli dil məsələsinə münasibətdə heç zaman ani qəhrəman imici yaradan, əslində isə, reallıqdan uzaq addımlar atmamış, problemə hər kəsin diqqətini cəlb etmək, onu təkcə rəhbərliyin deyil, bütöv bir millətin, zəngin tarixə malik bir xalqın və mədəniyyətinin problemi səviyyəsində gündəliyə çıxarmaq və həll etmək taktikasına üstünlük vermişdir.

Heydər Əliyev ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəminə çevrildiyi həmin illərdə Azərbaycan dilini məişət və ədəbiyyat səviyyəsindən dövlət dili səviyyəsinə qaldırmaq sahəsində ardıcıl fəaliyyət göstərməklə kifayətlənmirdi, həm də şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi əsaslarla öyrənilməsinə və geniş yayılmasına stimul yaradırdı.

Yəqin ki, çoxlarının yadındadır – məhz Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə 1970-ci illərin əvvəllərindən başlayaraq, Azərbaycan dili dövlət əhəmiyyətli tədbirlərin dilinə çevrilir, ana dilinə laqeydlikləri ilə az qala qürrələnən bir qrup nihilist rəhbər işçilər cəmiyyətdə, xalq arasında artıq özlərini əvvəlki kimi rahat hiss edə bilmirdilər. Heydər Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultayında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə, həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi.

Şübhəsiz, milli respublikalarda özünüdərk prosesinə qısqanclıqla yanaşıldığı və milli zəmində özünü göstərən yenilikçilik təşəbbüslərinin qarşısının sərtliklə alındığı bir şəraitdə bütün bunları gerçəkləşdirmək Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və dönməzlik tələb edirdi. Lakin onun qısa müddət ərzində Azərbaycanda yaratdığı milli-mədəni intibah heç də həmişə birmənalı şəkildə müsbət qarşılanmır, müəyyən dairələrin, xüsusən də bədnam qonşularımız ermənilərin əsassız siyasi ittihamları, böhtan və yalan kampaniyaları ilə müşayiət olunurdu.

Məhz Heydər Əliyevin ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində, ziyalıların və geniş ictimaiyyətin dövlət dili ilə bağlı müzakirələrdə birmənalı mövqe tutmağa vaxtında hazırlanması nəticəsində o, 1977-ci ildə qəbul olunan Azərbaycan sovet Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Həmin dövrdə Azərbaycan Əsas Qanun səviyyəsində milli dilə Dövlət dili statusu verən üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi.

Şübhəsiz, bu uzaqgörən tarixi addım Heydər Əliyevin siyasi qətiyyətinin və ana dilinə məhəbbətinin parlaq ifadəsi və təzahürü idi. O, özü həmin dövrü belə xatırlayırdı: “Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur. Buna ehtiyac yoxdur... Ancaq o vaxtlar mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamızda yazmalıyıq və yazacağıq”.

Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin 1970-ci illərdə yürütdüyü fəal dil siyasəti Azərbaycanda milli özünə-

qayıdış, milli özünüdərk proseslərini sürətləndirdi və nəticə etibarilə Azərbaycan xalqını sovet imperiyasının dağılmasına hazırladı, onun bu prosesdə fəal iştirakını təmin etdi.

Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başladığı dövrdən Heydər Əliyevin Azərbaycan dilinə qayğı və diqqəti yeni tarixi şəraitin ruhuna və tələbinə uyğun olaraq, daha mükəmməl siyasi və insani çalarlarla səciyyələndi. Əvvəla, ana dilimizin artıq qeyd-şərtsiz və şəriksiz olaraq respublikamızın Dövlət dilinə çevrildiyi son illərdə onun bu dili nə qədər dərindən, bütün incəliklərinə qədər bildiyi və öz çıxışlarında, əhali ilə görüşlərində dilimizin imkanlarından necə məharətlə istifadə etdiyi göz qabağında idi, hamı tərəfindən qəbul və təqdir olunurdu. Digər tərəfdən, Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili, sözün həqiqi mənasında, dövlətlərarası münasibələrin dilinə, siyasi dialoqların və diplomatik danışıqların dilinə çevrilib, dünyanın onlarca ölkəsində səslənib, onun öz doğma dilinə məhəbbətini hər yerdə təcəssüm etdiribdir. Nəhayət, Heydər Əliyev son illərin bütün gərginliklərinə, həyəcanlarına, sıxıntılarına baxmayaraq, ana dilinin problemlərinə diqqət və qayğısını bir an da olsun azaltmadı. Qısamüddətli AXC hakimiyyəti dövründə ana dilimizin adı ilə bağlı qəbul edilmiş tələsik, düşünülməmiş, əsassız və populist qərar məhz Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə aradan qaldırıldı, tarixən vətəndaşlıq hüququ qazanmış və dünya miqyasında geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Onun çox haqlı olaraq dediyi kimi, bu qərarın qəbul edilməsi "həm keçmişimizə böyük hörmətdir, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik".

Müasir mərhələdə dil amilindən siyasi mübarizədə və idarəetmə praktikasında Heydər Əliyev qədər məharətlə istifadə etməyi bacaran ikinci bir dövlət başçısı, siyasi lider göstərmək çətindir. Bu da hər şeydən əvvəl, onun ana dilini bütün varlığı ilə sevməsindən, onun incəliklərinə bələd olmasından irəli gəlir. O deyirdi: "Mən hər bir dilə öz hörmət ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır".

Dünyada müstəqil Azərbaycan dövləti vardır. Azərbaycan xalqı vardır. Onun öz mükəmməl dili, zəngin milli mədəniyyəti, özünəməxsus adət-ənənələri vardır. Bunları qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ərməğan etmək müqəddəs bir vəzifədir. Bu gün bu vəzifənin həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Məhz Heydər Əliyevin sayəsində Azərbaycanda dövlətçilik özünün təkcə siyasi-hüquqi hadisə kimi deyil, həm də konkret milli-mənəvi gerçəkliyin təsbit olunması kimi göstərdi. Bu gerçəkliyin milli ideologiya səviyyəsində təzahürü isə azərbaycançılıq təlimidir.

*"Fəlsəfə və sosial-siyasi elmlər" jurnalı,*
*№1, 2004-cü il.*

## KANT FƏLSƏFƏSİ VƏ MÜASİRLİK

Jurnalımızın bu nömrəsi böyük alman filosofu İmmanuel Kantın (1724-1804) anadan olmasının 280, vəfatının 200 illiyinə həsr olunur. 2004-cü il dünyanın bir çox ölkələrində **Kant ili** kimi qeyd edilir. Azərbaycanda da bu il Kantla bağlı bir sıra elmi tədbirlər keçirilmiş, martın 3-də AFSEA-nın toplantısı Kanta həsr olunmuşdur. Müasir dövrdə Kant yaradıcılığına bir daha nəzər salmağa və çağdaş problemlərə Kant ideyalarının işığında baxmağa böyük ehtiyac vardır.

Dünya fəlsəfi fikir tarixində iz qoymuş filosoflar çoxdur. Lakin öz fəlsəfi konsepsiyasını yaratmaqdan başqa, bütün əvvəlki fəlsəfi bilikləri sistem halına salmaq və özündən sonra fəlsəfənin inkişafına təsir etmək baxımından antik dövrdə Aristotelin oynadığı rolu yeni dövrdə Kant oynamışdır. O, fəlsəfi fikir tarixinə *klassik alman fəlsəfəsi* kimi daxil olmuş möhtəşəm bir elmi-fəlsəfi məktəbin təməlini qoymuş, Fixte, Şellinq, Hegel, Feyerbax kimi görkəmli filosofların yetişməsində böyük rol oynamışdır. Kantın vəfatından çox-çox sonralar da *kantçılıq, yeni kantçılıq* təlimləri geniş yayılmış və müasir fəlsəfi fikrin inkişafına önəmli təsir göstərmişdir. Hətta Kant təlimini qəbul etməyənlər, Kanta qarşı çıxanlar da, istər-istəməz, Kant ideyalarından bəhrələnmiş və ona öz münasibətlərini bildirmişlər. Çünki Kant fəlsəfənin elə bir məhək daşıdır ki, filosof olmaq istəyənlər bu və ya digər məsələ ilə bağlı ona münasibətini, heç olmazsa, özləri üçün aydınlaşdırmalıdırlar.

Fəlsəfənin elə bir sahəsi yoxdur ki, orada Kant öz sözünü deməmiş olsun. İstər qnoseoloji, istər ontoloji, istərsə də aksioloji aspektlərdə Kantın öz baxışlar sistemi vardır. Onun şah əsəri sayılan "Xalis zəkanın tənqidi", əsasən, idrak nəzəriyyəsinə həsr olunmuşdur. Bu əsər sanbalına və hətta problematikasına görə ancaq Aristotelin "Metafizika"sı ilə müqayisə oluna bilər. Lakin o, fəlsəfə tarixində müxtəlif aspektlərdən qiymətləndirilmişdir. Bu əsərdə tutduğu mövqeyə görə idealistlər Kantı materializmdə, materialistlər idealizmdə suçlamış, marksistlər isə onu daha çox aqnostik kimi səciyyələndirməyə çalışmışlar. Onun təliminin originallığı da elə bundadır ki, o, özünəqədərki cərəyanlardan heç birinin təsiri altına düşməmiş, sintetik bir təlim yaratmışdır.

"Xalis zəkanın tənqidi" əsərində göstərilir ki, bütün biliklər təcrübədən başlansa da, təcrübə ilə məhdudlaşmır. Onların bir qismi idrak qabiliyyətinin özündən törəyir ki, bunları da Kant aprior bilik adlandırır. Təcrübədən alınan bilikləri isə Kant aposterior bilik adlandırır. Kantı *aqnostik* adlandıranlar buna istinad edirlər ki, o, *aposterior* biliklərin maddi gerçəkliyə adekvatlığını qəbul etmir. Bu məsələnin şərhi zamanı Kant "özündə şey" haqqında təlimin əsasını qoyur. Digər tərəfdən, biliklərin müxtəlif formaları ilə mühakimələrin müxtəlif formaları arasında əlaqə yaradır. Kant analitik və sintetik mühakimələri fərqləndirməklə, idraki proseslərə diferensial münasibətin klassik nümunəsini yaradır. Kanta görə yalnız empirik mühakimələr sintetik səciyyə daşımır. Buraya həmçinin aprior (təcrübədən kənar) sintetik mühakimələr aiddir. Məsələn, bütün riyazi mühakimələr aprior olmaqla yanaşı, həm də sintetikdir. Bu kontekstdə Kant xalis, yəni təcrübədən kənar biliklərin

təsnifatını verir və kitab da buna uyğun olaraq üç hissəyə bölünür: transsendental estetika, analitika və dialektika.

Kantın idrak nəzəriyyəsinə daxil etdiyi yeni kateqoriyalar bütün sonrakı qnoseologiyanın mərkəzində dayanmış, müasir epistemologiyanın formalaşmasına xidmət etmişdir. Lakin Kantın tədqiqatları idrak prosesinin öyrənilməsi ilə bitmir. O, insanın praktik həyatını, əməli fəaliyyət sferasını da zəka zirvəsindən təhlil edir və özünün məşhur "Praktik zəkanın tənqidi" əsərində etika problemlərini ön plana çəkir. Məşhur Kant antinomiyalarının əxlaq sferasına tətbiqi insan mənəvi aləminin dialektik mənzərəsini yaradır. Kantın estetik təlimi də bu gün öz müasirliyini itirməmişdir. Gözəlliyi məqsədəuyğunluq forması kimi qiymətləndirən Kant estetik meyarları əməli və əxlaqi sferalara tətbiq edir.

Kant ideyaları heç də təkcə kantçılıq və yeni kantçılıq təlimlərində davam etdirilmir. XX əsrin bir çox böyük fəlsəfi cərəyanları - fenomenologiya, analitik fəlsəfə, germenevtika, hətta freydizm də Kant fəlsəfəsinin güclü təsiri altında formalaşmışdır. Maraqlıdır ki, Kant təlimi hətta bir sıra teoloji cərəyanlar üçün də elmi baza kimi götürülür, Kant etikası yeni dini istiqamət – "əxlaqi din" kimi qəbul olunur. Kantın məşhur "inam üçün yer təmizləmək naminə biliyi məhdudlaşdırmaq lazım gəldi" fikri teologiyanın xeyrinə mühakimə kimi qiymətləndirilir. Halbuki, Kant "dini ancaq zəka çərçivəsində" qəbul edirdi.

Bu qədər müxtəlif, hətta bir-birinə zidd olan fəlsəfi cərəyanların Kant təlimindən bəhrələnməsi, ilk növbədə, bu təlimin mürəkkəb və çoxpilləli strukturu ilə, əksilikləri özündə ehtiva etməsi ilə əlaqədardır. Özündən sonrakı fəlsəfəyə və filosoflara böyük təsirinin nəticəsidir ki, müasir dövrdə böyük

nüfuz qazanmış bir çox canlı klassiklərin adı başqaları ilə yox, məhz Kantla yanaşı, onun davamçısı kimi çəkilir. "Kant və Haydegger", "Kant və Qusserl", "Kant və Qadamer", "Kant və Kassirer" və sair. Əlamətdar haldır ki, bizim jurnalın təqdim etdiyimiz nömrəsində də belə bir paralel aparılır: "Kant və Sührəvərdi". Ancaq burada Kant öz xələfləri ilə deyil, sələfi ilə - ondan altı əsr əvvəl yaşamış böyük Azərbaycan filosofu ilə müqayisə olunur. Lakin Azərbaycanda Kant ideyalarını müəyyən məqamlarda qabaqlamış şəxslərlə yanaşı, bu gün həmin ideyaları qəbul edən, bölüşən və onun davamçısı, tədqiqatçısı olan şəxslər də az deyildir. Həm də Kanta olan maraq günü-gündən artır.

Kant fəlsəfi təliminin aspektləri çoxdur. Lakin bu gün ən çox diqqəti çəkən və Kantı bizim böyük müasirimiz edən təlimlərdən biri onun ümumdünya vətəndaş cəmiyyəti haqqında, insan azadlığı haqqında, mədəniyyətin və mənəvi kamilliyin dövlətçilikdə rolu haqqında yazdıqlarıdır. Kantın "Ümumdünya vətəndaş planı"nda ümumi tarix ideyası" adlı əsəri çağdaş dövlət quruculuğu prosesində, dünyada gedən qloballaşma prosesinin mahiyyətinin dərk olunmasında böyük rol oynayır. Kant azadlıq ideyasının ictimai münasibətlərdə bərqərar olmasını, ilk növbədə, düşüncə azadlığı ilə əlaqələndirir. Fikrimizcə, öz misilsiz fəlsəfi yaradıcılığı ilə Kantın özü azad düşüncənin nəyə qadir olduğunu gözəl nümayiş etdirmişdir.

Bu gün Azərbaycanda Kant fəlsəfəsinə münasibəti iki aspektdə nəzərdən keçirmək olar. Birincisi, bütün dünya ölkələri kimi, ölkəmizin fəlsəfə mütəxəssisləri də Kant ideyalarının tədqiq olunması və inkişaf etdirilməsi sahəsində öz xidmətlərini əsirgəmirlər. Bizcə, bu tədqiqatlar daha çox dərəcədə müasir ictimai gerçəkliklə əlaqəli şəkildə aparılmalıdır. İkincisi, Kant

fəlsəfəsinin əsaslarının öyrədilməsi, dərsliklərdə və dərs vəsaitlərində bu sahənin daha aydın və geniş şərh olunması vacibdir. Bunları biz jurnalımızda çap olunan məqalələrdə də nəzərə almağa çalışmışıq.

Jurnalın bu nömrəsində azərbaycanlı mütəxəssislərlə yanaşı, alman alimi, Almaniyanın ölkəmizdəki səfiri professor Klaus Qrevlixin də məqaləsinin çap olunması xüsusi diqqətə layiqdir. Kant ideyaları bəşəriyyəti vahid məqsəd ətrafında birləşməyə çağırdığı kimi, onun xatirəsinin Azərbaycanda yad edilməsi də ölkəmizin Avropa dəyərləri sisteminə qatılması istiqamətində atılan addımlardan biri olmaqla, məhz bu məqsədə xidmət edir.

*"Fəlsəfə və sosial-siyasi elmlər" jurnalı,*
*№ 2-3, 2004-cü il.*

## İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ DƏYİŞDİRİLMƏSİ ÖLKƏDƏ GEDƏN YENİLƏŞMƏ PROSESİ İLƏ BAĞLIDIR

*(Jurnalistlərə müsahibə)*

***-Ramiz müəllim, son əfv fərmanlarında Prezident İlham Əliyevin bir neçə məhbusu şəxsi təşəbbüsü ilə əfv etməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Çünki indiyə qədər Azərbaycan rəhbərliyi onların azadlığa buraxılmasını mümkünsüz sayırdı. Prezidentin belə bir təşəbbüslə çıxış etməsi nə ilə bağlı olub?***

-Bu, düşünülmüş qaydada, Prezidentin öz təşəbbüsü ilə atılmış addımdır. O hesab edib ki, bu insanlar müəyyən qədər öz cəzalarını çəkib və bu müddətdə özlərini çox yaxşı aparıblar. Ona görə də onların azad edilməsinə qərar veribdir.

***-Ancaq belə bir rəy var ki, bu şəxslərin, xüsusilə Surət Hüseynovun azadlıqda olması yenidən sabitliyin pozulmasına gətirib çıxara bilər...***

-Biz əfv olunan insanların yenidən sabitliyi pozmağa cəhd göstərəcəyini düşünmürük. Yəqin ki, uzun illər ərzində cəza çəkdikləri vaxt onlar çox götür-qoy ediblər. Biz belə hesab edirik ki, bu şəxslər özlərini Azərbaycan vətəndaşı kimi aparacaq və sabitliyə əngəl törətməyəcəklər. Hər halda, onların özləri hadisələrdən ciddi nəticə çıxardıqlarını bəyan ediblər. Bu amilləri nəzərə alaraq, Prezident öz təşəbbüsü ilə Surət Hüseynovu azad etdi.

***-Növbəti əfv fərmanlarına Əlikram Hümbətovla Rəhim Qazıyevin adları da daxil edilə bilərmi?***

-İndi bu məsələ ilə bağlı konkret fikir söyləmək çox tezdir. Bu, Prezidentin öz müstəsna səlahiyyətidir – nə vaxt lazım bilsə, bu məsələlərə baxa bilər. Lakin bu gün Əlikram Hümbətovla Rəhim Qazıyevin əfvi gündəlikdə dayanmır.

***-Cəmiyyətdə qarşıdurmanın baş verməməsi üçün oktyabr hadisələrinə görə həbs olunanlar əfv edilə və ya onların cəzaları yüngülləşdirilə bilərmi?***

-Mən hesab etmirəm ki, cəmiyyətdə hər hansı qarşıdurma var. Xalq İlham Əliyevin siyasətini dəstəkləyir və onu prezident seçibdir.

Bəzi mətbuat orqanları yazır ki, guya müxalifətdə kimsə 30 faizdən artıq səs toplayıbdır. Bunların hamısı cəfəngiyyatdır. Mən məsuliyyətlə deyirəm, belə hal olmayıbdır. Düzdür, bəzi hallar var ki, kimsə hansısa məntəqədə 30 faiz səs toplayıbdır. Amma ümumiyyətlə götürəndə, İlham Əliyev 76 faizdən artıq səs toplayıbdır. İsa Qəmbər isə 13 faizdən bir az artıq səs alıbdır. Ancaq kiminsə bu rəqəmləri şişirdib qanun pozuntusunun baş verdiyini, seçkilərin nəticələrinin saxtalaşdırıldığını iddia etməsi cəfəngiyyatdır və kiminsə öz şəxsiyyətini böyütmək üçün dediyi sözlərdir. Hesab edirəm ki, iqtidarla cəmiyyət arasında qarşıdurma yoxdur. Ayrı-ayrı müxalifət nümayəndələri beynəlxalq təşkilatlara yalan məlumatlar verməklə belə görüntü yaratmağa çalışırlar. Biz beynəlxalq təşkilatların qarşısında bu faktları söyləyəndə təəccüblənir və deyirlər ki, müxalifətiniz yalan məlumatlar verməklə bizi çaşdırır.

***-Növbəti əfv fərmanının verilməsi nə vaxt gözlənilir?***

-Son fərman hələ yeni verilibdir. Vaxtaşırı bu fərmanlar olur. Qısa müddətdə İlham Əliyev iki əfv fərmanı veribdir. Güman ki, may ayında da yeni əfv fərmanı veriləcəkdir. Ancaq bu, bizə edilən müraciətlərin sayından asılı olacaqdır. Əgər kifayət qədər müraciət olsa, Prezidentə müraciət ediləcəkdir.

***-Prezident seçkilərindən sonra bəzi beynəlxalq təşkilatlar seçkilərdə qanunsuzluqlara yol verildiyini bəyan etdilər. Gürcüstanda isə qarşıdurma olduğu halda, prezident seçkilərinin demokratik keçdiyi vurğulandı. Belə çıxmırmı ki, Qərb Azərbaycana demokratiya yox, inqilab gətirmək istəyir?***

-Bu, çox porodoksal haldır. Bu məsələyə ikili standartla yanaşmaqda başqa məqsədlər də var. Azərbaycanla Gürcüstan dost ölkələrdir. Lakin beynəlxalq təşkilatlarla görüşəndə deyirik ki, Azərbaycanda İlham Əliyevin 76 faizdən çox səslə prezident seçilməsini saxtalaşdırmanın nəticəsi, Gürcüstanda Mixail Saakaşvilinin 96 faizlə prezident seçilməsini isə demokratiyanın ən yüksək zirvəsi hesab etməyinizi necə başa düşək? Onlar yaxşı bilirlər ki, Azərbaycanda hər şeyi gözəl anlayırlar. Oktyabrda kimlərin müxalifət nümayəndələrinə tövsiyə verdiyi, qızışdırıcılıq etdiyi bizə bəllidir. Dövlət ölkədə gedən bütün proseslərə nəzarət edir. Bütün mənfi halların qarşısı vaxtında alınıb və alınacaqdır.

***-Ötən həftə beş rayonun icra hakimiyyəti başçısı yeniləri ilə əvəz olunub. Bu dəyişikliklər nə ilə bağlı idi?***

-Səbəblər müxtəlifdir. Ancaq əsas səbəb ölkədə gedən yeniləşmə prosesi ilə bağlıdır. Yeniləşmə bundan sonra da davam edəcəkdir. Çünki bəzi icra hakimiyyəti başçılarının rayon rəhbəri kimi potensialı tükənibdir. Ona görə də yeni insanlar vəzifəyə çəkilir. Güman edirik ki, bu insanlar qarşılarına qoyulan vəzifələrin öhdəsindən gələcəklər. Prezident onlara sınaq müddəti kimi bir il vaxt verərək tapşırıb ki, fəaliyyətlərini bu günün tələblərinə uyğun qursunlar. Əgər onlar işlərini düzgün qura bilsələr, bir ildən sonra da öz vəzifələrində qalacaqlar, yox, əgər rayonlardakı sosial-iqtisadi problemləri həll edə bilməsələr, vəzifələri ilə vidalaşacaqlar. Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı haqqında imzaladığı Fərmanın icrası ilə

əlaqədar bütün rayon başçılarına konkret planların təsdiq olunması haqqında göstəriş verilibdir. 2008-ci ilə qədər bu proqram həyata keçirilməli və 600 minə qədər yeni iş yerləri açılmalıdır.

***-Ramiz müəllim, son günlərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun da vəzifəsindən azad ediləcəyi ilə bağlı məlumatlar yayılıbdır. Bu, nə dərəcədə həqiqətə uyğundur?***

-Prezident Aparatında belə bir niyyət yoxdur. O işləyir, verilən tövsiyələri yerinə yetirir. Bildiyiniz kimi, Prezidentin tapşırığı ilə Bakının baş planı üzərində iş aparılır. Bu yaxınlarda Prezident bu planla tanış olacaq və həmin sənədə əsasən, Azərbaycanın paytaxtında planlaşdırılmış yeni quruculuq işləri aparılacaqdır.

***-Son vaxtlar Bakıda aparılan tikinti işləri ilə bağlı mətbuatda tənqidi məqalələr dərc olunur. Məqalələrdə göstərilən faktlar araşdırılırmı?***

-Düzdür, tənqidi məqalələr olur. Aydındır ki, iş olan yerdə tənqid də olacaqdır. Son on ili müqayisə edəndə görürük ki, çox böyük yeniləşmə işləri aparılıbdır. Tənqid edənlərin fikri də odur ki, Azərbaycanın paytaxtı bundan da gözəl olsun. Biz də bunu istəyirik.

***-ABŞ-da prezident seçkiləri prosesi gedir. Azərbaycan bu seçkilərdə hansı namizədi dəstəkləyir?***

-Azərbaycan xalqının da, rəhbərliyinin də ABŞ-dakı prezident seçkiləri ilə bağlı öz istəyi var. Ancaq bu, ABŞ-ın öz daxili məsələsidir. ABŞ vətəndaşları kimi özünə prezident seçsə, biz də onunla əməkdaşlıq edəcəyik.

*“525-ci qəzet”,*
*30 mart 2004-cü il.*

## "AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" REDAKSİYA HEYƏTİNİN BİRİNCİ İCLASINDA ÇIXIŞ

- Möhtərəm cənab Prezident!

Hörmətli Redaksiya heyətinin üzvləri!

Bu gün keçirilən bu mötəbər iclas böyük və şərəfli yolda atılan ilk addımlardan biridir. Cənab Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Milli Ensiklopediyası"nın nəşri haqqında imzalanmış Sərəncam, Redaksiya heyətini və Əsasnaməni təsdiqləyən Fərman bizim qarşımızda olduqca mürəkkəb vəzifələr qoyur. Çox qısa bir müddətdə biz Azərbaycan xalqına onun milli ensiklopediyasını hazırlayıb çatdırmalıyıq. Bu ensiklopediya, bir tərəfdən, ümumi ensiklopedik terminləri və tarixi keçmişimizi, digər tərəfdən isə, müstəqillik dövründə Azərbaycan dövlətçiliyinin qazandığı uğurları əks etdirməlidir.

Bu gün Redaksiya heyətinin üzvlərinə təqdim olunmuş bu kitabçalar həqiqətən də qəzəb doğurur. Cənab Prezident İlham Əliyevin bu gün tutduğu iradlar hamımız üçün istiqamətverici bir fikir olmalıdır ki, biz bütün bu məsələlərin həllinə, milli ensiklopediyanın tərtibi, nəşri və xalqımıza çatdırılmasına çox ciddi və məsuliyyətlə yanaşmalıyıq. Yəni bu gün təqdim olunmuş "Xüsusi cild" və "Sözlük" əsas götürülə bilməz.

Biz bunların üzərində yenidən işləməliyik. Əgər buna ehtiyac varsa, yeni müəllifləri cəlb etməliyik və sağlam düşüncəli, vətənpərvər, öz xalqını, dövlətini sevən, ümumiyyətlə, milli,

sağlam siyasi təfəkkürü olan, konyunkturadan uzaq şəxsləri, alimləri bu işlərə dəvət etməliyik.

Biz tariximizə düzgün qiymət verməliyik. Ayrı-ayrı adamların təsiri altına düşüb tariximizi korlamaq, tariximiz haqqında yalan məlumatları xalqımıza çatdırmaq o deməkdir ki, biz xalqımızı düzgün yoldan çəkindiririk, gələcək nəsilləri, gənclərimizi düzgün yoldan çəkindiririk. Ona görə milli ensiklopediyanın hazırlanması hamımızdan dövlətçilik təfəkkürü, sağlam siyasi təfəkkür tələb edir. Ona görə bu gün cənab Prezidentin hamımıza tutduğu irad əsaslıdır və biz bundan çox ciddi nəticə çıxarmalıyıq.

Bununla yanaşı, bizim qarşımızda "Azərbaycan Milli Ensiklopediyası"nın hazırlanıb nəşr edilməsi kimi böyük vəzifələr durur. İstərdim bəzi təkliflərimi səsləndirəm. Ehtiyac olsa, biz bunu müzakirə edə bilərik.

Birincisi, "Sözlüyün" son variantı iyun ayının 1-dək mövcud ensiklopediyaların söz ehtiyatı əsasında zənginləşdirilib tamamlandıqdan sonra geniş müzakirəyə çıxarılsın. "Sözlük" 2-3 min nüsxə çap olunsun və onun elektron variantı ensiklopediyanın yaratdığı saytda yerləşdirilməlidir. Avqustun 1-dək "Sözlük"lə bağlı verilən təkliflər ümumiləşdirilsin və müvafiq qaydada təsdiq olunsun.

İkincisi, bu gün sizə təqdim edilən ensiklopediyanın müəllifləri və elmi redaktorları üçün metodik göstərişlər layihəsi, xüsusən onun konsepsiyasına aid təkliflər mayın 1-dək yenidən işlənilib Redaksiya heyətinə təqdim edilsin.

Üçüncüsü, hər bir cildə məsul olan Redaksiya heyətinin üzvü müəyyənləşdirilməli və müvafiq qrafiklə cildlərin hazırlanması təmin edilməlidir. Bu qrafik onu nəzərə almalıdır ki, 2005-ci ildən başlayaraq, hər iki aydan bir 1 cild istehsalata təhvil verilməlidir.

Dördüncüsü, xahiş edilir ki, burada təmsil olunan yaradıcılıq qurumları, incəsənət xadimləri ensiklopediyanın dizaynı ilə bağlı öz konkret təkliflərini iyunun 1-dək təqdim etsinlər.

Beşincisi, Milli Elmlər Akademiyasının müvafiq institutları iki ay ərzində ensiklopediyanın elektron variantı ilə bağlı konkret təkliflərini versinlər.

Altıncısı, ensiklopediyanın Redaksiya heyətinə daxil olan Milli Arxiv İdarəsinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Dövlət Statistika Komitəsinin rəhbərlərinin üzərlərinə "Xüsusi cild"in hazırlanması ilə bağlı və ümumən, ensiklopediyanın lazımi məlumat, arxiv sənədləri və xəritələrlə təmin olunması ilə bağlı çox mühüm vəzifələr düşür. Ümidvaram ki, bu qurumların rəhbərləri digər dövlət idarələrinin məsul işçiləri ilə yanaşı, bu məsələlərin həllində fəal iştirak edəcəklər.

Möhtərəm cənab Prezident!

Bizim qarşımızda "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi ilə bağlı bir neçə konkret problem durur. İlk növbədə, bu, onun adı ilə bağlıdır. Yəqin bugünkü funksiyalarını nəzərə alaraq, müəyyən məsləhətləşmələrdən sonra o "Azərbaycan Milli Ensiklopediyası"nın Elmi Mərkəzi adlandırıla bilər.

Bu gün Birlik təsərrüfat hesabı ilə maliyyələşir. Əslində, bu qurumun məqsəd və vəzifələrini nəzərə aldıqda, aydındır ki, onun maliyyələşməsi dövlət büdcəsindən təmin edilməlidir. Ensiklopediyanın İçərişəhərdə yerləşdiyi binasının əsaslı surətdə təmirinə ehtiyac var. Xüsusi bir problem ensiklopediyanın müasir kompyuter avadanlığı ilə təchiz olunması ilə bağlıdır. İcazənizlə, biz bu məsələlərlə bağlı konkret təklifləri müvafiq sərəncam layihəsi ilə Sizə təqdim edərik. Nəhayət, milli

ensiklopediyanın, ümumən, Prezidentin Sərəncamı əsasında latın qrafikasında hazırlanan əsərlərin çapı üçün müasir poliqrafik bazaya ehtiyac vardır. Onun yaradılması ilə bağlı təkliflər hazırlanır və bu məsələlərin həlli ilə əlaqədar yəqin ki, xüsusi bir qərar lazım olacaqdır.

Diqqətinizə görə sağ olun.

*“Azərbaycan” qəzeti,*
*9 aprel 2004-cü il.*

## HEYDƏR ƏLİYEVİN SİYASİ PORTRETİNİN CİZGİLƏRİ

Heydər Əliyevin siyasi və mənəvi irsinə hər dəfə müraciət edəndə, bu irsdə Azərbaycan xalqının mənəvi-əxlaqi həyatının necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan. Bu məqalədə həmin çoxsaylı problemlərdən yalnız biri – Azərbaycan dili ilə bağlı problem üzərində dayanmaq istərdik. Hamıya məlumdur ki, xalqın ümummilli mənəvi birliyinin Heydər Əliyev tərəfindən yaradılmış konsepsiyasında Azərbaycan dili çox mühüm yer tutur. Heydər Əliyev özü bu dilin parlaq bilicilərindən olmuşdur. Onun nitqləri, çıxışları, müsahibələri yeni siyasi üslubu formalaşdırmış və Azərbaycan dilini o qədər əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, tədqiqatçıların hələ neçə-neçə nəsli natiqlik sənətinin bu nümunələrinə müraciət edəcəkdir.

Ümumfəlsəfi problem olaraq, dil fenomenini bir çox dahi mütəfəkkirlər açmağa çalışmışlar. Dünyada dilin ən müxtəlif tərifləri mövcuddur. Fəlsəfə əsərlərində ona çoxlu müxtəlif təriflər verilir. Onların hamısı belə bir faktı bu və ya digər dərəcədə əks etdirir ki, dilin funksiyaları olduqca çoxdur. Bu gün biz süni, formalizə edilmiş dillər, metadillər barədə nə qədər mühakimələr yürütsək də, bir məsələ şəksizdir: insanın bütün mənəvi həyatı, hər halda, öz əksini sözdə tapır. İnsan ruhunun dildən kənarda hər hansı təzahürləri, - musiqi, rəssamlıq, heykəltəraşlıq, - dildə özünüifadənin zəruriliyi ilə bu və ya digər şəkildə qarşı-

laşır. Filosoflar, sosioloqlar, psixoloqlar hələ uzun illər diskussiyalar aparacaq və mübahisə edəcək, yeni nəzəriyyələr yaradacaq və artıq təşəkkül tapmış konsepsiyalardan imtina edərək, dilin bütün bəşəriyyət üçün və ayrılıqda hər bir xalq üçün nə demək olduğunu anlamağa çalışacaqlar. Lakin bu, indi bəhs etdiyimiz məsələnin mövzusu olmasa da, bir fikri – xalqın milli ruhu ilə onun doğma dili arasında qırılmaz əlaqə olmasını məhz bu kontekstdə nəzərə çarpdırmaq və qabartmaq istərdik. **"Xalqın dili onun ruhudur, xalqın ruhu isə onun dilidir"** kəlamı kimi hikmətli ifadələr dilin mövcudluğunun və inkişafının sirlərinə nüfuz etmək üçün göstərilən məhz bu cür cəhdlər nəticəsində yaranmışdır. Mənəviyyatla dilin əlaqəsi barədə sadə bir həqiqət bu aforizmdə son dərəcə dəqiq ifadə edilmişdir.

Heydər Əliyev epoxası bütünlüklə yüksəliş epoxasıdır. İqtisadiyyatdan tutmuş, mədəniyyətədək müxtəlif sahələrdə yüksəliş epoxasıdır. Əlbəttə ki, dil mənəviyyatın məhz bu yüksəlişini özündə əks etdirməyə bilməzdi. Həm də unudulmamalıdır ki, Azərbaycan dili inkişaf üçün kifayət qədər əlverişsiz şəraitdə olduğu bir vaxtda bu problemə ilk dəfə Heydər Əliyev müraciət etmişdir. Hamıya məlumdur ki, dil ona qarşı zorakılığa dözmür, bu və ya digər dilin işlədilmə sahəsini məhdudlaşdırmaq istəyindən irəli gələn hər hansı siyasi kataklizmlərə son dərəcə həssaslıqla reaksiya verir.

Azərbaycan xalqı bir çox geosiyasi səbəblərə görə mürəkkəb tarixi proseslərin qovuşuğunda qalaraq, müxtəlif etnosların, mədəniyyətlərin və konfessiyaların qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi şəraitində özünün bütün çoxəsrlik tarixi ərzində dilə son dərəcə qayğıkeş münasibət əxz etmişdir. Bir çox hallarda o, nisbi bilinqvizm – ikidillilik şəraitində yaşamalı olmuşdur, buna

baxmayaraq, xalq ən ağır və qarmaqarışıq zamanlarda Azərbaycan dilinin yaşaya və inkişaf edə bilməsinə həmişə xüsusi məsuliyyət hissi ilə yanaşmışdır. Heydər Əliyev əsrlərin və minilliklərin qovuşuğunda baş vermiş bu tarixi proseslərə qiymət verərək, ilk növbədə, tarixi kataklizmlər dövrlərində Azərbaycan dilinin yox olmamasına, əksinə, inkişaf etməsinə və zənginləşməsinə görə əvvəlki nəsillərə hamımızın bəslədiyi minnətdarlıq və iftixar hissindən danışırdı. Bu zaman o, həm adlarını bilmədiyimiz və dilə müqəddəs varlıq kimi, milli sərvət kimi yanaşmış minlərlə azərbaycanlını, həm də bu dili öz yaradıcılığı ilə zənginləşdirən ədəbiyyat və mədəniyyət xadimlərini nəzərdə tuturdu.

Sovet ideologiyası çərçivəsində bu ideologiyanın qızğın məddahları milli dillərə yeni tarixi birliyin – vahid rusdilli sovet xalqının formalaşması və təşəkkülü yolunda ancaq əngəl kimi baxırdılar.

Biz Heydər Əliyevin Azərbaycan dilinin inkişafı və zənginləşməsi ilə bağlı fədakarcasına fəaliyyətinə məhz belə mürəkkəb tarixi şərait prizmasından yanaşmalıyıq.

Mübaliğəsiz demək olar ki, XX əsrin son qərinəsi ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı və zənginləşməsi, dövlət dilinə, rəsmi sənədlər dilinə çevrilməsi, gündəlik həyatda, praktikada işlənilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası səviyyəsinə çıxması və özünə hörmət qazanması – bütün bunlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yorulmaz və çoxşaxəli fəaliyyətinin, daimi diqqət və qayğısının nəticəsidir. Heydər Əliyev Azərbaycan dilinin inkişafı üçün, bu dilin insanların mənəvi-əxlaqi və siyasi dünyagörüşünün əsası olması, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım gəldiyini gözəl bilir və duyurdu.

Etiraf etməliyik ki, Azərbaycan dilinin bugünkü səviyyəsi Heydər Əliyevin apardığı son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin - Azərbaycan xalqı və Azərbaycan dövləti üçün taleyüklü siyasətin nəticəsidir.

1960-cı illərin axırlarından respublikaya rəhbərliyə başlayan Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi, yüksək intellektual qabiliyyəti, milli mədəniyyətimizə, mənəvi meyarlarımıza dərindən bələdliyi sayəsində uzunmüddətli siyasət – milli dilin inkişafına və tətbiqinə təkan vermiş siyasət hazırlamış və bütün əngəllərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.

Ötən əsrin 20-ci illərindən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğu dövrü də daxil olmaqla, milli dövlətçiliyimizin tarixində ana dili ilə bağlı məsələlərə Heydər Əliyev qədər dərindən maraq göstərən, bu məsələləri daim diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmayıbdır. Onun görkəmli dövlət xadimi Nəriman Nərimanovun fəaliyyətinə verdiyi qiymət də məhz Azərbaycan dilinə münasibət prizmasından formalaşmışdır. Sovet ideologiyası üçün son dərəcə sirli şəxsiyyət olmuş Nəriman Nərimanova millətçi damğası vurulduğu dövrdə Heydər Əliyev onun fəaliyyətinə müraciət etmiş və Azərbaycan dilindən respublikada daha geniş istifadə edilməsi üçün Nərimanovun atdığı addımların mahiyyətini başa düşməyə çalışmışdır. Lakin tarixi reallıqlar elə idi ki, Nərimanov dil siyasəti sahəsində az-çox nəzərəçarpacaq uğurlara nail ola bilməmişdir. Sonralar Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Nərimanovun qarşılaşdığı çətinliklər o dərəcədə qlobal idi ki, onları aradan qaldırmaq mümkün deyildi. O, Nərimanovun uğursuzluğunun səbəblərini sadalayaraq göstərirdi ki, əvvəla, xalqın milli özünüdərki kifayət qədər yüksək deyildi,

ikincisi isə, Moskva rus dilini bütün sovet respublikalarında dövlət dilinə çevirmək xətti yeridərək, SSRİ-nin tərkibinə daxil olan milli qurumlarla zorakılıq və məcburiyyət dilində danışırdı.

Əslində, bu, tariximizin sovet dövründə İttifaq tərkibindəki respublika kimi, Azərbaycanın malik olduğu məhdud səlahiyyətlər çərçivəsində Azərbaycan dilinə yeni status vermək üçün göstərilmiş ilk cəhd idi. Bir tərəfdən, qeyd etmək lazımdır ki, Bakıda türkoloji qurultay keçirilməsi, Azərbaycanın türkdilli ölkələr arasında birinci olaraq latın qrafikasına tarixi keçidi dil siyasəti sahəsində çox böyük irəliləyiş olmuşdur. Lakin bundan dərhal sonra həmin xəttdən fəlakətli surətdə uzaqlaşma baş verdi və sonrakı onilliklərdə Azərbaycan dili, xüsusən əlifbamız bir sıra dağıdıcı eksperimentlər obyektinə çevrildi. Azərbaycan dilini ünsiyyət və dövlət idarəçiliyi sahəsindən sıxışdırıb çıxarmaq üçün sovet dövlətinin yüksək dairələrində və respublika daxilində xeyli əməli tədbirlər görülürdü.

1950-ci illərin ortalarında İosif Stalinin vəfatı və Nikita Xruşşovun elan etdiyi "siyasi mülayimləşmə" ilə əlaqədar, Azərbaycan dilinin hüquqlarını özünə qaytarmaq üçün bir sıra cəhdlər göstərildi. Ancaq tələskənlik və problemə səthi yanaşma üzündən bu cəhdlər nəinki siyasi nəticələr vermədi, əksinə, dilimizin statusunun həlli məsələsində əlavə əngəllər yaratdı.

Beləliklə, Azərbaycan cəmiyyətində onillərlə yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlərlə yanaşı, Azərbaycan dilinin dövlət dili statusu alması məsələsi də yalnız ötən əsrin 60-cı illərinin sonlarında Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra tam kəskinliyi və aktuallığı ilə gündəliyə çıxarıldı.

1906-cı ilin dekabrında "Molla Nəsrəddin" jurnalında ciddi düşüncələr doğuran son dərəcə ibrətamiz karikatura dərc edil-

mişdi: Azərbaycanlını yerə yıxaraq və “Ay qardaşlar, mən ki, dilsiz xalq olmamışam, bu dilləri ağzıma soxursunuz”, – deyə nalə çəkməsinə məhəl qoymayaraq, onun ağzına bir tərəfdən ərəb, digər tərəfdən fars, üçüncü tərəfdən isə rus dilini təpirlər.

Nə qədər kədərli də olsa, real vəziyyət belə idi. 1994-cü ildə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin yubileyi qeyd olunarkən Heydər Əliyev onun “Anamın kitabı” əsərinə müraciət etdi. O, acı təəssüf hissi ilə deyirdi ki, Cəlil Məmmədquluzadənin XX əsrin əvvəlində qaldırdığı problemlər bizi bütün yüzillik ərzində izləmiş və əsrin sonunda da öz aktuallığını itirməmişdir. Ananın üç oğlu var: onların biri Rusiyada, digəri Türkiyədə, üçüncüsü isə İranda təhsil almışdır. Onların hər biri anaya yad olan mədəni-dil mühitinin yetirməsidir. Lakin onlar təkcə anaya deyil, bir-birinə də yaddırlar. Üç doğma qardaş öz aralarında, sözün əsl mənasında, ümumi dil tapa bilmir, odur ki, ana dilinin və doğma dilin xəzinəsi onlar üçün bağlı və gərəksiz olmuşdur.

Heydər Əliyev xüsusi olaraq vurğulayırdı ki, bu ananın hisslərini hər bir azərbaycanlı yaxşı başa düşür. Öz oğullarının doğma dilə belə münasibətini görən ananın keçirdiyi ürək ağrıları Heydər Əliyevə də yaxşı tanış idi. Heydər Əliyev özünün bu çıxışını son dərəcə nikbin ruhda bitirdi, lakin bu nikbinliyə zəmin yaratmaq üçün o, uzun illər ərzində titanik fəaliyyət göstərməli olmuşdu. Kədərli də olsa, bu, real gerçəklik idi.

Bəzi istisnalar olmaqla, ancaq rus dilinin əsas ünsiyyət vasitəsi olduğu dövrün irəli sürdüyü təshihlərlə birlikdə bu məyusedici mənzərə XX yüzilliyin 70-ci illərinədək davam etdi. Yaşlı nəslin yaxşı yadındadır ki, keçmiş sovet respublikalarında olduğu kimi, Azərbaycanda da on illər ərzində bilinqvizm –

ikidillilik məcburi surətdə tətbiq edilirdi. Dövlət idarələrində isə rus dilindən geniş istifadə edilməsi hər vasitə ilə təşviq olunurdu ki, bu da milli dilin dövlət dili kimi inkişafı yolunda ciddi əngəllər törədirdi.

"Belə olmuşdur, ancaq həmişə belə olmamalıdır". Keçmiş sovet respublikalarının rəhbərləri arasında birinci olaraq Heydər Əliyev milli məsələdə bu cür qətiyyətli mövqe tutdu. O, Mərkəzdən asılı olan, qapalı sistemdə yaşayan və üstəlik, müsəlman-türk respublikası olan Azərbaycanda milli dil siyasətini çox ölçülüb-biçilmiş və hərtərəfli düşünülmüş surətdə həyata keçirirdi. Heydər Əliyev heç vaxt ötəri imic yaradan tələm-tələsik addımlar atmırdı. Bu keyfiyyət hər bir vətəndaşın, ilk növbədə, yaradıcı ziyalıların nümayəndələrinin həddindən artıq həssaslıq göstərdiyi milli dilə onun münasibətində özünü xüsusilə aydın şəkildə təcəssüm etdirirdi. O, hər bir kəsin diqqətini bu problemə cəlb etməklə onu gündəliyə çıxarır və təkcə rəhbərlik səviyyəsində deyil, həm də zəngin tarixə və mədəniyyətə malik olan bütün xalq səviyyəsində həll edirdi.

Ötən əsrin 70-ci illəri dövlətimizin tarixinə iqtisadiyyatın, sənayenin, tikintinin, rabitənin, nəqliyyatın, sosial və mənəvi həyatın, bütün mədəniyyətin sürətli inkişaf illəri kimi daxil olmuşdur. Bu dövr həm də onunla səciyyəvidir ki, ölkədə qanuniləşdirilmiş ikidillilik şəraitində Azərbaycan dili tədricən rus dilinin kölgəsindən çıxmağa başlayaraq, ictimai şüurda və milli dövlətçilik quruculuğunda öz yerini tuturdu. Bu proses təkamül yolu ilə gedirdi və onu dayandırmaq, yaxud geri döndərmək mümkün deyildi. O vaxtadək yalnız nominal olaraq Azərbaycan Respublikasının dövlət dili hesab edilən Azərbaycan dili artıq kağız üzərində deyil, real həyatda özünəlayiq yer tutmağa başla-

mışdı. Şübhəsiz ki, bu, ilk növbədə, milli mənlik şüurunun sürətlə inkişafına kömək edir, milli özünüdərk prosesini tezləşdirirdi.

Ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəmin olduğu illərdə Heydər Əliyev Azərbaycan dilinin məişət dili və ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə qaldırılmasına yönəldilmiş fəaliyyəti ilə kifayətlənmir, həm də özünün şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi şəkildə öyrənilməsi və geniş yayılması üçün stimullar yaradırdı. Məhz Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1970-ci illərin əvvəllərindən etibarən Azərbaycan dilindən dövlət əhəmiyyətli tədbirlərdə istifadə edilməyə başlandı. Heydər Əliyev yaradıcılıq təşkilatlarının, xüsusən Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində çıxış edərək, Azərbaycan dilində səlis və gözəl danışmaq məharəti nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişafına yönəldirdi.

Azərbaycan o vaxt Elmlər Akademiyasının tərkibində ayrıca Dilçilik İnstitutu olan tək-tük sovet respublikasından biri idi. Heydər Əliyev dilçilik elminə, Azərbaycan dilinin problemlərinin öyrənilməsinə, onun mükəmməl qrammatikasının yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Onun yaxından iştirakı və dəstəyi sayəsində Azərbaycan dilçilərinin bir sıra əsərləri, o cümlədən dördcildlik "Müasir Azərbaycan dili" kitabı respublika Dövlət mükafatına layiq görüldü. Türk dillərinin müqayisəli şəkildə öyrənilməsi üçün məhz Heydər Əliyevin fəal dəstəyi ilə 1970-ci ildə Bakıda mötəbər "Sovetskaya tyurkologiya" ümumittifaq jurnalı təsis olundu. Jurnalı Azərbaycan Elmlər Akademiyası SSRİ Elmlər Akademiyası ilə birlikdə nəşr edirdi. Sovet respublikaları arasında ilk dəfə olaraq, Azərbaycan Dövlət Universitetində türkologiya kafedrası yaradıldı.

Heydər Əliyevin təşəbbüsü və səyləri sayəsində Azərbaycan Yazıçılar İttifaqının qurultayında (1981-ci il) Cənubi Azərbaycan ədəbiyyatı haqqında xüsusi məruzə dinlənildi, Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi ştatı yaradıldı, Elmlər Akademiyasında müvafiq şöbə açıldı, ədəbiyyat və mədəniyyətimizin bu ayrılmaz hissəsinin tədqiqi, öyrənilməsi və sistemli şəkildə nəşri sahəsində iş başlandı.

Əlbəttə, respublikalarda milli özünüdərk və inkişaf prosesinin sovet rəhbərliyinin müqaviməti ilə qarşılaşdığı, milli mənlik şüurunun yüksəlişinə kömək edən yeni meyillərin və təşəbbüslərin qarşısının sərt şəkildə alındığı bir şəraitdə bütün bu sadaladıqlarımızın həyata keçirilməsi Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və yenilməzlik tələb edirdi. Lakin Azərbaycanda həmin illərlə, Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra başlanmış milli-mədəni dirçəliş heç də həmişə müsbət qiymətləndirilmirdi və müəyyən dairələr tərəfindən, xüsusən ittifaq rəhbərliyini Azərbaycanın əleyhinə qaldırmaq, türk azərbaycanlılara qarşı etimadsızlıq və şəkk yaratmaq üçün dəridən-qabıqdan çıxan ermənilər tərəfindən əsassız siyasi ittihamlarla, yalan və böhtan kampaniyaları ilə müşayiət olunurdu.

Ana dili məsələsində məhz Heydər Əliyevin tutduğu prinsipial, qətiyyətli mövqe sayəsində və onun qızğın fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının 1978-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olduğu barədə məşhur 73-cü maddənin daxil edilməsi mümkün oldu. Həmin dövrdə Azərbaycan milli dilə Konstitusiya qanunu səviyyəsində dövlət statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi.

Şübhəsiz ki, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövləti münasibətinin və siyasi əzmkarlığının parlaq

təzahürü idi. Heydər Əliyevin özü o vaxtı belə xatırlayırdı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışırdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq" (**Heydər Əliyev**. Müstəqilliyimiz əbədidir, 4-cü cild, səh.427).

İndi inamla təsdiq etmək olar ki, Heydər Əliyevin 1970-80-ci illərdə milli dil sahəsində apardığı fəal siyasət Azərbaycanda milli dirçəliş, milli mənlik şüurunun inkişafı prosesini sürətləndirdi və əslində, Azərbaycan xalqını milli müstəqillik və milli dövlətçilik əldə etməyə hazırladı.

Müstəqil Azərbaycan dövlətinə rəhbərliyinin ilk günlərindən Prezident Heydər Əliyevin, yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq, Azərbaycan dilinə göstərdiyi qayğı və diqqət həm siyasi, həm də əməli baxımdan fərqlənir. Əvvəla, Azərbaycan dilinin, şərtsiz və şəriksiz dövlət dili olması faktı göz qabağındadır. Müstəqillik illəri ölkə Prezidentinin öz ana dilini necə mükəmməl bildiyini və istər çıxışlarında, istərsə də əhali ilə görüşlərində bu dilin imkanlarından necə məharətlə istifadə etdiyini göstərdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlər dili, siyasi dialoqlar və diplomatik danışıqlar dili oldu, onlarca ölkədə səslənərək, hər yerdə dövlət başçısının öz doğma dilinə məhəbbətini əks etdirdi. Nəhayət, müstəqil dövlət quruculuğunun bütün çətinliklərinə və mürəkkəbliyinə baxmayaraq, Heydər Əliyev doğma Azərbaycan dilinə diqqət və qayğını bir an belə unutmurdu.

1992-ci ildə Azərbaycanda bir çox Konstitusiya və hüquq normaları pozularaq, Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərar qəbul edildi. Bununla əlaqədar səsini çıxarmağa və qəti etirazını bildirməyə cürət etmiş Azərbaycan alimlərinin kiçik bir qrupu, sadəcə, həbs olundu və xuliqanlıq edən ünsürlər kimi polis şöbəsinə aparıldı. Əslində, Azərbaycan dilinə qarşı mənəvi vandalizm aktı törədildi. Məktəb dərsliklərinin adları tələm-tələsik dəyişdirilməyə başlandı ki, bu da böyüməkdə olan nəslin şüurunda çox böyük dolaşıqlıq və çaşqınlıq yaradırdı. O vaxt Heydər Əliyev Naxçıvanda öz yaxın silahdaşlarının məhdud dairəsində həmin qərarın qeyri-elmiliyini və siyasi nadanlığını məyusluqla və təəssüflə izah edirdi. Lakin o vaxt həmin düşünülməmiş qərarı qəbul edən şəxslərə hər hansı bir təsir göstərmək imkanı yox idi.

On-on beş adam məsələni bütün Azərbaycan xalqı adından həll etmək ixtiyarını öz əllərinə keçirmişdi. Ancaq xalq öz seçimi ilə Heydər Əliyevə Azərbaycan dövlətində ən yüksək hüquqlar verdikdə də, o, səhvlərin düzəldilməsi üçün birbaşa inzibatçılıq yolu ilə getmədi. Respublikanın elmi tədqiqat müəssisələrində, ali məktəblərində, Elmlər Akademiyasında çoxlu müzakirələr aparıldı.

Bu müzakirələrin gedişində sırf elmi dəlillər öncül əhəmiyyət kəsb edirdi. Həmin tədbirlərdə az-çox maraq doğuran hər bir fakt barəsində dövlət başçısının məlumatının olması, alimlərin hər bir fikrinə, - hətta onun öz mövqeyinə uyğun gəlməsə də, - diqqət və qayğı ilə yanaşması adamı heyran edir. O, bir neçə müzakirədə şəxsən iştirak etmişdi. Lakin son sözü deməyi xalqın ixtiyarına buraxdı. Dilin adı yeni Konstitusiyanın layihəsində öz əksini tapdı və referenduma çıxarıldı. Beləliklə, dünyada geniş yayılmış

"Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Dövlətimizin başçısı haqlı olaraq vurğulamışdı ki, bu qərarın qəbul edilməsi "həm keçmişimizə hörmət, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik" (**Yenə orada**, səh.476).

Qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində son dərəcə geniş və müsbət əks-səda doğurmuş bu qərarı Prezident avtoritar, inzibati-bürokratik yolla deyil, bilavasitə elmi və inandırıcı dəlil-sübutlarla reallaşdırmışdır. Konstitusiya komissiyasının iclaslarında, Azərbaycan Elmlər Akademiyasında və Prezident sarayında keçirilən müşavirələrdə Heydər Əliyevin Azərbaycan dilinin mənşəyi və qaynaqları, tarixi inkişaf yolları, türk dilləri ailəsində yeri, sovet hakimiyyəti illərində dilimizə qarşı törədilmiş zorakılıqlar və dilimizin müasir inkişaf yolları haqqında söylədiyi və yüksək peşəkarlığı, dərin elmi məzmunu ilə seçilən mülahizələri onun dövlət dilinə məhəbbətinin və qayğısının daha bir təzahürü idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan siyasət, onun hələ ötən əsrin 70-ci illərində başladığı siyasət uğurla həyata keçirildi - dilimizə tam dövlət dili statusu verilməsi və dövlət idarəçiliyinin bütün sahələrində fəal istifadə edilməsinin təmin olunması vəzifəsi gerçəkləşdirildi. Azərbaycan dili cəmiyyətdə öz həqiqi yerini tutdu. Bu isə yalnız və yalnız çoxillik ardıcıl, ən başlıcası isə, ölçülüb-biçilmiş və dərindən düşünülmüş dövlət tədbirlərinin görülməsi nəticəsində mümkün olmuşdu.

Biz son illərdə dünyada Heydər Əliyev şəxsiyyətinə böyük marağın olduğunun şahidiyik. Azərbaycanın sabiq Prezidentinin şəxsiyyəti, həyat yolu, dövləti və siyasi fəaliyyəti haqqında

müxtəlif ölkələrdə ayrı-ayrı dillərdə kitablar nəşr edilmişdir və edilir, məqalələr dərc olunur. Bunların bir çoxunda əsas diqqət onun tam siyasi portretinin yaradılmasına verilir. Heydər Əliyev dərin zəkalı, ensiklopedik biliyə, son dərəcə geniş dünyagörüşünə malik şəxsiyyət kimi səciyyələndirilir. Tamamilə haqlı olaraq vurğulanır ki, onun genişmiqyaslı fəaliyyətini təkcə siyasi mübarizə ilə məhdudlaşdırmaq olmaz. Onun başlıca keyfiyyəti quruculuq fəaliyyətidir. Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdır. O, ölkənin dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini, Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının bu gün də irəlilədiyi yolu açmışdır.

Zəmanəmizin bu dahi ictimai-siyasi xadimi və mütəfəkkirinin zəngin irsi, şübhəsiz, hələ gələcək tədqiqatçılarını gözləyir.

Bu şəxsiyyəti son 30 ildən çox bir zaman ərzində Azərbaycanda və ümumiyyətlə, bütün postsovet məkanında baş vermiş hadisələrdən kənarda təsəvvür etmək mümkün deyildir. Onun Azərbaycanın inkişafındakı müstəsna rolu, dəyərli fikir və mühakimələri gələcəkdə “Heydər Əliyev və Azərbaycan elm və təhsili”, “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı və mədəniyyəti”, “Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri”, “Heydər Əliyev və azərbaycanlıların milli dirçəlişi” və digər mövzularda dərin tədqiqat əsərlərinin yaranacağına şübhə doğurmur.

Bu baxımdan, zənnimizcə, “Heydər Əliyev və Azərbaycan dili məsələləri” mövzusu daha geniş və çoxsəpkilidir.

Mənə uzun illər ərzində Heydər Əliyev ilə birlikdə, onun rəhbərliyi altında işləmək kimi çox böyük şərəf nəsib olmuşdur.

Şəxsi müşahidələrimə və gəldiyim nəticələrə, şahidi olduğum faktlara və hadisələrə əsaslanaraq deyə bilərəm ki, Azərbaycan xalqının bu dahi oğlu ilə bağlı tədqiqatlar aparmaq dərin bilik, yaradıcılıq axtarışları və əsl vətənpərvərlik tələb edir.

Heydər Əliyevin natiqlik istedadı, Azərbaycan dilinin imkanlarından özünə xas olan məharətlə istifadə etməsi, onun şifahi nitqinin kamilliyi və üslub xüsusiyyətləri hətta mütəxəssisləri də heyran edir. Dövlət quruculuğu, ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatına rəhbərlik sahəsində gərgin və misilsiz fəaliyyəti, beynəlxalq həyatda aktiv iştirakı ilə ümumxalq hörməti və məhəbbəti qazanmış Prezident Heydər Əliyev həm də əvvəlcədən hazırlanmış mətn olmadan ən mürəkkəb, çətin mövzular barədə parlaq çıxışları və nitqləri ilə məşhurdur. Onun natiqlik məharəti, dərin zəkası və möhkəm məntiqi şəkkakların müqavimətini qırır, onları bu və ya digər qərarın düzgünlüyünə inandırırdı.

Bəzi siyasi qruplaşmalar və onların liderləri silah gücünə, xarici qüvvələrin dəstəyi ilə hakimiyyətə gələndən sonra hətta həmin qüvvələrin köməyi ilə də hakimiyyətdə qala bilmədikləri halda, Heydər Əliyev öz sözü ilə milyonları səfərbər edir, dəmir məntiqi ilə düşmənləri susmağa vadar  edir, natiqlik istedadı, özünün haqlı olduğuna sarsılmaz inamı ilə xalqı Azərbaycanın tərəqqisi naminə sıx birləşdirirdi. Bu baxımdan ikicə misal çəkəcəyəm.

1993-cü ilin iyunu. Respublika dağılır, hakimiyyət tam iflic vəziyyətində idi. Siyasi fəlakət və yalnız formal surətdə hakimiyyətdə olan insanların tam fərsizliyi göz qabağında idi. Belə bir şəraitdə Heydər Əliyev parlamentin sədri seçildi. Onun siyasi düşmənləri və bədxahları cidd-cəhdlə belə bir şayiə yayırdılar ki, onların vəziyyəti sabitləşdirmək üçün əl atmağa məcbur olduqları bu son tədbir də, görünür, uğurla nəticələnməyəcək, çünki

sərəncamında bürokratik maşını, idarəetmə mexanizmləri olmayan Heydər Əliyev ölkəni böhrandan çıxara bilməyəcəkdir. Onlar faktları təsbit etməkdə, bəlkə də, haqlı idilər. Heydər Əliyevin şəxsiyyətinin və onun imkanlarının qiymətləndirilməsinə gəldikdə isə, büsbütün yanılırdılar.

Heydər Əliyev qaynar fəaliyyəti ilə yanaşı, təmiz Azərbaycan dilində söylədiyi dərin məzmunlu nitqləri ilə 1993-cü ilin ortalarında, sanki, həlledilməz məsələni həll etdi. Bu, ən yüksək parlamentarizm dərsləri, nadir natiqlik məharəti, bənzərsiz siyasi müdriklik dərsləri idi. Azərbaycan xalqı bir neçə ay ərzində Heydər Əliyevin və onun opponentlərinin parlament iclaslarından televiziya ilə yayımlanan çıxışlarını izlədi. Heydər Əliyevin çıxışları elə bir təsir gücünə malik idi ki, sözə bu gücü onun düzgünlüyündən savayı heç nə verə bilməz.

İkinci misal – 1994-cü ilin oktyabrında onun televiziya ilə xalqa müraciəti. Dövlət çevrilişi cəhdi haqqında xəbəri eşidən on minlərlə insan həmin müraciətdən sonra Prezident sarayının qarşısına toplaşdı, Heydər Əliyevi fəal surətdə dəstəklədi.

Müasir dövrdə siyasi mübarizədə, dövlətin idarə olunmasında dil amilindən Heydər Əliyev qədər məharətlə istifadə edə bilən ikinci bir dövlət başçısının, siyasi xadimin adını çəkmək çətindir. Bu, ilk növbədə, onun ana dilinə, öz xalqının arzu və istəklərinə dərindən bələd olması ilə bağlıdır. O, çıxışlarının birində demişdir: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır" (**Yenə orada**, səh.462). Tam əminliklə deyə bilərik ki, o, özünün çoxillik yo-

rulmaz, titanik fəaliyyəti ilə təkcə Azərbaycan dövlətinin deyil, həm də Azərbaycan xalqının nüfuzunu yüksəltmişdir.

Heydər Əliyev öz şəxsi nümunəsi ilə Azərbaycan dilini sevməyi, qoruyub saxlamağı öyrədirdi. Neçə illər Azərbaycandan kənarda, rusdilli mühitdə yaşaması və işləməsinə baxmayaraq, o, öz xalqına, dilinə diqqət və qayğısını bir an belə unutmamışdır. Yuxarıda dediyimiz kimi, dil öz varlığına görə xalqa borcludur, lakin ədəbiyyat və mədəniyyətin inkişafı  xeyli dərəcədə dövlət başçısı tərəfindən formalaşdırılan münasibətlər sistemindən və mühitdən asılıdır. Bu mənada, Heydər Əliyev hətta ən çətin vəziyyətlərdə də dilin varlığı və inkişafı üçün ən əlverişli şərait yaradılmasına çalışırdı. Müstəqil dövlət şəraitində isə bu şəraitin yaradılması nəinki onun şəxsi nəzarətində idi, həm də hüquqi xarakter və daha geniş miqyas almışdır.

İndi biz Azərbaycan vətəndaşlarının mənəvi birliyinin əsası kimi "azərbaycançılıq" ideologiyasını, cəmiyyətin həyatında, ölkə əhalisinin vətənpərvərlik və Azərbaycana məhəbbət ruhunda tərbiyəsində onun birləşdirici rolunu təbliğ edir, haqqında elmi məqalələr yazırıq. Lakin unutmamalıyıq ki, bu ideologiyanın ideya ilhamçısı və yaradıcısı Heydər Əliyev olmuşdur. 1992-1993-cü illərdə ölkəyə rəhbərlik edənlərdən fərqli olaraq, Heydər Əliyev obyektiv surətdə cəmiyyətin sosial problemlərə və münaqişələrə qiymət verən, cəmiyyətin və dövlətin proqram məqsədlərini əhatə edən ideyalar sisteminə ehtiyacının olmasına bir an belə şübhə etmirdi. Nə qədər paradoksal olsa da, faktdır ki, SSRİ adlandırılan sovet dövlətinin liderlərindən biri olan Heydər Əliyev daim öz Vətəninin gələcək taleyini düşünmüş, Sovet İttifaqı rəhbərliyinin azərbaycanlılara heç də birmənalı münasibət bəsləmədiyi şəraitdə öz xalqının həyatda qalmasının yollarını və formalarını axtarmış-

dır. Cənubi Qafqazın tarixinə gözəl bələd olan Heydər Əliyev Azərbaycan xalqının keçmişdə necə ağır sınaqlara məruz qaldığını, xalqının tarixi torpaqlarından çıxarılması üçün nə kimi tədbirlərə və cəhdlərə əl atıldığını yaxşı bilirdi. Heydər Əliyev ötən əsrin 70-ci illərindən etibarən həyatını bütünlüklə öz Vətəninin tam sahibi kimi Azərbaycan xalqının dirçəlişinə həsr etmişdir. Ona görə də əminliklə demək olar ki, bu gün biz bünövrəsi hələ ötən əsrin ikinci yarısında qoyulmuş işlərin bəhrəsini görürük.

Heydər Əliyev "azərbaycançılığı" bir ideologiya olaraq irəli sürməklə, ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini həll etdi. Bu, onun çox böyük vətəndaş hünəri idi və şübhəsiz, aktual milli vəzifələrin həlli üçün bütün dünya azərbaycanlılarının öz Vətənləri – bugünkü müstəqil Azərbaycan ətrafında birləşməsinə töhfəsini verəcəkdir.

Türk yazılı abidələrinin birində millətin, dövlətin mövcudluğunu təmin edən üç əsas şərtdən bəhs olunur: dilin qorunub saxlanması, xalqın qorunub saxlanması və ənənələrin qorunub saxlanması. Heydər Əliyev bu şərtlərə dönmədən sadiq qalmışdır. Onun müdrik siyasəti sayəsində Azərbaycan dili dünyanın siyasi xəritəsində öz layiqli yerini tutan dövlətimizin rəsmi dili olmuş, ölkəmizin müstəqilliyi dönməz xarakter almışdır, xalqımız isə mənəvi irsini göz bəbəyi kimi qoruyur və inkişaf etdirir. Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin zəngin irsi XXI əsrin müstəqil dövləti kimi Azərbaycanın gələcək inkişaf və tərəqqi yolunu müəyyən edən etibarlı səmt göstəricisidir və daim belə olacaqdır.

*"Azərbaycan" qəzeti,*
*24 aprel 2004-cü il.*

## KLASSİK İRS VƏ MÜASİR FƏLSƏFİ PROBLEMLƏR

Orta əsr Azərbaycan fəlsəfi fikrinin böyük nümayəndəsi Şihabəddin Yəhya Sührəvərdinin irsinə maraq getdikcə artır. Avropada və ABŞ-da onun əsərlərinin yenidən çap olunması və İşraqilik fəlsəfəsinin şərhinə həsr olunmuş yeni-yeni kitablar göstərir ki, orta əsrlərdə irəli sürülmüş konsepsiyalar hələ də öz elmi-fəlsəfi dəyərini itirməmişdir.

Jurnalımızın bu sayında da Ş.Sührəvərdinin anadan olmasının 850 illiyinə həsr olunmuş məqalələrin çapı davam etdirilir. Onun "Hikmət-əl-İşraq" əsəri AFSEA-nın sifarişi ilə dilimizə çevrilmiş və ilk dəfə çap olunur. Əsərin Azərbaycan dilində işıq üzü görməsi ölkəmizin elmi-fəlsəfi həyatında böyük hadisə hesab oluna bilər.

Bu nömrədə habelə böyük ingilis mütəfəkkiri Con Lokkun vəfatının 300 illiyi münasibətilə məqalələr dərc olunur.

Con Lokk Yeni dövrün məfkurə əsasını qoyan böyük filosoflardan biridir. Azərbaycan Respublikasının Avropaya inteqrasiya olunduğu bir vaxtda Qərb dəyərlərinin fəlsəfi əsaslarının mənimsənilməsinə böyük ehtiyac vardır. Ona görə də, biz hesab edirik ki, müasir Avropanın, çağdaş Qərb sivilizasiyasının mənəvi əsaslarını yaradan düşüncə tərzini formalaşdıran böyük klassiklərin Azərbaycanda yad edilməsi, onların elmi-nəzəri və fəlsəfi irsinin dilimizə tərcümə edilməsi və araşdırılması indiki şəraitdə böyük əhəmiyyətə malikdir.

Con Lokkun "İnsan əqli haqqında təcrübə" əsəri indi də öz fəlsəfi dəyərini saxlayır və müasir idrak nəzəriyyəsinin elmi prinsiplərini müəyyən etməklə, mühüm bir fəlsəfi baxış istiqamətinin təməli hesab olunur. Bu baxış isə bizim duyğularımızın heç də insan təxəyyülünün nəticəsi olmayıb, bizi əhatə edən şeylərdən, hadisələrdən hasil olmasını iddia edir. Əsrlər boyu kök salmış rasionalist baxışa görə, ön plana çəkilən düşüncə Con Lokk təlimində duyğuların nəticəsi kimi təqdim olunur. Bu təlim Frensis Bekon tərəfindən işlənib hazırlanmış empirizm fəlsəfəsindən fərqli olsa da, reallığa münasibət baxımından ona çox yaxındır.

"Ağ lövhə" nəzəriyyəsi də Con Lokkun adına təsadüfən aid edilmir. O, doğrudan da, anadangəlmə ideyaları qəbul etmir və insan idrakını təcrübədən kənarda axtarmır. İdeyanın insan qəlbinə əvvəlcədən tanış olması və insanın sadəcə onları xatırlaması haqqında Platon təlimi Con Lokk tərəfindən inkar edilir. O belə hesab edir ki, "anadangəlmə" biliklər təcrübədən kənar olduğuna görə, sadəcə, bir uydurmadır. Con Lokk belə hesab edir ki, ilk təcrübənin nəticəsi olan biliklər yadda saxlandıqdan sonra, əlbəttə, xatırlana bilər və onu hər dəfə yada salmaq üçün şeyin özünü görməyə ehtiyac yoxdur. Bununla belə, ideyanın ilkin daşıyıcısı cismlər və hadisələr dünyasıdır.

Con Lokk ideyaları da mürəkkəblik dərəcəsinə görə iki yerə bölür. "İlkin keyfiyyətlər" obyektiv səciyyə daşıyaraq, bizim onlara münasibətimizdən asılı deyildir. "İkinci keyfiyyətlər" bizim şeylərlə münasibətimiz zamanı ortaya çıxır və subyektiv səciyyə daşıyır.

Con Lokkun fəlsəfi yaradıcılığı heç də təkcə idrak nəzəriyyəsi ilə məhdudlaşmayıb, dövlət, hüquq və azadlıq problemlərini də əhatə edir. O, xalqların suverenliyinin, bütün əhaliyə

azadlıq və bərabər hüquq verilməsinin tərəfdarı olub, hakimiyyət bölgüsü ideyasını irəli sürürdü. Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu şəraitində Con Lokkun bu sahədəki fəlsəfi irsi olduqca qiymətlidir.

Şərq və Qərb fəlsəfi fikrinin böyük klassikləri olan Şihabəddin Yəhya Sührəvərdi və Con Lokkun fəlsəfi irsinə müraciətlə yanaşı, jurnalımızın bu sayında ümumiyyətlə Şərq-Qərb münasibətləri barədə nəzəri tədqiqatlar, bir sıra müasir fəlsəfi problemlər də işıqlandırılmışdır. Sistem nəzəriyyəsinin və sinergetikanın aktual problemləri də, əslində, bizi yenə qədim Şərq fəlsəfəsinə aparır: dünyanın nizamlı quruluşu ilə xaos arasında sərhədlər götürülür, xaosun öz dərinliklərində də gələcək nizamın, qaydaların, dao-nun təməli aşkar olunur. Ruh və bədən problematikasının araşdırılması da, dünyada bir harmoniya axtarışının lokallaşması da, sadədə mürəkkəbin, mürəkkəbdə sadənin əlamətlərinin aşkar edilməsi də müasir görünməklə yanaşı, ənənəvi fəlsəfi problemlərin məntiqi davamı kimi ortaya çıxır.

Ontoloji və qnoseoloji problematika sıx əlaqəli şəkildə sosial fəlsəfi problemlərə keçir, qloballaşma və demokratik dəyərlərin transformasiyası sahəsində ortaya çıxan fəlsəfi məsələlər də nəzəri-fəlsəfi tədqiqat obyektinə çevrilir.

*"Fəlsəfə və sosial-siyasi elmlər" jurnalı,*
*№4, 2004-cü il.*

## “GÜLÜSTAN” SARAYINDA “AZƏRBAYCANIN QURTULUŞ TARİXİ” VƏ “BÖYÜK XİLASKAR” KİTABLARININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

-Hörmətli xanımlar və cənablar!

Bu gün təqdimatına toplaşdığımız “Azərbaycanın qurtuluş tarixi” və “Böyük xilaskar” kitabları bizi bir daha Heydər Əliyev fenomeni haqqında düşünməyə dəvət edir. Dahi şəxsiyyət, böyük insan, görkəmli siyasi və dövlət xadimi, təkcə Azərbaycana yox, dünyaya məxsus bir vətəndaş olan cənab Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq çətindir. Bizə elə gəlir ki, o, bu gün də bizimlədir. Amerikanın dövlət katibinin birinci müavini Riçard Armitac Heydər Əliyev haqqında çox yığcam və dərin fikir söyləmişdir: “Heydər Əliyevin ölümündən sonra dünya bir qədər balacalaşmışdır”. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Heydər Əliyevin siyasi qüdrətini qiymətləndirərək qeyd edirdi: “Mübaliğəsiz demək olar ki, o, siyasət nəhəngi idi”.

Heydər Əliyev haqqında onun sağlığında da, bu gün də tədqiqatlar aparılır, dissertasiyalar müdafiə olunur, monoqrafiyalar, məqalələr yazılır. Bu əsərlərin əsas leytmotivi ondan ibarətdir ki, Azərbaycanın ən yeni tarixinin mühüm bir dövrünü müstəqil dövlətçiliyimizin xilası, qorunub saxlanılması və inkişaf etdirilməsi uğrunda mübarizə təşkil edir. Bu mübarizəni xalqımızın ümummilli lideri, XX əsr Azərbaycanının ən

görkəmli dövlət və ictimai-siyasi xadimi Heydər Əliyev başlamış, müvəffəqiyyətlə həyata keçirmiş və dövlətimizin mükəmməl qurtuluş tarixini yaratmışdır.

Tarixi böyük şəxsiyyətlər, liderlər, görkəmli ictimai-siyasi və dövlət xadimləri yaradır. Tarixçilər və digər tədqiqatçılar onu qələmə alır, ümumiləşdirir və salnaməyə çevirirlər. Bütöv nəsillər isə bu tarixi təcrübələrdən nəticə çıxarır, bəhrələnir və gələcək həyatlarını qururlar. Bu yanaşmadan çıxış edərək, belə bir nəticəyə gəlmək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışı, onu məhv olmaqdan və dövlətçiliyin itirilməsindən xilas etməsi, güclü, dinamik inkişaf edən və milli varlığımızı yaşadan ölkəyə çevirməsi, təkcə bugünkü deyil, ümumən gələcək nəsillər, Azərbaycan amalını qəlbində yaşadan bütün insanlar üçün epoxal əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi idi.

Əslində, ümummilli liderimiz öz titanik fəaliyyəti ilə həm müstəqil Azərbaycanın qurtuluş tarixini yaratmış, həm də ölkənin siyasi, iqtisadi və ictimai inkişafının ən aktual məsələlərini işıqlandıran konseptual çıxış və nitqləri ilə həmin tarixi qələmə almışdır. Bizim borcumuz bu zəngin irsi tədqiq edib cəmiyyətə olduğu kimi, obyektiv təqdim etmək, göstərmək, onu nəsillərin yaddaşına əbədi həkk etdirmək və bu nümunə üzərində xalqımızın gələcəyini qurmaqdan ibarətdir. Təqdimatına toplaşdığımız "Azərbaycanın qurtuluş tarixi" və "Böyük xilaskar" kitabları bu baxımdan göstərilən cəhdlərdən biridir.

Heydər Əliyev bütün mənalı həyatını Azərbaycana, xalqının milli-mənəvi varlığının qorunmasına, tərəqqisinə, onun firavan həyatının təmin olunmasına, dünya xalqları sırasında layiqli yer tutmasına həsr etmişdir. Bu tarixi şəxsiyyətin zəngin həyatının böyük bir dövrü onun müstəqil Azərbaycan dövləti uğrunda

apardığı mübarizə və fəaliyyətdən ibarət olmuşdur. Bəhs edilən "Azərbaycanın qurtuluş tarixi" kitabının bu gün təqdim olunan ilk dörd cildi qurtuluş hərəkatına həsr edilib, çapa hazırlanan sonuncu – beşinci cildində isə 1995-2003-cü illərdə müstəqil dövlətin qurulması və inkişafından bəhs olunacaqdır.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyinin, demək olar ki, bütün dövrü bu kitablarda öz əksini tapır. Lakin bu kitablar bizi Azərbaycanın qurtuluş tarixinin, Heydər Əliyevin xilaskarlıq fəaliyyətinin tam öyrənilməsi fikrinə gətirməməlidir. Bu, sadəcə, həmin dövrün siyasi təsviri cəhdidir, hadisələrin nəqlidir. Əlbəttə, kitab üzərində işləyən insanların zəhmətinə, onların gördüyü mühüm işin əhəmiyyətinə zərrə qədər belə xələl gətirmədən, demək istəyirəm ki, bu işə tarixçilər, siyasətşünaslar, bizim müvafiq elm və tədqiqat mərkəzləri qoşulmalı, Azərbaycan tarixinin bu dövrünü dərindən tədqiq etməlidirlər.

Tarixin Azərbaycana bəxş etdiyi bu nadir şəxsiyyətin hərtərəfli fəaliyyəti və yaradıcılığının tədqiqi elə böyük və zəngin bir sahədir ki, onun diqqətəlayiq şəkildə öyrənilməsi yalnız bir çox ixtisaslardan olan təcrübəli alim və mütəxəssislərin birgə səyləri ilə həyata keçirilə bilər. Bu cür əsərlər təkcə Azərbaycan dilində deyil, xarici dillərdə də yazılmalı və başqa ölkələrdə də yayılmalıdır. Heydər Əliyev təkcə Azərbaycanın milli sərvəti deyil, o, bütün bəşəriyyətə məxsusdur. Ona görə də, biz ən yeni tariximizin bu mühüm, hadisələrlə zəngin və mürəkkəb dövrünü – "Qurtuluş tariximizi" və "Xilaskarımızı" həm özümüz öyrənməli, gələcək nəsillərə çatdırmalı, həm də xarici ölkələrdə təbliğ etməliyik.

Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istəyirəm. Son bir neçə ildə Heydər Əliyev haqqında, onun fəaliyyətinin ayrı-ayrı

istiqamətləri barədə müxtəlif yönlü kitablar və məqalələr qələmə alınır. Yuxarıda qeyd etdiyim kimi, bu, çox yaxşı haldır, bununla insanlar çalışırlar ki, öz rəhbərinin fəaliyyətinə qiymət versin, onun haqqında xoş fikir söyləsin, ona olan məhəbbətlərini ifadə etsinlər. Lakin təəssüflə deməliyəm ki, bu kitabların və məqalələrin bir qismi heç də səriştəli adamlar tərəfindən yazılmır. Bəzən isə bu işə ayrı-ayrı "müəlliflərin" yanaşması konyunktur xarakter daşıyır. Hələ sağlığında Heydər Əliyev belə hallara qarşı çox mənfi münasibət bəsləyirdi. İndi də bəzi adamlar tərəfindən respublika Prezidenti haqqında çox səthi, məzmunu və mahiyyəti anlaşılmayan aşağı səviyyəli kitablar yazmağa cəhd göstərilir. Biz, əlbəttə, belə hallarla barışmamalıyıq. Milli lider haqqında kitab yazmaq alqışlanası haldır. Lakin bunu Heydər Əliyev siyasi irsini peşəkarcasına təhlil etməyi bacaranlar etməlidir. Böyük şəxsiyyət haqqında kitabların yazılması insanlardan bilik və məsuliyyət tələb edir.

Heydər Əliyev Azərbaycan tarixinin böyük bir mərhələsinin bilavasitə yaradıcısı olmuşdur. Onun təkcə Sovet hakimiyyəti illərindəki fəaliyyəti böyük bir təcrübə xəzinəsidir, dövlət idarəçiliyi akademiyasıdır. Azərbaycanın bu gün bəhrələndiyi iqtisadi, siyasi, elmi, hərbi, enerji, mədəni, ictimai və sosial potensialı məhz o illərdə Heydər Əliyev uzaqgörənliyi nəticəsində yaradılmışdır. Azərbaycan dili, azərbaycançılıq ideyası, vətənpərvərlik hissləri məhz o illərdə xalqımızın şüuruna əbədi hakim kəsilmişdir.

"Azərbaycanın qurtuluş tarixi" və "Böyük xilaskar" kitabları SSRİ-nin dağılması, müstəqillik meyillərinin güclənməsi, Azərbaycanın müstəqil dövlətə çevrilməsi və müstəqil dövlət quruculuğu prosesində ümummilli liderimizin fəaliyyətini təsvir

edir. Kitablarda Heydər Əliyevin bütün bu proseslərdəki rolu, fəaliyyətinin məqsəd və mahiyyəti, nəticələr düzgün qiymətləndirilir. Hesab edirəm ki, xüsusən erməni lobbisinin ciddi səyi ilə SSRİ rəhbərliyindən istefaya göndərilən Heydər Əliyevin sonrakı fəaliyyətinin Azərbaycanda başlanan xalq hərəkatına təsiri, 1990-cı illərdən bu hərəkatın milli azadlıq hərəkatına çevrilməsindəki rolu çox düzgün şərh edilir.

Mən bu məsələyə bir neçə dəfə toxunmuşam, lakin bu gün bir daha qayıtmaq istəyirəm. Bəzən siyasi ədəbiyyatda 1988-99-cu illərdə Dağlıq Qarabağda erməni separatçılarının fəaliyyətinə, Moskvanın bu məsələyə ədalətsiz münasibətinə və o zamankı Azərbaycan rəhbərliyinin milli maraqlara zidd mövqeyinə qarşı Azərbaycanda başlanan kütləvi xalq etirazlarını, o zamankı mitinq və yürüşləri milli azadlıq hərəkatı kimi təqdim edirlər. Əsasən də bu mövqe müxalifətin mətbu orqanlarında geniş yer alır. Ancaq bu, qətiyyən belə deyildir. Azərbaycanda 1990-cı ilin yanvar qırğınına qədər heç bir siyasi qüvvə SSRİ tərkibindən çıxmaq, müstəqil dövlətə, milli azadlığa nail olmaq haqqında məsələ qoymurdu. Bu, sadəcə olaraq, kütləvi xalq etirazı, ən yaxşı halda, xalq hərəkatı idi. Milli azadlıq, müstəqillik uğrunda mübarizə, SSRİ-yə qarşı açıq hərəkat və çağırışlar isə 1990-cı ilin yanvar hadisələrindən sonra səslənməyə və getdikcə intensivləşməyə başladı. Buna əsas təkan verən hadisə isə 1990-cı ilin 20 yanvar qırğını və Heydər Əliyevin yanvar ayının 21-də Moskvada SSRİ rəhbərliyini ifşa edən, onları Azərbaycan xalqının günahsız qanının axıdılmasında ittiham edən çıxışı oldu.

Vətənimizin, onun müstəqilliyinin düşmənləri çox gözəl dərk edirdilər ki, Azərbaycanı düşmüş olduğu bu olduqca ağır və mürəkkəb vəziyyətdən çıxarmağa yalnız bir şəxsiyyət – öz zəngin

siyasi təcrübəsi. uzaqgörənliyi və qətiyyəti ilə dövrünün siyasi xadimləri içərisində seçilən Heydər Əliyev şəxsiyyəti qadirdir. Təsadüfi deyildi ki, həmin günlərdə həm Moskvada, həm də Bakıda o zamankı Kommunist partiyası rəhbərləri bütün gücləri ilə Heydər Əliyevə qarşı mübarizəyə başladılar, onu siyasi həyatdan təcrid etmək, Bakıya, Azərbaycana buraxmamaq üçün bütün tədbirləri gördülər. Heydər Əliyevin Azərbaycana qayıdışı ilə bütün respublikada, xüsusən onun məcburi təcriddə yaşamağa sövq edildiyi Naxçıvanda əsl milli azadlıq hərəkatı başlandı. Qısa müddətdə Naxçıvan milli mücadilənin mərkəzinə çevrilərək, SSRİ və Kommunist partiyası ilə bağlı bütün dövlət atributlarını dəyişdi, SSRİ-nin saxlanılması haqqında referendumdan imtina etdi, milli varlığımızı və müstəqilliyimizi təsdiq edən qərarlar qəbul olunması ilə Bakıya öz təzyiqlərini gücləndirdi.

Mən bu hadisələri sadalamaqla vaxtınızı çox almaq istəmirəm. Lakin demək istəyirəm ki, Azərbaycanda milli azadlıq hərəkatının banisi və rəhbəri məhz elə Heydər Əliyev olubdur. Bunu ümummilli liderin müstəqilliklə bağlı 1990-1991-ci illərdə həyata keçirdiyi bütün fəaliyyət də, nitqləri də, "Azərbaycanın qurtuluş tarixi" kitabında həmin dövrün təsviri də bir daha tədqiq edir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi olubdur. Xalqımızın böyük oğlu 1993-cü ildə dövləti dağılmaqdan, məhv olmaqdan xilas etməklə bərabər, sonrakı illərdə onu öz əli ilə qurub və möhkəmləndiribdir.

Heydər Əliyevin qurtuluş missiyası bilavasitə 1993-cü ilin iyun ayında – onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlandı. Həmin dövrdə Azərbaycan böyük təhlükələrlə üz-üzə dayanmışdı. AXC-Müsavat cütlüyü cəmi birillik hakimiyyəti dövrün-

də milli və vətəndaş qarşıdurması yaratmış, respublikanı siyasi, iqtisadi, sosial və hərbi böhrana düçar etmiş, beynəlxalq aləmlə münasibətləri kəskinləşdirmiş və dövlətçiliyi çətin sınaq qarşısında qoymuşdu.

Azərbaycan rayonlarının bir-birinin ardınca Ermənistan tərəfindən işğalı, yüz minlərlə insanın didərgin vəziyyətinə salınması və evsiz-eşiksiz qalması, daxili silahlı toqquşma və vətəndaş müharibəsi faktları da nəzərə alınsa, ölkəmizin nə qədər ağır vəziyyətdə olduğunu təsəvvür etmək çətin deyildi. Ölkəmiz məhv olmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. Məhz Heydər Əliyevin iradəsi, vətənsevərliyi və müdrik siyasəti ilə Azərbaycan bütün bu çətinlikləri dəf etdi. Bundan sonra həmin dağıdıcı qüvvələr 1995-ci ilin sonuna qədər Heydər Əliyevə mane olmaq, onu aradan götürmək və öz məkrli planlarını həyata keçirmək üçün müxtəlif yollara əl atdılar. Lakin onlar xalqını və vətənini ürəkdən sevən, onun yolunda hər cür məhrumiyyətlərə hazır olan, iradəli, müdrik və cəsarətli bir liderlə üz-üzə gələrkən məğlub oldular. Azərbaycan öz müdrik və vəfalı oğlunun rəhbərliyi ilə böyük milli faciə-lərdən xilas oldu. Bütün bu hadisələr ardıcıllıqla “Azərbaycanın qurtuluş tarixi”ndə təsvir edilir.

Heydər Əliyevin qurtuluş missiyasının mühüm bir mərhələsi 1995-ci ildən başlayır və 2003-cü ilə qədər davam edir. Faciə və dağılmaqdan xilas edilmiş Azərbaycan bu illərdə yenidən quruldu, inkişaf etdirildi və dünyanın qabaqcıl dövlətləri sırasına çıxarıldı. Qurtuluş tarixinin bu dövrünə xüsusi diqqət ayrılmalı və həmin dövrdə həyata keçirilən cahanşümul fəaliyyət, xüsusilə yeni neft strategiyası, iqtisadi, siyasi və sosial islahatlar geniş tədqiq olunmalıdır. İnanıram ki, “Azərbaycanın qurtuluş tarixi” üzərində işləmiş insanlar gələcəkdə bu işi də sona çatdıracaqlar.

Hörmətli təqdimat iştirakçıları!

Müasir Azərbaycan Heydər Əliyevin necə böyük, qüdrətli və tarixi şəxsiyyət olduğunu bariz surətdə sübut edir. Məhz buna görə də "Azərbaycanın qurtuluş tarixi" kitabını ümummilli liderimizin əziz xairəsinə böyük töhfə kimi qəbul etmək olar. Müstəqil Azərbaycana rəhbərlik etdiyi tarixən qısa bir müddətdə o, ölkəmizin inkişafının olduqca möhkəm təməlini qoydu, bu inkişafın perspektivlərini işıqlandıran ideya və prinsipləri müəyyən etdi. Bizə və gələcək nəsillərə bu böyük insanın, ümummilli liderin və XX əsrin görkəmli ictimai, siyasi və dövlət xadiminin həyatını, göstərdiyi fəaliyyəti yaxşı öyrənmək, ideyalarını mənimsəmək və həyatımıza tətbiq etmək qalır. Xalqımızın xoşbəxt gələcəyi bundan çox asılıdır.

Heydər Əliyevin dərindən düşünərək hazırladığı və qətiyyətlə həyata keçirdiyi daxili və xarici siyasət xətti bu gün bütün istiqamətlərdə uğurla davam və inkişaf etdirilir. Bunu ölkənin sosial-iqtisadi və siyasi mənzərəsi təsdiq edir. Bu məsuliyyətli və şərəfli missiyanın öhdəsindən ləyaqətlə gələn, Azərbaycanı Heydər Əliyev dühası işığında yaşadan Azərbaycan Prezidenti cənab İlham Əliyevdir.

Oktyabrın 15-də cənab İlham Əliyevin prezidentliyinin bir ili tamam olur. Heydər Əliyev kimi, o da prezidentliyinin ilk günündən özünün Azərbaycanın bütün vətəndaşlarının Prezidenti olduğunu bəyan etdi. Heydər Əliyev kimi, onun da siyasətinin prioritetləri ölkədə siyasi sabitliyin qorunub saxlanılması, demokratik cəmiyyətin qurulması, iqtisadiyyatın hərtərəfli inkişafı, əhalinin maddi və sosial problemlərinin yaxşılaşdırılması, Azərbaycanın ərazi bütövlüyünün bərpası və Avropaya inteqrasiyasından ibarətdir. Tam inamla deyə bilərik ki,

artıq arxada qoyduğumuz bu bir il Azərbaycan üçün uğurlu il olubdur. Sosial-iqtisadi problemlərimizin həllində, dövlət quruculuğunda və demokratiyanın inkişafında ölkə daha da irəli gedibdir. Prezident İlham Əliyevin 2004-cü il sentyabrın 24-də Amerikanın Kolumbiya universitetindəki çıxışında dediyi kimi, bu gün "Azərbaycan tam müstəqil siyasət həyata keçirən ölkədir. Biz heç bir ölkədən asılı deyilik, yalnız Azərbaycan xalqının iradəsindən asılıyıq". Bu, həqiqətən də belədir. Şübhə yoxdur ki, xalqımızın firavan gələcəyi naminə bu siyasət əbədi və dönməz olacaqdır.

Diqqətinizə görə sağ olun!

*"Xalq qəzeti",*
*3 oktyabr 2004-cü il.*

# İLHAM ƏLİYEVİN BİRİLLİK PREZİDENTLİYİ AZƏRBAYCAN XALQININ SİYASİ ŞÜURUNUN YÜKSƏK OLDUĞUNU BİR DAHA SÜBUT ETDİ

(AzərTAc-ın müxbirinə müsahibə)

***- Ramiz müəllim, cənab İlham Əliyevin Prezident vəzifəsində birillik fəaliyyətinin yekunları hazırda Azərbaycan ictimaiyyəti arasında ən çox müzakirə olunan mövzudur. Prezidentin İcra Aparatının rəhbəri kimi Siz bu bir ildə həyata keçirilən siyasət haqqında nə fikirdəsiniz?***

- Birmənalı şəkildə demək lazımdır ki, cənab İlham Əliyevin Prezidentliyinin bir ili Azərbaycan xalqının öz seçimində yanılmadığını, xalqın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. Prezident seçkiləri zamanı cənab İlham Əliyev xalqa, seçicilərə gələcək perspektivləri və onlara çatmağın real yollarını göstərdi, sözü ilə əməlinin bir olduğunu bəyan etdi. Prezident İlham Əliyev səlahiyyətlərini icra etdiyi bir il ərzində öz seçkiqabağı platformasının bütün istiqamətləri üzrə xalqa verdiyi vədləri yerinə yetirir. Bu istiqamətlər isə vahid siyasi xəttə söykənməklə yanaşı, çoxşaxəli və genişmiqyaslıdır: siyasi xətt ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət xəttini şəraitin tələblərinə uyğun olaraq yeniləşdirməklə davam etdirməkdən ibarətdir. Bu xəttin konkret təzahür formaları isə çox

genişdir: bütövlükdə ölkənin və regionların sürətli sosial-iqtisadi inkişafını nəzərdə tutan Dövlət proqramı, 5 ildə 600 min iş yerinin açılması, neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə qurulması, rəhbər işçilərin məsuliyyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, Azərbaycanın maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasət yeridilməsi, Avropa və dünya strukturlarına inteqrasiyanın davam etdirilməsi və s. Əminliklə demək olar ki, bu istiqamətlər və adını çəkmədiyimiz başqa vacib sahələr üzrə Azərbaycan Prezidentinin bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış fəaliyyət proqramları vardır. Bu istiqamətlərin və sahələrin hər biri üzrə qətiyyətli, sanballı, ölçülüb-biçilmiş tədbirlər görülmüş, səmərəli addımlar atılmış, qərarlar qəbul edilmişdir. Xüsusi qeyd etmək yerinə düşər ki, cənab İlham Əliyev bacarıqlı dövlət rəhbəri olmaqla yanaşı, öz sadəliyi, təvazökarlığı, səmimiliyi ilə insanların geniş hörmət və məhəbbətini qazanmışdır. Azərbaycana bilavasitə rəhbərlik etdiyi bu bir il ərzində İlham Əliyev xalqın sevimlisinə, onun dayağına çevrilmişdir. Daxildə də, xaricdə də Azərbaycanın təminatlı gələcəyi, onun uğurları məhz Prezident İlham Əliyevin adı ilə bağlanır.

***- Siz milli birlik məsələsinə toxundunuz. Azərbaycanın daxilində və xaricdəki maraqlı dairələrdə geniş müzakirə olunan bu məsələyə şərh verməyinizi xahiş etmək istəyirik.***

- İlk növbədə, milli birlik anlayışının mahiyyət və məzmunu üzərində dayanmaq istəyirəm. Bəzi insanlarda və siyasi qruplarda yayılmış təsəvvürlərdən fərqli olaraq, demək lazımdır ki, Azərbaycanda, sözün geniş mənasında, milli birlik və həmrəylik təmin edilmişdir. Azərbaycanda əsas əhali qrupları, sosial təbəqələr, etnik və dini icmalar arasında bir ümummilli həmrəylik, əməkdaşlıq, qarşılıqlı yardım ovqatı mövcuddur. Adlarını çəkdiyimiz insan qrupları öz yaşayışını, gələcəyini cəmiyyətə inteqrasiya olunmaqda, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməkdə görürlər. Eyni zamanda, özlərini milli birlikdən və həmrəylikdən kənarda qoyan, korporativ, qrup maraqlarını milli və dövlət maraqlarından üstün tutan azsaylı insanlar da vardır. Bütün azərbaycanlıların Prezidenti olacağına söz vermiş və bu yöndə konkret addımlar atan cənab İlham Əliyev siyasi mövqeyindən və hakimiyyətə münasibətindən asılı olmayaraq, bu insan qruplarının da cəmiyyətə inteqrasiya olunmasında, milli problemlərin həllində konstruktiv mövqedən çıxış etməsində maraqlıdır. Bu baxımdan Prezident İlham Əliyevin ifrat radikal müxalifət başçılarına dialoq təklifi, onları ümummilli mənafelər naminə əməkdaşlığa dəvət etməsi onun humanizminin, daxili mədəniyyətinin, müasir düşüncə tərzinin göstəricisidir. Öz tərəfimdən bildirmək istəyirəm ki, ölkəmizdə milli birliyin, ümummilli həmrəyliyin təmin olunması istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir.

***- Ötən bir il ərzində cəmiyyətin demokratikləşməsi, xüsusilə əsas insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər, bu istiqamətdə atılacaq yeni addımlar haqqında nə deyə bilərdiniz?***

- Azərbaycanda demokratik dəyərlərin və prinsiplərin dərin kök salması, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaş-

ması, ilk növbədə, ictimai-siyasi sabitliyin mövcudluğundan asılıdır. Çünki cəmiyyətdə sağlam əsaslara söykənən və dönməz xarakter daşıyan ictimai-siyasi sabitlik olmadan hansısa siyasi, sosial-iqtisadi islahatlardan danışmaq mənasız görünərdi. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində də Azərbaycanda ictimai-siyasi sabitliyin vacib olduğunu və onu pozmaq istəyən dairələrin niyyətlərinin baş tutmayacağını bildirmişdir. Cənab Prezident gələcəkdə Azərbaycanda demokratiyanın daha da inkişaf edəcəyini, siyasi plüralizm və söz azadlığının təmin olunacağını qeyd edərək bildirmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir.

Hamıya aydındır ki, Heydər Əliyev siyasəti ictimai-siyasi sabitlik, sülh və əmin-amanlıq, tərəqqi deməkdir. Buna görə də nəzərə alınmalıdır ki, ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ictimai-siyasi sabitlik cəmiyyətin siyasi, sosial-iqtisadi əsaslarının keyfiyyətcə yeniləşməsini, habelə ictimai şüurun demokratik prinsiplər əsasında formalaşmasını və inkişafını şərtləndirmişdir. Son bir il də daxil olmaqla, on il ərzində həm ölkə vətəndaşlarında, həm də beynəlxalq ictimaiyyətdə Azərbaycandakı ictimai-siyasi sabitliyin dönməz xarakter daşıdığı və artıq institutlaşdığı qənaəti yaranmışdır. İctimai-siyasi sabitlik şəraitində son bir il ərzində demokratiyanın inkişafı, o cümlədən fundamental insan azadlıqlarının təmin olunması yönündə mühüm addımlar atılmışdır. İnsan hüquqlarına dair beynəlxalq konvensiyaların əsas müddəalarını, müstəqil dövlətimizin Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri, Azərbaycan Konstitusiyasının təsbit etdiyi hüquqları rəhbər tutaraq, Azərbaycan hökuməti demokratik dəyərlərin

mühüm tərkib hissəsi olan söz və fikir azadlığının təmin olunması yönündə mühüm işlər görmüşdür. Bu gün Azərbaycanda çoxsaylı kütləvi informasiya vasitələri mövcuddur. Ötən bir il ərzində Milli Məclisdə ictimai televiziya haqqında qanun layihəsi qəbul olunmuş, kütləvi informasiya vasitələrinin azad və sərbəst fəaliyyət göstərməsi üçün Heydər Əliyev tərəfindən yaradılmış demokratik şərait qorunub saxlanılmışdır. Hazırda 600-dən çox qəzet və jurnalın nəşr edilməsi, mərkəzi və regional televiziyaların sərbəst fəaliyyət göstərməsi ölkəmizdə KİV sahəsində demokratiyanın göstəricisidir.

***- Yerli və beynəlxalq ictimai rəydə Prezident İlham Əliyevin humanist siyasət həyata keçirdiyi artıq qəbul olunmuşdur. Sizin fikrinizcə, ictimai rəydə bu cür yekdil fikrin formalaşması hansı səbəblərdən irəli gəlir?***

- İftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda humanist siyasətin bünövrəsi görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuşdur. Sevindirici haldır ki, bu gün də humanizm prinsipi dövlət idarəçiliyinin mühüm istiqamətlərindən birini təşkil edir. Prezident seçildikdən sonra cənab İlham Əliyevin ardıcıl olaraq imzaladığı əfv fərmanları bunun bariz nümunəsidir. Onun Azərbaycanın dövlət başçısı olduğu vaxtdan bu günə qədər dörd əfv fərmanı imzalanmış və nəticədə 923 nəfər məhbus azadlığa buraxılmışdır. Əfv olunanların sırasına Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və dövlət hakimiyyəti əleyhinə törədilmiş cinayətlərdə iştirak etdiklərinə görə məhkum edilmiş şəxslər də daxildir. Bu isə Azərbaycan Prezidentinin humanizm prinsipinə sadiq qaldığını bir daha sübut edir.

Təəssüf ki, anti-Azərbaycan mövqeyində dayanan bəzi qruplar və xaricdəki müəyyən dairələr radikal müxalifətin yalan

informasiyaları əsasında Azərbaycanda ötən dövr ərzində insan hüquqlarının qorunması sahəsində iqtidarın gördüyü işlərə kölgə salmaq istəyir. Azərbaycan iqtidarı radikal müxalifətin və ona himayədarlıq edən bəzi xarici dairələrin ədalətsiz və əsassız ittihamlarını qəbul etmir. Çünki həmin təşkilatların fəaliyyətləri səmimiyyət üzərində qurulmayıb və onları əsl gerçəkliklər deyil, öz məqsədləri maraqlandırır.

***- Ramiz müəllim, son bir ildə sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bir çox ekspertlər bu dövrü Azərbaycanın inkişafının yeni mərhələsi kimi səciyyələndirirlər. Ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri müəyyənləşdirilmişdir. İndiki mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi barədə nə deyə bilərsiniz?***

- Heydər Əliyevin titanik səyləri nəticəsində XX əsrin 70-80-ci illərində yaradılmış güclü iqtisadi potensial müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi inkişafının möhkəm təməli rolunu oynamışdır. Heydər Əliyev tərəfindən müəyyən edilmiş və həqiqi elmi əsaslara malik sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının davamlı inkişafını təmin etmiş, bu istiqamətdə nailiyyətlərin əldə olunmasına zəmin yaratmışdır.

15 oktyabr prezident seçkilərindən sonra Heydər Əliyevin iqtisadi layihələrinin reallaşdırılması davam etdirilmiş, iqtisadi siyasətimizin yeni prioritetləri, Azərbaycan iqtisadiyyatının inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Bu məsələ ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifələr qoyulmuş, onların həyata keçirilməsi üçün qüvvələr və imkanlar səfərbər edilmiş və qeyd edə bilərəm ki, atı-

lan addımlar artıq bəhrəsini verməkdədir. Bazar iqtisadiyyatının gücləndirilməsi, xarici sərmayələrin regionların inkişafına cəlb edilməsi, yeni istehsal sahələrinin açılması, əhalinin məşğulluğunun artırılması, qlobal iqtisadi layihələrin həyata keçirilməsi iqtisadi inkişaf proqramının əsasını təşkil edən prinsiplərdir. Bütün bunların reallaşdırılması nəticəsində Azərbaycan regionun və dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsinə çevrilməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə Röyter agentliyinə müsahibəsində bu sahədə görülən işlər barədə demişdir ki, artıq ölkəmizdə vacib olan islahatlar, əsasən, həyata keçirilmiş, çox mühüm qanunlar qəbul edilmişdir. İqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan azad edilməsi, özəl sektora dəstək verilməsi, sahibkarlığın inkişafı üçün kreditlərin ayrılması və ən əsası, beynəlxalq əhəmiyyətə malik və Azərbaycana mühüm dividendlər vəd edən nəhəng enerji layihələrinin həyata keçirilməsi sahəsində zəruri addımlar atılmış, uğurlu nəticələr əldə edilmişdir. Azərbaycan Prezidenti bildirmişdir ki, iqtisadiyyatı hökumətin hansısa iqtisadi layihəyə müdaxiləsi yolu ilə deyil, lazımi infrastrukturun və özəl sektorun sərmayəsi hesabına maliyyə mənbələrinin yaradılması vasitəsilə stimullaşdırmaq qarşıya məqsəd qoyulmuşdur. Bu isə sahibkarlıq fəaliyyətinin daha da inkişaf etdirilməsini, orta sinfin gücləndirilməsini nəzərdə tutur. Sahibkarlığa, orta sinfə diqqətin artırılması, əlbəttə ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün vacib şərtlərdən biridir. İqtisadiyyatın inkişafı üçün neft mühüm amil olaraq qalır, lakin əsas məqsəd neftdən və digər sahələrdən əldə olunan gəlirlərdən istifadə edərək, qeyri-neft sektorunun inkişafına nail olmaqdır. Bazar iqtisadiyyatı

inkişaf etdirilməli, bazar inhisarçılıqdan azad olunmalı, qanunların təkmilləşdirilməsi prosesi davam etdirilməli, sahibkarlığa yardım artırılmalı, özəlləşdirmə başa çatdırılmalı və beləliklə, iqtisadiyyatın qeyri-neft sektoru gücləndirilməlidir. Bunun üçün bütün imkanlar var, dövlət əldə olan vasitələrdən istifadə edərək, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində israrlıdır və bu istiqamətdə qəti addımlar atılır.

***- Məlumdur ki, neft sənayesi Azərbaycanın iqtisadi dirçəlişinin təməl daşı olmuşdur və bu gün də ölkə iqtisadiyyatının ən mühüm sahəsini təşkil edir. Hazırda beynəlxalq əhəmiyyətli enerji layihələri həyata keçirilir və ölkə əhalisi, habelə bütün region bu layihələrin başa çatmasından çox şey gözləyir. Bütün bunlar nə dərəcədə realdır?***

- 10 il bundan əvvəl "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyev Azərbaycanın nəinki neft strategiyasının təməlini qoymuş oldu, ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının ana xəttini müəyyən etdi. O, bu layihələrin həyata keçirilməsi istiqamətində qəti addımlar atmaqla Cənubi Qafqaz regionunu dünyanın diqqət mərkəzinə gətirdi, Azərbaycanın iqtisadi cəhətdən dünya birliyinə inteqrasiyasının təməlini qoydu. Məhz onun müdrikliyi, uzaqgörənliyi, qətiyyəti, cəsarəti sayəsində Azərbaycanın gələcək inkişafını şərtləndirən müqavilələr imzalandı. Ötən dövr Heydər Əliyev seçiminin düzgünlüyünü, həyatiliyini isbat etdi.

Məlumdur ki, "Əsrin müqaviləsi"nin imzalandığı dövrdən başlayaraq, böyük şirkətlərin Azərbaycana marağı artdı, xarici sərmayə qoyuluşuna görə Azərbaycan liderlər sırasına çıxdı. Artıq Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələrin ümumi həcmi 17 milyard dollar təşkil edir. Hazırda "Azəri-Çıraq-

Günəşli" yataqlarında çıxarıla bilən neft ehtiyatı 730 milyon ton təşkil edir ki, bu da onların dünyada ən zəngin yataqlardan olduğunu göstərir. 1999-cu ilin sonundan başlayaraq, Azərbaycana 4,5 milyon tondan çox mənfəət nefti verilmişdir ki, bu da 200 milyon dollar gəlir deməkdir. Proqnozlara görə, 2005-ci ildə dövlətin neft gəlirləri daha da artacaqdır. Ölkəmizə gətirilən sərmayələr Azərbaycanın neft sektorunun inkişafında böyük rol oynamaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan verdi. 25 neft şirkəti ilə imzalanmış 23 neft müqaviləsi çərçivəsində Azərbaycana 50 milyard dollardan çox sərmayə qoyulacaqdır. Sevindirici haldır ki, həyata keçirilən layihələrdə çalışan 16 min nəfərin 75 faizi Azərbaycan vətəndaşıdır. Artıq Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin tikintisi tam sürətlə gedir. Bir neçə gün əvvəl Ağstafa rayonu ərazisində kəmərin Gürcüstan və Azərbaycan hissələrinin təntənəli surətdə birləşdirilməsi mərasimi keçirildi. Eyni zamanda, böyük həcmdə Azərbaycan qazının Avropaya nəqli üçün Bakı-Tbilisi-Ərzurum kəmərinin reallaşdırılması istiqamətində də işlər uğurla davam etdirilir.

Bilirsiniz ki, bu il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 10 illiyi təntənəli surətdə qeyd olundu. Bu mərasimə olan yüksək diqqət, dünyanın aparıcı dövlət rəhbərlərinin təbrik məktubları Heydər Əliyevin neft strategiyasının bütün dünya üçün böyük əhəmiyyətini bir daha nümayiş etdirdi. Dövlət başçılarının məktublarında bir daha qeyd edildi ki, dünyanın böyük iqtisadi potensiala malik ölkələri Azərbaycana qlobal iqtisadi layihələrin reallaşmasında nüfuz və həlledici söz sahiblərindən biri kimi yanaşırlar. Bununla yanaşı, Prezident İlham Əliyevin Azərbaycanın siyasi, iqtisadi, sosial inkişafı sahəsindəki fəaliyyətinin uğurlu olduğu bir daha vurğulandı, Azərbaycanda ictimai-siyasi

sabitliyin dövlət mexanizminin yarandığı xüsusi qeyd edildi, ölkəmizə böyük həcmdə sərmayə qoyuluşunun bundan sonra da davam etdiriləcəyi təsdiq olundu. Həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış və Prezident İlham Əliyevin fəal iştirakı ilə davam etdirilən neft layihələrinin ən böyük nailiyyəti odur ki, Azərbaycanın beynəlxalq nüfuzu gücləndi, neft şirkətlərinin ardınca ölkəmizə çoxlu sayda beynəlxalq sərmayəçilər gəldilər, iqtisadiyyat sürətlə inkişaf etməyə başladı, Azərbaycan dünya enerji bazarında öncül sıralara keçdi, bütünlükdə regionun sosial-iqtisadi inkişafına geniş perspektivlər açıldı.

Bütün deyilənlər bir daha sübut edir ki, Heydər Əliyevin sosial-iqtisadi inkişaf doktrinasının reallaşdırılması nəticəsində Azərbaycanda güclü iqtisadi baza yaradılmışdır. Bu gün demokratik, hüquqi, sivil, dünyəvi, iqtisadiyyatı inkişaf edən, sosial problemlərinin həllinə ciddi diqqət yetirilən müstəqil Azərbaycan Respublikasının dünya iqtisadi və siyasi birliyinə inteqrasiyası prosesi daha da sürətlənmişdir. Azərbaycan qlobal enerji-iqtisadi layihələrin mərkəzinə, dünyanın aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların hörmət və diqqətlə yanaşdığı nüfuzlu dövlətə çevrilmişdir.

***- İlham Əliyev seçki kampaniyası dövründə iqtisadiyyatın inkişaf etdirilməsi, sosial problemlərin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması sahəsində böyük işlərin görüləcəyini bildirmişdi. Bu məsələ ilə bağlı nə deyə bilərsiniz?***

- Qeyd etməliyəm ki, cənab İlham Əliyev hələ prezident seçkiləri ərəfəsində sosial-iqtisadi inkişaf, əhalinin güzəranının yaxşılaşdırılması, sosial problemlərin həlli ilə bağlı bir neçə maraqlı ideya ilə çıxış edirdi. O qeyd edirdi ki, Azərbaycanda son

illərdə aparılan iqtisadi siyasət çox uğurlu olmuşdur və onun gələcək inkişafı üçün gözəl təməl yaranmışdır. Bizim hamımızın əsas vəzifəsi odur ki, bu siyasəti davam etdirək, əldə olunan uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün mövcud imkanlardan istifadə edək, möhkəm təməl üzərində yaradılmış müstəqil Azərbaycan dövlətini əbədi yaşadaq. Cənab İlham Əliyev vacib şərt kimi, ilk növbədə, yoxsulluğun azaldılması və yeni iş yerlərinin açılması istiqamətində ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini, sahibkarlığa dövlət yardımının davam etdirilməsini, regional inkişafın təmin edilməsini vurğulamışdır. Prezident Azərbaycanın hər bir regionunun, hər bir bölgəsinin inkişaf etməsini hökumət qarşısında əsas vəzifə kimi qoymuşdur.

Azərbaycan Prezidenti seçkilərdən dərhal sonra, 2003-cü il noyabrın 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzaladı. Fərman son illərdə müəyyən olunmuş sosial-iqtisadi planların tam həcmdə yerinə yetirilməsini, işsizliyin aradan qaldırılması istiqamətində tədbirlərin hazırlanmasını, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması, regionların inkişaf etdirilməsi məqsədi ilə dövlət proqramlarının hazırlanmasını, aqrar sektorda islahatların ikinci mərhələsinin başlanmasını, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini təmin etmək üçün əmək haqlarının artırılmasını, vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasını, özəlləşdirmənin sürətləndirilməsini, inhisarçılığın məhdudlaşdırılmasını və haqsız rəqabətin aradan qaldırılmasını və s. mühüm işləri nəzərdə tuturdu. Bununla yanaşı, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə tapşırıldı ki, əhalinin problemləri ilə daha yaxından məşğul olsunlar, onların haqlı tələblərinin həllini təmin etsinlər.

İqtisadiyyatın inkişaf etdirilməsi, cəmiyyətin qarşısında duran problemlərin kompleks həlli üçün sahibkarların rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyevin 2004-cü il fevralın 1-də sahibkarlarla görüşü xüsusi əhəmiyyət kəsb etmişdir. Cənab Prezident həmin görüşdə sahibkarları narahat edən məsələlərlə yaxından tanış olmuş və cəmiyyətimizə, xüsusilə də dövlət orqanlarına nümayiş etdirmişdir ki, Azərbaycan Prezidenti kimi o, bütün sahibkarları dəstəkləyir, onlara öz siyasi dəstəyini verir və gələcəkdə də sahibkarlığın inkişafına diqqətini əsirgəməyəcəkdir. Həmin görüşdə Prezident inhisarçılığın yolverilməzliyini qeyd etmiş, sahibkarlara süni maneələrin yaradılmasını, hüquq mühafizə orqanlarının sahibkarların işinə müdaxiləsini pisləmiş, müvafiq dövlət strukturlarına xəbərdarlıq edərək, sahibkarların problemlərinin dövlətin diqqət mərkəzində olduğunu onların nəzərinə çatdırmışdır.

Azərbaycanda həlli vacib olan prioritet məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirmək, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına, ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Azərbaycan Prezidenti ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi, 2004-cü il fevralın 11-də "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman imzalamışdır. Dövlət proqramı olduqca böyük və regionların inkişafı üçün bütün zəruri məqamları əks etdirən mühüm sənəddir. Dövlət proqramında kənd təsərrüfatı məhsulları istehsalının artırılması, qeyri-neft sektorunun, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin

yaradılması, turizmin inkişafının təmin edilməsi, məşğulluğun səviyyəsinin yüksəldilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, bölgələrdə müasir tipli elektrik stansiyalarının tikilməsi, yolların və kommunikasiya xətlərinin çəkilməsi, sahibkarlığın inkişaf etdirilməsi istiqamətində kompleks tədbirlər görülməsi, sahibkarlığın inkişafına maliyyə yardımının artırılması kimi prinsipial məqamlar öz əksini tapmışdır. Həmçinin regionlarda təhsil, elm, səhiyyə sahələrində mühüm işlərin görülməsi nəzərdə tutulmuşdur.

Yuxarıda əsas məqamlarına nəzər yetirdiyimiz iki sənəd ümumilikdə Azərbaycanın sosial-iqtisadi inkişafının başlıca istiqamətlərini müəyyən etmiş, qarşıya çətin, lakin həlli mümkün və Azərbaycan xalqına xoşbəxt gələcək vəd edən vəzifələr qoymuşdur. Böyük Britaniyanın nüfuzlu "The Ekonomics" jurnalının yazdığı kimi, İlham Əliyev Prezidentliyinin ilk dövrünü islahatlara sərf edib və onun işi sübut edir ki, bu dövlətin iqtisadi və siyasi həyatında ciddi müsbət dəyişikliklər baş verəcəkdir. Bütün bunlarla yanaşı, yoxsulluğun azaldılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasına dair dövlət proqramlarını, iqtisadi və sosial problemlərin aradan qaldırılması, sürətli inkişafın təmin edilməsi istiqamətində verilən digər fərman və sərəncamları da qeyd etmək yerinə düşərdi.

***- Cənab İlham Əliyev seçkilərdən əvvəl və sonrakı dövrdə dəfələrlə bildirmişdir ki, Azərbaycanda güclü iqtisadi baza, gözəl sərmayə mühiti var və bu amillərə əsaslanaraq, iqtisadiyyatın inkişaf etdirilməsi vacibdir. Ötən illər ərzində sosial-iqtisadi bazanın gücləndirilməsi sahəsində görülən işlər yuxarıda mühüm məqamlarını şərh etdiyiniz Dövlət proqramının, Prezidentin fərman və sərəncamlarının icra edilməsinə şərait yaradırmı?***

- 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin titanik səyləri, uzaqgörən, praqmatik siyasətinin həyata keçirilməsi Azərbaycanın hərtərəfli inkişafına zəmin yaratdı. 1993-cü ildə bütün sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da güclü tənəzzül var idi, inflyasiyanın səviyyəsi təhlükəli həddi keçmiş, zavodlar, fabriklər fəaliyyətini dayandırmış, işsizlik ciddi problemə çevrilmiş, anarxiya, məmur özbaşınalığı, xalqın sərvətlərinin talanması geniş miqyas almışdı. Digər tərəfdən isə ölkədə qeyri-sabit, təhlükəli siyasi vəziyyət mövcud idi, müxtəlif cinayətkar qruplar tüğyan edir, müstəqilliyə qənim kəsilmiş daxili və xarici qüvvələr fəallığını daha da artırmışdı. Belə bir vəziyyətdə yalnız Heydər Əliyev zəkası, uzaqgörənliyi, müdrikliyi ölkəni olduqca ağır iqtisadi-siyasi durumdan çıxara bilərdi. Ötən illər ərzində biz bir daha bunun şahidi olduq.

Zənnimcə, qısa zaman kəsiyində mühüm sıçrayışın baş verdiyini təsdiq edən statistikaya müraciət etsək, daha düzgün olardı. Siyasi, iqtisadi və sosial sahələrdə qətiyyətlə islahatlar aparılması nəticəsində 1994-2003-cü illərdə iqtisadiyyatın əksər sahələrində 2-7 dəfə artım baş vermişdir, iqtisadiyyatda özəl sektorun payı 1990-cı illərin əvvəllərindəki 25-30 faizdən 2004-cü ildə 70-75 faizə çatmışdır. 1990-cı illərin ortalarında dövlət büdcəsinin 55-60 faizi neft sektorundan, 40-45 faizi qeyri-neft bölməsindən formalaşırdısa, 2003-cü ildə neft sektorunun payına yalnız 32-33 faiz düşmüşdür. Son 5-6 ildə əhalinin pul gəlirləri xərclərindən 10-10,5 faiz çox olmuşdur. 1996-1997-ci illərdən başlayaraq, iqtisadiyyatın artım sürəti orta hesabla ildə 10 faiz təşkil etmişdir. 1995-2003-cü illərdə ümumi daxili məhsul (ÜDM) 1,9 dəfə, kənd təsərrüfatı məhsulları 1,6, əhalinin pul gəlirləri 3,6, orta aylıq əmək haqqı 6, aylıq pensiyaların orta

məbləği isə 7,7 dəfə artmışdır. Xatırladaq ki, 2003-cü ilin ikinci yarısında əhalinin böyük qisminin - müəllimlərin, səhiyyə, mədəniyyət, incəsənət, mətbuat işçilərinin maaşları, pensiyalar xeyli artırılmışdır. Bununla yanaşı, hüquq mühafizə orqanları işçilərinin, Müdafiə Nazirliyi əməkdaşlarının maaşlarında da ciddi artım olmuşdur. 2004-cü ilin 5 ayı ərzində isə orta aylıq əmək haqqı 449,2 min manat təşkil edərək, 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 19,1 faiz çox olmuşdur.

Dünya Bankının hesablamalarına görə, Azərbaycanda yoxsulluğun azalması meyli müşahidə olunur. 1996-cı ildə yoxsulluq 61 faiz, 2001-ci ildə 49 faiz, 2002-ci ildə 46,7 faiz, 2003-cü ildə isə 44,7 faiz təşkil etmişdir.

MDB Statistika Komitəsi Birlik ölkələrində iqtisadi artım sürətinə görə bütün hesabatlarında Azərbaycanın lider olduğunu göstərir. Məsələn, 2004-cü ilin fevralına olan məlumatda qeyd edilir ki, ÜDM-in artımına görə Azərbaycan MDB məkanında ikinci (11,2 faiz), inflyasiyanın səviyyəsinin aşağı olmasına (3,6 faiz) və sərmayələrin həcminə görə (71 faiz) birincidir.

Azərbaycanın xarici borcu 1,6 milyard dollar təşkil edir ki, bu da MDB-də və Şərqi Avropada ən aşağı göstəricidir. İndiyə kimi Azərbaycan iqtisadiyyatına 17 milyard dollar sərmayə yatırılıb ki, bu da Azərbaycanın MDB və Şərqi Avropa məkanında liderlər sırasında olduğunu göstərir. “World Today” agentliyinin MDB məkanında baş verən proseslərlə bağlı keçirdiyi sorğunun bu ilin mayında ABŞ-ın “The Wall Street Journal” qəzetində dərc olunmuş nəticələri Azərbaycanda bütün sahələrdə irəliləyişin olduğunu göstərir. Burada son illər ərzində MDB ölkələrində demokratikləşmənin səviyyəsi ilə bağlı rəqəmlər

açıqlanmışdır. Göstərilir ki, Azərbaycanda iqtisadi inkişaf növbəti 10 ildə ən yüksək həddə - 70 faizə çatacaqdır.

Yeri gəlmişkən, Azərbaycanda demokratiyanın inkişaf səviyyəsi ilə maraqlananların diqqətinə çatdırmaq istərdik ki, elə həmin hesabatda Azərbaycanda bu sahədə ciddi irəliləyişin olduğu vurğulanmışdır. Ölkəmizə aid bölmədə qeyd edilmişdir ki, Azərbaycanda insan hüquqları ilə bağlı göstəricilər 70 faizə, siyasi dözümlülük sahəsində 62, dini tolerantlıq sahəsində 98,6, mətbuat azadlığı sahəsində 75, siyasi senzura sahəsində 92, qanunvericilik sahəsində 78, beynəlxalq öhdəliklərin yerinə yetirilməsində isə 90 faizə yüksəlmişdir.

Cənab İlham Əliyev Prezident seçildikdən sonra dövlətin iqtisadi siyasətinin başlıca vəzifələri olan regionların sosial-iqtisadi inkişafı, sahibkarlığa dövlət yardımının artırılması və nəticə etibarilə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, məşğulluğun artırılması sahəsində təsirli tədbirlər görülmüşdür və bunlar öz bəhrəsini verməkdədir. 2004-cü ilin birinci yarısında 18,5 trilyon manatlıq ÜDM istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz çoxdur. Göstərilən müddətdə istehsal sahələrində artım 12,9 faiz olmuşdur. Xarici sərmayələrin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 61,9 faiz, daxili sərmayələr isə 61,5 faiz artmışdır. Ölkənin təşkilat və müəssisələrinə 3511,9 milyard manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 27,6 faiz çox kredit verilmişdir. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə Prezidentin sərəncamlarına əsasən, alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələr, aspirantura, ali, orta ixtisas və peşə məktəblərinin, peşə liseylərinin tələbələrinə, şagirdlərinə təqaüdlər, daxili işlər orqanları işçilərinin vəzifə maaşları, Milli Təhlü-

kəsizlik Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin aylıq maaşları artırılmışdır. Ümumiyyətlə, minimum əmək haqqı 60 min manatdan 100 min manata çatdırılmışdır. 2005-ci ilin yanvar ayından isə bu rəqəm 125 min manat olacaqdır.

2004-cü ilin 8 ayının nəticələrinə dair statistik göstəricilər də bütün istiqamətlərdə işlərin uğurla aparıldığını sübut edir. Bu dövr ərzində ÜDM 9,5 faiz, əsas kapitala yönəlmiş sərmayələr 48 faiz, sənaye məhsulu 2,1 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 5,3 faiz artmışdır. Adambaşına düşən pul gəlirlərinin artımı 19,3 faiz, orta aylıq əmək haqqının artımı isə 24,2 faiz təşkil etmişdir. İlin sonuna ÜDM-in həcmi 40,3 trilyon manata olacaq, onun adambaşına düşən həcmi isə ilk dəfə 1000 dolları keçərək, 1020 dollar səviyyəsinə qalxacaqdır. 2004-cü ilin aprelinə olan məlumata görə, ölkəmizdə əhalinin 46,6 faizi və yaxud 3802,9 min nəfəri iqtisadi fəal əhalini təşkil edir. Onların 3747,9 min nəfəri və yaxud 98,6 faizi məşğul, 55,5 min nəfəri, yəni 1,4 faizi isə işsiz statusuna malikdir. Bu ilin may ayına olan məlumata görə, Azərbaycanın strateji valyuta ehtiyatları 1,5 milyard dolları keçmişdir. 2004-cü ildə Azərbaycan iqtisadiyyatına 3 milyard dollar sərmayə qoyuluşu gözlənilir. Əlbəttə, bütün bu müsbət göstəricilərin əldə edilməsində prezident seçkilərindən sonra qəbul olunmuş dövlət proqramlarının, fərman və sərəncamların və digər qərarların xüsusi rolu olmuşdur.

***- Prezident İlham Əliyevin fəaliyyəti deməyə əsas verir ki, qeyd edilən fərman və sərəncamların icrası şəxsən onun özünün nəzarətindədir. Dövlət başçısı Azərbaycanın regionlarına çoxsaylı səfərlər etmiş, aparılan işlərin vəziyyəti ilə tanış olmuşdur. Bölgələrdə görülən işləri, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası, xüsusilə də yeni iş yerlərinin açılması ilə bağlı vəziyyəti qənaətbəxş hesab etmək olarmı?***

- Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf proqramının ən mühüm müddəalarından biri qarşıdakı 5 ildə 600 min iş yerinin açılmasından ibarətdir. Ötən bir il ərzində ölkəmizin bütün şəhər və rayonlarında irili-xırdalı yüzlərlə müəssisə, sex, müxtəlif xidmət və iaşə obyektləri açılmışdır. Siz tamamilə düzgün qeyd edirsiniz: Azərbaycan Prezidenti regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icra vəziyyətinə şəxsən nəzarət edir, bölgələrə səfərlərə gedir, işlərin gedişi ilə maraqlanır və yeni müəssisələrin açılış mərasimində iştirak edir. Cənab Prezident artıq Lənkəran, Tovuz, Qazax, Gəncə, Yevlax, Quba, Qusar, Xaçmaz, Bərdə və s. bölgələrə, Naxçıvan MR-ə səfərlər edərək, işlərin gedişi ilə tanış olmuş, ictimaiyyət nümayəndələri ilə görüşmüş, yaranmış problemlərin aradan qaldırılması ilə bağlı öz tövsiyə və tapşırıqlarını vermişdir. Dövlət proqramının qəbulundan keçən 10 ay ərzində 80 minə yaxın iş yerinin açılması 5 ildə 600 min yeni iş yerinin yaradılması ilə bağlı irəli sürülən cəsarətli proqnozların real əsaslara söykəndiyini göstərir. Üstəlik, on minlərlə insanın mövsümi işlərə cəlb edilməsi də qeyd olunmalıdır. Nəzərə alsaq ki, yaxın gələcəkdə enerji layihələrinin işə düşməsi nəticəsində əldə olunan böyük gəlirlər də, əsasən, qeyri-neft sahəsinin inkişafına yönəldiləcək, iqtisadiyyatın inkişafında baş verəcək irəliləyişin miqyasını təsəvvür etmək mümkündür. Sözsüz ki, yeni iş yerlərinin açılmasında Sumqayıt elektrik stansiyasının, İmişli şəkər zavodunun, Bakıda yeni sement zavodunun və digər müəssisələrin tikilməsinin rolu böyük olacaqdır. Bununla yanaşı, Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına daha 15 min iş yerinin açılacağı gözlənilir. Beynəlxalq maliyyə qurumlarının qrantları, kreditləri hesabına yaradılacaq iş yerlərini də nəzərdən qaçırmamalıyıq. İstehsal sahələri yaratmaq üçün dövlət

zəmanətli kreditlərdən də geniş istifadə olunacaqdır. Bu xətt ilə daha 3 min iş yerinin açılması planlaşdırılır. Qeyd etməliyik ki, xarici sərmayəli müəssisələrin, sahibkarlıqla məşğul olan fiziki şəxslərin fəaliyyəti nəticəsində də yeni iş yerlərinin açılması gözlənilir. Özəlləşdirmə prosesi uğurla davam etdirilir. İndiyədək respublikada 30 minə yaxın kiçik və 1500-dən artıq orta və iri müəssisə özəlləşdirilmişdir. Bununla yanaşı, hazırda özəlləşdirmənin əsas məqsədi çoxlu sayda iş yerlərinin açılmasına səbəb olacaq iri müəssisələrin fəaliyyətinin bərpa edilməsindən ibarətdir.

Bütün bunlar onu deməyə əsas verir ki, proqramdan irəli gələn vəzifələrin icra vəziyyətini qənaətbəxş hesab etmək olar. Eyni zamanda, perspektiv daha genişdir, qarşıda bizi daha genişmiqyaslı işlərin həyata keçirilməsi gözləyir. Lakin bununla yanaşı, demək olmaz ki, bütün rayonlarda vəziyyət eyni səviyyədədir. Bəzi rayonlarda bu proses sürətlə gedir. Məsələn, Yevlax rayonunda son aylar ərzində böyük işlər görülmüşdür. Qəbələ, Lənkəran rayonlarında, Gəncədə, Sumqayıtda da işlər sürətlə gedir. Lakin bəzi şəhər və rayonlar da var ki, orada bu proses subyektiv səbəblərdən ləngiyir. Bəzi icra hakimiyyəti başçıları müxtəlif resurslardan istifadə edərək rayonda iqtisadi, sosial inkişaf problemlərini həll edirlər. Ancaq eləələri də var ki, görünür, buna bacarığı çatmır və ya potensialı tükənibdir. Hansı rayonda inkişaf varsa, onlara daha çox şərait yaratmalıyıq ki, işlərini davam etdirsinlər. İnkişaf təbii prosesdir, o, hər yerdə eyni ola bilməz. Biz bu məsələlərdə, əlbəttə ki, rayonların sosial-iqtisadi bazasını, biznes şəraitini, ümumiyyətlə, iqtisadi infrastrukturunu nəzərə alırıq. Harada şərait varsa, oranı inkişaf etdiririk, şərait yoxdursa, onun yaradılması istiqamətində işlər aparırıq. Ümumiyyətlə, bölgələrdə yüksək canlanma mövcud-

dur, geniş miqyasda işlər gedir, yeni müəssisələr, iş yerləri açılır, əhalinin sosial durumu ilə bağlı vəziyyət günü-gündən yaxşılaşır. Bu da əlbəttə, Azərbaycan Prezidentinin, dövlətinin apardığı məqsədyönlü siyasətin nəticəsidir.

Yeri gəlmişkən, 2005-ci ilin dövlət büdcəsi və hökumətin 3 illik proqnozları da iqtisadi inkişaf sürətinin çox yüksək olacağını göstərir. Belə ki, ilk dəfə olaraq, dövlət büdcəsi 2 milyard dollarlıq həddə çatmışdır. 2005-ci ildə Dövlət İnvestisiya Proqramı çərçivəsində həm yerli, həm xarici maliyyə mənbələri hesabına həyata keçiriləcək layihələr üzrə sərmayə qoyuluşunun ümumi həcmi 500 milyon dollar artacaqdır. Bu il dövlət büdcəsindən sahibkarlığın inkişafına 100 milyard manat vəsait ayrılmışdır. 2005-ci ildə isə bu rəqəm 200 milyard manat təşkil edəcəkdir. Ayrılmış 66,3 milyard manat kredit hesabına 5000-dən artıq iş yeri açılmışdır. 2005-ci ildə ÜDM-in artım sürəti 14,1 faiz, 2006-cı ildə 24,9 faiz, 2007-ci ildə 30,1 faiz, 2008-ci ildə isə 20,3 faiz artaraq 113 trilyon manat təşkil edəcəkdir. 2005-ci ildə ÜDM-in adambaşına düşən həcmi 1178 dollar, 2008-ci ildə isə 2264 dollar olacaqdır. Qeyri-neft sektorunun inkişafı ilə bağlı görüləcək işlər nəticəsində 2005-2008-ci illərdə bu sahənin orta illik artım sürəti 11 faiz təşkil edəcəkdir. 2005-ci ildə bütün maliyyə mənbələri hesabına sərmayə qoyuluşu 4,7 milyard dollar olacaqdır.

***- Məlumdur ki, son zamanlar beynəlxalq təşkilatlar, donor təşkilatları Azərbaycanda qaçqın və məcburi köçkünlərə yardımlarını azaltmışlar. Bu, onların problemlərinin həllinə mənfi təsir göstərmirmi və dövlət həmin təbəqədən olan insanlara diqqəti artırmaq üçün hansı işləri görür?***

- Hələ seçkilərdən əvvəl cənab İlham Əliyev qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində

mühüm işlərin görüləcəyini bildirmişdi. O, bəyan etmişdi ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Ümumiyyətlə, bu təbəqəyə aid insanlara dövlət xüsusi diqqət yetirir, onların problemlərinin həllinə çox həssas yanaşır və bu da təbiidir. Qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı iki Sərəncam imzalamış, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. Sərəncamlarda mövcud 7 çadır şəhərciyindən Bərdə və Ağcabədi rayonları ərazisində 4-nün ləğv edilməsi və 3860 məcburi köçkün ailəsinin yeni sosial-texniki infrastrukturu olan qəsəbələrə köçürülməsi qərara alınmışdır. Bundan başqa, Ağdam, Kəlbəcər, Laçın rayonlarından olan məcburi köçkünlərin sosial-məişət problemlərinin həlli ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Dövlət proqramında Bərdə, Ağcabədi, Saatlı və Sabirabad rayonlarında məskunlaşmış 8039 məcburi köçkün ailəsi üçün yeni qəsəbələrin salınması, 16 fin tipli qəsəbədə yaşayan 6315 məcburi köçkün ailəsinin yaşayış şəraitinin yaxşılaşdırılması, 6 mindən çox köçkün ailəsi üçün qəsəbələrin inşa edilməsi və digər məsələlər nəzərdə tutulur. Cənab Prezident Röyter agentliyinə müsahibəsində bildirmişdir ki, indiyədək qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə 100 milyon dollardan artıq vəsait sərf olunubdur. Təəssüflə qeyd etməliyik ki, beynəlxalq təşkilatların, donor təşkilatlarının yardımı qənaətbəxş deyildir. Dünyanın heç bir ölkəsində əhalinin sayına nisbətdə Azərbaycanda olduğu qədər qaçqın və məcburi köçkün yoxdur və beynəlxalq ictimaiyyət buna göz yummamalı, yardımlar azaldılmamalıdır. Azərbaycan hökuməti özünün bütün imkanlarından istifadə

edərək, bu insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür və görməkdə davam edəcəkdir. Lakin beynəlxalq təşkilatlar da kənarda qalmamalıdır.

***- Ölkəmizin ən ağrılı məsələsi olan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən qaçqınlar və məcburi köçkünlər problemi ilə bağlı Azərbaycanın mövqeyinin son bir ildə dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlət başçısı hansı addımları atıb?***

- Azərbaycan Prezidenti cənab İlham Əliyev Xarici İşlər Nazirliyindəki müşavirədə bəyan etdi ki, biz informasiya hücumuna keçməliyik. Mübaliğəsiz deyə bilərəm ki, informasiya savaşında cənab İlham Əliyevin fəal və hücumçu mövqeyi hamıya nümunə göstərilə bilər. İstər xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, istərsə də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərində cənab Prezident Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ və qaçqın-köçkünlər məsələsinə diqqəti yönəldibdir. Mən bir neçə misal çəkmək istərdim. Cənab Prezidentin AŞPA-da, Avropa Birliyində, NATO-nun İstanbul sammitində və bu sammit çərçivəsində keçirilən konfransda, BMT Baş Məclisinin 59-cu sessiyasında, ABŞ-ın Kolumbiya Universitetində keçirilən görüşdə etdiyi çıxışlarında, Fransanın "La Letr Diplomatik" jurnalına, Röyter agentliyinə və digər nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Ermənistanın işğalçılıq siyasəti önə çəkilmiş, Dağlıq Qarabağ və qaçqın-köçkünlər probleminin həllinə yönələn çağırışlar səslənmişdir. Cənab Prezidentin Röyter agentliyinə müsahibəsində dediyi kimi, etdiyi çıxışların məqsədi təkcə problem haqqında məlumat vermək yox, həm də Ermənistanın işğalçılıq siyasətinin doğurduğu təhlükəni bir daha diqqətə çatdırmaqdır.

Azərbaycan Prezidenti BMT Baş Məclisinin 59-cu sessiyasında cəsarətli çıxışı zamanı beynəlxalq birliyi Ermənistana ciddi təzyiq göstərmədiyinə görə kəskin tənqid etmişdir. Mən heç bir dövlət başçısının cənab İlham Əliyev qədər sərt və eyni zamanda, haqlı ittihamlarla dünya birliyinə müraciət etdiyini xatırlamıram. Azərbaycan Prezidentinin Röyter agentliyinə verdiyi müsahibəsində də bu münaqişənin həllində Azərbaycanın mövqeyi açıqlanıb və bir daha bildirilib ki, Azərbaycanın bu məsələdə kompromisə getməyə heç bir şeyi yoxdur. Cənab Prezident qeyd edib ki, danışıqlar naminə danışıqlar aparılmasının əleyhinədir. Biz görsək ki, bütün siyasi vasitələr tükənmişdir, suverenliyimizin bərpa olunması üçün heç bir yol yoxdur, onda digər hüquqlarımızı nəzərdən keçirəcəyik. Lakin Azərbaycan tərəfi münaqişənin həllində beynəlxalq təşkilatların köməyinə hələ də ümidini kəsmir. Hazırda ATƏT-də sədrlik edən Bolqarıstanın Prezidenti Georgi Pırvanov da bu yaxınlarda ölkəmizə səfəri zamanı BMT-nin, ATƏT-in, Avropa Birliyinin, NATO-nun səylərinin birləşdirilməsinin bu məsələnin həllində müsbət rol oynayacağını bildirmişdir. Azərbaycan Prezidentinin ABŞ-ın Kolumbiya Universitetində keçirdiyi görüşdə bu məsələ ilə bağlı səsləndirdiyi fikirlər ABŞ ictimaiyyətində çox böyük əks-səda doğurdu. Bunu görən ABŞ-ın erməni icmasının nümayəndələri Azərbaycan Prezidentinin yaratdığı təəssüratı neytrallaşdırmaq üçün həmin Universitetdə "Ermənilərin Amerikadakı bir əsrlik varlığı" mövzusunda konfrans keçirməyi qərara alıblar.

***- Ramiz müəllim, istərdik ki, Prezident İlham Əliyevin öz səlahiyyətlərini həyata keçirdiyi müddətdə ölkənin xarici siyasət xəttində prioritetlər və yeni meyillər barədə məlumat verəsiniz.***

- Azərbaycan müstəqillik qazandıqdan sonra dövlətin qarşısında bir sıra həyati əhəmiyyətli problemlərin həlli dayanırdı. İlk növbədə, Azərbaycanın suverenliyinin möhkəmləndirilməsi, informasiya blokadasının yarılması, iqtisadiyyatın bazar münasibətləri üzərində yenidən qurulması, demokratik islahatların həyata keçirilməsi, vətəndaşların təhlükəsizliyinin təmin olunması kimi məsələlərin həlli tələb olunurdu. 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın milli maraqlarına uyğun xarici siyasət xəttini həyata keçirməyə başladı. İkitərəfli münasibətlərdən başlamış Avropa və Avratlantik strukturlarına inteqrasiya olunmağa qədər uzun bir yol qısa müddət ərzində qət edildi. Azərbaycan dünya birliyinin layiqli üzvünə çevrildi. Heydər Əliyev Azərbaycanın xarici siyasət konsepsiyasını dəqiq ölçülüb-biçilmiş, dünyanın inkişaf meyilləri ilə ahəngdar şəkildə qurdu. Azərbaycanın təbii sərvətlərinin dünya bazarlarına çatdırılması yollarını müəyyənləşdirərək, regional mərkəzlər arasında iqtisadi əlaqələr yaratdı və ölkəmizi dünyada baş verən qloballaşma prosesinə cəlb etdi.

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladıqdan sonra Heydər Əliyevin xarici siyasət xəttinə sadiq qalmış, bu məsələdə də varislik prinsipini gözləməklə bərabər, qlobal meyillər nəzərə alınmaqla Azərbaycanın xarici siyasətinə dinamizm və yeni istiqamətlər gətirmişdir. Prezident bu il iyulun 27-də Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşdə Azərbaycanın xarici siyasəti qarşısında duran vəzifələri bir daha aydın şəkildə bəyan etdi. Bunlara dünya ölkələri ilə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq, xarici ölkələrdəki səfirliklərimizin fəaliyyətinin

genişləndirilməsi, Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlər problemi ilə bağlı dünya ictimaiyyətində dolğun təsəvvür yaradılması, xaricdə yaşayan azərbaycanlıların potensialından səmərəli istifadə edilməsi, Azərbaycanın iqtisadi maraqlarının qorunması daxildir.

Son bir ildə Azərbaycan Prezidenti ikitərəfli əlaqələrin gücləndirilməsi üçün gərgin əmək sərf etmişdir. 2004-cü ilin yanvarından indiyə qədər cənab Prezident Fransaya, Rusiyaya, Türkiyəyə, Özbəkistana, Almaniyaya, Qazaxıstana, Rumıniyaya və digər ölkələrə rəsmi və işgüzar səfərlər etmiş, Azərbaycana gəlmiş çoxsaylı nümayəndə heyətləri ilə görüşlər keçirmişdir. Bütün bu səfərlər, görüşlər dövlətlərarası münasibətlərin möhkəmlənməsinə, qarşılıqlı surətdə faydalı iqtisadi-ticarət əlaqələrinin qurulmasına, Dağlıq Qarabağ və qaçqın-köçkünlər problemi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinə xidmət etmişdir.

Cənab Prezident bu il sentyabrın 28-də ABŞ-ın Kolumbiya Universitetində çıxışı zamanı demişdir: "Ölkəmizin yerləşdiyi coğrafi ərazinin özü onun xarici siyasətini müəyyən edibdir". Azərbaycan özünün ən yaxın qonşularından olan Gürcüstan, Rusiya, İran və Türkiyə ilə ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan möhkəm dostluq və tərəfdaşlıq münasibətlərini qoruyub saxlamış, daha da möhkəmləndirmişdir. Bu ilin avqustunda İran Prezidenti Məhəmməd Xatəminin ölkəmizə səfərindən sonra Təbrizdə Azərbaycan Respublikasının konsulluğunun açılması barədə son qərarın verilməsini Prezident İlham Əliyevin xarici siyasətinin böyük uğuru kimi qiymətləndirmək olar.

Azərbaycan Birləşmiş Ştatlarla da strateji münasibətlərini inkişaf etdirir. Bu gün Azərbaycan regionda beynəlxalq terrorizmə qarşı mübarizədə ən etibarlı müttəfiq kimi çıxış edir.

ABŞ Dövlət Departamenti Azərbaycanın terrorizm əleyhinə bütün 12 beynəlxalq konvensiya və protokola qoşulmasını yüksək qiymətləndirmişdir.

Azərbaycan həm regional əməkdaşlıq, həm də Avropa və Avratlantik strukturlarına inteqrasiya yolunda böyük nailiyyətlər əldə edibdir. Son bir ildə bu nailiyyətlər daha da möhkəmləndirilib, Avropa Şurası, ATƏT, Avropa Birliyi, NATO və başqa təşkilatlarla əlaqələr daha yüksək mərhələyə qədəm qoyubdur. Azərbaycan Prezidentinin Avropa Şurası və Avropa Birliyi ilə apardığı işi xüsusilə qeyd etmək istərdim. Cənab Prezident bu il aprelin 29-da Avropa Şurasında keçirdiyi görüşdə Azərbaycanın bu quruma üzv olduğu üç il müddətində demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük yol keçdiyini xatırladaraq, bu xəttin ardıcıl surətdə davam etdiriləcəyini, ölkəmizin Avropanın demokratik dəyərlərinə tam sadiq qalacağını bildirmişdir. AŞPA-da deputatlar qarşısında çıxış edən cənab Prezident Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bununla əlaqədar yaranmış qaçqın-köçkünlər probleminə də diqqəti yönəltmiş, Ermənistanın işğalçılıq siyasətini bir daha avropalı deputatların nəzərinə çatdırmışdır. Fərəhli haldır ki, cənab İlham Əliyevin AŞPA-dakı fəaliyyəti, Azərbaycanın bu qurumla sıx əməkdaşlıq etməkdə israrlı olması yüksək qiymətləndirilmiş, ona AŞPA-nın Fəxri üzvü diplomu və medalı təqdim edilmişdir.

Azərbaycanın Avropa Birliyi ilə əlaqələrinə gəldikdə, Prezidentin may ayında Belçika Krallığına səfərinin bu ələqələrin inkişafında xüsusi əhəmiyyətini qeyd etmək istərdim. Səfər zamanı Avropa Birliyi Şurasının baş katibi Xavyer Solana,

Avropa Komissiyasının sədri Romano Prodi, Avropa Birliyinin genişlənmə məsələləri üzrə komissarı Günter Verhogen və digər rəsmi şəxslərlə görüşlər keçirildi.

Bu səfərdən xeyli əvvəl Avropa Birliyinin Cənubi Qafqaz üzrə nümayəndəsi Heyke Talvitiye ölkəmizdə olmuş və Azərbaycanın da "Avropa qonşuluq siyasəti" proqramına cəlb edilməsini AB-yə tövsiyə etmişdi. Bu məsələ Prezidentin səfəri zamanı gerçəkləşdirilmiş, Avropa Birliyinə yeni on ölkənin qoşulmasını nəzərdə tutan Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol imzalanmışdır.

Qeyd etmək lazımdır ki, "Yeni qonşular" proqramı çərçivəsində əməkdaşlıq Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyü məsələsində irəliləyişə səbəb olmaqla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Avropa Birliyinin səylərinin artırılmasına da təsir etmişdir. Avropa Birliyi ilə sıx əməkdaşlığımızın nəticəsidir ki, Birliyə daxil olan dövlətlərin Ermənistandakı səfirləri bu günlərdə Ermənistanın müxalifət liderləri ilə keçirdikləri görüşdə Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin tərəfdarı olduqlarını bildiriblər.

Prezidentin Belçika səfəri Azərbaycanın NATO ilə münasibətləri baxımından da səmərəli olmuşdur. Cənab Prezident Brüsseldə, NATO-nun baş qərargahında baş katib Yaap de Hoop Sxefferlə görüşdə bu qurumla gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmişdir. Bu görüşdə cənab Prezident NATO ilə Azərbaycan arasında "Fərdi tərəfdaşlığın fəaliyyət planı"nı təqdim etmişdir.

Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərindən danışarkən ATƏT-lə olan əlaqələrə xüsusi diqqət yetirmək

lazımdır. Azərbaycan ATƏT-lə münasibətlərində daha çox Minsk qrupunun fəaliyyətinə ümid bəsləyir. Cənab Prezident dəfələrlə Minsk qrupunun fəaliyyətindən narazılığını bildirib, onu tənqid edibdir. Hazırda ATƏT-də sədrlik edən Bolqarıstanın Prezidenti Georgi Pırvanovun bu yaxınlarda regiona, o cümlədən Azərbaycana rəsmi səfəri zamanı da bu məsələ geniş müzakirə edilmişdir.

Cənab Prezidentin beynəlxalq təşkilatlarla apardığı işin mühüm bir hissəsi də BMT ilə bağlı olmuşdur. Dövlət başçısının BMT Baş Məclisinin 59-cu sessiyasında iştirakını xüsusi qeyd etmək istərdim. Cənab İlham Əliyev hələ Baş nazir olarkən, ötən ilin sentyabr ayında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak etmiş, BMT-də islahatların aparılmasının zəruriliyinə, münaqişələrin, humanitar problemlərin həllində bu təşkilatın Təhlükəsizlik Şurasının rolunun artırılmasının vacibliyinə diqqəti cəlb etmişdir. Prezidentin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışında da bu məsələlər daha qabarıq şəkildə iştirakçıların nəzərinə çatdırıldı. Cənab Prezident müasir dünyamızı sarsıdan bütün təhdidlərin öhdəsindən gəlmək üçün BMT-nin yeni şəraitə uyğunlaşmasını, qurumda islahatlar aparılmasını, BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsini, Təhlükəsizlik Şurasının qərarlarının həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını təklif etmişdir.

***- Azərbaycanda keçirilən NATO tədbirlərində Ermənistan nümayəndələrinin iştirakı respublikamızda narazılıqla müşayiət olunur. Xahiş edirik bu məsələyə aydınlıq gətirəsiniz.***

- Bilirsiniz ki, Azərbaycan 1994-cü ilin mayından NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edir. Azərbaycan NATO-nun bu proqram çərçivəsində keçirdiyi

tədbirlərdə fəal iştirak edir, NATO hərbi birləşmələrinin tərkibində sülhyaratma əməliyyatlarına qoşulmuşdur. İyun ayında cənab Prezident İstanbulda NATO-nun Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşündə də iştirak etdi. İstər zirvə görüşündə, istərsə də bu görüş çərçivəsində təşkil edilmiş "Qara dəniz hövzəsi ölkələri üçün Avratlantik İttifaqı yol ayrıcında" adlı konfransda çıxışlarında cənab Prezident Azərbaycanın NATO ilə münasibətləri dərinləşdirməkdə maraqlı olduğunu bildirmişdir.

NATO ilə aparılan səmərəli işlər nəticəsində təşkilatın ali rəhbərliyinin və onun hərbi komandanlığının Azərbaycan hökuməti ilə yaxşı münasibətləri formalaşmışdır. Lakin, təəssüf hissi ilə bildirmək istəyirəm ki, son zamanlar ölkə daxilində bəzi qüvvələr Azərbaycan-NATO münasibətlərinə xələl gətirə biləcək addımlar atırlar. Söhbət, əlbəttə ki, NATO-nun Azərbaycanda keçirilən təlimlərində Ermənistan nümayəndələrinin iştirakına münasibətdən gedir. Hesab edirəm ki, beynəlxalq təşkilatların, o cümlədən NATO-nun Azərbaycandakı fəaliyyətinin qarşısını almaq, məsələyə emosional yanaşmaq düzgün deyildir. Mən əvvəllər də müsahibələrimin birində demişəm ki, erməni zabitlərinin Bakıya gəlməsinin biz də tərəfdarı deyilik. Cənab Prezident də bir vətəndaş kimi bu məsələyə öz prinsipial münasibətini bildirmişdir. Bununla belə, cənab Prezident beynəlxalq təşkilatların Azərbaycanda fəaliyyətinin qarşısının alınmasının düzgün olmadığını söyləmiş, bunun istər-istəməz, Azərbaycan haqqında mənfi fikir formalaşdıra biləcəyinə diqqəti cəlb etmişdir. Azərbaycan Prezidentinin və hökumətinin erməni separatçılarına olan münasibəti hamıya bəllidir. Biz Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdarıq. Ancaq bu,

heç də o demək deyil ki, Azərbaycanın da üzv olduğu və fəaliyyət prinsiplərini qəbul etdiyi beynəlxalq təşkilatların Azərbaycanda keçirmək istədikləri tədbirlərin qarşısı alınmalıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan ictimaiyyətini qıcıqlandıran bu məsələdən ermənilər çox məharətlə istifadə edir, ölkəmiz haqqında xoşagəlməz imic yaratmaq üçün böyük səylər qoyurlar. Diqqət yetirin, bu yaxınlarda Ermənistan rəhbərləri NATO-nun regionda möhkəmlənməsinin tərəfdarı olmadıqlarını bildirdilər. NATO Parlament Assambleyasının digər ölkələrdə keçirilən tədbirlərinə Ermənistan parlamentinin deputatları qatılmırlar. Azərbaycanda gözlənilən analoji tədbirə isə gələcəklərini əvvəlcədən bildirirlər, hətta bunda israr edirlər. Deməli, erməniləri NATO ilə əməkdaşlıq deyil, Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, Azərbaycan haqqında dünya ictimaiyyətində mənfi rəy yaratmaq daha çox maraqlandırır. Əfsuslar olsun ki, Azərbaycanda bəzi məsuliyyətsiz adamlar yersiz şoular təşkil etməklə ermənilərin istəklərinə rəvac verirlər.

***- Son vaxtlar Azərbaycan Prezidenti xarici ölkələrdəki səfirliklərimizin sayının artırılacağını bildirmiş, bu sahədə bir sıra sərəncamlar imzalamışdır. Bu, nə ilə bağlıdır?***

- Azərbaycanın xarici ölkələrdəki yeni səfirliklərinin və konsulluqlarının açılması çox vacib məsələdir. Bu, birbaşa ölkəmizin milli maraqlarının daha səmərəli qorunması üçün lazımdır. Azərbaycan hazırda 156 ölkə ilə diplomatik əlaqələr qurmuşdur. Ölkəmizdə 60-dan çox xarici nümayəndəlik akkreditə olunmuşdur. Yaxın vaxtlara qədər Azərbaycanın xarici ölkələrdə 30-a qədər səfirliyi, daimi nümayəndəliyi, baş konsulluğu fəaliyyət göstərirdi. Lakin Azərbaycanın mənafeləri, onun iqtisadi-siyasi maraqları tələb edir ki, daha çox ölkədə öz nümayəndə-

liyimizi açaq. Cənab Prezident bu yaxınlarda Macarıstan, Hindistan, Küveyt, Kanada və başqa ölkələrə səfirlər təyin etdi. Eyni zamanda, diplomatik korpusun yeniləşdirilməsi istiqamətində bir sıra addımlar atdı. Cənab Prezident xarici nümayəndəliklərimiz qarşısında konkret vəzifələr qoymuşdur. İlk növbədə, Ermənistanla Azərbaycan arasında gedən münaqişənin həlli yolunda müvafiq iş gücləndirilməlidir. Müasir informasiya sistemlərindən istifadə edərək, ermənilərin Azərbaycan əleyhinə apardıqları təbliğatın qarşısı alınmalıdır. Diplomatik nümayəndəliklərimizin fəaliyyətində iqtisadi məsələlərə də diqqət yetirilməlidir. Azərbaycanın əldə etdiyi sosial-iqtisadi inkişaf göstəriciləri, ölkəmizdə sərmayə mühitinin yaradılması haqqında informasiya xarakterli və təşkilati işlər həyata keçirilməlidir.

Xaricdə yaşayan azərbaycanlılarla aparılan işin vəziyyəti də cənab Prezidentin diqqətində olmuşdur. Cənab Prezident səfər etdiyi əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişdir. Prezidentin bu məsələdə mövqeyi ondan ibarətdir ki, bir tərəfdən, biz onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin ictimai-siyasi həyatında, idarəetmə və biznes sahələrində təmsil olunsunlar. Eyni zamanda, onlar da Azərbaycanın mənafeləri naminə təşkilatlansınlar və doğma vətənə xidmət göstərsinlər. Artıq deyə bilərik ki, bir sıra ölkələrdə bizim güclü diasporumuz formalaşır. Oktyabrın 19-da Ümumrusiya Azərbaycan Konqresinin Moskvada keçirilmiş qurultayında Azərbaycan Prezidentinin iştirakı diaspor ilə işə verilən böyük əhəmiyyəti nümayiş etdirdi. Rusiya Prezidentinin də bu tədbirə qatılması, bir tərəfdən, Rusiyadakı diasporumuzun artıq formalaşdığının göstəricisidirsə, digər tərəfdən, Rusiya Prezidentinin cənab İlham Əliyevə bəslədiyi böyük hörmətin təzahürüdür.

***- Siz Azərbaycanın iqtisadi maraqlarının təmin olunmasında xarici siyasətin əhəmiyyətinə toxundunuz. Xahiş edirik bu məsələyə daha geniş şərh verəsiniz.***

- Azərbaycanın iqtisadi maraqlarının təmin edilməsi xarici siyasətimizin qarşısında duran ən əsas vəzifələrdən biridir. Ölkəmizin iqtisadi maraqlarının qorunması özlüyündə bir sıra məsələlərin sinxron şəkildə həllini tələb edir. Əvvəla, xarici investorların ölkəyə cəlb edilməsinə yardım göstərilməlidir, ikincisi, Azərbaycan mallarının xarici bazarlara çıxışı təmin edilməlidir. Eyni zamanda, regional və beynəlxalq nəqliyyat-kommunikasiya infrastrukturuna qoşulmaq tələb olunur. Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub əsas nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşməsi onun həm regional, həm də beynəlxalq iqtisadi layihələrdə əhəmiyyətini artırmışdır.

İndi qeyri-neft sektoruna qoyulan xarici sərmayələr də artır. Azərbaycan öz məhsullarını, xüsusilə neft məhsullarını uğurla xarici bazarlara çatdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərlərinin tikintisi başa çatdıqdan sonra bu işlər daha da təkmilləşəcəkdir. İnkişaf etməkdə olan Azərbaycan sənayesi yaxın zamanlarda xarici bazarlara güclü ehtiyac hiss edəcəkdir. Ona görə də cənab Prezident aprel ayında Varşavada keçirilən Avropa İqtisadi sammitində iştirakı, Avropa Birliyinin rəhbərləri ilə danışıqları zamanı, habelə ABŞ, Fransa və Yaponiyanın dövlət, hökumət başçıları və rəsmi şəxsləri ilə görüşlərində Dünya Ticarət Təşkilatının üzvü olmaq üçün məsləhətləşmələri davam etdirmişdir. Məlumat üçün deyim ki, Azərbaycan hökuməti 1997-ci ildə Dünya Ticarət Təşkilatına üzv olmaq haqqında ərizə vermişdir. 2003-cü ilin avqustunda Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmasına hazırlıq

işləri üzrə komissiya yaradılmışdır. Hazırda Azərbaycanın təşkilata üzv olması üzrə texniki yardım layihəsi fəaliyyət göstərir. Azərbaycan “Yeni İpək yolu” adlanan TRASEKA layihəsində də yaxından iştirak edir, onun əsas iştirakçıları və təşkilatçılarından biridir. Ölkəmiz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvlərindəndir.

***- Tarixdə şəxsiyyətin rolunu necə səciyyələndirirsiniz? Heydər Əliyev dünya siyasətçiləri, ictimai xadimləri tərəfindən çox yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyev haqqında beynəlxalq aləmdə formalaşan fikirlər barədə nə demək olar?***

- Yadınıza salmaq istəyirəm ki, N.Xruşşovun səyi nəticəsində sovet ideologiyasında tarixdə şəxsiyyətin rolu inkar olunurdu. Düzdür, son illər elmi ədəbiyyatda bu fikir tənqid olunmağa başlandı. Konkret tarixi faktlar əsasında göstərilir ki, bu, konyunkturdan doğan və subyektiv siyasi tezisdir. Heydər Əliyev dünya miqyaslı tarixi şəxsiyyətdir. O, Azərbaycan xalqının sərvətidir. Onun dərin zəkası, zəngin təcrübəsi, idarəçilik bacarığı, müasir dünyanın inkişaf meyillərini öz fəaliyyətində nəzərə almaq məharəti zəmanəmizin məşhur siyasətçiləri tərəfindən dəfələrlə etiraf olunmuşdur. Deməliyəm ki, onun dünya siyasətində olan böyük nüfuzu Azərbaycanın xarici siyasət xəttinin həyata keçirilməsində əhəmiyyətli rol oynamışdır.

Dünyada gedən qloballaşma beynəlxalq əlaqələrə də güclü təsir göstərmişdir. İnteqrasiya proseslərini həyata keçirən beynəlxalq təşkilatlar formalaşıb, dövlətlərarası əlaqələrin intensivliyi güclənibdir. Belə bir zamanda dünya siyasətinin daşıyıcıları olan dövlət başçılarının şəxsi keyfiyyətləri də böyük əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycanın

bu məsələdə bəxti gətirmişdir. Cənab İlham Əliyevin beynəlxalq münasibətlər sahəsində parlaq təhsil alması, beynəlxalq əlaqələr sisteminin həm nəzəri, həm də praktik tərəflərini dərindən bilməsi, müasir, sivil davranış və idarəçilik vərdişlərinə malik olması onun tez bir zamanda dünya siyasətinin nüfuzlu simalarından biri kimi qəbul edilməsinə səbəb olmuşdur.

Bir çox dünya siyasətçiləri, nüfuzlu nəşrlər Prezident İlham Əliyev haqqında yüksək rəylər bildiriblər. AŞPA-nın sədri Piter Şider cənab İlham Əliyevin bütün siyasi fəaliyyətinə qiymət verərək, onu ən fəal deputat və ən fəal dövlət başçısı kimi xarakterizə etmişdir. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycanın inkişafının bu gün məhz İlham Əliyev tərəfindən davam etdirilə biləcəyini söyləmişdir. ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac Prezident İlham Əliyevi çox açıq və mütərəqqi görüşlü bir insan kimi səciyyələndirmişdir. ABŞ Konqresinin nüfuzlu nümayəndələri cənab Prezidentlə görüşdükdən sonra onunla ünsiyyətdən yaranan xoş əhval-ruhiyyələrini mətbuat nümayəndələri qarşısında məmnuniyyətlə nümayiş etdirmişlər. Konqresmen Kurt Ueldon bildirmişdir ki, Konqres üzvləri İlham Əliyevin ABŞ-la əməkdaşlığa yönəlmiş siyasətini və onun şəxsi keyfiyyətlərini yüksək qiymətləndirirlər. Gürcüstan Prezidenti Mixail Saakaşvilinin də sözlərini xatırlatmaq istərdim: “Rusiya Prezidenti Vladimir Putin İlham Əliyevlə görüşdən vəcdə gəlmişdi. Onun barəsində Qərbdə də yüksək fikirdədirlər. Çoxları dərk edir ki, İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cavan, eyni zamanda təcrübəli, enerjili, peşəkar liderə malik oldu”. Yaponiyanın Azərbaycanda öz missiyasını yenicə başa vurmuş səfiri Toşiyuki Fucivaranın dedikləri cənab İlham Əliyevi daha dolğun səciyyələndirir:

"Cənab İlham Əliyev yaxşı diplomatiya məktəbi keçmişdir. Təcrübəli və çox enerjili bir insandır. O, ən yaxşı insani keyfiyyətlərə malik və təmiz qəlbli şəxsiyyətdir. İlham Əliyev özünü beynəlxalq aləmdə tanıtmış diplomatdır. Qərbyönümlü dünyagörüşünə malikdir. Onu Rusiyada, ABŞ-da, Yaponiyada və Avropa qitəsində yaxşı tanıyırlar. Bu seçim Azərbaycan xalqı üçün geniş imkanlar açacaqdır". ABŞ-ın nüfuzlu nəşri - "Times" qəzeti cənab İlham Əliyevi xarakterizə edərək yazır: "İlham Əliyevin Prezidentliyi dövrü Azərbaycan üçün çox vacibdir və dünyada onun mövqeyini müdafiə edən belə şəxsə ehtiyac duyulur. İlham Əliyev diplomatiyası bu baxımdan əvəzsiz məna kəsb edir". Bu misalların sayını artırmaq da olardı. Lakin hesab edirəm ki, cənab Prezidentə ən yüksək qiyməti Azərbaycan xalqı vermişdir, onu böyük məmnunluq və ümidlə öz rəhbəri seçmişdir.

Cənab Prezidentin beynəlxalq münasibətlər sisteminə dərindən bələd olmasını göstərən bariz misallardan biri də onun BMT Baş Məclisinin 59-cu sessiyasındakı çıxışıdır. Bu haqda mən yuxarıda fikrimi bildirmişəm. İndi isə həmin çıxışın yalnız bir məqamına diqqəti yönəltmək istəyirəm. Bu, cənab Prezidentin BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi və Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların icra mexanizminin hazırlanması ilə bağlı təklifidir. Bu təklifi verərkən cənab Prezident dünyada baş verən prosesləri düzgün qiymətləndirməyi, real vəziyyəti adekvat dəyərləndirməyi nəzərdə tuturdu. BMT İkinci Dünya müharibəsinin nəticələri əsasında yaradıldığından, orada qalib-məğlub prinsipləri əsas götürülmüşdü. O zaman məğlub olan Yaponiya və Almaniya kimi dövlətlərin indi Təhlükəsizlik Şurasına daimi üzv qəbul olunması vacibdir.

Yaponiya iqtisadi gücünə görə dünyada ikinci yerdə durur. Almaniya Avropada iqtisadi cəhətdən ən güclü dövlətdir. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə beynəlxalq hüquq prinsiplərindən yanaşmağın tərəfdarı olduğunu bildirmişdir. Burada qeyri-ixtiyari olaraq MDB, ATƏT kimi təşkilatların işinin səmərəliliyinin artırılması və icra mexanizmlərinin gücləndirilməsi istiqamətində ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətini və xidmətlərini xatırlamalı oluruq. Azərbaycanın bugünkü rəhbəri də beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı prinsipial, təşəbbüskar, açıq mövqe nümayiş etdirir.

Göründüyü kimi, cənab Prezident dünyada təhlükəsizliyin və əmin-amanlığın qorunmasının optimal yolunu göstərməklə bərabər, qlobal siyasət məsələləri ilə Azərbaycanın mənafeyini üzvi surətdə birləşdirə bilmişdir. Bu da onu beynəlxalq münasibətlər sisteminin mahir bilicisi kimi xarakterizə etməyə imkan verir.

- ***Müsahibəyə görə sağ olun.***

*"Azərbaycan" qəzeti,*
*26 noyabr 2004-cü il.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DÖVLƏT BAŞÇISI SEÇİLMƏSİNİN BİRİLLİYİNƏ HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

- Hörmətli iştirakçılar!

İlk dəfədir ki, biz ölkə Prezidentinin birillik fəaliyyətinə həsr olunmuş mətbuat konfransı keçiririk. Məqsəd ondan ibarətdir ki, cənab İlham Əliyevin 15 oktyabr 2003-cü ildə Prezident seçilməsindən keçən bir il müddətində ölkəmizdə görülən işlərə yekun vuraq, mətbuatı və cəmiyyəti maraqlandıran suallara aydınlıq gətirək, ölkənin inkişafı ilə bağlı bundan sonra görüləcək tədbirlər haqqında məlumat verək. Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilən və ölkədə aparılan sosial-iqtisadi, ictimai-siyasi, mədəni, daxili və xarici siyasətə həsr olunmuş bu konfrans ictimai həyatımızda yeni təcrübədir. Bu tədbiri cəmiyyət qarşısında hesabat kimi də qəbul etmək olar.

Ötən bir il ərzində Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmizdə ictimai tərəqqi davam etmiş, xalqımızın ümummilli maraq və mənafelərinin təmin edilməsi yolunda mühüm addımlar atılmışdır. Cənab Prezident ölkəmizdə əsası Heydər Əliyev tərəfindən qoyulan daxili və xarici siyasəti bu gün dünyada gedən dinamik proseslərə uyğunlaşdıraraq davam etdirmiş, Azərbaycanın bugünkü və gələcək inkişafı üçün yeni-yeni imkanlar yaratmışdır. Ölkə başçısı xalqımızın ümummilli maraqlarını əsas götürərək, cəmiy-

yətin bütün sosial təbəqələrinin mənafelərini özündə əks etdirən geniş fəaliyyət nümayiş etdirmişdir. Xarici müşahidəçilərin fikrincə, son bir il müddətində Prezident İlham Əliyev dövlət sükanını əlində möhkəm saxlayır, dünyada gedən çox mürəkkəb və ziddiyyətli proseslərə baxmayaraq, ölkənin daxili və xarici siyasətini uğurla həyata keçirir.

Bu siyasətin nəzəri bazasını və konseptual əsaslarını yeni dünya nizamının tələbləri və qloballaşma prosesi, mədəniyyətlərarası dialoq, ümumbəşəri dəyərlər və onun tərkib hissələrindən biri olan demokratik prinsiplər təşkil etmişdir.

Məhz bu meyarlar və aparılan siyasətin bir-birini tamamlaması ölkəmizin həm daxildə, həm də beynəlxalq münasibətlər sahəsində əldə etdiyi nailiyyətlərin təməlini qoymuşdur.

Ötən müddət ərzində xarici ölkələrlə inteqrasiya sürətlənmiş, Azərbaycan beynəlxalq aləmdə sivil və demokratik dövlət kimi layiqli yer tutmuş, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası səmərəli şəkildə həyata keçirilmiş, əsas insan və vətəndaş hüquqları, azadlıqları təmin olunmuş, sosial-iqtisadi inkişaf prosesi yüksələn xətt üzrə getmişdir.

Azərbaycan hakimiyyəti ölkə iqtisadiyyatının inkişaf strategiyasını müəyyənləşdirərkən dünyanın inkişaf meyillərini, eləcə də xalqımızın ümummilli məqsəd və mənafelərini nəzərə almışdır. Hakimiyyətin iqtisadi sahədə əldə etdiyi nailiyyətlər inkişaf etmiş dövlətlərin rəhbərləri və beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycanın müxtəlif sahələrinin inkişafını əks etdirən statistik göstəricilər də bunu sübut edir.

Keçən müddətdə Azərbaycan Prezidenti əhalinin sosial rifah halının, xüsusilə dövlət qayğısına ehtiyacı olan müxtəlif sosial

təbəqələrin maddi vəziyyətinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, ölkədaxili infrastrukturların yaradılması məqsədi ilə müxtəlif dövlət proqramları təsdiq etmiş, fərman və sərəncamlar imzalamışdır. Regionların hərtərəfli inkişafını, iqtisadiyyatda qeyri-neft sektorunun, sahibkarlığın, orta təbəqənin genişlənməsini təmin edən qərarlar qəbul etmiş və onların icrası ilə bağlı lazımi işlər görmüşdür.

Prezident İlham Əliyevin səmərəli şəkildə tarazlaşdırılmış xarici siyasət həyata keçirməsi Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi və milli strateji maraqlarımızın reallaşması üçün mühüm rol oynamışdır. Dövlət başçısının xarici ölkələrə səfərləri Azərbaycanla dünyanın aparıcı dövlətləri arasında hərtərəfli qarşılıqlı əlaqələrin inkişafına böyük təsir göstərmişdir. Xarici siyasətdə xalqımızın ümummilli problemlərindən biri olan Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsi mühüm yer tutmuşdur. Dövlət başçısının bu məsələdə qətiyyətli mövqe tutması xalqımız tərəfindən böyük razılıqla qəbul olunur, qaçqın-köçkünlərin öz torpaqlarına tezliklə qayıtması ümidini reallaşdırır.

Son bir il həm də ölkəmizdə demokratikləşmə prosesinin dinamik xarakter daşıması, mətbuat və söz azadlığının, əsas insan hüquqlarının lazımi və səmərəli şəkildə təmin olunması ilə səciyyələnir. Eyni zamanda, Azərbaycan iqtidarı ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi sahəsində mühüm addımlar atmışdır. Bu istiqamətdə Prezidentin imzaladığı əfv fərmanlarını və milli birliyin gücləndirilməsi istiqamətində atdığı addımları xüsusi vurğulamaq istəyirəm.

Bütün bu işlər haqqında sizə məlumat vermək məqsədi ilə bugünkü mətbuat konfransını təşkil etmişik. Düşünürəm ki,

Azərbaycanda görülən və görüləcək işlər haqqında sizinlə açıq söhbət aparacaq, ölkə həyatının iqtisadi, siyasi, sosial, ictimai və mədəni sahələrinin vəziyyəti, perspektiv imkanları və gələcək planlarla bağlı suallarınızı cavablandıracağıq.

*"Azərbaycan" qəzeti,*
*30 oktyabr 2004-cü il.*

# XALQIMIZIN ÖZ DÖVLƏTİNİN GƏLƏCƏYİNƏ İNAMI DAHA DA MÖHKƏMLƏNMİŞDİR

*(AzərTAc-ın müxbirinə müsahibə)*

***- Ramiz müəllim, Azərbaycanda Prezident seçkilərindən bir ildən bir qədər artıq müddət keçir. Sizin fikrinizcə, bu müddətdə Azərbaycan vətəndaşlarının ümidləri özünü nə dərəcədə doğruldub? Respublikamızdakı mövcud vəziyyəti, ümumən ölkədə gedən sosial-iqtisadi, ictimai-siyasi prosesləri necə dəyərləndirirsiniz?***

- Yüksək dəyərləndirirəm. Bu, birmənalıdır. Qeyd etməliyəm ki, cənab İlham Əliyevin Prezident seçilməsindən keçən müddət dövlət quruculuğunda, daxili və xarici siyasətdə qazanılmış ciddi uğurlarla, ölkə daxilində milli həmrəyliyin təmin edilməsi istiqamətində cəsarətli addımlarla, milli maraqların qətiyyətli müdafiəsi ilə, aparıcı dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqla əlamətdar olmuşdur. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş strateji xətt bütün istiqamətlər üzrə inamla davam etdirilmiş, onun düzgünlüyü və həyatiliyi bir daha təsdiq olunmuşdur. İqtisadiyyatın, sosial sahənin inkişafı ilə bağlı fərman və sərəncamlar, görülən tədbirlər öz bəhrəsini verməkdədir. 177 mindən artıq yeni iş yeri yaradılmışdır ki, bu fakt da 2008-ci ilə qədər 600 min iş yerinin açılacağı haqqında Azərbaycan Prezidentinin verdiyi seçkiqabağı vədin reallaşacağını indidən əminliklə deməyə əsas

verir. Büdcədən maliyyələşən idarə və təşkilatların işçilərinin, demək olar, bütün kateqoriyalarının maaşlarının xeyli artırılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş qərarlar bazar iqtisadiyyatının sərt reallıqları şəraitində iqtisadi sahədə və idarəetmə sahəsindəki islahatların rəvan templə aparılmasına imkan verir.

Cənab İlham Əliyev bu müddət ərzində xarici siyasət sahəsində geniş fəaliyyət göstərərək, Azərbaycan həqiqətlərinin əksər beynəlxalq təşkilatlar və güc mərkəzləri tərəfindən etiraf edilməsinə nail olmuş, bütün istiqamətlərdə Azərbaycan diplomatiyasının fəaliyyəti ardıcıl xarakter almışdır. Dağlıq Qarabağ probleminin həlli üçün məqsədyönlü tədbirlər görülmüş, nəticədə beynəlxalq təşkilatların səyləri fəallaşmışdır. Ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi üçün büdcədən bu sahəyə yönələn vəsaitin həcmi xeyli artırılmışdır.

Prezident milli həmrəyliyin möhkəmləndirilməsi üçün təsirli addımlar ataraq, müxtəlif cinayətlərə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxsləri, o cümlədən dövlət hakimiyyəti əleyhinə olan cinayətlərə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxsləri əfv etmişdir.

Xalqımızın öz dövlətinə sədaqəti, gələcəyə inamı daha da möhkəmlənmişdir. Bizi dövlətimiz və xalqımız üçün mühüm və xoş hadisələr gözləyir. Onlardan yalnız birini qeyd etmək istəyirəm. Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin işə düşməsi Azərbaycanın və ümumiyyətlə, bütün regionun həyatında çox böyük hadisə olacaqdır.

Əlbəttə, qısa xülasədə Prezident İlham Əliyevin fəaliyyətini geniş əhatə etmək çətindir. Lakin görülən bütün işlər göz qabağındadır və xalq tərəfindən yüksək qiymətləndirilir. Məhz

ona görə də ölkədə və dünyada cərəyan edən proseslərə təsiri olan nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycan Prezidentinin reytinqi yüksəkdir.

***- Kadr siyasəti sahəsində qərarların qəbulu zamanı hansı prinsiplər rəhbər tutulur, hansı meyarlar əsas götürülür?***

- Azərbaycan dövlətinin ən əsas məqsədi vətəndaşların mənafelərini qorumaqla yanaşı, onların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Bu, Azərbaycan Prezidentinin daxili siyasətinin fundamental prinsipidir. Bunu təmin etmək üçün hakimiyyət dövlət qulluğundan və dövlət qulluqçularından, yəni kadrlardan istifadə edir. Demək olar ki, dövlət qulluğu iqtidarın siyasətinin həyata keçirilməsi mexanizmidir və onun prinsipləri Azərbaycanın Konstitusiyasında, "Dövlət qulluğu haqqında" qanunda öz əksini tapmışdır.

Dövlət qulluqçularına, kadrlara yanaşmada əsas meyar onların dövlətə sədaqəti, səriştəliliyi, mənəvi keyfiyyətləri olmalıdır. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramının işlənib hazırlanması və həyata keçirilməsi də bu məqsədə xidmət edir. Kadrlar barədə, xüsusən yüksək vəzifəli şəxslər barədə qərar qəbul edərkən, təbii ki, onların Prezidentin siyasətinə münasibəti də nəzərə alınmalıdır. Kadrlar müasir idarəçilik texnologiyalarını mənimsəməli, müasir təfəkkürə malik olmalı, köhnə stereotiplərdən imtina etməlidirlər.

Beləliklə, ölkədə görülən işlərin səmərəliliyi kadr siyasətindən çox asılıdır. Əslində, dövlət qulluğunda çalışmaq dövlətin, xalqın, cəmiyyətin, ümumiyyətlə, insanların qulluğunda olmaq deməkdir. Hakimiyyətin idarəetmə fəlsəfəsi belədir. Bir də ki, dövlət qulluğunda çalışan vəzifəli şəxs yalnız öz vəzifəsinin icrası ilə kifayətlənməməlidir. O, dövlətçiliyə, qanuna müvafiq şəkildə dövlət siyasətini həyata keçirən yüksək vəzifəli şəxslərə

qarşı olan yalanlara və böhtanlara münasibət bildirməlidir, öz qınına çəkilib gözləmə mövqeyində durmamalıdır.

Hakimiyyətin kadrlara yanaşma prinsiplərindən biri də ondan ibarətdir ki, əgər vəzifəli şəxs öz vəzifəsinin öhdəsindən gəlirsə, işini günün tələbləri səviyyəsində qura bilirsə, ona işin səmərəsini artırmaq üçün daha geniş imkan yaradılmalıdır.

***- Ramiz müəllim, hazırda müxalifət daxilində qüvvələrin birləşdirilməsi ətrafında müzakirələr gedir. Müxalifət partiyaları parlament seçkilərində birgə iştirak etmək üçün səylər göstərir. Sizcə, bu, baş tuta bilərmi və onun nə kimi siyasi nəticələri ola bilər?***

- Açıq desək, bu gün müxalifət düşərgəsi daxilində gedən proseslər bizi maraqlandırmır. Azərbaycan rəhbərliyi hesab edir ki, qarşıda daha vacib və önəmli problemlər durur və biz bütün səylərimizi onların həllinə yönəltməliyik.

***- Siz nəyi nəzərdə tutursunuz?***

- Onlar məlumdur: ölkənin ərazi bütövlüyünün bərpası, iqtisadiyyatımızın dinamik inkişafının davam etdirilməsi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması, regionların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və sair.

O ki qaldı siyasi iflasa uğrayan müxalifətin birgə fəaliyyətinə, onun heç bir siyasi nəticəsi olmayacaqdır. Ölkədə sabitlik hökm sürür və bu sabitlik bundan sonra da bütün qanuni vasitələrlə təmin olunacaqdır. Əslində, biz istərdik ki, müxalifət parlament seçkilərində birləşmiş qüvvə kimi çıxış etsin. Azərbaycan ictimaiyyəti də, beynəlxalq təşkilatlar da onun nə kimi potensiala, həqiqətdə hansı sosial bazaya malik olduğunu görsün. Lakin bu, mümkün olmayacaqdır.

***- Proqnozunuz belədir, yoxsa bunun ciddi səbəbləri var?***

- Mən bunu faktlara, ötən illərin təcrübəsinə əsaslanaraq deyirəm. Keçən əsrin 90-cı illərinin ortalarından bəri birləşmək üçün uğursuz cəhdlər göstərən qüvvələrin 2003-cü ildəki biabırçı iflasından sonra yenidən birləşmək istiqamətində güc və iradə nümayiş etdirəcəyi ehtimalı azdır. Bu partiyalar və onların başçıları real birləşmədən daha çox həmişə süni birlik görüntüsü yaratmaqla məşğul olublar.

Əslində isə, bir-birini parçalamaq, zəiflətmək üçün bütün vasitələrdən istifadə ediblər. Müxalif partiya başçıları arasında kələkbazlıq, intriqalar, ziddiyyətlər, qarşıdurmalar çox dərindir. Bu gün müxalifətin bir qanadının başçısı özünü xaricə bütün müxalifətin lideri statusunda təqdim etmək üçün son dərəcə amansız mübarizə aparır. Əgər o, birləşmək formatından danışırsa, bu birliyin başında ancaq özünü görür. Bu da digər partiyaların başçıları tərəfindən qəbul olunmur. Bunun da ciddi səbəbləri var.

Bütün bunları nəzərə alaraq, müxalifətin böyuk bir qrupu belə birləşməni haqlı olaraq rədd edir və yaxud ciddi şərtlər irəli sürür. Həmin şərtlərin qəbulu isə o deməkdir ki, özlərini aparıcı partiya sayanlar, yaxud "böyük adam" iddiasında olanlar kölgədə qalmalıdırlar. Bu da qəbulolunmazdır. Belə olan halda, nəticəni şərh etməyə ehtiyac qalmır.

Müxalifətin tanınmış nümayəndələrindən biri yaranmış vəziyyət haqqında bu günlərdə deyir ki, Prezident seçkiləri ərəfəsində (2003-cü ilin oktyabrını nəzərdə tutur) müxalifət düşərgəsində müxtəlif formatlarda əməkdaşlıq blokları yaradılmışdı. Əslində, indiyədək yaradılmış bu cür qurumlar müxalifətin birliyinə deyil, onların parçalanmasına xidmət etmişdir.

Həqiqət ondan ibarətdir ki, illüziyalar müxalifət başçılarını və onların boş vədləri ilə aldadılmış bir qrup insanı növbəti

uçuruma sövq edir. Ölkədə sivilizasiyalı yolla siyasi məqsədlərə nail olmaq üçün bütün şərait yaranıbdır. Lakin bu adamlarda dağıdıcı psixologiya, siyasi avantürizm, məsuliyyətsizlik o qədər dərin kök salıb ki, onlar özlərini başqa cür təsəvvür etmirlər.

***- Son vaxtlar müxalifət başçılarının gündəliyə çıxardığı mövzulardan biri də, onların sözü ilə desək, bu il "narıncı" inqilab yolu ilə hakimiyyəti ələ keçirməkdir. Onlar bu mövzunu çox geniş hallandırırlar. Siz buna necə baxırsınız, Azərbaycanda belə "inqilab" realdırmı?***

- İlk əvvəl onu qeyd edim ki, bu mövzu ətrafında heç də bütün müxalifət partiyalarının başçıları möhtəkirlik etmirlər. Ona görə də bu söhbətləri bütün müxalifətə şamil etmək olmaz. Bu, sadəcə, radikal müxalifətin köhnə başçılarının arzusudur. Onların da ayrı əlacı qalmayıbdır. Fikirləşirlər ki, bu yolla özlərini siyasi səhnədə saxlaya bilərlər.

Lakin zaman yeni təfəkkür, real yanaşma tələb edir. Köhnəlmiş müxalifət başçıları partiyadaxili hakimiyyəti əllərində nə qədər çox saxlasalar, bu partiyaların gələcəyi bir o qədər qaranlıq və perspektivsiz olacaqdır.

O ki qaldı "narıncı" inqilab yolu ilə hakimiyyəti dəyişmək məsələsinə, bu mərhələni Azərbaycan xalqı 1993-cü ilin ortalarında keçibdir. Həmin bu radikal müxalifətin indiki köhnəlmiş başçılarının hakimiyyətini xalq rədd etdi və Heydər Əliyevi ölkə Prezidenti seçdi. Xalq isə o qədər sadəlövh deyil ki, öz taleyini yenə də onu uçuruma aparanlara tapşırsın.

Hakimiyyətə demokratik seçkilər yolu ilə gəlmək mümkündür. Bunun üçün onlar 2008-ci ili gözləməlidirlər. Əgər radikal müxalifət başçıları arzularını güc yolu ilə reallaşdıra biləcəklərini düşünürlərsə, çox böyük səhv edirlər. Onlar 2003-cü ilin

oktyabr hadisələrinin dərslərindən özləri üçün nəticə çıxarmalıdırlar. Yaxşı olar ki, partiya başçıları xaricdən aldıqları qrantlar hesabına partiyalarını demokratikləşdirsinlər, proqramlar, layihələr hazırlasınlar, mətbuatın yazdığı kimi, bu vəsaiti mənimsəyib varlanmasınlar.

Hazırda müxalifətin nümayəndələri parlamentdə təmsil olunublar. Bu ilin noyabr ayında Milli Məclisə seçkilər keçiriləcəkdir. Müxalifət parlamentdə daha çox təmsil olunmaq istəyirsə, öz təbliğatını demokratik şəkildə qurub cəlbedici layihələri, ideyaları ilə insanların rəğbətini qazanmalıdır.

Bir də ki, inqilab üçün real əsas olmalıdır. Bilirsiniz, bu cür təfəkkür tərzi köhnə stereotiplərlə yaşayan, yeni münasibətlərə uyğunlaşa bilməyən insanlara xasdır. Azərbaycanın radikal müxalifət başçılarına və ideoloqlarına aid olan ümumi bir cəhəti qeyd etmək istərdim. Bu insanlar siyasi proseslər haqqında heç zaman yaradıcı tərzdə düşünə, düzgün taktiki qərarlar qəbul edə bilmirlər. Onlar həmişə bu və ya digər nümunələri, hazır reseptləri əsas kimi götürürlər. Siyasət isə vəziyyətin obyektiv təhlil edilib müvafiq qərarlar qəbul olunmasını tələb edir. Bunu bacarmadıqlarına görə də uğursuzluq və məğlubiyyətlər Azərbaycan müxalifətini daim təqib edir.

Azərbaycanda bütün sosial problemlər öz həllini tapır, insanların güzəranı ilbəil yaxşılaşır, ölkədə milli həmrəylik mövcuddur, demokratik mühit genişlənir. Ən əsası isə, xalq Prezident İlham Əliyevi və onun siyasətini dəstəkləyir. Siyasi prosesləri öyrənən beynəlxalq ekspertlər və analitik mərkəzlər Azərbaycanda hadisələrin radikal müxalifətin arzu etdiyi ssenaridə inkişafının mümkünlüyünü tamamilə rədd edirlər. Bu, onların yekdil rəyidir və Azərbaycanda ictimai-siyasi vəziyyətin dərindən

təhlilinə əsaslanır. Belə olan halda hansı "narıncı", "məxməri" və başqa rəngli inqilabdan söhbət gedə bilər?!

***- Bir sıra mətbuat orqanlarında, xüsusən müxalifət qəzetlərində müntəzəm olaraq hakimiyyətdaxili qruplaşmaların nüfuz mübarizəsi haqqında materiallar dərc edilir. Bu, həmin qəzetlərin ən çox müraciət etdiyi mövzulardandır. Xahiş edirik, bu məsələyə münasibət bildirəsiniz.***

- Təəssüflə qeyd etməliyəm, bütün faktlar onu göstərir ki, ölkədə demokratik, normal müxalifət formalaşmayıbdır. Heç də təsadüfi deyil ki, ABŞ Milli Demokratiya İnstitutunun Kiyev ofisinin nümayəndəsi “Azərbaycan müxalifətinin islaholunmazlığı” haqqında fikir söyləyir. Qurumuş, donmuş müxalifət öz daxilində tətbiq etdiyi yolverilməz mübarizə metodları və prinsipləri, daha doğrusu, kobudluğu, bir-birinə hörmətsizliyi, intizamsızlığı hakimiyyətə aid etməyə çalışır.

Qeyri-real məqsədlərlə yaşayan müxalifətin sosial bazasının tamamilə tükənməsi və siyasi iflası, başqa özünütəsdiq formalarının olmaması ona gətirib çıxarır ki, radikal müxalifətin qəzetləri xəstə təxəyyülün məhsulu olan belə mövzuları daim gündəlikdə saxlayırlar. Həmin qəzetlərdə dövlət başçısı və vəzifəli şəxslər haqqında təhqir, böhtan, iftira xarakterli məqalələr dərc olunur. Belə yazılar onların əsas mövzusudur. Bu da məqalə müəlliflərinin və qəzet redaktorlarının nə qədər məsuliyyətsiz olduqlarını göstərir. Onlar başa düşməlidirlər ki, qanun qarşısında cavab verməli ola bilərlər.

Digər tərəfdən, qeyd etməliyəm ki, bu, sırf qəzetlərin mövqeyi deyildir. Heç kəsə sirr deyil ki, mətbuat üçün real həyatla heç bir əlaqəsi olmayan cəfəng təbliğat tezisləri dağıdıcı müxalifətin başında duranlar tərəfindən müəyyənləşdirilir. Yadınızdadırsa,

bir neçə il öncə müxalifət qəzetlərindən birinin ofisində "Müxalifətin mitinq taktikası", "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" kimi təlimat xarakterli sənədlər hazırlanmışdı. Bu təlimatlarda sağlam insan təfəkkürünə və etikasına tamamilə yad olan, müasir insanın özünə heç cür rəva bilmədiyi üsul və metodlarla hakimiyyətə qarşı mübarizə aparmaq tövsiyə olunurdu. Müxalifət funksionerləri və mətbu orqanları bu bədnam sənədlərdə əksini tapmış üsul və metodları əsas götürürlər.

***- Həm də bir qayda olaraq, guya mövcud olan hakimiyyətdaxili qruplaşmaların mübarizəsini regionçuluq amili ilə bağlayırlar.***

- Deməliyəm ki, XXI əsrdə “regionçuluq, tayfabazlıq” kimi anlayışlarla düşünmək və onları qərəzli şəkildə mətbuat səhifələrinə çıxarmaq mağara təfəkkürünün məhsulu, anaxronizmdir. Bu, yazıların müəlliflərinin və onların arxasında duran müxaliflərin düşüncə dayazlığının göstəricisidir. Demək lazımdır ki, regionçuluq, tayfabazlıq barədə deyilənlər siyasi uğursuzların son bəhanələridir. Köhnədən qalmış siyasət alverçiləri hesab edirlər ki, bu yolla onların hakimiyyətə gəlməsi daha realdır. Görürsünüz, hakimiyyət hərisləri öz məqsədlərinə nail olmaq üçün hətta Azərbaycanı parçalamağa, dağıtmağa hazırdırlar, onların bütün fəaliyyəti buna yönəlibdir. Nümunə dalınca çox uzağa getmək lazım deyildir. Elə onların beynəlxalq qurumlara yalan, böhtan xarakterli məlumatlar ötürməsini və yaxud düşmənlərimiz tərəfindən Azərbaycanın ünvanına, dövlətimizin maraqlarının ziddinə deyilən fikirlərə sevinmələrini, bunlarla həmrəy olmalarını xatırlamaq kifayətdir.

Amalları qrant mənimsəmək olan bu şəxslərin həqiqi qiymətini beynəlxalq təşkilatların nümayəndələri verirlər. Müstəqil

qəzetlərdən biri yazır ki, ABŞ Milli Demokratiya İnstitutunun Bakı ofisi nümayəndəsinin qənaətinə görə, müxalifət liderləri şəxsi ambisiyalarından yuxarıda dura bilmirlər. Bu, həqiqətdir.

***- Müxalifətin mətbu orqanlarında siyasi mədəniyyətdən və mənəviyyatdan kənar, açıq-aşkar yalan və böhtan, dezinformasiya xarakterli materiallar baş alıb getsə də, buna münasibət bildirilmir.***

- Ölkə quruculuq və inkişaf, Avropaya, sivilizasiyalı dünyaya inteqrasiya yolu ilə inamla gedir. İnsanlarda demokratik təfəkkür dərinləşib, yaxşını yamandan seçmək qabiliyyəti artıbdır. Təbiidir ki, belə bir şəraitdə dağıdıcı müxalifətin fəaliyyət dairəsi məhdudlaşıbdır. Bir vaxt xalqı uçuruma aparanların bu gün ona ürək qızdırıcı söz deməyə üzü yoxdur. Üstəlik, onların inandırıcı ideya və proqramları da yoxdur. Buna görə də müxalifət başçıları yeganə mövcudluq formasını qəzetlərdə görürlər. Təsadüfi deyil ki, davakar müxalifətin ruporu rolunda çıxış edən "Azadlıq", "Yeni Müsavat", "Bakı xəbər" kimi qəzetlərlə yanaşı, böhtan və təxribat üzrə ixtisaslaşan yeni-yeni qəzetlər buraxılır. Bu qəzetlərin yeganə məqsədi dezinformasiya yaymaq, təhqir və böhtan dolu yazılarla sadəlövh oxucuları çaşdırmaqdır. Əgər kimsə bu qəzetlərin səhifələrində həqiqət axtarırsa, vaxtını hədər yerə itirməsin və beynini korlamasın. Bu qəzetlərdəki yazıların 99 faizi yalana söykənir.

Müxalifət mətbuatının əsas iftira və təhqir obyekti Azərbaycan Prezidentidir. Yəqin ki, heç bir ölkədə dövlət başçısı haqqında yazılarda belə ifratçılığa varmırlar. Azərbaycan Prezidenti yüksək etika və tolerantlıq nümunəsi göstərərək, belə cızma-qaralara fikir vermir. Deyim ki, qəzetlərdə yazılan cəfəngiyatın çoxunu təkzib etməyə ehtiyac qalmır. Çünki həyat özü çox

tezliklə bu yalanları puça çıxarır. Lakin təbii ki, çirkin siyasi texnologiya müəllifləri və onun icraçıları ifşa olunmalıdır. O cümlədən ayrı-ayrı nazirliklərin, dövlət strukturlarının rəhbərləri dövlət siyasətinin ayrı-ayrı istiqamətləri haqqında böhtan və dezinformasiya ilə dolu, ictimai rəyi çaşdıran materialları təkzib etməli, dövlətin siyasi xəttinin müdafiəsində fəal iştirak etməlidirlər. Bu baxımdan icra orqanlarının, onların mətbuat xidmətlərinin və ictimaiyyətlə əlaqə şöbələrinin işi günün tələbləri səviyyəsində qurulmalı, fəaliyyətlərində böhtan və təhqirə qarşı mübarizlik gücləndirilməlidir.

**- Müsahibəyə görə çox sağ olun.**

*"Azərbaycan" qəzeti,*
*15 fevral 2005-ci il.*

## TARİXİ ƏDALƏTİN BƏRPASI NAMİNƏ ATILMIŞ MÜHÜM ADDIM

### "Azərbaycanlıların soyqırımı haqqında" yeddi il əvvəl imzalanmış Prezident Fərmanı Azərbaycan xalqının haqq səsi, ədalət harayıdır

XXI əsrin astanasında müstəqilliyini əldə etmiş Azərbaycan xalqı qədim tarixə və zəngin ənənələrə malik olan dövlətçiliyini bərpa edərək, milli-mənəvi dəyərlərə söykənən və ümumbəşəri ideallardan qidalanan məfkurəsini, öz milli ideologiyasını formalaşdıraraq, azad iqtisadi münasibətlərə əsaslanan, demokratiya prinsiplərini ehtiva və tətbiq edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyir. Dövlət suverenliyi və milli müstəqillik xalqın əsrlərlə ürəyində gəzdirdiyi müqəddəs arzunun, ideyanın təntənəsi, neçə-neçə nəsillərin bu ideya uğrunda açıq və gizli mübarizəsinin məntiqi yekunu olub, Azərbaycanın müasir durumunun başlıca keyfiyyət təzahürü kimi çıxış edir.

**Dövlət müstəqilliyi xalqımıza öz milli mənsubiyyətini tam dolğunluğu ilə ifadə etmək, milli mənafelərini maksimum şəkildə reallaşdırmaq imkanları vermişdir. Müstəqillik, azadlıq hissi indiki tarixi mərhələdə Azərbaycan xalqı qarşısında duran çətin və mürəkkəb problemlərin, özünüdərkin, özünüifadənin, bügünkü və gələcək uğurların fundamental şərtinə və rəhninə çevrilir.**

Azərbaycan xalqı on dördüncü ildir ki, müstəqil yaşayır. Bu illər, əslində, müstəqilliyin qorunub saxlanması, möhkəmləndi-

rilməsi uğrunda gərgin, bəzən dramatik mübarizə dövrü olmuşdur. İndi tam əsasla deyə bilərik ki, Prezident Heydər Əliyevin düşünülmüş, uzaqgörən, ölçülüb-biçilmiş siyasəti və zəngin dövlətçilik, rəhbərlik təcrübəsi sayəsində ölkəmizdə sabitlik təmin edilmiş və müstəqil Azərbaycan dövləti hərtərəfli inkişaf yoluna çıxarılmışdır. Xalqımız Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması, iqtisadi, siyasi və hüquqi islahatların aparılması, ölkənin təbii sərvətlərindən xalqın rifahı naminə istifadə edilməsi, dövlətimizin dünya iqtisadi və siyasi qurumlarına inteqrasiya olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sair kimi vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Azərbaycanın xoş sədası mötəbər beynəlxalq məclislərdən getdikcə daha tez-tez eşidilməkdədir, onun dünya birliyində nüfuzu, demokratik, hüquqi, dünyəvi dövlət imici artır. Bütün bunlar Azərbaycanın dövlət müstəqilliyinin nəticəsi olmaqla yanaşı, həm də onun dönməzliyinin, daimi və əbədi xarakter kəsb etməsinin mühüm göstəricisidir.

Sübut etməyə ehtiyac yoxdur ki, mənəvi dəyərlərimizi canlandırmadan, milli mənlik hissini coşdurmadan, xalqın soykökünə arxalanmadan milli dövlətçiliyin əbədiyaşar bünövrəsini qurmaq qeyri-mümkündür. Xalqımızın ümummilli lideri Heydər Əliyev haqlı olaraq deyirdi: **“Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq uğrunda mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız buna nail olub… Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir. Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı xalq kimi bütün dünyada tanınıb”.**

Hər bir xalq öz tarixində milli mənsubiyyətini təsdiqləyən cəhətləri cilalayaraq, əxlaqi-psixoloji dəyərlərini və keyfiyyətlərini formalaşdırır. Xalqın tarixi nəinki onun kökü, mənşəyi haqqında informasiya mənbəyidir, habelə onun keyfiyyət müəyyənliyi, milli yetkinlik zirvəsinə yüksəlişinin xronologiyasıdır. Ona görə də xalqın həyatı, mədəniyyəti, məfkurəsi haqqında həqiqi bilgiləri onun obyektiv, dəqiq və dolğun tədqiq olunub yaradılmış tarixi vasitəsilə əldə etmək mümkündür.

Azərbaycan xalqının tarixi qədim və zəngin olduğu qədər də kəşməkəşli olmuşdur. Azərbaycanlıların neçə-neçə nəsilləri tarixi ədalət uğrunda vuruşmaqla yanaşı, həm də tarixi həqiqəti bərpa etmək uğrunda mübarizə aparıblar. Yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlərin açılması tariximizin təhrif edilmiş səhifələrinin yenidən, bu dəfə obyektiv yazılmasına şərait yaradıbdır. Ona görə də hazırda cəmiyyətimiz, ilk növbədə isə, tariximizin tədqiqatçıları qarşısında çox mühüm vəzifələr durur.

Azərbaycan tarixinin gizli saxlanılan, uzun müddət təhrif edilən səhifələrindən biri də xalqımıza qarşı dəfələrlə törədilmiş, lakin uzun illər özünün hüquqi və siyasi qiymətini almamış soyqırımıdır. **“Azərbaycanlıların soyqırımı haqqında” ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış 1998-ci il 26 mart tarixli Fərman bu boşluğu doldurmuş, tarixi həqiqəti aşkar etmişdir. Qətiyyətlə deyə bilərik ki, bu Fərman 200 il ərzində Azərbaycan xalqına qarşı törədilən haqsızlıqların indiki və gələcək nəsillərimizə, habelə bütün dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi dövlət**

**əhəmiyyəti, hətta beynəlxalq əhəmiyyət kəsb edən sənəddir.** Özünün ruhu, məzmunu, ideya yönümü ilə bu sənəd yüz illərlə xalqımıza qarşı törədilən qəddar cinayətlərin, XX əsrin sonlarında "Dağlıq Qarabağ problemi" şəklində ortaya çıxmış erməni təcavüzünün həqiqi köklərinin öyrənilməsi və dərk edilməsində əvəzsiz tarixi-siyasi mənbə əhəmiyyətinə malikdir.

**"Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda Heydər Əliyev xalqımıza qarşı soyqırımı faktlarının dövlət səviyyəsində ilk dəfə bəyan edilməsi və ona siyasi qiymət verilməsi ilə Azərbaycan xalqı qarşısında daha bir tarixi xidmət göstərmişdir. Bu Fərmanın imzalanmasını dövlətçilik fəaliyyətinin adi bir faktı kimi qiymətləndirmək düzgün olmazdı. Belə sənədin qəbul edilməsi dövlət başçısından xalqımızın tarixi taleyinə dərindən bələdlik və obyektiv baxış, əsl vətəndaş cəsarəti və böyük siyasi uzaqgörənlik, müdriklik və iradə tələb edirdi.**

Uzun illər müxtəlif formalarda təcavüzlərə məruz qalan, lakin haqq səsini dünyaya çatdıra bilməyən azərbaycanlılar həmin Fərmanın sayəsində əsl həqiqəti uca səslə bəyan etmək, millətimizi zülmə, sıxıntılara düçar etmiş erməni və digər ünvanlı təcavüzkarların insanlığa yaraşmayan əməllərini konkret faktlarla ifşa etmək imkanı əldə etmişlər.

Bu həqiqət isə ondan ibarətdir ki, müxtəlif coğrafi-siyasi maraqların amansız burulğanına düşmüş Azərbaycan xalqı son iki əsr ərzində milli, dini və ərazi baxımından sıxışdırılıb, qədim ata-baba torpaqlarının böyük bir hissəsindən çıxarılıb, ardı-arası kəsilməyən təzyiqlər və təqiblər sayəsində taqətdən salınıb, dəfələrlə soyqırımına məruz qalıb, lakin onun etiraz səsi, harayı qəddarcasına boğulub, dünyadan gizlədilibdir.

Bütün bunlara görə “Azərbaycanlıların soyqırımı haqqında” Prezident Fərmanı mühüm siyasi və tarixi əhəmiyyətə malik sənəddir. O, XIX-XX əsrlərdə azərbaycanlılara qarşı ölkəmizin daxilində və beynəlxalq səviyyədə həyata keçirilən soyqırımı siyasətinə, xalqımız əleyhinə tarixi cinayətlərə rəsmi dövlət səviyyəsində siyasi qiymət vermişdir. Bununla yanaşı, Fərman ermənilərin və onların himayədarlarının çirkin məqsədli fəaliyyəti nəticəsində xalqımızın son iki yüzillik tarixinin bilərəkdən saxtalaşdırıldığını dövlət səviyyəsində bəyan etmişdir. O, həm də baş vermiş kədərli hadisələrin obyektiv araşdırılması və beynəlxalq təşkilatlar tərəfindən bu cinayətlərə ədalətli qiymət verilməsi üçün hüquqi-siyasi baza yaratmışdır. Bu isə təkcə tarixçilərimiz, ümumiyyətlə, elmi ictimaiyyətimiz qarşısında deyil, həm də ölkəmizi, xalqımızı beynəlxalq səviyyədə təmsil edən nümayəndələrimiz, ən əvvəl diplomatlarımız qarşısında, eləcə də müxtəlif ölkələrdə yaşayan soydaşlarımız, Azərbaycan diasporu qarşısında mühüm vəzifələr qoyur.

Tarix göstərir ki, Azərbaycan torpaqları hesabına “Böyük Ermənistan” dövləti yaratmaq üçün azərbaycanlıların soyqırımını törətmək ermənilərin uzunmüddətli çirkin, azğın milli məqsədidir və bunu hər bir azərbaycanlı dərk etməlidir. Fərmanda Azərbaycan ərazisinin işğalçılar tərəfindən parçalanması, əhalisinin ağır müsibətlərə düçar edilməsi, son iki əsrdə əvvəlcə çar Rusiyasının, sonralar isə totalitar sovet rejiminin bilavasitə yardımı və himayəsi ilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi düşünülmüş, məqsədyönlü soyqırımı siyasəti mərhələ-mərhələ açıqlanmış və təkzibedilməz bir məntiqlə ifşa olunmuşdur.

Sənəddə qeyd olunduğu kimi, həqiqətən də, bu soyqırımı siyasətinin ilkin mərhələsi Gülüstan və Türkmənçay müqavilə-

ləri nəticəsində Azərbaycan torpaqlarının yadelli qəsbkarlar tərəfindən parçalanaraq işğal edilməsi və həmin ərazilərə başqa ölkələrdən ermənilərin köçürülməsi ilə başlanır. Məhz həmin dövrdə ermənilər tarixi Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazilərində məskunlaşdırıldı və orada yaşayan azərbaycanlılarla müqayisədə son dərəcə azlıq təşkil etmələrinə baxmayaraq, “Erməni vilayəti” adlı süni inzibati ərazi bölgüsü yaradılmasına nail oldular. Bununla da azərbaycanlıların öz əzəli torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyuldu və Fərmanda qeyd edildiyi kimi, soyqırımı Azərbaycan torpaqlarının işğalı strategiyasının ayrılmaz tərkib hissəsinə çevrildi. On ildən bəri davam edən və xalqımızı ağır məhrumiyyətlərə məruz qoyan Dağlıq Qarabağ separatçılığı bu strategiyanın növbəti təzahürüdür.

**Prezident fərmanının əhəmiyyəti onun tarixi hadisələrə siyasi qiymət verməsi ilə məhdudlaşmır. Bu Fərman keçmiş tariximizə və bugünkü proseslərə baxışları köklü surətdə dəyişdirməyi nəzərdə tutan çox mühüm dövlət sənədi, konseptual siyasi baxışlara əsaslanan metodoloji bazadır. Bu Fərman dünya miqyasında öz mövqelərini getdikcə möhkəmləndirən müstəqil Azərbaycan dövlətinin haqq səsidir, ədalət harayıdır, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmağı və öz maraqlarını müdafiə etməyi bacaran dövlətin milli manifestidir. Fərmanın həm bütünlükdə məzmunu, həm də ayrı-ayrılıqda müxtəlif müddəaları hər bir vətəndaş və bütövlükdə cəmiyyət qarşısında çox mühüm vəzifələr irəli sürür.**

Fərmanda 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin Azərbaycan xalqının və torpaqlarımızın parçalanmasının əsasını qoyması kimi səciyyələndirilməsi, əslində, hə-

min dövrdən bu günə qədər Azərbaycan tarixinə yeni, saxtakarlıqdan uzaq, obyektivliyə əsaslanan mövqedən yanaşmaq, onun yeni konsepsiyasını yaratmaq zərurətini irəli sürmüşdür. Etiraf etməliyik ki, uzun illər Azərbaycan xalqına qarşı yeridilən mənfur sıxışdırma siyasətinin və ermənilərin törətdikləri soyqırımının ört-basdır edilməsində, tariximizin saxtalaşdırılmasında bizim ictimai elmlərin nümayəndələrinin günahı da az deyildir. Onlar kommunist ideologiyasının obyektivlikdən çox uzaq olan, tarixi faktları təhrif edən “xalqlar dostluğu”nun felinə uyaraq, əsl həqiqətləri nəinki dünya ictimaiyyətinə, heç öz gənc nəslimizə belə çatdıra bilməyiblər. Bununla əlaqədar son iki yüzillik tarixmizin yenidən işlənməsi tarixçilərin və bütünlükdə ictimai elmlərimizin əsas vəzifəsi kimi qarşıda durur.

Sübut etməyə ehtiyac yoxdur, 1988-ci ildə ortaya atılan qondarma “Dağlıq Qarabağ problemi”ndə, 1990-cı ilin 20 yanvar Bakı qırğınında. Xocalı faciəsində və digər antiazərbaycan vəhşiliklərində öz əksini tapan soyqırımının kökləri Rusiya imperiyasının “Qafqaz yürüşünə”, XIX əsrin əvvəllərinə, yuxarıda xatırladılan müqavilələrin imzalanması ilə nəticələnən coğrafi-siyasi proseslərə və münasibətlərə gedib çıxır. İki yüz il ərzində azərbaycanlıların mərhələ-mərhələ öz tarixi torpaqlarından sıxışdırılıb çıxarılmasının əsl səbəblərini və bu proseslərin həm iştirakçılarının, həm də havadarlarının qarşıya qoyduqları məqsədlərin mahiyyətini aşkara çıxara bilərik. Bu modeli isə Prezidentin Fərmanının yalnız yeni konseptual modeli zəminində dərin məna çalarlarını yüksək vətəndaş məsuliyyəti və cəsarəti ilə dərk edən vətənpərvər alimlərimiz yaratmalı və həyata keçirməlidirlər. Fərmanın imzalanmasından ötən müddətdə bununla bağlı bir sıra diqqətəlayiq işlər görülüb və görülməkdədir.

İrəli sürülən vəzifəni sırf elmi-idrarki məzmunlu və yönümlü problem kimi təqdim etmək səhv olardı. Məsələyə siyasi prizmadan yanaşaraq, onun praktik məqsədini daha düzgün müəyyənləşdirib həyata keçirmək lazımdır. Söhbət azərbaycanlıların son iki yüz ildə, o cümlədən yaşadığımız dövrdə üzləşdiyi təzyiqlərin, soyqırımı hadisələrinin səbəbləri və köklərinin düzgün araşdırılması və obyektiv qiymətləndirilməsi ilə məhdudlaşmır. Yuxarıda qeyd etdiyimiz kimi, özlüyündə bu, vacibdir. Lakin əsas məqsəd və vəzifə ondan ibarətdir ki, bu xarakterli hadisələrin səbəblərinə ayıq nəzərlə baxaq, gələcəkdə belə faciələrin təkrar olunmaması üçün onların qarşısını vaxtında ala bilək. Bunun üçün isə, ilk növbədə, gənc nəsli və gələcək nəsilləri xalqımızın gözəl mənəvi-əxlaqi dəyərləri ruhunda, vətənpərvərlik qayəsi əsasında tərbiyə etmək, "milli biganəliyin", tariximizə və müsibətlərimizə etinasız münasibətin aradan qalxmasına nail olmaq, mümkün ola biləcək yeni sınaqlar qarşısında xalqımızın öz qədir-qiymətini dərk edən vahid, mübariz, qətiyyətli bir millət kimi formalaşmasını təmin etmək lazımdır.

**"Azərbaycanlıların soyqırımı haqqında" Fərman xalqımızın tarixi yaddaşının bərpası və möhkəmləndirilməsi, milli dəyərlərə və milli hisslərə söykənən mənəvi-əxlaqi tərbiyə sahəsində də mühüm vəzifələr irəli sürmüşdür. Bunun üçün saxtalaşdırılmış erməni tarixi zəminində azərbaycanlılara qarşı yeridilən erməni siyasətinə ən layiqli cavab tarixi həqiqətlərin hər bir azərbaycanlıya çatdırılmasıdır. Mənfur məqsədləri hər birimizə məlum olan erməni düşmənçiliyinin və ekstremizminin xalqımıza qarşı törətdiyi soyqırımı dəhşətlərinin aşkarlanması, gənclərə izah edilməsi onların milli şüurunun, idrakının inkişafında, vətənpərvərlik tərbiyəsində**

**əsas istiqamət olmaqla yanaşı, həm də keçmişimizin acı reallıqlarının bir daha təkrar olunmaması üçün milli yaddaş fenomeninə və ciddi xəbərdarlığa çevrilməlidir.** Tarixi unutqanlığımız və biganəlik üzündən müxtəlif dövrlərdə xalqımızın düçar olduğu faciələrin Azərbaycan övladlarının tərbiyəsində (subyektiv və obyektiv amillərə görə) həlledici amilə çevrilə bilməməsindən lazımi nəticə çıxarmağın vaxtı çoxdan çatmışdır. Xalqımız müstəqillik şəraitində öz şərəfli tarixini yaşayarkən, keçmişimizin qanlı səhifələrini, yaralarını da unutmamalıdır. Bunun üçün gənclərimizdə ideya-siyasi və mənəvi mübarizlik hisslərini gücləndirməliyik.

**Azərbaycanlıların soyqırımı tarixinin gənc nəslin təlim-tərbiyəsinin mühüm, bəlkə də həlledici elementi kimi tədqiq edilib yazılması cəmiyyəti düşündürən ən aktual problemlərdən biri olaraq qalır. Belə bir cəhətə xüsusi diqqət yetirilməlidir ki, ermənilərdən fərqli olaraq, azərbaycanlılar qisasçılıq hissinə qapılmasalar da, öz tarixi haqlarını qorumaqda və bərpa etməkdə daha güzəştə getməyəcəklər.**

Fərmanın xalqımıza qarşı törədilmiş haqsızlıqların və cinayətlərin üstünü açmasında, bunları həm bugünkü, həm də gələcək nəsillərə çatdırmaq zərurətini vurğulamasında ifadə olunan tarixi əhəmiyyəti bu işə bütün cəmiyyətin qoşulmasını şərtləndirir. Hər bir azərbaycanlı tam məsuliyyətlə dərk etməlidir ki, torpaqlarımızın parçalanması, zəbt olunması, xalqımızın soyqırımına məruz qalması vətəndaşlıq duyğularını gücləndirən, milli məfkurəni ötəri hisslərdən və məqsədlərdən təmizləyən tarixi yaddaşa çevrilməlidir. Ona görə də mövqeyindən, əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs bu məsələnin tarixi əhəmiyyətini dərk etməli və orada irəli sürülən vəzifələrin

həyata keçirilməsi işinə öz töhfəsini verməyə mühüm vətəndaşlıq borcu kimi yanaşmalıdır. Bu vəzifələrin reallaşması bütün cəmiyyətin, dövlət və qeyri-dövlət strukturlarının, ictimai-siyasi təşkilat və partiyaların, habelə xaricdə yaşayan soydaşlarımızın səylərinin birləşməsini tələb edir. Bu ümummilli xarakterli məsələdə iqtidar-müxalifət bölgüsü qətiyyən yolverilməzdir.

**Azərbaycanlılara qarşı uzun illər boyu davam etmiş soyqırımı tarixinin öyrənilməsi və bu insanlıqdankənar əməllərin düzgün qiymətləndirilməsi xalqımızın mənəviyyatına, milli qüruruna və mənliyinə qarşı yönəlmiş azğın təxribat və böhtanlara son qoymaq baxımından da tutarlı dəstavüz ola bilər. Bu, həm də ona görə xüsusilə vacibdir ki, belə təxribat və böhtanlar, əslində ölkəmizə, xalqımıza qarşı zaman-zaman hərbi və siyasi təcavüzlər üçün ideoloji zəmin rolunu oynayır.** Xalqımıza qarşı aparılan soyqırımı 1998-ci ilədək özünün hüquqi-siyasi qiymətini almadığı üçün Azərbaycanın haqq işi uğrunda ədalətli mübarizəsi bütün dövrlərdə çətinliklərlə qarşılaşmalı olmuşdur. Ölkəmizə və xalqımıza qarşı yönəlmiş təxribatlara vaxtında qiymət verilməməsi, eləcə də o dövrdə milli birliyin, dövlətçilik təcrübəsinə malik liderin olmaması Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəblərinin dünyaya vaxtında çatdırılmasına böyük əngəllər törətmişdir. Buna görə də azərbaycanlıların soyqırımı hadisələrinin tarixi faktlar əsasında geniş dünya ictimaiyyətinə bəyan olunması Dağlıq Qarabağ münaqişəsi zəminində xalqımızın pozulmuş hüquqlarının, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində görülən çoxşaxəli işin tərkib hissəsinə çevrilməlidir. Azərbaycanlıların soyqırımının bütün dəqiqliyi ilə dünya birliyinə çatdırılması onilliklər ərzində uydurulmuş “məzlum, yazıq erməni milləti” obrazını dağıtmaq üçün də ən tutarlı vasitə ola bilər.

**Xalqımızın tarixi keçmişinin qaranlıq səhifələrinə işıq saçan bu Fərman taleyüklü fundamental məsələlər irəli sürdüyünə görə, bütün Azərbaycan xalqının diqqətini cəlb edib, cəmiyyətimiz tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilibdir. Xalqın bütün təbəqələri onun əhəmiyyətini, vacibliyini, dəyərini dərk edərək, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində yaxından iştirak etməyə can atırlar.** Fərmanda qaldırılan problemlər ətrafında intensiv diskussiyalar aparılır, elmi konfranslar, ictimaiyyətin toplantıları keçirilir. Prezidentin bu Fərmanı ilə bağlı Milli Məclis xüsusi sessiya keçirmiş, azərbaycanlıların soyqırımı haqqında bəyanat qəbul etmiş, beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət etmişdir ki, son iki əsrdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətini tanısınlar, gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılsın.

**Tarixin acı həqiqətlərinin ibrət dərsi ondan ibarətdir ki, azərbaycanlılara qarşı iki yüz il davam edən soyqırımı həmin faciələrin əsl səbəbkarlarının kölgədə, cəzasız qalması sayəsində mümkün olmuşdur. Buna görə də xaricdə təbliğat işimizin bütün gücü və əsas istiqaməti azərbaycanlıların soyqırımı tarixinin tam təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırılmasına yönəldilməlidir. Bu məqsədlə Birləşmiş Millətlər Təşkilatını, ATƏT-i, dünyanın bütün nüfuzlu təşkilatlarını tarixdə ən amansız milli qırğın olan azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq istiqamətində genişmiqyaslı tədbirlər sistemi həyata keçirilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyamızın bu sahədəki fəaliyyətini şəxsən**

**istiqamətləndirir, soyqırımı və işğal faktları ilə bağlı həqiqətlərin ən yüksək tribunalardan səslənməsinə nail olur.**

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı tarixi həqiqətlərin üzərindən qadağını götürməklə yanaşı, müasir Azərbaycan dövləti ilə bağlı reallıqların mahiyyətinin dərk edilməsində də mühüm meyar rolunu oynayır. Ermənilərin və onların havadarlarının azərbaycanlılara qarşı uzun illər ərzində törətdiyi soyqırımı faktlarının üstünün açılıb bütün dünyaya bəyan edilməsi Dağlıq Qarabağ münaqişəsi zəminində ölkəmizin pozulmuş hüquqlarının bərpa olunmasında çox təsirli vasitə rolunu oynayır. Prezident Fərmanının böyük tarixi və siyasi əhəmiyyətinin dərk olunması cəmiyyətin bütün təbəqələrinin, elmi ictimaiyyətin, ictimai-siyasi qüvvələrin, hər bir vətəndaşın ona böyük məsuliyyət və yüksək vətənpərvərlik mövqeyindən yanaşması zərurətini şərtləndirir. Milli mənafeləri uca tutan, xalqımızın tarixi haqlarının müdafiə edilməsinə vətəndaş məsuliyyəti göstərən hər bir azərbaycanlı bu Fərmanda irəli sürülən vəzifələrə diqqətlə yanaşır, milli yaddaşımızın qəti şəkildə, birdəfəlik bərpa edilməsi işində yaxından və fəal iştirak edir. Unutmamalıyıq ki, xalqımızın tarixində baş vermiş elə hadisələr var ki, ona münasibətdə cəmiyyətin bütün təbəqələri eyni mövqedən çıxış etməlidir. Bu məsələdə heç kim kənarda qalmamalıdır. Bununla da biz soyqırımının qurbanı olmuş çoxsaylı soydaşlarımızın müqəddəs ruhu qarşısında gecikmiş borcumuzu qismən ödəyər, parçalanmış, işğal edilmiş tarixi Azərbaycan torpaqlarının bərpasına öz vətəndaşlıq xidmətimizi göstərmiş olarıq.

*"Respublika" qəzeti,*
*29 mart 2005-ci il.*

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUĞUNU İDARƏETMƏ ŞURASI YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ KOMİSSİYANIN İNTERNET SAYTININ TƏQDİMATINDA ÇIXIŞ

- Hörmətli xanımlar, cənablar!

Bugünkü görüşümüzün məqsədi Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın internet saytını təqdim etməkdir. Bu tədbirdə komissiyanın üzvləri ilə yanaşı, xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak edirlər. Mən sizin hamınızı salamlayır və bu tədbirdə iştirakınıza görə təşəkkür edirəm.

Bildiyiniz kimi, 2004-cü ilin yanvar ayında Korrupsiyaya qarşı mübarizə üzrə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun təkcə korrupsiyaya qarşı mübarizə sahəsində deyil, həm də iqtisadiyyatın inkişafı və dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması üçün əhəmiyyətli sənəddir. Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya da məhz bu qanunla yaradılmışdır.

Artıq komissiya fəaliyyətə başlamış və bu günə kimi bir neçə iclas keçirmişdir. Bu iclaslarda komissiyanın fəaliyyətinin təşkili məsələlərinə baxılmış, onun Katibliyi formalaşdırılmış, komissiya yanında işçi qrupları yaradılmışdır. Mayın 2-də komissiyanın üçüncü iclasında korrupsiya ilə əlaqədar bir sıra məsələlər müzakirə edilmiş, komissiyanın bu gün sizə də təqdim edilən illik fəaliyyət planı təsdiq olunmuşdur. Yeri gəlmişkən, bir xəbəri də

sizə çatdırmaq istərdim ki, bu gün Milli Məclisdə komissiyanın əsasnaməsinin son oxunuşda qəbul edilməsi gözlənilir. Əsasnamənin qəbul edilməsi komissiyanın işini daha da təkmilləşdirəcək və vətəndaşların müraciətlərinə baxılması işini daha da yaxşılaşdıracaqdır.

Bütün dövrlərdə olduğu kimi, korrupsiya indi də dövlət idarəçiliyinə əngəllər yaradan, bərabərlik və sosial ədalət prinsiplərini pozan, iqtisadi inkişaf üçün maneələr törədən amillərdən biridir. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan Respublikası korrupsiyaya qarşı qətiyyətlə və əzmlə mübarizəyə başlamış və bu sahədə əhəmiyyətli işlər görmüşdür. Bu işlərin davam etdirilməsi üçün 2004-cü ilin sentyabr ayında Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət proqramı qəbul edilmişdir. Komissiyanın dünənki iclasında son altı ayda Dövlət proqramının yerinə yetirilməsi məsələləri müzakirə edilmiş, onun həyata keçirilməsi istiqamətində əhəmiyyətli tədbirlərin görüldüyü müəyyən olunmuşdur. Eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində mövcud olan nöqsanların aradan qaldırılması və problemlərin həlli ilə bağlı geniş müzakirələr keçirilmiş və dövlət orqanlarına ciddi tapşırıqlar verilmişdir.

Korrupsiya təkcə bir ölkənin deyil, həm də bütün dünya ölkələrinin ümumi problemi olduğundan, bu sahədə beynəlxalq əməkdaşlıq vacib şərtlərdən biridir.

Bu məqsədlə Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq sənədlərə, o cümlədən Avropa Şurasının və Birləşmiş Millətlər Təşkilatının korrupsiyaya qarşı konvensiyalarına qoşulmuşdur. Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq tədbirlərdə də iştirak etmiş, Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupuna (GRECO) üzv olmuşdur.

Dövlət proqramında korrupsiyaya qarşı mübarizənin təkcə repressiv üsullarla deyil, həm də qabaqlayıcı tədbirlər vasitəsilə aparılması müəyyən edilmişdir. Bu məqsədlə Dövlət proqramında dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, onların səlahiyyətlərinin dəqiqləşdirilməsi və işlərinin daha səmərəli qurulması üçün bir çox institusional islahatların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Dövlət proqramı təsdiq edildikdən sonra bir neçə nazirlik və komitə yenidən formalaşdırılmış və onların səlahiyyətləri dəqiqləşdirilmişdir. Dövlət qulluğu sahəsində aparılan islahatları sürətləndirmək məqsədi ilə bu ilin yanvar ayında Respublika Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır.

Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə Dövlət proqramında nəzərdə tutulmuş bütün qanun layihələri, o cümlədən "İnzibati icraat haqqında" və "Məlumat azadlığı haqqında" qanunların və "Dövlət qulluqçularının etik davranış kodeksi"nin layihələri hazırlanaraq, Milli Məclisə təqdim edilmişdir. Bir çox dövlət orqanlarında dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi üçün tədbirlər görülmüşdür.

Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi üçün qaydalar tərtib olunmuş və müzakirə üçün Milli Məclisə təqdim edilmişdir. Dövlət qulluqçularının fəaliyyətində maraqlar ziddiyyətinin aradan qaldırılması məqsədi ilə qanun layihəsinin hazırlanması üçün Ədliyyə Nazirliyinə müvafiq tapşırıq verilmişdir.

Bundan əlavə, hüquq mühafizə orqanlarının və məhkəmələrin fəaliyyət sahəsinə dair mühüm işlər görülmüşdür. Belə ki, ötən il ərzində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Əsasnaməsi qəbul

edilmiş, idarənin rəisi təyin olunmuş, idarəyə peşəkar və təcrübəli əməkdaşlar cəlb edilmiş və idarənin işinin təşkili üçün zəruri tədbirlər görülmüşdür. İdarənin əməkdaşları üçün daha yüksək əmək haqqı müəyyən edilmişdir.

Korrupsiyaya qarşı mübarizənin həyata keçirilməsində ən vacib şərtlərdən biri də ədalətli, qərəzsiz və müstəqil məhkəmə sisteminin qurulmasıdır. Ədalətli və müstəqil məhkəmə sistemi dövlət orqanları tərəfindən sui-istifadə hallarının qarşısının alınması üçün mühüm çəkindirici vasitədir.

Azərbaycan Respublikasında 1997-ci ildən başlanan məhkəmə islahatlarının davam etdirilməsi üçün ötən ilin dekabrında məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra vacib qanunlar qəbul olunmuşdur. Artıq bu qanunların qəbulu ilə əlaqədar islahatlara başlanılmış, məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə Hüquq Şurası formalaşdırılmışdır. Hakimlərin daha peşəkar olmasının təmin edilməsi üçün onların əvvəlki fəaliyyətinin dəyərləndirilməsinə başlanılmışdır. Yeni hakim seçkiləri şəffaflıq şəraitində keçiriləcək və hakimliyə namizədlər vəzifələrinin icrasına başlamazdan əvvəl uzunmüddətli tədris kursları keçəcəklər. İslahatlara əsasən, hakimlərin intizam məsuliyyətinə cəlb olunmasının yeni əsasları müəyyən edilmiş və korrupsiya hüquqpozmalarının törədilməsi belə məsuliyyətə cəlb edilmənin əsaslarından biri kimi müəyyən olunmuşdur. Bundan sonra vətəndaşlar korrupsiya hüquqpozmalarının törədilməsi haqqında məlumata malik olduqda, birbaşa Məhkəmə Hüquq Şurasına da müraciət edə biləcəklər. Bütün bunlar məhkəmələrdə sui-istifadə hallarının qarşısının alınması üçün imkanlar yaradacaqdır.

Ancaq qeyd olunan tədbirlərin görülməsinə baxmayaraq, komissiya Dövlət proqramının həyata keçirilməsində bəzi nöqsan

və çatışmazlıqların da olduğunu müəyyən etmişdir. Belə ki, Dövlət proqramı bütün sahələrdə dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsini tələb etməsinə baxmayaraq, bir sıra dövlət orqanlarında bu, hələ də təmin olunmamışdır. Bu məqsədlə komissiya son iclasında xüsusi müzakirələr aparmış və bütün dövlət orqanlarına ciddi tapşırıqlar verilmişdir ki, dövlət qulluğuna qəbulun şəffaflıq və müsabiqə əsasında keçirilməsini təmin etsinlər. Dövlət qulluqçularının fəaliyyətinin dəyərləndirmə sisteminin həyata keçirilməsi və dövlət qulluğunda rotasiya sisteminin tətbiq edilməsi də qənaətbəxş səviyyədə həyata keçirilməmişdir. O cümlədən, komissiya hesab edir ki, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin fəaliyyətinin qurulması ilə bağlı tədbirlər sürətləndirilməli və bu sahədə konkret nəticələr əldə edilməlidir.

Bütün bu göstərilən məsələlərə dair komissiya dünən təsdiq etdiyi illik fəaliyyət planında xüsusi iclasların keçirilməsini nəzərdə tutmuşdur. Bu plana uyğun olaraq, komissiya göstərilən məsələlərin hər birini ayrılıqda müzakirə edəcək və müvafiq tədbirlərin görülməsi üçün qərarlar çıxaracaqdır.

Yuxarıda göstərdiyim sahələrlə yanaşı, iqtisadi və sosial sahədə də korrupsiyaya qarşı əhəmiyyətli tədbirlər görülmüşdür. Bu barədə dünənki iclasda iqtisadi inkişaf naziri Fərhad Əliyev və Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov komissiya qarşısında geniş məruzələrlə çıxış etmişlər. Məlumat verilmişdir ki, son altı ay ərzində Dövlət proqramına uyğun olaraq, Antiinhisar Məcəlləsinin və investisiya fəaliyyəti haqqında yeni qanunun layihələri hazırlanmış və müzakirə üçün Milli Məclisə təqdim edilmişdir.

Maliyyə nəzarətini təkmilləşdirmək məqsədi ilə bu ilin fevral ayında respublika Prezidenti tərəfindən xüsusi Fərman imzalan-

mışdır. Yerli büdcənin icrasına nəzarətin təkmilləşdirilməsi məqsədi ilə bələdiyyələrin statusu haqqında qanunvericilik aktlarına dəyişikliklər edilmişdir. Maliyyə nəzarətinin təkmilləşdirilməsi üçün "Dövlət maliyyə nəzarəti haqqında" qanunun və "Dövlət maliyyə nəzarətinin Standartları"nın layihələrinin hazırlanmasına başlanılmışdır. Bank sistemində islahatların sürətləndirilməsi, bu sahədə ədalətli rəqabətin və şəffaflığın təmin edilməsi məqsədi ilə "Banklar haqqında" və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" yeni qanunlar qəbul olunmuşdur.

Buna baxmayaraq, komissiya iqtisadi sahədə, xüsusilə də ədalətli rəqabətin təmin edilməsində çatışmazlıqların olduğunu müəyyən etmişdir. Bildiyiniz kimi, ölkə Prezidenti xüsusilə iqtisadi və sosial sahədə görülən tədbirləri həmişə diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti İlham Əliyev aprel ayının 20-də, 2005-ci ilin birinci rübünün iqtisadi yekunlarına həsr olunmuş müşavirədə iqtisadi sahədə tədbirlərin sürətləndirilməsi, inflyasiyanın və inhisarçılığın qarşısının alınması üçün dövlət orqanlarına xüsusi tapşırıqlar vermişdir. Ona görə də hesab edirik ki, gələn aylar ərzində bu sahələrə xüsusi diqqət yetiriləcəkdir. Bu məqsədlə də komissiya öz illik fəaliyyət planında iqtisadi və sosial sahə ilə bağlı üç xüsusi iclasın keçirilməsini qərara almışdır.

Ümumiyyətlə, Azərbaycan Respublikası təkcə iqtisadi sahədə deyil, bütün sahələrdə korrupsiyaya qarşı mübarizə ilə bağlı möhkəm iradəsini həmişə bəyan etmişdir. Respublikamız korrupsiyaya qarşı mübarizədə hər zaman barışmaz mövqedə olmuşdur və gələcəkdə də bu istiqamətdə öz qəti əzmini nümayiş etdirəcəkdir. Bunun üçün də korrupsiyaya qarşı mübarizədə bütün vasitələrdən istifadə edilməlidir. Bu mübarizədə təkcə

korrupsiyaya görə cəzalandırma deyil, həm də korrupsiyaya şərait yaradan halların müəyyən edilməsi və onların aradan qaldırılması, iqtisadiyyatın davamlı inkişafı, əhalinin sosial rifahının yüksəldilməsi əsas vasitələr olmalıdır. Cənab Prezident İlham Əliyevin göstərilən müşavirədə söylədiyi kimi, 2005-ci ildə Azərbaycan iqtisadi inkişafın artımının göstəricilərinə görə nəinki bölgədə və yaxud postsovet məkanında, hətta dünyada lider olacaqdır. Əgər bu il biz ümumi daxili məhsulun artımını 14-15 faiz səviyyəsində nəzərdə tuturduqsa, indi görürük ki, bu rəqəm daha da yüksələ, təxminən 18-20 faizə çata bilər. Ona görə də respublikamızın inkişafına mane ola biləcək bütün hallara, o cümlədən korrupsiyaya qarşı qəti mübarizə aparılacaqdır.

Bu mübarizədə əsas amillərdən biri də korrupsiyaya qarşı maarifləndirmənin təşkil edilməsi, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, beynəlxalq təşkilatlar ilə və digər tərəfdaşlarla əməkdaşlıqdır. Ona görə də komissiyanın qərarı ilə Dövlət proqramının məqsədi və mahiyyəti, onun icrasına yönəlmiş tədbirlər barədə məlumatlar daim media vasitələrində yayımlanmışdır. Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq tədbirlərdə iştirak etmiş, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı çərçivəsində İstanbul Antikorrupsiya Fəaliyyət Planına, Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulmuş və Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupuna (GRECO) üzv olmuşdur. "Transparensi İnterneşnl" kimi bir çox qeyri-hökumət təşkilatları, xarici ölkələrin səfirlikləri, xüsusilə Amerika Birləşmiş Ştatlarının səfirliyi ilə səmərəli əməkdaşlıq qurulmuşdur.

Komissiyanın işinin şəffaf, vətəndaşlarla daha yaxın ünsiyyətdə qurulması əsas iş prinsipi kimi müəyyən edilmişdir. Bu

məqsədə nail olunması, o cümlədən maarifləndirmənin daha səmərəli təşkil edilməsi və əməkdaşlığın gücləndirilməsi üçün komissiyanın rəsmi saytı açılmışdır. Bugünkü tədbirdə də məqsədimiz bu saytı sizin diqqətinizə təqdim etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra komissiyanın sədri Ramiz Mehdiyev suallara cavab verdi.

***- İndiyə qədər Komissiyaya hansısa məmur haqqında məlumat daxil olubmu?***

- Yerlərdən ərizələr daxil olub, biz onları hələlik Baş prokurorun yanında yaradılmış idarəyə göndəririk, orada baxılır. Ancaq çox təəssüflər olsun ki, ərizələrin demək olar ki, 99 faizi anonimdir. Ölkədə şəffaflıq yaranıb və heç kəs narahat olmasın ki, kim obyektiv məlumat verirsə, o, təqib olunacaqdır. Komissiya hələlik təşkilati dövrünü yaşayır və əsasnamə qəbul olunandan sonra aydındır ki, işlərimiz daha konkret xarakter daşıyacaqdır.

*Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Rino Harnişin komissiyanın görəcəyi tədbirlərin nə qədər konkret xarakter daşıyacağı barədə sualına da ətraflı cavab verildi:*

- Komissiyaya daxil olan bütün materiallar müzakirə olunacaq və aidiyyəti üzrə tapşırıqlar veriləcəkdir. Ya komissiyanın tərkibində yaradılmış qruplara, yaxud da prokurorluqda yaradılmış idarəyə göndəriləcəkdir ki, ölkənin qanunları əsasında məsələlərə baxsınlar. Heç kim təsir göstərə bilməz ki, məsələlərə baxılmalıdır və ya baxılmamalıdır. Əgər komissiya hesab edərsə ki, doğrudan da cinayət xarakterli məlumatlar var, bunlar prokurorluqda müəyyən olunacaq və həmin faktla bağlı cinayət

işi qaldırılıb ona qiymət veriləcəkdir. O ki qaldı bu məlumatların saytda yerləşdirilməsinə, prokurorluq və ya komissiya tərəfindən baxılan bütün məsələlər saytda yerləşdiriləcək və dediyim kimi, cəmiyyət məlumatlandırılacaqdır. Ucqar rayonlarda yaşayan, internetdən istifadə imkanı olmayan əhali üçün telekanallarda, ən azı, ayda bir dəfə bizim proqramımız olacaqdır.

***- Komissiyaya daxil olan məlumatlara nə müddətdə baxılacaqdır?***

- Komissiya müntəzəm olaraq öz iclaslarını keçirəcəkdir. Daxil olan şikayətlər isə, əlbəttə ki, əvvəlcə müəyyən qədər araşdırılmalı, sonra komissiyaya çıxarılmalıdır. Ona görə də bu gün mən deyə bilmərəm ki, bir həftəyə, yaxud on günə baxılacaqdır. Hər halda, komissiyanın, ən azı, ayda iki dəfə iclası olacaq və bu müddətdə məsələlər müzakirə ediləcəkdir.

***- İndiyə qədər daxil olan müraciətlər hansı sahədə daha çox korrupsiyanın olduğunu göstərir? Korrupsiyanın bahalaşmaya da təsiri varmı, bu sahədə araşdırmalar aparılırmı?***

- Əlbəttə ki, korrupsiyanın bahalaşmaya da müəyyən qədər təsiri vardır. Bu, aydın məsələdir. O ki qaldı hansı sahədə korrupsiyanın özünü büruzə verməsinə, bunun üçün ümumiləşdirmələr aparılmalıdır. Mən deyə bilmərəm ki, bu gün biz sizin bu sualınıza cavab verməyə hazırıq. Çünki belə ümumiləşdirmələr, araşdırmalar aparılmayıbdır. Qeyd etdiyim kimi, daxil olan məlumatlar prokurorluğun idarəsinə göndərilir və məsələlər orada araşdırılır. Əgər məlumat anonim xarakter daşımırsa, aydındır ki, ona aidiyyəti münasibət də vardır. Mən bunu əvvəldə dedim, ümumiyyətlə, biz hələlik təşkilati mərhələdəyik, bu işə təzə başlamışıq. Ona görə bir müddətdən sonra sizin bu suallara konkret cavab verə biləcəyik.

***- Bir çox dövlət strukturlarında bürokratik süründürməçilik olur. Əgər vətəndaş müraciət edibsə, ona təxminən nə vaxta cavab veriləcək?***

- Qanunla bir ay müddətində həmin müraciətə cavab verilməlidir. Əgər faktları yoxlamaq, təftiş aparmaq lazımdırsa, bu müddət uzanır.

***- Korrupsiya ilə bağlı aparılacaq monitorinqə ictimaiyyətin nümayəndələri cəlb olunacaqmı?***

- Həmin qrupların tərkibində bilavasitə mətbuatın və qeyri-dövlət təşkilatlarının, yəni ictimaiyyətin nümayəndələri olacaqdır. Əgər siqnallar vardırsa və hesab olunsa ki, bunlarla bağlı biz monitorinq aparmalıyıq, onda komissiyanın nəzdindəki əlaqədar qruplara tapşırılacaq və bunlar əsasnaməyə uyğun olaraq monitorinq aparacaqdır. Əsasnamə təsdiq olunandan sonra biz geniş fəaliyyətimizə başlayacağıq.

***- Korrupsiya ən çox dövlət orqanlarında axtarılır. Amma siyasi partiyalar və qeyri-hökumət təşkilatları da komissiyanın diqqətində olacaqmı?***

***Bu sahədə korrupsiya araşdırılacaqmı?***

- Biz hesab edirik ki, korrupsiyaya qarşı mübarizənin sərhədi yoxdur. Dövlət, yaxyd qeyri-dövlət strukturudur, ictimai təşkilatdır, partiyalardır - fərqi yoxdur, bu, bütün cəmiyyəti əhatə etməlidir. Ona görə də belə məsələlər ortalığa çıxanda bunlara da qanun çərçivəsində münasibət bildiriləcəkdir.

*"Azərbaycan" qəzeti,*
*5 may 2005-ci il.*

## NAZİRLİK VƏ KOMİTƏLƏRİN MƏTBUAT XİDMƏTLƏRİNİN İŞİNİN TƏŞKİLİNƏ DAİR MÜŞAVİRƏDƏ ÇIXIŞ

- Hörmətli müşavirə iştirakçıları!

Hazırda Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında son dərəcə mühüm və məsul bir dövrü yaşamaqdadır. Ölkəmizin siyasi və iqtisadi həyatında, dövlət quruculuğunda, xarici siyasətində taleyüklü proseslər cərəyan edir. Azərbaycanın Avropa siyasi və hüquqi məkanına inteqrasiyası, demokratik norma və prosedurların Avropa və dünya standartlarına tam uyğunlaşdırılması prosesi sürətlə həyata keçirilir. Demokratik dəyərlərin, hüquq və azadlıqların daha geniş tətbiq olunması üçün qanunvericilik bazası təkmilləşdirilir, onlardan daha tam və dolğun istifadə üçün yeni mexanizmlər işlənib hazırlanır. İqtisadi islahatlar da öz bəhrəsini verir, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramının gerçəkləşdirilməsi üçün təsirli tədbirlər görülür.

Vətəndaşların rifahının yüksəldilməsi, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi üçün Azərbaycan Prezidenti tərəfindən bir sıra fərman və sərəncamlar imzalanmış, onların icrası təmin edilmişdir. Dövlət büdcəsi son illərdə sözün həqiqi mənasında sürətlə artır. İctimai-siyasi sabitliyin qorunub saxlanması, asayişin təmin olunması, cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə sahəsində qətiyyətli tədbirlər həyata keçirilir. Dövlət idarəçiliyində savadlı, müasir düşüncəli,

informasiya texnologiyalarından istifadə etməyi bacaran səriştəli kadrlara üstünlük verilir. 2005-ci ildə ölkəmizin və regionun iqtisadi həyatında əlamətdar hadisə gözlənilir - əsrin ən böyük enerji-nəqliyyat layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri işə salınacaqdır ki, bu da respublikamızın iqtisadi-sosial inkişafı üçün güclü maliyyə axınını təmin edəcək, xalqımızın qarşısında parlaq perspektivlər açacaqdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ədalətli həlli üçün bütün istiqamətlərdə diplomatik səylər davam etdirilir, nüfuzlu beynəlxalq təşkilatların tribunasından səmərəli şəkildə istifadə olunur. Nəhayət, 2005-ci ildə Milli Məclisə növbəti seçkilər keçiriləcəkdir. Aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların diqqət mərkəzində olan bu seçkilərin tam demokratiya və şəffaflıq şəraitində, ədalətli, beynəlxalq standartlara uyğun keçirilməsi üçün bütün zəruri addımlar atılacaqdır.

Bu qısa xatırlatmadan aydın görünür ki, Azərbaycan Prezidentinin və onun komandasının fəaliyyətinin prioritet istiqamətləri nə qədər çoxşaxəli, genişmiqyaslı və dinamikdir.

Bu əzəmətli və səmərəli fəaliyyət, görülən işlər eyni zamanda Azərbaycan xalqına, ictimaiyyətə və beynəlxalq təşkilatlara adekvat surətdə təqdim olunmalı, onların izahı və təbliği işi səmərəli və sistemli şəkildə qurulmalıdır.

İctimai maraq kəsb edən informasiyanın cəmiyyətə obyektiv şəkildə təqdim olunması dövlət əhəmiyyətli məsələdir. Belə ki, dövlət öz işini cəmiyyətə ötürülən bu informasiyalara verilən reaksiyalar əsasında təşkil edir. Bu barədə cənab İlham Əliyev dəfələrlə məsələ qaldırmış, nazirlik, komitə rəhbərlərinə, şəhər və rayon icra hakimiyyəti başçılarına müvafiq tapşırıqlar ver-

mişdir. Bir müddət bundan əvvəl iqtisadi-sosial bloka daxil olan nazirlik və komitə rəhbərləri ilə keçirilən müşavirədə Prezident onlara bütövlükdə dövlət siyasəti və xüsusən öz səlahiyyətlərinə aid məsələlər üzrə fəal surətdə izahat və təbliğat işi aparmaq, siyasətin, hazırlanan və həyata keçirilən qərarların mahiyyətini şərh etmək, kütləvi informasiya vasitələri ilə sıx işləmək, yeri gəldikdə opponentlərin uydurmalarının, əks-təbliğatının qarşısını inandırıcı dəlil və faktlarla almaq tapşırığı vermişdir.

Cənab Prezident bildirmişdir ki, nazirlər, komitə rəhbərləri, icra hakimiyyəti başçıları yüksək vəzifə daşımaqla yanaşı, həm də siyasi vəzifə tuturlar, vəzifə borclarını yerinə yetirərkən və onu təqdim edərkən öz fəaliyyətləri ilə siyasi məzmun da daşıyırlar, Prezidentə və onun siyasətinə ictimai dəstəyin təmin olunması funksiyasını da icra edirlər.

Müvafiq dövlət hakimiyyəti və icra orqanlarının rəhbərləri onu da nəzərə almalıdırlar ki, demokratik cəmiyyətlərdə, siyasi azadlıqlar və plüralizm şəraitində həm düzgün informasiya və izahat işinə, ictimaiyyətlə əlaqələrin qurulmasına ehtiyac artır, həm də onun yeni, daha səmərəli, müasir üsul və metodlarının tətbiq edilməsi zərurəti yaranır. Yeni siyasi inkişaf mərhələsinin əsas xarakterik xüsusiyyəti məhz informasiya mübarizəsidir. Hansı dövlət orqanı, siyasi struktur, nazirlik və yaxud komitə informasiya işini daha çevik, daha məntiqli və forma etibarilə daha səmərəli qura bilsə, o da qalibdir.

Dövlət vahid və dinamik bir orqanizm olaraq cəmiyyətdə baş verən hadisələrə dair informasiyaları qəbul edir, müxtəlif instansiyalarda həmin informasiyalar öyrənilir və onlara uyğun olaraq qərarlar qəbul edilir. Daha sonra hakimiyyətin qəbul etdiyi qərarlar cəmiyyətə ötürülür və hakimiyyətin atdığı addıma

cəmiyyətin reaksiyası informasiya kimi yenidən dövlət strukturlarına daxil olur. Beləliklə, dövlət idarəçiliyinin səmərəliliyi əldə olunmuş informasiyanın düzgün təhlilindən asılıdır, bilavasitə onun sirkulyasiyası üzərində qurulur. İdarəçiliyin səmərəliliyinə qiyməti cəmiyyət verir. Odur ki, hökumətin qəbul etdiyi qərarların cəmiyyətə necə təqdim olunması işi fərman və sərəncamların hazırlanmasından sonra ikinci mühüm mərhələdir. Belə ki, Prezidentin, hökumətin, nazirlik və komitələrin fəaliyyəti nə qədər səmərəli təqdim olunarsa, cəmiyyətin reaksiyası da bir o qədər müsbət olar.

Demokratik cəmiyyətdə ictimai fikrə təsirin metodları yenidir və totalitar rejimdən fərqlidir. Yəni burada “təbliğat” termini sözün geniş mənasında bir o qədər səmərəli deyildir, daha çox ictimai əlaqələr, “pablik rileyşnz” üsul və metodlarından, əhalinin müxtəlif təbəqələri ilə qarşılıqlı əlaqə və təsir mexanizmlərinin qurulmasından, etimad mühiti yaradılmasından və sairdən asılıdır. Ona görə də bu yeniliklərdən istifadə etmək lazımdır.

Bu vacib vəzifələrin həyata keçirilməsində son zamanlar dövlət orqanlarında yaranmış mətbuat xidmətlərinin və ictimaiyyətlə əlaqə şöbələrinin üzərinə ciddi məsuliyyət düşür. Mətbuat xidmətlərinin və ictimaiyyətlə əlaqə şöbələrinin əməkdaşları səlahiyyətlərinə aid məsələlər üzrə dövlət siyasətini müntəzəm izah etməli, qəbul olunan və hazırlanan qərarların mahiyyətinə dair açıqlamalar verməli, tənqidlərə və dezinformasiyalara tutarlı cavab verməlidirlər.

Lakin açıq demək lazımdır ki, bu gün nazirlik və komitələrin, icra hakimiyyətlərinin müvafiq strukturlarının işi günün tələblərinə heç də tam cavab vermir, Prezidentin və onun komandasının fəaliyyətinin miqyasına və dinamizminə uyğun deyildir. Bir

çox mətbuat xidmətləri və ictimaiyyətlə əlaqə şöbələri qarşıda duran vəzifələri düzgün dərk etmir, təmsil etdiyi strukturun fəaliyyətini ictimaiyyətə lazımınca çatdırmağa səy göstərmir, KİV-lə işi səmərəli qura bilmirlər.

Mətbuat xidməti əməkdaşlarından birbaşa asılı olmayan amillər də mövcuddur. Məlumdur ki, jurnalistlər informasiyanı çox zaman informasiya üçün məsuliyyət daşıyan vəzifəli şəxsin özündən almağa üstünlük verirlər. Digər tərəfdən, idarə, müəssisə rəhbərləri mətbuat xidmətlərinə sərbəstlik vermirlər. Nəticədə, KİV-də informasiya qıtlığı yaranır, bir çox ciddi problemlər, ictimai maraq doğuran hadisələr barədə jurnalist daha çox fərziyyələr və mülahizələr yürütməli olur. Mətbuat xidmətlərinin informasiya verməsində yaranan çətinliklər Azərbaycanın informasiya məkanında "etibarlı mənbə" kimi qeyri-müəyyən bir anlayışın geniş yayılmasına səbəb olmuşdur. Vəzifəli şəxsin informasiya verməkdən imtina etməsi KİV-lə münasibətlərdə xoşagəlməz vəziyyət yaradır. Jurnalist rəsmi mərasim və yığıncaqlarda onu təqib edərək məlumat almağa çalışır ki, bu da özlüyündə qeyri-normal haldır.

Əksər nazirliklərin mətbuat xidmətləri informasiya verən deyil, praktik olaraq informasiya axınının qarşısını alan quruma çevrilibdir. Bir çox hallarda mətbuat xidmətlərinə informasiya sahəsinə heç bir aidiyyəti olmayan şəxslər işə götürülür. Ona görə heç də təəccüblü deyil ki, onların jurnalistlərlə təmas qurmaq imkanları yox dərəcəsindədir və hətta informasiyanı tərtib etmək, çox əhəmiyyətli və az əhəmiyyətli hissələrə qruplaşdırmaq qabiliyyətinə belə malik deyillər.

İnformasiya sahəsində narahatlıq yaradan hallardan biri məsul məqamlarda vəzifəli şəxslərin suallara cavab verməkdən çəkinmələri və susmağa üstünlük verməleridir. Halbuki, ən pis vəziy-

yətlərin belə tutarlı izahı var. Məsələn, jurnalist Elmar Hüseynovun qətli ilə bağlı gərgin məqamda Prezidentin çıxışı vəziyyəti xeyli dəyişdi və bədxahların, opponentlərin mövqelərini zəiflətdi.

Odur ki, nazirlərin və mətbuat xidmətlərinin “problemlərin izahından qaçmaq” hallarından “problemlərə doğru getmək” taktikasına üstünlük verməsi yeni siyasi mərhələdə əsas davranış forması kimi zərurətə çevrilir.

Hazırda Azərbaycanda “yaxşı fərmanlar”, “qərarlar” problemi yoxdur. “Yaxşı təqdimat” problemi var. Odur ki, Azərbaycan hökumətinin indiyə qədər istifadə etdiyi informasiya kanallarının işinin məzmunca təkmilləşdirilməsinə, yeni informasiya texnologiyalarından istifadəyə, çeviklik və operativliyin artırılmasına ciddi ehtiyac duyulur.

İnformasiya axınında keyfiyyət dəyişikliyi zərurətini ortaya qoyan bir misal. Məsələn, Azərbaycan hökumətinə qarşı əsas ittihamlardan biri korrupsiya ilə bağlıdır. Halbuki, son bir ayda bu istiqamətdə ciddi addımlar atılır, cinayət işləri açılıb, həbs edilənlər və tutduğu vəzifədən azad olunanlar var. Ancaq səmərəli informasiya kanalları və təbliğat metodları tətbiq edilmədiyindən, bu istiqamətdəki fəaliyyət korrupsiyaya qarşı mübarizə lazımi qiymətini ala bilməyibdir.

Yaxud başqa bir misal. Bir sıra nazirliklərdə (ədliyyə, daxili işlər və xarici işlər) geniş kadr dəyişikliyi aparılsa da, bu, "yeni kadr islahatı siyasəti" və "nəsillərin təkamül yolu ilə dəyişməsi", "gənclər siyasətinin tərkib hissəsi" kimi ictimai rəyə təqdim olunmayıbdır.

Düzdür, görülən işlər sahəsində az-çox intensiv və keyfiyyətli təqdim olunan istiqamət yeni iş yerlərinin açılması ilə bağlı olubdur. Lakin bu, dəryada bir damladır. Biz yaranmış belə vəziyyətlə razılaşa bilmərik.

Mətbuat xidmətinin rəhbərinə və ictimaiyyətlə əlaqələr mütəxəssisinə bu gün yüksək tələblər irəli sürülür. Mətbuat xidmətinin və ictimai əlaqələr şöbəsinin əməkdaşları yüksək idarəçilik qabiliyyətinə, problemlərdən çıxış yolu tapmaq istedadına, insan psixologiyasına dair biliklərə, hadisələrə təsir göstərmək və təşkilatçılıq bacarığına malik olmalıdırlar.

Hesab edirik ki, mətbuat xidmətinin və ictimai əlaqələr şöbəsinin işində bir neçə mühüm prinsipə əməl olunmalıdır. Bunlar aşağıdakılardır:

- sistemlilik - ciddi araşdırmalara əsaslanan planlı iş;

- müntəzəmlik - istənilən informasiya yalnız bu prinsipə əməl olunduğu zaman ictimai şüurda möhkəm iz buraxır;

- səmimilik və dəqiqlik - ictimaiyyətin nəzarəti altında olan hökumət onu öz fəaliyyəti haqqında doğru-düzgün məlumatlandırmalıdır;

- tamlıq və dolğunluq - tənqid və ictimai maraq üçün bağlı zonalar olmamalıdır;

- əlaqələndirmə - bütün hökumət xidmətləri vahid mövqedən çıxış etməli, problemlərə yanaşmada mövqe müxtəlifliyinə, ziddiyyətlərə, bir-birini təkzib edən məlumatların və şərhlərin verilməsinə imkan verilməməlidir.

Mətbuat xidmətinin rəhbəri KİV haqqında qanunu, əlaqəli qanunları, normativ aktları və çalışdığı strukturun əsasnaməsini mükəmməl bilməlidir. Əməkdaşlar bilməlidirlər ki, onlar hansı informasiyanı verməyə borcludurlar, hansı məlumatları verməyə bilərlər və yaxud nəyi hansı ardıcıllıqla verməlidirlər.

Mətbuat xidməti və ya ictimai əlaqələr şöbəsi rəhbərinin dövlət orqanının gördüyü əsas işlər, hazırlanan qərarlar və məsul olduğu məsələlər barədə məlumatlı olması çox mühüm şərtdir.

Buna görə də mətbuat xidmətinin rəhbəri qərarların verilməsi prosesini yaxından izləmək səlahiyyətinə malik olmalıdır.

Mətbuat xidmətinin əsas işi təmsil etdiyi qurumun fəaliyyəti haqqında KİV-ə müfəssəl məlumat vermək və doğru olmayan məlumatların axınının qarşısını almağa çalışmaqdır. Bunun üçün, ilk növbədə, nazirlik və ya komitənin fəaliyyətini ətraflı işıqlandırmalı, hər iki-üç gündən gec olmayaraq KİV üçün press-relizlər hazırlamalıdır. Bunlar internet saytında yerləşdirilməli, elektron poçtla və faksla kütləvi informasiya vasitələrinə göndərilməlidir.

Nazirliyə, komitəyə, şirkətə və s. daxil olan sualı dərhal məsul şəxsə çatdırmalı və iki saatdan gec olmayaraq cavablandırmalıdır. Əlavə dəqiqləşməyə ehtiyacı olan suallar ümumiləşdirilməli və vəzifəli şəxslərin cavabları mətbuat orqanlarına göndərilməlidir.

KİV-də rəsmi orqanlar haqqında yayılmış yalan informasiyaya həmin gün reaksiya verilməli, o, təkzib edilməli və yaxud ona aydınlıq gətirilməlidir. Səhv informasiyaya kəskin narazılıq bildirmək doğru deyildir. Sadəcə, informasiyanın düzgün olmadığını bildirmək və doğru informasiyanı təqdim etmək məqsədəuyğundur. Bu, jurnalist və mətbuat orqanı ilə normal əməkdaşlıq üçün və etimad mühiti yaradılmasından ötrü vacib məqamdır.

Rəsmi orqanlarla bağlı olan bütün informasiyalar, nazirin və digər məsul şəxslərin çıxışları, keçirilən görüşlər, imzalanan sənədlər, həyata keçirilən layihələr haqqında internet saytında operativ məlumatlar yerləşdirilməlidir.

Vəzifəli şəxsin istənilən KİV-ə müsahibəsinin mətni internet saytında yerləşdirilməlidir. Məsələn, Vergilər Nazirliyində bu iş yaxşı qurulub və internet saytı bu tələblərə cavab verir.

İnformasiyalar fotoşəkillərlə müşayiət olunmalıdır, sayta nazirin, digər vəzifəli şəxslərin yeni fotoşəkillərini də qoymaq vacibdir ki, qəzetlər onlardan istifadə edə bilsin. Fotoşəkilləri vaxtaşırı qəzetlərə də göndərmək olar. Bu, həm əməkdaşlıq körpüləri yaradar, həm də pis fotoşəkillərin qəzetdə getməsinin qarşısını alar. Bu zaman donuq, pasport şəkillərinə oxşar fotolardan deyil, dinamik, hər hansı hərəkəti əks etdirən, misal üçün, söhbət zamanı çəkilmiş fotolardan istifadə etmək daha məqsədəuyğundur.

İnternet saytlarında təkcə Azərbaycanda deyil, işlədiyiniz sahə ilə bağlı dünyada baş verən hadisələrə dair informasiya və analitik materialları da yerləşdirmək lazımdır. Bu, saytın maraqlı olması üçün vacib şərtdir. Belə olduqda, saytın oxucusu Azərbaycanda bu sahədə olan vəziyyətlə dünyadakı vəziyyəti müqayisə etmək imkanı da əldə edər və saytınızın daimi istifadəçisinə çevrilə bilər.

Saytınızın ünvanı qəzetlərə göndərilməli və KİV-də reklam əsasında dərc edilməlidir.

Hazırlanmış informasiyanın KİV-də mətbuat xidmətinə istinadla yayımlanmasına nail olunmalıdır. Çünki bu zaman oxucu və tamaşaçının məlumatın doğruluğuna inamı daha çox olacaqdır. Odur ki, informasiya verildikdən sonra onun necə dərc edilməsi və istinadın olunub-olunmaması da nəzarətdə saxlanılmalıdır.

Ayda 1 dəfədən az olmayaraq, brifinq və mətbuat konfransı təşkil edilməlidir. Mətbuat konfransına hazırlıq zamanı kütləvi informasiya məkanını diqqətlə izləmək və sizin təmsil etdiyiniz nazirlik, komitə və şirkətə aid hansı məsələlərin aktual olduğunu müəyyənləşdirməli və mümkün sualları proqnozlaşdırmalısınız.

Mətbuat konfransı zamanı gözlənilmədən ortaya çıxan və şərh verməkdə çətinlik çəkdiyiniz sualların cavabını sonraya saxlamaq olar. Bunun üçün sualı yazılı şəkildə qəbul etmək və cavabını lazımi instansiyalarda dəqiqləşdirdikdən sonra gün ərzində sorğunu verən KİV-ə göndərmək lazımdır.

Mətbuat xidmətinin rəhbəri vəzifəli şəxslərin mətbuat konfranslarında və müsahibələrində şəxsən iştirak etməli, qeydlər aparmalı, sual-cavabı audiolentə yazmalıdır. Bu, sonradan fikirlərin təhrif olunmasının və ya qeyri-dəqiqliyə yol verilməsinin qarşısını ala bilər.

Qəzetlərin redaktorları və sizin sahəyə aid yazan jurnalistlərlə əlaqələrin qurulması çox səmərəli iş metodlarındandır. Vaxtaşırı onlara zəng vurmaq və hər dəfə birinə "bu eksklüziv informasiyanı məhz sənə verməyi qərara almışam" - demək pis olmazdı. Bayram günləri və yaxud hər hansı jurnalistin ad günündə dövlət orqanının fəaliyyətini işıqlandıran mətbuat işçisini təbrik etmək yaxşı jest kimi qəbul edilir və əməkdaşlığa təkan verir.

Bəzən sizin sahəyə aid yazan ciddi jurnalistlərlə rübdə bir dəfə nahar süfrəsi arxasında qeyri-rəsmi görüşün təşkil edilməsi işgüzar ünsiyyətin yaranmasına gətirib çıxarar, jurnalisti qərəzli olmaqdan çəkindirər və yaxşı əməkdaşlıq atmosferi formalaşdırar.

Vəzifəli şəxslərin rayonlara səfəri zamanı jurnalistləri dəvət etmək və yaxud həmin rayonda fəaliyyət göstərən bölgə müxbirləri ilə əlaqə yaradaraq, onları əvvəlcədən xəbərdar etmək yaxşı olardı.

Nəhayət, məlumat üçün bildirək ki, Prezidentin İcra Aparatında cari il üçün informasiya və izahat işinin geniş planı işlənib hazırlanmışdır. Plana görə, nazirlərin, komitə sədrlərinin, baş idarələrin, şirkətlərin, ayrı-ayrı rayonların icra hakimiyyəti

başçılarının müntəzəm mətbuat konfransları keçiriləcək, televiziya kanallarında, rəsmi və müstəqil mətbuatda çıxışları, canlı dialoqları təşkil olunacaqdır. Həmçinin bu tədbirlərin davamı kimi, hakimiyyət və icra orqanlarında məsul vəzifə tutan rəhbər işçilərin KİV-də çıxışları nəzərdə tutulur. Bu çıxışlar zamanı rəhbər işçilər sahə ilə bağlı bütün suallara, o cümlədən ən kəskin suallara cavab verəcək, tamaşaçı auditoriyası ilə canlı təmas quracaqlar. Aktual mövzularla bağlı alimlərin, mütəxəssislərin, ekspertlərin iştirakı ilə telekanallarda və mətbuatda müzakirələr aparılacaqdır. Düşünürük ki, belə bir canlı əlaqə forması, bir tərəfdən, dövlət siyasətinin mahiyyətini, görülən işlərin vəziyyətini vətəndaşlara, Azərbaycan ictimaiyyətinə, beynəlxalq qurumlara çatdırmaqda mühüm rol oynayacaq, digər tərəfdən, müvafiq dövlət qurumlarının məsuliyyətini artıracaq, onları öz fəaliyyətində daha ciddi, xalq üçün daha açıq və şəffaf olmağa sövq edəcəkdir.

Diqqətinizə görə sağ olun.

*"Azərbaycan" qəzeti,*
*12 may 2005-ci il.*

## 2005-Cİ İL PARLAMENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR AZƏRTAC-IN MÜXBİRİNƏ MÜSAHİBƏ

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev qarşıdakı parlament seçkiləri ilə əlaqədar AzərTAc-ın müxbirinə bildirmişdir ki, 2005-ci il noyabrın 6-da Azərbaycan Respublikası Milli Məclisinə növbəti seçkilərdə Azərbaycan dövləti seçkilərin demokratikliyini təmin etmək məqsədi ilə ölkə qanunvericiliyinə uyğun bütün zəruri tədbirləri həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 2005-ci il 11 may tarixli Sərəncamına müvafiq olaraq, seçki prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması, icra orqanlarının Seçki Məcəlləsində müəyyən olunmuş hallardan kənar seçki prosesinə müdaxiləsinin qarşısının alınması üçün zəruri tədbirlər görülüb, bütün namizədlər üçün bərabər şərait yaradılıb, seçkilərin ədalətli, obyektiv və şəffaf keçirilməsini təmin edən addımlar atılıbdır. Namizədlərin öz təşviqat kampaniyasını sərbəst qurması, seçicilərlə görüşləri, KİV-lərdə çıxışları, problemlərin qaldırılması və müzakirəsi üçün hər cür şərait yaradılıbdır. Seçkilərin obyektiv və demokratik keçirilməsi üçün görülən tədbirlər barədə beynəlxalq təşkilatların müsbət rəyləri də hamıya məlumdur.

Prezidentin İcra Aparatının rəhbəri təəssüflə bildirmişdir ki, bəzi siyasi qüvvələr ölkədə yaradılmış demokratik ab-havadan sui-istifadə edərək, yolverilməz üsullarla seçicilərin dəstəyini qazanmağa çalışır, ucuz və populist bəyanatlarla, təxribat xarakterli

məlumatlar yaymaqla ictimaiyyətin diqqətini özlərinə cəlb etmə-yə cəhd göstərirlər. Belə namizədlər seçicilər arasında təşviqat işi aparmaq, onları cəlb edə biləcək ideya və layihə vermək əvəzinə, sensasiya yaratmağa çalışaraq, hakimiyyət nümayəndələri, dövlət rəsmiləri barədə böhtan və dezinformasiya yayırlar.

Ramiz Mehdiyev daha sonra demişdir:

- Sentyabrın 24-də "Azərbaycan Teleradio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin namizədlər üçün ödənişli efir vaxtında çıxış edən "Azadlıq" blokunun namizədi Rauf Arifoğlu mənim haqqımda heç bir əsası olmayan, faktlara söykənməyən və şəxsi təxəyyülün məhsulu olan fikirlər bildirmiş, hakimiyyətə və onun yüksək vəzifəli nümayəndələrinə böhtan atmağa cəhd göstərmiş-dir. Onu da qeyd etməliyəm ki, bu cür böhtanlar və şayiələr di-gər radikal müxalifət nümayəndələri tərəfindən də səsləndirilir.

Mən bəzi deputatlığa namizədləri ucuz, heç bir fakta söykən-məyən və heç bir əsası olmayan bəyanatlarla, dezinformasiya yaymaqla ictimaiyyəti çaşdırmaq və sensasiya yaratmaq prak-tikasına son qoymağa çağırıram. Bu, nə onlara, nə də onların təmsil olunduğu siyasi qurumlara başucalığı və nüfuz gətirmir. Seçicilər deputatlığa namizədlərdən şayiələr, böhtan xarakterli çıxışlar, dezinformasiya və populist bəyanatlar deyil, əsaslı olan proqramlar, görəcəyi işlər barədə real vədlər gözləyirlər. Lakin bir çox hallarda deputatlığa namizədlər seçicilərə deməyə söz tapmır, hətta vədlər belə verə bilmirlər. Çünki onların dedikləri real deyildir və heç kəsi inandıra bilmir. Seçkilərə qatılmış bəzi namizədlərin deputat seçiləcəkləri təqdirdə görəcəkləri işlər barədə təsəvvürləri yoxdursa və bununla bağlı seçicilərə deməyə söz tapmırlarsa, bu, artıq həmin şəxslərin problemidir. Bu çatışmazlığı hakimiyyətə böhtan atmaqla kompensasiya etmək cəhdi isə uğursuz addımdır.

Hər bir deputatlığa namizəd və seçicilər əmin ola bilər ki, 2005-ci ildə Milli Məclisə seçkilərdə hər bir vətəndaş azad seçki hüququnu tam şəkildə həyata keçirməyə müvəffəq olacaqdır. Azərbaycan Prezidenti noyabrın 6-na təyin olunmuş seçkilərin tam demokratik keçirilməsi üçün öz siyasi iradəsini ortaya qoyub, seçkilərin ədalətli, şəffaf keçirilməsini təmin etmək əzmindədir. Mən şübhə etmirəm ki, seçki günü Azərbaycan seçicisi hər bir deputatlığa namizədə onun dağıdıcılıq mövqeyinə görə yox, quruculuq, real potensialına və həqiqi vətəndaşlıq mövqeyinə uyğun layiqli qiymətini verəcəkdir.

*“Azərbaycan” qəzeti,*
*27 sentyabr 2005-ci il.*

## "AZƏRBAYCAN - 2003: İNKİŞAF STRATEGİYASINDA YENİ MƏRHƏLƏ" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

- Hörmətli xanımlar və cənablar!

Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin özünəməxsus yeri var. Ötən illər mürəkkəb və ziddiyyətli, dinamik və taleyüklü proseslərin yaşanması ilə səciyyələnən zəngin dövlət quruculuğu dövrü kimi tarixə qovuşmuşdur.

Bu gün təqdimat mərasimini keçirdiyimiz "Azərbaycan-2003: İnkişaf strategiyasında yeni mərhələ" kitabı da müstəqil dövlətçiliyimizin inkişafı tarixində quruculuq proseslərinin yeni mərhələsinin başlanğıcı kimi xarakterizə olunan 2003-cü ilin ikinci yarısını əhatə edir. Bu dövrdən etibarən ölkəmizdə əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi tərəqqinin və dövlət müstəqilliyinin möhkəmləndirilməsi sahəsində görülən işlərin miqyası və dinamikasında nəzərəçarpan keyfiyyət dəyişikliyi başlayır.

Təbii ki, 2003-cü ilə qədərki tarixi nailiyyət son on il ərzində hüquqi dövlət quruculuğu, iqtisadi, sosial, humanitar və xarici siyasət sahəsində aparılan müdrik siyasi xəttin məntiqi nəticəsində qazanılmışdır. Azərbaycanın müharibə şəraitində yaşamasına və keçid dövrünün mahiyyətindən doğan çətinliklərə baxmayaraq, bu müddət ərzində Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyəti demokratik təsisatların yaranmasına, vətəndaş

cəmiyyətinin formalaşması prosesinə, ictimai-siyasi sabitliyin və güclü iqtisadi potensialın yaranmasına gətirib çıxardı. Bərqərar olmuş ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit xarici investisiyaların həcminin artmasına səbəb oldu. Neft strategiyasının uğurla həyata keçirilməsi sosial-iqtisadi inkişafa təkan verdi.

Əhalinin sosial həyat şəraiti yaxşılaşdırıldı, yoxsulluğun səviyyəsinin aşağı salınması üçün mühüm işlər görüldü. Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, zənginləşməsi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin prioritet vəzifələrindən birinə çevrildi. Siyasi sistemin demokratik prinsiplər əsasında inkişafı, cəmiyyətimizdə ümumbəşəri dəyərlərin dərin kök salması Azərbaycanın beynəlxalq aləmlə sıx inteqrasiyasına və formalaşmaqda olan demokratik dövlət kimi tanınmasına yol açdı. Azərbaycanın dövlət müstəqilliyinin qorunması və təhlükəsizliyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin etdi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi son on ildə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradıldı. Azərbaycan xalqının və dövlətinin mənafeyi bu siyasətin ardıcıl şəkildə davam etdirilməsini həyati zərurətə çevirmişdi.

2003-cü il avqustun 4-də Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin respublikanın Baş naziri təyin olunması dahi öndər Heydər Əliyevin həyata keçirdiyi siyasi xəttin böyük prinsipiallıqla və çevik surətdə davam etdiriləcəyinə inamı daha da artırdı. Prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin səhhəti ilə bağlı

namizədliyini geri götürərək, özünün layiqli siyasi davamçısı kimi cənab İlham Əliyevin namizədliyini dəstəkləməsi xalqımız tərəfindən yüksək qiymətləndirildi. Əslində, müdrik siyasətçi Heydər Əliyevin bu tarixi qərara gəlməsi heç də təsadüfi deyildi. Çünki dərin intellektə malik, dövlətçiliyə bağlı bir şəxsiyyət kimi cənab İlham Əliyev 2003-cü ilə qədər ona tapşırılan vəzifələrin öhdəsindən ləyaqətlə gəlmiş, dövlətin ona göstərdiyi etimadı böyük şərəflə doğrultmuşdur. Cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, səkkiz il Milli Məclisin deputatı kimi gördüyü işlər və Baş nazir kimi fəaliyyəti xalqımızın böyük dəstəyini qazanmış, beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanaraq, daim diqqət mərkəzində olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili, təşəbbüskar bir şəxsiyyət kimi dəyərləndirməsi və ona özünün inamını ifadə etməsi, əslində, həm də Azərbaycan xalqının iradəsinin təzahürü idi.

2003-cü il 15 oktyabr prezident seçkilərində xalqımız prinsipial mövqe və siyasi mütəşəkkillik nümayiş etdirərək, cənab İlham Əliyevi Azərbaycanın Prezidenti seçdi. Bu, ölkəmizin inkişafı, onun dövlətçiliyinin qorunub saxlanılması, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin olunması yolunda mühüm tarixi hadisə idi. Bu hadisə Heydər Əliyev siyasi xəttinin alternativsizliyini və xalqımızın dahi şəxsiyyətin ideyalarına sədaqətini əyani şəkildə təsdiq etdi. Cənab İlham Əliyev isə, öz növbəsində, 2003-cü il oktyabrın 31-də andiçmə

mərasimindəki çıxışında Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, onu davam etdirəcəyini bildirdi və Azərbaycanın tərəqqisi, xalqımızın milli maraqları naminə bu yoldan dönməyəcəyini bəyan etdi.

Heydər Əliyev dövlətçilik modelinə arxalanan İlham Əliyev Azərbaycan dövlətinin sükanını əlində möhkəm saxlayır. O, ilk gündən elan etdi ki, Azərbaycanın tərəqqisinin başlıca şərtlərindən biri sabitliyin və demokratik inkişafın təmin edilməsidir. O demişdir: "Biz Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək".

Humanizm, tələbkarlıq və qətiyyətlilik Prezident İlham Əliyevin əsas idarəçilik prinsipləridir. Onun atdığı bütün addımların arxasında dərin inam, dövlətçiliyə və xalqa sədaqət ölçüsü dayanır. O, ölkənin inkişafının radikal sıçrayış, "narıncı inqilab" deyil, təkamül yolunu əsas götürüb və bu yol ilə də Azərbaycanı irəliyə aparır. Bu, indiki qarışıq dünyada Azərbaycanın xoşbəxt gələcəyinə yol açan və keçid dövrünü rəvan keçmək üçün əlverişli şərait yaradan uzaqgörən və çox böyük siyasi cəsarət tələb edən keyfiyyətdir.

Həqiqətən də, 2003-cü ildən başlayaraq, Azərbaycan cəmiyyətinin bütün sahələrində dinamik inkişaf prosesinin vüsət alması, müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində öz mövqeyini daha da möhkəmləndirməsi Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələri böyük uzaqgörənliklə və ardıcıl şəkildə yerinə yetirdiyini göstərir. Heydər Əliyevin rəhbərliyi ilə başlanmış sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi

nəticəsində iqtisadi inkişaf daha da sürətləndi və keyfiyyətcə yeni məzmun kəsb etdi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün intensiv tədbirlər həyata keçirilməyə başlandı.

Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti ilk günlərdən onun elan etdiyi proqramın ardıcıl şəkildə həyata keçirilməsi ilə səciyyələnir. Bu baxımdan Azərbaycan Prezidentinin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanını xüsusi qeyd etməliyəm. Fərmanda sosial-iqtisadi sahədə qazanılmış dinamik inkişafın müxtəlif istiqamətlər üzrə ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsi nəzərdə tutulmuş, bununla bağlı hökumətin qarşısında konkret vəzifələr qoyulmuşdur.

Prezident İlham Əliyevin böyük əzmlə həyata keçirdiyi quruculuq proqramının gerçəkləşməsi yolunda ciddi tədbirlərin görüldüyü vaxtda xalqımızın ümummilli lideri Heydər Əliyevi itirməsi bütün cəmiyyətimizi sarsıtdı. Lakin kədərimiz nə qədər ağır olsa da, xalqımız özünün görkəmli oğlu Heydər Əliyevin ideyalarına sadiq qalaraq, onun bizə əmanət qoyduğu müstəqil dövlətçiliyimizi yaşadıb inkişaf etdirmək üçün qüvvələrini səfərbər etdi, ümummilli liderin siyasi varisi Prezident İlham Əliyevin hər bir vətəndaşın maraqlarını ifadə edən siyasi xəttinə dəstək verdi.

Prezident İlham Əliyevin 2003-cü ildə elan etdiyi xətt və apardığı səmərəli siyasət növbəti illərdə də tərəqqi, inkişaf və sabitlik üçün geniş imkanlar yaratdı.

Konkret fəaliyyət proqramının müəyyənləşdirilməsi və iqtisadiyyatın tarazlı inkişafına yönəlmiş tədbirlər baxımından ölkə başçısının 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respub-

likası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Fərmanı böyük əhəmiyyət daşıyır. Bu proqramda regionların sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı konkret vəzifələr irəli sürülmüş, regionlarda inkişafın tarazlığının əldə olunması nəticəsində sosial problemlərin aradan qaldırılmasının sürətləndirilməsi nəzərdə tutulmuşdur. Fərəhlə demək olar ki, bu proqram dövlət başçısının daim diqqət və nəzarəti altında müvəffəqiyyətlə yerinə yetirilməkdədir.

Yeni başa vurduğumuz 2005-ci ilin yekunlarına görə, ümumi daxili məhsul (ÜDM) 26 faiz artmışdır. Belə yüksək göstəriciyə dünyanın heç bir dövlətində, xüsusən keçid dövrü yaşayan ölkələrdə rast gəlmək mümkün deyildir. Bu il isə iqtisadi artım sürəti 30 faizi ötəcəkdir. Ümumi daxili məhsulda özəl sektorun çəkisinin 75 faiz olması ölkəmizdə sahibkarlığın da yüksək inkişafının göstəricisidir.

Bu gün Azərbaycanın neft strategiyası uğurla davam etdirilir. Heydər Əliyevin təşəbbüsü ilə inşasına başlanılmış və dahi öndərin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi yekunlaşmaq üzrədir və yaxın vaxtlarda tam istismara veriləcəkdir. Eyni zamanda, Bakı-Ərzurum qaz kəməri də ilin sonunda işə düşəcəkdir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi, ölkəmizin daxili ehtiyaclarını ödəmək qabiliyyətinə malik olan müxtəlif profilli yeni emal və istehsal müəssisələrinin işə salınması da iqtisadi sahədə qarşıda duran əsas vəzifələrdəndir. Təsadüfi deyil ki, bu, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsini təşkil edir.

Makroiqtisadi sabitlik və iqtisadi inkişaf hər bir ailənin gündəlik həyatında öz təsirini göstərməkdədir. Əgər 2004-cü ilin

əvvəllərində yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz olmuşdursa, 2005-ci ilin əvvəlində bu rəqəm 40 faizə düşmüş, cari ilin əvvəlində isə daha aşağı olmuşdur. Ötən dövrdə Azərbaycanda 340 min yeni iş yerinin açılması Prezident İlham Əliyevin qarşıya qoyduğu məqsədlərin reallığa söykəndiyini və uğurla yerinə yetirildiyini təsdiq edir.

Bəli, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı son illər ərzində çox sürətlə inkişaf edən ölkəyə çevirib, dünyada siyasi çəkisini artırıb, iqtisadi potensialını gücləndiribdir. İlham Əliyev çox haqlı olaraq, bundan fərəh hissi keçirir və deyir: "Mənim siyasətim bundan ibarətdir və bu günə qədər atılmış bütün addımlar məhz bu məqsədi daşıyır: güclü iqtisadiyyat yaratmaq, iqtisadi potensialı möhkəmləndirmək, cəsarətli iqtisadi islahatlar aparmaq və eyni zamanda, Azərbaycanda demokratik prosesləri sürətləndirmək".

Son iki il ərzində də Azərbaycan hökuməti Ermənistanın hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlamışdır. Azərbaycan Prezidentinin 2004-cü il 1 iyul tarixli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı bu kateqoriyadan olan insanların həyatında mühüm hadisə olmuşdur.

Azərbaycanın iqtisadi potensialının güclənməsi ordumuzun yüksək standartlara uyğun qurulmasına təminat yaradır. 2005-ci ildə hərbi xərclər 70 faiz artmışdırsa, 2006-cı ildə müvafiq xərclərin 2005-ci ilə nisbətən 100 faiz artırılması nəzərdə tutulmuşdur.

Ölkəmizin beynəlxalq aləmdə milli maraqlarını qoruması, öz nüfuzunu daha da gücləndirmək üçün geosiyasi proseslərdən

fəal şəkildə faydalanmağa çalışması Azərbaycanın xarici siyasətinin prioritet istiqamətini təşkil edir. Azərbaycan Prezidentinin qloballaşan dünyada milli mənafeləri əsas tutaraq, tarazlaşdırılmış xarici siyasət həyata keçirməsi ölkəmizin dövlət müstəqilliyinin möhkəmləndirilməsində və təhlükəsizlik problemlərinin həllində böyük əhəmiyyət daşıyır.

Ümumiyyətlə, qeyd etməliyəm ki, Azərbaycanın xarici siyasət konsepsiyasını Heydər Əliyev yaradıb və bu siyasət dəyişməz olaraq qalır. Bu gün də xarici siyasət, ilk növbədə, Azərbaycan xalqının maraqları üzərində qurulur və davam etdirilir.

Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi məsələsi Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Prezident İlham Əliyev xarici ölkələrin dövlət başçıları ilə çoxsaylı görüşlərində, BMT, Avropa Şurası, NATO kimi nüfuzlu təşkilatlardakı çıxışlarında bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq, tezliklə aradan qaldırılmasının vacibliyini bildirmiş, Ermənistanın təcavüzkar siyasətini və qeyri-konstruktiv mövqeyini ifşa etmişdir.

Azərbaycanın bu məsələdə tarixi ədalətin bərpa olunması üçün qətiyyətli mövqe tutması dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların ölkəmizə dəstəyini daha da artırmışdır. Hazırda intensiv xarakter almış danışıqlar prosesində Azərbaycan Prezidentinin prinsipial və ardıcıl mövqeyi mühüm rol oynamışdır. Prezident öz qəti mövqeyini belə ifadə edir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir".

2003-cü ildən başlayan inkişaf strategiyasının yeni mərhələsi Azərbaycanda demokratikləşmə prosesini də üzvi surətdə əhatə etmişdir. Bu gün ölkəmizdə demokratik siyasi sistem tam şəkildə strukturlaşmış, onun bütövlüyü təmin olunmuş, tərkib hissələri arasında səmərəli qarşılıqlı əlaqələr yaranmışdır. Ölkəmizdə demokratiyanın inkişafı vətəndaşların konstitusion hüquqlarından azad və sərbəst şəkildə istifadə etmələri üçün böyük töhfədir.

2003-cü ilin prezident seçkiləri və 2005-ci il noyabrın 6-da keçirilmiş parlament seçkiləri xalqımızın həyatında mühüm tarixi hadisə olmuşdur. Hər iki seçkidə seçicilərin yüksək siyasi şüur və dərin vətəndaş mövqeyi nümayiş etdirməsi ölkədə həyata keçirilən Heydər Əliyev siyasi xəttinin xalqımız tərəfindən qətiyyətlə dəstəkləndiyini göstərir.

Demokratikləşmə prinsipinə sadiq olan Prezident İlham Əliyev ötən ilin parlament seçkiləri dövründə imzaladığı 2005-ci il 11 may tarixli "Seçki praktikasının təkmilləşdirilməsi haqqında" və 2005-ci il 25 oktyabr tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamları ilə seçkilərin şəffaf, azad və ədalətli keçirilməsi üçün daha əlverişli şərait yaratdı.

Beləliklə, ölkədə açıq və təmiz seçkilər keçirildi və bu seçkilərin nəticələri cəmiyyətdə yaranmış ab-havanın təzahürü kimi qiymətləndirilməlidir. Parlament seçkiləri bir daha göstərdi ki, ölkədə xalqla iqtidar arasında sarsılmaz birlik var və Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Prezident İlham Əliyev belə qəti fikirdədir ki, "parlament seçkiləri ərəfəsində görülmüş işlər, yeni Seçki Məcəlləsinə edilmiş dəyişikliklər və başqa yeniliklər artıq bir səviyyə yaratdı. Bundan sonra

Azərbaycan bu səviyyədən aşağı enməyəcəkdir. Bundan sonra daha da böyük addımlarla irəliləyəcəkdir…”

Dövlət başçısının Milli Məclisə seçkilərlə bağlı gördüyü tədbirlər ölkə vətəndaşları və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Görülmüş kompleks işlər nəticəsində bu seçkilər demokratik seçki praktikasında yeni bir mərhələnin başlanğıcını qoydu. Yeni seçki ənənəsinin əsasının qoyulması vacib vəzifələrdən biri idi. Bununla da Gürcüstan, Ukrayna və Qırğızıstanda “zəfər yürüşü” edən “narıncı inqilaba” Azərbaycanda imkan verilmədi və xaricdən süni surətdə ixrac edilən “inqilab” ifşa olundu, nəticədə ona, ümumiyyətlə, son qoyuldu.

Beləliklə, 2003-cü ilin prezident seçkilərindən sonra Azərbaycanın keçdiyi yola nəzər salarkən qətiyyətlə demək olar ki, prezidentlik fəaliyyətində sabit və güclü dövlət, milli həmrəylik və sosial rifah prinsiplərini əsas tutan İlham Əliyev üzərinə götürdüyü məsuliyyətli işin öhdəsindən layiqincə gəlmişdir. Praqmatizm və yeni düşüncə, siyasi iradə və qətiyyət kimi səciyyəvi keyfiyyətlər İlham Əliyevin yeni lider kimi cəmiyyətin böyük rəğbət və etimadını qazanmasına səbəb olmuşdur. Təsadüfi deyil ki, respublikamızın və dünyanın müxtəlif nüfuzlu sorğu mərkəzlərinin son illərdə apardıqları bir sıra rəy sorğularında İlham Əliyevin xalqımızın mütləq əksəriyyəti tərəfindən dəstəkləndiyi ardıcıl olaraq öz təsdiqini tapmışdır. Bu isə Azərbaycanda vətəndaş həmrəyliyinin, xalq ilə hakimiyyət arasında birliyin bariz təzahürüdür. Bununla da İlham Əliyev bir daha göstərdi ki, xalqa müraciətlə söylədiyi “mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam” fikri bu gün artıq həyatımızın reallığına çevrilmişdir.

Bütün proseslər göstərir ki, İlham Əliyev verdiyi sözə sadiqdir və onun siyasətinin məqsədi Azərbaycanı rəqabət, qarşıdurma yox, əməkdaşlıq məkanına çevirməkdir. O, milli maraqların təmin olunmasında əlindən gələni əsirgəmir. Ən əsası, Azərbaycanın milli maraqları, Azərbaycan xalqının inkişafı, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsidir. Bütün görülən işlərin nəticəsində respublikamız artıq regional müstəvidən çıxıb dünya miqyasında çox önəmli rol oynayan ölkəyə çevrilmişdir. Prezident İlham Əliyevin məqsədi məhz bundan ibarətdir. Həyata keçirilən bütün tədbirlər, atılan addımlar, iqtisadi və siyasi islahatlar, Azərbaycanın hərtərəfli inkişafı, o cümlədən demokratiyanın dərinləşməsi məhz bu məqsədi daşıyır.

Bir sözlə, son iki ildə respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında böyük dəyişikliklər baş vermiş, nəhəng quruculuq işləri vüsət almışdır. Şübhə yoxdur ki, yaşadığımız dövr müstəqil Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ kimi öz layiqli yerini tutacaq və dərin elmi araşdırmaların obyekti olacaqdır.

Bu baxımdan, ümid edirəm ki, təqdimat mərasiminə toplaşdığımız "Azərbaycan-2003: İnkişaf strategiyasında yeni mərhələ" kitabı həmin dövrdə Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət, onun əsas istiqamətlərinin xüsusiyyətləri, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mənəvi həyatında gedən prosesləri öyrənmək üçün dəyərli mənbə rolunu oynayacaqdır.

Diqqətinizə görə sağ olun.

*"Azərbaycan" qəzeti,*
*24 yanvar 2006-cı il.*

# TƏKRAR SEÇKİLƏRDƏ QANUN POZUNTULARINA MÜNASİBƏT DAHA SƏRT OLACAQDIR

*(AzərTAc-ın müxbirinə müsahibə)*

***- Hörmətli Ramiz müəllim, bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasının seçkiləri müşahidə missiyasının rəhbəri Milli Məclisə 2005-ci il noyabrın 6-da keçirilmiş seçkilərlə və bu il mayın 13-nə təyin olunmuş təkrar seçkilərlə bağlı missiya adından bəyanatla çıxış etmişdir. Bəyanatda bəzi tənqidi məqamlar da öz əksini tapmışdır.***

***6 noyabr seçkiləri Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda çox diqqətlə izlənilmiş və müxtəlif fikirlər səslənmişdir. Siz ötən seçkiləri necə qiymətləndirirsiniz?***

- Doğrudur, parlament seçkiləri Azərbaycanda və xaricdə böyük maraqla izlənilmişdir. Bu, dövlətimizin regionda tutduğu aparıcı mövqe, son dövrlər dünyada baş verən dəyişikliklərlə bağlıdır. Ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olan 2005-ci il parlament seçkiləri həm Azərbaycanda, həm də xaricdə müzakirə, təhlil və araşdırmalar mövzusu olmuşdur. Buna da mən təbii baxıram, çünki Azərbaycan bu proseslərdən kənarda qala bilməz.

Müasir dövlətlərin təməlini təşkil edən demokratik seçkilər sabit vətəndaş cəmiyyətini və hər bir ölkənin mütərəqqi inkişafını təmin edən amillərdən biridir. 1995-ci il Konstitusi-

yası bu sahədə əsas prioritetləri müəyyən etmiş, Azərbaycanda demokratik seçkilərin hüquqi bazasının yaradılması üçün əsas olmuşdur. O vaxtdan ötən 10 il ərzində seçki qanunvericiliyində və praktikasında daim təkmilləşdirilmə aparılmış, milli seçki standartları Avropa və dünya təcrübəsinə uyğunlaşdırılmışdır. Həmin işdə Avropa Şurası və ATƏT kimi beynəlxalq təşkilatların texniki yardımından səmərəli istifadə olunmuşdur. Bu baxımdan 1995-ci ildən bəri keçirilmiş hər bir seçki əvvəlki ilə müqayisədə seçkilərin beynəlxalq standartlara uyğunlaşdırılması yolunda irəliyə doğru addım hesab oluna bilər.

Ötən illərdəki seçkilərdən fərqli olaraq, sonuncu parlament seçkiləri də demokratikləşmə prosesini sürətləndirən bir sıra müsbət yeniliklərlə yadda qalmışdır. Azərbaycan hökuməti siyasi iradə nümayiş etdirərək seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi üçün bütün zəruri tədbirləri görmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı seçkilərdə öz sözünü demiş, istədiyi namizədə açıq, ədalətli, azad şəkildə səs vermiş, beləliklə, Azərbaycan öz demokratik inkişafında yeni mərhələyə qədəm qoymuşdur.

Bununla yanaşı, qeyd edilməlidir ki, seçkilər sahəsində tərəqqinin əldə edilməsinə baxmayaraq, bəzi nöqsanlar və çatışmazlıqlar hələ də qalmaqdadır. Bu hallara da biz dözümlü yanaşmalıyıq, onları inkişafın “xəstəliyi” və ya arzuolunmaz təzahürləri kimi qəbul etməliyik. Əsas odur ki, belə nöqsanları aradan qaldırmaq üçün hakimiyyətin aydın bəyan edilmiş iradəsi vardır. Biz demokratiya yolunu öyrənə-öyrənə keçməliyik. Şübhəsiz ki, 2005-ci il noyabrın 6-da keçirilmiş seçkilər zamanı da bəzi qanun pozuntuları baş vermişdir. Bunun həm obyektiv,

həm də subyektiv səbəbləri var. Belə hallar heç bir ölkədə istisna olunmur və Azərbaycan hökuməti həmin pozuntuların aradan qaldırılması üçün kompleks tədbirlər görmüşdür.

***- Həmin qanun pozuntularını doğuran amillər hansılardır və mümkünsə, bunlara yol vermiş şəxslər barəsində hansı tədbirlər görüldüyünü bir daha oxuculara xatırladardınız.***

- Gəlin əvvəlcə obyektiv amilləri araşdıraq. Bu amillər ondan ibarətdir ki, seçki komissiyalarının, xüsusilə məntəqə seçki komissiyalarının üzvlərinin peşə hazırlığı müasir tələblərə cavab verən səviyyədə deyildir. Ümumiyyətlə, seçkilər mürəkkəb bir prosesdir və bu proses zamanı, xüsusilə də, səsvermə zamanı atılan hər bir addım qanuna əsaslanmalıdır. Hesab edirəm ki, bunun üçün Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları aşağı komissiya üzvlərinin peşə hazırlığının artırılması məqsədi ilə daim ciddi tədbirlər görməlidirlər. Məsələn, seçki günü məntəqə seçki komissiyaları üzvlərinin davranışına dair çox sadə, qısa və aydın təlimatlar verməklə yanaşı, həm də maarifləndirmə işi aparılmalı, mütəmadi treninqlər keçirilməlidir.

Qanun pozuntularının subyektiv səbəblərini isə bəzi icra orqanları, seçki komissiyaları və bələdiyyə nümayəndələrinin öz şəxsi mövqelərini qanundan üstün tutmalarında axtarmaq lazımdır. Bəzi dairələrdə seçki rəsmilərinin qanun pozuntularına yol verməsi, saxtakarlıq hallarının müşahidə olunması, seçki prosesinə, xüsusilə də, səslərin sayılması prosesinə birbaşa müdaxilə etmələri bizdə ciddi narahatlıq doğurur. Ona görə də 423 seçki məntəqəsində və 10 seçki dairəsində səsvermənin nəticələri ləğv olunmuşdur. Seçki saxtakarlığına və seçki qanunvericiliyinin digər pozuntularına görə 18 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş, o cümlədən bir neçə seçki komissiyasının sədri, üzvlə-

ri həbs edilmiş və ədalət mühakiməsi qarşısında cavab vermişlər. Bundan əlavə, Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 2005-ci il 11 may və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr tarixli sərəncamlarının müddəalarını yerinə yetirmədiklərinə görə üç rayonun icra hakimiyyəti başçısı, bir rayonun icra hakimiyyəti başçısının müavini və icra hakimiyyəti başçısının altı ərazi nümayəndəsi intizam qaydasında məsuliyyətə cəlb edilərək, tutduqları vəzifələrdən azad olunmuşdur. Seçki qanunvericiliyinin pozulması ilə bağlı hökumət tərəfindən digər müvafiq tədbirlər də görülmüşdür. Hesab edirəm ki, bu tədbirlər seçki pozuntularının aradan qaldırılmasında hökumətin mövqeyini və siyasi iradəsini aydın şəkildə nümayiş etdirir. Bu, cənab Prezidentin məlum sərəncamlarında və seçkidən sonra atdığı addımlarda öz əksini tapmışdır.

Bir daha xatırlatmaq istərdim ki, göstərilən sərəncamlarda öz əksini tapan müddəalar parlamentə keçiriləcək təkrar seçkilərdə də qüvvədədir və bu sənədlərdən irəli gələn tələbləri yerinə yetirməyən şəxslər vəzifəsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, məsuliyyətə cəlb ediləcəklər. Dövlət məmurlarının, seçki administrasiyasının, bələdiyyə nümayəndələrinin və digər şəxslərin seçki prosesinə müdaxiləsinə münasibət əvvəlkindən daha sərt olacaqdır.

Burada əsas məsuliyyət dövlət məmurlarının üzərinə düşür. Dövlətə qulluq etməli olan şəxslər seçkilər zamanı özbaşınalıqlara yol verməməlidirlər. Belə halların qarşısı çox ciddi şəkildə alınacaqdır. Artıq seçkiqabağı təşviqat zamanı seçiciləri qanunla qadağan olunmuş üsullarla ələ almalarına görə bir neçə namizə-

din qeydiyyatı ləğv edilmişdir. Hazırda bu sahədə ümumiləşdirmələr və təhlillər aparılır və may ayının 13-dən sonra seçkilər zamanı və seçki günü seçki saxtakarlığına yol vermiş şəxslər və onlar barəsində görülmüş tədbirlər haqqında Azərbaycan cəmiyyəti məlumatlandırılacaqdır.

***- AŞPA missiyası öz bəyanatında Venesiya Komissiyasının dəstəyi ilə seçki qanunvericiliyi və sərbəst toplaşmaq azadlığı haqqında qanuna dəyişikliklərin olunması tövsiyəsi ilə çıxış etmişdir. Bu sahədə Venesiya Komissiyası ilə əməkdaşlıq davam etdiriləcəkmi?***

- Azərbaycan Respublikası Venesiya Komissiyası ilə daim əməkdaşlıq edir, xüsusilə də seçki qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində. Biz bu əməkdaşlığı konstruktiv hesab edir və çox yüksək qiymətləndiririk. Xatırlatmaq istərdim ki, 6 noyabr seçkiləri ərəfəsində də Avropa Şurasının bu qurumu ilə əməkdaşlıqda seçki qanunvericiliyinə bir sıra dəyişikliklər olunmuş, Azərbaycan Prezidentinin 2005-ci il 11 may və 25 oktyabr tarixli sərəncamları Venesiya Komissiyasının əksər tövsiyələrinin həyata keçirilməsini təmin etmişdir. Bundan əlavə, seçkilərlə bağlı şikayət və ərizələrə səmərəli baxılması qaydaları təkmilləşdirilmişdir. Biz bu istiqamətdə əməkdaşlığın davam etdirilməsində maraqlıyıq və seçki qanunvericiliyinin, eləcə də, sərbəst toplaşmaq azadlığı haqqında qanunun təkmilləşdirilməsi sahəsində birgə işləməyə hazırıq. Texniki yardım almaq məqsədi ilə Azərbaycan hökuməti həm Venesiya Komissiyasına, həm də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna müraciət etmişdir.

*“Azərbaycan” qəzeti,*
*9 may 2006-cı il.*

## HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİYİNİN NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏSİNƏ TÖHFƏSİ

*(“Heydər Əliyev və dövlət idarəçiliyi: nəzəriyyə və tərbiyə” mövzusunda elmi-praktik konfransda məruzə)*

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan partiya təşkilatına rəhbər seçilməsini onun liderlik keyfiyyətlərinin, təşkilatçılıq istedadının və intellektual qabiliyyətinin qiymətləndirilməsi kimi qəbul etmək lazımdır. Azərbaycanın siyasi tarixində yeni bir mərhələ açmış bu hadisə ilə xalqımızın həyati probleminə, prinsipial məsələlərinə yeni ideoloji konseptual və fəlsəfi yanaşmaların əsası qoyuldu. Bu, eyni zamanda gələcəyə istiqamətlənmiş, strateji məqsədlər güdən özünəməxsus rəhbərlik və idarəetmə fəlsəfəsinin başlanğıcı idi. Heydər Əliyev yaxşı başa düşürdü ki, mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında əsas vasitə iqtisadiyyatın tezliklə dirçəldilməsi, Azərbaycanın təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və mədəniyyət potensialından xalqın bəhrələnməsi üçün ən əlverişli şərait yaradılmasından ibarətdir.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi,

real siyasi amilə çevrilməsidir. Totalitar sistemin ağır təzyiqlərinə baxmayaraq, o zaman Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atıldı. Milli ruhun və milli mənəviyyatın daşıyıcıları olan elm, sənət və düşüncə adamları, bədii söz ustaları himayə edilir, elmi və bədii yaradıcılığa geniş şərait yaradılırdı. O dövrdə xalqımızın tarixinin qəhrəmanlıq səhifələrinə, milli ənənələrinə, soy-kökümüzə maraq artmış, sosialist ideyalarının tərənnümü bir çox hallarda milli dəyərlərin təbliği ilə əvəz olunmuşdu. Azərbaycan Ensiklopediyası ətrafında toplanmış tarixçi alimlər tərəfindən xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rolu, Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin fəaliyyətinə, 1920-ci ilin aprel hadisələri kimi məsələlərə obyektiv qiymət verilməsi cəhdləri artıq gündəliyə çıxarılmışdı.

Həmin dövrdə bədii ədəbiyyat sahəsində milli azadlıq ideyalarının, milli mədəniyyətin və mənəviyyatın daşıyıcılarını tərənnüm edən çoxlu əsərlər yaranmış, Heydər Əliyevin himayəsi və cəsarəti sayəsində bu cür əsərlər nəinki qadağan olunmamış, müəllifləri cəzalandırılmamışdı, əksinə, onlar həvəsləndirilmiş və mükafatlara layiq görülmüşdü. Elə buna görə də Azərbaycan başqa respublikalara xas olan dissidentlik hallarından xilas ola bilmişdi.

O dövrdə Heydər Əliyevin idarəçilik fəaliyyətinin əhəmiyyətli bir qolunu da Azərbaycanın şöhrətinin artırılması, onun bütün dünyada tanıtdırılması, xalqımızın elm və mədəniyyətinin, tarixi adət-ənənələrinin, görkəmli xadimlərinin təbliği istiqamətində görülən işlər təşkil edirdi. Respublikada keçirilən beynəlxalq seminar və konfranslar, mədəni-kütləvi tədbirlər, görkəmli ziyalıların yubileyləri bu məqsədlərə xidmət edirdi.

Heydər Əliyev dövlət idarəçiliyinin əsas istiqamətlərindən biri olan kadr korpusunun milliləşdirilməsi siyasətini həmişə diqqət mərkəzində saxlamışdır. O, Dövlət Təhlükəsizliyi Komitəsinin azərbaycanlılaşdırılması və xalqımıza yad ünsürlərdən təmizlənməsi kimi son dərəcə çətin və həmin dövrdə təhlükəli bir problemi həll edə bildi. Əksər dövlət idarələrində, kargüzarlıq sistemində azərbaycanlıların xüsusi çəkisinin artırılması istiqamətində də genişmiqyaslı, lakin səssiz-küysüz iş aparılırdı. Hər il yüzlərlə azərbaycanlı tələbə nadir ixtisaslar üzrə SSRİ-nin tanınmış təhsil ocaqlarına göndərilir, Azərbaycanın gələcəyi üçün kadr korpusu hazırlanırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan dili dövlət dili kimi Konstitusiyada təsbit edilmiş və geniş tətbiq olunmağa başlanmışdı. Beləliklə, SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda milli müstəqillik ideyalarının daşıyıcısı olan milli ziyalılar nəsli yetişmişdi. Azərbaycan tarixində haqlı olaraq, müasir intibah dövrü kimi dəyərləndirilən 1970-80-ci illər xalqımızın gələcək azadlıq mübarizəsinə daxili hazırlığın bir mərhələsi idi. Həmin dövrdə Heydər Əliyev tərəfindən xalqın azadlıq hərəkatının siyasi-iqtisadi və mənəvi-psixoloji təməli qoyulmuşdu.

Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövrü ilə onun hakimiyyətə qayıtdığı ikinci dövr arasındakı illəri tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəri kimi səciyyələndirmək olar. Bu illərdə milli təəssübkeşlikdən, Vətənin və xalqın taleyi üçün məsuliyyət hissindən məhrum olan vəzifəli şəxslər və xalq hərəkatına qoşulmuş, onun rəhbər orqanlarını ələ keçirmiş bəzi adamlar tərəfindən xalqa qarşı ağır cinayətlər törədildi, dövlət mənafeləri prinsipsiz hakimiyyət mübarizəsinə qurban verildi, 1970-80-ci illərdə qazanılmış nailiyyətlər itirildi və ya onların mənası təhrif olundu. Müxtəlif vaxtlarda respubli-

kaya başçılıq edən və xalq hərəkatına rəhbərliyi ələ keçirmiş şəxslər Heydər Əliyevin zəngin təcrübəsindən istifadə etmək, bu böyük sərvətdən maksimum faydalanmaq əvəzinə, ona qarşı ədalətsiz, qərəzli mövqe tutdular, nəticədə də xalq hərəkatı, azadlıq mübarizəsi böyük itkilər və fəlakətlərlə müşayiət olundu.

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan illəri də onun siyasi bioqrafiyasında, xalqımızın dövlətçilik tarixində qısa, lakin parlaq və ibrətamiz bir dövr olmuşdur. Ulu öndərin rəhbərliyi altında Naxçıvan ölkəmizin dövlət müstəqilliyinə doğru irəliləməsində, milli azadlıq və milli dövlət quruculuğu işində nümunə rolu oynamışdır. 1993-cü ilin iyun günlərində Azərbaycana rəhbərliyi yenidən öz üzərinə götürən böyük siyasətçinin, təcrübəli dövlət xadiminin idarəçilik məharəti nəticəsində Azərbaycan onu təhdid edən fəlakətlərdən, məhv olmaq təhlükəsindən, etnik parçalanmadan xilas edildi, sabit sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna qədəm qoydu. Ölkənin milli mənafelərinə və təhlükəsizliyi tələblərinə cavab verən xarici siyasət doktrinası hazırlandı, Azərbaycan dövlətlərarası beynəlxalq, regional və ikitərəfli münasibətlər sisteminə qoşuldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində uzunmüddətli atəşkəs əldə olundu, problemin sülh yolu ilə həlli üçün ardıcıl fəaliyyət göstərilməyə başlandı. Qabaqcıl dünya dövlətləri ailəsinə inteqrasiya xətti götürüldü, neft strategiyasından bəhrələnməklə ölkənin firavan, çiçəklənən gələcəyi üçün möhkəm iqtisadi təməl yaradıldı. Torpaq islahatı, özəlləşdirmə həyata keçirildi, maliyyə sabitliyi təmin edildi. Qətiyyətlə demək olar ki, Azərbaycanın dövlət müstəqilliyi dönməz, əbədi xarakter alıb, sabit siyasi vəziyyətdə, mənəvi-psixoloji mühitdə ölkənin gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi.

Milli şüurun sağlam istiqamətdə inkişafı, milli-mənəvi dəyərlərin bərpası, mütərəqqi ənənələrin təbliği istiqamətində mühüm

tədbirlər görülmüş, Azərbaycan dövlətçiliyinin təməl prinsiplərini ehtiva edən əliyevçilik ideologiyası formalaşdırılmışdır. Xalqımızın böyük mənəvi-ideoloji sərvəti olan əliyevçilik ideologiyasının əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalətlilik, demokratiya, milli tərəqqi, bəşərilik və s. kimi anlayışlar təşkil edir.

Ölkəmizdə demokratikləşmə, qanunçuluq, hüquqi dövlət quruculuğu xətti götürülmüşdür. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, dünya standartlarına cavab verən Konstitusiyaya uyğun olaraq, dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsini nəzərdə tutan demokratik modeli yaradılmış, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, çevik idarəetmə strukturunun yaradılması sahəsində mühüm işlər görülmüşdür.

Dünya təcrübəsindən göründüyü kimi, iqtisadi islahatların gedişi, demokratikləşmənin irəliləməsi, hüquqi dövlətin təşəkkül tapması, ölkənin və hər bir vətəndaşın inkişafı məmurlar ordusunun keyfiyyətindən, onların peşəkarlığından, iş qabiliyyətindən, təşəbbüskarlığından və Konstitusiyaya sadiqliyindən çox asılıdır. Respublikamızın dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Prezidentinin fərmanında göstərilir ki, demokratikləşmə və bazar münasibətləri sahəsində islahatlar dövlət idarəçiliyinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmasını təmin etməlidir.

Xüsusi qeyd etmək lazımdır ki, bütün mərhələlərdə Heydər Əliyev rəhbərliyinin mahiyyətini təşkil edən dəyərlər sırasında insan hüquqları və azadlıqlarının qorunması, humanizm, ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı hüquq islahatları, məhkəmə sisteminin təkmilləş-

dirilməsi məhz bu prinsiplərə xidmət edir. Şərqdə ilk dəfə olaraq, Azərbaycanda ölüm cəzası ləğv edilmiş, dövlətimiz insan hüquqları və azadlıqları sahəsində əsas beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonrakı illər ərzində milli həmrəylik, kompromis, Azərbaycanın maraqları və strateji mənafeləri naminə siyasi qüvvələrin əməkdaşlığı siyasətini yeridibdir. Ümummilli problemlərin müvəffəqiyyətlə həlli üçün ölkənin əsas siyasi qüvvələrinin dialoqunun vacibliyini qəbul edən ulu öndərimiz ölkədə milli həmrəyliyə nail olunmasına, hakimiyyət-müxalifət münasibətlərinin normallaşmasına, siyasi proseslərin sivil, demokratik normalar daxilində cərəyan etməsinə xüsusi diqqət yetirmişdir.

Ümumiyyətlə, dövlət xadimi və siyasi xadim kimi Heydər Əliyevə bölücülük deyil, birləşdiricilik, kompromis xas idi. Onun təşəbbüsü ilə xalqımızın və dilimizin "Azərbaycan" adı özünə qaytarıldı, gücümüzün və vahidliyimizin əsası olan milli birlik bərpa edildi, etnik toqquşmalar ehtimalı aradan qalxdı. O, Azərbaycan xalqını vahid tam kimi görür, etnik və dini mənsubiyyətindən asılı olmayaraq hamını, bütün vətəndaşları Azərbaycan xalqının tərkib hissəsi kimi qəbul edir, daha geniş miqyasda isə Azərbaycanı bütün dünya azərbaycanlılarının vətəni hesab edirdi.

O, daim xalq içərisində olur, insanların qayğı və ehtiyacları ilə maraqlanırdı. Ölkə vətəndaşları ilə, xarici nümayəndələrlə Heydər Əliyev qədər ünsiyyətdə olan, onları dinləyən dövlət xadimləri az-az olur. O, hər hansı mühüm siyasi qərar qəbul etdikdən, beynəlxalq tədbirlərdən sonra ictimaiyyət nümayəndələri ilə görüşür, sadə insanların rəyinə qulaq asır, ölkə siyasəti ilə bağlı fikir və təklifləri nəzərə alır, kritik məqamlarda, dövlətçilik üçün təhlükə yarananda xalqa müraciət edir, onun

etimadına və dəstəyinə arxalanırdı. Heydər Əliyevin gücünün, onun məğlubedilməzliyinin səbəblərini məhz bu xalq etimadında, xalqla sarsılmaz birlikdə axtarmaq lazımdır.

Heydər Əliyev elmin və əməli fəaliyyətin ən müxtəlif sahələrində ensiklopedik biliklərə malik idi və bu, ona həmişə əsaslandırılmış, düzgün qərarlar qəbul etməyə imkan veribdir.

Bu gün artıq Heydər Əliyevin dövlət idarəçiliyi nəzəriyyəsi və praktikası əsasında məktəbin yaranması haqqında danışmaq olar. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun iş təcrübəsi, təşəbbüsləri bu məktəbin dərslərini səylə öyrənən çoxlu ardıcılların, şagirdlərin yetişməsinə səbəb olur. İstənilən sahənin mütəxəssisləri ilə Heydər Əliyevin görüşləri, onun çıxışları, dediyi fikirlər geniş əks-səda doğurur, yeni ideyaların və layihələrin yaranmasına təkan verir. Dövlətin və xalqın taleyi üçün mühüm qərarlar qəbul edən zaman Heydər Əliyevin rəhbər tutduğu başlıca prinsiplər məsuliyyət və realizmdir. Onun fəaliyyətinə siyasi romantizm, xülyaçılıq yaddır, qəbul etdiyi qərarlar ilk baxışdan populyar olmaya bilər, lakin bu, son nəticədə həmişə yeganə düzgün və optimal qərar olur.

Heydər Əliyev xalqa fantastik vədlər vermir, real vəziyyəti və əldə edilə biləcək nəticələri açıqlayırdı. Məsələn, məcburi köçkünlərlə görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həll ediləcəyi barədə fikir bildirmir, lakin bütün imkanları səfərbər etməklə çalışacağını söyləyirdi. Nəticədə, ilk baxışdan paradoksal hal baş verir: prezident seçkiləri zamanı Heydər Əliyev ən çox məcburi köçkünlər arasında səs toplayır. Təsadüfi adamların, əhaliyə qısa vaxtda əfsanəvi firavanlıq vəd edən populistlərin sözlərini və əməllərini sınaqdan keçirmiş xalq onunla doğru-düzgün, diplomatiyasız, vicdanla danışan dövlət xadimini layiqincə qiymətləndirir.

Politoloji nəzəriyyələrdə liderlər hakimiyyətin legitimləşdirilməsi üsullarına görə üç qrupa bölünür: ənənəvi liderlik, xarizmalı liderlik, rasional-leqal liderlik. Ənənəvi lider ənənələrin gücünə, xarizmalı lider şəxsiyyətin qeyri-adi istedad və keyfiyyətlərinə inama, rasional-leqal isə cəmiyyət üzvlərinin qanunların aliliyinə inamına və hörmətinə əsaslanır. Heydər Əliyev müasir dünyanın siyasi xadimləri arasında çox az təsadüf edilən elə bir rəhbər idi ki, bu müxtəlif tip liderlərdə olan keyfiyyətləri ahəngdar, üzvi bir şəkildə özündə birləşdirirdi. Respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin doğma Azərbaycan mühitinə, milli zəminə, milli köklərə bağlı olması onu bir şəxsiyyət, dövlət xadimi və lider kimi səciyyələndirən keyfiyyətlər sırasında xüsusi yer tuturdu. Azərbaycan dilinin inkişafı, milli mədəniyyətin, əxlaq normalarının, dinimizin, mənəviyyatımızın yüksəldilməsi, gənclərin milli ruhda tərbiyə edilməsi Prezidentin liderlik qayəsini təşkil edən cəhətlərdəndir.

Tarixi şəxsiyyətlərə qiymət verərkən belə bir prinsip əsas götürülməlidir ki, onlar öz dövrünün imkanları ilə müqayisədə nələri edə bilmişlər. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin istər birinci dövrünə, istərsə də müstəqillik dövründəki fəaliyyətinə qiymət verərkən tam inamla deyə bilərik ki, o, zamanın və şəraitin diktə etdiyi çərçivələrdən çıxaraq, öz dövrünü qabaqlamış və həlli mümkün olmayan problemləri də reallaşdırmışdır.

*"Dövlət idarəçiliyi:*
*nəzəriyyə və təcrübə" jurnalı,*
*№2 (14) 2006-cı il.*

## DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ ELMİ-PRAKTİK KONFRANSDA MƏRUZƏ

- Hörmətli konfrans iştirakçıları!

Xanımlar və cənablar!

Biz bu il Azərbaycanda ilk dəfə olaraq dövlət qulluqçularının peşə bayramını qeyd edirik. Məlumdur ki, Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesində dövlət qulluğunun rolu və BMT Baş Məclisinin tövsiyəsi nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə iyunun 23-ü Dövlət qulluqçularının peşə bayramı günü elan olunmuşdur.

XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi və demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Hazırda müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı sahəsində çoxşaxəli vəzifələri yerinə yetirən Azərbaycan dövləti cəmiyyətin tələblərinə uyğun olaraq, xalqımızın istək və arzularının daha çevik və səmərəli şəkildə həyata keçirilməsinə xidmət edən dövlət idarəçiliyi sisteminin formalaşdırılmasını prioritet fəaliyyət sahələrindən biri kimi diqqət mərkəzində saxlayır.

Qədim tarixə malik olan Azərbaycanın zəngin dövlətçilik ənənələri vardır. Keçdiyi tarixi yol ərzində Azərbaycanda hər bir dövrə uyğun dövlət idarəçilik sistemi təşəkkül tapmış və kadr potensialı formalaşmışdır. Lakin müasir dünyagörüşlü, yüksək

təhsilli və demokratik ruhlu dövlət qulluqçularının öz imkanlarını gerçəkləşdirməsi üçün ilk real şərait Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə mümkün olmuşdur. Bir sıra tarixi səbəblər üzündən ömrünün qısa olmasına baxmayaraq, islam-türk dünyasının ilk demokratik respublikası Azərbaycanda yeni dövlət idarəçiliyi sisteminin və kadr potensialının yaranmasında öz rolunu oynamışdır. Ölkəmizdə dövlət qulluğunun inkişafında və kadrların yetişməsində sovet hakimiyyəti illərində mövcud olmuş Azərbaycan Respublikasının inkarolunmaz əhəmiyyətini də vurğulamaq zəruridir.

Xüsusilə o dövrdə Azərbaycana uzun illər rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində dövlət idarəçiliyi sistemində çalışan milli kadr potensialının yaradılması mümkün olmuşdur. Təsadüfi deyil ki, müstəqilliyə qovuşmuş Azərbaycan Respublikasında yeni dövlət quruculuğu proseslərini həyata keçirən Heydər Əliyev, əsasən, mövcud kadrlara arxalanmış, onların bilik və təcrübəsini yeni şəraitdən doğan müasir tələblərə uyğunlaşdıraraq, müstəqil dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsi vəzifələrini uğurla həll etmiş, dövlət idarəçiliyinin varisliyini təmin edərək, müasir biliklərə yiyələnmiş gənc nəslə mənsub yeni kadr bazasının yetişməsinə və müxtəlif vəzifələrə irəli çəkilməsinə nail olmuşdur. 1991-1993-cü illərdə, yəni müstəqilliyin ilk illərində dövlət idarəçiliyi sisteminin iflasa uğraması və ağır sosial-iqtisadi böhran respublikamızı anarxiya girdabına sürükləsə də, sonrakı illərdə Heydər Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti sayəsində ictimai-siyasi sabitliyi bərqərar etmək, dövlət idarəçiliyinin yeni əsaslarını formalaşdırmaq və ölkəni sabit inkişaf yoluna çıxarmaq mümkün oldu.

1995-ci ildə qəbul edilmiş Konstitusiya müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunu və idarəçilik prinsiplərini təsbit etdi. Konstitusiyanın 7-ci maddəsinə görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir və qanunvericilik hakimiyyəti Milli Məclis, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyəti isə məhkəmələr tərəfindən həyata keçirilir. Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Yeni Konstitusiyanın qəbul edilməsi dövlət həyatının bütün sahələrini tənzimləyən zəruri qanunvericilik bazasının yaradılmasına təkan vermişdir. Dünya birliyinə hərtərəfli inteqrasiya xətti götürmüş Azərbaycanın qanunlarını beynəlxalq standartlara uyğunlaşdırmaq və gələcək inkişaf yolunu təmin etmək məqsədi ilə 1996-cı ildə Prezidentin Sərəncamı ilə Hüquqi İslahat Komissiyası təşkil olunmuşdur. Komissiya yeni normativ hüquqi aktların işlənib hazırlanması sahəsində mühüm işlər görmüşdür. Bu qanunvericilik aktlarının böyük bir qismi bilavasitə dövlət idarəçiliyi sisteminin inkişafına, dövlət qulluğunun təşkilinə və təkmilləşdirilməsinə, dövlət qulluqçularının sosial müdafiəsinin təmin olunmasına yönəlmişdir. Bununla da ölkəmizdə dövlət qulluğunu tənzimləyən zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ümumiyyətlə, 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Qanun imzalandıqdan sonra dövlət qulluğunun tənzimlənməsi ilə bağlı daha 23 qanun, 26 fərman, 12 sərəncam imzalanmış, müxtəlif əsasnamələr, qaydalar, nümunələr təsdiq edilmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibət-

ləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyərək, həyata keçirilən kadr siyasətinin əsas prinsiplərini, dövlət qulluqçularının cəmiyyətdəki yerini, onların hüquq və vəzifələrini müəyyənləşdirir. Bu Qanun dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli, peşəkar və etibarlı işçi korpusunun formalaşdırılması və inkişafını stimullaşdırır. Qanunu səciyyələndirən əsas cəhətlərdən biri də ondan ibarətdir ki, o, Avropa İttifaqına daxil olan dövlətlərin tətbiq etdikləri beynəlxalq standartların başlıca prinsiplərinə uyğundur və dövlətçiliyin, idarəetmənin təkmilləşdirilməsinə öz töhfəsini verir.

Qanunun 2-ci maddəsində dövlət qulluğu anlayışının mahiyyəti belə əks olunmuşdur: “Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericilik aktlarına uyğun olaraq, dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir”.

Göründüyü kimi, dövlət qulluğu Azərbaycanın müstəqil dövlətçiliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi proqramların həyata keçirilməsində, mədəni inkişafında və bütövlükdə cəmiyyət həyatının müxtəlif sahələrinin tənzimlənməsində böyük əhəmiyyət kəsb edən fəaliyyət sahəsidir.

Dövlət qulluğunun əsas vəzifələri sırasına Konstitusiya və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarətin həyata keçirilməsi, dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətinin yerinə yetirilməsinin təmin olunması daxildir. Yəni yuxarıda

qeyd edilən vəzifələrin icrası ölkənin hər bir vətəndaşının mənafeyinə, müxtəlif sahələrə məsul olan dövlət orqanının fəaliyyətinə və ümumən, milli maraqların təmin olunmasına bilavasitə təsir göstərir.

Hüquqi dövlət, demokratik əsaslara söykənən cəmiyyət quruculuğu prosesində dövlət qulluğunun təşkili tamamilə yeni prinsiplərə əsaslanmalı, dövlətlə vətəndaş cəmiyyəti arasında fəal qarşılıqlı əlaqəni təmin etməli, inam və etimadın bərqərar olmasını, yüksək peşəkarlığı şərtləndirməlidir. Bu baxımdan qanunvericiliyə görə, dövlət qulluğunun qanunçuluq, nəzarət və hesabat verilməsi, şəffaflıq və müsabiqə, hüquq bərabərliyi, cavabdehlik və məsuliyyət prinsiplərinə əsaslanması dövlət idarəçiliyi sisteminin daha səmərəli təşkilinə və ardıcıl təkmilləşdirilməsinə xidmət edir. Belə ki, həmin prinsiplər dövlət orqanlarının qərarlarının qanuna və digər normativ hüquqi aktlara söykənməsini, görülən işin nəticəsinin subyektiv meyarlara deyil, keyfiyyətə görə qiymətləndirilməsini, işə qəbul ilə bağlı açıq prosedurların və müsabiqənin tətbiqini, qəbul edilmiş qərarlar haqqında ictimaiyyətə ətraflı məlumat verilməsini, hər hansı vəzifəni tutarkən hüquq bərabərliyinin təmin olunmasını, qulluq borcunun yerinə yetirilməsi zamanı dövlət qulluqçusunun və onun çalışdığı dövlət orqanının cavabdehlik daşımasını ehtiva edir. Eyni zamanda, belə bir mühüm cəhəti də vurğulamaq lazımdır ki, dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi müddəasının dövlət qulluğunun prinsipləri sırasında əksini tapması respublikada dövlət qulluqçularının öz vəzifələrini daha səmərəli şəkildə yerinə yetirməsinə və məsuliyyət hissinin artmasına ciddi təsir göstərməlidir.

Respublika Prezidenti cənab İlham Əliyev dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin və dövlət qulluğunun daha səmərəli təşkili məsələlərini daim diqqət mərkəzində saxlayır, müvafiq qurumların strukturunun təkmilləşdirilməsinə, hüquq və səlahiyyətlərinin dəqiqləşdirilməsinə, bilavasitə həyata keçirdikləri vəzifələrin konkret müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verir.

Dövlət qulluğunu tənzimləyən normativ sənədlərdən 17 qanun, 6 fərman və 12 sərəncam bilavasitə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmışdır. Bu isə bütün digər sahələrdə olduğu kimi, ölkəmizdə dövlət idarəçiliyi sisteminin inkişafı, dövlət qulluğunun təşkili sahəsində də həyata keçirilən siyasətin yaradıcılıqla davam etdirildiyini göstərir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”ni xüsusi qeyd etmək lazımdır. Həmin Fərman imzalandıqdan sonra bir sıra nazirlik və komitələrin yeni əsasnamələri və strukturları təsdiq olunmuşdur ki, bu da onların fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması baxımından mühüm rol oynamışdır.

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq olunduqdan sonra onun müddəalarını tətbiq etmək və idarəçiliyi beynəlxalq standartlara uyğun həyata keçirmək məqsədi ilə bir sıra qanun və 30-a yaxın digər hüquqi normativ akt qəbul edilmişdir. Həmin qanunlar sırasında “Dövlət qulluqçularının pensiya təminatı haqqında”, “Dövlət qulluqçularının icbari sığortası haqqında”, “Dövlət qulluğunda fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”,

"Korrupsiyaya qarşı mübarizə haqqında" və dövlət qulluqçularının vəzifə maaşlarına bir sıra əlavələrin və əmsalların müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının qanunlarını qeyd etmək olar.

Dövlət qulluğuna qəbulu şəffaflıq və müsabiqə əsasında həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir sıra fərmanlar imzalanmışdır. Bunlardan "Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından nümunələrin hazırlanması və qəbul edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə", "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul qaydalarının təsdiq edilməsi barədə" fərmanları göstərmək olar.

"Dövlət qulluğu haqqında" Qanunda nəzərdə tutulmuş ixtisas dərəcələrinin verilməsi, artırılması, saxlanılması və rəsmiləşdirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Prezidentinin Fərmanı ilə "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları" təsdiq olunmuşdur. Bu Qaydalar təsdiq edildikdən sonra dövlət qulluqçularına ixtisas dərəcələri verilmiş və onların əmək haqqına ixtisas dərəcələrinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş əlavələr təyin edilmişdir.

Dövlət qulluğunun daha yaxşı təşkili və idarə olunması məqsədi ilə bir sıra xüsusi qurumlar da yaradılmışdır. Belə ki, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının qarşısında məhz bu vəzifələr qoyulmuşdur. Bundan başqa, dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılması, dövlət qulluqçularının ixtisas dərəcələrinin artırılması və treninqlərin keçirilməsi, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi üçün Prezidentin Fərmanı ilə 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin yanında

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmış və 2005-ci ilin iyun ayında onun Əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyası da yüksək təhsilli, geniş profilli dövlət qulluqçularının hazırlanmasına öz layiqli töhfəsini verir. Hazırda Akademiyada 1100 nəfərdən çox tələbə 6 ixtisas üzrə təhsil alır. Akademiyanın məzunları, əsasən, dövlət strukturlarında çalışır və yaxşı mütəxəssis kimi nüfuz sahibidirlər. Dövlət və bələdiyyə idarəetməsi, menecment, beynəlxalq münasibətlər, hüquqşünaslıq və s. ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən Dövlət İdarəçilik Akademiyası dövlət qulluğunda çalışan şəxslərin ixtisasının artırılması və müasir cəmiyyətin tələblərinə uyğun zəngin bilikli mütəxəssislərin yenidən hazırlanması sahəsində də uğurla fəaliyyət göstərir. İndiyə qədər Akademiyada 600 nəfər dövlət orqanları əməkdaşları, o cümlədən rəhbər işçilər yeni ixtisas alıblar. Təkcə bu il Akademiyada 85 nəfər dövlət qulluqçusu təhsilini başa vurmuşdur.

Dövlət qulluğu sahəsində normativ hüquqi bazanın inkişafı və təkmilləşdirilməsi işi davam edir. Dövlət qulluqçularının davranış prinsiplərini və qaydalarını müəyyən edən "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Bu Qanunun Milli Məclisin payız sessiyasında qəbul edilməsi gözlənilir.

Son zamanlar dövlət başçısı yerli icra hakimiyyəti orqanlarının səlahiyyət dairəsinin genişləndirilməsi və məsuliyyətinin artırılması ilə bağlı bir sıra sənədlər imzalamış və bununla da qarşıda duran vəzifələrin həlli üçün onlara müvafiq şərait yaratmışdır. Cənab Prezidentin mütəmadi olaraq regionlara səfərləri, dövlət orqanlarının fəaliyyəti və sosial-iqtisadi məsələlərin

həllinin gedişi ilə bilavasitə yerində tanış olması, konkret tapşırıqlar verməsi artıq ənənə halını almışdır. Hər səfərdən sonra regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər planının hazırlanıb təsdiq edilməsi və onun icrası dövlət orqanlarının fəaliyyətinin daha yaxşı təşkil olunmasına, qüvvələrin səfərbər edilməsinə, məsuliyyətin artırılmasına və görülən işlərin səmərəsinin yüksəlməsinə ciddi təsir göstərir.

1998-ci il dekabrın 29-da Azərbaycan Prezidentinin Fərmanı ilə dövlət idarəçiliyi sistemində islahatların aparılması üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra dövlət idarəetmə mexanizminin demokratikləşdirilməsi, sərbəst bazar iqtisadiyyatı münasibətlərinə uyğunlaşdırılması və onun səmərəsinin artırılması sahəsində kompleks tədbirlər görülmüş, struktur dəyişiklikləri aparılmışdır. Hazırda Azərbaycanda ali icra hakimiyyəti orqanı funksiyasını Prezident və onun İcra Aparatı, yuxarı icra hakimiyyəti orqanı funksiyasını Prezident tərəfindən təşkil edilən Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanlarının funksiyasını isə 20 nazirlik, 10 dövlət komitəsi, Nazirlər Kabineti yanında fəaliyyət göstərən 4 xidmət və idarə həyata keçirir. Bundan başqa, bilavasitə idarəetmə funksiyasını 3 dövlət şirkəti, 1 dövlət konserni, 18 səhmdar cəmiyyəti, 5 agentlik, 2 fond, 3 dövlət komissiyası, 3 palata, Konstitusiya, Ali və Apellyasiya məhkəmələrinin aparatları, bir neçə mərkəzi idarə və xidmət, yerlərdə isə 86 şəhər və rayon icra hakimiyyəti başçılarının aparatı yerinə yetirir. İndiki dövrdə dövlət qulluğunda çalışan məmurların sayı təxminən 25 min 600 nəfərdən ibarətdir. Bu, ölkənin iş qabiliyyətli əhalisinin kiçik hissəsini təşkil etsə də, həmin sahədə çalışan qulluqçular dövlət idarəçiliyində mühüm rol oynayır, ölkənin sosial-iqtisadi inkişafı və beynəlxalq

mövqelərinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasətin gerçəkləşdirilməsində yaxından iştirak edirlər.

"Dövlət qulluğu haqqında" Qanuna və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na görə, dövlət orqanları və həmin orqanlardakı vəzifələr müəyyən təsnifata bölünmüşdür. Səlahiyyətlərindən asılı olaraq, dövlət orqanlarının yeddi kateqoriyası müəyyən edilmişdir. Bu orqanlarda vəzifələr isə funksiyasının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq, inzibati və yardımçı vəzifələrə bölünür. İnzibati vəzifələrin doqquz, yardımçı vəzifələrin isə altı təsnifatı müəyyənləşdirilmişdir. İnzibati vəzifələr 1-ci-7-ci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir. Yardımçı vəzifələr isə 1-ci-7-ci kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən mütəxəssislərin vəzifələridir.

Qəbul edilmiş normativ hüquqi aktlarda dövlət qulluqçularının əsas vəzifə və hüquqları, təminat və məsuliyyəti öz əksini tapmışdır. Dövlət qulluqçuları qanunvericiliyin və qəbul olunmuş başqa normativ hüquqi sənədlərin icrasını təmin etməli, rəhbərlərin öz səlahiyyəti çərçivəsində verdikləri əmr və göstərişləri yerinə yetirməli, dövlət orqanlarında müəyyən olunmuş qulluq reqlamentinə riayət etməli, başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli, vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli, habelə öz fəaliyyətlərində ölkəmizin qanunvericiliyi ilə müəyyən olunmuş digər normaları rəhbər tutmalıdırlar.

Dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsi, eləcə də qanunun tələblərinin pozulması onlara qarşı müxtəlif intizam tənbehi tədbirlərinin tətbiqinə səbəb ola bilər.

Hər bir dövlət qulluqçusu öz fəaliyyətində yüksək peşəkarlığı, dövlətçiliyə və milli mənafelərə sədaqəti əsas tutmaqla yanaşı, mənəvi saflığı, humanizm və sosial-ədalət, xalqa xidmət prinsiplərini ön plana çəkməlidir. Unutmaq olmaz ki, dövlət qulluqçularının öz vəzifəsinə münasibəti, əxlaqi-mənəvi keyfiyyətləri hakimiyyət orqanlarının nüfuzunun formalaşmasına bilavasitə təsir göstərir, dövlət idarəetmə mexanizminin səmərəli fəaliyyəti və qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün mühüm amil rolunu oynayır.

Müasir dövrdə demokratik, hüquqi dövlət quruculuğunun mürəkkəb vəzifələrinin həlli prosesində bütün cəmiyyətin potensial qüvvəsinin səfərbər olunması, dövlət və xalq arasında yaranmış inam və etimadın daha da möhkəmləndirilməsi aktual olaraq qalır. Buna görə də açıq cəmiyyət quran Azərbaycanda hər bir dövlət qulluqçusu öz məsuliyyətini dərindən dərk etməli, vəzifə borcunu ləyaqətlə yerinə yetirməli, atdığı hər addımla, gündəlik həyat tərzi ilə digərlərinə nümunə olmalı və dövlət hakimiyyətinin yüksək imicinin formalaşmasına öz töhfəsini verməlidir.

Dövlət qulluqçusu peşəkarlıq səviyyəsini artırmaq üçün daim çalışmalı, vətəndaşların müraciətlərinə böyük həssaslıqla yanaşmalı, mədəni davranışı, əxlaqi keyfiyyətləri ilə onların rəğbətini qazanmalıdır. Qərarların qəbul edilməsində və həyata keçirilməsində dövlət və vətəndaş maraqları uzlaşdırılmalı, qanunçuluğa əməl olunması ilə yanaşı, humanizm və mənəvi-əxlaqi dəyərlərə hörmət və sədaqət nümayiş etdirilməlidir.

Dövlət orqanlarında işə qəbul olunmaq, orada hər hansı vəzifə tutmaq həm böyük şərəf, həm də yüksək məsuliyyətdir. Dövlət qulluqçusu olmaq, əslində, dövlətin və xalqın xidmətində olmaq, vətəndaşların problemlərinin həllinə kömək göstərmək, ölkənin inkişafı üçün bütün bilik və bacarığını səfərbər etmək deməkdir. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin keçdiyi şərəfli həyat yolu, çalışdığı bütün vəzifələrdə öz ölkəsi və xalqı üçün gördüyü işlər öyrənmək və həyatda tətbiq etmək üçün ən yaxşı nümunədir. Bütün mənalı ömrünü Azərbaycanın tərəqqisinə həsr etmiş bu müdrik insanın rəhbər vəzifə tutan şəxslərə qarşı tələbkarlığı, onların işgüzarlığı və prinsipiallığı, mənəviyyatca saflığının təmin olunması üçün göstərdiyi fəaliyyət respublika əhalisi tərəfindən həmişə böyük rəğbətlə qarşılanmışdır. İstər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev cəmiyyətin bütün təbəqələri tərəfindən qanunun müqəddəs tutulmasını, xüsusən dövlət orqanlarında çalışan şəxslərin qanunların aliliyinə dönmədən əməl etməsini əsas tələb kimi irəli sürür, biganəliyə, süründürməçiliyə, rüşvətxorluq və korrupsiyaya qarşı mübarizədə öz prinsipial mövqeyindən heç vaxt geri çəkilmirdi.

Heydər Əliyev öz mövqeyini belə ifadə edirdi ki, “sağlam mənəviyyat... bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələbimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı qanunun içərisindədir”.

Bu gün ölkəmizdə dinamik xarakter almış ictimai-siyasi və iqtisadi dəyişikliklərin ruhuna uyğun olaraq həyata keçirilən islahatların səmərəliliyini artırmaq məqsədi ilə dövlət qulluğu və

kadr siyasətinin təkmilləşdirilməsi sahəsində yüksək tələblər irəli sürülür və ardıcıl tədbirlər görülür. Azərbaycan Prezidentinin hər bir vəzifəli şəxs və dövlət qulluqçusu qarşısında qoyduğu əsas tələb xalq və dövlətçiliyə sədaqətlə xidmət, vətəndaşların bütün müraciətlərinə diqqətli yanaşma, təşəbbüskarlıq, problemlərin həlli üçün mövcud imkanlardan maksimum istifadə etməkdən ibarətdir. İctimaiyyətlə çoxsaylı görüşlərində və müxtəlif çıxışlarında bu tələbləri dönə-dönə vurğulayan cənab İlham Əliyev demişdir: “Prezident başda olmaqla, bütün məmurlar xalqın xidmətçiləridir. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqa xidmət edək, xalqla birlikdə olaq, xalqın qayğıları ilə yaşayaq. Mən buna çalışmışam, bundan sonra da çalışacağam, heç kim və heç nə məni bu yoldan döndərə bilməz”.

Azərbaycan Prezidentinin işə münasibəti, konkret tapşırıq və tövsiyələri hər bir dövlət qulluqçusu tərəfindən fəaliyyət prinsipi kimi qəbul olunmalı, xalqa xidmət nümunəsi olaraq örnək rolu oynamalıdır. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində bu meyarlar əsas götürülməlidir. Öz fəaliyyətini bu prinsiplərə uyğun quran dövlət qulluqçuları müstəqil dövlətçiliyimizin möhkəmlənməsinə və xalqımızın rifah halının daha da yüksəlməsinə layiqli töhfə verə bilərlər.

Diqqətinizə görə sağ olun.

*“Azərbaycan” qəzeti,*
*24 iyun 2006-cı il.*

# TƏHSİL İŞÇİLƏRİNİN RESPUBLİKA KONFRANSINDA ÇIXIŞ

- Hörmətli konfrans iştirakçıları!

Respublikanın təhsil ictimaiyyətinin ənənəvi konfransı ölkəmizin mühüm bir vaxtında öz işinə başlayır.

Bu gün Azərbaycan xalqı öz tarixinin mühüm, maraqlı və hadisələrlə dolu dövrünü yaşayır. Sovet imperiyasından canını qurtaran xalqımız dövlət müstəqilliyinə nail olaraq, hazırda suveren, demokratik dövlət quruculuğu ilə məşğuldur, vətəndaş cəmiyyəti yaradılması uğrunda səylərini əsirgəmir. Bu ilin oktyabr ayında müstəqilliyimizin əldə olunmasının 15 ili tamam olur. Ölkəmiz tarixin bu qısa kəsiyində qloballaşan dünyanın tərkib hissəsinə çevrilərək bütün müasir iqtisadi, siyasi, elmi-mədəni və sair prosesləri özündə əks etdirir. Azərbaycan indi öz inkişaf sürətinə görə nəinki MDB ölkələrini, hətta dünya ölkələrinin çoxunu geridə qoyubdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək, bütün bu nailiyyətlərin bəhrəsini hər bir azərbaycanlı ailəsi hiss etməlidir. Əlbəttə, belə inkişaf sürəti cəmiyyətin intellektual, mədəni, sosial və elmi-texnoloji potensialının formalaşmasında və möhkəmlənməsində də öz əksini tapmalıdır. Sürətli inkişaf yoluna qədəm qoyan ölkəmizin qazandığı uğurlardan daha çox məhz Azərbaycan təhsili faydalanmalıdır. Buna əsas verən odur ki, bu gün biz büdcəmizin 25 faizini təhsilə ayırırıq. Ölkə büdcəsi artdıqca, təhsilə ayrılan xərclər də arta-

caqdır. 2003-cü ildə informasiya cəmiyyəti üzrə keçirilən ümumdünya sammitində Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin "qara qızıl"ını insan potensialı qızılına çevirmək zərurətini ön plana çəkmişdir. Bu çağırış bizim təhsil və elmi qurumların qarşısında qoyulan mühüm vəzifələrdən biridir. Ona görə də bugünkü konfrans həmin çağırışın reallaşması yolunda atılan addımlardan biri olmalıdır.

"İnformasiya cəmiyyəti" və "qloballaşma" indiki vaxtda ən çox işlənən terminlərdəndir. İndi çap olunan hər 5 kitabdan biri qloballaşan dünyada biliyə və elmə əsaslanan yeni informasiya cəmiyyətinin qurulmasına həsr edilir. Bu cəmiyyətin başlıca xüsusiyyəti ondan ibarətdir ki, müasir informasiya texnologiyalarından nə qədər səmərəli istifadə edilirsə, biliklərə əsaslanan yeni tipli iqtisadiyyatın formalaşması da bir o qədər sürətlə gedir.

Dünyanın simasını dəyişən yeni texnologiyalar Azərbaycanda da tədricən bərqərar olur. Amma informasiya cəmiyyətinin yaranması mürəkkəb prosesdir. İnformasiya cəmiyyətinin ən dəyərli resursu isə insan zəkasının yaratdığı yeni texnologiyalardır. Bütün təbii sərvətlərdən fərqli olaraq, intellektual resursların imkanları tükənməzdir. Beləliklə, Azərbaycanda intellektual resursların artırılması işi zamanın tələbləri səviyyəsində qurulmalıdır. Müasir mərhələdə təhsil sisteminin də əsas vəzifəsi yeni tipli cəmiyyətdə yaşamağa və yaratmağa qadir vətəndaş və kadr hazırlamaqdır, elə vətəndaş ki, o, cəmiyyətin həyatında fəal iştirak etsin, qlobal dünyagörüşünə malik olsun.

Nəzərə alaq ki, informasiya cəmiyyətində sırf fiziki işlə məşğul olanlara tələbatın kəskin surətdə azaldığı bir şəraitdə, intellektual əmək və servis xidməti sahəsində çalışanların sayı sürətlə artır. İntellektual resurslara tələbatın göstəricisi isə sadəcə, bir rə-

qəmlə ifadə oluna bilər: 1960-cı illərə nisbətən XX əsrin sonunda dünyada ali təhsil alanların sayı altı dəfədən çox artıbdır.

Təhsil dövlət siyasətinin ayrılmaz hissəsidir. Dünən o, sırf milli maraqlarla bağlı siyasət idisə, bu gün artıq həm də sırf iqtisadiyyatımızın gələcəyi ilə bağlı məsələdir. Məhz buna görə biz bugünkü konfransa iqtisadi qurumların da rəhbərlərini dəvət etmişik. Biliklərə əsaslanan iqtisadiyyatın yaradılması təhsilimiz qarşısında həm yeni problemlər ortaya çıxarır, həm də bu problemlərin həlli üçün digər qurumların səylərinin səfərbər olunmasını tələb edir.

Hər bir ölkədə informasiya cəmiyyəti yeni texnologiyalarla yanaşı, milli dəyər və ənənələrə əsaslanır. Ümummilli liderimiz Heydər Əliyevdən bizə miras qalan ən böyük sərvət azərbaycançılıq konsepsiyasıdır. Bu, elə bir bünövrədir ki, hər bir yenilik məhz bu fəlsəfə daxilində milli-mənəvi dəyərlərimizə uyğun olaraq gerçəkləşməlidir.

Son illər Azərbaycan təhsilində islahatlar uğurla həyata keçirilir. Həmin islahatlar haqqında hörmətli təhsil naziri Misir müəllim məlumat verəcəkdir. Mən isə çıxışımda təhsil sisteminin gələcək inkişafı üçün çox zəruri olan bəzi məsələlərə toxunmaq istərdim.

Mənim çıxışımı tənqid kimi qəbul etmək lazım deyildir. Biz bunun üçün yığışmamışıq. Biz həll olunmamış problemlər, ölkə Prezidenti cənab İlham Əliyevin təhsil işçiləri qarşısında qoyduğu vəzifələrdən danışmalıyıq. Məsələ ondadır ki, təhsil sistemimizdə çox ciddi problemlər var. Bunu siz də bilirsiniz, biz də bilirik, təhsillə bağlı olan insanlar da görürlər. Bu problemlər həm təhsilin idarə edilməsində, həm də onun məzmununda özünü büruzə verir. Cəmiyyətimiz, ilk növbədə isə

təhsillə bağlı qurumlar və şəxslər bu problemlər haqqında düşünməli, onların həlli üçün böyük səylər göstərməlidirlər.

Müasir cəmiyyət üçün layiqli vətəndaş tərbiyəsi insan dünyaya gəldiyi ilk günlərdən başlayır. Bu, ən əvvəl ailə tərbiyəsi və məktəbəqədər tərbiyə proseslərinə aiddir. Azərbaycan xalqının mentalitetində ailəyə bağlılıq, ailə dəyərlərinin daim uca tutulması böyük yer tutur. Böyüyə hörmət və kiçiyə qayğı bizim xalqa xas olan və əsrlər boyu formalaşan dəyərlərdir. Lakin etiraf etməliyik ki, ailə tərbiyəsinin Azərbaycan modeli heç vaxt əsaslı elmi-pedaqoji tədqiqatın başlıca mövzusu olmayıbdır.

Əgər müasir məktəbəqədər müəssisələrdə gedən proseslərə nəzər yetirsək, aydın olar ki, burada bir çox mürəkkəb problemlər hələ də öz həllini gözləyir. Bunlardan biri, sözsüz ki, uşaq bağçalarında təlim-tərbiyə prosesinin yeniləşdirilməsi və onların maddi-texniki bazasının kəskin surətdə yaxşılaşdırılmasıdır. Bu sahədə böyük işlər görülməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, təhsil sistemində mövcud olan məktəbəqədər təhsil müəssisələrinin təqribən 14 faizi özəlləşdirilməlidir. Bu addım uşaq bağçalarının maddi-texniki bazasının yaxşılaşdırılmasında böyük rol oynayacaqdır. Konfrans iştirakçılarının diqqətinə çatdırmaq istərdim ki, sərəncamda həmin müəssisələrin özəlləşdirilməsi zamanı onların məhz uşaq bağçası olaraq fəaliyyət göstərməsi xüsusi tələb kimi qoyulubdur.

Lakin əgər biz məsələnin sırf təhsillə bağlı tərəfinə müraciət etsək, məlum olar ki, YUNİSEF-in dəstəyi və köməyi ilə tətbiq olunan "Addım-addım" proqramından savayı, bizim bu sahədə elmə əsaslanan milli konsepsiyamız olmayıb və bu gün də yoxdur. Halbuki, dünyada məktəbəqədər təhsillə bağlı çox gözəl

təcrübə və külli miqdarda ədəbiyyat var. Bunlar məktəb yaşına çatmamış uşaqların intellekti və yaradıcılıq qabiliyyətinin inkişafına yönələn, onların nitq qabiliyyətini və estetik zövqünü formalaşdıran müxtəlif səpkili nəşrlərdir. Kitabların bir qismi müəllimlərə, bir qismi valideynlərə, bir qismi isə kiçik yaşlı uşaqlara ünvanlansa da, bunların hər üçü vahid konsepsiya ətrafında yaranan əsərlərdir. Nəfis tərtibatı və yüksək poliqrafik səviyyədə nəşri isə bu kitabların populyar olması üçün zəmin yaradır. Əfsuslar olsun ki, belə kitablar Azərbaycan dilində yoxdur. Burada söhbət yalnız tərcümədən getmir. Belə əsərlər Azərbaycanın milli-mənəvi dəyərlərinə, milli təhsil konsepsiyasına və dünya təcrübəsinə uyğun olaraq işlənilməlidir.

Hər bir ölkənin məqsədi və marağı məhz ondadır ki, o, dövlətçiliyi ilə, milli-mənəvi dəyərləri ilə bağlı olan həqiqətləri uşaqlara kiçik yaşlarından öyrədir. Bu, Amerika ideologiyasında da, Avropa dövlətlərinin çoxunun ideologiyasında da belədir. Lakin biz, misal üçün, bu gün azərbaycançılıq fəlsəfəsinin əsas hissəsi olan doğma dilə sevgi və məhəbbəti kiçik yaşlı vətəndaşlarımız arasında hələ ki lazımi səviyyədə formalaşdıra bilmirik.

XIX-XX əsrlərdə Azərbaycanda yaranan klassik uşaq ədəbiyyatı, demək olar ki, məktəbəqədər tədris prosesindən təcrid olunub, folklorun məktəbəqədər təhsildə tətbiqi məhdudlaşdırılıbdır. Bunun əvəzinə, təhsildə guya uşaq mövzusunda yazılan, əslində isə çox vaxt uşağın dilinə və təfəkkürünə, inkişaf səviyyəsinə uyğun olmayan əsərlər təbliğ edilir. Halbuki, gənc nəslə Azərbaycan dilini sevdirmək, bu dilin incəliklərini və söz ehtiyatının zənginliyini çatdırmaq baxımından Mirzə Ələkbər Sabirin, Abdulla Şaiqin, Mikayıl Müşfiqin, Səməd Vurğunun və digər klassiklərimizin uşaq şeirləri tükənməz bir xəzinədir.

Uşaq bağçalarında çalışan pedaqoji kadrların yeni tədris və tərbiyə üsulları ilə tanışlığı da yox dərəcəsindədir. Bu tədris müəssisələrində istifadə olunan oyuncaqlar, müxtəlif oyunlar və kitablar vahid konsepsiya çərçivəsində sistemləşdirilmir. Bəzi hallarda hətta valideynlərin uşaqlar üçün aldığı oyuncaqlar, videofilmlər uşağın inkişafına yox, müəyyən psixoloji və pedaqoji problemlərin yaranmasına gətirib çıxarır.

Adi cizgi filmlərinin nümayişi zamanı uşaqların yaş həddi nəzərə alınmır və nəticədə biz uşağa xas olmayan aqressiya və ya depressiya halları ilə rastlaşırıq. Eyni mənzərə televiziya kanallarında da müşahidə olunur. Sadə bir həqiqət unudulur ki, uşaqlara ünvanlanan verilişlərdə didaktik və pedaqoji tələblər diqqətə alınmalıdır. Başqa xalqların folkloruna geniş yer verilirsə, bu, uşaqlarda milli arxetiplərin bərqərar olmasına maneçilik törədir. Onu da unutmamalıyıq ki, kiçik yaşlı uşaqların kompyuterdə və ya mobil telefonlardakı elektron oyunlara aludə olmaları da mənfi nəticələr verir.

Hazırda həm dövlət büdcəsindən maliyyələşən, həm də özəl sektorun himayəsinə verilən məktəbəqədər tədris müəssisələri üçün milli konsepsiyaların formalaşdırılmasına, müvafiq ədəbiyyatların hazırlanıb çap olunmasına, təhsilin bu sahəsində çalışan müəllimlər üçün yeni təlim kurslarının açılmasına olduqca böyük ehtiyac var. Bu işdə biz köhnə, günün tələblərinə cavab verməyən proqramlardan əl çəkməliyik. Sözsüz ki, Təhsil Nazirliyinin bu sahədə xüsusi layihələri olmalıdır və onların mərhələli həyata keçirilməsinə daim ciddi nəzarət edilməlidir.

Yalnız belə olduğu halda, orta məktəbə qədəm qoyan gənc vətəndaşlarımız, həqiqətən, təhsilin yeni mərhələsinə lazımi səviyyədə hazır ola bilərlər. Mən əminəm ki, hər bir Azərbaycan

ailəsi, hər bir gənc ana bu proqramlardan bəhrələnərək, öz balalarının məktəbəqədər təhsil problemlərini həll edərlər.

İbtidai təhsilin ən böyük problemi isə bundan ibarətdir ki, o, innovasiyalardan bəhrələnsə də, kifayət qədər mühafizəkar mərhələdir. Məhz bu mərhələdə uşaqların fiziki və intellektual səviyyəsi haqqında müxtəlif məlumat bazaları yaradılmalıdır. Dünyadakı mövcud metodikalar elə bu mərhələdə ən istedadlı və intellektual uşaqları müəyyən etmək imkanı verir.

İbtidai təhsil problemləri ətrafında son illər kifayət qədər geniş müzakirələr aparılır. Hətta sovet məktəbi dövründə eksperiment səviyyəsində gerçəkləşən üçillik ibtidai təhsil modeli də hələ öz aktuallığını itirməyibdir. İbtidai məktəbdə çalışan müəllimlər, demək olar ki, Azərbaycanda mövcud olan 4500 məktəbin hər birində var. “İlk müəllim” olaraq onlar uşaqlara əlifbanın sirlərini açırlar. Cəmiyyətimiz onlara böyük ehtiyac duyur. Ancaq etiraf etmək lazımdır ki, təhsilin bu mərhələsində çalışan müəllimlərin də böyük qismi müasir tələblərə cavab vermir.

Belə hesab edilir ki, hər bir müəllim ibtidai sinifdə dərs deyə bilər, halbuki bu, təhsilin ən mürəkkəb yeri, ən incə nöqtəsidir. Təhsilin bünövrəsi bütövlüklə məhz ibtidai sinifdə formalaşır. Uşağın əqli və fiziki qabiliyyəti, şəxsiyyət kimi formalaşması elə bu dövrə təsadüf edir. Lakin bizdə ibtidai məktəb üçün məktəbdənkənar ədəbiyyat da yox dərəcəsindədir, nəşr olunan uşaq jurnalları isə pedaqoji ictimaiyyətin fikir və tənqidlərini saya-hesaba almır.

5-9-cu siniflər, demək olar, təhsilin əsas mərhələsini təşkil edir. Burada şagirdin inkişafına yönəlmiş proqramların, xüsusi oyunların, filmlərin və interaktiv kompyuter proqramlarının yox-

luğu ilə yanaşı, müəllimlərin də peşəkarlıq səviyyəsi ilə bağlı bir çox problemlər var. 9-cu sinfi bitirəndən sonra müvafiq texnikumlara imtahan verən abituriyentlərin bilik səviyyəsi göstərir ki, bu mərhələdə bir çox fənlərin, xüsusən riyaziyyatın tədrisi ilə bağlı ciddi və öz həllini gözləyən problemlər mövcuddur.

Məlumdur ki, Azərbaycanda icbari onbirillik təhsil ölkənin ali qanunu ilə təsdiq olunubdur. Bizim bu gün inteqrasiya olunduğumuz ümumavropa təhsil məkanı belə, məktəb yaşında olan uşaqların heç də hamısının tam orta təhsil almaq imkanını təmin eləmir. Bir sıra ölkələrdə şagirdlərin yalnız 20-30 faizi tam orta təhsil ala bilir. 9-10-cu sinifdən sonra isə bu ölkələrdə peşə, sənət öyrədən təhsil müəssisələri kifayət qədər populyardır.

Vaxtilə, sovet dövründə bizdə də texniki peşə təhsili kifayət qədər inkişaf etmiş bir sistem idi. Təəssüf ki, son illər təhsilin bu növü öz nüfuzunu tamamilə itirmişdir. Onların çoxu fəaliyyətini dayandırıb, davam edənlərdə isə təhsil olduqca formal xarakter daşıyır. Lakin yalnız bir texniki peşə məktəbinin Azərbaycan Dövlət Neft Şirkətinin sərəncamına verilməsi göstərdi ki, təhsilin bu formasından müasir dövrdə də səmərəli istifadə etmək mümkündür.

Həmin məktəbdə qısa müddətə həm müasir maddi-texniki baza yaradıldı, həm də şagird axını təmin olundu. Ən başlıcası isə, belə texniki peşə məktəbinə qədəm qoyan hər bir gənc əmindir ki, təhsil müddəti bitəndən sonra onun təminatlı iş yeri var. Bu baxımdan respublikada mövcud texniki peşə məktəbləri şəbəkəsi müasir əmək bazarının tələbatına uyğun olaraq yaradılmalıdır. Bu məsələnin həllində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə çox uğurlu layihələr işlənib hazırlana bilər. Əslində, ehtiyat əmək qüvvələrinin yaradılması bu nazirliyin funksiyasına aiddir.

Əgər texniki peşə məktəbləri sistemi öz fəaliyyətini əmək bazarı ilə həmahəng qura bilsə, bu, respublika iqtisadiyyatı üçün kadr təminatında çox uğurlu addım ola bilər. Eyni zamanda, belə bir hal informasiya cəmiyyətində biliklərə əsaslanan iqtisadiyyatda müxtəlif xidmətlər göstərən sektorun xüsusi yeri və mövqeyinin bərqərar olmasına da kömək edərdi.

Tam orta təhsilini başa vurmaq arzusunda olan şagirdlər bu gün ölkədə böyük bir dilemma qarşısında dayanırlar. Onların bir qismi əvvəldən humanitar yönlü fənlərə meyilli olaraq, dəqiq elmlər üzrə proqramı tam həcmdə mənimsəyə bilmir. Digər hissəsi isə əksinə, riyaziyyat, fizika, kimya sahəsində gözəl nəticələr nümayiş etdirir, lakin ana dili, ədəbiyyat, tarix və digər fənlərdən zəif göstəricilərə malik olur.

Məktəblərimizdə kifayət qədər istedadlı gənclər var və onların əldə etdikləri nəticələrdə kəskin fərq müşahidə olunmur. Lakin bu, şagirdlərin ümumi sayının cəmi 1-2 faizini təşkil edir.

Tədris proqramlarında bugünkü mövcud standartlar 10-11-ci siniflərdə humanitar və dəqiq elmlərə, təbiət elmlərinə bölgünü təmin etməyə imkan vermir. Nəticədə problemlər təhsilin sonrakı mərhələsində özünü büruzə verir.

Şagirdlərimizin əksəriyyəti ali məktəblərə ya müstəqil şəkildə, ya da müəllim köməyi ilə hazırlaşır. Bu isə onları normal məktəb həyatından bu və ya digər formada uzaqlaşdırır. Şagirdlərin əyalətdə olan məktəblərə köçürülmələri və ya ali məktəblərə ümumən tədris prosesindən yayınaraq hazırlaşmaları kütləvi xarakter alır. Nə şagirddə, nə də onun valideynində inam yoxdur ki, məktəbdəki tədrisin səviyyəsi ali məktəbə yüksək hazırlığı təmin edə bilər.

Ali məktəblərə keçirilən qəbulun nəticəsi haqqında biz Tələbə Qəbulu üzrə Dövlət Komissiyası sədrinin ayrıca

məruzəsini dinləyəcəyik. Fərəhləndirici haldır ki, ali məktəblərə daxil olanlar arasında yüksək nəticələr göstərən abituriyentlərin sayı durmadan artır. Ali məktəblərə qəbul olunanların 50 faizdən çoxunun 300-500 bal, 20 faizdən çoxunun isə 500-700 bal toplaması, sözsüz ki, təhsildə gedən müsbət dinamikanın göstəricisidir. Lakin mən bu gün artıq özünü qabarıq göstərən bir mənfi meyil də vurğulamaq istərdim. Bu məyusedici amil ondan ibarətdir ki, qəbul imtahanları zamanı 100-dən aşağı bal toplayanların sayı ildən-ilə çoxalır, halbuki, onların arasında orta məktəbi əla qiymətlərlə bitirənlər kifayət qədərdir.

Misal üçün, 2005-ci il qəbul kampaniyası zamanı həmin rəqəm 37 faiz olduğu halda, bu il artaraq 39,6 faiz təşkil etmişdir. Əlaçılar arasında yüksək (500-dən çox) bal toplayanların sayı isə cəmi 0,4 faiz artmışdır.

Əlbəttə, test bilikləri yoxlamaq üçün yalnız bir üsuldur. Əfsuslar olsun ki, bəzi təhsil müəssisələri hətta tədris prosesinin özünü testə hazırlıqla əvəz edirlər. Test imtahanları zamanı şagirdlərin bilik səviyyəsi yoxlanılır və müəyyən edilir ki, hansı hazırlıq səviyyəsi abituriyentlərə öz təhsilini davam etdirmək imkanı yaradır. Dünya təhsilində gedən proseslər isə belə deməyə əsas verir ki, böyük yaradıcılıq və intellektual qabiliyyətə malik mütəxəssislər hazırlamaq üçün bu, heç də kifayət deyildir.

Doğrudur, test bu gün artıq bütün təhsil proseslərinə müdaxilə edibdir. Lakin müşahidələr göstərir ki, məktəblərdə test üsulunun tətbiqi şagirdlər arasında əzbərçilik meyillərini artırır. Testə həddən artıq aludəçilik, əslində, mənfi nəticələr doğura bilir.

Xüsusən humanitar fənlər sahəsində sinifdənxaric oxuların, mövzular üzrə alternativ materialların tədris prosesinə kifayət qədər cəlb edilməməsi şagirdlərin yaradıcılıq imkanlarına mənfi təsir göstərir. Halbuki, şagirdlərin şifahi və yazılı nitqinin

inkişafına kömək edən müxtəlif növ ənənəvi vasitələr var. Bunlar, məsələn, müəyyən fənlər üzrə yazı işləridir ki, məktəblidə səlis, məntiqli düşünmək və öz fikrini aydın ifadə edə bilmək qabiliyyəti formalaşdırır. Lakin hazırda orta məktəblərdə həmin yazı formalarına lazımi diqqət yetirilməməsi şagirdlərin obrazlı düşünmək, hadisəyə yaradıcı yanaşmaq, öz fikirlərini cəmləşdirmək və sərbəst mühakimə yürütmək imkanlarını məhdudlaşdırır.

Məktəblərdə digər nəzərəçarpan mənfi meyil də rus dilinin tədrisinin zəifləməsidir. Dünyanın qabaqcıl təcrübəsinə müraciət etsək görərik ki, misal üçün, Qərbi Avropa məkanında məktəblilər qarşısında 2 xarici dil bilmək tələbi qoyulur. Biz də orta məktəblərdə tədris olunmaq üçün xarici dillərdən biri kimi rus dilini qəbul edə bilərik. İkinci xarici dil kimi də Avropa dillərindən hər hansı birinin tədrisi mümkündür.

Orta məktəb şagirdlərinin pulsuz dərsliklərlə təmin olunması Azərbaycan təhsilinin böyük nailiyyəti sayıla bilər. Lakin bu dərsliklərin məzmununda kifayət qədər problemlər var. Konkret olaraq, dərsliklərin rus dilinə tərcüməsi ilə bağlı yol verilən ciddi nöqsanlardan hələ də lazımi nəticələr çıxarılmayıbdır. Çox güman ki, alternativ dərsliklərin yaradılması və il ərzində onların müzakirəsinə həsr olunmuş seminarların təşkili bu sahədə vəziyyəti xeyli yaxşılaşdıra bilər.

Bir neçə söz də texnikumlar haqqında. Bu təhsil pilləsi heç də öz aktuallığını itirməyibdir. Son illər orta ixtisas təhsili məktəblərinə maraq artmaqdadır. Sovet dövrünün qalığı olan "texnikum" sözü bu gün dünyanın heç bir ölkəsində anlaşılmır. Yeni təhsil qanununda bu məsələyə aydın münasibət bildirilməsi ilə yanaşı, eyni zamanda, Təhsil Nazirliyi öz gündəlik fəaliyyətində

bununla bağlı konkret işlər görməlidir. Güman edirəm ki, texnikumların məzunları subbakalavr dərəcəsi alsalar, onların ali təhsil məkanına inteqrasiyası daha səmərəli həyata keçirilə bilər.

Ölkədə adekvat ali təhsil olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Azərbaycanda ali təhsil sistemində kifayət qədər uğurlar var. Əgər biz 1993-1994-cü illərə nəzər salsaq, aydın olar ki, o illərə nisbətən ali məktəblərin maddi-texniki bazası xeyli müasirləşibdir. Ali məktəblərin çoxunda nəinki tədris binaları təmir edilib, auditoriyalar lazımi yeni avadanlıqla təmin olunub, hətta yeni korpuslar da tikilmişdir. Bu, ilk növbədə, ödənişli təhsil formasının tətbiqi ilə bağlıdır. Universitetlərdən bir çoxunun artıq kifayət qədər zəngin kompyuter avadanlığı da var.

Lakin ali məktəblərimiz köhnəlmiş proqramlardan və aktuallığını itirmiş ixtisaslardan ayrıla bilmir. Tədris prosesi müasir avadanlıqlarla təchiz olunmayıbdır. Elmi laboratoriyalardakı mövcud avadanlıq isə ən azı 20 il əvvəl alınmışdır ki, onlar da artıq köhnəlib və çoxu hətta sıradan çıxıbdır. Praktik məşğələlərin keçirilməsində material qıtlığı hallarına təsadüf olunur. İxtisaslar üzrə məşğələlərin keçirilməsi baxımından müasir kompyuter proqramları təchizatında da problemlər mövcuddur, halbuki kompyuter zalları var. Tədris prosesinin müasir avadanlıqlara malik elmi laboratoriyalarla təchiz olunmasında, praktik məşğələlərin lisenziyalı proqramlarla təmin edilməsində ciddi problemlər var.

Ali məktəblərin mövcud kitabxana fondu son iki ildə əsaslı surətdə zənginləşdirilibdir. Azərbaycan Respublikası Prezidentinin latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsinə dair sərəncamına əsasən, bir il ərzində 6,5 milyon nüsxə kitab çap olunmuşdur. Klassik və müasir ədəbiyyat, nəhayət ki, latın qrafikasında gənc nəslə çatdırılıbdır. Bu iş bu il də davam edir.

Müvafiq sərəncamla Təhsil Nazirliyinə "Dərslik" proqramının işlənib hazırlanması tapşırılmışdır. Lakin, təəssüflər olsun ki, proqram bu gün də yox dərəcəsindədir.

Əgər biz universitetlərimizin kitab fondunu təhlil etsək, aydın olar ki, bu fondlar texniki baxımdan köhnəlib və dərsliklərin də çoxu dünya təhsil standartlarının tələblərinə cavab vermir.

Digər tərəfdən, əsas dərsliklər və dərs vəsaitləri rus dilindədir. Orta məktəbin Azərbaycan bölməsini bitirənlər isə rus dilini zəif bildiklərinə görə, həmin kitablardan istifadə edə bilmir. Ona görə də tədris prosesinin müasir dərsliklərlə, habelə rus və ingilis dillərində dərs vəsaitləri ilə təmin edilməsi ilə yanaşı, "Dərslik" proqramı da reallaşmalıdır.

Respublikanın ali məktəblərindəki professor-müəllim heyətinin və yardımçı heyətin tərkibi yaxşılaşdırılmadan burada hər hansı inkişafdan söhbət gedə bilməz. Hazırda müəllimləri təkmilləşdirmə kursları formal xarakter daşıyır və heç də problemlərin həllinə kömək etmir.

Müəllimlər biliklərini artırmalı, ali məktəblər ardıcıl olaraq əməkdə, elmdə, texnikada və iqtisadiyyatda baş verən yeni meyilləri nəzərə almalıdır. Bu kursların proqramına informasiya-kommunikasiya texnologiyalarının, xarici dillərin, informatikanın, o cümlədən internet texnologiyalarının tətbiqi yolu ilə tədrisin müasir metodlarının öyrənilməsi də daxil edilməlidir. İqtisadiyyat, informasiya-kommunikasiya texnologiyaları, ictimai elmlər və digər sahələrdə müəllimlərin Avropa və Amerika Birləşmiş Ştatlarının aparıcı ali məktəblərində təcrübə keçmələri ali təhsil sahəsində aparılan islahatlara güclü təkan verə bilər.

Qərbin öndə gedən ali məktəbləri ilə, məsələn, "MBA", "Tempus-TACİS" proqramları və s. üzrə həyata keçirilən birgə

layihələrin sayı artırılmalıdır. Müəllimlər həmin layihələr çərçivəsində xaricdə təcrübə keçməlidirlər.

İkipilləli ali təhsilə keçid prosesinin təhlili göstərir ki, bu təhsil pilləsi çox formal xarakter daışyır. Daha doğrusu, sovet dövrünün beşillik ali təhsil sistemindəki bütün fənlər saxlanılıb, yalnız saatların ixtisarı hesabına bakalavr təhsili verən dördillik tədris planı tərtib olunubdur. İkiillik magistratura təhsili isə bakalavr təhsili verilərkən ixtisas üzrə öyrədilənlərin, olsa-olsa, bir qədər genişləndirilmiş formasıdır. Bu isə müəyyən edilmiş proqramı, məqsədi təmin etmir və tədris prosesinin magistrant üçün səmərəli olmasına gətirib çıxarır.

Beşillik təhsil formasından 4+2, yəni bakalavr + magistr formasına keçid zamanı bir çox problemlər öz həllini tapmayıbdır. Bir neçə sahə üzrə, məsələn, tibb sahəsində, biz hələ də Avropa məkanı üçün lazım olan tədris formalarını tətbiq edə bilməmişik. Bu gün biz burada Səhiyyə Nazirliyinin bu məsələ ilə bağlı fikrini dinləyəcəyik.

Amma bu hal təkcə səhiyyəyə aid deyildir. Bakalavr və magistr – bunlar elmi dərəcələrdir. Bakalavr – artıq ilk elmi dərəcəni almış ali təhsilli insandır. Lakin sənayenin elə sahələri var ki, orada heç bir elmi dərəcədən söhbət gedə bilməz. Bu sahələr üçün biz ali təhsilli mütəxəssislər hazırlayıb, ona mühəndis ixtisasını verməliyik. Neftçıxarma, neftayırma və digər sahələrdə yüksək ixtisaslı mühəndislərə olan ehtiyacı nəzərə alsaq, problemin ciddiliyi aydın görünər.

Ali təhsildən danışarkən, özəl universitetlərə də diqqətimizi artırmalıyıq. Biz qəti razılaşa bilmərik ki, bu tipli ali məktəblər kiminsə sırf qazanc mənbəyinə çevrilsin. Özəl universitetlərdə təhsilin keyfiyyəti dövlət ali məktəblərindən daha yüksək olmalı-

dır. Bu, bütün dünyada belədir. Təhsil Nazirliyinin son kollegiyası zamanı həyata keçirilən tədbirlər, sözsüz ki, davam etdirilməli və heç bir təhsil ocağı dövlət nəzarətindən kənarda qalmamalıdır.

Cəmiyyətimizi narahat edən bir problem də var və ona xüsusi diqqət yetirməliyik. Bu da təhsil sistemində yaranmış mənəvi-etik məsələdir. Etiraf etməliyik ki, təhsil ocaqlarında müxtəlif mənfi və eybəcər hallar mövcuddur. Lakin bunlara qarşı mübarizə yox dərəcəsindədir. Hər bir orta və ali məktəbin isə özünün imici var. Xalq arasında çox yaxşı bilirlər ki, hansı təhsil ocağında rüşvətxorluq və korrupsiya baş alıb gedir. Korrupsiya ilə Mübarizə Komissiyasi tərəfindən bu istiqamətdə ciddi tədbirlər görüləcəkdir. Bu məsələnin bugünkü konfransda səslənməsini məhz ciddi xəbərdarlıq kimi qəbul etmənizi istərdim.

İndi ölkənin bütün sahələrində islahatlar həyata keçirilir, mühüm quruculuq işləri aparılır. Təhsil sistemi bu prosesdən kənarda qala bilməz. Regionların sosial inkişafı ilə bağlı olaraq, təhsil sahəsində də bir sıra islahatlar həyata keçirilməlidir.

Bu zaman elə şərait yaradılmalıdır ki, hər bir kənd məzunu yaşadığı rayon mərkəzində öz təhsilini hansısa formada davam etdirməyə imkan tapsın. Texniki peşə məktəbləri, kolleclər, Müəllimlər İnstitutunun filialları belə bir şəbəkənin yaradılmasında böyük rol oynaya bilər.

2010-cu ilə qədər biz Avropanın təhsil məkanına inteqrasiya olmalıyıq. Bunun üçün bizdən nə tələb olunur?

Məlumdur ki, YUNESKO tərəfindən ali təhsil üzrə 1998-ci ildə keçirilən ümumdünya konfransı, əslində, informasiya cəmiyyəti üçün ali təhsilin yeni məqsəd və funksiyalarını təsdiq etdi. Konfransın yekunları haqqında yalnız bir fikri xüsusi vurğulamaq kifayətdir: "Bu, insanın təhsilə yiyələnmə prosesinin onu ömrü boyu müşayiət etməsidir".

Ali təhsilin, əslində, yeni paradiqması formalaşdırılıb və bu paradiqmaya uyğun olaraq ümummilli, regional və beynəlxalq müstəvidə müxtəlif tədbirlər reallaşmağa başlayıbdır. Bizim təhsildə mövcud olan vəziyyət bu tələblərə nə dərəcədə uyğundur? Bu haqda biz düşünməliyik.

1999-cu il iyunun 19-da Bolonya şəhərində Avropa ölkələri təhsil nazirlərinin imzaladığı birgə bəyanat artıq Avropa İttifaqı daxilində ali təhsil üçün yeni standartları bərqərar etdi. Bolonya prosesinə qoşulan hər bir ölkə, o cümlədən Azərbaycan 6 əsas prinsipə riayət edərək, ümumavropa təhsil məkanında tələbələrin və müəllimlərin mübadiləsini xeyli asanlaşdırmış olur. Zahirən bu, çox gözəl imkandır.

Lakin bizim proqramlarımızda və qiymətləndirmə sistemlərində kifayət qədər ciddi fərqlər olduğundan, bu problemin həllindən kənardayıq. Bircə faktı qeyd edim ki, 2006-cı ildə magistraturaya qəbul zamanı tövsiyə edilən ədəbiyyat 1960-80-ci illərdə rus dilində çap olunan kitablardır. Odur ki, bu istiqamətdə çox ciddi və gərgin iş getməlidir.

İnanmaq istərdik ki, dövlət tərəfindən daim diqqət mərkəzində olan təhsil sistemi işçiləri ölkəmizin inkişaf tempinə cavab olaraq, öz fəaliyyətlərinə obyektiv və tənqidi yanaşacaq, tədrisin keyfiyyətini müasir tələblər səviyyəsinə qaldırmaq üçün səylərini əsirgəməyəcəklər.

*5 sentyabr 2006-cı il.*

# HEYDƏR ƏLİYEVİN BANİSİ OLDUĞU MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ ALTINDA SON ÜÇ İL ƏRZİNDƏ DAHA DA MÖHKƏMLƏNDİ VƏ İNKİŞAF ETDİ

*("Azərbaycan" qəzetinə müsahibə)*

***- Ramiz müəllim, Azərbaycan xalqı dövlət müstəqilliyinin 15-ci ildönümünü qeyd edir. Müstəqillik salnaməmizin elmi-nəzəri araşdırıcısı, eyni zamanda, bu dövrdə yüksək dövlət vəzifəsi tutaraq, prosesin bilavasitə əsas iştirakçılarından biri olmuş insan kimi Sizin bu tarixi mərhələni necə dəyərləndirməyinizi bilmək maraqlı olardı...***

- Hər bir xalq dövlət müstəqilliyini, milli suverenlik hüququnu, şübhəsiz ki, bu məqsədi reallaşdırmaq üçün apardığı mübarizənin və ən əsası isə, tarixi şəraitin diktə etdiyi gerçəkliyin, geosiyasi durumun nəticəsində əldə edir. Heç bir digər dövlətin ərazi bütövlüyünü pozmadan azad yaşamaq, müstəqil ölkənin vətəndaşı olmaq fərdin beynəlxalq hüquqla təsbit edilən təbii haqqıdır. Xalqların əldə etdiyi, eləcə də bəhrələndiyi müstəqillik də bu xalqların özləri kimi fərqli, özünəməxsus olur.

Hər bir millətin müstəqillik salnaməsi də məhz onun malik olduğu dövlətçilik ənənələrinin, azadlıq düşüncəsinin, milli-mənəvi irsinin, tarixi keçmişinin, intellektual potensialının, dünyada gedən qlobal proseslərdə iştiraka hazırlığının,

vətəndaşlarının maarifçilik və təfəkkür səviyyəsinin əsas göstəricisinə çevrilir.

Ümummilli liderimiz, əsl müstəqilliyimizin banisi Heydər Əliyevin böyük müdriklik və tarixi dəqiqliklə söylədiyi "Azərbaycan xalqının dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir" - fikri kontekstindən yanaşsaq, həqiqətən də, xalqımız bu müstəqilliyə layiq təkamül yolu keçmiş, böyük qurbanlar bahasına azad ölkədə yaşamaq haqqı qazanmışdır. Düzdür, respublikamızın dövlət müstəqilliyi əldə etməsi, əslində, Sovetlər İttifaqının süqutu prosesinin sürətlə getməsi, eyni zamanda, mərkəzi hakimiyyətin intriqa və avantüralar nəticəsində ən kritik vəziyyətə düşərək, özünü ölkəni idarəetmə imkanından məhrum etməsi nəticəsində yaranan tarixi şəraitin məntiqi yekunu idi. Bir ölkənin mövcud olmaq limitinin artıq ictimai-siyasi-iqtisadi-hüquqi cəhətdən tükənməsi və onun tarixə qovuşmasının labüdlüyü dünyanın siyasi xəritəsində 15 yeni dövlətin meydana gəlməsinə şərait yaratdı. Lakin əsas məsələ də elə bu idi ki, günlərin bir günü dövlət müstəqilliklərini elan etməkdən başqa çıxış yolu qalmayan bu respublikalar, əslində, müstəqil yaşamağa hazırdırlarmı? Bu dövlətlər yeni geosiyasi şəraitin yaradacağı etnik və iqtisadi problemləri həll etməyi, dövlət quruculuğunun çətin yolunu peşəkarlıqla və itkisiz keçməyi, bir müstəmləkəçilikdən qurtarıb yenidən vassal statusuna düşməməyi bacaracaqlarmı? Taleyin və tarixin şansına çevrilən dövlət müstəqilliyinin qədrini biləcəklərmi, azad ölkənin idarəçilik sükanını populizmdən uzaq, qabiliyyətli, vətənpərvər, dövlət quruculuğunun kamil və mahir ustalarına etibar etməyə nail olacaqlarmı? Bu sualların konkret cavabları Azərbaycanın da aid olduğu postsovet məkanına mənsub respublikaların bugünkü durumunda, siyasi vəziy-

yətində, sosial yaşam tərzində, dünya səhnəsində tutduğu mövqedə, ən əsası isə, həmin ölkələrin vətəndaşlarının *"bu müstəqillik sayəsində daha çox qazandıq, yoxsa itirdik?"* – sorğularının yekun qənaətində əks olunubdur.

Bu suallar Azərbaycan Respublikasının son 15 illik mövcudluğu dövründə vətəndaşlarımız tərəfindən dəfələrlə fərqli şəkildə cavablandırılıb, müstəqilliyimizin vəziyyəti və xalqın bu müstəqilliyə baxışı da çox müxtəlif yanaşmaların təzahürü olubdur. Artıq tarix Azərbaycanın müstəqillik salnaməsini obyektiv araşdırmaların və elmi tədqiqatların nəticəsi olaraq müəyyən mərhələlərlə təsnifatlaşdırır. Müstəqilliyimizin ilk dövrü - 1991-1993-cü illər "formal müstəqillik" mərhələsitək tarixə, "xaosun, anarxiyanın, böhranın dərinləşdiyi, dövlətin parçalanma, millətin məhvolma ərəfəsində olduğu məşəqqətli dövr" kimi xalqın yaddaşına həkk edilibdir. SSRİ-nin dağılmasının qaçılmaz olması nəticəsində elan edilən müstəqillik azad ölkənin vətəndaşı olaraq Azərbaycan xalqına qürur duymaq hissindən əvvəl, Dağlıq Qarabağ problemi kimi milli faciə və bu problemdən heç də geri qalmayan siyasi təlatümlər, hakimiyyət ambisiyaları nəticəsində meydana çıxan qovğalar, itkilər gətirdi. Obrazlı desək, sanki müstəqillik ölkənin idarəçiliyinə cavabdeh olan qüvvələrə təmtəraqla sinidə təqdim edilir, onlar isə bu müstəqilliklə nə etmək lazım olduğunu, onu millətin ixtiyarına necə verməyi, azadlığın bəhrələrini hansı vasitələrlə gerçəkləşdirməyi dərk etmir, yaxud da dərk etmək istəmirdilər. Kağız üzərində olan müstəqilliyi dövlətin mövcudluğu timsalında təsbit etmək, onu möhkəmləndirmək lazım idi, lakin cəmiyyətin aparıcı siyasi qüvvələri yalnız öz mövqelərini möhkəmləndirməklə məşğul idilər. Xalqın iqtisadi, sosial qayğılarını, ərazi

itkisi nəticəsində əmələ gələn problemləri həll etmək əvəzinə, dövlətə yeni-yeni problemlər "bəxş" edilir, ordu qurmaq əvəzinə, qanunsuz silahlı quldur dəstələri təşkil edilir, ictimai sabitlik yaratmaqdansa, bu sabitliyi təmin edəcək dövlət strukturlarını, daxili işlər orqanlarını kriminal elementlərə çevirir, iqtisadi islahatlar aparmaq əvəzinə, sovet dövründən qalmış müəssisələr talan edilir, bank vəsaitləri mənimsənilir və s. Nəticədə isə xalqın sosial güzəranı böhranın ən son həddinə qədəm qoyur, etnik separatçılığın tüğyan etməsi nəticəsində dövlət Qarabağ bölgəsindən əlavə, faktik olaraq, şimal və cənub ərazilərinə nəzarəti də itirir. Vətəndaş müharibəsinin ilkin atəş səsləri bütün ölkə boyu yayılır, bir-birini əvəz edən diletant, populist, qabiliyyətsiz, şəxsi mənafeyini Azərbaycanın maraqlarından üstün tutan iqtidarların yaratdıqları müdhiş vəziyyət nəticəsində ölkədə hakimiyyətin baş qaldıracaq istənilən 30-40 nəfərlik silahlı quldur dəstələrinə keçməsi təhlükəsi yaranır. Bir sözlə, Azərbaycan Respublikası süqut mərhələsinə qədəm qoyurdu. Bütün bunlar 1991-1993-cü illər Azərbaycanının real mənzərəsi, xalqın yaddaşına isə tarixin ən ağır dövrü kimi yazılan dövr idi.

Bu dövrün ən acınacaqlı amillərindən biri də yalançı demokratların, "müstəqillik aşiqlərinin" xalqın müstəqillik mücadiləsinə kölgə salmaları, bu mübarizəni öz cılız qrup maraqları səviyyəsinə qədər endirmələri, daxili ziddiyyətləri və hakimiyyət ambisiyaları ilə xalqın hələ formalaşmamış etiraz hərəkatını elə ilk həmlədəcə məhvə məhkum etmələridir. İndi ölkə vətəndaşları, həmçinin elmi ictimaiyyət tərəfindən belə bir sual tez-tez səslənir: *Azərbaycan xalqının 1988-1992-ci illərdə apardığı etiraz aksiyası müstəqillik mübarizəsi kimi qəbul edilə bilərmi və ümumiyyətlə, bu hərəkat ölkəmizin müstəqillik əldə etməsində hansı rol oynaya bildi?*

Bu suala əksər vaxt obyektiv cavab verilmir. Kimlərsə xalqın müstəqillik mübarizəsi dedikdə, yalnız öz uğursuz siyasi fəaliyyətlərini, azadlıq hərəkatının ideoloji prinsipləri və siyasi xətti dedikdə isə, meydanlarda tribunalardan səsləndirdikləri bəsit və populist bəyanatlarını nəzərdə tuturlar. Yəni, bu prosesi ancaq öz inhisarları miqyasında dərk edir, xalqın etiraz aksiyalarının "müəlliflik" hüququnun yalnız özlərinə məxsus olduğunu çəkinmədən bəyan edirlər. 1988-1990-cı illərin hadisələri xalq hərəkatı idi. Bu dövrdə baş verən mitinqlər də məhz etiraz aksiyaları idi. Soydaşlarımızın Ermənistandan vəhşicəsinə qovulmasına, Dağlıq Qarabağda erməni separatçılığının geniş miqyas almasına, Kreml rəhbərliyi tərəfindən bu vəziyyətin daha da kəskinləşdirilməsinə, respublika başçılarının isə İttifaq rəhbərlərinin buyruqquluna çevrilərək, xalqın mənafeyini tapdalamalarına qarşı vətəndaşların etiraz aksiyaları mühüm əhəmiyyət kəsb edən hadisə idi. 1990-cı ilin yanvar hadisələrindən sonra isə Azərbaycanda milli azadlıq hərəkatı başladı.

Eyni zamanda, xalqın müstəqillik uğrunda apardığı tədbirləri təkzib etmək, onu birmənalı şəkildə uğursuz adlandırmaq da səhv yanaşmadır. Qarabağ bölgəsində başlamış etnik separatizm və həmvətənlərimizin Ermənistandan dədə-baba yurdlarından vəhşicəsinə qovulması nəticəsində meydana çıxan milli qəzəb və hiddət xalqın etiraz hərəkatına çevrilməyə məhkum idi. Lakin təəssüf ki, həmin dövrdə ölkədə baş verən proseslərin mahiyyətini dərindən dərk edən, hadisələrin axarını düzgün müəyyənləşdirmək iqtidarında olan, müstəqillik və suverenlik prinsiplərinin yeni dünya düzənində hansı xüsusiyyətlərə malik olmasını bilən ziyalılar, ictimai xadimlər xalqın etiraz hərəkatında öncül mövqeyə çıxa bilmədilər. Bunun yeganə səbəbi isə o idi ki,

meydan avantürasının "baş qəhrəmanları" - uzun illər kiçik elmi işçi və laborantlıqdan yuxarı heç bir vəzifə tutmayan uğursuz şəxslər, fəhlə hərəkatının nümayəndələri adı altında ortaya çıxan boşboğazlar talelərində ilk və son fürsət kimi qəbul etdikləri bu proseslərdə əsl ziyalıların, xalqın hörmətini qazanmış ictimaiyyət nümayəndələrinin iştirakını həzm edə bilmir, sonuncuları hərəkata yaxın buraxmamaq üçün onlara qarşı mənəvi repressiya təbliğatını, gözdənsalma kampaniyasını böyük vüsətlə işə salırdılar.

Nəticə isə göz qabağında idi. Digər müttəfiq respublikalarda baş qaldırmış və konkret məramı, məqsədi, proqramı, böhrandan çıxmaq üçün fəaliyyət istiqaməti, ən əsası isə, xalq arasında nüfuz qazanmış və dövlət idarəçiliyi təcrübəsi olan liderlərə malik xalq cəbhəsi hərəkatlarından fərqli olaraq, Azərbaycanda belə hərəkat formalaşa bilmədi. Bu hərəkat xalqın müxtəlif təbəqələrini öz ətrafında birləşdirə bilən, fəhlədən ziyalıyadək müxtəlif zümrələrin təmsilçilərinin etimadını qazanan, respublika və İttifaq rəhbərliyi qarşısında millətin sözçüsü kimi çıxış etmək gücündə olan liderlər yetişdirə bilmədi. Bu qüvvələr, guya ki, ideoloji fərqlilik adı altında daxili ziddiyyətlərə rəvac verir və beləliklə də xalq hərəkatı formalaşmadan onu süquta uğradırdılar. Onlar anlamırdılar ki, müstəqillik amalı, xalqın azad yaşamaq hüququ məqsədə yetişənədək, yəni müstəqilliyi əldə edənədək bütün müxtəlif siyasi dairələri, qrupları, fərqli ideoloji təmayülləri birləşdirmək gücündədir. Şübhəsiz ki, buna səmimi qəlbdən çalışmaq, məqsəd kimi hansısa siyasi və maliyyə dividendləri qazanmağı yox, ölkənin müstəqillik əldə etməsini müəyyənləşdirmək vacib idi. Bu meyarların Azərbaycanda hansı səviyyədə təmin edilməsi isə ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində baş verən proseslərdən xəbərdar olan hər bir vətəndaşımıza tam aydındır.

Həmin dövrdə respublikaya rəhbərlik edən Vəzirov və onun ətrafındakılar da özlərini xalqdan tam təcrid edərək, dünyada və bölgədə gedən proseslərin məntiqi sonluğunu düzgün anlamırdılar. Sovet İttifaqının artıq dağılma ərəfəsində olduğu hətta "obıvatellərə" də məlum olduğu bir vaxtda, Mütəllibov hakimiyyəti müstəqilliyin elan edilməsinin ilkin mərhələsinə hazırlaşmaq əvəzinə, yeni İttifaq müqaviləsi imzalamaq üçün hətta Kreml rəhbərliyindən də çox canfəşanlıq edir, yaxud da 1991-ci ilin avqust çevrilişinin təbliğatçısına və fəal dəstəkçisinə çevrilirdi. Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktını məcburiyyət qarşısında parlament müzakirəsinə çıxaran (özü də digər müttəfiq respublikalardan çox sonra) iqtidar dövlət quruculuğu sahəsində heç bir iş görmür, təşəbbüs göstərmirdi.

***- Ancaq Siz qeyd etdiniz ki, müstəqillik uğrunda aparılan tədbirləri təkzib etmək, onları birmənalı şəkildə uğursuz adlandırmaq da səhv yanaşmadır…***

- Bəli, mən o fikrə qayıdaraq, bir daha vurğulayıram ki, ümumiyyətlə, həmin dövrdə müstəqillik uğrunda mübarizənin xalqın mənafeyinə və Azərbaycanın gələcək maraqlarına uyğun aparılmamasını iddia etmək tarix qarşısında ədalətsizlik olardı. O vaxtlar əsl azadlıq mücadiləsini aparan və xalqın etirazını kortəbii məcradan konkret məramı olan milli hərəkata keçirməyə çalışan Heydər Əliyevin düşünülmüş, əsaslandırılmış, ən vacibi isə, uğurlu nəticəsi olacaq fəaliyyət proqramı həm İttifaq tərəfdarlarının, həm də "müstəqillik cəfakeşlərinin" ciddi müqaviməti ilə qarşılanırdı. Ümummilli liderimizi bu proseslərdən təcrid etmək üçün DTK-nın zorakı təhdid üsullarından tutmuş mətbuatın mənəvi terroruna qədər bütün vasitələrdən istifadə olunurdu. Maraqlı məqam odur ki, az qala vətəndaş müharibəsi aparmağa

hazır olan A.Mütəllibov hakimiyyəti ilə AXC-yə aid qruplar yalnız bir məsələdə birləşir, yekdil qüvvəyə çevrilirdilər: necə olursa-olsun, hansı yollardan istifadə edilirsə-edilsin, təki Heydər Əliyev zərərsizləşdirilsin. Bu antimilli birgə fəaliyyətin səbəbi o idi ki, bu qüvvələr Heydər Əliyev amili qarşısında aciz olduqlarını dərk edir və öz cılız şəxsi mənafelərini təmin etmək üçün Azərbaycanın müqəddəratını qurban vermək məqsədlərinə əsas təhlükə kimi, haqlı olaraq, ulu öndərimizi görürdülər.

Hələ Moskvada, demək olar ki, ev dustağı vəziyyətində olduğu, xüsusi xidmət orqanları tərəfindən ictimaiyyətlə əlaqələri tamamilə məhdudlaşdırıldığı dövrdə - 1990-cı ilin 21 yanvarında Heydər Əliyev heç nədən qorxub-çəkinmədən Azərbaycan nümayəndəliyinə gələrək, mərkəzi hakimiyyət tərəfindən qanunsuz olaraq Bakıya qoşun yeridilməsini, bu qanlı və amansız aksiyanı pisləyən sərt bəyanat verdi. Bu təxribatı törədənlərin tarix qarşısında cavabdehlik daşıyacağını söyləyən Heydər Əliyev Kreml rəhbərliyinin Azərbaycanın əleyhinə yönəlmiş bu məkrli addımını tam dolğunluğu ilə ifşa etdi. Dağlıq Qarabağ ətrafında cərəyan edən hadisələr barədə dəqiq məlumat verdi, xalqımızın müstəqil yaşamaq haqqını və bunun uğrunda mübarizə apardığını beynəlxalq ictimaiyyətə çatdırdı. Əslində, bu kəskin bəyanat 1988-ci ildən etibarən başlamış proseslər barədə dünya birliyinə verilən ilk əsaslı məlumat və həmin dövrədək Azərbaycanın haqq səsinin beynəlxalq aləmə yayıldığı yeganə hadisə idi. Özünün təhlükə qarşısında olmasına baxmayaraq, Heydər Əliyevin bu böyük cəsarəti və vətənpərvərlik addımını atması onun şəxsiyyət ucalığı baxımından təbii qarşılanmaqla yanaşı, eyni zamanda, Azərbaycan xalqında əminlik yaratdı ki, 1969-1982-ci illərdə respublikada əsl milli intibah

prosesinə rəhbərlik etmiş bu nüfuzlu lider yeni siyasi mərhələdə həm də onun xilaskarına çevrilə bilər.

Heydər Əliyev Azərbaycana qayıtdığı 1990-cı ilin iyul ayında **"Mən heç bir siyasi prosesə qoşulmuram, heç bir vəzifə istəmirəm, doğma Vətənə qayıtmaqda yeganə məqsədim bu ağır günlərdə xalqımla birlikdə olmaqdır"**, - deyə bəyan etsə də, xalq onu zorən siyasətə, ölkəni üzləşdiyi ağır durumdan çıxarmaq üçün konkret fəaliyyətə doğru çəkirdi. Təsadüfi deyil ki, 1990-cı ilin yayında parlamentə keçirilən seçkilərdə Heydər Əliyevin razılığı olmadan onun həm Azərbaycanın, həm də Naxçıvanın ali sovetlərinə deputatlığa namizədliyi irəli sürüldü və o, böyük xalq etimadı qazandı.

1991-ci ilin əvvəllərində Heydər Əliyev Azərbaycan parlamentinin deputatı kimi gərgin fəaliyyətə başladı. Heydər Əliyevin həmin dövrlərdə parlament müzakirələrində səsləndirdiyi fikirlər, təkliflər, mülahizələr müstəqilliyə doğru uzanan yolda rastlaşdığımız yeganə rasional, praqmatik, uzaqgörən fəaliyyət nümunəsi idi. Məsələn, o, Milli Məclisin 1991-ci ilin fevral sessiyasındakı çıxışında Dağlıq Qarabağ probleminin kökünün çox dərinliklərdə olduğunu, Azərbaycanın müstəqilliyinə imkan verməmək üçün bir sıra dövlətlərin əli ilə məkrli planlar hazırlandığını söyləyərək, bu qəsdlərin qarşısının alınmasından ötrü vahid dövlət proqramı yaradılmasının vacibliyini vurğuladı. Sovet qoşunlarının erməni separatizminin hərbi dəstəkçisinə çevrildiyini çəkinmədən deyən Heydər Əliyev təcavüzün qarşısının alınması üçün təcili olaraq tədbirlər görülməsini təklif etdi. Onun çıxışlarının əsas leytmotivi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı rəsmi Bakının daha cəsarətli mövqe tutması və əhalinin müdafiəsinin təşkilini dövlətin öz üzərinə götürməsi

idi. Lakin parlament qaragüruhu bu fikirləri, "böyük qardaşa" qarşı səslənən mülahizələri tənqid edir, onu Azərbaycanda "zərərli müstəqillik ideyalarını yaymaqda" günahlandırırdılar. Yeni İttifaq müqaviləsinə qoşulmaq üçün keçirilən referenduma qarşı çıxan Heydər Əliyev həmin vaxt Azərbaycanın perspektiv müstəqilliyinin heç bir siyasi dividend güdməyən yeganə tərəfdarı kimi çıxış edirdi. 1991-ci ilin 30 avqust sessiyasında təcili olaraq Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsini təklif edən Heydər Əliyevin bu təşəbbüsü də cavabsız qaldı və Mütəllibov iqtidarı-AXC qaragüruhu tandemi yalnız iki aydan sonra bu təklifi gerçəkləşdirməyə özündə cəsarət tapdı.

1991-ci ilin 3 sentyabrında Naxçıvan sakinlərinin böyük təkidi ilə muxtar respublika Ali Məclisinə rəhbərlik etməyə razılıq verən Heydər Əliyev xalqın arzu və istəkləri ilə yenidən siyasi olimpə doğru irəliləyirdi. Ərazicə bu kiçik məkanda böyük müstəqillik mübarizəsinin və genişmiqyaslı dövlət quruculuğunun təkmil modelini bərqərar edən Heydər Əliyev Naxçıvanı Azərbaycanın müstəqillik savaşının ideya və real fəaliyyət mərkəzinə çevirdi. Hələ 1990-cı ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan ərazisində ilk dəfə Naxçıvanda dövlət atributları qəbul olunmuş, üçrəngli bayrağımız rəsmi formada dalğalanmış, "Sovet Sosialist" sözündən imtina edilmişdi. Sonrakı dövrdə Naxçıvanda daha böyük işlər həyata keçirildi. Sovet qoşunları ərazini tərk etdi, sərhəd məntəqələrində Azərbaycan bayrağı ucaldıldı, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar imzalandı, torpaq islahatı aparıldı, əhalinin sosial müdafiəsinin təşkili istiqamətində uğurlu tədbirlər həyata keçirildi. Heydər Əliyevin bu təşəbbüslərini sonradan Azərbaycan Milli Şurası da

rəsmiləşdirməyə məcbur oldu. Ulu öndərimiz blokadada olan bölgəni yaşatmağa müvəffəq oldu və əhalinin təhlükəsizliyini təmin etdi. Erməni separatizminin, hərbi istilasının qarşısını aldı, Azərbaycan ordusunun ilk peşəkar hissələrini məhz Naxçıvanda formalaşdırdı. Heydər Əliyevin Azərbaycan məkanında əsl müstəqillik və layiqli dövlətçilik nümunəsini yaratması bütün ölkə boyu geniş əks-səda verir, artıq respublikanın hər bir guşəsində əliyevçilik hərəkatı vüsət alırdı. Həmin dövrdə ziyalılar, ictimaiyyət nümayəndələri də fəal şəkildə yalnız Heydər Əliyevin ətrafında birləşməklə Azərbaycanın xaosdan, böhrandan qurtulmasının mümkünlüyünü bəyan edirdilər.

O illərdə Elmlər Akademiyasının əməkdaşı işləyən və uzun illər dövlət idarəçiliyində, Heydər Əliyev komandasında yüksək vəzifələr tutmuş bir şəxs kimi mən özüm də ölkədə baş verən proseslərə seyrçi qala bilməzdim. Ölkəni yarımçıq alimlərin, qaragüruhçu "liderlərin" ambisiyalarından xilas etmək üçün əsl ziyalıların, xalqın nicatını məhz Heydər Əliyevdə görən ictimai xadimlərin həqiqəti əks etdirən çıxışları böyük rezonans doğururdu. 1992-ci illərin əvvəllərində "Bakinski raboçi" qəzetində çap edilən "Keçmişimiz gələcəyin kontekstində" və "Demokratiyaya aparan çətin yol" məqalələrimdə Heydər Əliyevə olan ümumxalq dəstəyinin perspektiv imkanları barədə mülahizələrimi bölüşürdüm: "*Respublikada siyasi vəziyyəti böhran vəziyyəti kimi səciyyələndirmək lazımdır. Cəmiyyətdə siyasi qeyri-sabitlik, iqtisadiyyatın tənəzzülü, əhalinin kütləvi şəkildə yoxsullaşması, korrupsiya və alverin qanuniləşdirilməsi, kriminal özbaşınalıq - bu amillər mövcud vəziyyəti xarakterizə edir. Bütün bunların səbəbi isə, fikrimcə, hakim strukturların nüfuzunun olmamasında, səriştəsizlikdə, cəmiyyəti idarə edən təsisatların*

*korrupsiyaya uğramasındadı. Mən "güclü əl"in əleyhinəyəm. Lakin güclü hakimiyyət və möhkəm intizam tərəfdarıyam. Məsələ avtoritarlıqda deyil, şəxsiyyətin nüfuzundadır. Beləliklə, öz şəxsi fikrimi ifadə edərək bildirirəm - Əliyevin respublikada nüfuzu var. Biz digər amili də etiraf etməliyik: Əliyevə münasibətdə ədalətsizliyə yol verilmişdir. Mərkəzin məqsədləri lap əvvəldən aydın idi: SSRİ-dəki siyasi və dövlət rəhbərliyi sferasında Azərbaycanın nümayəndəsinə elə bir vəzifə ayrılmışdı ki, onun bundan yüksəyə qalxmaq hüququ yox idi. Heydər Əliyev isə oyunun qaydalarını "pozmuşdur" - Azərbaycanı daha asan idarə etmək üçün onu Kremldən kənarlaşdırdılar. Bundan əlavə, onun kənarlaşdırılmasında artıq "Qarabağ kartı"ndan istifadə etməyə başlayan güclü erməni lobbisi də çox maraqlı idi.*

*...Bu gün Azərbaycan ciddi sınaqlardan keçir. Xarici hücumlar və daxili qarşıdurma dalğası artmaqdadır. Yaratmaqdan daha çox dağıtmağı bacaran bəzi siyasətçilərin ambisiyaları insanların diqqətini, cəmiyyətin fiziki, mənəvi və intellektual gücünü gündəlik problemlərdən yayındırır. Lakin nə qədər çətin olsa da, Azərbaycanın tarixi inkişaf yolunun irəli sürdüyü dövlətçilik vəzifələri dərindən təhlil edilməli və həll olunmalıdır. Hazırda insanlar yeni partiyalara deyil, şəxsiyyətlərə bel bağlayırlar - elə bir şəxsiyyətlərə ki, onlar xalqın milli-mənəvi dirçəlişinə, respublikanın hərtərəfli böhrandan çıxarılmasına görə məsuliyyəti öz üzərlərinə götürürlər. Bu gün insanlar belə siyasətçilərin arxasınca gedir. Güclü prezident əhalinin demokratik təbəqələrinin dəstəyinə və şəxsi nüfuzuna araxalanaraq cəmiyyətin demokratikləşməsi prosesini, iqtisadi və sosial islahatları sürətləndirəcək, partiyaların və siyasi hərəkatların yaradıcı fəaliyyəti üçün şəraiti təmin edəcəkdir. Bütün bunlar, albəttə ki, Azərbaycanın həyati*

*maraqlarına cavab verər, ölkənin Avropa demokratik sivilizasiyasının standartlarına yaxınlaşmasına imkan yaradardı".*

Heydər Əliyevin Azərbaycanın yeganə qurtuluş ünvanı olması ilə bağlı mülahizələr xalq arasında böyük əks-səda doğurur, rəğbətlə qarşılanırdı. Həmin dövrdə oxuculardan məni dəstəkləyən müraciətlərin olması bir daha sübut edirdi ki, bu fikirlər yalnız Elmlər Akademiyasının əməkdaşı olan bir insanın mülahizələri deyil, həm də Azərbaycanın çoxmilyonlu vətəndaşlarının mənafeyini, istəyini əks etdirən çağırışdır.

Lakin bu vaxt ölkə paytaxtında cərəyan edən proseslər xoş gələcəklə bağlı bütün ümidləri alt-üst edirdi. Ayaz Mütəllibov hakimiyyətinin səbatsız fəaliyyəti, vətənə xəyanətə köklənmiş idarəçilik prinsipləri, Azərbaycanın maraqları ilə uzlaşmayan siyasətləri, ölkəni yenidən vassallığa sürükləməyə yönələn məramları AXC-Müsavat cütlüyünün iqtidarı dövründə daha geniş miqyasda davam etdirildi. Dövlət idarəçiliyinin nə təcrübəsini, nə də ki nəzəriyyəsini anlayan, əvəzində, ölkənin müqəddəratını saysız "eksperimentlərin" hədəfinə çevirən, buna qədərki həyat, peşə fəaliyyətlərində daim uğursuzluqla qarşılaşan, intellektual potensialları, dünyagörüş səviyyələri çayxana miqyasından kənara çıxmayan, siyasətə macəraçılıq məşğuliyyəti, idarəçiliyə isə "istənilən savadsız, təhsilsiz, təcrübəsiz adamın baş çıxaracağı asan iş" kimi yanaşan "meydan qəhrəmanlarından", əslində, daha nə gözləmək olardı ki?

Küçədən meydana, oradan isə birbaşa dövlət idarəçiliyinə keçidin anormallığı məntiqi sonluqla bitdi. Lakin AXC-Müsavat cütlüyünün yaratdığı siyasi böhran yalnız bu avantürist qüvvələrin iflası ilə tamamlanmırdı. Onlar hakimiyyətdən Azərbaycana ən böyük siyasi, iqtisadi, hərbi zərbələr vuraraq ayrıldılar.

Birmənalı olaraq demək olar ki, iqtidarda olduqları dövrdə Ə.Vəzirovun, A.Mütəllibovun komandası və AXC-Müsavat cütlüyü, həqiqətən də, Azərbaycan dövlətinə və xalqına xidmət etsəydilər, şəxsi maraqlarını və ambisiyalarını kənara qoyub öz vəzifə səlahiyyətlərini düzgün yerinə yetirsəydilər, müstəqilliyin ilk illərində rastlaşdığımız və fəsadlarını bu gün də yaşadığımız problemlər hələ geniş miqyas almamış, elə o zaman aradan qaldırılar, nəticələri ağrılı, faciəli olmazdı. Təəssüf ki, son 13 illik fəaliyyətimizi biz, əsasən, məhz həmin dövrdə buraxılan səhvlərin, Azərbaycana vurulan zərbələrin nəticələrinin aradan qaldırılmasına sərf etmişik. Əgər səbatsız rəhbərlərin sayəsində yaranan, genişlənən bu problemlər olmasaydı və fəaliyyətimizin əsas hissəsini bu çətinliklərin aradan qalxmasına yönəltməsəydik, bu gün ölkəmizin inkişafı, qazandığımız nailiyyətlər də indikindən daha böyük, möhtəşəm olardı. Təsadüfi deyil ki, 1988-1993-cü illərdə ən acı günlərini yaşamış Azərbaycan xalqı bu üzdəniraq siyasətçilərin əsarətindən xilas olmasını tarixə Qurtuluş kimi həkk edib və ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan düzgün siyasi seçimi əsasında xaosdan tərəqqiyə keçid mərhələsinin bünövrəsini qoyub.

***- Elmi əsərlərinizdə, tədqiqatlarınızda Qurtuluş salnaməmizi 1969-cu ildən başlamış milli intibah missiyasının ikinci mərhələsi kimi səciyyələndirirsiniz. Bu iki tarixi dövr arasında hansı əlaqə var?***

- Qeyd etdiyiniz hər iki tarixi dövr zaman və ictimai-siyasi formasiya baxımından bir-birindən nə qədər fərqli olsa da, Heydər Əliyevin Azərbaycana fədakar xidməti və həmin illərdə ölkəmizin o vaxta qədər mümkün olmamış miqyasda nailiyyətlər qazanması yönümündən oxşardır. Bu, daha doğrusu, eyni missiyanın, sadəcə, iki mərhələsidir.

Heydər Əliyev 2003-cü il oktyabrın 1-də xalqa etdiyi son müraciətində öz fəaliyyətinin əsas prinsiplərini belə müəyyənləşdirirdi: **"Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".** 1969-1982 və 1993-2003-cü illərin tarixi xronologiyası kontekstində bu fikirlərə baxsaq, həqiqətən də, millətə xidmətin ən bariz, parlaq nümunəsini əsaslandırmış olarıq.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyini ölkəmizin perspektiv müstəqilliyinə hazırlıq mərhələsi və bir neçə onillik sonra qarşılaşacağımız labüd iqtisadi, siyasi, ictimai problemlərin əvvəlcədən həll edilməsi dövrü kimi səciyyələndirərdim. Sovet İttifaqının digər imperiyalardan fərqli özəlliyi onda idi ki, bu ölkəyə daxil olan müttəfiq respublikalar iqtisadi cəhətdən bir-biriləri ilə sıx bağlı idilər və heç biri, demək olar ki, ayrı-ayrılıqda vahid istehsal infrastrukturuna malik deyildi. Digər tərəfdən, beynəlmiləlçilik təbliğatı altında, əslində, elə siyasət yeridilmişdi ki, bu respublikaların əksəriyyətində kiçik etnik qrupların süni surətdə "güc mərkəzinə" çevrilmələri vüsət almışdı. Həm də tarixi, milli-mənəvi ənənələr, mədəni sərvətlər, xalqın inancı kimi dəyərlər köhnəliyin qalığı adı altında

vətəndaşlarımızın şüurlarından silinir, tarixi keçmişin unutdurulmasına cəhd göstərilir, bununla razılaşmayanlar isə təqib edilirdilər. Bu, 1969-cu ilin 14 iyul tarixinə qədər, yəni, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişinədək ölkəmizin və xalqımızın üzləşdiyi acı mənzərə idi.

Lakin Heydər Əliyevin idarəçilik fəlsəfəsi sələflərindən və digər müttəfiq respublikalardakı həmkarlarından tamamilə fərqli idi. O, Azərbaycanda hakimiyyətə Moskvanın canişini olmaq, respublikanı İttifaqın istismar obyektinə döndərmək, xalqı tarixi keçmişindən uzaqlaşdırıb vahid “sovet xalqı”nın bir zümrəsinə çevirmək üçün gəlməmişdi. Onun Azərbaycana xidmətlə bağlı konkret missiyası, fəaliyyət proqramı, respublikanın sabahı ilə bağlı aydın təsəvvürləri vardı. Nadir idarəçilik keyfiyyətlərinə, xarizmatik liderlik məziyyətlərinə, fitri istedada, böyük vətənpərvərlik xüsusiyyətlərinə malik olan Heydər Əliyev hələ xüsusi xidmət orqanlarında işlədiyi dövrlərdə sovet idarəçilik maşınının və ümumiyyətlə, bu sistemin forma və məzmununu, bütün incəliyini dəqiqliklə öyrənmişdi. O, Azərbaycanı sovet bürokratik aparatının total nəzarəti altında inkişaf etdirməyi, öz ideyalarını reallaşdırmaq üçün mərkəzdən dəstək almağı, xalqın milli mahiyyətini üzə çıxarmağı yaxşı bacarırdı.

Rasional düşüncə tərzinə malik olan Heydər Əliyev fəaliyyətində ədalətə və şəffaflığa xüsusi önəm verirdi. Təsadüfi deyil ki, birinci katib seçiləndən cəmi üç həftə sonra, 1969-cu ilin 5 avqustunda Mərkəzi Komitənin plenumunda nəinki Azərbaycan miqyasında, heç İttifaq məkanında görünməmiş tərzdə, aşkarlıq şəraitində mövcud olan problemləri göstərdi və onların həlli ilə bağlı ilkin proqramını elan etdi: **Respublika iqtisadiyyatının inkişafında müəyyən çətinliklərlə qarşılaşırıq, xalq tə-**

**sərrüfatının bəzi sahələri xeyli geri qalır. Bizim təxirəsalınmaz vəzifəmiz səhiyyədə, tikintidə və kənd təsərrüfatında yaranmış vəziyyəti dərindən təhlil etmək əsasında bütün zəhmətkeşləri vəzifələrinin yerinə yetirilməsindən ötrü səfərbərliyə almaq üçün lazımi tədbirlər görməkdən ibarətdir…**

**Azərbaycanın bütün İttifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən geri qalması ciddi təşviş hissi doğurur. Bunu nə ilə izah etmək olar? Aydındır ki, hər bir sahədəki çatışmazlıqların öz xüsusi səbəbləri vardır. Lakin təhlil göstərir ki, bir çox sahə üçün səciyyəvi olan ümumi səbəblər də az deyildir. Bu, hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Odur ki, müəssisələrə rəhbərliyin səviyyəsi aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur... Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onların haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda, kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar.**

Heydər Əliyev çatışmazlıqları necə cəsarətlə açıqlayırdısa, onların aradan qaldırılması istiqamətində də eyni əzmkarlıqla çalışırdı. 1970-ci illərin əvvəllərində “Literaturnaya qazeta”ya verdiyi məşhur müsahibəsində “**Qoy ədalət zəfər çalsın!**” deyən Heydər Əliyev Azərbaycanda, sözün əsl mənasında, ədalətin zəfər çalmasına nail oldu. Respublikamız bütün sahələr üzrə milli intibah mərhələsinə qədəm qoymuşdu. Ötən əsrin 60-cı illərində hasilatı əsaslı şəkildə aşağı düşən neft-qaz sənayesi həmin dövrdən etibarən yeni yüksəliş mərhələsinə qədəm

qoydu. Neftçıxarmada artım 3 dəfə, qaz sektorunda isə 2 dəfə çoxaldı. Azərbaycan rəhbərinin sayəsində ölkəmiz SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan əsas respublikalardan idi. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verilmişdir. Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmış, 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdır. 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi yaradılmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Ən mühüm məqamlardan biri də o idi ki, Heydər Əliyev Azərbaycanın iqtisadi muxtariyyətini təmin etmiş, respublikamızın istehsal potensialının bir hissəsini İttifaq şəbəkəsindən ayıraraq, əsaslı şəkildə müstəqilləşdirmişdi.

Ulu öndərin təşəbbüsü ilə 1969-1982-ci illərdə Azərbaycanın ən müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, bu təhsil ocaqlarında müxtəlif ixtisaslara yiyələnən tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdır.

Bu illərdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Heydər Əliyevin şəxsi təşəbbüsü

və qayğısı ilə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-ə yaxın ixtisas üzrə 15 min azərbaycanlı gənc ali təhsil almışdır. Ancaq 1969-cu ilə qədər bu rəqəm hər il cəmi 40-50 nəfər olurdu. Heydər Əliyev həm də bütün sahələrdə apardığı azərbaycanlılaşdırma prosesini respublikadan kənarda təhsil almağa göndərilən tələbələrin tərkibinə də şamil etdi. Məsələn, 1969-cu ilədək bu tələbələrin tərkibində azərbaycanlıların sayı cəmi 40 faiz təşkil edirdisə, 1980-ci ildə bu göstərici 97,6 faizə qədər yüksəldi. Heydər Əliyev buna SSRİ-nin ali hərbi məktəblərinə oxumağa gedənlərin tərkibində xüsusi önəm verirdi. Təsadüfi deyil ki, o dövrdə SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından ciddi narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüş, Bakıda C.Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb fəaliyyətə başlamışdı.

Ölkənin paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və Respublika sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və İdman-Konsert Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarca ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.

Heydər Əliyev tam aydınlığı ilə bilirdi ki, xalqına milli-mənəvi dəyərlərini aşılamaq üçün, ilk növbədə, ona dilini

qaytarmaq və sevdirmək lazımdır. Hələ birinci katib kimi fəaliyyətə başlamasından cəmi 3 ay sonra - 1969-cu ilin noyabr ayında Azərbaycan Dövlət Universitetinin 50 illik yubiley mərasimində o vaxtadək qəbul olunmuş rəsmi qaydalara əsasən çıxışını rus dilində etmək əvəzinə, məhz Azərbaycan dilində nitq söylədi və bu dilin statusunu yüksəltdi. Respublikanın 1978-ci ildə qəbul edilən Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi elan olundu.

Həmin illərdə birinci katibin diqqət mərkəzində dayanan, himayəsində olan sahələrdən biri də tarix elmi idi. 1969-cu ilədək tam təhrif edilən, saxtalaşdırılan, müəmmalı erməni və rus mənbələri ilə "zənginləşdirilən" Azərbaycan tarixi məhz ulu öndərimizin sayəsində yenidən tədqiq olunmağa başladı, tarixçi alimlərə keçmişimizin tam dürüst araşdırılması üçün hər cür şərait yaradıldı. Milli mənsubiyyətimiz, xalqımızın formalaşma aspektləri kimi mühüm məsələlər məhz Heydər Əliyevin nəzarəti altında yenidən tədqiq edildi. Bu haqda nəşr olunan cild-cild kitablardan xəbərdar olan Kreml rəhbərliyi Azərbaycan tarixinə sovet tərzində yanaşmanı inkar edən tarixçi-alimlər barədə sərt tədbirlər görülməsini erməni millətçilərin köməyi ilə təşkil etsələr də, bunun əksinə olaraq, Heydər Əliyev onların hamısını yüksək dövlət mükafatları ilə təltif etdi.

Ümummilli liderimizin daha bir uzaqgörən siyasəti Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan üsuli-idarəsini bərpa etmək idi. Rəhbərimiz DQMV-də meydan sulayan erməni hikkəsini ustalıqla yatırtdı, vilayətdə partiya, sovet, hüquq-mühafizə, o cümlədən dövlət təhlükəsizliyi orqanlarında köklü dəyişikliklər etdi, yüksək vəzifələrə azərbaycanlı kadrlar təyin olundu. Vilayət 50 il ərzində ilk dəfə olaraq Azərbaycan təsirini,

azərbaycanlının gücünü hiss etdi. Heydər Əliyevin 1969-1983-cü illərdə Azərbaycana rəhbərlik etdiyi dövrün Dağlıq Qarabağla bağlı ən xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu müddətdə erməni millətçiləri, bir dəfə də olsun, torpaq iddiasını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və onların iki xalq arasında münasibətləri gərginləşdirmək cəhdlərinə imkan verilmədi. Təsadüfi deyil ki, akademik Aqanbeqyanın M.Qorbaçovun Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə ilkin razılıq verməsi barədə bəyanatı və bununla da münaqişənin ilkin qığılcımının közərməsi məhz Heydər Əliyevin Siyasi Büro üzvlüyündən istefasından cəmi üç həftə sonra baş verdi.

Heydər Əliyevin Azərbaycan miqyasında nail olduğu böyük müvəffəqiyyətlər ona İttifaq miqyasında nüfuz qazandırır, qabiliyyətli və peşəkar kadr kimi əhəmiyyətini artırırdı. Məhz bu səbəbdən də mərkəzi rəhbərliyin etimadı ilə Heydər Əliyev Siyasi Büronun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini, eləcə də, SSRİ Ali Soveti Sədrinin müavini kimi yüksək vəzifələrə qədər yüksəldi. Ona dünyanın altıda birini təşkil edən və onlarca ölkəni təsirində saxlayan nəhəng bir dövlətin iqtisadi-sosial sahəsinə rəhbərlik həvalə edilmişdi. Həmin illərdə İttifaqda həyata keçirilən bütün böyük layihələrin müəllifi və icraçısı da məhz ulu öndərimiz idi. Siyasi Büronun üzvü kimi İttifaqın ictimai-siyasi taleyini müəyyənləşdirən əsas simalardan biri olaraq, ölkənin müsəlman-türk xalqlarının himayədarına, dəstəkçisinə çevrildi. Ən əsası isə, tutduğu yüksək vəzifələr Heydər Əliyevə bütün varlığını həsr etdiyi Azərbaycan dövlətinə və xalqına daha geniş xidmət etməsinə imkan yaradırdı. 1982-1987-ci illərdə Azərbaycanda gedən quruculuq proseslərinə, yeni müəssisələrin açılmasına, iqtisadi artımın təmininə İttifaqdan ayrılan vəsait ciddi surətdə artırılmışdır.

Heydər Əliyevin birinci hakimiyyəti dövrü Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir və bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişafın, əldə edilən nailiyyətlərin əsası da məhz o illərdə qoyulubdur.

***- Azərbaycanın formal deyil, əsl müstəqillik tarixinin məhz Heydər Əliyev dühası ilə bağlı olduğunu, təməlinin isə hələ ötən əsrin 70-80-ci illərində qoyulduğunu əsaslandırdınız. Bəs 37 il öncə başlanan Qurtuluş missiyası son 13 il ərzində hansı mühüm nailiyyətlərlə əlamətdar oldu?***

- Bu dövrün ən mühüm xüsusiyyəti, uğuru odur ki, Azərbaycan son 13 ildə özünün dövlət müstəqilliyini qoruyub saxlaya bildi, onu möhkəmləndirdi və inkişaf etdirdi. Ölkəmizdə hüquqi dövlət quruculuğu prosesi məqsədyönlü, müasir və beynəlxalq prinsiplərə uyğun şəkildə həyata keçirildi və artıq səmərəli nəticələrini verir. Vətəndaş cəmiyyətinin inkişafı, insan hüquq və azadlıqlarının təminatı sahəsində qazanılan nailiyyətlər ölkədə aparılan siyasi islahatların, demokratik dəyişikliklərin tərkib hissəsidir. Bu müddətdə keçirilən üç prezident, üç parlament, iki bələdiyyə seçkisi və iki referendum demokratik, şəffaf və ədalətli şəkildə baş tutmuşdur. Son üç il ərzindəki seçkilər isə beynəlxalq təsisatlar tərəfindən yüksək dəyərləndirilən Seçki Məcəlləsi əsasında keçirilmiş və xarici təşkilatlar, müşahidəçilər tərəfindən demokratiya yolunda qazanılan inamlı nailiyyət kimi qiymətləndirilmişdir. Ölkədə vətəndaş sülhünün, milli həmrəyliyin yaradılması istiqamətində ciddi uğurlar əldə edildi. İctimai-siyasi hərc-mərcliyə son qoyuldu, sabitlik dönməz xarakter aldı, bütün qanunsuz silahlı dəstələr zərərsizləşdirildi. Siyasi barışığın möhkəm-

ləndirilməsi yönümündə aparılan tədbirlər çərçivəsində həbsdə olan minlərlə insan əfv edilərək, cəmiyyətdə özünü yenidən təsdiqləmək şansı qazandı.

Postsovet məkanında ilk olaraq Azərbaycanda səmərəli aqrar islahatlar aparıldı və tariximiz ərzində birinci dəfə məhz Heydər Əliyevin hakimiyyəti dövründə torpaqlar təmənnasız olaraq kəndliyə verildi. Kənd təsərrüfatı tənəzzüldən qurtularaq inkişaf mərhələsinə qədəm qoydu. Böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı və bu gün respublikamız iqtisadi inkişafın dinamikasına və ümumi daxili məhsulun artım sürətinə görə dünya ölkələri arasında öncül mövqeyini saxlayır. Şəffaf özəlləşdirmə prosesi nəticəsində ölkədə xüsusi mülkiyyətə keçidin sağlam təməli qoyuldu və özəl sektorun inkişafına hər cür şərait yaradıldı. Səfalət həddində yaşayan vətəndaşlarımızın sosial güzəranı son 13 il ərzində əsaslı şəkildə dəyişdi, onların yaşayış səviyyəsi yüksəldi, əhalinin maaşlarının, təqaüdlərinin, müavinətlərinin mərhələli artımı davamlı hal aldı. Dövlət büdcəsinin həcmi utandırıcı rəqəmlərdən bugünkü 6 milyard manatdan artıq vəsaitə qədər dəyişdi. Neft və qaz sektoru maraqlı qüvvələrin inhisarından çıxarılaraq, xalqın sərvəti kimi millətin rifahının yüksəldilməsinə verildi. Hamının əsrin möcüzəsi kimi qəbul etdiyi "Əsrin müqaviləsi"nin nailiyyətləri ötən illərədək əfsanə sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi ilə əlamətdar oldu.

Azərbaycan indi beynəlxalq birliyə bərabərhüquqlu üzv kimi daxil olaraq, yeni dünya düzənini müəyyənləşdirən fövqəldövlətlərin fəal, etibarlı tərəfdaşı statusundadır. Düzgün, tarazlaşdırılmış xarici siyasət çevik diplomatiya, əlahiddə praqmatiklik

və xüsusi uzaqgörənliklə aparıldı və bunun nəticəsi olaraq, Azərbaycan Cənubi Qafqaz kimi həssas bir bölgənin lider ölkəsinə çevrildi. Müxtəlif güc mərkəzlərinin geosiyasi maraqlarının çarpazlaşdığı məkanda əsas söz sahibi kimi çıxış edən Azərbaycanın iştirakı olmadan indi bölgədə hansısa qlobal sosial-iqtisadi, enerji layihəsi həyata keçirmək mümkün deyildir.

Bu müddətdə Azərbaycanda elmin, təhsilin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın inkişafına böyük önəm verildi, milli-mənəvi dəyərlərin qorunmasının prioritetliyi təmin olundu. Bu sahədə əldə edilən uğurlar ölkəmizin daha işıqlı sabahına əsaslı inam yaradır. Qeyd etdiyimiz müddətdə xalq-hakimiyyət münasibətləri, vətəndaş-dövlət əlaqələri daha da təkmilləşdirildi, qarşılıqlı etimad şəraitində bir-birinə yaxınlaşdı. Vətəndaşlar anladılar ki, bu iqtidarın əsas vəzifəsi, missiyası məhz ona xidmətdir, xalqın problemlərini həll etməkdir.

Son 13 ilin nailiyyətlər silsiləsində önəmli amillərdən biri də ordu quruculuğudur. 1993-cü ilədək hansısa mafioz qrupların, siyasi təşkilatların nəzarəti altında olan nizamsız silahlı dəstələrdən təşkil edilən Azərbaycan ordusu sonrakı müddətdə yenidən quruldu, maddi-texniki bazası təkmilləşdirildi, modernləşdi, hərbi hazırlıq səviyyəsi yüksəldi və müasirləşdi, əsgər və zabit heyəti Qarabağ cəbhəsində uğur qazanmağa layiq səviyyədə formalaşdırıldı. Bu uğurlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ölkəmizin mövqeyini daha da möhkəmləndirdi. Problemin həlli istiqamətində təbliğat və informasiya yönümündə həyata keçirilən tədbirlər gözlənilən nəticəni verdi. Əgər əvvəlki iqtidarların səhv və xəyanətkar fəaliyyətləri nəticəsində dünya ictimaiyyəti Azərbaycanı "barbar, vəhşi, istilaçı dövlət" kimi qəbul edirdisə,

indi beynəlxalq birlik haqq səsimizi daha yaxından eşidir və ölkəmizi işğala məruz qalmış, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan dövlət kimi tanıyır. Təqdirəlayiq haldır ki, indi bütün dövlətlər və təşkilatlar münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həlli modelini dəstəkləyir.

Heydər Əliyev bu millətin inkaredilməz qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan alternativsiz lider, millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsərləridir. Ulu öndərimiz deyirdi: **“Yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.** Bu müqəddəs amala bütün həyatı boyu sadiq qalan Heydər Əliyev elə böyük vətənpərvər, müdrik dövlət xadimi idi ki, xalqının və dövlətinin müqəddəratını yalnız öz fəaliyyəti dövrü üçün düşünmürdü. Bütün parametrlərə görə haqlı olaraq dünyanın ən böyük Azərbaycanlısı adını daşımağa layiq olan Heydər Əliyev Azərbaycanın nailiyyətlərinin, zəfərlərinin sonrakı onilliklərdə də davam etməsi, müəllifi olduğu milli inkişaf strategiyasının bəhrələrinin gələcək nəsillər üçün də daha əlamətdar olması naminə fədakarlıqla çalışmışdır. Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, dövlətçilik xətti, siyasi məktəb yaratmışdır. Bu irsin ən görkəmli nümayəndəsi, Heydər Əliyev siyasi məktəbinin layiqli təmsilçisi cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son üç ildə

milli intibahının şərəfli mərhələsini yaşayır. Bu gün xalqımız Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olmasına tam əmindir və inanır ki, Prezident İlham Əliyev ölkəmizi Heydər Əliyev yolu ilə daha işıqlı sabahlara əzmlə aparır.

***- Milli intibah dövrünün son üç ili Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi zamanı əhatə edir. Bu müddət dövlətimizin və xalqımızın taleyində hansı məqamlarla, Azərbaycanın inkişafı istiqamətində nə kimi proseslərlə yadda qaldı?***

- Hələ üç il öncə, prezident seçkilərindən iki həftə əvvəl ümummilli liderimiz Azərbaycan xalqına müraciətində siyasi varisini elan etməklə yanaşı, həm də ölkəmizin perspektiv inkişafının, dövlət müstəqilliyinin möhkəmliyinin etibarlı əldə olacağına qəti inamını ifadə edirdi: **"Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

Azərbaycan xalqı özünü daim borclu bildiyi rəhbərinin bu müraciətinə cavab olaraq, eyni zamanda, ölkə həyatının ən vacib sahələrində özünü peşəkar və qabiliyyətli insan kimi təsdiq etmiş cənab İlham Əliyevə böyük etimad göstərdi, onu Prezident seçdi. İlham Əliyev ölkə ictimaiyyəti və xarici ictimaiyyət üçün 2003-cü ilin 15 oktyabrından çox əvvəllər - hələ 1994-cü ildən tanış idi. Həmin il Dövlət Neft Şirkətinə vitse-prezident, daha sonra isə birinci vitse-prezident təyin edilən İlham Əliyev bugünkü nailiyyətlərimizin əsas rəhni sayılan yeni neft strategiyasının uğurla reallaşmasında Heydər Əliyevin ən yaxın yardımçısı olmuşdur. 1995-ci ildə Milli Məclisə deputat seçildikdən sonra ictimai fəaliyyətini daha da genişləndirərək, seçicilərinin mənafeyini tam ödəməyə və Azərbaycanın haqq səsini Avropa Şurası Parlament Assambleyasının yüksək tribunasından səsləndirməyə müvəffəq oldu, bu beynəlxalq təşkilatın sədr müavini, büro üzvü seçildi. 1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə isə sədrin birinci müavini seçilən, həmçinin 2000-ci ilin parlament seçkilərində hakim partiyanın proporsional seçki siyahısına uğurla rəhbərlik edən İlham Əliyev bu müddətdə yalnız partiya həyatında deyil, bütünlüklə siyasi proseslərdə fəal mövqeyi, təşkilatçılıq bacarığı, liderlik qabiliyyəti ilə özünü təsdiq etmişdi.

**12 il əvvəl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək ictimai fəaliyyətə başlayan İlham Əliyev üç il öncə də "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm"** söyləyərək, Azərbaycan

tarixinə yeni missiya ilə qədəm qoydu. Cənab İlham Əliyevin prezident seçildiyi ölkə, özünün də qeyd etdiyi kimi, artıq böyük problemləri geridə qoyan, ziddiyyətli tarixi mərhələləri uğurla keçən, mühüm islahatların ilkin bəhrəsini görən, vətəndaş sülhünü və sosial rifahı təmin edən, demokratik dəyərləri mənimsəyən sivil dövlət idi. Yəni, respublikada nizamlanası problemlərin böyük əksəriyyəti həll olunmuş, dövlət quruculuğu prosesi bütün istiqamətlər üzrə uğurla davam etdirilmiş, daha böyük nailiyyətlərin qazanılması üçün əlverişli sosial-siyasi zəmin formalaşdırılmışdır. Prezidentin etiraf etdiyi kimi, onun dövlət başçısı seçilməsində xalqın böyük inamını təmin edən başlıca amil məhz Heydər Əliyevin başladığı yolu davam etdirmək idi. Ölkə rəhbəri andiçmə mərasimindəki çıxışının əsas leytmotivi ilə də qarşıdakı beş ilin perspektiv xronologiyasını müəyyənləşdirirdi: "**Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra daha da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir".**

Prezidentin ötən üç illik fəaliyyəti bu bəyanatın tam doğrulduğunun əyani göstəricisidir. Ölkə rəhbəri kimi fəaliyyətə başladıqdan iki həftə sonra hökumət üzvləri ilə keçirdiyi müşavirədə cənab İlham Əliyev qarşıdakı beş il ərzində iqtidarın reallaşdıracağı ən vacib məqamları belə müəyyənləşdirmişdi: **"Azərbaycanda bir çadır şəhərciyi belə qalmayacaq, məcburi köçkünlərin sosial müdafiəsinin təşkili əsas məsələ olacaq; yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcək; 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacaq; regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacaq;**

**sahibkarlığa dövlət qayğısı artırılacaq; transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacaq və sair".**

Həqiqətən də, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin yüksəldilməsi Prezidentin fəaliyyətinin prioritet məqamına çevrilmişdir. Bu təbəqənin müavinətlərinin həcmi artırılmaqla yanaşı, çadır şəhərciklərində və yük vaqonlarında məskunlaşmış məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində də tədbirlər görülmüşdür. 3860 ailənin yeni qəsəbələrə köçürülməsi, onların müvafiq yaşayış şəraiti və vasitələri, həmçinin iş yerləri ilə təmin edilməsini nəzərdə tutan Prezident sərəncamı artıq uğurla icra edilir və yüzlərlə ailə yeni mənzillərin sakininə çevrilibdir. Yoxsulluğun səviyyəsi son üç il ərzində 49 faizdən 29 faizə enmişdir. Yürüdülən məqsədyönlü siyasət nəticəsində ölkədə əhalinin məşğulluq problemi əsaslı şəkildə həll edilmiş, üç il müddətində 500 minə yaxın yeni iş yeri açılmışdır. İqtisadi inkişaf son üç il ərzində böyük dinamika ilə müşayiət edilmişdir. Təkcə cari ilin 8 ayı ərzində ÜDM 34,4 faiz artaraq 10,3 milyard manata, adambaşına düşən həcmi isə 32,8 faiz artaraq 1233,5 manata (1363,6 ABŞ dolları) çatmışdır. Əsas kapitala yönəldilən investisiyalar 11,7 faiz, sənaye məhsulunun həcmi 40,5 faiz, xarici ticarət dövriyyəsi 41 faiz, dövlət büdcəsinin gəlirləri 88,5 faiz, əhalinin gəlirləri 20,6 faiz, adambaşına gəlirlər 19,2 faiz artmışdır. İlin sonuna ÜDM 18,1 milyard manata, onun adambaşına düşən həcminin isə ilk dəfə olaraq 2400 dollara çatacağı gözlənilir. Hazırda ölkənin valyuta ehtiyatları 2,5 milyard ABŞ dollarından çoxdur. 2006-cı ilin sonuna qədər ölkə iqtisadiyyatına 6 milyard manatdan çox

sərmayə yatırılacaqdır. Əhalinin maaşları, təqaüdləri dinamik surətdə artır və 2006-cı ilin sonuna qədər orta aylıq əmək haqqı 25 faiz artaraq 155,5 manat təşkil edəcəkdir.

Son üç il ərzində Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına xüsusi əhəmiyyət vermişdir. 2004-cü il 11 fevral tarixli Prezident Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" həyata keçirilməsi regionların kompleks inkişafına, infrastruktur sahələrinin yenidən qurulmasına, yeni istehsal və emal müəssisələrinin, obyektlərin yaradılmasına, iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə təkan vermişdir. Bu müddətdə sahibkarlığa qayğı da dövlətin vacib məsələsi kimi gündəlikdə olmuşdur. Cari ilin ilk 9 ayı ərzində respublikanın 57 şəhər və rayonunda 1391 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 74,8 milyon manat güzəştli kredit verilmişdir. Kreditlər sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, kəndli-fermer təsərrüfatlarının, turizm infrastrukturunun, xidmət sahələrinin inkişafı layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. Maliyyələşdirilmiş layihələrin 85 faizdən çoxu respublikanın regionlarının payına düşür və bu layihələrin 87 faizdən artığı istehsal və emal yönümlüdür.

Heydər Əliyevin adını daşıyan və tarixə məhz ümummilli liderimizin təkcə Azərbaycana deyil, həm də bölgənin digər dövlətlərinə və xalqlarına böyük töhfəsi kimi düşən Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin istismara verilməsi Prezident İlham Əliyevin mühüm nailiyyətlərindəndir. Yeni neft strategiyasının ən fəal icraçısı olmuş, son üç il ərzində isə onun

həyata keçirilməsinə bilavasitə başçılıq edən ölkə rəhbərinin böyük siyasi məharəti, diplomatik bacarığı sayəsində istifadəyə verilən, əsrin ən böyük mühəndis qurğularından sayılan bu neft kəməri Azərbaycanın inkişafında önəmli amil olacaqdır. Təkcə bir faktı xatırladım ki, qarşıdakı 20 il ərzində bu kəmər vasitəsilə nəql ediləcək Azərbaycan neftindən dövlət büdcəmizə 140 milyard ABŞ dollarından artıq əlavə maliyyə vəsaiti gələcəkdir. Bu gün qeyri-neft sektorunun inkişafı məsələsi də hökumət qarşısında dayanan və artıq öz müsbət nəticəsini verən ən vacib məqamlardandır.

Ötən üç il ərzində Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin siyasətini bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində, habelə milli-mənəvi, dini dəyərlərin qorunması və möhkəmləndirilməsi istiqamətində də davam etdirmişdir. Bu yöndə müvafiq fərman və sərəncamlar imzalayan dövlətimizin başçısı mühüm tədbirlərin və açılış mərasimlərinin iştirakçısı olmaqla bir daha nümayiş etdirdi ki, Heydər Əliyevin daim himayəsində, şəxsi nəzarətində və qayğısında olan sahələr bu xəttin davamçısının da diqqət mərkəzində duracaqdır.

Prezident İlham Əliyev bu müddət ərzində Azərbaycanın bütün bölgələrinə səfərlər etmiş, yüzlərlə sənaye, istehsal müəssisəsinin, məktəbin və digər obyektlərin açılışında iştirak etmiş, yerli əhali ilə birbaşa ünsiyyət yaratmışdır.

Vətəndaşlar onları narahat edən, düşündürən qayğılar, problemlər barədə Prezidentə müraciətlər etmiş və qısa müddət ərzində onlar tam həllini tapmışdır. Prezident İlham Əliyev belə fəaliyyət metodu ilə ümummilli liderimiz Heydər Əliyevin ənənələrini layiqincə davam etdirdiyini nümayiş

etdirmiş, xalq-rəhbər münasibətlərinin daim yaxın və səmərəli olacağına təminat yaratmışdır.

Ötən müddət ərzində xarici siyasət də dövlət başçısının xüsusi diqqət mərkəzində olmuşdur. Cənab İlham Əliyev Azərbaycan diplomatiyasının əsas istiqamətlərini belə müəyyənləşdirib: **Azərbaycanın inkişafı, nailiyyətləri barədə dünya birliyini ətraflı məlumatlandırmaq və xaricdəki diasporumuzu, lobbimizi fəallaşdırmaq; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin maraqlarına uyğun nizamlanması üçün müasir təbliğat metodları ilə çevik diplomatik iş aparmaq; Avropanın şərq sərhədi olan ölkəmizin sivil dünyaya, Qərb ailəsinə inteqrasiyasını daha sıx surətdə reallaşdırmaq; bölgədə təhlükəsizliyin və regionun inkişafı naminə əməkdaşlıqda maraqlı olan bütün dövlətlərlə daha geniş münasibətlər qurmaq; Azərbaycana bəzən tətbiq edilən ikili standartları aradan qaldırmaq üçün qətiyyətli siyasəti davam etdirmək; beynəlxalq terrorizmə və digər bu kimi elementlərə qarşı mübarizədə həmişə ön cərgədə olmaq.**

Azərbaycanda bərqərar olan ictimai-siyasi sabitlik, aparılan demokratik islahatların uğurlu nəticələri ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirir. Əhəmiyyətlisi odur ki, Azərbaycanı Cənubi Qafqaz regionunun ən azad dövləti kimi dəyərləndirən Prezident bölgədə marağı kəsişən ölkələrlə münasibətlərin yalnız respublikamızın maraqlarını təmin edən siyasət əsasında qurulacağını birmənalı şəkildə bəyan edibdir: **"Bu gün bizim ölkədə maraqları olan dövlətlər Azərbaycana yalnız ona görə gəlirlər ki, onların maraqları bizim maraqlarımızla üst-üstə düşür. Maraqlarımız üst-üstə**

**düşməyəndə bizim ölkədə onlara yer tapılmır. Hər şey qarşılıqlı əməkdaşlıq əsasında olmalıdır".**

Ötən üç ili xalqın cənab İlham Əliyevdən gözlədiyi fəaliyyətin uğurla reallaşma mərhələsi, eləcə də Prezidentin verdiyi vədlərin böyük intensivliklə həyata keçməsi müddəti kimi səciyyələndirirəm. üçillik zaman kəsiyində Prezident Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərin, sabitliyin, inkişafın davamlı olması üçün konkret qərarlar qəbul etdi və müvafiq prosesləri həyata keçirdi. Liderlik keyfiyyətlərinə heç kəsin şübhə etmədiyi cənab İlham Əliyevin qətiyyətli rəhbər, xalqına işləyən dövlət adamı, yeni idarəçilik tələblərinə əsaslanan praqmatik islahatçı xüsusiyyətlərini isə təkcə ölkə vətəndaşları deyil, həm də Prezidentimizi diqqətlə müşahidə edən xarici ekspertlər, analitiklər, habelə dövlət başçıları da etiraf etdilər. Son üç ilin ümumiləşdirilmiş məntiqi nəticəsi isə Heydər Əliyevin siyasi varisi, ondan sonra ümumxalq dəstəyi ilə prezidentlik missiyasını həyata keçirən İlham Əliyevin həm vətəndaşların, həm də ona özü qədər inanan sələfinin etimadını tam doğrultması, Azərbaycanın layiqli rəhbəri olduğunu təsdiq etməsidir.

***- Ramiz müəllim, ölkəmizin beynəlxalq nüfuzunun artmasını təmin edən əsas şərtlər sırasında ictimai-siyasi sabitliyin möhkəmliyini qeyd etdiniz. Bəs, bu möhkəm ictimai-siyasi sabitliyin fonunda ölkədə siyasi münasibətləri, xüsusən də iqtidar-müxalifət münasibətlərini necə səciyyələndirərdiniz?***

- Bu gün ölkədə yaradılmış ictimai-siyasi sabitlik ümummilli liderimiz Heydər Əliyevin uğurlu fəaliyyətinin əsas təzahürlərindən sayıla bilər. Lakin biz sabitlik dedikdə, ölkəmizdə kriminogen durumun tam nəzarətə götürülməsi, cinayətkarlığa

qarşı səmərəli mübarizənin təşkili, - qeyd edim ki, bu sahələr üzrə əldə edilmiş müsbət nəticələrə görə, Azərbaycan MDB və Şərqi Avropa məkanında ən yaxşı göstəriciyə malikdir, - kimi vacib məqamlarla yanaşı, həm də ictimai mühitdə hökm sürən sağlam ab-havanı, siyasi məkanda cərəyan edən konstruktiv münasibətləri də nəzərdə tuturuq.

Azərbaycanda möhkəm vətəndaş sülhü, milli həmrəylik təmin olunubdur. 1988-ci ildən sonra ölkədə gedən siyasi ziddiyyətlərin nəticələrinin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı etimadın yaranması üçün həm ümummilli liderimiz Heydər Əliyev, həm də Prezident İlham Əliyev tərəfindən mühüm tədbirlər həyata keçirilibdir. Buna əyani misal olacaq yüzlərlə hadisədən yalnız birini xatırladaq ki, cənab İlham Əliyev qısa müddətdə 8 əfv fərmanı imzalayaraq, 1300-ə yaxın məhkumu əfv etmişdir. Bu fərmanların hətta ağır dövləti cinayətlərdə, dövlətin və xalqın maraqlarına zidd fəaliyyətdə, sui-qəsdlərdə iştirak etmiş məhkumlara da şamil edilməsi cənab İlham Əliyevin idarəçilik fəlsəfəsində humanizm və insanpərvərlik ideyalarının göstəricisidir. Prezident bu təşəbbüslərin məğzini belə izah edir: **“Mənim üçün hər bir vətəndaş əzizdir. Mən keçmişlə bugünün arasında görünməyən bir xətti görürəm. Keçmişdə çox səhvlər olub, Azərbaycan vətəndaş müharibəsi həddində olub. Mən cinayət törətmiş şəxsləri də azad etmişəm. Ona görə yox ki, hesab edirəm onlar siyasi məhbusdur. Mən Azərbaycanda qarşıdurma əhvali-ruhiyyəsinin aradan götürülməsini istəyirəm. Bizim qarşımızda yeni vəzifələr durur, ölkəmizi inkişaf etdirməliyik, insanlarımızı səfərbər etməliyik. Biz milli barışığa nail olmuşuq və gərək bunu gücləndirək. Keçmiş ədavət və**

**ziddiyyətlər tarixdə qalsın. Bu, mənim niyyətimdir".** Göründüyü kimi, iqtidarın bu sahədə gördüyü işlər genişmiqyaslı, əhatəli və olduqca səmərəlidir.

İqtidar-müxalifət münasibətləri anlayışı isə, zənnimcə, yeni yanaşmanı tələb edir. Əgər biz indiyədək bu münasibətlərdən bəhs edərkən, bu iki siyasi qüvvə arasında hökmən aparılmalı olduğu iddia edilən dialoqu, diskussiyaları, müzakirələri əsas götürürdüksə, indi artıq bu məsələni yeni dövrün tələbləri baxımından nəzərdən keçirməliyik. İqtidar-müxalifət münasibətləri, bu siyasi düşərgələrin hər birinin ayrı-ayrılıqda ölkədəki siyasi proseslərə təsiri, demokratik dəyişikliklərə töhfələri, siyasi təsisatların, vətəndaş cəmiyyətinin formalaşması prosesində fəallığı kontekstində əks etdirməlidir. Lakin bu proseslərdə iştirak birtərəfli olduqda, yəni iqtidarın zaman ilə ayaqlaşan siyasi fəaliyyət yürütməsi müqabilində müxalifətin missiyasının yalnız siyasi möhtəkirliklə, fəaliyyətdə qanunsuz metodlardan istifadə ilə, yeni siyasi şəraitlə ayaqlaşa bilməməklə məhdudlaşması, şübhəsiz ki, bu münasibətlərin normal məcrasını mümkünsüz edir.

Son 13 ildə biz müxalifətin (dağıdıcı, radikal müxalifəti nəzərdə tuturam) hansısa bir ümummilli proses, yaxud da adi bir məsələ barədə konstuktiv təklifini, əsaslandırılmış təşəbbüsünü, problemlərdən çıxış yolu barədə layihəsini görməmişik. Müxalifət Azərbaycanda gedən hüquqi dövlət quruculuğu prosesinə, demokratik islahatlara zərrə qədər də töhfə verməyib, əksinə, daim bu dəyişikliklərə mane olmağa cəhd göstərib, özünü ölkə həyatının müsbət gedişindən tam təcrid edibdir. Müxalifət düşərgəsi bu gün yekcins deyil, müxtəlif qrupları, fərqli mənafeləri əks etdirir. Lakin bu qrupların əksəriyyəti,

zorən özünü aparıcı qüvvə kimi sırıyan hissəsi köhnə təfəkkürün, meydan illərinin düşüncə və mübarizə tərzinin daşıyıcılarıdır. Onlar təşkilatlarının daxilində yeniləşmə ilə bağlı təşəbbüslərə necə müqavimət göstərirlərsə, o cür də ölkə həyatında baş verən müasirləşmə, modernləşmə prosesinə qarşı çıxmağa cəhd edirlər. Ümumiyyətlə, bu gün radikal müxalifət ciddi uğursuzluq zolağında, böyük böhran məngənəsindədir. Son 13 ildə keçirilən bütün seçkilərdə məğlubiyyətə uğrayan radikal müxalifətin iflası göz önündədir.

Daxili hərc-mərclik, qarşılıqlı ittihamlar və inamsızlıq müxalifətin əsas göstəricisidir. İndi müxalifət partiyaları yeni parçalanma mərhələsinə qədəm qoyublar. AXCP, ADP, AMİP və digər partiyaların hər birinin vaxtilə bir neçə qrupa parçalanması prosesi bu gün də təkrarlanır. Ən acınacaqlı aqibətlə isə Müsavat Partiyası üzləşibdir. Cidd-cəhdlə özünü "hakimiyyətə hazır partiya" kimi ictimai rəyə sırımağa cəhd edən bu təşkilatda həmişə cərəyan edən daxili ziddiyyətlər son vaxtlar rəhbər şəxslərin ictimai müzakirələrdə bir-birilərini xəyanətdə, satqınlıqda, regionçuluqda ittihamları ilə davam edir. Partiyanın yüksək funksionerləri artıq çəkinmədən öz rəhbərlərini qətiyyətsizlikdə, qrupların girovuna çevrilməkdə günahlandırır, istefa ilə təhdid edirlər. Bu partiyanın daxilində səslənən qarşılıqlı ittihamlar, funksionerlərin bir-biriləri ilə kəskin diskussiyalarının sərt tonu qarşıdakı dövrdə Müsavatı gözləyən məlum nəticəni indidən aydınlaşdırır.

Ümumiyyətlə, radikal müxalifət iqtidarla mübarizədə ideoloji baxımdan tam tərksilah olub elektoratını hər seçkidə əsaslı şəkildə itirir, üzvlərini artıq ümidli gələcəklə bağlı yalanlara inandıra bilmir, düşərgədaxili müttəfiqlik münasibətləri ən yaxşı

halda cəmi 3-5 ay davam edir, cəmiyyətə isə yeni heç bir şey vəd etmək iqtidarında deyildir. Son illərdə müxalifət partiyalarına yeni üzvlərin gəlməsi prosesi dayansa da, onların sıralarının tərk edilməsi kütləvi xarakter alıbdır. Əslində, bu gün ölkədə siyasi mübarizə iqtidarla müxalifət arasında yox, müxalifətin öz daxilində gedir. Bu qüvvələrin içində yeniləşmə tərəfdarı olan, keçmiş məğlubiyyətlərdən nəticə çıxarıb müasir mübarizə metodu seçməyə üstünlük verənlərə, iqtidarla münasibətləri sırf konstuktiv çərçivədə aparmaq niyyətində olanlara, siyasi fəaliyyətə əxlaq və mənəviyyat meyarlarını gətirməyə çalışanlara da təsadüf edilir. Onların sayı az olsa da, təşkilatları daxilində sıravi üzvlərin geniş dəstəyini qazana bilirlər və artıq rəhbərliyin köhnəlmiş mübarizə metodlarını dayandırmağı israrla tələb etməyə başlayıblar. Düzdür, bu yenilikçi qüvvələr qaragüruhun qarşısında məğlubiyyətə məhkumdurlar.

Ancaq unutmayaq ki, ölkə müxalifətinin yeni, sivil dəyərlərə əsasən konstruktiv fəaliyyət göstərməsinin vacibliyi artıq ictimai-sosial sifarişə çevrilib, eyni zamanda, bu, müxalifətin sıravi üzvlərinin uğursuzluq zolağından çıxmaq üçün partiya rəhbərlərindən əsas tələbidir.

***- Sizcə, radikal müxalifətin hələ də gündəlikdə saxladığı “rəngli inqilablar” ixracı avantürası nə zamansa reallaşa bilərmi?***

- Bu mövzu Azərbaycanda son 13 il ərzində heç vaxt aktual olmayıb, indi isə “rəngli inqilab”dan danışmaq olduqca gülünc və qeyri-ciddi təsir bağışlayır. Qısaca onu deyə bilərəm ki, siyasi səhnədə və partiya rəhbərliyində artıq bitməli olan fəaliyyətlərini süni formada uzatmağa cəhd edən “liderlər” bu

arzu ilə sıravi üzvlərini aldatmağa, qaranlıq və perspektivsiz siyasi gələcəklərini bu vasitə ilə uzatmağa çalışırlar. Azərbaycan xalqı "narıncı inqilab"ı son illərdə keçmiş postsovet ölkələrindən öncə, 13 il əvvəl yaşamış, xalqın inamını, etimadını itirən hakimiyyəti tarixin arxivinə göndərərək, Heydər Əliyevi dövlət idarəçiliyinə dəvət etmişdir. Özü də Azərbaycanda baş verən "narıncı inqilab" digər ölkələrdəki belə inqilablardan fərqli olaraq, müsbət nəticə vermiş, yəni, xalq gözlədiyi dəyişiklikləri real həyatında təsbit etmişdir.

Bu gün Azərbaycanda "rəngli inqilaba" nə ehtiyac var? Bu "inqilab" ölkədə nəyi dəyişməlidir? Digər tərəfdən, hətta kiçik kənd bələdiyyəsinə seçkilərdə belə uduzan müxalifət bu "inqilabı" hansı qüvvə ilə həyata keçirməyə hazırlaşır? Bu ritorik suallara cavab verməyə heç lüzum da yoxdur. Həm də unutmayaq ki, region dövlətlərində "narıncı inqilab"ları hazırlayan, həyata keçirən xarici ekspertlər, analitiklər ölkə mediasına müsahibələrində bizim müxalifətə dəfələrlə mesaj veriblər ki, bu ssenariləri Azərbaycanda tətbiq etmək üçün heç bir ictimai zəmin, elektoral baza və siyasi güc yoxdur.

Ancaq hesab edirəm ki, Azərbaycanda daxilində "rəngli inqilaba" ehtiyac duyan bir qüvvə var ki, o da radikal "kvazipartiyaların" özləridir. Bu təşkilatlar daxilindəki totalitar üsuli-idarəni, "hamı rəhbərin fikrini və mövqeyini bölüşməyə məhkumdur" avtoritar prinsipini, "kiçik padşahlar"ın böyük ambisiyalarını aradan qaldırmağın yolu məhz müxalif partiyaların daxili "narıncı inqilab"larından keçir.

***- İqtidar öz siyasi perspektivi və ictimai maraqları baxımından Yeni Azərbaycan Partiyasının fəaliyyətini necə əlaqələndirir? Ümumiyyətlə, üzvlərinin sayı baxımından ölkədə***

***lider olan YAP-ın fəaliyyətində keyfiyyət göstəriciləri həm də təşkilatın Siyasi Şurasının üzvü kimi Sizi qane edirmi?***

- Yeni Azərbaycan Partiyası cəmiyyətdə haqlı olaraq Heydər Əliyev Partiyası kimi tanınır. Bu təşkilat Azərbaycanın ən böhranlı, çətin dövründə Heydər Əliyevi xilaskar kimi görən, onun hakimiyyətə qayıdacağı təqdirdə ölkənin xaosdan qurtulacağına inanan insanların təşəbbüsü ilə yaradılıb və tarixi missiyasını uğurla həyata keçiribdir. Bu partiya yarandığı gündən düzgün siyasi fəaliyyət seçmiş, qurucusu olan liderin əsas prinsipi olan Azərbaycana layiqli xidməti özünün yeganə məramı kimi müəyyənləşdirmişdir. Tarixə ekskurs edərək xatırladım ki, 1992-ci ilin noyabr ayında ölkənin ən əsas müxalifət partiyası kimi fəaliyyətə başlayan YAP indiyədək siyasi mühitdə sivil, konstruktiv müxalifətçilik missiyasını həyata keçirən yeganə partiya olmuşdur. Həmin dövrdə hakimiyyətə ölkəni böhrandan çıxarmaq üçün çoxsaylı təkliflər verən, konkret təşəbbüslərlə çıxış edən partiya sədri və üzvləri bunun əvəzində adekvat münasibət görmür, əksinə, iqtidarın ciddi təzyiqlərinə məruz qalırdılar.

1993-cü ilin məlum iyun hadisələri dövründə prosesi zorakılıqla həll etməyə çalışan qüvvələrin təbliğatçısına çevrilən əksər siyasi partiyalardan, yaxud da AXC-Müsavat cütlüyünü ölkədə qan tökməyə təhrik edən təşkilatlardan fərqli olaraq, yalnız Yeni Azərbaycan Partiyası baş verən hadisələrin mahiyyətini açan bəyanat verdi. Partiyamız heç bir siyasi qüvvəni müdafiə etmədən qarşıdurmanı sivil yolla, Konstitusiyanın tələbləri və qanunun aliliyi əsasında aradan qaldırmağı təklif etdi, mənafeyi hərraca çıxarılan Azərbaycan xalqının maraqlarını qoruyan yeganə partiya oldu.

Bu ali məram YAP-ın hakim təşkilat kimi fəaliyyətində də əsas istinadgaha çevrildi. Son 13 il ərzində keçirilən prezident, parlament və bələdiyyə seçkilərinin hamısında mütləq səs çoxluğu ilə qələbə qazanan partiya bu gün iqtidarın əsas siyasi dayağı, təbliğatçısı və ictimai maraqlarının ifadəçisidir. Partiya üzvlərinin sosial tərkibi deməyə əsas verir ki, YAP ümumxalq partiyasıdır və cəmiyyətin bütün təbəqələrini öz sıralarında birləşdirən siyasi-ideoloji güc mərkəzidir. Bu partiyanın qurucusunun Heydər Əliyev kimi bir dühanın olması YAP-ın ölkədə birinci partiya kimi mövqeyini daim qoruyacağını təmin edir. İndi cənab İlham Əliyevin rəhbərliyi altında YAP öz inkişafının ən möhtəşəm mərhələsini yaşayır. Bu gün partiyanın tərkibində 400 mindən artıq üzv var. Sıravi üzvlərin sayının dinamik artması ilə yanaşı, partiyada ciddi keyfiyyət dəyişiklikləri baş verir. Rayon təşkilatlarının fəaliyyəti yeni, modern tərzdə qurulur, əhali ilə ünsiyyət formaları müasirləşdirilir, YAP xalqla iqtidar arasında siyasi ünsiyyət körpüsünə çevrilir. Bundan əlavə, dövlət siyasətini həyata keçirməkdə yerlərdə rayon təşkilatlarımız icra strukturlarına lazımi kömək göstərir və s. Mərkəzi rəhbərliklə yerli strukturlar arasında çevik əlaqə tətbiq edilib və partiya üzvlərini narahat edən, qayğılandıran hər bir məsələ vaxtında cavablandırılır, aydınlaşdırılır. Partiyanın bir nailiyyəti də odur ki, YAP-ın üzvləri arasında gənclərin çəkisi daim artır. Cənab İlham Əliyevə olan inam, onun fəaliyyətinə dəstək olmaq məramı gənclərimizin partiyaya axınını sürətləndirir. Bu isə YAP-ın gələcək perspektivinin də uğurlu olacağına təminat yaradır.

YAP ölkədə vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquqları və azadlıqlarının müdafiəsində, siyasi islahatların və

demokratikləşmə prosesinin dərinləşməsində fəal mövqeyi ilə seçilir. Partiyadaxili demokratiya ölkənin bütün siyasi təşkilatları üçün örnək, model rolunu oynaya bilər. Bu gün hökumət mənsublarının, icra strukturu nümayəndələrinin, qanunverici hakimiyyət təmsilçilərinin əksəriyyəti YAP-ın üzvləridir. Onların hər birinin fəaliyyətində əldə etdiyi müvəffəqiyyətlər, Azərbaycanın son 13 ildə qazandığı nailiyyətlər, eyni zamanda, Prezident İlham Əliyevin cəmiyyətdə alternativsiz lider kimi qəbul olunması nəticə etibarilə həm də YAP-ın uğuru sayılır.

Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir. Çünki bu partiya, eyni zamanda, Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir. Hakimiyyət seçkilərdə xalqın qarşısına məhz bu partiyanın siyasi platformasında və namizədləri olaraq çıxdığından, partiyanın durumu, nüfuzu, fəaliyyət istiqamətləri iqtidarın siyasi komandası üçün xüsusi əhəmiyyət kəsb edir. Partiyanın keyfiyyət göstəricilərini yüksək qiymətləndirirəm. Ancaq bununla yanaşı, dövrün tələblərinə uyğun olaraq müəyyən islahatların, dəyişikliklərin aparılmasını da labüd hesab edirəm.

***- Bu gün hakimiyyət komandası siyasi mənsubiyyətdən əlavə, həm də məmurların peşəkarlığı və sahə üzrə mütəxəssis olmaları tələbi ilə formalaşır, ictimai-siyasi mühitdə o qədər də tanınmayan insanlara etimad göstərilir. Yəni, ölkədə müəyyən mənada texnokrat inzibati aparatın yarandığını demək olar. Belə kadr seçimi istiqaməti öz bəhrəsini verirmi?***

- Bəli, bəhrəsini verir. Ümumiyyətlə, kadr seçimi məsələsində Prezident İlham Əliyev ümummilli liderimizin ənənələrini

uğurla davam etdirir. Heydər Əliyev kadr korpusunu peşəkarlardan, dövlətinə və xalqına sədaqətli məmurlardan təşkil edirdi. Bir məqama nəzər salaq ki, məhz yüksək səviyyəli məmur kontingentinin mövcudluğu nəticəsində Heydər Əliyevin müəllifi olduğu islahatlar uğurla aparılmış və qazanılan nailiyyətlərdə kadrların müstəsna payı olmuşdur. Heydər Əliyev məmurun peşəkar və hüquqi-mənəvi öhdəliklərə riayət edən kadr kimi formalaşması ilə yanaşı, onun mükəmməl bilik, təkmil təcrübə mənimsəməsinə xüsusi diqqət ayırırdı. O, kadrın həm də milli-mənəvi dəyərlərə bağlılığını və bu öhdəliklərə sadiqlik göstərməsini "əsl məmur" formulunun ilkin tələbi sayırdı. Heydər Əliyevin kadr siyasətində islahat amili daim prioritet məsələ olmuşdur. Ümummilli liderimiz müasir idarəçiliyin "menecer" təsnifatını komanda daxilində təkmil şəkildə tətbiq edib, məmurlarının sivil, modern təfəkkürə və rəhbərlik xüsusiyyətlərinə yiyələnmələrinə nail olmuşdu. Kadrların seçilməsi, əvəzlənməsi, yüksəldilməsi, işdən kənarlaşdırılması, yaxud cəzalandırılması kimi məqamlarda daim ədalət prinsipinə əsaslanan Heydər Əliyev son illərdə bu prosesə xüsusən əlahiddə yanaşırdı.

Heydər Əliyevin siyasi xətti ilə yanaşı, həm də onun idarəçilik metodunun davamçısı olduğunu bəyan edən İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşmağı bütün məmurların qarşısına zəruri tələb kimi qoymuşdur: **"Tutduğu vəzifədən asılı olmayaraq, hər bir rəhbərin başlıca vəzifəsi xalqa, millətə xidmət etməkdir. Mən vəzifəli şəxslərə onların gördükləri işlərə, xalqın onlara olan münasibətinə görə qiymət verəcəyəm".** Prezident hər bir məmurdan onun fəaliyyətinin keyfiyyət və məsuliyyət göstə-

ricilərinin yüksək olmasını tələb edir, sadə vətəndaşlarla aralarında olan bürokratik maneələri dəf etməyə çağırır, eyni zamanda, idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini və bunların iş prosesində səmərəli nəticələr verməsini zəruri sayır. Prezident İlham Əliyevin **"Biz Azərbaycan xalqı üçün işləyirik"** mülahizəsi isə siyasi komandanın fəaliyyətində əsas prioritet kimi elan edilmişdir.

Bu gün kadr təyinatında daha çox önəm verilən meyar namizədlərin sahə üzrə peşəkar olması, onların idarəçilik qabiliyyəti, Prezidentin xəttini icra etmək bacarığı və digər mühüm keyfiyyətlərdir. İdarəçilikdə gənc kadrların irəli çəkilməsi prosesi də təkmil təcrübənin mənimsənilməsi, dövlət qulluğunun spesifik xüsusiyyətlərinin öyrədilməsi kimi kompleks tədbirlər çərçivəsində həyata keçirilir. Prezidentin etimadı ilə yüksək vəzifədə işləyən məmurların siyasi mənsubiyyətinə gəlincə isə, onların bir hissəsi partiyada olmasa da, cənab İlham Əliyevin siyasi komandasının üzvü və onun siyasətini gerçəkləşdirən kadrlar kimi belələrini bitərəf saymaq olmaz. Komandanın bütün üzvləri İlham Əliyevin siyasi xətti ətrafında birləşib və Prezidentin həyata keçirdiyi tədbirləri birmənalı şəkildə dəstəkləyirlər.

***- Hakimiyyətdaxili münasibətlər, guya ki, iqtidar komandasında hansısa qrupların, ziddiyyətlərin olması radikal müxalifət mətbuatının diqqətində olan əsas mövzudur. Şübhəsiz ki, bu cəfəng mövzuya şərh vermək də artıqdır.***

***Lakin ictimaiyyətin bilməsi üçün maraqlıdır: Heydər Əliyev komandasının üzvləri özlərini yeni Prezidentin komandasında necə hiss edirlər və hakimiyyətdaxili ab-hava, məmurlar arasında münasibətlər necə tənzimlənir?***

- Bu, xülyadır və heç bir əsası olmayan növbəti uydurmadır. Prezident İlham Əliyevin komandası Heydər Əliyevin müqəddəs amalları ətrafında birləşibdir. Ümummilli liderimizin əsasını qoyduğu milli inkişaf strategiyası bu gün ölkə rəhbəri tərəfindən böyük uğurla, layiqincə davam etdirilir və komandanın hər bir üzvü Prezident İlham Əliyevin tapşırıq və göstərişlərini məsuliyyətlə icra edir. Bu komandanı hansısa qruplar, “köhnələr və yenilər” adı ilə təsnifatlaşdırmaq isə radikal müxalifətin apardığı qərəzli kampaniyanın tərkib hissəsidir. İqtidar daxilində hansısa fikir ayrılığından, ziddiyyətlərdən danışmaq mümkün deyildir. Düzdür, ayrı-ayrı vaxtlarda komanda mənafeyinə qarşı çıxan, ümumi siyasi xəttə xəyanət edən bir neçə məmura rast gəlinib və onlar ifşa edilərək idarəçilikdən kənarlaşdırılıblar. Lakin bu proses heç vaxt kütləvi xarakter almayıbdır.

Cənab İlham Əliyev Prezident səlahiyyətlərinin icrasına rəsmən başladıqdan sonra onun komandada hansı dəyişikliklər edəcəyi ilə bağlı ictimaiyyətdə geniş müzakirələr gedirdi. Lakin dövlət başçısı elə ilk günlərdə bəyan etdi ki, bəli, şübhəsiz, dəyişiklik olacaq, ancaq bu, hansısa siyasi, yaxud da inzibati maraqlar baxımından, özü də kampaniya xarakteri ilə reallaşmayacaqdır. Dəyişikliyin əsas zəminini zaman və proseslərin inkişaf yönümü şərtləndirəcəkdir. Prezident öz komandasında da hansısa bir dəyişikliyin edilməsinə ehtiyac duymadığını bəyan etmişdi. **“Mən Heydər Əliyevin komandasının üzvüyəm və bu komanda ilə birlikdə işləyəcəyəm. Ümumiyyətlə, özünü fəaliyyətdə doğruldan və peşəkar olan komandadan niyə imtina etməliyəm?” -** deyən İlham Əliyev birmənalı surətdə bildirdi ki, hakim komandada məmurlar dövlət idarəçiliyi və quruculuğu siyasətində yekdil baxışa malikdirlər,

həmçinin Heydər Əliyev ideallarına olan sədaqət komandanın mənəvi bütünlüyünü daim qoruyacaqdır. Son üç il ərzində Prezident İlham Əliyev dəfələrlə sübut etdi ki, kadr təyinatı məsələsində o, yalnız namizədin peşəkarlığına və siyasi xəttə bağlılığına görə seçim edir.

Mən uzun illər Heydər Əliyevin komandasında çalışmışam, bu gün isə Prezidentin İcra Aparatına rəhbərlik edirəm. Bu illər ərzində daim müşahidə etmişəm ki, həm Heydər Əliyev, həm də İlham Əliyev kadrlarla işə böyük məsuliyyətlə yanaşır, onların vəzifə öhdəliklərini necə yerinə yetirdiklərini bir neçə instansiya vasitəsilə dəqiqləşdirirlər. Kadrları yetişdirmək, seçmək, onlara nəzarət etmək rəhbərdən xüsusi bacarıq tələb edir. Heydər Əliyevin bu fitri istedadı indi Prezident İlham Əliyevin şəxsində təcəssüm edibdir. Bu gün Prezident İlham Əliyevin vahid və qarşıya qoyulan vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gələn komandası mövcuddur. Bir sözlə, hakimiyyət daxilində sağlam ab-hava hökm sürür, məmurlar arasında münasibətlər normaldır və hamımız Prezident İlham Əliyevin ətrafında sıx birləşmişik.

***- Ramiz müəllim, şəxsən Sizin özünüz də radikal müxalifətin nəzarətində olan mətbuatın qaragüruhçu kampaniyasının əsas hədəflərindənsiniz…***

- Bu gün məlum mətbuat şəbəkəsi Prezident başda olmaqla, iqtidar mənsublarına qarşı total məkrli kampaniyanı davam etdirir. Şərəfdən, ləyaqətdən, peşə etikasından məhrum olan cızma-qaraçılar son 13 ildə qazanılan nailiyyətləri inkar etməklə, ağa qara deməklə əsl simalarını, əslində, çoxdan ifşa ediblər. Sifariş əsasında yazılan hədyanların, böhtanların əsassızlığı elə ilk andan oxucuya məlum olur. Əslində, bu qəzetlərin tirajının azlığı onların böyük oxucu problemi ilə

üzləşdiklərinə dəlalət edir. Lakin "çirkli pulların" yuyulma məkanına çevrilən belə KİV qarayaxma ənənələrindən əl çəkmir, azad sözə yaradılan şəraitdən sui-istifadə edərək mətbuatın imicini korlayır, jurnalist nüfuzuna kölgə salır. Azərbaycanda normal fəaliyyət göstərən, maarifləndirmə və dəqiq informasiya təminatı kimi təməl jurnalist prinsipinə əməl edən qəzetlər bu gün, təəssüf ki, azlıq təşkil edir. Hesab edirəm ki, mətbuatın sıralarının belə ləkələrdən təmizlənməsi, jurnalist peşəsinin şərəfli adının qaytarılması naminə KİV öz daxilində konkret tədbirlər görməli, müvafiq addımlar atmalıdır.

Radikal müxalifətin nəzarətində olan qaragüruhçu mətbuatın uydurduğu yalanlara, böhtanlara əhəmiyyət verməyə, diqqət ayırmağa isə heç bir lüzum yoxdur. Məsələn, mənim gərgin iş qrafikimdə, gündəlik fəaliyyət rejimimdə bu səviyyəsiz və cəfəng fikirləri, əsassız şayiələri dərc edən KİV-ə vaxt ayırmağa ehtiyac görmürəm. Bunu vətəndaşlarımıza da tövsiyə edərdim.

***- Müsahibənin əvvəlində ümummilli lider Heydər Əliyevin siyasətinin layiqincə davam etdirildiyini bildirdiniz. Bu siyasətin sosial, ictimai, mədəni, humanitar istiqamətlərinin icrasında ulu öndərimizin ideoloji xəttinin istinad mənbəyinə çevrilən Heydər Əliyev Fondunun fəaliyyətini necə qiymətləndirərdiniz?***

- Heydər Əliyev Fondunun əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin öyrənilməsinə xidmət edən irimiqyaslı proqramların həyata keçirilməsini himayə etmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri dəstəkləmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, respublikanın iqtisadi potensialını möhkəm-

ləndirmək, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə nail olmaq, Azərbaycanın beynəlxalq nüfuzunu artırmaq və sair mühüm vəzifələrdən ibarətdir. Yarandığı iki ildən artıq müddət ərzində Fondun gördüyü işlər həqiqətən də möhtəşəm olmuş, Heydər Əliyevin ideyalarının tətbiqi sahəsində böyük uğurlarla müşayiət edilmişdir.

Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qaçqın və məcburi köçkünlərin, uşaq evlərinin, internat məktəblərinin, müxtəlif ağır xəstəliklərdən əziyyət çəkən insanların problemlərini daim diqqətdə saxlayır. Fondun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" bilavasitə Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə hazırlanmışdır. Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evləri və internat məktəblərində mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür. Fond tərəfindən səhiyyə sahəsində həyata keçirilən layihələr arasında talassemiya ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanır. Təkcə 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə 500-dən çox soydaşımıza yardım göstərilmiş, Talassemiya Mərkəzinin inşasına başlanılmışdır. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində 310 nəfər şəkərli diabetə düçar olmuş 14 yaşınadək uşaq himayəyə götürülmüşdür. Onlar daim insulinlə təmin edilirlər. Fondun prezidentinin təşəbbüsü ilə Diaqnostika Mərkəzinin də inşası nəzərdə tutulur.

Ölkəmizin inkişafında təhsilin böyük əhəmiyyət kəsb etdiyini nəzərə alan Heydər Əliyev Fondu bu sahədə də bir neçə irimiq-

yaslı layihə hazırlayaraq həyata keçirmişdir. Bunlardan ən mühümü, heç şübhəsiz ki, ölkəmizdə çox böyük əks-səda doğurmuş "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında hazırlanan bu proqram çərçivəsində ötən il, əsasən, ucqar bölgələrdə, dağlıq rayonlarda 132 məktəb tikilərək istifadəyə verilmişdir.

Heydər Əliyev Fondu tərəfindən həcminə və keyfiyyətinə görə ölkədə analoqu olmayan "Azərbaycan" informasiya portalı yaradılmışdır. Fond ingilis dilində "Qarabağ həqiqətləri" toplusunu da buraxıbdır. Bu nəşr fransız, alman, ərəb və rus dillərində hazırlanan və "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" adları altında nəşr olunan bukletlərdən ibarətdir. Heydər Əliyev Fondunun Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun mütəxəssisləri ilə birgə hazırladığı "Pirlər və müharibə" kitabında da Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonlarında düşmən tapdağı altında qalan ziyarətgahlar, dağıdılmış tarixi memarlıq abidələri, pirlər haqqında ətraflı məlumatlar öz əksini tapıbdır. 2005-ci ildən başlayaraq, Fond bir sıra xarici nəşrlərin Azərbaycan dilinə tərcüməsi üzərində də işlər ararır. Azərbaycan muğamının, Azərbaycan aşıq musiqisinin himayədarına çevrilən Fond həmçinin dahi bəstəkarımız Üzeyir Hacıbəyovun 120, akademik Yusif Məmmədəliyevin 100 illik yubileylərini qeyd etmişdir.

Son illərdə əsası qoyulan irimiqyaslı layihələrdən biri də Heydər Əliyev Fondunda Azərbaycan Regional Muzeyinin yaradılmasından ibarətdir. Məqsəd Azərbaycanın müxtəlif bölgələ-

rinin özəlliklərini - tarixi keçmişini, sosial-iqtisadi vəziyyətini, flora və faunasını, mədəni-dini abidələrini, təsərrüfat həyatını, yerli adət-ənənələrini, etnik qrurlarını əks etdirməklə yanaşı, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində bu regionların inkişafı üçün görülmüş işlərin, nəsillərə miras qalmış zəngin irsin təbliğindən ibarətdir. Heydər Əliyev Fondu ölkəmizdə sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində də geniş tədbirlər həyata keçirir. Fondun təşəbbüsü ilə yeni avtomobil yolları çəkilibdir. Ayrı-ayrı yaşayış məntəqələrində elektrik təchizatı yaxşılaşdırılıb, kanalizasiya sistemi yenidən qurulub, su boruları təzələnibdir.

Heydər Əliyev Fondu həm də problemlərinin həllinə nail ola bilməyən Azərbaycan vətəndaşlarının sonuncu pənahına, xeyir-xahlığın və mərhəmətin ali ünvanına çevrilmişdir. Fond bu ictimai quruma üz tutan hər bir insanın müraciətinə böyük diqqətlə yanaşır. Heydər Əliyev Fonduna ən müxtəlif məsələlərlə bağlı məktub göndərən insanlar minlərlədir. Azərbaycan Prezidenti İlham Əliyevin respublikanın regionlarına ardıcıl səfərlərini müşayiət edən Mehriban xanım Əliyeva ayrı-ayrı ucqar rayonlarda məktəblərə, xəstəxanalara, uşaq təhsil-tərbiyə müəssisələrinə baş çəkir, yerli sakinlərlə görüşüb onların problemlərini dinləyir. Həmin görüşlər zamanı diqqətə çatdırılan sosial-mədəni problemlər az sonra Heydər Əliyev Fondunun həyata keçirdiyi hər hansı proqramın tərkib elementinə çevrilir.

Heydər Əliyev Fondu ümummilli liderimizin həyat fəlsəfəsinin, xalqa xidmət missiyasının əbədiyaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəzdir. Əminliklə söyləmək olar ki, Heydər Əliyev Fondunun gələcək fəaliyyəti daha uğurlu və genişmiqyaslı olacaq.

***- Qarşıdan ölkənin taleyi və xalqın müqəddəratı baxımından çox mühüm proses - 2008-ci ilin prezident seçkiləri gəlir. İqtidar namizədinin - cənab İlham Əliyevin cəmiyyətdə alternativsiz lider kimi qəbul edilməsi bu seçkilərin nəticələrini əvvəlcədən məlum edir. Bununla belə, iqtidar komandası prezident seçkilərinə necə hazırlaşır?***

- Bəli, artıq Yeni Azərbaycan Partiyası fəal seçki kampaniyasına başladığını elan etmişdir və bununla da ölkədə digər siyasi qüvvələr də seçki hazırlığına start vermişlər. Düzdür, sonuncuların seçki kampaniyası yenə də yalnız mətbuat səhifələrində aparılır və "xalqın qarşısına hansı üzlə və hansı proqramla çıxacağıq" sualını cavablandırmaqdansa, yenidən iftira və böhtan kampaniyasına təkan veriblər. Onlar seçkilərə öz metodları, iqtidar isə böyük məsuliyyətlə gedir.

2008-ci il seçkilərinə cənab İlham Əliyevin fəaliyyətinin ilk 3 ili kontekstində yanaşsaq, tam əsasla demək olar ki, sonrakı iki ildə əldə edəcəyimiz uğurlar daha əlamətdar və əhəmiyyətli olacaq. Prezident ötən müddət ərzində bütün prinsipləri kimi, əsas fəaliyyət kredosuna – **"əsl siyasət real və konkret iş görməkdən ibarətdir"** mülahizəsinə də sadiq qaldı. Populizmdən, sözçülükdən uzaq iş metodu ilə səlahiyyətlərini həyata keçirdi, xalqa və dövlətə içdiyi sədaqət andını real və konkret uğurları ilə doğrultdu. Prezident dövlət idarəçiliyində peşəkar olduğunu sübut etdi. O, bütün sahələr üzrə bilgilərə, hər sahənin spesifik problemlərindən qurtulmaq üçün ideyaya, təklifə malik olduğunu təsdiqlədi. Sadaladığımız faktlar və qeyd edilməyən digər həqiqətlər, ən mühümü isə, hər bir vətəndaşın dövlətinə, iqtidarına, Prezidentinə olan inamının, etimadının dinamik artması göstərdi ki, cənab İlham Əliyev növbəti müddətdə də xalqın dəstəyini qazana bilmək iqtidarındadır. Əgər üç ilin uğurları belə genişmiq-

yaslıdırsa, deműk, 2008-ci ilin seçki kampaniyasında veriləcək hesabat daha zəngin inkişaf və qələbələrlə əlamətdar olacaqdır.

Əslində, cənab İlham Əliyevin qarşıdakı prezident seçkilərində qələbəsi indi heç müzakirə mövzusu da deyildir. Respublikamızda aparılan sosioloji rəy sorğularına əsasən, yerli ekspertlərlə yanaşı, xarici müşahidəçilər, təhlilçilər ölkə rəhbərinin böyük səs fərqi ilə Prezident seçiləcəyinin indidən təkzibedilməz fakt olduğunu etiraf edirlər. Bu seçkilərlə bağlı sual doğuran məqam isə, məsələn, cənab İlham Əliyevdən sonra ikinci yeri hansı namizədin tutacağı kimi o qədər də vacib olmayan məsələlərdir. Bu bir həqiqətdir ki, ikinci yeri tutacaq şəxsin qazandığı faiz dəfələrlə aşağı olacaqdır.

Azərbaycan vətəndaşları bu gün Prezident İlham Əliyevə böyük etimad bəsləyir, onun siyasi xəttini birmənalı şəkildə dəstəkləyirlər. Azərbaycanın siyasi mühitində İlham Əliyevlə rəqabət apara biləcək hər hansı bir siyasətçi yoxdur və belə görünür ki, yaxın illərdə heç olmayacaq da. Ölkə rəhbərinin nüfuzu artıq Azərbaycanın hüdudlarını da aşmış, ona bölgənin əsas lideri, beynəlxalq birliyin qəbul etdiyi görkəmli siyasi və dövlət xadimi kimi əlavə dividendlər gətirmişdir. Bu gün Prezident İlham Əliyevə olan geniş beynəlxalq rəğbət həm də Azərbaycanın nüfuzunun yüksəlməsinə şərait yaradır. Bu nailiyyətlər isə təkcə İlham Əliyevə aid deyil, həm də ona özü qədər inanan və uğurlu fəaliyyətinə böyük ümidlər bəsləyən Heydər Əliyevin əbədiyaşar ruhunun qələbəsi, ümummilli liderimizin siyasi xəttinin uzunömürlülüyünün təminatçısıdır.

*"Azərbaycan" qəzeti,*
*14 oktyabr 2006-cı il.*

***Mən İlham Əliyevə özüm qədər inanıram***
***və gələcəyinə böyük ümidlər bəsləyirəm***
**Heydər ƏLİYEV**

# İLHAM ƏLİYEVİN UĞURLU PREZİDENTLİK FƏALİYYƏTİ HEYDƏR ƏLİYEV SİYASİ KURSUNUN UZUNÖMÜRLÜLÜYÜNÜ TƏMİN EDİR

Tarixin bütün dövrlərində dövlətin idarə olunmasına, cəmiyyətdə insanlar arasında nizamın təmin edilməsinə, həm də bu proseslərin inkişaf və yüksəliş məramına xidmət etməsinə obyektiv zərurət mövcud olmuşdur. Hər bir ölkənin dirçəliş və tərəqqi yoluna çıxması, tarix salnaməsindəki şanlı səhifələr, zəfər və qələbələr onun qismətinə düşən dahi şəxsiyyətlərin, siyasi liderlərin yaradıcı fəaliyyəti ilə mütənasib surətdə bağlı olmuşdur.

Dövlətin taleyində həlledici rol oynamış lider şəxsiyyətlərin müxtəlif səbəblər üzündən öz missiyalarını başa vurmaları təbii narahatlıq, nigaranlıq hissləri doğurmuş, onların layiqli davamçılarının olmadığı təqdirdə isə hər hansı xalqın, millətin həyatında sonu görünməyən faciələrin başlanğıcı qoyulmuşdur.

2003-cü ildə Azərbaycan xalqı bütövlükdə həm cəmiyyətin və dövlətin taleyində kədər yükü və "ayrılıq" sözünün ifadə etdiyi təsəvvüredilməz ağrı ilə, həm də real həqiqətlə üz-üzə qaldı. Məhz elə buna görə də hər bir Azərbaycan vətəndaşı

hadisələrin gedişində zəka və əməl potensialını səfərbər edərək qərarını verdi. Elə hər birimizi daxilən göynədən bu ağrı və acı həqiqət də bizi ötüb keçənlərə, yaşadığımız anlara bir daha yenidən baxmağa, bütün qüvvələrimizi böyük öndərimizin ümidlərini doğrultmağa sövq edən bir qüvvəyə çevrildi. Ulu öndərin yoxluğunu milli faciə kimi qəbul etdiyi üçün hər bir vətənsevər öz inamını, sabahını milli firavanılığın təminatçısı olacaq Heydər Əliyev xəttinin davamçısına etibar etdi. 2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində, tarixdə demək olar ki, ilk dəfə dövlətçilik ənənəsi və siyasətdə varislik prinsipinin qorunması ilə Azərbaycan tarixində ardıcıl inkişafı təmin edən tellərin qırılmasına yol verilmədi.

Azərbaycan adlı binanın özülü üzərində möhtəşəm quruculuq işlərinin davamı mümkün oldu. Regionda toqquşan geosiyasi maraqların şiddətləndirdiyi küləklər müstəqillik məşəlini söndürə bilmədi.

Azərbaycan dövlətçiliyi tarix boyu məhz belə dönəmlərdə təhlükə ilə üz-üzə qalmış, zamanın irəli sürdüyü strateji çağırışlara vaxtında cavab verə bilmək tələbini reallaşdırmağa mane olan qüvvələr öz istəklərinə nail olmuşlar. Dövlətçiliyimizə qarşı yönələn qüvvələrin üstün gəlməsini müxtəlif dövrlərdə müxtəlif amillər şərtləndirmişdir. Onların içərisində ən başlıcası, əlbəttə ki, qüdrətli siyasi lider, rəhbər amili, daha doğrusu, bu amilin yoxluğu olmuşdur.

2003-cü ilin 15 oktyabr prezident seçkilərində Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real nüfuza və gücə malik, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycanın Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasını

rəhbər tutan İlham Əliyevin Prezident seçilməsi ilə tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Dövlətçiliyimizin inkişafında tarixi və strateji irsin davamlı məcraya yönəlməsi, inkişaf pillələrini əlaqələndirən həlqələrin, təcrübə və ənənənin varislik və yenilik aspektləri ilə zənginləşməsi prosesinə təkan verildi. Azərbaycan dövləti müstəqil inkişafın növbəti həlledici mərhələsinə qədəm qoydu.

**Cənab İlham Əliyevin vurğuladığı kimi, “oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək, Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur”.**

Dövlətçilik ənənəsində, siyasətdə varisliyə dair tarixi reallıqdan çoxsaylı nümunələr, paralellər gətirmək olar. Hər bir xalqın tarixində onun dünya səhnəsindən yox olmaq təhlükəsi də fenomen siyasi liderin əzmi nəticəsində bu təhlükəyə qalib gələrək öz varlığını qoruyub saxlaması məqamları da kifayət qədər olmuşdur. Azərbaycan da bu baxımdan istisna təşkil etmir.

2003-cü il Azərbaycanda inkişaf strategiyasının həyata keçirilməsində yeni dönüş mərhələsi kimi qiymətləndirilir. Burada “yeni” sözünün ifadə etdiyi mənanın mahiyyəti hələ sonadək dərk edilməmişdir. Əlbəttə ki, “yeni” və yaxud “yenilik” yalnız söz deyil, arxasında əməli fəaliyyətin, möhtəşəm dəyişikliklərin durduğu strateji inkişaf mərhələsidir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf xətti çoxşaxəli, konkret tarixi dövrlərə uyğun olan mərhələli konseptual fəaliyyət proqramı kimi üzvi bağlılıq təşkil edir. Azərbaycanda müstəqil və hüquqi dövlətin, demokratik vətəndaş cəmiyyətinin təməlinin qoyulması ölkənin bütün

sahələrində qlobal sistemli transformasiyaların tələblərinə uyğun islahatların aparılması, dünya miqyasında beynəlxalq münasibətlərin bərabərhüquqlu subeykti kimi tanınması regionun lider dövlətləri səviyyəsinə qalxması milli dövlətçiliyin inkişafında **birinci strateji fəaliyyət mərhələsi** kimi səciyyələndirilə bilər.

2003-cü ildə xalqın etimadı və dəstəyi ilə Prezident İlham Əliyevin dövlət rəhbərliyinə gəlməsindən etibarən ulu öndərin müəyyənləşdirdiyi milli strategiyanın növbəti konseptual mərhələsinin başlandığı gerçəklikdir.

Yaddan çıxarmayaq ki, zaman mərhələ anlayışının özünə də bu gün çox ciddi dəyişikliklər edibdir. Keçmişdə uzun tarixi dövr ərzində baş verən hadisələr bu gün 3-5 illik bir mərhələni əhatə edir. Cəmiyyət ən qısa zaman ərzində nə qədər möhtəşəm vəzifələr reallaşdıra bilirsə, yüksəliş də o qədər sürətlə baş verir.

Dar zaman çərçivəsində əhatəmizdə yeni maraqlar baxımından formalaşan yeni dünya nizamı, bəlkə də, nizamsızlığı milli dövlətlərin öz suverenliyini qoruyub saxlamasını daha da mürəkkəbləşdirir. Bu gün beynəlxalq aləmdə milli dövlətlərin münasibətləri yeni mühitdə formalaşır. Böyük dövlət, kiçik dövlət, sərhəd anlayışlarının də məzmunu dəyişir, qüdrəti məkanla deyil, zamanla ölçülən dövlətlər sırasına daxilolma tarixi zərurətə çevrilir. Dövlətlərin qüdrəti onun zəka mühitinin formalaşması, yüksək texnologiyalardan istifadəsi, xalqın mənafeyinə uyğun siyasət yeridilməsi ilə ölçülür. Bu baxımdan, doğrudan da, yeni mərhələ olduqca çətindir və mürəkkəb inkişaf istiqamətlərinin toplusuna çevrilir.

"Yenilik" bəhs olunan mərhələdə ölkənin sonrakı varlığını, perspektivini təmin etmək üçün mütləq zamanın və konkret

yaşanılan dövrün tələblərinə adekvat tərzdə yeniləşə bilmək həqiqətidir. Bu, qlobal inkişafın imperativ amilidir. Tarix boyu dəfələrlə ölkələrin təkamül təcrübəsində sınanılmış həqiqətdir. Həyatda lokal və qlobal əhatədə gedən proseslər hər dəqiqə siyasi qərarlar verilməsini, dəyişikliklərin dinamik, çevik qərarlar üzərində qurulmasını diktə edir. Bu isə özlüyündə hansı vasitələrin, taktiki gedişlərin və idarəçilik metodlarının tətbiq olunmasını problematik məsələyə çevirir.

Yeni strateji hədəflərin müəyyənləşməsi və adekvat qərarlar qəbul edilməsi hər kəsə müyəssər olmayan, yalnız yeni dövrün tarixi missiyasını qəlbən duyan liderə nəsib olur. Yeni tipli lider perspektivi tam bəlli olmayan dünyada çoxsaylı mürəkkəb hadisələrin inkişaf dinamikasının sürətlənməsi şəraitində sosial, siyasi-iqtisadi, hüquqi və mədəni sahələrdə düzgün qərar qəbuletmə məsuliyyəti ilə seçilir.

Hakimiyyətə təsadüfən gələn, əvvəlkindən fərqli siyasi abhavanı duymayan, strateji təfəkkürünün son dərəcə darlığı, məhdudluğu fonunda populist taktiki hərəkətlər “bolluğu” ilə fəallıq görüntüsünə ümid edənlər tarixdə heç vaxt zamanın nəbzini tuta bilən “Yeni lider” səviyyəsinə qalxa bilməmişlər.

Müasir elitologiya elmi “ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə” malik olan seçilmiş insanların - elitanın formalaşması və idarəetmədə uğurlara nail olmasını təmin edən şərtlərə yeni düzəlişlər etmişdir. Rassional, ənənəvi, xarizmatik siyasi lider tiplər sırasına daha biri - intellektual-texnokratik potensiala malik, yeniliklərə həssaslıq göstərən, inteqral keyfiyyətləri özündə cəmləyən siyasi lider tipi də əlavə olunmuş, daha doğrusu, bu qəbil liderlər ön sıraya çıxmışdır. Həmin liderlərin keyfiyyətlərinə intellektual imkanlar və siyasi istedad, siyasi

ideal və prinsiplərə sadiqlik, cəmiyyətlə birgə olmaq, yüksək siyasi mədəniyyət, novatorluq fəhmi və sair aid edilir.

İlham Əliyevin yeni siyasi lider kimi ictimai rəydə yekdilliklə qəbul edilən imicinin obyektiv təməllərdən qaynaqlandığı, xalqla onun arasındakı qarşılıqlı inamın sarsılmaz tellərlə bağlı olduğu diqqəti cəlb edir. Prezidenti dəstəkləyən, ona dərin inam bəsləyənlər arasında coğrafi, milli, yaxud da yaş hüdudları mövcud deyildir. Öz ətrafında ölkənin bütün bölgələrindən, müxtəlif yaş qruplarından olan insanları birləşdirə bilən siyasi lider olmaq kimi nadir keyfiyyət İlham Əliyevi səciyyələndirən xüsusiyyətdir.

Azərbaycan dövlətçiliyinin öz inkişafında yeni qələbələrin rəhni olan mərhələyə qədəm qoyması həm də Prezidentin hər cür stereotiplərdən uzaq, sadə və xeyirxah insan olmasında, səmimi həyat xəttinə sadiq qalmasında özünü göstərir.

Azərbaycanda demokratik, vətəndaş cəmiyyətinin qurulması istiqamətində səmərəli dövlət siyasətinin uğurla davam etdirilməsində Prezident İlham Əliyevin nailiyyətlərini təmin edən obyektiv amillərlə yanaşı, onun şəxsi-subyektiv liderlik keyfiyyətləri nəinki inkaredilməzdir, hətta mən deyərdim ki, əsas amildir. O, milli ənənələrə, dövlətçilik prinsiplərinə sadiq olan, eyni zamanda, XXI yüzilliyin müasir siyasi məkanına uğurla köklənən, ən müxtəlif siyasi keyfiyyət və dəyərləri özündə sintez etməyi bacaran dövlət xadimidir.

2003-cü ildən etibarən cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siması, atributu kimi qəbul edilir. Ulu öndərin zəngin və tükənməz siyasi irsinə, xalqımızın iradəsinə söykənən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən 3 ildə peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu bir lider kimi ölkədə və xaricdə özünü təsdiq etdi.

Dövlətin inkişafında o qədər də böyük hesab edilməyən zaman ərzində, 2003-cü ildən bəri davam edən dövrdə Prezident İlham Əliyevin başçılığı ilə əldə edilən uğurlar nəticəsində Azərbaycan dünyanın siyasi məkanında sanballı yer tutubdur.

Azərbaycan dövləti artıq ikinci onillikdir ki, müasir cəmiyyətə, demokratik dəyər və prinsiplərə keçid xəttini ardıcıl yerinə yetirir. Bu baxımdan Azərbaycan dövlətinin əsas məqsədi demokratik cəmiyyətin qurulmasını təmin edən dinamik transformasiyaları mümkün qədər tez, qısa zaman ərzində reallaşdırmaqdır. Azərbaycan üçün demokratik, vətəndaş cəmiyyəti seçimi - yalnız siyasi seçim deyil, həm də ümumbəşəri, fundamental dəyərlərin seçimi deməkdir və dövlətimizin milli maraqlarına xidmət edir.

Ölkə Prezidentinin dövlətçiliyin möhkəmləndirilməsi və qanunçuluğun bərqərar edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi xəttini yeni dövrün tələblərinə uyğun davam etdirməsini göstərən amillər çoxdur. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması kimi tarixi hadisənin təməli artıq qoyulmuşdur. Vətəndaş cəmiyyəti, sadəcə, müəyyən hüquqi mexanizmin, qeyri-hökumət və s. qurumların yaradılması deyil, hər şeydən əvvəl, vətəndaş-dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur, dövlət-vətəndaş ünsiyyətinin baş verdiyi məkandır. Prezident İlham Əliyev hələ andiçmə mərasimində, 2003-cü il oktyabrın 31-də demişdir: **“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, hər bir vətəndaş inkişafı, irəliləyişi görsün və onu hiss etsin”.**

İqtisadiyyat bütün dövrlərdə hər bir ölkənin - yüksəlişini təmin edən dayaqlardan biri olmuşdur. Müasir qloballaşma

dövründə iqtisadi maraqlar dünyanın simasını kökündən dəyişən ciddi amilə çevrilmişdir. Azərbaycanın gələcəyi iqtisadi amillərlə birbaşa bağlıdır.

2003-2006-cı illər ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə səciyyələnir və Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan bu uğurları isə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, islahatların ardıcıl həyata keçirilməsi, iqtisadi inkişafda yeni hədəflərin müəyyən edilməsi və cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması, sosial siyasətə vaxtında təshihlər edilməsi, dövlətin maliyyə imkanlarının artması, regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi təmin etmişdir. Artıq prezident seçkilərindən keçən üç il ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri həm də özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Yüksək və davamlı iqtisadi artım sürətinin təmin edilməsi iqtisadi inkişafda yeni mərhələnin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirilməlidir. 2003-2006-cı illərdə ÜDM-in həcmi 2,5 dəfə artmışdır. Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən hazırlanan hesabatlarda Azərbaycanda iqtisadi artım sürətinin dünyada rekord səviyyəyə çatdığı qeyd edilir. Belə ki, 2005-ci ildə ÜDM-in həcmi 26,4 faiz artdığı halda, 2006-cı ilin sonuna bu göstəricinin 32 faizə çatacağı gözlənilir.

Azərbaycan iqtisadiyyatının digər xarakterik xüsusiyyətlərindən biri investisiya fəallığının yüksək olması ilə bağlıdır. 2005-ci ildə bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşları 15,7 faiz artaraq 7,1 milyard ABŞ dolları təşkil etmişdir. 2006-cı

ildə isə onun 8,6 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Ümumilikdə, son 10 ildə Azərbaycan iqtisadiyyatına 25 milyard ABŞ dollarından çox investisiya cəlb edilmişdir.

Azərbaycanda neft strategiyası da uğurla həyata keçirilməkdədir. Heydər Əliyevin adını daşıyan, onun təşəbbüsü ilə təməli qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri artıq istifadəyə verilmişdir. Bu tarixi hadisə İlham Əliyevin Prezidentliyi dövründə diplomatiyamızın və iqtisadi siyasətimizin mühüm uğurlarından biri kimi qiymətləndirilməlidir. Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması Azərbaycanı beynəlxalq əhəmiyyətə malik strateji iqtisadi layihələrin həyata keçirildiyi regional mərkəzə çevirməklə yanaşı, həm də onun regionda geostrateji mövqeyini daha da gücləndirməkdədir. Bir barrel neftin qiyməti 35 ABŞ dolları olduğu təqdirdə, qarşıdakı 20 il ərzində Azərbaycanın əldə edəcəyi neft gəlirlərinin 140 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir.

İlbəil artmaqda olan dövlət büdcəsi ölkə iqtisadiyyatında müşahidə olunan mütərəqqi dəyişiklikləri çox aydın şəkildə özündə əks etdirir. 2006-cı ildə 3,9 milyard manat proqnozlaşdırılan büdcə gəlirləri 40 faiz artaraq, 2007-ci ildə 5,4 milyard manata çatacaqdır. Müqayisə üçün qeyd edək ki, 2006-cı ildə büdcə gəlirləri təxminən 2 dəfə artmışdır. Ümumiyyətlə, 2003-2006-cı illərdə büdcə mədaxilinin orta illik artım sürəti 46 faiz təşkil edir. Büdcə gəlirlərinin davamlı artımı bütün istiqamətlər üzrə, o cümlədən hərbi sahədə xərclərimizi artırmaq imkanı verir. Bununla belə, dövlət büdcəsi sosial və investisiyayönümlü olması ilə xarakterizə olunur.

Azərbaycanın strateji valyuta ehtiyatları 2006-cı il oktyabrın 1-nə olan məlumata görə, 3090 milyon ABŞ dolları təşkil edir.

Bu ehtiyatların 1521 milyon ABŞ dolları Milli Bankın, 1569 milyon ABŞ dolları isə Dövlət Neft Fondunun payına düşür. Valyuta ehtiyatları 9 aylıq idxalın həcminə bərabərdir. Halbuki maliyyə təhlükəsizliyi üçün 3 aylıq idxal səviyyəsində valyuta ehtiyatı tamamilə kifayət edir.

Bir tərəfdən büdcə vəsaitlərinin, digər tərəfdən də valyuta ehtiyatlarımızın böyük həcmdə artması Azərbaycanın kredit qabiliyyətli ölkə kimi mövqeyini daha da möhkəmləndirir. Hazırda ölkəmizin xarici borcu 1806 milyon ABŞ dollarına bərabərdir ki, bu da ÜDM-in 9,6 faizini təşkil edir. Qeyd edək ki, iqtisadi təhlükəyə səbəb olan kritik hədd 40 faizdir.

Ölkə başçısı neft gəlirlərinin əhəmiyyətli dərəcədə artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən ciddi inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" fərman imzalamışdır. Bu fərman əslində Azərbaycan iqtisadiyyatının başlanmaqda olan "neft bumu" mərhələsinə hazırlanması məqsədini güdür. Artıq fərman çərçivəsində həyata keçirilən antiinflyasiya tədbirləri nəticəsində ölkədə inflyasiya səviyyəsinin ikirəqəmli həddə çatmasına imkan verilməmişdir.

İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun iqtisadi inkişafda rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu sektorun payı ÜDM-də 77 faizə, sənaye məhsulu istehsalında 69 faizə, məşğulluqda 70 faizə çatır. Özəl sektorun dövlət tərəfindən dəstəklənməsi məqsədilə sahibkarlıq, o cümlədən kənd təsərrüfatı üçün büdcədən ayrılan güzəştli kreditlər ilbəil artmaqdadır.

Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun da fəaliyyətində canlanma hiss

olunur. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilibdir. Ölkə başçısının təşəbbüsü ilə Dövlət İnvestisiya Şirkətinin yaradılması da qeyri-neft sektorunun inkişaf etdirilməsinə xidmət edir.

Prezident səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdə Prezident İlham Əliyev əvvəlcə ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı imzaladı, az sonra isə davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramını (2004-2008-ci illər) təsdiq etdi. Sosial, iqtisadi və institusional bloklar üzrə genişmiqyaslı konkret tədbirləri nəzərdə tutan regional inkişaf proqramı hazırda uğurla icra edilir.

Azərbaycanda iqtisadi inkişaf bazar iqtisadiyyatı prinsiplərinə əsaslansa da, o həm də sosial ədalət prinsipi ilə tamamlanır. Yeni pensiya sisteminə keçid, ünvanlı sosial yardımların tətbiqi, ipoteka kreditlərinin verilməsi, sosial təyinatlı büdcə xərclərinin artırılması dövlətin sosial siyasətində yeni keyfiyyət dəyişikliklərini əks etdirir. Ümumiyyətlə, iqtisadi sahədə əldə edilən uğurlar, artmaqda olan maliyyə imkanları sosial inkişaf meyillərinin dərinləşməsinə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaratmaqdadır. 2005-ci ildə əhalinin pul gəlirləri 27 faiz, orta aylıq əmək haqqı 22 faiz artmışdır, 9,6 faizlik inflyasiya şəraitində real gəlirlərin artım tempi 17,4 faiz təşkil etmişdir. İqtisadi siyasətlə sosial siyasətin daha sıx əlaqələndirilməsi nəticəsində ölkədə yoxsulluğun

səviyyəsi 2004-cü ildəki 40 faizdən 2005-ci ildə 29 faizə enmişdir. Bir çox ölkələr 2015-ci ilədək yoxsulluq səviyyəsini 2 dəfə azaltmağı hədəf kimi seçdiyi halda, Azərbaycan qarşıdakı 5 il ərzində dünyanın ən aşağı yoxsulluq səviyyəsinə malik ölkələrindən biri olacaqdır.

Məşğulluğun təmin olunması istiqamətində görülən işlər də uğurla davam etdirilir. 2006-cı ilin 9 ayının nəticələrinə görə, ölkədə 500 min yeni iş yeri açılmışdır. Bu isə ölkə başçısının 5 il ərzində 600 min iş yerinin açılması ilə bağlı hökumət qarşısında qoyduğu vəzifənin tamamilə reallaşacağından xəbər verir.

Azərbaycanda sosial-iqtisadi sahədə görülən genişmiqyaslı işlər həm də mövcud infrastrukturun bərpası və yeni obyektlərin tikintisi ilə tamamlanmaqdadır. Hazırda yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində intensiv işlər görülməkdədir. Məktəb və xəstəxanaların, idman komplekslərinin tikintisi ardıcıl şəkildə həyata keçirilir və bütün bölgələri əhatə edir.

Bu gün İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün əlverişli imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü dinamik inkişaf tempi onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr siyahısına daxil edəcəkdir.

Azərbaycanın əhəmiyyətli geostrateji mövqeyi, zəngin təbii sərvətləri qlobal iqtisadiyyatın da diqqət mərkəzinə gəlmişdir. Dövlətimiz bu diqqət və əməkdaşlıq səylərini ciddi götür-qoy edir, beynəlxalq enerji layihələrinin reallaşmasında əlverişli mövqe tutmağa səy göstərir. Ulu öndərin imzaladığı “Əsrin

müqaviləsi" bu il yeni mərhələyə qədəm qoydu. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istifadəyə verilməsi ilə əfsanə hesab olunan arzular gerçəkləşdi. Boru kəmərinin açılışı ərəfəsində Prezident İlham Əliyevin "Avrasiyada ilin siyasət adamı" elan edilməsi dərin mənaya malikdir. "Əsrin müqaviləsi"nin memarı Heydər Əliyev, onun qlobal nəqliyyat arteriyası kimi reallığa çevrilməsinin, Azərbaycana regionda strateji tərəfdaş statusunun qazanmasının təminatçısı İlham Əliyev olmuşdur" – bu, dünya kütləvi informasiya vasitələrinin gəldiyi ümumi qənaət və etiraf idi. Həmçinin, 2005-ci ildə Azərbaycanın regionda və dünyada ən dinamik inkişaf edən ölkə olması da vurğulanmışdır.

Sosial-iqtisadi inkişaf, iqtisadi islahatların həyata keçirilməsi, bu sahədə davamlı irəliləyiş meyillərinin yaranmasını mümkün edən fəaliyyətin məzmunu o qədər çoxşaxəli və zəngindir ki, buradakı tədbirlərin sadəcə sadalanması xeyli vaxt aparardı. Belə bir faktı vurğulamaq kifayətdir ki, prezident seçildikdən sonra İlham Əliyevin üç il ərzində bilavasitə iqtisadiyyatla bağlı imzaladığı fərmanlar iqtisadi inkişafın strateji istiqamətlərini və əsas hədəflərini müəyyən edərək köklü iqtisadi dəyişikliklərə təkan verdi.

Azərbaycanın güclü dövlət kimi dünya təsərrüfat sisteminə inteqrasiyası yolunda irimiqyaslı proqram və layihələrin həyata keçirilməsi, dinamik xarici iqtisadi, maliyyə, sosial, demoqrafik, ekoloji və s. siyasətin yürüdülməsi, neft və qeyri-neft sektoruna investisiyaların cəlb olunması irimiqyaslı vəzifələrin sırasına daxildir. **"Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır"** - Prezident İlham Əliyevin bu sözləri aparılan siyasətin ana xəttini çox gözəl ifadə

edir. Bazar iqtisadiyyatının inkişafında "sosial ədalət prinsipinə əməl edilməsi" müddəası isə bütün proseslərin insanların rifahına yönəldiyini aşkar göstərir.

Azərbaycanda Milli Ordu quruculuğunun möhkəmləndirilməsi, dövlətin hərbi potensialının gücləndirilməsi də bəhs olunan dövr üçün prioritet hədəflərdən biri olmuşdur. Ali Baş Komandan Azərbaycanın Silahlı Qüvvələrinə ayrılan maliyyə vəsaitinin artırılması, Müdafiə Sənayesi Nazirliyinin yaradılması, peşəkar hərbçi kadrların yetişdirilməsi və sair barədə müstəsna qərarlar qəbul etmişdir. Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün ordunun daha da gücləndirilməsi, ölkənin müdafıə qüdrətinin təkmilləşdirilməsi, silahlı qüvvələrdə ardıcıl islahatların aparılması vacibdir.

Milli Ordunun qüvvətlənməsi naminə həyata keçirilən siyasət, bütün sahələrdə olduğu kimi, Prezident tərəfindən xüsusi diqqət və qayğı ilə davam etdirilir. Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapması, işğal olunmuş ərazilərdə terrorist təşkilatların ləğv edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması məsələləri Prezident İlham Əliyevin istisna olmadan bütün çıxış və nitqlərində birinci sırada yer alır. Son üç il ərzində istər xalqımız, istərsə də beynəlxalq ictimaiyyət Ermənistanın işğalçı simasının daha qətiyyətlə ifşa olunmasının, Azərbaycanın ərazi bütövlüyünə qəsd edənlərin hər hansı başqa fikir və variantlara bəslədiyi ümidin alt-üst edildiyinin, dövlətimizin beynəlxalq tribunalarda işğalçının cəzalandırılması istiqamətində daha sərt və kəskin mövqe tutduğunun şahidi olmuşdur. Prezidentin: **"Hamı başa**

**düşməlidir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəyik"** və sair kimi birmənalı bəyanatları, müasir dövrdə etnik separatizmin və terrorizmin qoşa addımladığını, bütün dünya üçün təhlükə mənbəyi olduğunu açıq göstərir və bu cür hadisələrə münasibətin də son dərəcə aydın nümayiş etdirilməsi tələbini qətiyyətlə irəli sürür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətin dünyaya çatdırılması, yalan və iftira üzərində qurulmuş informasiya blokadasının aradan qaldırılması prioritet vəzifələr sırasına daxil edilmişdir. İşğalçılıq siyasəti nəticəsində regionda baş verən bütün mühüm layihələrdən kənarda qalmış Ermənistan işğal altında olan torpaqların yandırılması, buradakı tarixi abidələrin yerlə-yeksan edilməsi ilə öz acınacaqlı vəziyyətini daha da dərinləşdirir. Azərbaycan bu proseslərdə beynəlxalq ictimai rəyin müsbət şəkildə dəyişməsi və onun dəstəyinin qazanılması üçün üstünlük əldə edir. İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin Bakıda keçirilən 33-cü sessiyasında (2006-cı il, 19-21 iyun) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diqqət mərkəzində olmuş, sessiyanın yekun bəyannaməsində ayrıca maddədə əksini tapmışdır. İşğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının tez bir zamanda çıxarılması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi İKT üzvü olan dövlətlər tərəfindən yekdilliklə dəstəklənmişdir.

Ermənistanın beynəlxalq hüquq normalarına tam etinasızlıq göstərən, təcavüzkar dövlət kimi terrorizmə və separatizmə rəvac verən, insan hüquqlarını kobud surətdə pozan dövlət kimi iç üzünün və həqiqi simasının tanıdılması prosesi intensiv davam edir.

Heç şübhə yoxdur ki, müasir qloballaşma dövründə Azərbaycanın daxili və xarici siyasəti dünya inkişafının bu başlıca meyilini nəzərə alaraq həyata keçirilməlidir. “Yeniliklərə həssaslıq, yeni dövrün lideri” anlayışlarının mənası məhz qloballıq kontekstində daha aşkar görünür. Müxtəlif dövlətlərin geosiyasi maraqlarının qovuşduğu məkanda yerləşən Azərbaycanda dövlət başçısı milli maraqlardan çıxış edərək, öz siyasətini müasir tələblər səviyyəsində, çevik prinsiplər üzərində qurur.

Milli inkişaf xətti qloballaşma dövründə əvvəlki - ənənəvi mənadan daha geniş müstəviyə keçid alır, başqa sözlə, qlobal kontekstli milli doktrina məzmunu kəsb edir; qlobal və milli aspektlərin əlaqələndirilməsi, tarazlaşdırılması, proseslərə fəal qoşulmaqla strateji təşəbbüsün əldə edilməsi, dünya birliyinə Azərbaycan üçün maksimum əlverişli şərtlərlə inteqrasiyanın təmin olunması üzvi bağlılıq təşkil edir. Prezident İlham Əliyev öz siyasətində dünyada qlobal oyun qaydalarının dəyişməsi prosesində, dövlətçiliyin maraqları ilə dünyanın magistral inkişaf meyilləri arasında zəruri tarazlığın əldə edilməsinə nail ola bilmişdir. Geosiyasi mövqedən irəli gələn əlverişli amil və üstünlükləri reallaşdırmaqla, qloballaşmanın verdiyi nadir tarixi fürsəti əldən verməmək, dinamik realizm və siyasi praqmatizmin optimal sintezini təmin etmək, qlobal layihələrdə Azərbaycanın statusunu möhkəmləndirmək yeni siyasi manevrlərin tam olmayan sırasıdır. Qloballaşan dünyada Azərbaycan öz siyasi dəst-xətti olan suveren milli dövlət və müstəqil subyekt qismində çıxış edir. Qloballaşma və dünya birliyinə inteqrasiya, milli inkişafın fövqündə duran, ayrıca məqsəd kimi qəbul edilmir.

Prezidentin fəaliyyətində Azərbaycan dövlətinin möhkəmlənməsini təmin edən obyektİv və subyektiv imkanlardan istifadə

edilməsi, məhz bu mənada başa düşülən qloballaşma özü də strateji bir xətt və məqsəddir. Qloballaşma prosesinə ya qoşulmaq, yaxud da ondan kənarda qalmaq imkanları mövcuddur. Üçüncü yol mövcud deyildir. Müasir dövrdə özünütəcrid siyasətinin perspektivsizliyi birmənalıdır. Qloballaşmanın tələbləri, ilk növbədə, onlara düzgün cavablar verilməsini və əsaslandırılmış qərarlar qəbul edilməsini zəruri edir.

Son üç ildə qəbul olunmuş qərarların təhlili, onların gerçək nəticələri Azərbaycan Respublikası Prezidentinin mövcud reallığa dair düşünülmüş mövqeyinin və ona öz münasibətinin olduğunu bir daha sübut edir. Azərbaycanı dünyaya bağlayan iqtisadi, siyasi, hüquqi və sair tellər daha da möhkəmlənir. Dövlətimizin başçısının dediyi kimi, **“Azərbaycanın beynəlxalq nüfuzu, bizə qarşı hörmət artır, bu reallıqdır. Bu gün Azərbaycan regionda ən yüksək mövqelərə malik olan bir ölkədir”.**

Azərbaycan xalqı böyük, qədim bir mənəvi irsin, sərvətin sahibidir. Azərbaycanın müstəqillik tarixi onun öz milli-mənəvi dəyərlərinə qayıdışı, onların ümumbəşəri dəyərlərlə ahəngdar sintezi və inkişaf etdirilməsi tarixi olmuşdur. Əsrlərdən və nəsillərdən miras qalmış milli dəyərlərimizin əhəmiyyəti qloballaşan dünyada müqayisəyəgəlməz dərəcədə artmışdır. Başqa sözlə, mənəvi dəyərlər hər bir ölkənin varlığı və simasını bəlli edən əvəzsiz atribut qismində çıxış edir. **“İnsan mənəviyyat üçün yaşamalıdır”** - deyən ulu öndərimizin mənəvi dəyərlərlə bağlı verdiyi 2001-ci il 13 avqust tarixli bəyanatı bu istiqamətdə görüləcək işlərin təməl proqramı kimi həmişə diqqət mərkəzindədir. Mənəvi dəyərlərə hörmətin, mənəviyyatın formalaşmasında əsas həlqələri təşkil edən təhsil, elm, mədəniyyət və sair kimi sahələrdə qloballaşmanın mənfi sayılan

meyillərinə mənəvi müqavimətin təşkil edilməsi dövlətin siyasətində başlıca istiqamətlərdən biridir. Azərbaycan xalqının mənəvi dəyərlərinə qarşı yönəlmiş bütün cəhdlərin qarşısının qətiyyətlə alınması istiqamətində Prezident İlham Əliyevin mövqeyi bütün xalq tərəfindən rəğbətlə qarşılanır.

Qloballaşmanın bütün dünyada qarşısıalınmaz bir prosesə çevrildiyi müasir dövrdə kütləvi, yad mənəvi-mədəni stereotip və şablonların düşünülmüş şəkildə təbliği Azərbaycan xalqının əsrlərlə formalaşan milli varlığını, mənəvi irsini, milli düşüncə və dəyərlər sistemini, mədəni potensialını mənfi təzahürlərdən qorumaq kimi müqəddəs bir missiyanı gündəliyə gətirmişdir. Mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi siyasətin ana xəttini, özəyini təşkil edir.

Son üç ildə Azərbaycanda görülmüş işlərə salınan ötəri nəzər belə göstərir ki, İlham Əliyev ağır Prezidentlik yükünü çiyinlərinə götürən və onu uğurla daşıyan yetkin siyasətçi və dövlət xadimidir.

Onun hakimiyyət və dövlətə, ölkənin inkişafına, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi şəraitdə hüquqi dövlət və demokratiya quruculuğuna, ölkədə vətəndaş cəmiyyətinin formalaşdırılmasına öz baxışı var. Başqa sözlə, onun özünəməxsus, opponentlərinin təbliğ etdiyi fikirlərdən fərqli dünyagörüşü mövcuddur. İlham Əliyev özünü vahid və bölünməz orqanizm olan cəmiyyətlə vəhdətdə görür, üzərində dövləti idarə etmək, mürəkkəb dünyada xalqının taleyini müəyyənləşdirmək yükünün məsuliyyətini dərk edir. O, ölkəni sürətli inkişaf yolu ilə irəli aparan kifayət qədər yekdil və mütəşəkkil komanda yaratmışdır.

Təsadüfi deyil ki, İlham Əliyevin Prezident kimi fəaliyyəti və əldə etdiyi uğurlar beynəlxalq aləmdə də böyük maraq doğurur və müxtəlif dairələr tərəfindən yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq təşkilatların, sorğu mərkəzlərinin, analitiklərin və siyasətçilərin Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi xətlə bağlı araşdırmaları və mülahizələri xarici ölkələrin mətbuatı tərəfindən müntəzəm olaraq işıqlandırılır.

2006-cı ildə Böyük Britaniyanın "Financial Times" qəzetinin təşəbbüsü ilə bir sıra Avropa ölkələri və ABŞ ekspertləri arasında keçirilən sorğunun nəticələrinə əsasən, dünyanın sabit ölkələri sırasında Azərbaycan da öz layiqli yerini tutmuşdur. Ölkənin sabitliyini müəyyən edən meyarlar kimi iqtisadiyyatın artan sürətlə inkişafı, siyasi böhranın olmaması, siyasi hakimiyyətin davamlığı, terrorizm təhlükəsinin yoxluğu və siyasi elitanın ölkədaxili prosesləri idarə etmək qabiliyyətinə malik olması götürülübdür. Qərb ekspertlərinin qeyd olunan göstəricilər üzrə Azərbaycandakı vəziyyətə verdikləri qiymət ölkə rəhbərliyinin müstəqil dövlət quruculuğu sahəsində həyata keçirdiyi siyasətin səmərəli nəticəsinin təzahürü kimi qəbul olunmalıdır.

Rusiyanın "Politika" internet nəşri isə Azərbaycanda 2005-ci il noyabrın 6-da keçirilən parlament seçkilərində hakim partiyanın inamlı qələbəsini Prezident İlham Əliyevin ölkədəki nüfuzu ilə əlaqələndirmişdir. Müəlliflər qeyd edirlər ki, "İlham Əliyevin postsovet məkanı üçün xarakterik olmayan iqtisadi islahatları Qərb dairələrinin marağını özünə cəlb etmişdir".

Qərbin aparıcı qəzetlərindən olan "Daily Telegraph" isə yazır ki, "...gənc və enerjili Prezident İlham Əliyev bu müsəlman Şərq ölkəsini Qərbə inteqrasiya və demokratiya yolu ilə aparır. Onun

ilk nailiyyətləri artıq göz önündədir. Söhbət ilk növbədə, diplomatik uğurlardan, iqtisadi yüksəlişdən və kadr sahəsindəki uğurlu addımlardan gedir".

ABŞ-ın "Washington news" agentliyi də İlham Əliyevin prezidentlik fəaliyyətini təhlil edərək göstərir ki, "...ölkənin islahatçı Prezidenti İlham Əliyev digər Şərq ölkələrinə nümunə olmaq niyyətini ortaya qoyubdur. Azərbaycan demokratikləşmə prosesində başqa neft ölkələri ilə müqayisədə heç də çətin yerimir".

Göründüyü kimi, Prezident İlham Əliyevin siyasi xəttinin müxtəlif aspektləri, dövlət idarəetmə metodları beynəlxalq ekspertlər tərəfindən müsbət qiymətləndirilir və dünyanın kütləvi informasiya vasitələrinin daimi maraq dairəsində qalır.

Vətəndaşı olduğumuz və durmadan inkişaf edən Azərbaycanın müasir tarixində İlham Əliyev mərhələsi real nailiyyət faktlarını özündə tam cəmləşdirən şanlı salnamədir. Azərbaycan xalqı bu mərhələnin müstəqil dövlətçiliyin sarsılmaz və əbədi olması baxımından hələ uzun müddət davam edəcəyinə əmindir.

*"Azərbaycan " qəzeti,*
*19 dekabr 2006-cı il.*

XXI
YNE